AZƏRBAYCAN
MİLLİ
ELMLƏR AKADEMİYASI

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

# AZƏRBAYCAN
## Etnoqrafiyası

ÜÇ CİLLDƏ
II CİLDƏ

ŞƏRQ-QƏRB
BAKI 2007

Baş redaktor: **Teymur Bünyadov**
akademik

Redaksiya heyəti: **Maisə Rəhimova**
**Qəzənfər Rəcəbli**
**Tofiq Babayev**
**Qabil Əliyev**
**Fəzail Vəliyev**
**Solmaz Məhərrəmova**
**Şirin Bünyadov**

ISBN 978-9952-34-092-1
305.8/0094754-dc22

Etnoqrafiya-Azərbaycan

Azərbaycan etnoqrafiyası.Üç cilddə. II cild.
Bakı, "Şərq-Qərb", 2007, 384 səh.

Bu kitab Azərbaycan etnoqrafiyasının mühüm tərkib hissəsi olan maddi mədəniyyət və ailə məişəti məsələlərinə həsr edilmişdir. Cilddə xalqımız çoxəsrlik tarixə malik yaşayış məskənləri və yaşayış evləri, geyim və bəzəkləri, yeməkləri və içkiləri, nəqliyyat vasitələri və s. kimi maddi mədəniyyət sahələri geniş və əhatəli şəkildə öz əksini tapmışdır. Kitabda həmçinin ailə, nikah, toy, uşaqların tərbiyəsi və dəfn mərasimi məsələləri də işıqlandırılır.

## ÖN SÖZ

Qafqazın cənub-şərqində geniş ərazini əhatə edən Azərbaycan əlverişli təbii-coğrafi və iqtisadi-strateji məkanda yerləşmişdir. Ona görə də burada maddi mədəniyyətin təşəkkül tapması, inkişafı və yayılması üçün hər cür imkan və mövcud şərait olmuşdur. Xalqımız bu zənginliklərdən bəhrələnərək minilliklər boyu özünün çoxşaxəli və dərin məzmunlu maddi mədəniyyət sahələrini yaratmış və inkişaf etdirmişdir. "Azərbaycan etnoqrafiyası"nın ikinci cildinin əsasən bu problemə həsr edilməsi də təsadüfi olmayıb, tam qanunauyğunluq kimi qəbul edilməlidir. Heç şübhəsiz, maddi və mənəvi mədəniyyətin qarşılıqlı əlaqəsi hər iki sahənin yüksək səviyyəyə çatmasına zəmin yaratmışdır.

Azərbaycan haqlı olaraq bəşər sivilizasiyasının ilkin ocaqlarından sayılır. İki milyon yaşı olan bu əzəli, əbədi və müqəddəs torpaqda ulu əcdadlarımız çox qədim dövrdən sığınacaq tapıb, məskən salıb, yuva qurub, ocaq çatıb, qayım-qada olub, dövran sürüb, zaman-zaman yaşayıb, kamala yetib, təkamülə, tərəqqiyə çatıblar. Xalqımız ana vətəninin əsil sahibi, əvəzsiz varisi, qoruyub-saxlayanı, qurub-yaradını olub, dünyanın ən qədim və mədəni etnoslarının biri kimi tanınıb, sayılıb, seçilib.

Ümummilli liderimiz Heydər Əliyevin müdrik bir kəlamını xatırlatmaq istərdik: "Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Buarda həyat çox erkən yaranmışdır və Azıx mağarasından tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı ayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur".

Azərbaycan dövri-qədimdən məşəllənib, sinəsindən od parlayıb, atəş saçıb. Ulularımız bu işığa, bu oda pənah gətiriblər, bu inanca sitayiş ediblər. Adını yanar odlardan alıb, Odlar ölkəsi adlanıb. Bu müqəddəs adla fəxr ediblər, qürur duyublar. Adlarını uca tutublar.

Azərbaycan ərazisinin son dərəcə əlverişli iqlim şəraiti, zəngin flora və faunası, yerli əhalinin qədimliyi, təsərrüfat məişəti, çoxsahəli sənətkarlığı, maddi və mənəvi dünyası onun etnoqrafik baxımdan daha çeşidli və məzmunlu olmasına əsaslı zəmin yaratmışdır. O da həqiqətdir ki, xalqımız minilliklərdən başlayaraq Qafqaz, Yaxın Şərq və başqa ölkələrin xalqları ilə davamlı və arasıkəsilməyən sıx iqtisadi və mədəni əlaqədə olmuşdur. Yaranan bu qarşılıqlı təmasdan, qovuşuqluqdan çox şey əxz etmiş, faydalanmış və zənginləşmişdir.

Deməli, xalqımızın etnoqrafiyası Qafqaz, bir qədər də geniş mənada, Yaxın və Orta Şərq xalqlarının etnoqrafiyasının ayrılmaz tərkib hissəsidir. Ona görə də, təbii olaraq, kitabda bu mühüm cəhətə xüsusi diqqət yetirilmişdir. Qarşıya qoyulan hər hansı bir məsələ təcrid edilmiş şəkildə deyil, ümumi tarixi qanunauyğunluqlarla, müqayisəli və əlaqəli şəkildə araşdırılır.

Xalqşünaslar xalqın çoxsahəli fəaliyyətini geniş araşdırarkən onu təkcə qeydə almağa, təsvir etməyə deyil, eyni dərəcədə təhlilinə, bərpasına çalışır, xronoloji ardıcıllıq prinsipinə uyğun olaraq sadədən mürəkkəbə doğru inkişafını izləyir, ona zamanın tələbi baxımından yanaşırlar. Etnoqrafiya elmi hər hansı bir hadisənin, məsələnin və ya kiçik bir əşyanının necə yarandığını, hansı inkişaf mərhələlərindən keçdiyini, nə kimi deformasiyaya uğradığını, aradan çıxması səbəbini və ya inkişaf etməsi yollarını tarixi ardıcıllıqla izləyir və araşdırır.

Xalqımızın çoxsahəli, zəngin irsini yetərincə və hərtərəfli öyrənmədən onun keçdiyi inkişaf mərhələlərini, mübarizəli tarixini, maddi və mənəvi dünyasını lazımi səviyyədə tədqiq etmək qeyri-mümkündür. Etnoqrafiya elmi hazırda qurub-yaradan xalqımızın qədim və müasir tarixinin, mədəniyyətinin əhatəli şəkildə öyrənilməsinə təsirli kömək göstərir, onu yeni dəlil-sübutlarla daha da zənginləşdirir, gələcək nəsillər üçün qoruyub saxlayır, mənəvi varisliyin tarixi ardıcıllığını təmin edir.

Respublikada azərbaycançılıq ideologiyasının daha da inkişaf etidirilməsi üçün xalqı birliyə, ayrılmazlığa səsləyən ulu öndərimiz Heydər Əliyev demişdir: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir.”

Alimlərimiz "Azərbaycan etnoqrafiyası"nın ikinci cildini qələmə alarkən bir ideologiyadan bəhrələnmiş, onu rəhbər tutmuşlar.

Böyük zəhmətin və gərgin əməyin məhsulu olan bu kitabın ərsəyə gəlməsində zəngin çöl–etnoqrafik materialları və bu sahədə aparılan tədqiqatların nəticələri əsas yer tutur. Bununla belə, kitabda çoxsaylı dəyərli mənbələr, xarici və yerli səyyahların qeydləri, arxeologiya və tarix elminin nailiyyətləri, arxiv sənədləri, ayrı-ayrı muzeylərdə qorunub saxlanan kolleksiyalar, ədəbiyyat, folklor, tətbiqi sənət, memarlıq və s. elm sahələrinə həsr edilmiş araşdırmalardan və bu sahələri əks etdirən dövri mətbuatdan geniş istifadə edilmişdir.

Böyük elmi, təcrübi və tərbiyəvi əhəmiyyətə malik olan "Azərbaycan etnoqrafiyası"nın ikinci cildi xalqımızın çoxəsrlik tarixinin, arxeologiyasının, memarlıq və incəsnət tarixinin hərtərəfli işıqlandırılmasına öz töhfəsini verəcək, onların daha dolğun və zəngin olmasına şərait yaradacaqdır.

Təqdim olunan bu cilddə xalqımızın etnoqrafiyası ən qədim dövrdən başlayaraq, XX əsrin ilk qərinəsinə qədərki dövri əhatə edir. Lakin, əsas tədqiqat obyekti kimi XIX əsr və XX əsrin əvvəlləri götürülmüşdür. İkinci cilddə etnoqrafiya elminin mühüm tərkib hissəsi olan maddi mədəniyyət və ailə məişət məsələləri geniş və hərtərəfli şərh edilmişdir.

Kitabda ilk öncə maddi mədəniyyətin aparıcı sahələrindən olan yaşayış məskənləri və yaşayış evləri məsələləri özünün dolğun və əhatəli şəkildə tədqiqini tapmışdır.

Hələ çox qədim zamanlardan Azərbaycan ərazisinin müxtəlif bölgələrində ibtidai insanlar ovçuluq və balıqçılıqla məşğul olaraq yaşayışlarını təmin etmişlər. İsti iqlim şəraitində yaşayan ibtidai insanlar açıq səma altında güzəran keçirmiş, dövran sürmüşlər. Lakin, zaman keçdikcə, xüsusən də buzlaşmalar dövründə insanlar sərt hava şəraitinə uyğun olaraq təbiətlə ölüm-dirim mübarizəsinə başlamışlar. Onlar davamlı yaşayışlarını təmin və təsdiq etmək üçün ovladıqları vəhşi heyvanların dərisindən sadə geyim dəsti hazırlamış, müxtəlif quruluşlu sığınacaq, mağara və düşərgələrdə məskunlaşmışlar. Ərazimizdə təbii və süni yaşayış məskənlərinin tarixi əsasən qədim daş (paleolit) dövründən başlayır. Azərbaycanın dağ və dağətəyi

bölgələrində alimlər tərəfindən bu dövrə aid onlarca mağara və digər sığınacaq yerləri qeydə alınmışdır.

Azərbaycanda əhalinin artması ilə əlaqədar tarixin sonrakı inkişaf mərhələlərində, daha dəqiq desək, ibtidai icma quruluşunun dağıldığı və sinifli cəmiyətin yarandığı dövrdən etibarən kənd tipli yaşayış məskənləri daha geniş intişar tapmışdır. Buraya tarixən yaranmış oba, şenlik, yurd, düşərgə, qışlaq, yaylaq, yataq, binə və başqa yaşayış məskəni tiplərini də daxil etmək olar.

Heç şübhəsiz, ənənəvi yaşayış məskəni tiplərindən biri şəhərlərdir. Azərbaycanda dövlətin yaranması ilə şəhərlər özünün geniş inkişafına başlayır. Bu tarix təxminən e.ə. I minilliyin başlanğıcına təsadüf edir. Belə qədim şəhərlər arasında Təbriz, Ərdəbil, Marağa, Şamaxı, Qəbələ, Bərdə, Dərbənd, Gəncə, Naxçıvan, Bakı, Beyləqan, Şabran, Şuşa və bir sıra başqalarını misal göstərmək olar. Kitabda şəhərsalma qaydaları, planlaşdırma, şəhərin daxili və xarici quruluşu, hakimlərin sayı, inzibati binalar, sənətkarlar və tacirlərin məhəllələri haqqında dolğun məlumat verilir.

Azərbaycan ərazisində yaşayış məskənləri kimi, yaşayış evləri də öx müxtəlifliyilə səciyyələnir. Ev insanların rahatlığını, istirahətini, təsərrüfatını və həyati tələblərini təmin edən abidədir. Yaşayış evlərinin tiplərinin təşəkkül tapmasında inşaat materiallarının əhəmiyyəti böyükdür. Xalqımız evlərin tikilməsində ənənəvi inşaat materialı kimi daş, kərpic, ağac, gil, torpaq, gəc, əhəng, kirəmit, qır, qarğı-qamış, çubuq və keçədən istifadə etmişdir. Yaşayış evlərinin tikilməsində mahir sənətkarlar bel, kərpic qəlibi, daş baltası, daş çəkici, daş kərkisi, dəmir bıçaq, mişar, balta, kərki, çəngəl, dəhrə, rəndə, iskənə, toxmaq, torpaq şadarası, oraq və dəryazlara üstünlük vermişlər.

Kitabda sadədən mürəkkəbə doğru inkişaf etmiş ev tiplərinin şərhi verilmişdir. Qazma tipli qaradam, çubuq evlər, kərpic durma, səlyani, qoclu evlər, kərtmə evlər, alaçıqlar və s. araşdırılır. Təkmilləşmiş ev tipləri- ağ ev, işıqlı ev XIX əsrin sonu XX əsrlərdə geniş intişar tapmışdır. Burada evlərin plan quruluşu, daxili səliqə-sahmanı, qızdırılması və işıqlandırılması haqqında mılumat verilir.

Azərbaycanda tarixən təbii-coğrafi şərait, sosial-iqtisadi vəziyyət, əhalinin məişət tərzi və təsərrüfat məşğuliyyətinə uyğun bir

sıra təsərrüfat tikililəri də yaranmışdır. Cilddə məişətlə, maldarlıqla bağlı, istehsalatla əlaqədar təsərrüfat tikililəri ətraflı araşdırılır.

Kitabda xalqımızın tikinti mədəniyyəti ilə bağlı bir sıra adət-ənənələri diqqəti çəkir və böyük maraq kəsb edir. Dərin məna və məzmunu ilə seçilən bu adət-ənənələr xalq sənətkarlarının zəngin bilik və təcrübələrinin göstəricisi olmaqla bərabər, həm də tikinti mədəniyyətinin üstün cəhətlərini özündə əks etdirir. Adət üzrə yeni tikiləcək ev yerinin halallığı alınardı. Bir qayda olaraq "el ağzında, sel ağzında, yol ağzında ev tikmək" məsləhət görülməzdi. Düşər-düşməzi nəzərə alınardı. Tikinti yerinin halallığı üçün ağsaqallarla, ustalarla məsləhətləşər, onların xeyir-duası alınardı. Bu işdə qəlbitəmiz, gözütox, əməlisaleh, əliyüngül, ayağıuğurlu insanlara müraciət edilərdi.

Evi inşa edən bənna hazırlıq gördükdən sonra "xoşbəxt yaşayın", "uğurlu olsun", "içində qayım-qada olsun" kimi arzusunu bildirərdi. Ev sahibi isə "çox sağ ol", "işiniz avand olsun" deyərdi. Evin tikintisinə başlayanda qurban kəsmək, sədəqə-niyaz paylamaq adəti mövcud olmuşdur. Tikiləcək evlərdə xoşbəxtlik, bolluq və bərəkət rəmzi kimi bünövrəyə metal pul, buğda, çörək və duz qoyardılar. Evin tikintisində qohum-qonşu, dost-tanış və yaxınlar iştirak edərdi. Ev tikilib başa çatdıqdan sonra qonaqlıq verilər, ailəyə səadət arzulanardı.

Etnoqrafiya elmində ənənəvi geyimlər və bəzəklər maddi mədəniyyətin mühüm tərkib hissəsi kimi qəbul edilir və öyrənilir. Bu sahələrin yetərincə araşdırılması xalqın milli xüsusiyyətlərinin inkişaf səviyyəsini, estetik və bədii zövqünü göstərməklə yanaşı, etnik və sinfi mənsubiyyətinin müəyyənləşdirilməsində qiymətli mənbədir. Təsadüfi deyildir ki, geyim və bəzəklər öz məqsəd, məram və məzmunu etibarilə mənəvi mədəniyyətin də tədqiqinə işıq salır, köməklik göstərir. Əsrlərcə arxaikliyini və dəyişikliyini qoruyub saxlayan geyim və bəzəklər müəyyən mənada xalqın etnogenezi məsələsinin öyrənilməsində yardımçı olur.

Geyim mədəniyyətinin ilkin izlərinin tarixi qədim daş dövrünə aid edilir. Məlumdur ki, geyim mədəniyyətinin inkişafında təbii-coğrafi şərait, xüsusilə iqlimin rolu böyük olmuşdur. Buraya əhalinin dünyagörüşü, mənəvi-əxlaqi, sosial-iqtisadi durumu da daxildir.

Azərbaycanda Neolit dövründə daha da inkişaf edən maldarlıq təsrrüfatı, xüsusilə qoyunçuluğun yerli əhalinin həyatında oynadığı aparıcı rol toxuculuq sənətinin inkişafına da zəmin yaratmışdır. Mis, Tunc, İlk Dəmir dövründə toxuculuğun inkişafı yeni geyim növlərinin yaranmasına və çoxalmasına səbəb olmuşdur. Arxeoloji materiallar və tarixi qaynaqlarda Manna, Midiya, Atropatena və Albaniyada çeşidli geyim dəstlərinin olması haqqında məlumatlar vardır.

Artıq ilk orta əsrlərdən etibarən toxunan rəngarəng, çeşid-çeşid parçalardan kişi, qadın və uşaq geyimlərinin hazırlanması haqqında arxeoloji materiallarda, yazılı qaynaqlarda, xalq yaradıcılığı nümunələrində, şairlərin və səyyahların əsərlərində nisbətən dolğun məlumatlara rast gəlinir.

Kitabda parça toxuculuğu və çeşidli geyim istehsalının daha çox Təbriz, Ərdəbil, Marağa, Şamaxı, Gəncə, Ordubad və başqa Azərbaycan şəhərlərində inkişaf etdiyi qeyd olunur. Ərazimizdə yunun, pambığın, ipəyin, kətanın, dəri və gönün yetərincə olması geyimlərin növ müxtəlifliyinə şərait yaratmışdır. Bir qayda olaraq, Azərbaycanda milli xalq geyimləri üç tipə bölünür: qadın, kişi və uşaq geyimləri.

Kitabda təbii olaraq qadın geyimlərinə geniş yer verilir, onun üstün cəhətləri göstərilir. Ənənəvi qadın geyimləri özünün zərif, incə toxunuşu, rəng əlvanlığı, zəngin naxış çalarlığı, dəbdəbəliyi ilə diqqəti cəlb edir. Bu kitabda qadın geyimlərinin bölgələr üzrə növ müxtəlifliyi geniş şərh olunur və geyimlərdə bölgələr üzrə növ müxtəlifliyi və oxşar cəhətləri müəyyənləşdirilir. Qadınların mövsümi, gündəlik, şənliklərdə, toy və bayramlarda geydikləri mərasim geyim dəstlərinə xüsusi yer verilir.

Qadınlarda olduğu kimi, kişilərin də ənənəvi geyim dəsti olmuşdur. Kitabda kişi geyim dəstinin lokal-məhəlli səciyyə daşıyan cəhətləri qeyd edilir, həm də alt, üst, ayaq və baş geyimlərinin əhəmiyyəti və rolu göstərilir. Təsərrüfatla bağlı, mövsümlə əlaqədar, sinfi mənsubiyyəti ilə fərqlənən geyimlər tarixi aspektdə işıqlandırılır. Burada uşaq geyimlərinin növ müxtəlifliyi haqqında da ətraflı məlumatlar vardır.

Bu kitabda kişi, qadın və uşaq geyimlərini tamamlayan, onlara xüsusi yaraşıq və gözəllik bəxş edən bəzəklər xoronoloji prinsipə uyğun

şəkildə işıqlandırılır, bəzək zinət əşyalarının əsrlərcə istehsalı dəlil-sübutlarla təqdim edilir. Mahir zərgərlərimizin incə zövqlə hazırladıqları sırğa, üzük, bilərzik, sinəbənd, asmamöhür, medalyon, sancaq, telbasan, kəmər, toqqa və s. bəzəklər öz yaraşığı, zərifliyi, göz oxşaması, könül xoşlaması ilə diqqəti cəlb edir.

İnsanların bəşər sivilizasiyasına verdiyi ən böyük kəşflərdən biri əkinçilik mədəniyyətdir. Azərbaycanda ən qədim və aparıcı təsərrüfat sahəsi taxılçılıq olmuşdur. Burada insanlar taxılın becərilməsi, döyülüb saxlanılması qaydaları ilə yanaşı, onun üyüdülməsini də mənimsəmişlər. Dənin üyüdülməsi çörəkbişirməyə hazırlıq mərhələsi hesab olunur. İnsanlar hələ Neolit dövründə dən üyüdülməsində sadə dən daşlarından istifadə etmişlər. Əkinçiliyin sonrakı inkişaf mərhələsində daha əlverişli və mürəkkəb quruluşlu dən daşları meydana gəlmişdir. Sadə dən daşlarından daha təkmil dən daşlarına keçiddə əl dəyirmanları (kirkirə) əsas rol oynamışdır. İlk sinifli cəmiyyətin yarandığı dövrdən etibarən taxılçılığın daha geniş miqyas alması nəticəsində zaman-zaman su, yel dəyirmanları, qoşqu və buxar mühərriki ilə hərəkətə gətirilən dəyirmanlardan da istifadə edilmişdir.

Dənüyütmə qaydalarından sonra çörəkbişirmənin üsul və vasitələri xronoloji ardıcıllığa uyğun olaraq şərh olunur. Minilliklərdən üzü bəri xalqımız çörəkbişirmədə sadə çalalardan, daş ocaqlardan, müxtəlif quruluşlu yeraltı və yerüstü təndirlərdən, səngək kürəsindən istifadə etmiş, güzəran keçirmişdir. Gil və metaldan hazırlanan müxtəlif quruluşlu saclar maldar əhali arasında daha çox yayılmışdır.

Kitabda çörəkbişirmə, unun ələnməsi və xəmirin yoğurulmasında istifadə edilən ələk, kəsdi, xərək, külçəbasan və s. vasitələr haqqında ətraflı məlumatlar verilir.

Müqəddəs nemət sayılan çörəyi vətənlə, torpaqla, ellə, obayla müqayisə etmişlər. Çörəkbişirmə ilə bağlı maraqlı adət-ənənələr, xalq deyimləri xüsusi maraq doğurur: "İstəyirsən bol çörək, al əlinə bel kürək". Çörək təkcə ruzi deyil, heçnə ilə əvəz edilməyən, dərin məna kəsb edən ən əziz nemət hesab edilmişdir: "El basılar, çörək basılmaz", "Hər şeydən keçilər, çörəkdən keçilməz", "Övlad atılar, çörək atılmaz".

Təsadüfi deyildir ki, “Torpaq haqqı, çörək haqqı” deyirik. Çörək dindi, bərəkətdi: “Qılınc kəsməyəni çörək kəsər”, “Çörək itirəni çörək tutar”, “Çörək çörəyə borcludur”, “Bir dəfə çörək yediyin yerə min dəfə baş əy”.

Bəşər tarixinin ilk çağlarından insanlar təbii tələbatlarına uyğun yemək və içkilərdən istifadə etmişlər. Hələ ibtidai icma quruluşu dövründə insanlar yaşamaq üçün topladıqları yabanı bitki və meyvəni, ovladıqları vəhşi heyvanların ətini və balıqları yemiş, güzəran keçirmişlər.

Zaman keçdikcə, dövran dəyişdikcə, minilliklər arxada qaldıqca, əsrlərə qovuşduqca Azərbaycan xalqı çeşid-çeşid yeməklər, növ-növ içkilər hazırlamışdır. Xalqımızın zəngin mətbəxi özünün növ müxtəlifliyilə geniş ərazidə şöhrət qazanmışdır. Bu üstün cəhət və seçim indi də dünya xalqları tərəfindən tanınır və qəbul edilir. Kitabda Azərbaycan mətbəxinə dair maraqlı mülahizələrin verilməsi təbiidir.

Xalqımızın yaratdığı, inkişaf və davam etdirdiyi müxtəlif çeşidli yeməklər və içkilər əsrlərcə qazanılan zəngin təcrübəyə və ənənəyə əsaslanır. Kitabda qənnadı məlumatı və şirniyyatlar, xəmir, düyü, süd, ət, quş, balıq, bostan-tərəvəz yeməkləri, şorbalar, şirələr, şərbətlər və digərləri haqqında da dolğun məlumatlar verilir. Yeməklərin yüksək keyfiyyətlə hazırlanmasında duz, bal, turşular, habelə istiot, darçın, zəncəfil, hil, mixək, zəfəran, sarıkök, sumax, nanə və s. ədviyyatdan istifadə edilməsi şərh edilir. Burada yeməklərin və içkilərin hazırlanma qaydaları, istifadə edilən qablar haqqında məlumatlar da xüsusi maraq doğurur. Yeməklər və içkilər haqqında verilən məlumatlar təkcə elmi deyil, həm də praktik əhəmiyyət daşıyır.

Maddi mədəniyyətin əsas tərkib hissələrindən biri də xalq nəqliyyatı vasitələridir. Nəqliyyat vasitələrinin yaranması, təkmilləşməsi və müxtəlifliyi təbii-coğrafi şərait və ərazinin relyefilə sıx bağlıdır. Azərbaycanlılar bu şəraitə uyğun olaraq minilliklər boyu sadədən mürəkkəbə doğru bir sıra nəqliyyat vasitələri yaratmış, təsərrüfatda, maddi və mənəvi həyatın müxtəlif sahələrində geniş istifadə etmişlər. Ərazidə ilk sadə nəqliyyat vasitələrinin tarixi ibtidai icma quruluşu dövrünə aiddir.

Ən qədim nəqliyyat vasitələrindən biri əl sürütməsidir. Sonralar minik və yük nəqliyyat vasitələri daha geniş yayılmışdır. Şübhəsiz, ilk sinifli cəmiyyətdə ən sürətli və geniş yayılan nəqliyyat vasitəsi atdır. Təxminən 5 min illik tarix boyu atdan yük və minik vaisitəsi kimi istifadə edilmişdir. Kitabda dəvə və digər qoşqu nəqliyyat vasitələri, xizək, kirşə, ikitəkərli və dördtəkərli arabalar, faytonlar, dilican, eləcə də müxtəlif su nəqliyyatı vasitələri geniş işıqlandırılır. Yollarla bağlı məlumatlar da kitaba dolğunluq və bitkinlik gətirir.

İkinci cilddə ailə və məişət məsələlərinə də geniş yer verilmişdir. Aydın məsələdir ki, bu problem əhəmiyyəti baxımından təkcə etnoqrafların deyil, həm də hüquqşünasların, filosofların, psixoloqların və bir sıra başqa elm sahələrinin mütəxəssislərinin tədqiqat obyektinə çevrilmişdir. Əhəmiyyəti böyük, lakin, öyrənilməsi çətin olan bu sahənin, etnoqrafiya elminin tərkib hissəsi kimi, etnoqraf-alimlərin daha çox marağına səbəb olması tam qanuni haldır.

Əsrlərcə varislik ənənəsini qoruyub saxlayan ailə həyatın mənası və bünövrəsidir, cəmiyyətin özülü, ölçüsü və meyarıdır. Ailə böyük sərvət, kiçik dövlətdir.

İctimai-tarixi kateqoriya olan ailə cəmiyyətin ən kiçik kollektividir. Azərbaycanlılarda ailənin tarixən iki forması olmuşdur: böyük ailə və kiçik ailə. Böyük ailələr, yaxud ailə icmaları üç, dörd və bəzən beş nəslin nümayəndələrindən ibarət olub, ata, oğul, nəvə və nəticələri, eləcə də qardaşların ailələrini birləşdirir.

Ailə icmasına daxil olan bütün ailələr bir evdə birgə yaşayır və vahid təsərrüfata malik olurlar.

XIX-XX əsrlərdə Azərbaycanda “qalıqlar” şəklində ailə icmalarının hələ də mövcud olması ilə yanaşı, ailənin əsas forması-kiçik ailələr da var idi. Kiçik ailə iki yolla yaranırdı: böyük ailənin parçalanması yolu ilə və ailədə həddi-buluğa çatmış oğulun evləndikdən sonra ayrılıb müstəqil ailə qurması ilə. Böyük ailə və kiçik ailə arasında fərq yalnız ailə üzvlərinin sayında olmamışdır. Onların arasında bir kəmiyyət fərqi ilə yanaşı, əsas iki keyfiyyət fərqi də olmuşdur. Birincisi, böyük ailənin mülkiyyəti də ailə icmasına məxsus olduğu halda, kiçik ailənin əmlakı yalnız ailə başçısının mülkiyyəti sayılırdı. İkincisi, böyük ailə şaquli istiqamətdə 3-5 nəsildən, üfüqi istiqamətdə

isə qardaşların ailələrindən ibarət olduğu halda, kiçik ailənin yalnız şaquli istiqamətdə 2-3 nəsildən ibarət olması xarakterikdir.

Kiçik ailələr quruluşuna görə iki yerə bölünür: Sadə və mürəkkəb ailələr. Sadə ailə iki nəsildən yəni ata-ana və onların uşaqlarından; mürəkkəb ailə isə üç nəsildən, yəni baba-nənə, ata-ana nə nəvələrdən ibarət olur.

Azərbaycan milli ənənələrinə görə hər bir ailədə atanın övlad qarşısında üç borcu vardır: tərbiyə etmək, təhsil vermək və evləndirmək. Atanın övladı qarşısında bu üç borcunu yerinə yetirməsi ailənin həyata keçirdiyi üç əsas funksiyası ilə təmin olunur: təsərrüfat funksiyası, nəsilartırma funksiyası və uşaqların tərbiyəsi funksiyası. Ailə üzvləri arasında qarşılıqlı münasibətlər bu funksiyaların həyata keçirilməsi ilə bağlı olan adət-ənənələr əsasında formalaşır. Ailə üzvləri arasında bu qarşılıqlı münasibətlər-ər ilə arvad, gəlin ilə qayınana, valideynlər ilə övladlar və s. arasındakı münasibətlər də ailə və ailə məişətinə həsr olunmuş fəsildə geniş şərh edilir.

“Ailə və ailə məişəti” fəslində ailə-nikah münasibətlərinə xüsusi bölmə ayrılmışdır. Burada ibtidai icma cəmiyyəti dövründə Azərbaycanda mövcud olmuş ekzoqam və endoqam nikah adətlərindən, monoqam və poliqam nikah formalarından bəhs olunur, orta əsrlərdə isə Azərbaycanda islamın şəriət qanunları ilə nizamlanan nikah münasibətləri açıqlanır və qohumla evlənmə dairəsinin şəriət qanunları ilə müəyyən edildiyi vurğulanır. Bu bölmədə Azərbaycanda nikah yaşı, normaları, levirat və sororat nikah adətləri və qızqaçırma adətindən də bəhs edilir və onların sosial məzmunu açıqlanır.

“Ailə və ailə məişəti” ndə toy mərasiminin bütün mərhələləri-qızbəyənmə, elçilik, nişan, toy şənlikləri və gənc ailənin toydan sonrakı həyatının bəzi məqamları şərh edilir. Bu bölmədə toy zamanı həyata keçirilən mərasimlər, adət-ənənələr təhlil edilir, onların sosial mahiyyəti açıqlanır. Burada toy şənlikləri zamanı hazırlanan xörəklər, çalınan musiqi, oxunan nəğmələr, oynanılan rəqslər və keçirilən idman yarışlarından da bəhs olunur.

Kitabda gəlinin ər evinə gəlməsindən sonra başlanan gənc ailənin həyatının ilk mərhələsi də təsvir edilir. Gənc ailənin həyatında dünyaya təzəcə gəlmiş körpənin tərbiyəsinə xüsusi yer ayrılır.

Hamiləlik, doğum və doğumdan sonrakı dövrdə gəlini şər qüvvələrdən qorumaq üçün icra edilən ayinlərdən, yenicə doğulmuş körpə ilə bağlı həyata keçirilən adət-ənənələrdən bəhs olunur.

“Ailə və ailə məişəti” nin son bölümü dəfn və yas mərasimləri ilə bağlı ayinlərə və adət-ənənələrə həsr olunmuşdur. Bölümdə yas mərasimində icra olunan ayinlər, matəm səciyyəli ağlaşmalar, deyilən ağılar, verilən ehsanlar açıqlanır və yasdançıxma ilə bağlı “Qara bayram” ayini təsvir edilir.

Kitabın əyaniliyini artırmaq, onu daha da əhəmiyyətli, məzmunlu və oxunaqlı etmək məqsədi ilə bölmələr zəngin və nadir illüstrativ materiallarla təmin edilmişdir.

Kitabın müzakirələrinin təşkilində görkəmli etnoqraflardan Şahpələng Quliyev və Tofiq Kərimovun xidmətləri böyükdür. Bu müzakirələrdə yaxından iştirak edən tarixi-etnoqrafiya şöbəsinin əməkdaşlarının, çoxsaylı informatorların köməyini, cildin nəşrə hazırlanmasında Təranə Quluzadənin və Nigar Vahabovanın, illüstrativ materialların işlənməsində rəssam Solmaz xanım Hüseynovanın əməyini xüsusi qeyd etmək lazımdır.

***Teymur Bünyadov***
akademik



# XALQ YAŞAYIŞ MƏSKƏNLƏRİ VƏ EVLƏRİ



# XALQ YAŞAYIŞ MƏSKƏNLƏRİ

Maddi mədəniyyət bəşər tarixinin ayrılmaz tərkib hissəsi olub, xalqın fiziki əməyinin nəticəsi kimi formalaşmış, böyük təkamül və inkişaf yolu keçmişdir. Təbii-coğrafi şəraitin, dövrün sosial-siyasi xarakterinin və etnik xüsusiyyətlərinin təsiri ilə formalaşan maddi mədəniyyət elementləri (yaşayış məskənləri və evlər, geyimlər və bəzəklər, yeməklər və içkilər nəqliyyat və rabitə vasitələri, təsərrüfat və məişət alətləri, ev peşəsi və sənətkarlıq məhsulları və s.) istehsal fəaliyyətinin göstəricisi olmaqla, bu və ya digər xalqın sosial-iqtisadi, siyasi, mədəni və ideoloji tarixini, eyni zamanda etnogenezini öyrənmək üçün mühüm mənbə rolunu oynayır.

Maddi mədəniyyətin yaradıcısı olan insan öz yaşayışını təmin etmək üçün çox zaman elə maddi istehsalın özündən asılı olur. Yəni insan yeyib-içmədən, geyinmədən, evə-ocağa sahib olmadan hər hansı ictimai faydalı işlə məşğul ola bilməz. Bu baxımdan, maddi mədəniyyətin öyrənilməsi xalqın istehsal fəaliyyətinin öyrənilməsi deməkdir. Keçmin maddi və mənəvi irsi öyrənmədən isə müsair mərhələdə bu sahələrdə baş verən keyfiyyət dəyişikliklərini doğru-düzgün anlamaq düzgün deyildir.

Hər bir xalqın maddi mədəniyyəti yalnız onun özünəməxsus spesifik-lokal cəhətləri və fərdi xüsusiyyətləri ilə seçilir. Bu isə bir etnosa məxsus mədəniyyəti digər etnosun mədəniyyətindən əsaslı surətdə fərqləndirilir. Bu baxımdan Azərbaycan xalqının çoxəsrlik empirik təcrübə, bilik və vərdişlərə əsaslanan maddi mədəniyyət tarixi zəngin olub, özünün spesifikasını və milli xüsusiyyətlərini maddi mədəniyyətin bütün sahələrində bariz şəkildə nümayiş etdirir.

Azərbaycanda bəşər tarixinin ayrı-ayrı mərhələlərində yaşayış

məskənlərinin müxtəlif tip və formaları mövcud olmuşdur.



Zəmanəmizə qədər gəlib çatmış yaşayış məskənlərinin tip və formalarının meydana gələmsində təbii-coğrafi şəraitin, mövcud ictimai-iqtisadi və siyasi quruluşun, məhsuldar qüvvələrin inkişafının, həmçinin sosial-iqtisadi inkişafın xüsusiyyətlərinin, ailə həyatı normalarının və təsərrüfat fəaliyyətinin yönümünün həlledici rolu olmuşdur. Bu amillərin fəal təsiri sayəsində sosial-iqtisadi tərəqqi ilə həmahəng xalq məişətində əmələ gələn yeni keyfiyyət dəyişikliyi, yaşayış məskənlərinin müxtəlif tip və formalarının meydana gəlməsinə zəmin yaratmışdır.

Yaşayış məskənlərinin tarixi çox qədimdir. Bəşər cəmiyyəti meydana gəldiyi vaxtdan yaşayış məskənləri də mövcud olmuş, insan kollektivinin təsərrüfat fəaliyyətindən asılı olaraq onların müxtəlif tip və formaları yaranmışdır: ibtidai ovçuların, balıqçıların, maldarların, əkinçilərin müvəqqəti yaşayış məskənləri və s.[1]

Yaşayış məskənlərinin etnoqrafik cəhətdən öyrənilməsinin elmi və praktik əhəmiyyəti vardır. Belə ki, hər hansı bir ərazidə yaşayan xalqın yaşayış məskənlərinin tip və formalarının müəyyənləşdirmədən həmin xalqın maddi və mənəvi mədəniyyətini-təsərrüfat məişətini, adət-ənənələrini, sosial-iqtisadi və mədəni inkişaf səviyyəsini, ictimai məişətini və s. mükəmməl öyrənmək mümkün deyildir. İctimai məişəti öyrənmək üçün isə yaşayış məskənləri əsas mənbələrdən biri hesab edilir.

Arxeoloji qazıntıların nəticələrinə istinad edərək Azərbaycan ərazisində Paleolit dövrü insanlarının təbii və süni yaşayış məskənlərindən başlayaraq, müasir kənd, qəsəbə və şəhərlərə kimi müxtəlif məskunlaşma yerləri vasitəsilə yaşayış məskənlərinin təkamül və inkişafını izləmək mümkündür.

İbtidai insanların ilk yaşayış məskənlərinin yaradılmasında coğrafi mühitin, o cümlədən iqlim və landşaftın böyük təsiri olmuşdur. Arxeoloq İ.M.Cəfərzadə Azərbaycanda yaşayış məskənlərinin tarixinin qədim olduğunu qeyd edərək yazmışdır: “İbtidai insanlar Azərbaycan şəraitində çay kənarlarında, meşələrdə, qaya altında və mağaralarda yaşamışlar. Qayaaltı sığınacaqlarda və mağaralarda yaşayan insanlar özlərini istidən, soyuqdan qoruyur və ələd etdikləri odu, topladıqları ərzağı da burada mühafizə edirdilər. Bunun üçün də mağara insanların ilk başlanğıc sığınacağı hesab edilir”. [2]

Yaşayış məskəni yeri seçərkən tarixən formalaşmış empirik bilik, vərdiş və ənənələrə əməl edən qəbilə başçıları yerin relyef quruluşundan asılı olaraq bir çox iqtisadi və starteji mülahizələrə ciddi fikir vermişlər. Zəmanəmizə qədər çatmış Azərbaycan yaşayış məskənlərinin bir çox tiplərində onların təbii su mənbələrinə yaxın yerləşməsi, düşmən hücumundan müdafiə üçün əlverişli olması, təbii fəlakətlərdən mühafizə edilməsi kimi



Azıx mağarası:
ümumi görünüşü və planı



iqtisadi-strateji mülahizələrə ciddi əməl edilməsi faktları elə ilk baxışdan nəzərə çarpır.

Azərbaycan ərazisi özünün landşaft-reylef quruluşuna görə dağlıq, dağətəyi və düzənlik ərazilərdən ibarətdir. Dağlıq ərazi təbii-iqlim şəraitinə, hidroqrafiya, oroqrafiya və geomorfoloji xüsusiyyətlərinə, flora və faunasına görə zəngin olduğundan, Azərbaycaının ən qədim sakinləri də məhz burada-təbii mağaralarda məskunlaşmışlar. Deməli, xalqımızın ən qədim yaşayış məskəni tipi təbii mağaralar (kaha, zağa) olmuşdur. Azıx, Tağlar, Bəy, Qobustan, Aveydağ mağaraları əcdadlarımızın ilk sığınacaq yeri kimi məlumdur. İqtisadi və hərbi-strateji tələblərə cavan verən dağlıq ərazilər, Azərbaycan ərazisinin ilk sakinlərinin təbii fəlakətlərdən düşmən hücumlarından mühafizə edilməsində müstəsna rola malik olmuşdur. Burada çoxluq təşkil edən qalaçaların (siklop tikililərin) da əksəriyyətinin müdafiə məqsədləri üçün tikildiyi ehtimal olunur.

Azərbaycan ərazisinin Qarabağ, Xanlar, Şamaxı, Gədəbəy, Kəlbəcər, Zəngilan və Naxçıvan bölgələrində ibtidai insanların təbii mağaralardan hələ çox qədim zamanlarda yaşayış məskəni kimi istifadə etdiklərini elmi tədqiqatlar sübut edir. [3]

Quruluş və formaca bir-birindən o qədər də fərqlənməyən təbii mağaralar, bir qayda olaraq, dağın içərisinə doğru istiqamətlənmiş uzunsov və əyri-üyrü olub, ayrı-ayrı salonlara bölünür və yeraltı

yollarla bir-birilə əlaqələnirdi. Buarda yaşayan ibtidai insanlar ilk zamanlar mağaradaxili şəraitə uyğunlaşmağa başlamış, orada heç bir süni dəyişikliklərə nail olmaq iqtidarında olmamışlar. Tarixi inkişaf prosesinin sonrakı mərhələlərində insanlar təbii materiallardan (daşdan, ağacdan, sümükdən və s.) əmək alətləri hazırlamaq vərdişlərinə yiyələndikcə, mağaradaxili yerləşkələrdə divar açırımları düzəltmək, mağarada yanan ocağın tüstüsünü bayıra çıxartmaq üçün tavandan bacalar açmaq kimi zəruri işləri yerinə yetirməyə başlamışlar. Beləliklə, ibtidai insanların təbii mağaraları öz iradələrinə uyğun şəkildə yenidən qurmaq və təkmilləşdirmək vərdişləri nəticəsində yaşayış məskənlərinin yeni bir tipi –süni mağara məskənləri yaranmışdır.

Süni mağaraların Azərbaycan ərazisində Neolit dövründən



başlayaraq istifadə olunduğunu qeyd edən İ.M. Cəfərzadə yazır ki, möhkəmlənən və iqtisadi cəhətdən güclənən ibtidai qəbilələr öz yaşayış yerlərin genişləndirməkdən əlavə, özlərinə əvvəlkindən daha əlverişli və formaca fərqli yaşayış məskənləri salmağa başladılar. Beləliklə, məişətə yeni məksən tipi –süni mağara daxil oldu. [4]

Azərbaycan ərazisində süni mağaralara Böyük Qafqaz dağlarının cənub-şərq ətəklərində və Kiçik Qafqaz dağları bölgəsində (Qubadlı, Zəngilan, keçmiş Qonaqkənd, Lerik, Şamaxı, Kəlbəcər, Laçın), eləcə də Cənubi Azərbaycanda təsadüf olunur. [5] XX əsrin 30-

cu illərində etnoqraflar Ə.K.Ələkbərov və Q.T.Qaraqaşlı Kəlbəcər, Gədəbəy, Xanlar və Laçın rayonlarında yaşayış əhəmiyyətini hələ də itirməmiş süni mağara məskənlərinin olduğunu qeyd etmişlər. [6]

Tarixi-etnoqrafik baxımdan yaşayış məskənlərinin rəngarəngliyi ilə seçilən Şirvan bölgəsində süni mağara tipli məskənlər əsasən, Sündü, Dərəkənd, Mərəzə, Ərəbqədim, Poladlı, Nabur, Təsi, Yekəxana kəndlərində son zamanlara qədər qalmışdır. Kühül adlanan belə yaşayış məskənindən təsərrüfat məqsədilə istifadə olunmuşdur. [7]

Azərbaycanın qərb bögələrindən mövcud olan mağaralar isə Daşsalahlı mağaralar qurpuna daxildir. Burada qeydə alınmış 12 mağaranın ümumi uzunluğu 200 metrə qədərdir. [8]

İctimai inkişafın sonrakı mərhələsində Azərbaycanın dağətəyi və düzənlik hissələrində də məskunlaşma prosesi getmişdir. Bu ərazilərdə əlverişli hərbi-strateji mövqelərin azlığı, qəbilə üzvlərinin hələ də hazır təbii şəraitindən istifadə etməyə üstünlük verməlıəri və digər amillər yaşayış məskənlərinin tədricən yaranmasına səbəb olmuşdur. Məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar əkinçi və maldar qəbilələrin formalaşması nəticəsində Azərbaycanın dağətəyi və düzənlik hissələrində qəbilə məskənləri yaranır və inkişaf edirdi. Tədqiqatlar göstərir ki, əkinçiliklə məşğul olan qəbilələr süni suvarma üsullarına yiyələndiyindən çay, arx və ya kanalların ətrafında, maldarlıqla məşğul olanlar isə otlaqlarla zəngin alp çəməliklərində məskən salmağa daha çox üstünlük vermişlər.

Azərbaycanda geniş yayılmış yaşayış məskənlərinin xarakterik tarixi tiplərindən başlıcası **kənd** olmuşdur. Kənd-oturaq əhaliyə məxsus daimi yaşayış evləri, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni, dini mərkəzləri, ümumi otlaqları, əkin sahələri, içməli suları, ayrıca qəbirstanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan tarixən formalaşmış məskəndir.

Bütün bu deyilənlərdən başqa, kənd tipli yaşayış məskənlərinə xas olan bir çox səciyyəvi xüsusiyyətlər də mövcud idi. Əvvələn, kənd əksər hallarda poligen (yeni bir-birinə qohum olmayan bir neçə nəsildən ibarət əhalinin yaşayış məskəni tipi) xarakterik daşıyırdı, ikincisi əhalinin sayı burada daha öncə yaranmış digər məskən tiplərində

olduğundan daha çox idi və nəhayət, kənddə təsərrüfat ekstensiv yox, intensiv istiqamətdə inkişaf edirdi.

İctimai inkişafın sonrakı gedişində qohumluq prinsipinə əsaslanan kəndlərdə böyük dəyişikliklər olmuş, onlar böyüyərək qarışıq tərkibli kəndlərə çevrilmişlər. Belə kəndlərin əmələ gəlməsində patronimiya (qohum ailələr qurpuna) mənsub ailələrin (tayfa, tirə, ocaq, nəsil, dəngə, təbəh. əqrəba, çilək, övladı, uşağı və s.) böyüyərək parçalanması, orta əsrlərdə böyük səylə əhali qruplarının düşünülmüş şəkildə Azərbaycan ərazisinə köçürülməsi, müxtəlif obyektiv səbəblər üzündən ölkə daxilində əhalinin bir kənddən digər kəndə köçməsi əsas rol oynamışdır. Məhz bu səbəbdən qorunmaq prinsipi əsasında məskunlaşma prosesi getdikcə zəifləmiş, yaşayış məskənlərinin salınmasında qonşuluq prinsipləri üstünlük təşkil etmişdir.

Orta əsrlərin başlanğıcında Sasanilər dövləti özünə dayaq yaratmaq məqsədi ilə Azərbaycana İran dillərinə mənsub olan tatları köçürmüşdür. VII əsrdə ərəb işğalının başlaması ilə əlaqdar Xilafətin tərkibinə daxil olan ərazilərə o cümlədən Azərbaycana xeyli ərəb tayfası köçürülmüşdü. Həmin dövrdən başlayaraq Azərbaycanda ərəb etnonimli kənd adları meydana gəlmişdir. Bu hadisənin izlərinə Şirvan toponimikasında (Ərəbmehdibəyli, Ərəbbəsrə, Ərəbqardaşbəyli, Ərəbqubalı, Ərəbsarvan, Ərəbocaqçı, Ərəbəqədim, Ərəbşalbaş, Ərəbşahverdi, Ərəbcəbirli), Naxçıvan toponimikasında-Ərəbyengicə, Qəbələ rayonunun Vəndam kəndinin məhəllələrindən birinin “Ərəbli” istilahı ilə adlanmasında təsadüf olunur. XIX əsrin əvvəllərində çar Rusiyasının Azərbaycanı işğal etməsindən sonra Şimali Azərbaycan ərazisinə kütləvi şəkildə ermənilərin, rusların və b. xalqların köçürülməsi nəticəsində çoxlu miqdarda qarışıq tərkibli kəndlər meydana gəlmişdir.

Azərbaycan ərazisində qarışıq tərkibli kəndlərin meydana gəlməsində əsrlər boyu Azərbaycana basqın etmiş yadelli işğalçıların, yerli hökmdarların və xanların təqibi üzündən əhalinin ölkənin içərilərinə, xüsusilə dağlara çəkilməsi də müəyyən rol oynamışdır. Beləliklə, dağ kəndlərində qohumluq prinsipləri aran kəndlərinə nisbətən erkən pozulmuş və qarışıq tərkibli kəndlərin meydana gəlməsinə şərait yaranmışdır.

Azərbaycanın aran bölgələrində yaşayış məskənlərinin salınmasında qohumluq prinsipləri üstün yer tutmuşdur. Əsasən, XIX əsrin ortalarında maldar elatların oturaq həyata keçməsi nəticəsində salınan kəndlərdə icma münasibəti qalıqları daha çox mühafizə olunduğundan, oturaqlaşma zamanı qohumluq prinsipi üzrə yerləşmə ənənəsinə ciddi əməl edilmişdir. Oturaqlaşma prosesi isə nəsli icmalardan ibarət olan qışlaqlar arasında getdiyindən, yeni yaranan kəndlər, müstəsna olaraq qohum patronimik qruplardan təşkil olunmuşdur. Tarixi-etnoqrafik ədəbiyyatda Şirvan bölgəsinə şamil edilən belə yaşayış məskənləri bütün Azərbaycan üçün səciyyəvi olmuşdur.

Kənd yaşayış məskənləri əhalinin sayına görə də qeyri-bərabər məskunlaşmışdır. Azərbaycan etnoqrafiyasında kənd əhalisinin say hüdudu dəqiq müəyyən olunmadığından, bəzən əhalisi 10 min nəfərdən çox olan Ərkivan da, 5 min nəfərdən çox olan Lahıc da, 10-15 ailədən ibarət olan xırda yaşayış məntəqələri də kənd adlanır. XIX əsrdə Azərbaycan kəndlərinin əksəriyyəti 20-60 nüfusdan və ya tüstüdən ibarət idi. Ailə nüfusunun sayına görə isə böyük kəndlər azlıq təşkil edirdi. Azərbaycanın qərb bölgəsində Birinci Şıxlı kəndi (301 tüstü), Qaraqoyunlu kəndi (206 tüstü), Göycəli kəndi (321 tüstü), Bozalqanlı kəndi (241 tüstü), Quşçu kəndi (278 tüstü), Salahlı kəndi (800 tüstü) ən iri nüfuslu kəndlər hesab olunurdu. [9]

Azərbaycan xalqının yaşayış məskənlərinin tarixən yaranmış digər sosial-iqtisadi tipləri **oba, şenlik, sığırxana, yataq, binə, yurd, düşərgə, qışlaq, dəkkə, dəngə, yaylaq** və s. müvəqqəti elat yaşayış məskənlərindən ibarət idi.

**Oba**-XIX əsrdə həm maldar icma üzvlərinə məxsus xüsusi qurum (birlik) və həm də oturaq əhalinin müvəqqəti yaşayış məskəni olmuş, tədriclə daimi yaşayış məskəninə-kəndə çevrilmişdir. Azərbaycanın ayrı-ayrı bölgələrində mövcud olmuş belə obalar kəndə çevrilərkən kənd adlarında oba komponentini də saxlayırdı. Məsələn, Vəlioba, Mollaoba, (Masallı rayonu), Mahmudoba (Şahbuz rayonu), Aşıqoba (Qusar rayonu) və b. [10]

Oba maldarlıq təsərrüfatının yaylağa və qışlağa köçməsi ilə əlaqədar meydana gəlirdi. Daimi yaşayış məskənindən-kənddən

nisbətən aralı salınan obada, adətən, qohum ailələr məskunlaşırdı. Bəzən bir obada bir neçə qohum nəsil birgə yaşayırdı. Otlaqlardan səmərəli istifadə etmək məqsədilə istər yaylaqlarda, qışlaqlarda obalar xırda vahidlərə-dəngələrə bölünür, dəngələr isə bir-birindən "otarası" adlanan mərzlərlə ayrılırdı. [11]

**Şenlik**- (şennik) də oba kimi qədim tarixə malik yaşayış məskəni olub, ailə nüfusunun sayına görə ondan kiçik idi. Koma quruluşlu yaşayış məskənlərindəki hər bir koma ayrıca bir şenlik təşkil edir və əksər hallarda monogen xarakterli olurdu. [12]

Şənlik əhalisinin tərkibi, əsasən, qohum tayfalardan formalaşırdı. XIX əsrin ikinci yarısında N.A.Abelov yazır ki, ayrı-ayrı nəsil və qrupların (tirə, oymaq) məskun olduğu köçəri icma məskənlərini müsəlmanlar şenlik adlandırırlar.[13]

XIX əsrdə Azərbaycan xalq yaşayış məskənlərinin tarixən yaranmış tipləri olan kənd, oba və şenlik anlayışları, aralarında bəzi fərqlərin olmasına baxmayaraq, bütövlükdə "yaşayış məskəni" mənasında işlədilmişdir.

**Binə -** müvəqqəti yaşayış məskənlərinin ilkin tipi olaraq bu və ya digər kəndin salınmasında başlanğıc mərhələ təşkil etmişdir. Toplanılan etnoqrafik materiallardan aydın olur ki, binə XIX əsrdə Azərbaycanın dağlıq bölgələrindəki kəndlərin əksəriyyətin mövcud olmuşdur. Əsasən maldarlıqla məşğul olan əhali tərəfindən kəndin yaxınlığında salınan təsərrüfat tikililəri (yataq, tövlə, pəyə, xalxal, at damı və s.) binə adlanırdı. Binədə ailələrin sayı artdıqca tədricən təsərrüfat tikililəri və ya yaşayış evləridə inşa edilirdi. Təsərrüfat tikililəri və ya yaşayış evlərinin sayı artdıqca binə daimi yaşayış məntəqəsinə çevrilir və həmin yer ya orada ilk məskən salmış adamın adı ilə, ya da maldarlıq təsərrüfatının üstün sahələrindən birinin adı ilə adlandırılırdı. (Qasımbinəsi, Məmmədușağı binəsi, Baxış binəsi, Malbinəsi, Qoyunbinəsi və s. )



**Qışlaq**- sığırxana, yataq və yaşayış evlərini özündə birləşdirən müvəqqəti yaşayış məskəni olmuşdur. Adından məlum olduğu kimi qışlaq, əsasən, qış aylarında yaşayış üçün nəzərdə tutulan ərazi, otlaq sahəsi deməkdir. İlin 8-9 ayını qışlıqlarda keçirən Azərbaycanın maldar elatları yalnız yay aylarında yaylaqlara qalxırdılar. Qışlaq digər müvəqqəti yaşayış məskəni tiplərindən xeyli daimiliyi ilə fərqlənir və kəndə keçidin son mərhələsi hesab olunurdu.

Azərbaycanda geniş yayılmış müvəqqəti yaşayış məskənlərindən biri də **yaylaqdır.** Yaylaqlar, adətən, yüksək dağlıq yerlərdə, alp çəmənliklərində yerləşirdi. İlin 3-4 ayını yaylaqlarda keçirən maldar elatlar burada alaçıq və dəyələrdə yaşayırdılar. Yaylaqlara köçmə və yurdsalma qaydalarında, əsasən, su mənbələrinə yaxınlıq və otlaq qayğıları, həmçinin qohumluq münasibətləri üstün yer tuturdu. Qohum ailələrin bir neçə il dalbadal düşdükləri yurd yerləri-yaylaqlar ailə başçısının, bəzən də onların təmsil etdikləri kəndlərin adları ilə adlanırdı. (Əmirəhmədin yurdu, Nəbi yurdu, Eldar yaylağı və s. )

Etnoqrafik materiallardan aydın olur ki, müvəqqəti yaşayış məskənlərinin bəziləri (binə, oba, yataq, qışlaq, sığrxana) tarixən maldarlıq təsrrüfatının ikişafı ilə sıx bağlı olmuş, əhalinin daimi yaşayış məskəninin-kəndin yaranmasında ilkin mərhələ təşkil etmişdir. Qazax rayonunun Çaylı kəndi vaxtilə Qıraq Kəsəmən kəndindəki Qızyetərli tayfasının qışlaq yeri olmuş, sonralar maldar əhlinin oturaqlaşması

prosesində kəndə çevrilmişdir. Eldar düzündəki Salahlı, Poylu və Kəsəmən kəndləri əvvəllər Qazax qəzasının müvafiq kəndlərinin obaları olmuşdur. Birinci Şıxlı kəndindən ayrıllan tayfalar Köçvəlli, Muğanlı, Sadıxlı, Ömərağalı, Dəmirçilər kimi obaların əsasını qoymuş, hazırda həmin obalar müstəqil kəndlərə çevrilmişdir. [14]

Qışlaq yerinin daimi məskənə-kəndə keçid təşkil etdiyini bəzi kəndlərinin adlarının tərkibində "qışlaq" sözünün işlənməsi də təsdiq edir. Tovuz rayonunun Böyükqışlaq, Laçın rayonunu Köhəqışlaq, Qışlaq, Qazax rayonunun Köhəqışlaq, Düzqışlaq, Daşkəsən rayonunun Yayqışlaq, Zəngilan rayonunun Günqışlaq, Qəbələ rayonun Aydınqışlaq, Goranboy rayonunun Başqışlaq kimi kənd adları buna misal ola bilər. Müvəqqəti yaşayış məskənlərinin daimi məskənə-kəndə keçid təkil etdiyini XIX-XX əsrin əvvələrinin ədəbiyyat materialları da təsdiq edir. [15]

Azərbaycanda məhsuldar qüvvələrin və kapitalist münasibətlərin inkişafı, bu münasibətlərin kənd məişətinə daha dərindən nüfuz etməsi ilə əlaqədar yaranan sosial mühit, böyük ailələrin patrionomik qruplara parçlanması, əhali artımı, yığcam tərkibli kəndlərədə torpaq çatışmazlığı və s. amillər də yeni yaşayış məskənlərinin meydana gəlməsinə əsas olmuşdur. Mərkəzi Muğanda Yaxa Dəlləkli kəndindən ayrılan tayfalar Çöl Dəlləkli; Ağaməmmədli kəndindən ayrılan tayfalar Çöl Ağaməmmədli; Qarabulaq kəndindən ayrılan nəsillər isə Dördlər kəndinin əsasını qoymuşlar.

Bəzən ana kənddən ayrılan törəmə kəndlər öz əvvəlki ad mənsubiyyətini qoruyub saxlayır (məsələn, keçmiş Qazax qəzasının Salahlı və Kəsəmən kəndlərindən ayrılan tayfaların Azərbaycanın müxtəlif bölgələrində saldıqları eyniadlı kəndlər buna misaldır), bəzən də ya kənd adlarına, ya da kənddən ayrılan tayfa adlarına xüsusi komponentlər (oba, binə, tala, dizə, məzrə və s.) əlavə olunurdu. Oba və binə komponentli kəndlər bütün Azərbaycan üçün xarakterik olsa da, **məzrə** və **dizə** komponentli kəndlər yalnız Naxçıvan bölgəsi üçün səciyyəvidir (Orucdizə, Mamirzədizə, Kərimbəydizə, Qulubəydizə, Alagözməzrə, Payızməzrə, Kərimqulu dizəsi, Həsən ağa dizəsi, Nursməzrə, Zeynəddin məzrə, Yaycı dizəsi, Məzrə və s.)

Azərbaycanın ənənəvi yaşayış məskənlərindən bəhs edərkən **şəhərtipli məskənlər** xüsusi qeyd edilməlidir. Tarixi məlumatlar Azərbaycanda şəhərtipli ilk yaşayış məskənlərinin e.ə. II-I minilliyin əvvəllərində meydana gəldiyini təsdiq edir. Manna, Atropatena, Albaniya şəhərləri karvan-ticarət yolları üzərində yerləşməklə şəhər məişət tərzinin bütün göstəricilərinə tam cavab vermişdir. Azərbaycanını feodal tipli şəhərləri sırasında əsas yer tutan Bakı, Təbriz, Ərdəbil, Marağa, Şamaxı, Gəncə, Naxçıvan, Bərdə, Dərbənd, Qəbələ, Beyləqan, Şabran, Şuşa, Şəki və s. yaşayış məskənlərinin yerli sosial-iqtisadi inkişafındakı rolunun müxtəlifliyinə baxmayaraq, onların memarlıq planlaşdırma quruluşalarında bir sıra ümumi cəhətlər olmuşdur. Vaxtilə salınan Azərbaycan şəhərləri ərazisinin funksianal mənalarına görə **"ərk"** (İç qala, Narın qala), **"şəhəristan"** (əsilzadələrin yaşadığı hissə) və **"rabat"** (sənətkarlıq və ticarət hissəsi) adlı üç müxtəlif bölmədən ibarət idi. Hakimin sarayı və başqa əsas rəsmi inzibati binalar, eləcə də onlar üçün ayrılmış sahələr vahid planlaşdırma kompleksi şəklində istehkam divarları ilə əhatə olunmuş ərazidə yerləşdirilərək şəhərin əks hissəsini təşkil edirdi. Şəhəristan adətən, həm müdafiə, həm də xarici görkəm baxımından şəhərin əhəmiyyətli və gözəgəlimli sahəsində yerləşirdi.



Yaşayış, ticarət və sənətkarlara məxsus binaların yerləşdiyi şəhərin rabat bölməsi mürəkkəb və qarışıq küçə şəbəkəsi ilə, onun struktur vahidini təşkil edən ayrı-ayrı müxtəlif biçimli və formalı sektorlara bölünməsi də diqqəti cəlb edirdi. Ticarət və sənətkarlığa aid binalar rabatın daxilində, ya böyük bir bazar meydançasının ətrafında, ya da əsas küçələrin birinin boyunca vahid planlı kompleks kimi yerləşdirilərək şəhərin ticarət-sənətkarlıq bölməsini təşkil edirdi. Rabatın bazarlar, sənətkar emalatxanaları məhəllələri-çarsu və dalanlar, iri şəhərlərdə karvansaralar xırda, əyir-üyrü küçələrlə əhatələnərək döngə və dalanlar vasitəsi ilə yaşayış sahəsi ilə əlaqələnirdi. Belə dar küçələrdə hərəkəti nizamlamaq üçünü evlərin döngəyə açılan küncləri oval formada hörülürdü.

Azərbaycaının şəhər tipli yaşayış məskənlərinin digər cəhətlərindən biri də onların ayrı-ayrı məhəllələrdən ibarət olmasıdır. Əhalinin müxtəlif ictimai təbəqəyə və sosial-iqtisadi mövqeyə mənsub qruplarının ayrı-ayrı məhəllələrdə sakin olması yalnız Azərbaycanda deyil, bütün Şərq ölkələrində şəhərsalma içində bir ənənə kimi təzahür edərək uzun müddət davam etdmişdir. Əhalinin ictimai istehsaldakı mövqeyi və mənsub olduğu bu və ya başqa



ta yfanın bu və ya başqa əlamətlərindən asılı olaraq məhəllələr müxtəlif adlar daşıyırdı. Məsələn, köhnə Şamaxı-Ərəblər, Ərdəbilli, Dərəməhlə, Cidaməhəllə, İmamla, Ağçılar, Şeyx Zahirli, Şeyx Zaman, Sarıtorpaqlı, Şatırlı, Yuxarı qala; Gəncə-Ozanlar, Bağbanlar, Zərrabi, Toyuqçular və s.; Şəki-Şərbaflar, Dabbaqlar, Əfqanlar, Yuxarı baş, Gəcəli, Paydımlı, Çayqırax, Dulusçular [16]; Ordubad-Yuxarı Ambaras, Kürdətal, Mingiz, Sərşəhər, Xüştürləng, Əngəc kimi məhəllələrə bölünmüşdür. [17] Məhəllələr ayrı-ayrılıqda şəhərin bir və ya bir neçə bölməsini əhatə edirdi. Əhalinin rahatlığı üçün hər məhəllədə məscid, hamam, mədrəsə və b. ictimai və dini səciyyəli binalar inşa edilirdi. Azərbaycaın şəhər tipli yaşayış məskənlərinin əsas xarakterik xüsusiyyətlərindən biri onlarda evlərin fasadanın həyətə tərəf istiqamətləndirilməsidir. Ailə məişətinin spefikası ilə bağlı olan belə planlaşdırma keçmişdə bütün müsəlman Şərqində mövcud idi. Lakin sonralar bu cəhətlər aradan qaldırılmış, şəhər tipli yaşayış məskənlərinin inkişafında yeni memarlıq elementləri (küçəyə açılan pəncərə və eyvanlar, milli ornamentlərlə bəzədilmiş və taqqılbablar qoyulmuş geniş darvaza və alaqapılar və s.) meydana gəlmişdir.

XX əsrin 30-cu illərində başlayaraq məhsuldar qüvvələrin inkişafı, yeni təsərrüfat formalarının yaranması ilə əlaqədar olaraq xalq yaşayış məskənlərinin yeni tipi-kolxoz və sovxoz qəsəbələri (Zəyəm, Dəllər, Müşfiq, M.Ə. Sabir adına qəsəbə, Kijəba, Qəhrəmanlı, Kür, Lahıc, Basqal, Diyyalı və s.) vahid memarlıq-layihə prinsipləri əsasında salınmışdır. Belə məskən tiplərinin əsas memarlıq-plan quruluşuna daxil olan baş küçə özündə inzibati, mədəni-məişət, ticarət və yaşayış binalarını birləşdirirdi. Belə qəsəbələr geniş xiyabanları, işıqlı küçələri, mədəniyyət və istirahət parkları, müasir memarlıq üslubunda tikilmiş yaraşıqlı binaları ilə də diqqəti cəlb edir.

Azərbaycan yaşayış məskənlərini relyef üzrə təsnifata görə yamac, yarımyamac, vadi və düzənlik olmaqla dörd qrupa bölmək olar. Azərbaycanın dağlıq və dağətəyi bölgələri üçün səciyyəvi olan yamac tipli kəndlərin əsas xüsusiyyəti onların, dağın küləkdən və dağ çovğunlarından mühafizə olunan, axar-baxarlı güney səmtində salınmasıdır. Belə kəndlər (Astara bölgəsinin Təngərud, Kuraba, Pəlikaş, Sərək; qərb bölgəsinin Çatax, Qoşabulaq, Şıxheybət. Xınnakiran, Sarıtala, Ağbulaq, Qalaboynu, Çeşməli; ayrımların yaşadığı Kiçik Qafqazın şimal-şərq yamaclarının əksər kəndləri; Daşkəsən rayonunun Zağalı, Qabaqtəpə, Mollahəsənli; Şirvanın Basqal, Lahıc, Diyallı, Köhnədaxar, Dəmirçi kəndləri; Naxçıvan bölgəsinin şimal və şimal-şərqində Zəngəzur və Dərələyəz dağ silsilələrinin sərt yamaclarında yerləşən Dırnıs, Badamlı və b. kəndləri) dağların güney yamaclarında salınmaqla, küçələri bir-birinə paralel yerləşdirilmişdir.

Yamac kəndlərin məskunlaşmasında başlıca şərtlərindən biri də onların su mənbələrinə (bulaq, nohur, çay, göl) yaxın olmasıdır. Bu tip kəndlərdə bir neçə qatda amfiteatr şəklində salınmış küçələr bütün kənd boyu uzanır və yaşayış evləri kənd küçələrinin ancaq bir tərəfində tikilir. Küçənin digər tərəfini isə yuxarı qatdakı evlərin həyətləri təşkil edir.

Yarımyamac tipli kəndlər Azərbaycanın həm dağ, həm də dağətəyi əraziləri üçün xarakterik olmuşdur. Bu tipli kəndlərin yamac hissəsi yamac tipli kəndlərin xüsusiyyətini özündə saxlayır, digər hissəsi isə düzənlik tipinə uyğun olurdu. Yarımyamac tipli kəndlər düzən kəndləri ilə yamac kəndləri arasında aralıq mərhələ təşkil edirdi.

[18] Naxçıvanın Tumbul, Qarabağlar, Gəncəbasarın, Qaşaltı, Qaryağdı kəndləri yarımyamac tipli kəndlərin gözəl nümunəsidr.

Azərbaycanın dağlıq ərazilərinə salınmış kəndlərin əksəriyyəti vadi tipli kəndlərə xas olan xüsusiyyətləri özündə birləşdirir. Bu xüsusiyyətlər Dağlıq Şirvanın məskunlaşma qaydasında aydın



izlənilir. Vadi kəndləri, adətən, dağ yamaclarının və dağ çaylarının əmələ gəldiyi səfalı və mülayim iqlimli vadilərin sinəsində salınırdı. Dağlıq Şirvanın Zarat, Ərçinəm, Talışnuru kəndləri Pirsaat çayı vadisində, Pirbəyli, Çayqurbançı. Qarabulaq, Xələfli, Qaracüzlü kəndləri Qozlu çayı vadisində, Ceyrankeçməz, Cəngi, Cülyan və Sulut kəndlərin eyniadlı çayların vadisində yerləşirdi.[19]

Vadi kəndlərinə Azərbaycanın qərb bölgəsinin həm dağlıq, həm də düzənlik hissələrində təsadüf edilir. Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndləri İncəsu çayı vadisində, Eldar düzünün Salahlı, Poylu, Kəsəmən, Qarabağlı kəndləri isə Qabırrı çayı vadisində salınmışdır. Keçmişdə Qazax qəzası kəndlərinin əhalisinin 2/3 hissəsi çay vadilərindəki kəndlərdə yaşayırdı. [20] Azərbaycanın kənd yaşayış məskənlərinin yerin reylef quruluşuna görə quruplaşmasının ən böyük vahidi düzənlik kəndləri idi. Əhalisinin əsas məşğuliyyəti əkinçilik olan

düzənlik kəndləri çox vaxt aran kəndləri də adlanırdı. Belə kəndlər sahəcə xeyli böyük ərazini tutur, “pərakəndə (dağınıq), həyətyanı sahələrin geniş olması, təsərrüfat tikililərinin yaşayış evindən, məhəllələrin isə xeyli bir-birindən aralı salınması və sərbəst yerləşməsi, əsas inşaat materialı kimi qarğı və çiy kərpicdən istifadə olunması, bürküyə qarşı evin kürsülük üzərində qurulması, sərinlik yaratmaq məqsədilə ağac və  meyvədən kölgəlik yaradılması ilə səciyyələnirdi”.



[illegible]



[illegible]





[21]

Kənd yaşayış məskənləri forma baxımından da fərqlənirdilər. Azərbaycanın ayrı-ayrı bölgələrində kənd tipli yaşayış məskənlərinin

müxtəlif formaları mövcud olmuşdur. Etnoqrafik materialların təhlili əsasənda belə nəticəyə gəlmək olar ki, torpaq çatışmazlığı, yerin relyef quruluşu, nəsli qəbilə quruluşu qalıqlarının hələ də güclü olması, qohum ailələrin bir-birinə yaxın məskunlaşmaya can atması, habelə kəndlərin cərgəvi formada, yəni küçə planlı sistemində salınmasına təşəbbüs göstərilməməsi səbəbindən XIX əsrdə Azərbaycanda ən geniş yayılmış kənd formaları kom-koma, pərakəndə (dağınıq), sıx-qarışıq tərkibli yığcam kəndlər olmuşdur. Digər kənd formaları (dairəvi və cərgəvi) nisbətən azlıq təşkil etmiş, müxtəlif bölgələrdə ayrı-ayrı terminlərlə ifadə olunsa da, prinsip və mahiyyətcə oxşarlıq təşkil etmişdir.

**Koma-koma kəndlərin** əsas səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, yaşayış binaları və təsərrüfat tikililəri ayrı-ayrı qruplar şəklində tikilərək bir-birindən müəyyən məsafədə yerləşir. Belə kəndlərin formalaşmasında patronimik münasibətlərin (qan qohumluğu birləşən icma üzvlərinin bir yerdə yaşağa can atması meyli), təbii-coğrafi şərait və yerin relyef quruluşunun, həmçinin iqtisadi amillərin (təsərrüfat fəaliyyətinin istiqaməti, məişət tərzi və s. ) mühüm rol oynamışdır. Koma-koma formalı kəndlər, bir qayda olaraq, Azərbaycanın dağlıq və dağətəyi əraziləri üçün xarakterik idi. Qərb bölgəsində Quşçu, Bozalqanlı, Göycəli, Cilovdarlı, Köçəsgər kəndləri, Şəki-Zaqatala bölgəsinin Nic, Xaçmaz, Danaçı, Əliabad kəndləri, Kəlbəcərin Lev, Çəpli, Susuzluq, Gəncə bölgəsinin Qaraqullar, Dəstəfur və Tapan kəndləri bu qəbildəndir. Koma-koma kəndlər bütün kənd formalarının yaranmasının ilkin mərhələsi olmuşdur. Başqa sözlə desək, hər bir kənd forması öz inkişafının başlanğıc dövründə koma-koma olmuş, sonralar, kəndin plan quruluşunun tədrici dəyişməsi, böyük patriaxal ailələrin dağılması hesabına kəndlərin eninə inkişaf etməsi nəticəsində yeni-yeni kənd formaları meydana gəlmişdir. Belə kənd formalarında biri də **pərakəndə** (dağınıq) kənd formasıdır. Belə kəndlər, əsasən, Azərbaycanın düzənlik əraziləri üçün xarakterik olmuş, düzənlik məskunlaşma tipinin bütün xüsusiyyətlərini özündə əks etdirmişdir. Oturaq həyat tərzi üçün zəruri olan geniş əkin sahələri, örüşlər, biçənəklər və s. düzənlik ərazidə bol olduğundan, burada məskunlaşan kəndlər də yaşayış evlərinin və kəndli həyətlərinin bir-

birindən aralı (pərakəndə) salınması ilə səciyyələnirdi. Geniş əraziyə malik olan **pərakəndə** (dağınıq) kəndlərin həndi bəzən özündən bir neçə kilometr uzaqları əhatə edirdi. Kəndlərin bu formasına Kür-Araz ovalığı, Şirvan, Gəncə-Qazax, Mil, Muğan, Qarabağ və Naxçıvan düzlərində daha çox təsadüf olunurdu. Naxçıvan bölgəsinin Seyfəli, Könüllü, Əlimərdanlı, Aşağı Ayıblı, Alpout, Qarabağlı (Eldar düzündə) kəndləri, Cənub bölgəsinin Şiyəkəran, Pensər, Ərkivan kəndləri, Şirvanın Növcü, Çiyni, Qaravəlli, Sarvan, İlıxçı, Kəngərli, Abbasxanlı, Rəhimli, Kəndoba və b. pərakəndə (dağınıq) formalı kəndlərə nümunə ola bilər.

Müvəqqəti məskunlaşan yaşayış məskənləri də dağınıq (nizamsız) formada mövud olmuşdur. Şirvan elatlarının obaları, "bir qayda olaraq, dağınıq halda yerləşmiş alaçıqlardan ibarət idi. Bununla belə məskənlərin plan əsasında salınmaması heç də onların quruluşunda müəyyən bir prinsipə əməl olunmadığını göstərmirdi." Alaçıqlar, əsasən qohumluq prinsipi əsasında qruplaşırdı. Belə ki, ortada tayfa başçısının, yaxud oba ağsaqqalının, onun ətrafında yaxın qohumların, bunlardan kənarda isə kasıb ailələrin və muzdla tutulmuş çobanların alaçıqları yerləşirdi". [22] Eyni qayda Azərbaycanın bütün müvəqqəti məskunlaşan elat məskənləri üçün xarakterik olmuşdur.

Azərbaycan kəndlərinin formaca üçüncü böyük vahidini sıx **(qarışıq)** tərkibli yığcam kəndlər təşkil edirdi. Həm dağlıq, həmd düzənlik ərazilərdə mövcud olan belə kəndlərin formalaşmasında relyefin müərkkəb quruluşu, yaşayış və məişət tikililərin inşası üçün əlverişli torpaq sahələrinin məhdudluğu və s. amillər əsas rol oynamışdır. Dağlıq ərazilərdə salınan kəndlərdə təbii maneələr yaşayış məskənin sahəsini artırmağa imkan vermir, böyük patriaxal ailələrin dağılması nəticəsində meydana gələn ayrı-ayrı ailələr məhəllə çərçivəsində kənara çıxa bilməyib, yaşayış evini məhz məhəllə daxilində tikməyə məcbur olurdu. Beləliklə, kəndin plan quruluşunda əmələ gələn tədrici sıxlıq onun simasını dəyişir, kəndlərin yığcam forma almasına səbəb olurdu.

Düzənlik ərazilərdə qarışıq tərkibli yığcam kəndlərin formalaşmasında böyük ailələrin parçalanması nəticəsində yeni yaranan ailələrin məhəllə çərçivəsində sığışmaması və digər nəslin

qonşuluğunda torpaq sahəsi götürüb orada məskən salması kimi sırf iqtisadi-məişət amili də mühüm rol oynamışdır. Eldar düzündəki Salahlı, Kəsəmən və Poylu kəndlərində belə yerdəyişmələr hesabına məhəllələr o qədər qarışmışdır ki, onların sərhədlərinin belə müəyyənləşdirmək çətindir. Şəki-Zaqatala bölgəsində Dağ Suvagil, Şirvanın Zarat, Dəmirçi, Köhnədaxar, Namazgah, Vaşa, Ordubadın Vənənd, Gəncəbasarın Borsunlu, Faxralı, Rəhimli kəndləri sıx (qarışıq) tərkibli yığcam kəndlərin ən yaxşı nümunəsidir. XX əsrin əvvələrinə doğru kəndlərin bu forması daha da sabitləşmişdir.

XIX-XX əsrin əvvəllərinə Azərbaycanda **dairəvi və cərgəvi** plan quruluşlu kənd formalarına da rast gəlinirdi. Dairəvi kəndlərin salınmasında yaşayış məskənlərinin müdafiəsi mülahizələri əsas tutulur, evlər məscid, bazar, dükan, karvansara, meydanlar və s. ətrafında dairəvi forma üzrə yerləşdirilirdi. Dairəvi formalı kəndlərin əhalisi əsasən ticarətdə məşğul olurdu.

Cərgəvi formaların kəndlərin isə xüsusiyyəti onların təbii yarğan, qobu, çay, arx, dəmiryolu, magistral yoların kənarı boyunca salınmasıdır. Belə kəndlərdə yaşayış binaları bəzən yolun ( arxın, qobunun, yarğanın, çayın və s. ) bir tərəfi, bəzən də hər iki tərəfi



boyunca cərgəvi formada düzülürdü. Cərgəvi formalı kəndlər Azərbacanın həm dağlıq, həm də düzənli hissəsində mövcud olmuşdur. XIX-XX əsrin əvvəllərində Naxçıvan böləginin dağlıq hissəində, Naxçıvan-Şuşa magistral yolunun ətrafında yerləşən Biçənək kəndi, düzənlik hissəsində yerləşən Muğancıq kəndi, həmçinin Gəncə bölərgisinin Ballıcaçay boyunca yerləşən Qaraqullar kəndi cərgəvi formalı kəndlərin tipik nümunəsidirlər.

Yaşayış məskənlərinin tarixən qərarlaşmış tipləri arasında əksəriyyət təşkil edən kəndin plan quruluşunda **həyətlər** təşkil edir. Ölçülərinin və plan quruluşlarının müxtəlifliyinə (düzbucaqlı, çoxbucaqlı, formasız) baxmayraq, dağ kəndləri istisna olmaqla, kəndli həyətlərinin hər biri məişət xüsusiyyətlərinə və istifadə tərzinə görə üç bölmədən ibarət idi: 1.Yaşayış və təsərrüfat tikililərin yerləşdirildiyi inşaat bölməsi. 2. Yaşayış və təsərrüfat binalarının qarşısında yerləşən məişət-istehsal bölərmsi. 3. Əkin-dirrik sahəsi və meyvə ağaclarının yaşıllıq bölməsi.

Göstərilən bölmələrdən hər biri digərindən taran, qarğı çəpər, çubuqhörmə və s. ilə ayrılsa da, onların arasında əlaqəni təmin etmək üçün kiçik qapı, çax-çax və s. addamacdan istifadə edilirdi. Həyətlərin belə bölmələrə ayrılması kəndlinin ona məxsus torpaqdan səmərəli istifadə etməsinə gözəl imkan verirdi.

Kəndli həyətlərinin mühüm elementlərindən biri olan inşaat bölməsi həyət daxilində yerləşmə mövqeyinə görə müxtəlif variantlarda təzahür edirdi. Azərbaycanın kəndli həyətlərinin əksəriyyət təşkil edən formalarından biri inşaat bölməsinin küçəyə yaxın səmtə yerləşməsi ilə səciyyələnirdi. Düzənlik kəndləri üçün xarakterik olan bu halda yaşayış və təsərrüfat tikililərin arxa divarı küçəyə baxır və orada pəncərə qoyulmurdu. Evlərin küçəyə baxan arxa divarlarında pəncərə açırımlarının qoyulmaması son dövrlərə qədər Şərq ölkələrində mövcud olmuş ev məişətinin və əhalinin həyat tərzinin yad nəzərlərdən mühafizə edilməsi, habelə küçənin tozlu havasının evin otaqlarına dolmasının qarşısının alınması mülahizəsi ilə izah olur.

Yaşayış evi və təsərrüfat tikililəri (tövlə, ağıl, mərək, xalxal, banıstan, ot tayası üçün talvar, quraqlıq, hin, it damı-dolan və s.) qarşısında adətən qarğı, çubuq və qamışdan hasarla təcrid olunmuş xüsusi sahə-sərdən olurdu. Azərbacanın Şəki-Zaqatala bölgəsində “mal məhləsi” adı ilə qeydə alınmış isti aylarda mal-qara saxlanılır, sağılır və yemlənməsi üçün axur tikilirdi. Bu tip həyətlərdə yaşayış evi təsərrüfat tikililərindən xeyli aralı yerləşirdi. Ümumiyyətlə, yaşayış evinin həyətin hansı səmtində yerləşməsi qaydası, həmin həyətin qonşu həyətlə nisbətdə yerləşmə mövqeyindən, küçə ilə əlaqəsindən, iqlim şəraitindən, təsərrüfat növündən, ev sahibinin iqtisadi imkanından və s. amillərdən asılı idi.





Kəndli həyətinin nisbətən az hissəsini tutan məişət-istehsal bölməsi (Azərbaycaının bəzi kəndlərində buna “eşik”, “qapı-baca”, “çöl”, “qapı”, “məhlə” də deyilirdi) yaşayış binasının qarşısında yerləşir və xüsusi arakəsmə vasitəsilə digər bölmələrdən təcrid olunurdu. Burada təndirxana (təndirəsər) və ocaqlıq, ərzaq ehtiyatını saxlmaq üçün “buzxana”, qırxayaq, xərpiştə, əl-ovuc damı (Naxçıvan), fakin, uja, ginəbun, (Lənkəran-Astara), məişət qabları yığmaq üçün “tərəcə” və s. yerləşirdi. İlin isti aylarında məişət-istehsal böləmsi daha çox “açıq mətbəx” rolunu oynayırdı. Bundan başqa, ev məişətində bütün



istehsal prosesləri (əyirmək, daramaq, toxumaq, keçə salmaq, süd məhsullarını emal etmək və s.) orada həyata keçirilirdi. Təsərrüfat

fəaliyyətinin (əkinçilik, maldarlıq, kustar sənətkarlıq) xarakterindən asılı olaraq həyətlərin bu bölməsi həcm etibarilə müxtəlif olurdu. Kölgəlik, sərinlik yaratmaq üçün aran kəndlərində məişət-istehsal bölməsinin ətrafına tut, söyüd və qovaq ağacları əkilir, üzərinə üzüm budaqları sarmaşdırılmış hündür çardaq düzəldilirdi.

Azərbaycanın ayrı-ayrı bölgələrinin reylef quruluşu, təbii-coğrafi şəraiti və əhalinin təsərrüfat məşğuliyyətindən asılı olaraq əkin-dirrik sahəsi və meyvə ağaclarının yerləşdiyi yaşıllıq bölməsi (hoyul və ya pərəkər) kəndli həyətlərinin müəyyən hissəsini təşkil edirdi. Əsas məşğuliyyət maldarlıq olan və dağlıq bölgədə yerləşən kəndlərdə həyətin bu bölməsinə ehtiyac yox idi. Dağətəyi və aran kəndlərində isə, yaşıllıq bölməsi həyətin əksər hissəsini tuturdu. Aran kəndlərində əkinə yararlı suvarılan torpaqların olması buna geniş imkan verirdi. Çox zaman meyvə ağacları yaşıllıq bölməsinin bir tərəfində əkilir, əkin-dirrik (pərəkər) sahəsi isə digər tərəfdə salınırdı. Aralıqda qalan sahə xama (dincə) qoyulurdu. Adətən, yaşıllıq bölməsinin hissələri bir-birindən alçaq arakəsmələr vasitəsi ilə ayrılır., giriş üçün çax-çax (pələnd-Muğan; qəsdək, bərə-Şəki-Zaqatala; dərbaza (Naxçıvan) qoyulurdu. Həyətin bu bölməsində, həmçinin, süni su çalası-hovuz, göl yerləşirdi.

Azərbaycanın tarixi-etnoqrafik bölgələrinin təbii-coğrafi şəraitindən və relyef xüsusiyyətlərindən, əhalinin təsərrüfat məşğuliyyətindən, başlıcası isə dövrün tələblərindən asılı olaraq həyətyanı sahələrin həcmi müxtəlif olurdu.





Kəndli həyətlərinin xarici mühitdən təcrid etmək, Şərq adətincə onun qapalılığını təmin etmək və ümumi kompozisiyanı tamamlamaq üçün Azərbacanın bütün bölgələrində həyətlərin ətrafına hasar (barı, çəpər) çəkilirdi. Həyətlərin hasara alınmasının mühafizə əhəmiyyəti də vardı. Xüsusi mülkiyyətin hakim olduğu bir zamanda varlılar öz həyətlərinin ətrafına hasarlar çəkirdilər. Kəndli həyətlərinin ətrafına hasarların çəkilməsidə qarğı, qamış, daş, çiy kərpic, kol, çubuq, möhrə, ağac və s. kimi yerli materiallardan geniş istifadə edilirdi. İstifadə olunan materialdan, tikinti tərzindən və təyinatdan asılı olaraq çəpərlərin müxtəlif növləri (payalı çəpər, xəndəkli-payalı çəpər, dik çəpər, yorğa çəpər, sındırma çəpər, hörmə çəpər, təppə çəpər, çax-çax çəpər, tapan çəpər, qanqala çəpər, darava, basma çəpər, daşqura hasar və s.) mövcud olmuşdur.

Kəndli həyətlərini hasarlarının tamamlayan mühüm elementlərdən biri giriş yolunun



düzəldilməsi idi. Etnoqrafik materiallardan məlum olur ki, həyətə giriş doqqaz (pospələnd), çax-çax (addamac, qəsdək) və darvaza (alaqapı) formasında mövcud olmuşdur. Doqqazı 3-4 m uzunluğunda 4-5 ədəd ağac zolaları bir-birindən 30-40 sm aralı, üst-üstə paralel düzərək qururdular. Doqqazın digər bir forması giriş yolunun kənarlarına basdırılmış yoğun dirəklə iki ədəd 1,5x2,0 m ölçüdə çubuqdan hörülmüş “çərpərə” bərkitməklə düzəldilən “çəpərli doqqaz” idi. Muğan bölgəsinin əksər kəndləri üçün səciyyəvi olan pospələnd yulğun şivələrdən və ya qamışdan qom üsulu ilə düzəldilir, bütöv laylı darvazanı xatırladırdı.

Çax-çax (addamac) formalı həyətə giriş yolu hər bir kəndli ailəsinin iqtisadi vəziyyətindən və təsərrüfat məşğuliyyətindən asılı olaraq düzəldilirdi. O, adətən bir adamın sərbəst surətdə keçə bilməsi üçün nəzərdə tutlduğundan, ensiz olurdu. Çax-çax (addamac) düzəltmək üçün bir-birindən 80-90 sm aralı basdırılmış iki dirəyin üzərində 30-40 sm aralı paralel açılmış kərtlərə köndələn şəkildə 10-12 sm diametrli ağaclar bərkidilirdi. Kobud və gödək nərdivanı xatırladan çax-çaxdan keçmək üçün hər iki əllə onun dirəklərindən tutub yuxarı qalxaraq üstündən aşmaq lazım gəlirdi.

Həyətə giriş yolunun memarlıq cəhətdən daha kamil və yaraşıqlı forması darvaza və alaqapılı darvaza idi. Əhalinin təsərrüfat məşğuliyyətindən asılı olaraq darvazaların ölçüləri də müxtəlif olurdu. M.N.Nəsirli yazırdı ki, böyük həcmli nəqliyyat vasitələrindən istifadə etmək əhalini darvaza qapı növündən istifadə etməyə sövq etmişdi. [23]

Adətən, qoşqu nəqliyyatının və yük heyvanlarının geniş istifadə olunduğu dağətəyi və aran kəndlərində darvaza enli, hündür və ikitaylı düzəldilirdi. Çox güman ki, “dəvəçi ilə dost olanın darvazası gen gərək”-atalar məsəli də məhz bu mülahizə əsasında yaramışdır.

XIX əsrdə Azərbacanın əksər bölgələrində mövcud olmuş darvazalar öz quruluşuna görə bir və ya ikitaylı düzəldilirdi. Darvaza, əsasən, təkərli və yüklü nəqliyyat vasitələri girib-çıxarkən açılıb-bağlandığında, ailə üzvlərinin keçməsi üçün onu hər dəfə açıq-bağlamaq sərfəli deyildi. Bunun üçün ya darvaza tayının birinin üstündə 80x150 sm ölçüdə kiçik qapı (alaqapı), yaxud da darvazadan azca aralı ayrıca kiçik giriş qapısı qoyulurdu.



Bəzən elə həyətlərə təsadüf olunurdu ki, orada giriş yolu üçün həm darvaza, həm də çax-çax (addamac) qoyulurdu. Adətən, iki paralel küçənin arasında yerləşən belə həyətlərin bir tərəfində iri darvaza, digər tərəfində isə çax-çax (addamac, qəsdək) qoyulurdu.

XIX əsrdə Azərbaycanın şəhər tipli yaşayış məskənlərində dəbdəbəli, mükəmməl bəzədilmiş, kamil sənət əsəri təsiri bağışlayan geniş darvazalar üstünlük təşkil edirsə, kəndli həyətlərinin əksəriyyətində onlar sadə, səliqə ilə yonulmuş ağac hissələrindən düzəldilirdi. Darvazalar, bir qayda olaraq, taqqılbab, zəndulbab, halqacəftə, içəridən bağlamaq üçün süngü, ling, at və ya digər minik-nəqliyyat vasitələrini bağlamaq üçün adi halqa və s. ilə təhciz edilirdi. Naxçıvan bölgəsində qapı (darvaza) üzərinə bərkidilmiş taqqılbabla evin kişisi, zəndulbabla isə evin xanımı çağırılardı.

Şəki–Zaqatala bölgəsində qeydə alınmış bürcvari və yaxud köşklü darvazalar öz orjinallığı ilə diqqəti cəlb edir. Bu darvazalar həyət divarının münasib yerində dördkünc, ikimərtəbəli, birgözlü tikintini xatırladır. Tikintinin alt mərtəbəsi qoşaqapılı darvaza və

dalandan, üst mərtəbəsi isə iki tərəfə, bəzən dörd tərəfə pəncərəsi olan otaqdan ibarətdir. Belə darvazalar XX əsrin əvvələrində aid olsa da, onların qalıqlarına Tala kəndində indi də təsadüf etmək olur.

Azərbaycanın Gədəbəy, Daşkəsən, Kəlbəcər, Lerik, Yardımlı, Quba, Şəki bölgələrinin bəzi dağ kəndlərində, xüsusilə Şirvanın Göylər, Quşçu, Çağan, Sündü, Çuxanlı və b. kəndlərində daşdan yolunub düzəldilmiş darvazalar da mövcud olmuşdur. [24]

Beləliklə, Azərbaycan xalq yaşayış məskənlərinin meydana gəlməsində, müxtəlif tip və formalarının təkamül mərhələlərindən keçərək sabit yaşayış məskəninə çevrilməsində təbii-coğrafi şərait, dövrün sosial-siyasi durumu, təsərrüfat məşğuliyyətinin istiqaməti və s. amillər həlledici rol oynamışdır. Arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə istinad edərək bu təkamül prosesini təbii mağaralardan tutmuş müasir kənd və şəhər tipli yaşayış məskənlərinə kimi ardıcıl izləmək mümkündür.

## YAŞAYIŞ EVLƏRİ VƏ İNŞAAT TEXNİKASI

Ev-insanların əsas yaşayış vasitələrində olub, onların təbii-zəruri istirahətini, təsərrüfat, məişət və həyati tələblərini təmin edən mühüm mədəniyyət abidəsidir. [25]

Yaşayış evlərinin müxtəlif tiplərinin formalaşmasında inşaat materialları mühüm əhəmiyyət kəsb etmişdir. Azərbacanın təbii-coğrafi və iqlim şəraitinin, həmçinin, topoqrafik quruluşunun müxtəlifiliyi, burada inşaat materialının ayrı-ayrı növlərindən səmərli istifadə etməyə imkan vermişdir. Əhalinin istifadə etdiyi ənənəvi inşaat materialları daş, ağac, gil, kərpic, gəc, əhəng, kirəmit, qır, qarğı, qamış, çubuq, keçə və s.dən ibarət olmuşdur. Maddi imkandan, təsərrüfat fəaliyyətindən və ərazinin relyefindən asılı olaraq həmin materiallardan tikinti təcrübəsində bu və ya digər dərəcədə istifadə edilmişdir.

Azərbacan xalq yaşayış evlərinin öyrənilməsi belə bir fikir söyləməyə imkan verir ki, yaşayış evi tikilən ərazilərdə hansı tikinti materialı üstünlük təşkil etmişdirsə, evlər də həmin materiallardan inşa edilmişdir.

Azərbaycanın düzənlik, qismən də dağətəyi ərazilərində ənənəvi tikinti materialı kimi gildən (palçıqdan) və çiy kərpicdən geniş istifadə olunmuşdur. Yüksək keyfiyyətli gildən inşaat təcrübəsində istifadə olunması tarixi çox qədimdir. Qazax rayonu ərazisində Sarıtəpə yaşayış yerində arxeoloji qazıntılar zamanı möhrədən (palçıqdan) tikilən divar qalığnın aşkar edilməsi e.ə. I minillikdə burada palçıq-möhrə evlərdən istifadə edildiyini söyləməyə imkan verir. [26] Möhrədən tikilən belə evlərin memarlıq cəhətdən primitiv olmasına baxmayaraq, onlardan bəzən bir neçə yüz illərlə istifadə olunduğu etnoqrafik ədəbiyyatda qeyd edilir. [27]





Tikinti materialı kimi gildən suvaq və hörgü işlərində də isitfadə olunurdu. Kərpicdən tikilmiş bütün evlərin hörgüsü gil məhlulu ilə aparılır, divarın hər iki tərəfi, içərisinə saman qatılmış palıçıqla suvanırdı. Bundan başqa, evin damına və döşəməsinə də suvaq çəkilir, döşəmənin üzəri xüsusi növ gillə şirələnirdi.

Çiy kərpic hazırlanmasında da gildən istifadə olunurdu. Arxeoloji qazıntılar zamanı Ağstafa bölgəsində Şomutəpə yaşayış yerindən 104 kv.metrlik sahədə ölçüləri 34x12x7 sm və 36x13x9 sm olan çiy kərpicdən tikilmiş ev qalığı və təsərrüfat tikilisinin aşkara çıxarılması [28] yerli əhalinin artıq e.ə. IV minilliyin axırlarında çiy kərpicdən ev tikməyi bacardığını göstərir. Şirvanda Xınıslı yaşayış yerinin e.ə. II əsrə aid mədəni təbəqəsindən, [29] Naxçıvan böləgəsindəki Kültəpə yaşayış yerinin mədəni təbəqələrindən aşkar edilmiş çiy kərpicdən hörülən divar qalıqları [30] da deyilənləri təsdiq edir.

Hazırlanma üsulu olduqca bəsit olduğundan, əsrlər boyu Azərbaycanın aran və dağətəyi kəndlərində çiy kərpicdən geniş istifadə olunmuşdur. Kərpic kəsmək üçün bu məqsədlə ayrılmış torpaq sahəsini belləyir və oraya su buraxırdılar. Torpaq yumşaldıqdan sonra üzərinə doğranmış saman səpərək ayaqlamağa başlayırdılar. Kərpic ustalarının dediyinə görə, içərisinə saman qatılmış palçıq daha davamlı olur, çatlayıb ovxalanmırdı. Palçıq hazırlamaq prosesi çətin iş olduğundan, adətən iş heyvanlarının gücündən də istifadə olunurdu. Samanla palçıq tam qarışandan sonra, hazır kütləni 2-3 müddətində "acımağa qoyurdular". Kərpic kəsmək üçün hazır palçığı xüsusi hazırlanmış

qəlibə doldurur, üstünü əllə hamarladıqdan sonra, təmizlənmiş sahəyə gətirir, ehmalca üzü üstə yerə çevirirdilər. Palçığın torpağa, eləcə də qəlibə yapışmaması üçün qəlibi içərisinə su doldurulmuş kiçik çalaya salıb çıxarırdılar. Kəsilmiş kərpicin təxminən hər tərəfi quruyurdu. Kərpici yazda və payızda kəsib qurutmaq daha əlverişli idi. Bu zaman günəş şüaları onu bərabər səviyyədə qurudurdu. Quruduqdan sonra onları pramida formasında yığır, yağıntıdan qorumaq üçün üzərinə ot, küləş, qarğı və cil biçib tökürdülər.

Azərbaycanda istifadə edilən qəliblərin ölçüləri və gözlərinin sayı müxtəlif oluşdur. Kərpic kəsilməsində, bir qayda olaraq, ölçüləri 40x20-21x15-16 sm və ya 60x23-24x12-13 sm olmaqla "ayıbalası qəlibi" adlanan 2,3,4 gözlü qəliblərdən istifadə olunurdu. Bundan başqa, ölçüləri bir qədər kiçik olan qəliblər də işlədilmişdir. Öz işinin ustası olan hər bir kərpickəsən gün ərzində 800-1000 ədəd kərpic kəsməyi bacarırdı.

XIX-XX əsrin əvvəllərində tikilən evlərin əksəriyyətində "ayıbalası" kərpicdən istifadə olunmuşdur. Bunun əsas səbəbi mərtəbəarası və dam örtüyünün böyük ağırlığa malik olması, antoseysmik mülahizələrin nəzərə alınması və divarlarda çoxlu sayda açırımların-taxça, yük yeri (camaxatan), divar şkafı, buxarı, dolab və s. qurulması ilə izah olunur. "Ayıbalası" kərpicin ölçülərinin böyük olması divar hörgüsünü iki qatda hörməyə və divar qatlarını bir-birinə möhkəm bağlamağa imkan verirdi.

Etnoqrafik materiallardan aydın olur ki, Azərbaycanın şəhər tipli yaşayış məskənlərində və bəzi kəndlərində bişmiş kərpicdən (qırmızı kərpic) də geniş istifadə olunmuşdur. Bişmiş kərpic yerli gil materiallarından kustar sənətkarlıq karxanalarında hazırlanırdı. Bunun üçün gildən yoğrulmuş palçıq çiy kərpic formasında qəlibləndikdən sonra 5-6 gün açıq havada saxlanılır, daha sonra sobalarda bişirilirdi. Naxçıvan bölgəsində bişmiş kərpicin qədimlərdən istifadə olunduğu, X-XII əsrlərdə isə onun istehsalının kütləvi hal aldığı məlumdur. Burada ölçüləri 22x22x5-7 sm, 17x17x6x5-7 sm olan "qızılbaş" kərpicinin və ölçüləri 24x11-12x7-8 sm və 24x11x6x5-1 sm olan "rus" kərpicinin yayıldığı qeyd edilir. [31] 1911-ci ildə Naxçıvanda tikilən bişmiş kərpic zavodu öz fəaliyyətini bu yaxınlaradək davam etdirirdi. Bişmiş kərpic

zavodları Lənkəran-Astara, Gəncəbasar və Şəki-Zaqatala bölgələrində də mövcud idi.

XIX-XX əsrin əvvəllərində Cənub bölgəsi (Astara Lerik, Lənkəran, Masallı, Yardımlı) kəndlərində orta tavanlı əhali ev tikintisi zamanı bişmiş kərpiclə çiy kərpici kombinə edərək işlətməyə üstünlük verirdi. Belə ki, evin fasad divarlarının üst qatı bişmiş kərpiclə, içəri qatı isə çiy kərpiclə (lal kərpic) hörülürdü. Fasad hissəsinin bu cür hörülməsinə "rükət verməklə tikinti üsulu" deyilirdi.

XIX əsrdə Azərbaycanın dağ və dağətəyi, həmçinin çay vadilərindəki kəndlərində tikinti material kimi çaydaşı və kötürdaşdan (qaya daşı) geniş istifadə olunurdu. Daşdan tikinti materialı kimi istifadə olunması Azərbaycan ərazisinin ən qədim sakinlərinə məlum idi. Sarıtəpə yaşayış yerinin e.ə. VIII-VI əsrlərə aid edilən II,VII və VIII kvadratlarında, həmçinin, Xınıslıda aşkar edilmiş divar qalıqlarının hörgüsündə möhrə və çiy kərpiclə yanaşı, daşdan istifadə edilmişdir. Qərb bölgəsindən keçən Şəmkir, Zəyəm, Tovuz, Axınca, Əsrik, Həsənsu, Ağstafa, Coğaz, Tərsçay, Qabırrı, Kür və b. çaylar və onların qollarının; Şirvanda Girdiman, Ağsu, Pirsaat, Dəvəbatan çaylarının; Lənkəran bölgəsində Bəşəru və Viləş çaylarının, həmçinin Şəki-Zaqatala bölgəsi çaylarının yataqları  çay daşı ilə zəngin olmuş və ondan geniş istifadə edilməsi üçün əlverişli şərait mövcud olmuşdur.

Azərbaycanın xalq yaşayış evlərinin tikitisində çaydaşından fəqli olaraq qayadaşı (kötürdaşı), bir qayda olaraq, xam və işlənmiş şəkildə istifadə olunurdu. XIX əsrdə qərb bölgəsinin əhalisi tikinti daşlarının Daşsalahlı, İncili, Ağköynək, Musaköy, Zəyəm, Daşkəsən və Murut mədənlərindən; Şirvan əhalisi Xilə, Böyük Çil, Pirəxəmiş, Tava qışlağı, Kolaxanı, Çildaş, Qurbanlı, Bəklə, Udulu, Yekəxana, Mərəzə, Cəməcəmli mədənlərindən; Naxçıvan əhalisi Şahtaxtı, Tağğəraltı, Oğlan-qız, Xaraba, Gilan və Qarabağlar mədənlərindən; Bakı əhalisi isə Şıx, Xilalan, Kəmli, Qaradağ və b. daş karxanalarından əldə edirdi. Bəhs olunan dövrdə Azərbaycanın tikinti daşı ilə zənginliyini yazılı məlumatlar da təsdiq edir. [32]

Əhalinin xalq yaşayış fondunun formalaşmasında ağac materiallarından da istifadə edilirdi.  Azərbaycanın Quba, Lənkəran, Şamaxı. Şəki və Naxçıvan qəzaları, həmçinin, Kiçik Qafqaz ərazisi

meşlərlə zəngin olduğundan, bu ərazilərdə bol meşə-ağac materialı əldə etmək mümkün idi. XIX əsrin sonlarında Azərbaycanın bütün meşələrinin 24,3 faizinin təşkil edən Qarayazı, Dilican, Kürboyu tuğay meşələrindən, həmçinin Kiçik Qafqaz dağları ətəklərindəki meşələrindən tikinti üçün sərfəli materiallar əldə edilir, ev inşaatında işlədilirdi. Ağac materialları, bir qayda olaraq, evin dirək, kərən, pərdi, qapı, dərasər, dam örtüyü, taxtapuş (dran), pəncərə, sütün, sürahı, divar şkafı (gəncənə), zeh, harma ağacı və müxtəlif bəzək elementlərinin (şəbəkə) hazırlanmasında, həmçinin müxtəlif təyinatlı təsərrüfat tikililərinin inşasında istifadə edilirdi. Kərtmə, cığma, aradoldurma kimi ev tiplərinin inşasında ağac materialları əvəzedilməz idi. Tikinti təcrübəsində qarağac (Ulmus Canpetris) palıd (Cnep  us pedun culata ehri), fıstıq (Fadus orinetalis lipsky), göyrüş (Fraxsinus exselsior L), vələs (Carpinus, Berelus L), şam (Pinus), ardıc (Juniperus) və b. ağac cinsləri başlıca yer tuturdu. Dağlıq Şirvanın və Cənub bölgəsinin yaşayış evlərinin taxtapuş dam örtüyünün hazırlanmasında da ağac materialı (xüsusilə dəmirağac) geniş işlədilirdi.

Azərbaycanın düzənlik ərazinlərindəki kəndlərdə qarğı, qamış, avar və çubuq əsas tikinti materialı hesab olunurdu. "Durna" və "Çovustan" tipli evlərin tikintisində bu tikinti materialları əvəzsiz idi. Evin yanlarının və dam örtüyünün qurulmasında geniş istifadə olunurdu.

Cənub bölgəsində geniş yayılmış "sündünəkə" tipli ("sünd"-dirək deməkdir: "dirək ev") evlərin "kümünün bağlanmasında" (dam örtüyünün qurulmasında) qamış və lığdan geniş istifadə olunurdu. Xarapa və pılkalardan çatma formalı düzəldilən dam örtüyünü üzərinə, ətəkdən başlayaraq qamış, lığ dikinə qoyulurdu. Damın ətək yanlarına qoyulan qamış, lığ qomları lijmun (yağmurluq), dikinə qoyulan qom isə "sədu eğəti" (kəlləlik, tac) adlanırdı.

Qarğı, qamış və çubuq həyətlərin ətrafına çəpər çəkilməsində və müxtəlif səciyyəli təsərrüfat tikililərinin (quraqlıq, təndirxana, çardaq, heyvandarlıqla əlaqədar inşa olunan təsərrüfat tikililəri və s.) ətrafının hörülməsində inşaat materialı kimi çubuq, keçə, palaz, çadır, "örəmə" adlanan xüsusi hörülmüş qotazlı ip və çətəndən istifadə edilirdi.

Kirəmit, tənəkə-dəmir örtüklər və s. tikinti materialları Azərbaycanın xalq yaşayış binalarının inşasında az istifadə olunmuşdur. Kirəmit örtüklü evlər əsasən Şəki-Zaqatala və Cənub böləglərinin evləri üçün xarakterik idi. Mənbələrdən məlum olur ki, Şahbazov soylu bir şəxs ilk dəfə olaraq 1872-ci ildə Şəki şəhərində kirəmit zavodu tikdirmişdir. XIX əsrin sonlarında Şəkidə işləyən 12 kirəmit zavodu ildə cəmi 960 min ədəd kirəmit istehsal edirdi bə bunun da min ədədi 10 manata satılırdı. [33]

XX əsrin 30-50-ci illərindən başlayaraq həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan xalqının inşaat mədəniyyətinin inkişafı prosesi xeyli sürətlənmişdir. Tikiniti işlərində yeni-yeni inşaat materialları (mişar daşı mişarlı taxta, şifer, tənəkə-dəmir örtük, yağlı boya, dəmir-beton plitələr, şüşə, sement və s.) geniş yer tutmuşdur. Abad və yaraşıqlı evlərin tikilməsi üçün zavod istehsalı olan bu materialların əldə edilməsinə hər cürə şərait yaradılmışdır. Şəhər və rayon mərkəzlərinə, iri kəndlərdə açılmış təsərrüfat və tikinti materialları mağazalarda, əhaliyə müxtəlif adda inşaat materialları satışı yaxşı təşkil olunmuşdur.

Müxtəlif tipləri yaşayış evlərinin inşasında Azərbaycan xalq sənətkarlarının istifadə etdiyi alətlərin növləri rəngarəng, sayı isə xeyli çox idi. Bunlara inşaat materialları hazırlamaq içində istifadə edilən alətlər-bel, kərpic qəlibi, kirəmit qəlibi, daş baltası, daş çəkici, daş kərkisi, dəmir bucaq, mişar, ərəkeş, balta, kərki, sərkeş, ərə, qabıqyonan, məngəl, dəhrə, rəndə, raşta, iskənə, toxmaq, torpaq şadarası, oraq və dəryaz; inşaat prosesində tətbiq olunan alətlər-teşə, mala, kəmçə, taraz, şaqul, hörgü ipi, künyə, şümşad, xərək, qalaq, palçıq təknəsi, kirəmit deşən, burav (maha), bıçaq, naçaq, çəkic, dartı, şətə, möhrəkeş və s. aid idi. Məhz bu alətlərin köməyi ilə Azərbaycanın bənna, xarrat və dülgələrləri ev inşası sahəsində zəngin təcrübə və vərdişlər əldə etmiş, xalq yaşayış evi fondunun daha da genişləndirilməsinə və təkminləşdirilməsinə xidmət göstərmişlər.

**Yaşayış evi tipləri.** Xalq yaşayış evlərinin etnoqrafik baxımdan araşdırılmasının mühüm cəhətlərindən biri də onların tiplərinin müəyyənləşdirilməsidir. Xalq yaşayış evi tiplərinin yaranmasında ərazinin təbii-coğrafi şəraiti, əhalinin təsərrüfat məşğuliyyəti, inşaat

materialları, tikinti texnikası, ictmai həyat və ailə məişəti müəyyənedici rol oynamışdır. Məhz bu amillərin təsiri ilə  xalq yaşayış evləri müxtəlif tipdə olmuş, təbii mağaralardan (zağa, kaha, sığnaq, kühül) müasir yaşayış evlərinə kimi uzun bir tarixi təkamül prosesi keçmişdir. Müxtəlif ev tiplərinin formalaşmasında mövcud ictimai quruluş, bu quruluşun dəyişməsi ilə həmahəng dəyişən ictimai həyat tərzinin də mühüm rolu olmuşdur. XX əsrin əvvəllərinə qədər Azərbaycan kəndlilərinin iqtisadi vəziyyətinin ağırlığı, mədəni səviyyəsinin ümumən aşağı olması, ictimai-iqtisadi inkişafın ləng sürəti yeni tipli müasir evlərin yaranamsını uzun müddət ləngitmiş, bir sıra arxaik ev tiplərinin son zamanlara qədər qalmasına imkan yaratmışdır.

Azərbaycan xalq yaşayış evlərinin təsnifat baxımından öyrənilməsinin indiki səviyyəsini nəzərə almaqla onları şərti olaraq beş qrupa bölmək olar:

I. Əhalinin həyat tərzinə görə:

1. Oturaq əhaliyə məxsus daimi evlər.

2. Elatlara məxsus müvəqqəti evlər (alaçıq, dəyə, muxuru, coma, qarakeçə, dünnüklü ev mağaradəyə, çadır və s.).

II. İnşaat texnikası və tikinti materiallarına görə:

1. Möhrə-kərpic evlər (kərpic, durna, möhrə ev, zomalaq ev, qoclu ev, səlyani).

2. Qarğı evlər (çovustan, qarğı durma, tapan ev, qom ev).

3. Daş evlər (daxal, daşqura dəyə, qala yaşayış evləri, şirvani, tıtı ev, tövlə-səki).

4. Ağac evlər (bağdadı, bitəmə, carcar, cımğa, kərtmə, çubuqhörmə, aradoldurma, cəlinəkə, sündüəkə).

III. Dam örtüyünün formasına görə:

1. Piramidal-pilləli dam örtüklü  evlər (qaradam, pəyəbaşı).

2. Yastı dam örtüklü evlər (daxal, tıtı ev, tövlə-səki, eyvanlı evlər, bağdadı).

3. Balıqbeli dam örtüklü evlər (şirvani, çovustan, qoclu ev, durma).

4. Çatmadam  örtüklü evlər (səlyani, ağ otaq, tənəbi ev, qavxanalı ev, imarət, aynabəndli ev).

Sonuncular örtük materialına (avar, kirəmit, taxtapuş, tənəkə və s.) görə də bir-birində fərqlənirdi. Çatma damlar, həmçinin, ikiyamaclı-səlyani (tecavan, iki çatılı, şilvərli) və dördyamaclı-qaytarma (dörd çatılı, çahargül, xəlfə) olmaqla iki formada təzahür edirdi.

IV. Evlərin hündürlük baxımından və ya yer səhtinə nəzərən yerləşməsinə görə:

1. Batıq və ya qazma-qabartma evlər (təbii və süni mağara, qazma, qaradam, kühül, yarımqazma evlər).
2. Yerüstü evlər. Yerüstü evlər həmçinin, birmərtəbəli, kürsülü, antlı eyvanlı, qulangərişli, seyvanlı, qoclu, iki və ya üçmərtəbəli olurdu. Yerüstü evlər otlaqların düzülüş formasına görə (təkcərgəli, ikicərgəli) və sayına görə (bir, iki və ya çoxotaqlı ) da fərqlənirdilər.

V. Plan quruluşuna görə:

1. Kəllayı (tənəbi) və ya kəlləzal.
2. Qoşa kəllayı.
3. Cərgəvi (düzdəmə).
4. Dairəvi-oval

Azərbaycaının ən qədim məskən tipləri təbii və süni mağaralar kimi formalaşmışdır. Belə **mağaralar** həm də ibtidai insanların ilk sığınacaq yerləri-evləri olmuşdur. Məhsuldar qüvvələrin inkişafı və bununla həmahəng olaraq inşaat texnikasının təkmilləşdirilməsi nəticəsində süni mağaralar qazma tipli evlərlə əvəz olunmuşdur. Daş hörgünün meydana gəlməsi isə qazma və yarımqazma evlərin yaranmasında mütərəqqi rol oynamışdır.



Azərbaycan xalqının arxaik ev tipləri haqqında yazılı mənbələr olmadığından, bu barədə ətraflı məlumatı arxeoloji qazıntı materialları verir. 1956-1957-ci illərdə Sarıtəpə yaşayış

yerində arxeoloji qazıntılar zamanı uzunluğu 9 m, eni isə 4,6 m. olan dördkünc formalı tikiniti aşkar edilmişdir. Qədim yaşayış məskəni hesab edilən bu binə təpənin şimal yamacında yerləşdiriyindən, onun şərq-cənub və qərb divarları yarımqazma forması almışdır. Binanın divarları çubuqdan hörülmüş, üst səthi saman qatılmış palçıqla suvanmışdır. Dirəklərin yerləşməsi vəziyyətinə, döşəmə üzərinə çökmüş ağac və küləş qalığına əsasən binanın qoşa çatlı dama malik olduğu, [34] böyük və kiçiliyini nəzərə almaqla binanın qaradam tipində olması [35] ehtimal edilir. Arxeoloji qazıntılar, həmçinin, eramızdan əvvəl VI-IV minilliklərdə Azərbaycanı qərb bölgəsində məskunlaşmış əhalinin yaşayış evlərinin **dairəvi** planda olduğunu sübut edir. [36]

Xatırladaq ki, XIX-XX yüzilliyin əvvəllərində də Azərbaycanda dairəvi planlı yaşayış evlərinin mövcud olmasının etnoqrafik materiallar təsdiq edir. [37]



Mağara tipli yaşayış evlərinin sonrakı mərhələsini **qazma, yarımqazma** və yaxud Azərbaycanın Kiçik Qafqaz, Gəncəbasar və qərb bölgələrində adlandırdıqları kimi pəyə evlər təşkil edir. Planda düzbucaqlı olan bu tip evlər, onun sahibinin maddi vəziyyətindən asılı olaraq müxtəlif ölçülərdə tikilirdi. Dağlıq ərazilərdə son zamanlara qədər qalmaqda olan qazma (pəyə) tipli evlərin inşa qaydası bəsit olduğundan, onları hər kəs özü tikə bilirdi. Bunun üçün yamacın gündöyən səmtində (güney) tikiləcək ev üçün ilk növbədə yer müəyyənləşdirib kalafa qazılırdı. Kalafanın arxa və ya iki yan divarları yamacın dik çapılmış torpaq divarından, açıq qalmış qabaq tərəfi isə daş hörgüdən ibarət olur və burada giriş yolu qoyulurdu. Düzənlik yerlərdə inşa edilən belə qazmalarda divarların dördü də torpaqdan olurdu. Kalfa qazılıb başa çatdıqdan sonra qazmanın (pəyənin) dam örtüyü qurulurdu. Bunun üçün evin uzunu boyunca bir-birindən 1,5-1, 7 m aralı dirəklər basdırılır, üzərinə yoğun

tir (kərən) atdıqdan sonra kalafa divarlarının üstünə “hərmə” (pasna) adlanan yastı ağaclar uzadılırdı. Hərmənin qoyulması dam örtüyünü ağırlığı altında torpaq divarın uçulub-tökülməsinin qarşısını alırdı. Bir ucu hərmənin, digər bir ucu isə kərənin üzərinə qoyulan pərdilər vasitəsi ilə dam çardağı qurulur, üstünə carcı, avar döşəndikdən sonra kalafanın içərisindəki torpaq dam örtüyünün üstünə atılıb möhkəm tapdalanırdı.

Qazma (pəyə) tipli yaşayış evləri ictimai inkişafın sonrakı mərhələlərində inşaat ənənələrinin zənginləşməsi nəticəsində təkmilləşərək yeni variantlarda təzahür etmişdir. Bu təkmilləşdirilmiş formalardan biri ondan ibarətdir ki, dik çapılmış divarın qarşısında hərmə (pota) dirəkləri basdırılır, hərmə ağacları həmin dirəklərin üstünə qoyulurdu. Belə olduqda qazmanın davamlılığı artır, torpaq divara dam örtüyünü təzyiqi azalırdı.



Digər formada isə, divarboyu basdırılmış hərmə dirəklərin arası çubuq və ya qarğı ilə hörülür, üzəri suvanırdı. Sonralar onu daş hörgüsü əvəz etmişdir. Ayrımlara məxsus yaşayış evi tiplərindən qazma evlərin inkişafının sonrakı mərhələsi pəyəbaşı, daha sonra şeşə öylük və ya qaradam olmuşdur. Qazma ilə qaradam tipli evlər arasında aralıq (keçid) mərhələsini təşkil edən pəyəbaşı tipli tikililərin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, burada ümumi bir tavan altında həm yaşayış evi, həm də mal-qara yerləşirdi. Yaşayış üçün nəzərdə tutulan otaqlar (“olacaq”) mal-qara saxlanılan yerdən (“pəyə”) bir-iki pillə (20-30 sm) hündürdə tikilirdi.

**Qaradamları** süni mağaraların və qazmaların inkişaf etmiş forması hesab etmək olar. Azərbaycan ərazisində Kültəpə, Mingəçevir, xüsusilə də qərb bölgəsində e.ə. VI-IV minilliyə aid Şomutəpə və Töyrətəpə yaşayış yerlərindən aşkara çıxarılmış dairəvi planlı, konusvari (günbəzşəkilli) dam örtüklü yaşayış evləri qaradam tipli evlərin bariz nümunəsidir.

Qaradam tipli yaşayış evlərinin plan quruluşu, tikinti texnikası və təyinatı haqqında bir çox mənbələrdə, Azərbaycana gəlmiş səyyahların yol qeydlərində ətaflı məlumatlara rast gəlinir. [38] X əsrin sonlarında ərəb coğrafiyaşünası əl-Məqdisi belə evlərin Ərdəbil mahalında da mövcud olduğunu qeyd edir. [39] XVII əsrdə Naxçıvan vilayətinin Culfa şəhərində olmuş məhşur səyahətçi J.Şarden buranın



yaşayış evlərinin əksəriyyətinin qayalarda çapılmış qazma və mağaralardan ibarət olduğunu göstərmişdir. [40] Çox güman ki, müəllifin göstərdiyi yaşayış evləri dağlarda çapılmış dik yamaclı qaradamlardan ibarət olmuşdur.

Azərbaycan ərazisində çox qədimlərdən mövcud olmuş qaradam tipli evlərə Xanlar rayonunda "öylük", "şeşə öylük", "pəyəbaşı"; Naxçıvanda "qara ev", "dörddirək ev", "xaçkərənli ev", "evdamı", "qış damı", "qış evi"; Kəlbəcər rayonunda "evdamı";

Qubadlı rayonunda “dam”, deyilmişdir. Gürcüstanda (Borçalıda) yaşayan azərbaycanlılar arasında qaradam-“çardaxlıdam”, “beşikdam”, “öydamı”, “dam” və s. adlarla məlum idi.

Qaradam tipli yaşayış evləri digər xalqlar üçün də xarakterik olmuşdur. Belə ki, gürcülər ona “darbazi”, “ertobis saxli”; ermənilər “tun”, “xatsatun”, “qlxatun” ; osetinlər “erdoyani saxli”; taciklər “ruzan ” ; hindistanlılar isə “dubars” deyirdilər.

Azərbaycanda mövcud olmuş qaradam tipli yaşayış evləri yer səhtinə nisbətən yerləşmə mövqeyinə görə yeraltı, yarımyeraltı və yerüstü, [41] yerləşmələrinin sayına görə isə bir və ya iki elementli və kompleks formada olmaqla fərqlənmişlər. [42] XVIII-XIX və XX əsrin əvvəllərində qaradam tipli yaşayış evləri yayılma arealına görə Kiçik Qafqaz dağlıq və dağətəyi ərazisini, qismən Dağlıq Qarabağ və Naxçıvan bölgələrinin əhatə etmişdir. Naxçıvan bölgəsinin qaradamları yerüstü tikilməsi ilə fərqlənirdi. Qaradamlar Şəki-Zaqatala, Quba-Xaçmaz və Lənkəran bölgələrində də mövcud olmuşdur.


Eyvanlı qaradam

Qaradam tipli evlərin tikilməsi üçün yamacın güney hissəsində kalafa yerini müəyyənləşdirib, onun küncləri boyunca xəndək qazılırdı. Sonra kalafanın künclərinə divardan təxminən 1 m aralı dörd yoğun və haçalı dirək basdırılır, dirəklərin haçasına geydirilmək şərtilə bir-birinə paralel iki kərən (tir) atılırdı. Bu tirlərin üzərinə onlara planda kvadrat əmələ gətirən digər iki tir atılırdı. Möhkəm ağac dirəklər üzərində yoğun tirlərdən düzəldilən dam örtüyü getdikcə daralan yaruslarla yuxarı qaldırılaraq pilləli, çoxmərtəbəli günbəz əmələ gətirirdi. Bu iş prosesi, günbəzin ortasında istənilən ölçüdə baca (pəncərə) alınanadək



davam etdirilirdi. Bacadan həm içəri işıq düşür, həm də ocağın tüstüsü bayıra çıxırdı. Künbəzin bayır tərəfi sıx döşənmiş pərdilər vasitəsilə örtülür, üzərinə carcı və avar döşənirdi. Damın günbəzinə torpaq qatı əlavə etmək üçün, adətən kalafanın içərisindəki torpaqdan istifadə edilirdi. Bu torpaq qatı "kövər" adlanır, onun qazılıb damın üstünə atılmasına isə "damın kövərinin atılması" deyilirdi. Arxa və yan divarları torpağın içərisində qalan qaradamın fasad divarı daşdan hörülür, orada 90-100 sm enində giriş yolu qoyulurdu. Qaradamın qapısı dabalı olmaqla, uc çıxıntıları vasitəsilə çərçivəyə geydirilirdi. Giriş yolunun üstündə yağmurluq düzəltmək üçün iki dirək üzərində çardaq qurulurdu.

Etnoqrafik materiallardan məlum olur ki, Azərbaycanın Kiçik Qafqaz regionunda qaradamların kompleks formalarına da təsadüf olunmuşdur. Belə qaradamların nisbətən təkmilləşdirilmiş formalarının səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, divarların hamısı daş hörgüsü ilə əvəz olunmuş, orada qab-qacaq, çıraq qoymaq üçün kiçik divar açırımları düzəldilmişdir.

XIX-XX əsrin əvvəllərində Naxçıvanın dağlıq hissəsində qaradam tipli yaşayış evlərinin başqa bir variantı-eyvanlı qaradamlar geniş yayılmışdı. Belə evlərin qarşısı tirlər üzərində tikilmiş eyvanla tamamlanırdı. Eyvanların ya hər iki tərəfi açıq saxlanılır, ya da yanları daşla hörülür, yalnız qabaq tərəfi açıq olurdu.



Özünün ibtidai formasında eramızdan xeyli əvvəl meydana çıxmış böyük patriaxal ailələr, sonralar məhsuldar qüvvələrin inkişafı, maddi istehsal və mübadilənin, əmtəə-pul münasibətlərinin meydana gəlməsi nəticəsində bölünərək kiçik ailələlərə çevrilmiş, bunun məntiqi nəticəsi olaraq onlara məxsus ümumi yaşayış evləri də (qaradam) tədricən aradan çıxmış, yerüstü evlərin yeni-yeni tipləri meydana gəlməyə başlamışdır. Bu proses uzun illər boyu davam etmişdir. Dağ rayonlarında əhalinin mədəni mərkəzlərdən uzaq olması və sosial-iqtisadi gerilik ucbatından böyük patriarxlar ailələr və onlara məxsus qaradamlar XX əsrin ortalarına kimi mövcud olmuşdur.

Aran kəndlərində inşaat materialları asanlıqla əldə edilən və nisbətən tez tikilib başa çatdırılan yüngül konstruksiyalı yerüstü evlər üstünlük təşkil edirdi. Qeyd etmək lazımdır ki, XIX-XX əsrin əvvəllərində Azərbaycanda yüngül konstruksiyalı çubuq (qarğı, qamış) evlərin müxtəlif lokal-məhəlli səciyyəli adları məlum olmuşdur. Belə ki, onlar Naxçıvan, Qarabağ və Cənubi Azərbaycan bölgələrində "çovustan", Quba-Xaçmaz bölgəsində "çubuq ev", "darbənd", Muğanda "qom ev", "hörmə ev", Şəki-Zaqatala bölgəsində "çubuq hörmə", "çəpərə ev", "çitəmə", Şirvanda "qarğı ev", "qamış ev". "tapan ev", qərb böləgisi və Gəncəbasarda isə "durma" adlanırdı.

Etnoqrafik materiallardan aydın olur ki, Qərb bölgəsində **durma** tipli yaşayış evinin iki forması-yay evi və müvəqqəti daldanacaq kimi nəzərdə tutulan **"qarğı durma"** (buna bəzən "qamış durma" və ya "çubuqhörmə" də deyirdilər) və qış evi kimi daimi istifadə edilən **"kərpic durma"** geniş yayılırdı.

Qarğı durma sadə quruluşa malik olmaqla, adətən 3,5-4x7-8 m ölçüdə tikilirdi. Bunun üçün evin dövrəsi boyunca 1,5-2 m aralı

basdırılmış dirəklərə sıyrıqla 4 yoğun qarğı (özək) köndələn bənd edilir, arası qarğı ilə hörülür, divarları içəridən və çöldən saman qatılmış palçıqla qalın suvanırdı.

Ailə üzvlərinin sayından asılı olaraq durma bir və ikigözlü tikilirdi. İctimai inkişafın və inşaat ənənələrinin təkmilləşməsinin sonrakı mərhələlərinə uyğun olan buxarı, yük yeri (camaxatan), zeh (rəf), taxça, dolab (dula) kimi divar açırımları qarğı durmada olmurdu. [43]

Durmanın dam örtüyü dirəklər üzərində qurulurdu. Dirəklərin haçasına kərən (yoğun tir, mil) atılır, arasına pərdi döşənir, avarla (carcı, heşən, cil və lığ qarışığı) örtülərək torpaqlanırdı. Dam örtüyündə mailik yaratmaq üçün orta dirəklər (ana dirəklər) kənar dirəklərə (harma və yaxud pota dirəklər) nisbətən hündür qoyulurdu.

**Çovustan** tipli evlərin meydana gəlməsi inşaat imkanlarının məhdud olduğu bir şəraitdə əhalinin yerli tikinti materiallardan bacarıqla istifadə etdiyini göstərir. Çovustanın divarları, damı, hətta bəzən qapısı da qarğıdan düzəldilir, divarları "qom" və ya "tapan" üsulu ilə hazırlanırdı. Divarın tapan üsulu ilə tikilişi qarğı durmanın divarlarını xatırladırdı. Onu "qom" üsulu ilə tikdikdə isə, dirəklərin hər iki tərəfinə qoşa vəziyyətdə köndələn ağac bənd edilir, sonra araları qarğı qomları ilə doldururlurdu. Birinci qom, adətən, dirəyə, qalan qomlar isə bir-birinə sıyrıqla bağlanırdı. Evin yanları hazır olduqdan sonra hər iki tərəfdən suvanırdı. Qış evi kimi nəzərdə tutulan çovustanlar adətən qom üsulu iə tikilirdi. Çovustanın damının tikmək üçün yan və orta dirəklərin üzərinə tir düzür, üstünü əvvəlcə qarğı ilə döşəyir, sonra isə avar töküb, "şiləsər" adlanan gil mala (suvaq) çəkirdilər. [44]

Kərpic durma ev qarğı durmanın təkmilləşmiş forması kimi meydana çıxmışdır. Əvvəllər evi qızdırmaq və yemək hazırlamaq üçün buxarı düzəltmək məqsədi ilə onun bir divarı, sonralar isə, inşaat ənənələrinin təkmilləşməsi nəticəsində bütün divarları kərpicdən inşa olunmuşdur. Düzbucaqlı planlı kərpic durma, digər ev tiplərinə nisbətən ensiz, lakin, uzun olmaqla, adətən 3,5-4x6-7 m ölçüdə tikilirdi.

Dam örtüyü qurmaq üçün evin üstünə, ucları yan divarların üzərinə düşmək şərtilə yoğun tirlər (kərənlər) düzülürdü. Dam

örtüyünün ağırlığı kərənlər arasında bərabər paylanması üçün bir-birindən 1-1,2 m məsafədə qoyulurdu. Kərənlər üzərinə, bir-birinə kip söykənmiş, bəzən 30-40 sm aralı pərdi yarmaçaları döşəndikdən sonra, lələkləri təmizlənmiş qarğıdan "tərəcə" və ya "çətən" (Muğan bölgəsində: "laxta", "çitəmə", "salğar") hörüb üstünə salınır, onun üstündən avar tökürdülər. Durmanın dam örtüyündə səciyyəvi cəhət, nisbətən qalın palçıqdan kündə (mor, badı) tökülməsi idi. Kündəni 10-12 sm qalınlığında damın üstünə yayırdılar. Bu iş ağır olduğundan, çox zaman qohum-qonşular köməyə çağrılardı. Kündə quruduqdan sonra onun üzərinə 30-40 sm qalınlığında torpaq qatı əlavə olunurdu. Durmanın yastı dam örtüyündə hər iki tərəfə maillik yaratmaq üçün ortasında 35-45 sm olan palçıq kirdə düzəldilirdi. Sonra əsas kirdədən ayrılan qollar boyunca ləklər bölünür, onlar dam örtüyünü kənarlarında düz və ya qövsvari şəkildə birləşdirilirdi. Buraya tənəkədən və içərisi ovulmuş ağacdan nov (Naxçıvanda onu "şiratan" deyirlər) qoyulurdu. Dam örtüyünün üzərinə duzla qarışdırılmış nəm ocaq külü tökdükdə, o, atmosfer çöküntülərinə qarşı daha davamlı olurdu. Evin perimetri boyunca tikilən eyvandan fərqli olraq kərpic durmanın kəllə divarında seyvan olurdu. Onu tikmək üçün seyvan qollarının qarşısında basdırılmış 3-4 ədəd dirək üzərinə kərən (nal) qoyulurdu. Bir ucu nalın, digər ucu isə kəllə divarın üzərinə qoyulmuş pərdilərin üstü avarla örtülüb torpaqlanırdı. Yağış və qar suyunun axıb seyvana dolmaması üçün çox vaxt dirəklərin bayır tərəfdən qarşısına köndələn qurşaq (ayaqaltı) qoyulur, ətrafı palçıqla dodurulurdu. Qapı adətən seyvana açılırdı.

XIX-XX əsrin əvvəllərində Azərbaycanda geniş yayılmış yaşayış evlərinin bir qismini də **möhrə** tipli evlər təşkil edirdi. Belə evlərin hələ çox qədimdən mövcud olduğunu arxeoloji qazıntılar da təsdiq edir. [45] Etnoqrafik materiallar isə göstərir ki, möhrə tipli yaşayış evləri bəzən 30-40sm hündürlükdə çay daşından hörülmüş bünövrə üzərində, bəzən də bilavasitə torpaqdan başlayaraq tikilirdi.

Möhrə divarların qoyulmasına xalq arasında "möhrə vurmaq" deyilirdi. Möhrə vurmaq üçün "möhrəkeş" adlanan üçbucaq formalı uzun saplı alətdən və şətədən istifadə olunurdu. Bu alətlərin köməyilə palçığı kəsib hamarlayır, onu divara vurur və divarı yonub

düzəldirdilər. Möhər divarların vurulması prosesi fasilələrlə davam etdirilirdi. Hər möhrə qatı “kürsü” adlanır, hır kürsünün üstünə isə seysmik məqsədlər üçün nəzərdə tutulan ağac qurşaq (qələmə) verilirdi. Bu qayda ilə möhrə divar 1,8-2,2 metrə qədər ucaldılırdı. Bərkimiş divarın üstünə köndələn şəkildə ağac kərənlər düzülürdü ki, bu da dam örtüyünün ağırlığının divar boyu tənzimlənməsinə imkan yaradırdı.



Dam örtüyünü qurmaq üçün ucları kəllə divarların üstündəki kətillərə söykənmək şərtilə ana kərən qoyulur, üstündən isə ucları yan divar kətillərinə söykənən qoşa tir atılırdı. Ana kərin davamlılığını artırmaq üçün çox vaxt onun altına “T” şəkilli “tiraltı” və ya “aşıq dirəyi” basdırılırdı. Qoşa tirlərin üzərinə pərdilər və qarğı çətən qoyduqdan sonra carcı və avarla döşənib torpaqlanırdı. Naxçıvan bölgəsinin “dörddirək ev” adlanan möhrə evlərinin dam örtüyünü qurmaq üçün isə evin ortasında bir-birindən təxminən 2 m aralı basdırılmış dörd dirəyin üstünə tirlər atılır, tirlərin üzərinə çiliklər (pərdi, atma) döşənir, çilikərin üstü isə carcı ilə (karvanqıran, gəngiz, qarağan) örtülür və torpaqlanırdı. Bundan sonra evin torpaqlığı hörülürdü. Azərbaycanın Gəncəbasar bölgəsində “milbənd”, Naxçıvanda isə “sərmöhrə” adı ilə məlum olan “torpaqlıq”- təzə evin üstünə torpaq salındıqdan sonra divarın üstündən həmin torpaq bərabəri hörülən hissəyə deyilirdi. Möhrə və kərpic divarlar atmosfer çöküntülərinə qarşı davamsız olduqlarından, xalq memarları dam örtüyünün ətəklərini divardan 30-50 sm kənara çıxarıb “yağmurluq” düzəldirdilər. Şəki-Zaqatala bölgəsində yağmurluq-“şirəsər”, “çardaq ətəyi”, “cərə qırağı” və ya “naqur”, Lənkəran-Astara bölgəsində isə “lijmun” adlanırdı. Möhrə və kərpic divarlar iç və bayır tərəfdən saman qatılmış palçıqla suvandıqdan sonra döşəməsinə şirə çəkilirdi. Küncləri oval formada düzəldilən möhrə evlər Muğan bölgəsində “zomalıq ev”, Lənkəran-Astara bölgəsində isə “qilinəkə ev” adı ilə məlum idi.

Azərbaycanın dağ və dağətəyi kəndlərində yaşayış evi fondunun əksər hissəsini yastı damlı, daş hörgülü, nisbətən alçaq **“daxal”** tipli evlər təşkil edirdi. 1940-cı illərə qədər Dağlıq Şirvan, Qarabağ və Şəki-Zaqatala bölgələrində evlərin əksəriyyəti daxal tipli olub, özünəməxsus tikinti texnikası ilə səciyyələnirdi. Şəki-Zaqatala bölgəsində daxal tipli yaşayış evlərinin divarları çaydaşı və qayadaşından tikilirdi. Onlar bir və ya ikimərtəbəli olur, bəzən də



pəncərəsiz inşa edilirdi.

Dağlıq Şirvanın iqlim şəraitindən asılı olaraq burada inşa edilən daxal tipli xalq yaşayış evləri adətən birmərtəbəli olur və atmosfer çöküntülərindən qorunmaq üçün dam örtüyü 70-80 sm qalınlığında torpaqla örtülürdü. Dam örtüyünün ağırlığını tənzimləmək üçün dam milləri xeyli yoğun və möhkəm ağac materiallardan hazırlanmaqdan əlavə, həm də çox sıx şəkildə düzülürdü.

Azərbaycanın düzən rayonlarının xalq yaşayış evi fondunun böyük bir qismini “salyani evlər” təşkil edirdi. Etnoqrafik ədəbiyyatda ətraflı təsviri verilən və başlıca olaraq Şirvan düzündə, qismən də Qobustan kəndlərində yayılmış salyani evlərin mühüm xüsusiyyəti orjinal dam örtüyü və seyvana malik olmasıdır. Salyani evlər dam örtüyü cəhətdən “şirvani” evlərlə oxşarlıq təşkil etsələr də, damın diklik dərəcəsinə görə ondan fərqlənirdi. Salyani evlərdə damın yamacları xeyli dik olurdu. Belə evlərin kəllə divarları çardaq yerindən başlayaraq

üçbucaq formasında hörülür və 2-2,5 m hündürlüyə qaldırılırdı. Düzbucaqlı planda tikilən salyani evlərdə seyvan evin cənub-şərq tərəfindən düzəldilirdi. Bunu qızmar günəş şüalarından qorumaq məqsədilə izah etmək olar. Belə evlərdə qapı seyvana, pəncərə isə həyətə baxırdı. Salyani evlərin mühüm inşaat xüsusiyyətlərindən biri də onların tavansız olmasıdır. Burada dam çardağı tavanı əvəz edirdi. Kəllə divarların üzərində dayanan ana tirin bir ucu xeyli qabağa çıxarılmaqla, seyvanın üstünü örtür və xüsusi kətil üzərində qoyulmuş “dirsək kötüyü” nün başında dururdu. Kətilin bir ucu seyvanın yan üzərində digər ucu isə seyvan sütununun başında dayanırdı. Onun üzərində seyvan damı tikilirdi.

Salyani evlərdə damın bütün ağırlığı el arasında “səlim ağacı” adlandırılan tirin üzərinə düşürdü. “Səlim ağacı”nın ucları evin tən ortasında yan divarın kətilləri üzərində durmasına baxmayaraq, onun altına evin tən ortasında dirək vurulurdu. Çardaq ana tirin üzərində qurulurdu, ana tirin ağırlıq mərkəzi isə “səlim ağacı”nın üzərinə düşürdü. Ona görə də tir ilə “səlim ağacı” arasına “qoltuqaltı” adlanan dirəkçə qoyulurdu.[46]

Şirvan bölgəsi üçün xarakterik olan və Gəncəbasarda geniş yayılan ev tiplərindən biri də **“şirvani”** evlər idi. “Şirvani” evlərin dam örtüyü balıqbeli formasında olub, xeyli alçaq düzəldilirdi. Bunun üçün ana tiri kəllə divari üzərinə qaldırıb üstünə, hər iki tərəfə maili olmaqla pərdilər döşənirdi. Şirvani evlərin dam çardağında “səlim ağacı” işlənmir, evin kəlləsində tikilən seyvandan fərqli olaraq uzunluğu boyunca evyan yerləşdirilirdi. Bəzən kəllə divari üzərinə qaldırılmış ana tir qoşa qoyulurdu. Qoşa tirli evlərin damını tikərkən pərdilər təkcə yan yamaclara döşənmir, həm də evin bel hissəsini tamamlayırdı. Belə evlər interyerdə yanlara doğru maili, eksteryerdə isə balıqbeli şəklində görünürdü. Şirvani evlər daşdan və çiy kərpicdən inşa edilirdi. [47]



Kartına ev

İctimai inkişafın və inşaat ənənələrinin zənginləşməsinin sonrakı mərhələsində meydana çıxan ev tiplərindən biri də **“qoclu”** (qojlu) evlərdir. Bu evlərin əsas fərqləndirici xüsusiyyəti dam örtüyünün qurulmasındadır. Daş bünövrə üzərində qaldırılmış divar hörgüsü 2,2-2,3 metrə çatdıqda hörgü işi dayandırılır və evin ortasında bir-birindən 1,8-2 m aralı haçalı dirəklər basdırılırdı. Evin uzunluğundan fərqli olaraq dirəklərin sayı da müxtəlif olurdu. Dam örtüyünün balıqbeli formasına düşməsi üçün dirəklər hörgü səviyyəsindən 80-90 sm hündür qoyulurdu. Dirəklərin haçasına atmaağacı (yoğun mil) qoyduqdan sonra, bir ucu atmaağacının, digər ucu isə divarlar üzərinə qoyulmuş ağac qurşaqların (harma) üzərinə düşməklə 60-70 sm aralı qoclar (qoclu ev adı da buardan meydana gəlmişdir) döşənirdi. Qocların ucları dam örtüyündən kənara çıxarmalıqla yağmurluq düzəldilirdi. Qocların üzərində köndələn şəkildə pərdilər düzülür, qalan inşaat işləri isə kərpicdən tikilən evlərdə olduğu kimi davam etdirilirdi. Məişət-memarlıq cəhətdən daha əlverişli olan və perimetri boyunca eyvan tikilən “qoclu” evləri şirvani tipli evlərin bir variantı hesab etmək olar.







XIX-XX əsrin əvvələrində Azərbaycanın meşə massivləri ilə zəngin olan bölgələrində kəndlərin böyük əksəriyyətinin yaşayış evi fondunda-ağacdan tikilmiş müxtəlif ev tipləri üstünlük təşkil edirdi. Belə ev tiplərindən biri

**“kərtmə”** ev idi. Kiçik Qafqazda, Şəki-Zaqatala, Quba-Xaçmaz və Şirvanın dağlıq bölgələrində geniş yayılmış kərtmə tipli evlə, özlərinin mamarlıq-kompozisiya quruluşlarında bəzi xırda fərqlərə baxmayaraq, Quba-Xaçmaz bölgəsində “dərbəndi”, Yardımlı bölgəsində “taxta ev” (talışlar ona “taxtnəkə” deyirlər), Lənkəran bölgəsində isə “ancinəkə” adları ilə məlum idi. [48] Astara kəndlərində bu tip evlər “cəlinəkə” evlər kimi geniş yayılmışdı.

Kərtmə evlər bir və ya ikiləşkəli, birmərtəbəli (nadir hallarda ikimətəbəli), yastı və yaxud çatmadan örtüklü olurdu. Yastı damlı olduqda, evin dam örtüyünü yonulmuş düzbucaqlı tirlərdən qurur, üzərinə qalın taxta döşəyir, üstünə qalın palçıq (kündə) tökür və sonra da suvaq çəkirdilər. Kərtmə (cəlinəkə) tipli evlərin dam örtüyü (kümü, çardağı, banı) bəzən iki bə ya dördsinəli qurulurdu. Dam örtüyü kimi lığdan, kirəmitdən və ya dəmirağacından xüsusi yonulmuş kirəmitəoxşar ağac tavalardan (taxtapuş, dran) istifadə olunurdu. Adətən, kərtmə evlərin qarşısında ağac sütunlar üstündə eyvan da qurulurdu. Astara rayonunu dağlıq hissəsində tikilən “cəlinəkə” tipli evlərin kərtmə tipli evlərdən fərqlənən bəzi xüsusi variantları mövcud olmuşdur ki, onlar eyvansız





inşa edilmişdir. [49]

Kərtmə evləri tikmək üçün ağac tiplərdən və yaxud daşdan düzəldilmiş bünövrə üzərinə döşəmə üzərinə milləri bərkitdikdən sonra evin divarlarının qurlmasına başlanılırdı. Eyni ölçüdə yuvarlaq ağac tiplərin uclarından 20-25 sm aralı, künc bağlamaları yerində alt və üst oturacaqları yonulub kərtilərək, (kərtmə adı da buardan meydana çıxmışdır) bir-

birinin üzərinə kip oturdulurdu. Lənkəran-Astara bölgəsində buna tirlərin peyvənd (ebır) edilməsi deyilirdi. Tirlərdən quraşdırılan evlərin möhkəmliyini artırmaq üçün üst-üstə qoyulmuş tirlərdən gövdəsində qarşı-qarşıya, bir-birindən təxminən 0,5 m aralı 5x1x5 sm ölçüdə şırımlar (gəzlər) açılır, oraya ağac çivlər geydirilirdi. Kərtmə evlərin tikilməsində bütün inşaat prosesi kərtib oturtma, dəlib keçirmə ağac çivlər vasitəsilə aparıldığından, burada heç bir metal mıxdan istifadəyə ehtiyac qalmırdı. Evlərin tirlərdən ibarət daravazaları hazırlanarkən qap və pəncərə açırımları üçün müvafiq yerlərdə lazımi ölçüdə boşluqlar saxlanılırdı. Həmin açırımların üstünə "dərasər" adlana xüsusi yonulmuş ağac qoyulurdu. Ev tikilib başa çatdıqdan sonra divarlar iç və çöl tərəfdən palıçıqla suvanırdı. Bəzən suvaq elə diqqətlə çəkilirdi ki, yalnız künc bağlamaları yerindən bilmək olurdu ki, bu ev kərtmə tiplidir.

Kərtmə tipli evlərin memarlıq kompozisiyası quruluşunun xarakterik xüsusiyyətləri onların daxili və xarici görkəminin geniş biçimli olması, forma və bədii həllinin ciddiliyi, hissələrinin yaxşı düzülüşü hesab edilirdi.

Bəhs olunan dövrdə memarlıq-plan quruluşuna görə daha mürəkkəb və ikimərtəbəli kətmə evlər  də mövcud olmuşdur. XX əsrin əvvəllərində P.P.Nadejdin Lənkəran bölgəsində ikimərtəbəli kərtmə evləririn xeyli hissəsinin hələ də əhalinin istifadəsində olduğunu xəbər verirdi. [50]

Azərbaycanda inşa edilən kərtmə tipli yaşayış evləri XIX 40-cı illərində buraya köçürülən rus təriqətçilərinin (molokanlar, duxoborlar, subbotniklər və b.) tikdikləri evlərlə tipoloji oxşarlıq təşkil edirdi. Bununla belə, kətmə tipli evlərin Azərbaycanda inşa olunmasına tarixi rusların buraya köçürülməsindən çox-çox əvvəllərə aiddir. Belə ki, hələ Eneolit və İlk Tunc dövrlərində Azərbyacanın meşəətrafı ərazilərdə məşkunlaşan əhalinin yaşayış evi fondunda kərtmə tipli evlərin ibtidai formasının mövcudluğu çoxlu real elmi faktlar və dəlillər əsasında sübuta yetirilmişdir. [51]

Azərbaycanın xalq yaşayış evləri fondunda ağac evlərin digər tipi-**cımğa (cığ)** evlər də müəyyən yer tuturdu. Kərtmə evlər kimi,



cığma evlər də Azərbaycanın ayrı-ayrı ərazilərində müxtəlif adlarla məlum olmuşdur. Şəki-Zaqatala bölgəsində "cığ ev", "ağac ev", "ajan ev", "dəyə", "dirəkarası", Lənkəran bölgəsində "sünnünəkə" və ya "sündünəkə", "puştalı ev", "qoyməkə", "carciv ev", Şirvan bölgəsində "bağdadı ev", qərb bölgəsində "mərək", "dirəkarası", və "aradoldurma" adlanan cımğa evlər memarlıq-kompozisiya quruluşuna görə bir və ya ikimərtəbəli, tək və qoşa yerləşkəli, eyvanlı və eyvansız inşa olunurdu. Tikilmə qaydası çox sadə olan cımğa evlər, adətən, düzbucaqlı planda olurdu. Onu tikmək üçün evin bünövrə yeri boyunca bir-birindən 1 metr aralı yonulub dördkünc şəklə salınmış dirəklər basdırılır, sonra həmin dirəklərin qarşısında təxminən 25-30 sm aralı ikinci cərgə dirəklər yerləşdirilirdi. Bir-birinə paralel, qarşı-qarşıya basdırılmış dirəklərin içəri və bayır tərəfdən hər iki üzünə kip şəkildə ağac yarmaçaları (vəla, talaşa, tuş, zola, bağlama) bənd edilir, arada qalan boşluq çınqıl, xırda çaydaşı, torpaq, ağac qamqalağı və samanla doldurulurdu. Lənkəran-Astara bölgəsində bütün bunları çay yataqlarından götürülən gildən hazırlanmış "pışda" əvəz edirdi. Elə buna görə də bu tip evlər bölgədə "pışdanakə"(pışdalı ev) adlanırdı. Əhali belə evləri dirəklərə görə "sündünəkə" (sünd-talışca dirək deməkdir), dirəklərə bağlanan vəlaya görə isə "vəlanəkə ev" də adlandırırdı. Müxtəlif adları və variantları olan bu tipli evlərin meydana gəlməsinin başlıca səbəbi lazımi ölçüdə

tikinti materialının (tir, dirək, taxta) çətinliklə əldə edilməsi ilə izah olunurdu. Səriştəli usta "əlinin altında olan" tikinti materiallından istifadə etməyə üstünlük verirdi. Lazımi hüdürlükdə divar qurulduqdan sonra, onun hər iki üzü saman qatılmış palçıqla suvanırdı.



Evin dam örütüyün qurmaq üçün yerə basdırılmış dirəklərin üstünə köndələn qurşaqlar (kətil, nal) qoyulur, üzərinə dam milləri düzülür, qarğı-qamış tökülür, torpaqlanır və suvanırdı. Yağış və qar suyunun içəri sızmaması üçün damın örtüyü, bəzən balıqbeli formasında düzəldilirdi. Şəki-Zaqatala və Lənkəran bölgələrində belə evləri çox zaman çardaqlı tikirdilər ki, bu da atmosfer çöküntülərinin qarşısını almaq məqsədi güdürdü. Cımğa evlərin qapı və pəncərə açırımları kiçik ölçüdə olur, eyvan yerləşən qənşər tərəfdə qoyulurdu.

Ağacdan inşa edilən ev yarımtiplərinin ağac dirəklər üzərində qurulan və qülləyəbənzər nümunəsi olan **ləm** özünəməxsus yer tutmuşdur. Əsasən yay istirahət evi hesab olunan ləm Azərbaycanın rütubətli və bürkülü bölgələri, xüsusən Lənkəran bölgəsi üçün xarakterikdir. Aran rayonlarında ona "talvar", Naxçıvanda "taxt", Abşeronda"balaxana", "külafirəngi", Qax rayonunda "altıaçıq", Zaqatala rayonnuda isə "qulaça" deyilirdi.

Əsasən dörd ədəd hündür dirəklər üzərində qurulan ləm iki və üçmərtəbəli olur, dam örtüyü ikisinəli və dördsinəli düzəldilir, taxta, qamış, lığı və ya kirəmitlə örtülürdü. Birmərtəbəli ləmin hündürlüyü təxminən 4-5 m, ikimərtəbəlinin 7-8 m, üçmərtəbəlinin isə 10-12 m və daha çox olurdu. Birinci mərtəbəyə (Lənkəran bölgəsində “ləməbın” adlanır) pilləkən (nərdivan) birbaşa yerdən qoyulur, ikinci və üçüncü mərtəbələrin arası isə ara pilləkəni vasitəsilə əlaqəndirilirdi. Ləmin hər bir mərtəbəsi təxminən 1 m hündürlüyündə sürahı ilə dövrələnirdi. Bəzən bu məqsədlə həsirdən də istifadə olunurdu. Lənkəran-Astara bölgəsi üçün xarakterik olan belə ləmlər özünəməxsus arxitektura-memarlıq səciyyəsi kəsb edərək yerli əhalinin yay istirahətinin və yatağının başlıca yeri hesab olunurdu.



Səkixanovların evi

Ləmin nisbətən təkmilləşmiş forması bişmiş kərpicdən hazırlanmış sütunlar üzərində qurulurdu. Bir qayda olaarq, həyətyanı sahədə, yaşayış evinin yaxınlığında inşa edilən ləm, onunla harmonik



kompozisiya yaradırdı. Belə ləmlərin ikinci mərtəbəsi tikilərkən mərtəbələrarası döşəmə millərin ucları kənara çıxarılır və beləliklə, o, birinci mərtəbədən öz sahəsinə görə böyük olurdu. Ləmin üçüncü mərtəbəsi isə ağac sütunlar üzərində dikəlir və burada dam çardağı qurulurdu. [52]

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan xalq yaşayış evi fondunu təşkil edən ev tiplərinin təkmilləşdirilmiş formaları xalq arasında “ağ ev”, “otaqlı ev”, “işıqlı ev” və s. adlarla məlum olan eyvanlı evlər idi. Belə evlərin “qolsuz eyvanlı”, “təkqollu eyvanlı” və “qoşaqollu eyvanlı” olmaqla üç müxtəlif forması mövcud idi. Bunlardan qolsuz və qoşaqollu eyvanlı evlər Azərbaycan tikinti mədəniyyətinin mühüm nailiyyəti hesab olunur.

Qeyd etmək lazımdır ki, memarlıq ədəbiyyatında eyvanlı evlər “antlı evlər” kimi təqdim olunur. [53] Antlar-evin yan divarlarının çıxıntısı olub, eyvanı (Muğanda –qulaban, Astarada –pyəsə) yanlardan dövrələyir. Ant divarları Azərbaycanın xalq yaşayış evlərinin planlaşdırılmasında yerli iqlim şəraitinə uyğun olaraq meydana çıxmışdır. İlin müxtəlif fəsillərində evin və eyvanın daxilini səmt küləklərindən, yağışdan və günəş radiasiyasından qorumaq, zəruri mikroiqlim şəraiti yaratmaq üçün ant divarları xüsusi əhəmiyyət kəsb edirdi. Qollu eyvanlar, həmçinin, isti iqlim şəraitində dincəlmək, müxtəlif məişət işlərini həyata keçirmək üçün, hətta mətbəx kimi də istifadə olunurdu. Yay aylarında ailənin bütün güzəranı burada keçirdi.





Təkotaqlı eyvanlı evlər XVIII-XIX  ərslərdə Azərbaycanın xalq yaşayış evi fondunda əhəmiyyətli yer tutmuş, bu günə qədər bir çox hallarda fərdi ev inşaatında tətbiq olunaraq davamlı ev tipi kimi şöhrət qazanmışdır. Sonralar inşaat ənənələrinin zənginləşməsi nəticəsində meydana gəlmiş çoxotaqlı və çoxmərtəbəli, memarlıq-kompozisiya quruluşu cəhətdən kamil sənət əsəri kimi səciyyələnən yaşayış binalarının (malikanə, imarət, mülk, yarımsaray tipli evlər) ilk rüşeymi məhz təkotaqlı eyvanlı (antlı) evlər olmuşdur.

Qolsuz eyvanlı evlərin eyvanı hər iki tərəfi açıq saxlanılır, yəni yan divarların davamı olan antlı evlər qurulmurdu. Belə evlərdə tavanı yaradan eyvan milləri üzərinə qoyulan sütunlar nallara söykənirdi.

Daş bünövrə kürsüsü üzərində qurulmuş eyvanın eni təxminən 2,5 olmaqla, şərq divarının ortasında buxarı, qərb divarının ortasında isə döşəmədən 1,5 m hündürlükdə dolab (dula) yerləşirdi. Bir-birindən 1,25 sm aralı qoyulmuş beş ədəd eyvan sütunları bünövrə uzadılmış at nalın üzərində dayanırdı. Sütunların arası 1,20 sm hündürlükdə kəsmə naxışlarla bəzədilmiş sürahı ilə tamamlanırdı. Sütunların baş tərəfində, üzərində memarlıq cəhətdən nəzəri cəlb edən oyma və nəbati naxışlarla bəzək işləri aparılmış “künyə” adlanan taxta vurulurdu. Tavanı əmələ gətirən eyvan millərin ucları düz şəkildə kəsilərək ora aşağı hissəsi boy uzunu kəsmə naxışlarla bəzədilmiş “qaş” adlanan taxta bənd edilirdi.

Əsasən Naxçıvan bölgəsində, Şuşa şəhərində, bəzən Şirvanda inşa olunan ikiotaqlı və çoxotaqlı yaşayış evlərində eyvan funksiyasını “qəfəxana”, yaxud “qavxana” adlı daxili dəhliz yerinə yetirirdi.

“Qavxana” ifadəsinin “qabxana” sözünün təhrif olunmuş forması olduğu ehtimal edilir; bu da dəhliz yerləşkəsi olun, bəzi mətbəx müxəlləfatının saxlanılması üçün istifadə edilirdi. Qavxanada, bir qayda olaraq, yer təndiri də qurulurdu. Qışda təndirin üstünə kürsü qoyulur, kürsü yorğanı salınır, yatacaq burada həyata keçirilirdi. Planda düzbucaqlı və dördkünc, səkkiz və ya altıbucaqlı tikilən dəhlizdən yataq və qonaq otaqlarına qapılar açılır, həyətdən yaşayış evinə giriş qapısı dəhlizdə qoyulurdu. Yay aylarında gündüzlər ailənin bütün güzəranı qavxanada keçirdi.

XIX əsrin sonlarından başlayaraq iqtisadi və texniki imkanların artması, inşaat ənənələrinin zənginləşməsi, Bakı-Tiflis dəmir yolunun çəkilişindən sonra (1883-cü il) qonşu ölkələr və şəhərlərlə müntəzəm əlaqələrin təmin edilməsi nəticəsində əhalinin məişətində daha mürəkkəb memarlıq-konsturksiya quruluşuna malik ev tipləri meydana gəlmişdir. Bu ev tipləri arasında **“işıqlı ev”, “ağ otaq”, “tənəbi ev”, “aynabəndli ev”, “imarət”, “malikanə”, “mülk”, “qəsr”** və s. adlarla məlum olub, əsasən iqtisadi cəhətdən təmin olunmuş varlılara məxsus idi. Adətən, belə evlər hündür daş hasarlarla əhatələnir, giriş və ya alaqapılarla təhciz olunur, xarici kompozisiyanın həlli və onun tərkib hissələri ilə seçilir, sıra tağları, sıra sütunları, daş şəbəkəli tavanı və ağac şəbəkəli qapı və pəncərələri ilə diqqəti cəlb edir, interyerdə divar səhtləri və tavanları zəngin bədii tərtibatla işlənirdi. Azərbaycanın Quba, Şəki, Şuşa, Gəncə, Bakı, Şamaxı, Ordubad və s. şəhərlərində belə ev tiplərinə tez-tez rast gəlmək olardı. Kənd yerlərində isə belə ev tipləri nadir hallarda tikilərək çoxyerləşkəli, kürsülü, aynabəndli (siyirtmə şəbəkəli), ikimərtəbəli, əksər hallarda isə çatmadam örtüklü olurdu.



Beləliklə, Azərbaycanın xalq yaşayış evi fondu ən qədim dövrlərdən tutmuş XX əsrin əvvələrinə kimi tarixi-təkamül parosesində ibtidai insanların

təbii-süni mağaralardan başlayaraq müasir evlərə kimi çox böyük təkmilləşmə və zəngiləşmə yolu keçmişdir. Azərbaycanın xalq yaşayış evlərinin yeni inşaat ənənələri ilə zənginləşməsi xalq memarlarının yaradıcılığı ilə sıx surətdə bağlıdır. XIX-XX əsrin əvvəllərində inşa olunmuş yaşayış evlərinin bugünədək gəlib çatan nümunələrinin timsalında Azərbaycan xalq sənətkarlarının yüksək bədii memarlıq və zəngin inşaat ənənələrinə malik olduqları aydın görünür. Yerli inşaat materiallarının növ müxtəlifliyini, xalqın xarakterini, həyat və məişət tərzini dərindən anlayan xalq memarları qazandıqları emprik bilik və təcrübələrini nəsildən-nəslə çatdıraraq inşaat ənənələrinin zənginləşməsində mühüm rol oynamışlar.

Xüsusi səriştəli sənətkarlar tərəfindən inşa olunan yaşayış evlərinin planlaşdırma üsullarının və arxitektura kompozisiyalarının formlaşmasında əsas şərt kimi yerli təbii-iqlim və sosial-iqtisadi şəraitin təsiri ilə yanaşı, xalq memarlarının fərqi yaradıcılıq xüsusiyyətinin də böyük rolu olmuşdur. Taxtadan oyma naxışlı dekorativ tağbəndlər, müxtəlif rəngli şüşələrlə örtülmüş vitraj, zərif işlənmiş şəbəkələr, zəngin bəzəkli eyvan və balkonlar və bir sıra başqa memarlıq ünsürlərinin yaradılması və tətbiq edilməsi yaşayış binalarına tədqirəlayiq bir görkəm vermişdir. Xalq memarları, xalq yaşayış binalarının ardıcıl inkişaf etidirilməsi və təkmilləşdirilməsi əsasında Şəkidə Xan sarayı, Şəkixanovların evini, Şuşada Pənah xanın sarayını, Zöhrabbəyovların, Mehmandarovların, Əsəd bəyin və Nətavanın imarətlərini, Naxçıvanda Naxçıvan xanlarının evini, Lənkəranda Tuğra xanımın və İsa bəyin evlərini, habelə digər qiymətli abidələri yaratmışlar.



**Yaşayış evlərinin planı.** Xalq yaşayış evlərinin etnoqrafik cəhətdən maraqdoğuran məsələrdən biri də onların plan quruluşunun

öyrənilməsidir. Aparılan çoxillik etnoqrafik müşahidələr və çoxsaylı etnoqrafik-memarlıq tədqiqatları Azərbaycan xalq və yaşayış evlərinin kəllayı (kəlləzal), qoşa kəllayı və cərgəvi (düzdəmə) plan quruluşuna malik olduğunu təsdiq edir. Memarlıq ədəbiyyatında belə planlı evlərə, bir qayda olaraq, “T”, “II”, və “I” şəkilli evlər deyirlər.

XIX-XX əsrin əvvəllərində xalqın istifadəsində olan yaşayış evlərinin böyük əksəriyyəti kvadrat dördkünc (pəyəbaşı, qaradam) və



düzbucaqlı (təkotaqlı yerüstü evlərin hamısı) planda tikilmiş birmərtəbəli evlərdən ibarət olmuşdur. Uzun zaman belə evlər həm yaşayış evi, həm də təsərrüfat tikililəri kimi istifadə olunduqlarından, digər plan quruluşlu evlərin tikilməsini lüzumsuz etmişdir. Lakin XIX əsrin ortalarından başlayaraq inşaat ənənələrinin zənginləşməsi, xalq sənətkarlarının yeni-yeni plan qrurluşlu evlər tikmə bacarığı, başlıcası isə ailənin güzəranında məişət və təsərrüfat bölmələrinin bir-birindən qəti surətdə ayrılması nəticəsində evlərin yaşayış və istehsal-təsərrüfat hissəsinə bölünməsi prosesi başlamış, beləliklə yeni plan quruluşlu evlər meydana çıxmışdır. Belə plan quruluşlu evlərdən biri də **cərgəvi** (düzdəmə) variantında tikilən evlərdir. Cərgəvi (düzdəmə) planlı evlərdə otaqlar bir xətt boyunca cərgə ilə bir-birinə bitişik tikilirdi. Əsasən iki, üç və daha çox otaqlardan ibarət olan belə evlərdə bir-biri ilə əlaqə otaqlararası eyvan, yaxud dəhliz (qavxana) vasitəsi ilə

(Naxçıvan bölgəsi) yaradılırdı. Belə otaqlardan, adətən, biri mətbəx kimi nəzərdə tutulur, digərləri isə qonaq və yataq otaqları kimi ("qış evi" və "yay evi" də deyilirdi) istifadə olunurdu. Naxçıvanın indiki Cəlilkənd kəndində qeydə alınmış və böyük patriarxal ailəyə mənsub olan yaşayış evi cərgəvi (düzdəmə) plana malik olub, özündə yeddi



yaşayış otağını və iki təsərrüfat tikilisini birləşdirir. [54]

Cərgəvi plan quruluşuna malik evlərlə yanaşı, Azərbaycanda kəllayı (kəlləzal) variantlı ev tiplərinə də rast gəlinir. Əsasən Azərbaycanın aran və dağətəyi kəndlərində, xüsusilə Abşeron yarmadasında geniş yayılmış kəlayı evlərin əsas xüsusiyyəti otaqlardan birinin planda inşa olunmuş bir və ya iki otağın kəlləsində tikilməsində "T" şəkilli forma yaratmasından ibarətdir. Belə evlərin hər ikisinin qapısı eyni eyvana açılırdı. Naxçıvan və Lənkəran bölgələrində "tənəbi" evlər adlandırılan kəllayı evlər memarlıq-planlaşdırma baxımından daha yığcam və məqsədəuyğun olub, ayrı-ayrı bölmələr arasında daxili əlaqələrin asanlaşmasına şərait yaradırdı.

Xalq yaşayış evlərinin planlaşdırılmasında digər bir variantı **qoşa kəllayı** evlərdir. Qoşa kəllayı evlərdə xətti planda tikilmiş

otaqların hər iki başında köndələn otaqlar tikilir və planda "II" şəklini alırdı. Belə hallardan bütün otaqların qapısı eyni eyvana açılır, eyvanın qarşısı, bir qayda olaraq, şüşəbənd (aynabənd) edilirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan kəndlərində ikimərtəbəli evlərə də təsadüf olunurdu. Onların alt mərtəbəsi, adətən, tövlə, anbar, iş-istehsal otağı, dükan, emalatxana, bir sözlə, təsərrüfat-məişət bölməsini təşkil edir, üst mərtəbəsi isə yataq və qonaq otağı üçün nəzərdə tutulurdu.

**Müvəqqəti yaşayış evləri.** Azərbaycan xalq yaşayış evinin fondunun bir qismini də maldar elatlara məxsus olan və müxtəlif adlar daşıyan müvəqqəti yaşayış evləri (alaçıq, coma, dəyə, muxuru, qarakeçə, dünnüklü ev, kolux, mağardəyə və s.) təşkil edirdi. Adından məlum olduğu kimi, müvəqqəti yaşayış evləri, əsasən yaylaq şəraitində inşa olunur, asanlıqla sökülüb-yığıla bilirdi. Dairəvi və uzunsov planda qurulan belə evlərin əsas tikinti materialı çubuq, qarğı, qamış, keçə (qəlib), ip, ağac və s. idi.

Etnoqrafik araşdırmalar göstərir ki, Azərbaycanın maldar elatlarının istifadəsində olan müvəqqəti yaşayış evlərinin müxtəlif variantları içərisində **dəyə** (Şirvanda- qarakeçə) və **alaçıq** üstünlük təşkil etmişdir. Dəyə, həm ölçüsünə, həm də tikilmə üsuluna görə alaçıqdan fərqlənirdi. Həcminə görə alaçıqdan kiçik olan dəyə, möhkəmliyinə görə də ondan geri qalırdı. Belə fərqli xüsusiyyətlərinə baxmayaraq əslində alaçıq və dəyə eyni bir müvəqqəti yaşayış evinin iki müxtəlif növüdür. "Dəyə" istilahı bir çox türkdilli xalqlarda ümumiyyətlə, "ev" mənasında işlədilir. [55]

Qeyd etmək lazımdır ki, saxurlar arasında dəyə "qış evi" kimi məlumdur. Belə dəyələr Azərbaycan dəyələrindən kəskin surətdə fərqlənərək 1,5-2 m dərinliyində torpağın içərisində tikilirdi. Dəyənin ortasında 1 m dərinliyində qazılan ocaq yerinə qışda ayaqlarını sallayaraq qızınırdılar. [56]

Azərbaycanın ayrı-ayrı bölgələrində dəyə, inşaat materiallına, plan quruluşuna, konstruksiyasına və təyinatına görə müxtəlif səciyyə daşımışdır. Şəki-Zaqatala və Qarabağ bölgələrində dəyə ya torpaqda qazılan kalafa kimi, ya da sal daşlardan tikilir və düzbucaqlı planda olurdu. Onlardan yalaq və qışlaq şəraitində çobanlar istifadə edirdilər.

Burada tikilən qazma tipli dəyələr ya ikisinəli dam çardağı ilə, ya da çubuqlardan düzəldilən qövsvari keçə örtüklə tamamlanırdı. [57]

Naxçıvan bölgəsində tikilən dəyələrdə inşaat materialı kimi gildən, ağacdan, otdan, küləşdən istifadə olunurdu. Gildən inşa olunan dəyə bir və ya ikimərtəbəli olmaqla, özünün xarici görkəminə görə qala bürcünü xatırladır  və daimi yaşayış evi kimi nəzərdə tutulurdu. [58]





Dəyə yüngül kostruksiyaya malik olduğundan quruluşca çox sadə idi. Lazımi ölçüdə çubuqları kəsib ucları rəndələdikdən sonra onları dəyə tikilməsi üçün nəzərdə tutulmuş yeri dairəvi şəkildə, bir-birindən 40-50 sm aralı basdırırdılar. Qarşı-qarşıya duran çubuqların uclarını əyərək yundan toxunmuş “örəmə ” adlanan qotazlı ip vasitəsilə bir-birinə bağlandıqdan sonra  dəyənin gövdəsi hazır olurdu. Dəyənin üstünü örtmək üçün əvvəlcə çubuqların çöl tərəfdən ətrafına hündürlüyü 80-100 sm olan qarğıdan hörülmüş çətən (çitəmə, çığ) çəkirdilər. Çətən (çığ) giriş yolunu bağlamırdı. Bundan sonra dəyənin başı dörd hissə keçədən ibarət olub, dairəvi və dördkünc formada bir-birinə tikilən “baş qəlib” ilə örtülürdü. Dəyənin yanları isə, üç hissə keçədən ibarət olan və aşağıya doğru getdikcə enlənən “yan qəlibləri” ilə bağlanırdı. Qəlibləri külək atmasın deyə, uclarındakı iplər

vasitəsilə ya çəkib dəyə çubuqlarının bağlayır, ya da kənarlarından ağac, daş və s. asırdılar. Dəyənin möhkəmliyini artırmaq məqsədilə onun üstünü də iplə (sicimlə) möhkəm çəkir və "yellik" düzəldirdilər. Bir qayda olaraq, dəyənin qapısı gündoğan səmtə baxırdı. Lakin nadir hallarda, xüsusilə oba quzeydə yerləşdikdə dəyənin baxar səmti günbatana tərəf olurdu. Qapı, adətən, bir-birindən 70-80 sm aralı basdırılmış iki yoğun çubuqdan düzəldilirdi. Giriş yolu həsirlə, palazla və yaxud, məhz bu məqsəd üçün xüsusi toxunuş "qapılıq" adlanan kilimlə tutulurdu. Günəşli günlərdə dəyənin qaplığı çimərlənib yuxarıda ip (köşə) vasitəsilə bağlanırdı.Yağış suyunun dəyəyə dolmaması üçün onun ətrafına "qapım" adlanan ensiz arx (şırım) çəkilirdi.

Dəyənin ölçülərindən asılı olaraq onu tikmək üçün 30-50-yə qədər çubuq, 4-6-ya qədər keçə (qəlib) işlənirdi. Qəlibi (keçəni) "həllac" adlanan xüsusi səriştəli ustalar hazırlayırdı. Adətən, üçlükdə işləyən həllaclar gün ərzində dörd qəlib (keçə) hazırlaya bilirdilər.



Müvəqqəti yaşayış evlərinin bir tipi də **alaçıq** idi. Dəyəyə nisbətən mürəkkəb konstruksiyaya malik olan alaçıq, həm də həcminin böyüklüyünə görə də fərqlənirdi. Onu tikmək üçün gözəyarı müəyyən edilmiş yerə ağac mıxca çalıb, ucuna ip bağlayırdılar. İpi mıxçanın dövrəsi boyunca 6-8 addımlıqda fırladaraq, yerdə dairə çəkir və bir qayda ilə alaçığın dövrəsini müəyyən edirdilər. Bundan sonra dairənin mərkəzinə təxminən 3-5 m hüdürlüyünüdə “sunaça” basdırılırdı. Azərbaycanın ayrı-ayrı bölgələrində sunaça- “çöysü”, “köskü”, “çatma-çıvıx”, “dirəncək”, “lobar” adları ilə məlum idi. Alaçıqlarda sunaçanın qoyulması həm onun həcminin genişlənməsinə, həm də qəlibin ağırlığı altında çubuqların möhkəm dayanmasına təminat verirdi. [59] Bəzi varlı alaçıqlarında sunaça “şirazlı”, “çıxırlı” olurdu. Belə sunçaların üzəri oyma üsulu ilə milli ornament və naxışlarla bəzədilir, ətrafında çoxlu təbii çıxıntıları olurdu ki, oraya paltar, silah, xəncər, ov avadanlığı və s. şeylər asılırdı. Sunaçanın başına çəmbərəsi (sağanağı) boyunca 30-a qədər deşik açılmış çarpaz şəkilli və ya pərli çarx formalı dünnük keçirilirdi. Bir-birindən eyni məsafədə torpağa basdırılmış alaçıq çubuqlarının nazik ucları bu deşiklərə keçirilirdi. Bundan sonra çarxa bağlanmış ipi, çubuqlar qövsvari görkəm alana kimi aşağıya doğru tarım çəkir, sunaça yaxınlığında basdırılmış mıxlara bağlayırdılar. Alaçığın yan çubuqlarının möhkəmliyini təmin etmək üçün bir-birinə paralel olaraq 1 m aralı “badaq çubuqları” da bənd edilirdi. Bu qayda ilə gövdə hazır olduqdan sonra onun ətrafına çətən (çığ) çəkib həmin gövdənin üzərinə

qəlib (keçə) salırdılar. Azərbaycanın Şirvan bölgəsində müvəqqəti yaşayış evi kimi inşa olunan bu tip alaçıq “dünnüklü ev” adı ilə məlum idi.

Öz həcminə görə alaçıqdan nisbətən böyük olan muxurun inşaat texnikası alaçıqdan heç də fərqlənmirdi. Muxurun qəlibləri sadə naxışlarla örtülür, interyeri müxtəlif toxunma lentlərlə (bafta), qapıüstü naxışlarla bəzədilirdi.

Alaçıq və dəyənin içərisində “nəmi”, yaxud “bucaq” deyilən xüsusi yer düzəldilir, burada heyvandarlıq məhsulları və ərzaq saxlanılırdı. Nəminin döşəməsi yastı çay daşları ilə döşənir, olacaq yerindən çətən arakəsmə və ya 30-50 sm hündürlüyündə daşqura divarla ayrılırdı. Ev müxəlləfatı (barxana, məfrəş və s.) künclərin birində daş ayaqaltı üzərinə taxta qoyulmaqla qurulan yük yerinə yığılırdı.

Azərbaycanın maldar elatları **“mağardəyəsi”** və ya sadəcə olaraq **“mağar”** adlanan iri həcmli yaşayış evləri də tikirdilər. Əsasən, böyük patriarxal ailəyə məxsus olan belə müvəqqəti tikililər uzunsov planda olurdu. Mağardəyəsini tikmək üçün hər tərəfdə on ədəd çubuğu təxminən bir metr aralı qarşı-qarşıya basdırıb uclarını əyərək ip vasitəsilə bir-birinə badaq edirdilər. Qövsvari şəkil alan bu çubuqlar doqquz ədəd bel çubuqları vasitəsilə birləşdirilir, arxasını örtmək üçün isə beş ədəd çubuqdan istifadə olunurdu. Yan çubuqların ortasında bir xətt boyunca bağlanan badaq çubuqları dəyənin möhkəmliyini daha da artırırdı. Qəlibin ağırlığı altında çubuqların əyilməməsi üçün onun içərisində iki dirək basdırılırdı. Bundan sonra ətrafına çətən çəkilmiş mağar dəyənin üstünə qəlib döşənirdi. Belə mağar dəyələrdə yaylaq şəraitində hətta toy etmək belə mümkün idi.

Azərbaycanın Lənkəran-Astara bölgəsi üçün xarakterik olan, talış dilində “çodı kümə” (çadır ev) adlandırılan “qaraçadır”ın plan quruluşu mağar dəyəyə bənzəsə də, inşaat materialına və texnikasına görə ondan fərqlənirdi. Düzbucaqlı planda olan “çodı kümə”nin yan və kəllə tərəfləri köndələn qoyulmuş çubuqları (kamat) daha elastik çubuqlar (reves) keçirməklə hörülürdü. Yan tərəfləri daha sıx hörülmüş “çodı kümə”nin qabaq hörgüsündə düzbucaqlı formada giriş yolu qoyulurdu. Tavanı əməmlə gətirən qövsvari əyilmiş çubuqların üzərinə

keçi qəzilindən toxunmuş qara və ya tünd palıdı rəngli cecim örtürdülər. Alaçıq və dəyəyə nisbətən daha davamlı tikilən "çodı kümə"ni sökmür, növbəti ildə istifadə üçün saxlayırdılar.[60]

Bölgədə çadır evlərin digər bir vatiantı üç cərgədə torpağa basıdırılmış dirəklər üzərində qurulurdu. Dam örtüyündə mailililik yaratmaq üçün orta dirəklər yan dirəklərə nisbətən 80-90 sm hündür olurdu. Dirəklərin haçasına tir atılır, üstünə maili şəkildə xarapa (xapu) döşənir və keçə ilə örtülürdü.

Planda kvadratşəkilli tikilən kümənin yanlarına həsir tikilir, qapısı hörmə çubuqdan düzəldilirdi.

Tavansız maldar elatlar yaylaq şəraitində bəzən olduqca sadə tikinti konstruksiyasına malik olan **"kolux"** tipli alaçıqlarda yaşayırdılar. Kolux, əsasən Naxçıvan mahalının maldar elatları üçün səciyyəvi olan müvəqqəti ev tipi idi. Onu qurmaq üçün 1,5-2 m hündürlüyündə iki ağac dirəyi bir-birindən 3-4 m aralı torpağa basdırır və onun haçasına köndələn ağac qoyurdular. Planda "П" şəkilli olan bu cür tikintinin üstünü avarla və cecimlə (palazla) örtür, uclarını ip vasitəsilə tarpağa çalınmış mıxlara bağlayırdılar. Koluxun bir tərəfi giriş yolu üçün açıq saxlanılırdı. [61]

**Yaşayış evlərinin daxili sahmanı.** XIX-XX əsrin əvvəllərində Azərbaycan xalqının yaşayış evlərinin daxili sahmanında Şərq aritekturasına məxsus sadəlik özünü göstərirdi. Burada yaşayış evlərinin forma, plan quruluşu və tiplərindən fərqli olaraq, interyerdə də müvafiq dəyişikliklər baş vermişdi. Evin daxili sahmanında olan dəyişikliklərdə xalqın sosial-iqtisadi və mədəni səviyyəsi, təsərrüfat fəaliyyətinin istiqaməti, xalq ənənələri, maddi-texniki imkanlar, iri şəhərlərə yaxın yerləşmə və s. amillər həlledici rol oynamışdır.

Azərbaycan xalqının böyük əksəriyyətinin yaşayış evləri XIX əsr və XX əsrin əvvəllərində qazma və qaradam tipli olduğundan, onlarda daxili səliqə-sahman o qədər də gözlənilmirdi. Belə evlərdən təkcə yaşayış üçün deyil, təsərrüfat məqsədləri üçün də istifadə edilirdi. Bu barədə XIX əsrin əvvəllərinə aid bir məlumatda deyilir: "Adətən belə evlərə daxil olduqda ilk dəfə adamın gözünə, bir-birinə söykənmiş mis qabların uzun cərgəsi, sonra yan-yana qoyulmuş xalçalar, keçələr və barxana dəyir. Evin ortasında-yerdə ocaq qalayıb yemək hazırlayır,

çörək bişirir və qışda isinirlər. Giriş yolu ilə üzbəüz arxa divar boyu alçaq taxt yerləşdirilir, üstünə paltar və başqa müxəlləfat yığılmış yun məfrəşlər qoyulur, divardan isə silah asılır”. [62]

Yerüstü evlərdə isə daxili səliqə-sahman daha tez gözə çarpırdı. Burada müxtəlif məqsədlər üçün düzəldilmiş divar açırımları (taxça, zeh və ya rəf (ləmə), divar şkafı, yük yeri, dolab, buxarı və s. ) mühüm əlamət idi. Ailə məişəti üçün səciyyəvi olan bütün proseslər (yemək, yatmaq, dincəlmək, ev məişəti işləri və s.) döşəmə üzərində həyata keçirildiyindən, onun səliqəli düzəldilməsinə xüsusi fikir verilirdi. Adətən, döşəmə saman qatılmış palıçıqla qalın suvanır, suvaq quruyandan sonra onun üzərinə və divarlara ağ gildən şirə çəkilirdi. Şirələnmiş döşəməyə ev sahibinin maddi imkanından asılı olaraq keçə (garbıt), palaz, cecim, həsir (tumu-püzətumu, lığ tumu), kilim, xalça, gəbə və s. salınır, üzərinə aşılanmış qoyun dərisindən ayaqaltılar qoyulur, mütəkkə, balış və döşəkçələr (nalça, nimdər) düzülürdü. Bəzən evin divarlarına da yerdən 50-60 sm hündürlükdə həsir çəkilirdi. Varlı evlərində bu tərtibat daha zəngin olurdu, divarlara xalçalar asılır, üzərinə müxtəlif həndəsi və nəbati naxışlarla bəzədilmiş bədii tikmələr bənd edilir, silah-sümsü, saz, uluların portretləri və qətələr (üzərində zərli xətlə Qurandan ayələr yazılan və çərçivəyə salınan xüsusi sənət əsəri ) asılırdı. Bütün bu ev müxəlləfatları bir neçə ailə üçün zəruri məişət avadanlığı olduğundan, bəziləri gəlin köçən qızların cehiz dəstinə daxil edilirdi.

Naxçıvan bölgəsinin “var evləri” ndə xüsusi sifarişlə Təbriz ustaları tərəfindən toxunmuş xalı-xalça dəstləri ilə evi döşəmək adət halı almışdı. Tavan istisna olmaqla bütün döşəmə və divar bütöv xalçaya tutulurdu. Sifariş verilərkən evin qapı və pəncərə açırımlarının ölçüləri nəzərə alınırdı. Xalı döşəmə tam tutmayanda, ona “kənarə” deyilən ensiz, uzunsov xalçalar əlavə edilirdi. Giriş qapısının astanasına payandaz atılırdı.

Bir qayda olaraq, ailə başçısı, hörmətli qonaq və ağsaqqal üçün evin barı yerləşən “dör başı”nda ayrıca nazbalış qoyulurdu. Naxçıvan bölgəsinin “tənəbi evləri”ndə evin bu guşəsi “şahnişin” və ya “şanişin” adlanırdı.

Azərbaycan xalq yaşayış evlərinin daxili sahmanında mühüm məişət elementlərindən biri **yük yerinin (camaxatanın)** olması idi. Qazma və qaradam tipli evlərdə yük yer daş, kərpic və ya ağac dayaqlar üzərində qurulan yükaltılardan ibarət idi. Yerüstü evlərdə isə bu məqsəd üçün xüsusi düzəldilmiş divar açırımlarından istifadə edilirdi. Yük yeri evin ölçüsündan asılı olaraq iki və ya üç ədəd olurdu. Onlar, bir qayda olaraq, qapı ilə üzbəüz arxa divarda yerləşdirilirdi. Daş və ya kərpic hörgülü evlərdə yül yerinin eni təxminən 1,3 m, hündürlüyü1, 45 m, divarın içinə doğru batığı isə 60-70 sm olurdu. Oraya əsasən yataq ləvazimatı: yoğan-döşək, paltar, ehtiyat saxlanılan gəbə, kilim, palaz, yataq dəsti və s. yığılırdı. Çox vaxt məişət müxəllafatını məfrəş, yaxdan və sandığa yığıb yük yerinə qoyurdular. Bəzən evdə iki və ya daha çox yük yeri olduqda, onlardan hətta ərzaq saxlamaq üçün də istifadə olunurdu. Yük yerlərinin qabağına adətən, ipək və pambıq parçalardan tikilmiş saya pərdələrlə, varlı evlərində isə tikmə naxışlarla bəzədilmiş "zərəndaz" adlanan pərdələrlə tuturdular. Şirvan bölgəsində yerli adətə görə, gəlinin cehizləri arasında yük yeri pərdələrinin olması vacib sayılırdı. Ona görə də toydan əvvəl oğlan evinin yük yerlərinin ölçüsü götürülərək ona müvafiq pərdələr tikilir, baş tərəfinə rəngbərəng parçalardan qıyqaz bükülmüş pərdəbaşlığı tutulardı. Şəki-Zaqatala bölgəsində evlərin daxili sahmanında kiçik yük yeri funksiyasını yerinə yetirən "xarxara" da mühüm element idi. Adətən, xarxara 60smx80smx50sm ölçüdə düzəldilir, içərisində yastıq, mütəkkə, kiçik döşəklər (nalça, nimdər) yığılırdı. Xarxaranın da qarşısına pərdə tutulurdu.

Evlərin daxili sahmanındakı məişət elementlərindən olan **taxça** (nəməşka) gündəlikdə işlədilməyən ev avadanlıqlarının, qiymətli şeylərin, qadın zinətlərinin, içərisinə xeyir-şər libasları qoyulan və bahalı parçalardan hazırlanan paltar boğçasının xeyir-şər libasları qoyulan və bahalı parçalardan hazırlanan paltar boğçasının (Naxçıvanda ona "paltar-çarşovu" deyirdilər) saxlanılması üçün nəzərdə tutulurdu. Hər bir evdə, adətən, taxça bir cüt olmaqla, 140x80x25-30 sm ölçüdə simmetrik şəkildə buxarı yerləşən divarın sağ və solunda düzəldilirdi. XIX əsrin ortalarına kimi taxçaların qabağı, üzəri müxtəlif naxışlarla bəzədilən pərdələrlə tutulurdu. Sonralar, xüsusilə də XIX əsrin

sonlarında tikilən yaşayış evlərində taxçalara qapı qoyulur, “qarğaburnu” (“qarğadili, “qulax”) adlana cəftə ilə bağlanırdı.

Gündəlikdə işlədilən qab-qacağı, azuqəni, çay və xörək dəstgahını taxmanın bir növü olan **dolabda** (dulada) saxlayırdılar. Taxça ilə müqayisədə dolan kiçik olub, təxminən 100x70x20-25 sm ölçüdə qurulurdu. Adətən, təkotaqlı evlərdə bir cüt dolab olurdu. Bəzən evin eyvanında da dolaba təsadüf edilirdi. O, kiçik ölçülü (60x40x30 sm) olmaqla, həm yəhər-qoşqu ləvazimatı qoymaq, həm də gecələr təsərrüfat tikililərinə baş çəkmək üçün istifadə edilən əl çıraqlarını saxlamaq üçün istifadə olunur. Dolaba yığılan əşyalar gündəlikdə istifadə olunduğundan, onun qarşısına tünd rəngli parçadan pərdə tutulurdu.

Üzərinə müxtəlif mətbəx avandanlığı yığılmış **rəf (zeh, ləmə)** evin interyerində mühüm yer tuturdu. Onu, bir qayda olaraq, evin yan divarları boyunca düzəldirdilər. Bəzən evin bütün divarları boyu düzələn zehə də təsadüf olunurdu. Yaşayış evlərində zehin iki forması (divarda yerləşdirilmiş batıq şəklində və divardan 20-25 sm irəli çıxmış qomqamış kəmər və ya taxta qurşaq şəklində) geniş yayılmışdı. Durma tipli yaşayış evlərində zehi xüsusi əndazə ilə qovaq ağacından yonub düzəldirdilər. 3-4 sm qalınlığında, 2, 5-3 m uzunluğunda və 20-25 sm enində olan taxtanın hər iki başından açılmış qoşa deşiklərdən eşilmiş köşə keçirərək dam çardağının pərdilərinə bağlayırdılar. Divara söykənmiş vəziyyətdə olan zehin üzərinə məişətdə az işlədilən və tez sınan ev avadanlığı müəyyən ardıcıllıqla və xüsusi zövqlə yığılırdı. Zeh bir növ ailənin iqtisadi vəziyyətinin barometri idi. Oraya düzülmüş qabların sırasına, sayına, dəyərinə və müxtəlifliyinə gör ailə sahibinin maddi vəziyyətini müəyyən etmək olardı.

Zehin daha yaraşıqlı və formalı görünməsi üçün, adətən, yük yerinin üstü ilə zehin altında qalan aralıq hissəyə bütün divar boyu rəngbərəng parçalardan bucağının bir aşağıya doğru meyilli olmaqla üçbucaq formasında “zehqabağı” adlanan xüsusi biçimli qabaqlıq tuturdular. Eynilə zehqabağı kimi düzəldilən, lakin ondan bəzəklərinin zənginliyi və gözəlliyi ilə seçilən “gərdəkbaşı” ən çox toy zamanı evin daxili sahmanında diqqəti cəld edirdi. Adətən, təkotaqlı evə gəlin gətirdikdə evi “gərdək” adlanan arakəsmə pərdə ilə iki hissəyə

bölürdülər. Gərdək pərdəsinin yuxarı başına isə “gərdəkbaşı” bağlayırdılar. İnteryerə rövnəq verən gərdəkbaşı xüsusi əndazə ilə biçilib-tikilir, rəngli muncuqlar və qotazlarla bəzədilirdi. Gərdəkbaşı hər bir ailənin ən əziz saxlanı, əmanəti kimi nəsildən-nəslə, anadan-qızına keçərdi.

Azərbaycanın bəzi bölgələrində (Naxçıvan, Şirvan, Abşeron və s.) evlərin daxili sahmanında **kürsü** də müəyyən yer tuturdu. Adətən, ailə üzlərinin qızması üçün nəzərdə tutulan kürsüdən qış aylarında da istifadə edilirdi. Evin ortasında qurulan kürsü döşəmə üzərində qazılmış dayaz çaladan, alçaq kətildən və onun üzərinə salınmış böyük “kürsü yorğanı”ndan ibarət olurdu. Bəzi evlərdə çala əvəzinə, xüsusi düzəldilmiş gil kürə və çuqun manqaldan da istifadə edilirdi.

Evlərin daxili sahmanında diqqəti cəlb edən digər məişət elementi **buxarı** idi. Ondan xörək hazırlamaq və evləri qızdırmaq məqsədi ilə istifadə olunurdu. Yaşayış evlərinin əksəriyyətində buxarı kəllə divarın ortasında yerləşdirilirdi. Bəzən otağın künclərinin birində ocaq oyuğundan və divariçi tüstü borusundan ibarət buxarılara da rast gəlmək olurdu. Atmosfer çöküntülərindən mühafizə edilməsi və tüstünü yaxşı çəkməsi üçün baxarının başı hörülərək dam örtüyündən 80-90 sm hündürə qaldırılır, günbəzli, qövsvari və ya üçbucaqlı formalı başlıqla tamamlanırdı.

Şirvanın bağdadı tipli evlərində bu funksiyanı “səbətbaca” yerinə yetirirdi.

Lənkəran-Astara bölgəsi kəndlərində bişmiş və çiy (kal) kərpicdən hörülmüş buxarıların içərisinə xüsusi çuqun tava yerləşdirilirdi. İki quplu olan tava istiliyi tənzimləyir, evə tüstünün dolmasının qarşısını alırdı. Belə ki, ocaq yeni yandırılanda qulp vasitəsilə tava fırladılır, tüstü ancaq bacadan çıxırdı. Köz düşdükdə isə tava əksinə fırladılır, bu zaman tavanın qövsü bacanın yolunu bağlayır, istiliyi otağa ötürürdü.

Şəki-Zaqatala bölgəsində kənd yaşayış evlərində “qarpızı” və “asma” (qoyma) buxarılardan geniş istifadə edilirdi. “Qarpızı” buxarı “asma” (“qoyma”) buxarıdan fərqli olaraq bəzəkli düzəldilirdi. “Asma” (“qoyma”) buxarı divarın önündə xüsusi ağac dayaqların arasını kərpiclə hörməklə düzəldilir, kərpic boru ilə təhciz edilirdi. Belə

buxarıların bacası damın çardağında kümbəzvari formada qurulurdu. “Asma ” (“qoyma”) buxarıda adətən böyük ağac kötüklərini yerləşdirmək olurdu. “Qarpızı” buxarı evi qızdırmaq üçün, “asma” (“qoyma”) buxarı isə həm evi qızdırmaq, həm də xörək hazırlamaq üçün nəzərdə tutulurdu.

Ancaq evlərin qızdırılmasına xidmət edən, özlərinin dekorativ işlənmələri cəhətindən kamil sənət əsəri təsiri bağışlayan və quruluşca müxtəlif olan buxarılar əsas etibarı ilə varlıların evlərində olurdu. Onlardan bəzilərinin memarlıq tərtibatı müəyyən dərəcədə bəzəkli paltarı xatırladır və haşiyələrdən ibarət olur, ikinci qismi yuxarıdan bir-biri ilə müxtəlif formalı tağlarla əlaqələndirilən divara yapışıq nazik sütunlarla əhatə olunur, digər bir variantı isə ocaq yerinin yerləşdiyi batığın hər iki yandan və yuxarıdan kiçik taxçalarla əhatə olunan buxarılar şəklində olurdu.

Azərbaycanda yaşayış evlərinin qızdırılması üçün istifadə edilən süni vasitələr orta ocağı-buxara-tənəkə (çuqun) sobalar-kürsü (gil, kürə, manqal)-qaz sobaları və buxarıda işləyən müsair istilik sistemlərinə böyük inkişaf yolu keçmişdir. Keçmişdə evlərin qızdırılmasında yanacaq kimi odun, kərmə (qırma), təzək və s.-dən, Abşeron bölgəsində isə həm də neftdən (mazutdan) geniş istifadə edilirdi.

Yaşayış evlərinin daxili sahmanına anbar vəzifəsini görən kəndi, gündik, saqan, iri sandıq (yaxdan), çubuq və ya qarğıdan düzəldilmiş, yaxud ipdən düzəldilmiş asılqan, iynə və sap qoymaq üçün iynədan, çıraqban, divara vurulan xalçaların üzərinə bənd edilən müxtəlif naxışlı əl timələri və s. məişət əşyaları özünəməxsus rövnəq verirdi. Evlərin yığışdırılmasında və süpürülməsində “tuğ” adlanan kiçik süpürgələrdən istifadə olunurdu.

Yaşayış evlərinin daxili sahmanından işıqlandırma məsələsi də başlıca yer tuturdu.

XIX əsrdə evlərin süni işıqlandırılmasında gecələr orta ocağından, ucu alovlu küsövdən, buxarıda yanan ocağın şöləsindən, gündüzlər isə qapı və pəncərə açırımlarından, dam bacasından, sonralar müxtəlif yağlı bitkilərdən (albalı, palıd, tozağacı, gərməşov və s.) istifadə olunurdu. Etnoqrafik materiallar göstərir ki, Azərbaycanın qərb

bölgələrində yaşayış evlərinin işıqlandırılması üçün daha çox ağac çubuğundan hazırlanmış "döymə" adlanan "çıraq" dan istifadə edilmişdir. Onu hazırlamaq üçün qarağac və şam ağacının nisbətən yoğun çubuğunu balta ilə döyüb yumşaldır, sonra yağa basır, yandıraraq işığında otururdular. Bəzən heyvan piyindən düzəldilmiş xüsusi "şamlar"a da təsadüf edilirdi. Belə şamları hazırlamaq üçün heyvan piyini əridərək içərisinə piltə salınmış qarğı düdüyünə tökür, piy donub bərkiyəndən sonra düdüyü sındırır, içərisindəki hazır şamı yandırırdılar.

XIX əsrin ikinci yarısından Azərbaycan evlərinin işıqlandırılmasında mazut və qara neftlə işləyən qara çıraqlardan istifadə olunmağa başlandı. Onlar saxsıdan, şüşədən, misdən və tənəkdən düzəldilir, döşəmədən müəyyən hündürlükdə, ağacdan hazırlanmış çıraqbanların üstünə qoyulurdu. XX əsrin əvvəllərində yaxın qara çıraqları tədricən şüşəli lampalar, fənərlər əvəz edir. Bundan sonra xalqın məişətində ardıcıllıqla "yeddilik", "onluq", "otuzluq" lampa növləri daxil olur.

Göründüyü kimi, Azərbaycan xalq yaşayış evlərinin interyerlərinin bədii tərtibatında tətbiq olunan bədii vasitələr, məişət memarlığı elementləri xalqın çoxəsrlik həyati və inşaat təcrübəsinin nəticəsi olmuş, əsrdən-əsrə, nəsildən-nəslə keçərək təkmilləşmiş, müasir işıqlı evlərin bədii tərtibatına kimi çox böyük inkişaf yolu keçmişdir.

XX əsrin əvvəllərinə qədər Azərbaycan xalq yaşayış evlərinin böyük əksəriyyətində, demək olar ki, mebel olmamışdır. Az-çox varlı ailələrdə "taxta" adlanan ağac çarpayılar, ağacdan düzəldilmiş masa, kətil və s. avandanlıqlara təsadüf edilmişdir.

**Yaşayış evi tikintisi ilə əlaqədar xalq adətləri.** Azərbaycanda əsrlər boyu xalq təcrübəsi və empirik biliklərin hesabına yaranıb inkişaf edən, yerli əhalinin məişətində özünə vətəndaşlıq mövqeyi qazanan tikinti mədəniyyətimizdə bir sıra maraqlı və son dərəcə əhəmiyyətli adət-ənənələr mövcud olmuşdur. Zamanın keşməkeşlərindən çıxan, dərin mənası və məzmunu ilə xalqı uğurla təmsil edən bu adət-ənənələr, ulularımızın əmanəti kimi müasir dövrə qədər gəlib çıxmış, xalq sənətkarlarının peşəkarlığının, zəngin biliyinin, tikinti mədəniyyətinin

mühüm göstəricisinə çevrilmişdir. Yaşayış evi tikintisi üçün rahat, əlverişli yeri seçilməsi, inşaat materiallarının tədarük edilməsi və daşınaraq ora yığılması, bünövrənin qoyulması, künc daşının bünövrə yerinə yerləşdirilməsi, möhrə vurulması, divar hörgüsü, tir başa bağlama, dərasər qaldırmaq və digər inşaat proseslərini ilə bağlı adətlər xalqın empirik tikinti təcrübəsinin zənginliyinə gözəl nümunədir.

Hər şeydən əvvəl yaşayış evi tikiləcək yerin rahat və əlverişli olmasına üstünlük verilirdi. Bu sahədə etnoqrafik cəhətdən maraq doğuran bəzi adətlər mövcud idi. Kəndlilər yaşayış yeri tikməzdən əvvəl, bir qayda olaraq, həmin yerin tarixi, əvvəlki taleyi ilə maraqlanırdılar. Əgər seçilmiş sahə keçmişdə döyüş yeri, qəbristanlıq, pir, sonsuz adamın ev yeri olmuşdursa, onda həmin yerdə ev tikməyi əlverişli hesab etməzdilər. Xalq etiqadına görə, belə yer ailə üçün bədbəxtlik gətirə bilərdi. [63]

Azərbaycanın bütün bölgələrində adətən yeni ev tikiləcək yerin halallığı alınardı. Özgənin torpaq yerində, kiminsə gözü, nəzəri qalmış sahədə (belə yerə "haram yer" deyilirdi), bir sözlə "el ağzında, sel ağzında, yol ağzında ev tikməyi" ağsaqqallar, ağbirçəklər rəva görməzdilər. Tikinti yerlərinin halallığının alınması üçün dəvət olunan ağsaqqal, yerin əvvəlki yiyəsinin nəslindən qalanlardan halallıq aldıqdan sonra tikintiyə xeyir-dua və rəvac verərdi.

Yaşayış evi yerini seçərkən gözütox, uğurlu, əli yüngül, xoşbəxt ailə həyatı sürmüş şəxslə qonşu olmaq mülahizələrinə də müəyyən üstünlük verilirdi. Bunun üçün əsrlərcə sınaqdan çıxmış "Yaxın qonşu uzaq qohumdan yaxşıdır"-elə məsəlinə daha çox istinad edilirdi. Belə bir mülahizə xalq bayatılarında da öz əksini tapmışdır.

Mən aşiqəm, şum olsun,
Şumla yeri, şum olsun.
Yaxşı evim oluncan,
Bir yaxşı qonşum olsun. [64]

Əlverişli tikinti yeri seçmək üçün dəfələrlə sınaqdan çıxmış belə bir inanca da riayət olunurdu: Əgər örüşdən qayıdan mal sahibinin həyətinə çatmamış kəndin içərisində və ya kənarında eyni bir yerdə bir

neçə gün dalbadal yatar, yaxud dayanardısa, onda həmin yer ev tikmək üçün uğurlu hesab olunardı. [65]

Azərbaycanın qərb bölgəsini bəzi kəndlərində ev tikmək üçün rahat yer seçərkən qarşıqa yuvası olan sahəyə də müəyyən üstünlük verilərdi. Xalq etiqadına görə, qarışqa bolluq, bərəkət, zəhmət timsalı olduğundan və öz yuvasını quraqlıq yerlərdə qurduğundan, həmin yerlərdə tikilən evdən bolluq, bərəkət və halal zəhmət əksik olmaz, nəmlikdən söhbət gedə bilməzdi.

Quba rayonunda və Şabran düzənliyində ev tikməyə münasib yer seçmək üçün düzənlik ərazilərdə və çay kənarlarında torpağı 0,5 m dərinliyində qazıb oraya içərisi su ilə doldurularaq ağzı parça ilə bağlanmış  kuzə basdırılardı. Bir gün ərzində orada qalın kuzə çıxarılır, əgər kuzədə suyun səviyyəsi aşağı düşərdisə, onda belə yer tikinti üçün əlverişli, suyun səviyyəsi dəyişməzdisə, onda belə torpaq nəmli hesab olunar, ev tikmək üçün yararsız sayılardı. [66]

Azərbaycanın əksər etnoqrafik bölgələrində geniş yayılmış adətə görə, bənna ev inşa ediləcək sahəyə gələrək oranı nəzərdən keçirər, müəyyən hazırlıq işləri aparıldıqdan sonra evin ölçülərini, otaqların sayını, fasadın baxar səmtini müəyyənləşdirib, "Xoşbəxt yaşasınlar!", "Uğurlu olsun!"-kimi ürəyəyatan sözlər deyər və bünövrənin sağ küncünə ilk "işarə çiv"ini çalardı. Bu qayda ilə bütün çivlər çalınıb arasına iplər çəkildikdən sonra bənna bünövərinin qazılmasına işarə verərdi. Həyatı xoşbəxt və səadətlə keçmiş, əli yüngül, orucunun, namazının vaxtını keçirməyən, haram işə əl qoymayan, oğullu-qızlı, nəvəli-nəticəli ağsaqqal, xeyir-dua verəndən sonra bünövrə yerinə birinci beli vurar, bundan sonra ustanı və qohum-qonşuları işə dəvət edərdi.

Bu zaman, Naxçıvan bölgəsi üçün səciyyəvi olan bir el adətinə görə, tikiləcək evin sahibi ustanın qabağına meyvə və çərəzlə dolu qab (tabaq) gətirərdi. Ev yiyəsi və yaxın qohum-qonşular tağın üstünə xələt (pul, coraq, yaylıq, parça və s.) qoyardılar. Usta "pəh-pəh"lə çərəzdən dadar, xələti qəbul edər və işə başlardı. Tabaq (xonça) gətirilməsi adəti üzrə bünövrə qazılanda, tir başı bağlananda və sərmöhrə vurulanda da icra olunardı. Xatırladaq ki, Lənkəran-Astara bölgəsində bu adət ev tikilib başa çatdıqdan sonra həyata keçirilərdi.

Naxçıvan bölgəsinin tikinti ilə bağlı xalq adətləri içərisində ("Yallah") deyilən digər bir adət bu gün də qalmaqdadır. Tikinti başlayarkən usta palçıq dolu malanı yuxarı qaldırır, və "Yallah" deyirdi. Bu zaman ev yiyəsi və yaxın qohumlar ustanın malasının üstünə pul qoyardılar. Usta həmin pulları palçığına sürtüb döşlüyünü cibinə qoyur, "arxası gəlsin!"-deyirdi. Bu qayda olaraq bütün qohumlar ustaya pul verirdilər. Bu adət ustanı işə həvəsləndirmək, tikintinin gedişini sürətləndirmək üçün maddi stimul yatmaq istəyindən meydana gəlmişdir.

Şəki-Zaqatala bölgəsində mövcud olan adətə görə, evin bünövrəsi günəşli günlərdə, adətən sübh çağı qoyulardı. Həmin gün tikinti sahəsinə gələnlər özləri ilə paltarlıq parçalar, yun corab, əl dəsmalı, həmçinin qoz, fındıq, qənd, çay və şirnidən ibarət xonça gətirərdilər. Burada mövcud olmuş digər adətə görə, bünövrə qoyulan gün səhər tezdən, iş başlamazdan qabaq qohum-qonşulardan biri xələt almaq və özünün xoş məramının göstərmək niyyətilə bir araba və ya bir ulaq yükü daş gətirər, onu səs-küylə bünövrə yerinə boşaldardı. Bu zaman səsə gəlmiş ev tikdirən şəxs bu xoş məramlı qohuma bəxşiş verər və səhər yeməyinə dəvət edərdi. O isə hədiyyəni alar, çox vaxt yeməkdən imtina edər və xeyir-dua verərək gedərdi. [67]

Bölgədə bünövrə üstündə heyvan kəsib qanını oraya axıtmaq, boy tiri qaldırarkən bu tirə kəlayağı və ya yelvəngi bağlamaq da bir ayrı adət idi.

Quba-Xaçmaz bölgəsinə xas olan dini-magik xarakterli "tikinti qurbanı" adlanan adət ən qədim təsəvvürlərlə əlaqəli olub, yerin ruhuna qurban kəsmək əqidəsindən irəli gəlmişdi. Bunun üçün bünövrəyə künc daşı qoyulduqdan sonra ağsaqqal onun üstündə qurban (qoyun) kəsir, tikinti sahibi ilə dolçanı heyvanın qanı ilə doldurub qalan üç küncə tökərdi. Qubanın Amsar kəndində bu ayin ev divarı bir metrə qədər ucaldılandan sonra icra olunardı. Kəsilən heyvanın ətinin bir hissəsi qohum-qonşulara paylanar, digər bir hissəsi isə ailədə qalardı . [68]

Yeni tikiləcək evdə bərəkət və bolluq olmasını təmin etmək üçün Azərbaycanın əksər bölgələrində bünövrəyə metal pullar, buğda, çörək, duz bə başqa şeylər qoyur və deyirdilər: "Eviniz-eşiyiniz

bərəkətli olsun”, “Xeyrini, bərəkətini görəsiniz”, “İçində övladınız üçün toy edəsiniz”.

Tikinti prosesində ev sahibinə yaxın qohumlar, qonşular, kənd sakinləri də kömək edərdi. Tikinti sahəsinə ilk dəfə gələn hər bir kəs “gözaydınlığı” verərək tikintinin üstünə pul və ya başqa hədiyyə qoyardı. Ev inşasında çox zaman Azərbycan kəndlərində geniş yayılmış qarşılıqlı yardım forması olan hoy, mədəd, əvrəz (iməcilik) təşkil edilərdi. Kərpic kəsilməsi, bünövrə qazılması, evin tirinin qaldırılması, dərasərin qoyulması kimi güc tələb edən inşaat işlərində el köməyi adətlərinə daha çox ehtiyac hiss olunardı. [69] Hoya (iməciliyə) gələnlər özləri ilə iş alətləri, araba və s. gətirərdilər. Ev sahibi tikintidə iştirak edənlərə qoyun kəsər, yemək hazırlatdırardı.

Tikinti prosesində həyata keçirilən maraqlı adətlərdən bir də “dərasərin qoyulması”, “tiratdı” adəti idi. Adətən, qapı və pəncərə açırımlarının üzərinə qoyulan dərasər, eləcə də dam tirləri yoğun və möhkəm ağaclardan hazırlanar, nisbətən ağır olardı. Usta tirin və dərasərin birinin ucundan tutub ucadan: “Qaldıra bilmirəm, kömək lazımdır”-deyə qışqırardı. Bunu eşidən ev sahibi və yaxın qohumlardan biri ustaya bəxşiş verər və köməkləşib dərasəri və dam tirlərini düzəldərdilər. Ev tikilib başa çatandan sonra ev sahibi ustanın damdan düşməsi və evin içərisinə keçməsi münasibəti ilə də bəxşiş verərdilər. Tikinti başa çatan kimi ev sahibi tərəfindən bəzən təziyə (imam ehsanı) verilirdi. Belə təziyələr ev sahibinin maddi imkanından asılı olaraq üç gün, bəzən də bir həftə davam edirdi. Şəki-Zaqatala bölgəsində təziyəni (imam ehasınını) “mövlud duası” və ya “evgörmə mövludu” əvəz edirdi.

Ənənəyə görə, ata evindən ayrılıb müstəqil həyata başlayan hər kəs tikdirdiyi təzə evdə ilk dəfə ata ocağından od gətirərdi. Bu adətin mahiyyəti dədə-baba ocağının davam etdirilməsi ilə izah olunurdu. Bundan başqa, ilk dəfə evə xoşbəxtlik və səadət rəmzi olan güzgü, lampa, bolluq və bərəkət rəmzi duz-çörək gətirərdilər.

Lənkəran-Astara bölgəsinin kəndlərində bünövrəyə bolluq-bərəkət rəmzi olan əşyaların (metal pullar, duz, çörək, qənd, un və s.) qoyulmasında, xüsusilə də yeni tikilən evə avadanlıqlarının və şirniyyat xonçasının kimin keçirməsi məsələsində bütün ciddiliyi ilə əməl edilən

adətlər mövcud olmuşdur. Azərbaycanda qədim matriarxat dövrününü qalıqları ilə səsləşən bu adətlərə görə, ev tikdirən oğulun anası sağ idisə, ilk bünövrə daşının altına pul və ya bərəkət rəmzlərini mütləq o qoymalı idi. Maraqlıdır ki, bağda yetişən ilk meyvəni də ya oğulun anası, əgər o sağ deyildisə, evin qadını dərməli idi. Şübhəsiz ki, bu adətlərlə qadının-ananın müqəddəsliyi, onun bar ağacına bənzəməsi, ağacbar gətirən kimi, onun da nəslin davamı olacaq körpə dünyaya gətirməsi kimi inamlar öz əksini tapmışdır. Qadının özü bar-bərəkət simvolu olduğu kimi, onun təzə evə öz əli ilə qoyduğu bərəkətdə gələcəkdə yeni ocağın bərəkətli olacağına inamdan gəlirdi. Ev tikilib başa çatandan sonra evə ilk gətirilən içərisi yağlı çörək (zerən), şirniyyat və çərəzlərlə dolu xonçanı da mütləq ya oğul anası, ya da oğlunun öz qadını gətirməli idi.

Ailə yeni mənzildə məskunlaşandan sonra qohum və qonşular, eləcə də kənd sakinləri müəyyən bir hədiyyə alıb, "ev görməsi"nə gələrdilər. Bu adətin başlıca qayası yeni qurulan ocağa əl tutmaq, kömək göstərmək təşkil edirdi. Bu zaman yaxın qonum-qonşular, həmkəndlilər öz imkanı daxilində palaz, pəncərə pərdəsi, damazlıq heyvan, imkanı geniş olanlar isə xalça, somavar, kətil və s. götürüb gözaydınlığa gələrdilər. Gələnlərə qonaqlıq süfrəsi aşmaq da bir ayrı adət idi.

**Təsərrüfat tikililəri.** Azərbycanda təbii-coğrafi şərait, sosial-iqtisadi amillər, əhalinin məişət tərzi və təsərrüfat məşğuliyyyətindən asılı olaraq tarixən bir çox təsərrüfat tikililəri formalaşmışdır.

Təsərrüfat tikililəri, ayrıca bir obyekt kimi, yalnız xüsusi mülkiyyət şəraitində meydana çıxmışdı. O vaxta qədər heç bir təsərrüfat tikilisinə ehtiyac olmamış, yaşayış evi həm də təsərrüfat tikintisi vəzifəsinin icra etmişdi. Təsərrüfat tikililərinin formalaşmasında XIX əsr Azərbaycanı üçün xarakterik olan əkinçilik, maldarlıq qismən də ev peşəsi və sənətkarlıq kimi təsərrüfat-mədəni tiplərin müstəsna rolu olmuşdur.

XIX əsrdə Azərbaycanda fərdi təsərrüfat tikililərinin müxtəlif variantları mövcud olmuşdur. Onlardan bəziləri həyətin daxilində evə bitişik və ya ondan aralı, bəziləri kəndin içərisində, bəzilər isə kənddən xeyli aralı, qışlaqlarda və yaylaqlarda inşa edilirdi. Dağ və dağətəyi

kəndlərdə ikimərtəbəli evin alt mərtəbəsindən təsərrüfat tikintisi kimi də istifadə etməyə üstünlük verilirdi.

XIX-XX əsrin əvvəllərində xalqımıza məxsus olan təsərrüfat tikililəri istifadə məqsədlərindən asılı olaraq müxtəlif səciyyəli olduğundan, onları əsasən üç qrupa bölmək olar:

I. Məişətlə bağlı tikililər: təndirxana (təndirəsər), odun və kömür yığmaq üçün yer (odunluq), yağmurluq və ya quraqlıq, taxıl quyusu, taxıl kəndisi, çardaq (talvar), yandamı və ya əldamı, anbar, tərəcə, buzxana-qırxayaq, zirzəmi-xərpiştə (Naxçıvan) və s.

I. Heyvandarlıqla əlaqəli olan təsərrüfat tikililəri: pəyə, tövlə, mərək, banıstan, vana, kaya, ağzıbir, yataq, sığırxana, küz, ağıl, göyəbaxar, kərəskə, xalxal (basdaray), poru, paçal, qəhər, baharbənd, dolan, hin.

II.İstehsal binaları: dükan, emalatxana, kümxana, dəmirçixana, dəyirman, dabbağxana və s.

**Təndirxana**- təndir və onun yanında xörək hazırlamaq üçün düzəldilmiş qarımdan, bunların üzərində isə dörd dirəklə qurulan çardaqdan ibarət idi. Təndirxanada qarımın düzəldilməsi ondan həmçinin mətbəxi kimi də istifadə olunmasına imkan verirdi. Təndirxananın yanları adətən açıq saxlanılırdı. Onu həyətin sakit, dalda bir tərəfində inşa edirdilər.

Müxtəlif ehtiyat ərzaq məhsullarını, mövsümü işlərdə işlədilən təsərrüfat alətlərini və məişət əşyalarını saxlamaq üçün hər bir ailə ayrıca olaraq **yandamı və əldamından** istifadə edirdi. Bir təsərrrüfat tikilisi ya evin yan tərəfində ona bitişik halda ya da evin qabağında, onunla üzbəüz tikilirdi. Lənkəran-Astara bölgəsində ona fakin, uja və ya ginabun, Naxçıvanda isə əl-ovuc damı deyilirdi.

Azərbaycan kənlərində hər bir ailənin istifadəsində olan mühüm təsərrüfat tikilisindən biri də **taxıl quyusu** idi. Taxıl quyusu ya həyətdə, ya da anbarın və da əldamın içərisində dördkünc, həm də dairəvi formada qazılırdı. Onun içərisinə bəzən suvaq çəkir, bəzən də əzilmiş küləşi elastik çubuqlar vasitəsilə quyunun kənarlarına kipləşdirirdilər. Bəzən üzərində çalaq da qurulmuş belə təsərrüfat quyusunda bir neçə ton taxıl da yerləşdirmək olurdu.

Yoxsul kəndlilərin əksəriyyəti taxıl və unu adətən **kəndi və saqanlarda** saxlayırdılar. Azərbaycanda çubuqhörmə və gildən düzəldilən kəndilərdən istifadə olunurudu. Kəndi ikigözlü düzəldilir, birinə un, digərinə isə taxıl yığılırdı. Meşəətrafı kəndlərdə isə çox zaman kəndi əvəzinə iri ağac yeşik-saqan işlədilirdi.

**Quraqlıq və ya yağmurluq** əsasən kənd təsərrüfatı alətlərinin (araba, xış, vəl, boyunduruq, mala, car-car, mərküz (kərdi), çərəngüş, şana, bel,balta, yəhər-qoşqu dəsti və s.) saxlanılması üçün tikilirdi. Düzbucaqlı planda olan quraqlığından örtüyü çatma və yastıdamlı olurdu. Bəzən ətrafı qarğı və qamışla hörülmüş quraqlıqdan xalxal və kərəskə, Şirvanda isə kümxana kimi də istifadə olunurdu. Yastıdamlı tikilən quraqlığın üstünə ot tayası yığılırdı.

Məişət bölməsində inşa edilən digər bir təsərrüfat tikintisi olan **buzxana** adətən torpaqdan qazılırdı. Bunun üçün 4mx3mx1,5 m ölçüdə sahənin torpağı çıxarılır, burada dam çardağı qurulub üstü torpaqlanırdı. Naxçıvan bölgəsində isə adətən kəhrizlərin içərisində xüsusi səriştə ilə düzəldilmiş yerlərdən buzxana (qırxayaq) kimi istifadə edirdilər. Burada evlərin zirzəmisi (xərpiştə) də təsərrüfat tikilisi rolunu oynayır, xüsusi divar açırımları ilə təhciz olunurdu.

XIX-XX əsrin əvvəllərində Azərbaycanda təsərrüfat tikililərinin böyük bir hissəsi maldarlıq təsərrüfatı sahəsi ilə əlaqədar yaranmışdı. Burada qaramal, at və dəvə üçün nəzərdə tutulan **pəyə, tövlə, baharbənd, sığırxana, basdaray, ağzıbir, at xalaxalı, karvansara,** qoyun-quzu üçün nəzərdə tutulan **kaya, yataq, vana, kərəskə, küz, poru, paçal, ağıl, banıstan** və s. kimi təsərrüfat tikililəri mövcud idi. İqtisadi cəhətdən imkansız ailələr bəzən bütün heyvanları bir yerə - pəyəyə salır, onun içərisində ağac və ya çubuq arakəsmələr vasitəsilə xüsusi bölmələr (danalıq, buzovluq, quzuluq, bordaq yeri və s.) ayrırdılar.

Azərbaycanda qoşqu və yük heyvanları üçün **tövlə** tikilirdi. Tövləni tikmək üçün həyətin bir tərəfində düzbucaqlı formada təxminən 1-1,5 m dərinliyində kalafa qazır, onun ortasına “T” şəkilli “aşıq dirəyi” basdırırdılar. “Aşıq dirəyi”nin üstünə atılan qoşa tirlərin ucları harma diklərin üstündə yerləşdirilmiş kərənlərin üzərinə düşürdü. Sonra kalafanın qırağı boyunca (əgər kalafanın içərisində daş divar

hörülübsə, daş divarın), üstünə harma (keşəbənd) döşəyib tövlənin üstündə çəpəki şəkildə, bir ucu harmanın, birr ucu isə aşıq dirəyinin üstündən keçən qoşa tirlərin üzərinə düşməklə, pərdilər düzür, onun da üstünü avarla basdıraraq torpaq qatı əlavə edib möhkəm tapdalayardılar. Tövlənin dam örtüyünün bütün ağırlığı "aşıq dirəyi"nin üstünə düşdüyündən, o, adətən ağır və davamı ağac növlərindən (palıd, saqız, qara ardıc və s.) yonulub dördkünc formada düzədilirdi. Tikilinin qapısı dabanlı olmaqla, adətən palıd ağacından yonulur, geydirmə üsulu ilə hissələr bir-birinə bərkidilirdi. Maili olaraq tövlənin içərisinə enən giriş yolunun qarşısında dörd dirək üzərində çardaq tikilirdi. Tövlədə heyvanların yemlənməsi üçün axur da tikilirdi.

Maldarlıq məşğul olan hər bir ailənin **mərəyə** (samanlığa) böyük ehtiyacı var idi. Mal-qara üçün tədarük olunmuş yeri saxlamaq məqsədi ilə tikilən mərək, adətən, qışlaqlarda, bəzən də xırman yaxınlığında olurdu.

Sadə konstruksiyaya malik mərəklər kərpicdən, qarğı və ya çubuqdan tikilərək yastıdamlı olurdu. Bəzən qazma dam formasında tikilən mərəklərə də təsadüf olunurdu. Onlar torpağın içərisində (yeraltı) tikilir, saman qoyub-götürmək üçün bir giriş yolu olurdu.

Təsərrüfat tikililərinin digər bir qismini də ev peşəsi və kustar sənətkarlıqla meydana gələn istehsal binaları təşkil edirdi. Bu qrupa daxil olan təsərrüfat tikililərinin böyük əksəriyyəti kəndin içərisində və ya həyət daxilində, bəziləri isə **(dabbağxana, dəyirman)** su mənbələri üzərində tikilirdi.

Azərbaycan xalqının gündəlik məişətində ağacdan hazırlanmış ev avadanlıqları və təsərrüfat alətləri daha çox işləndiyindən dağlıq, dağəyəti və meşəətrafı kəndlərin əksəriyyətində bu kustar sənət növləri ilə məşğul olan ustalar fəaliyyət göstərirdilər. Onların bəzən həyət daxilində (əgər yaşayış evi ikimərtəbəli idisə, alt mərtəbədə, ayrıca bir otaqda), bəzən də kəndin ortasında xüsusi **emalatxanları** olurdu. Ağacişləmə sənətinin mahir biliciləri olan bu ustalar ayrı-ayrı məişət avadanlıqları hazırlamaq sahəsində ixtisaslaşmışdılar. Belə ki, onlardan bir qismi arabaçılıq və təkərçilik üzrə, bir qismi ev avadanlıqları hazırlamaq üzrə, bir qismi də kənd təsərrüfatı alətləri hazırlamaq üzrə sifarişlər qəbul edirdilər. Bəzən bu avadanlıqlar həftəbazarlarına

çıxarılır, taxıla və b. ərzaq məhsullarına mübadilə edilir və ya nağd pula satılırdı.

Digər bir istehsal binası olan **dəmirçixana** adətən ikimərtəbəli yaşayış binasının alt qatında, iri kəndlərdə ayrıca binada, şəhərlərdə isə ticarət cərgələrində yerləşirdi. Onun ön tərəfində geniş qapı və pəncərəsi olur, hazır məhsullar burada etdirilirdi. Dəmirçi məlumatları (kotan ucluğu-gavajın, oraq, balta, bel, kərənti ağızlığı, mərküz, sacayaq, sac və s.) emalatxananın özündə satılır, sifarişlər də burada qəbul edilirdi. Əhalinin dəmirçilik məlumatlarına olan tələbatını qismən də olsa ödəyən belə dəmirçixanalara, demək olar ki, hər bir kənddə təsadüf etmək mümkün idi.

XIX-XX əsrin əvvəllərində Azərbaycanın şəhər və şəhərətrafı kəndlərində misgərçilik, papaqçılıq, başmaqçılıq, dəriçilik, keçəçilik, toxuculuq, sərraclıq, dulusçuluq, dəmirçilik, kürkçülük və s. kimi kustar sənət sahələri mövcud olduğundan, onların faəliyyət göstərməsi üçün zəruri olan emalatxana tipli təsərrüfat tikililərinə böyük ehtiyac olmuşdur. Dabbaq emalatxanaları və dəyirmanları daha çox suya ehtoyacı olduğundan, onlar kənddən xeyli aralı, su mənbələri üzərində tikilirdi. Dabbaq emalatxanasının kənddən aralı tikilməsinin bir səbəbi də emal edilən dərinin islananda kəsif iyi verməsi idi.

Azərbaycanın baramaçılqla məşğul olan kəndlərində ipəkqurdu bəsləmək üçün xüsusi təsərrüfat tikilisi **dəyə- (kümxana)** tikirdilər. Kümxana, bir qayda olaraq, “toxmacar” və ya “gərrik” adlanan tut bağının içərisində inşa olunurdu. Kümxananın içərisində 3-4 qatda tərəcə düzəldilir, burada baramaqurdu bəsləyirdilər.

Xalqın istifadəsində olan fərdi təsərrüfat tikililərinin inşaat texnikası yaşayış evlərinə nisbətən öz primitivliyi ilə seçilirdi. Əhali bu tikililəri inşa edərkən, tikiniti materialı kimi, çay və qaya daşndan, həmçinin ucuz başa gələn yerli tikinti materiallarından: qarğı, qamış çubuq, möhrə, ayıbalası kərpic, ağac  və s. istifadə edirdi. Son zamanlar xalq məişətində baş verən əsaslı dəyişikliklər nəticəsində yuxarıda qeyd etdiyimiz təsərrüfat tikililərinin bir qismi aradan çıxmış, bir qismi  də hələ də öz məişəti əhəmiyyətini saxlamaqdadır.

Yaşayış məskənləri və evlərin etnoqrafik baxımdan tədqiqindən tam aydın olur ki, maddi mədəniyyətin bu sahəsi əsrlər

boyu bir çox təbii-coğrafi, sosial-siyasi, iqtisadi-mədəni və s. amillərin fəal təsiri ilə böyük təkamül və inkişaf yolu keçmiş, xalq məişətinin əsasını təşkil etmişdir. Xüsusilə xalq yaşayış evi fondu iqtisadi imkanların genişlənməsi, əhalinin mədəni həyat səviyyəsinin yüksəlişi və tikinti mədəniyyətinin daha da təkmilləşdirilməsi nəticəsində yeni-yeni ev tipləri ilə zənginləşmiş, XIX-XX yüzilliyin əvvəllərində qazma və qaradamlardan yerüstü evlərə-imarət, ağ otaq, aynabəndli ev, malikanə və s. kimi inkişaf edərək xalqın tələbatını tam ödəmişdir.



# GEYİMLƏR VƏ BƏZƏKLƏR



# GEYİMLƏR

Ənənəvi xalq geyimləri və bəzəklər maddi mədəniyyətin digər sahələri kimi, hər bir xalqın həyat və məişətinin ayrı-ayrı məsələlərini araşdırmaq üçün zəngin etnoqrafik materiallar verir. Geyimlərin və bəzəklərin öyrənilməsi hər bir xalqın milli xüsusiyyətlərini, iqtisadi və mədəni həyat səviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətini, onun başqa xaqlarla tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini, estetik və bədii zövqünü, etnik və sinfi mənsubiyyətini müəyyənləşdirməkdə əhəmiyyətli mənbə rolunu oynayır.

Ənənəvi xalq geyim kompleksinin meydana gəlməsi uzun sürən tarixi inkişaf prosesinin nəticəsi olduğundan o xalqın etnogenezi probleminin öyrənilməsində də vacib mənbələrdən biri hesab olunur. "Digər bir tarixi mənbələrlə bərabər, geyimlərə aid olan materiallar da hər bir xalqın mədəni-tarixi əlaqələrinin, milli xüsisiyyətlərinin müəyyən edilməsinə və etnogenezi probleminin həllinə cəlb oluna bilər". [1]

Mütəxəsislər geyim mədəniyyətinin başlanğıcını e.ə. 40-25-ci minilliklərə aid edirlər. [2] Tarixi inkişafın gedişində sosial-iqtisadi həyat şəraitinin dəyişməsi geyim növlərində əsaslı dəyişikliklərə səbəb olmuş, yeni-yeni geyim tipləri meydana çıxmışdır. Geyim mədəniyyətinin formalaşmasında təbii-coğrafi şəraitin, xüsusilə də iqlimin həlledici rolu inkaredilməzdir. "Hər cür iqlimdə yaşamağı" öyrənən insanda "soyuqdan və rütubətdən qorunmaq üçün mənzilə və paltara tələbat" da yaranmışdır. Buna işarə edən B.F.Adler yazırdı: "İnsanın yaşadığı ərazinin xarakterindən asılı olaraq rəngarəng şəraitdə geyim elementləri ya təkmilləşmiş ya da tənəzzül etmişdir. Əgər insan onu əhatə edən mühitdə öz geyimi üçün lazımi material əldə edə bilirdisə, bundan geniş şəkildə istifadə edirdi. Səhrada və ya tundrada-yaşıllığın kasad olduğu yerlərdə parça üçün əlverişli material əldə edilmirdisə, insan dəri və yundan paltar geyirdi. O yerdə ki insan sərt iqlim şəraitinin tələbi ilə isti geyinməyə məcbur olurdu, orada geyim ölkənin və iqlimin şəraitinə uyğunlaşdırılırdı". [3] Buradan geyim elemenetlərinin meydana çıxmasının ilk zəruri tarixin amili məhz

təbiətin iqlim təsirlərindən qorunmaq olduğu aydınlaşır. Geyimin tarixi ilə məşğul olan mütəxəssislərin əksəriyyəti, bundan başqa, etik normalara əməl edilməsi və insanların zaman-zaman inkişaf edən estetik zövqlərinin təmin edilməsi zərurətini də geyim elementlərinin meydana gəlməsindən müqəddəm şərtlər hesab edirlər. [4]

Azərbaycan geyim mədəniyyətinin formalaşmasında təbii-coğrafi şəraitlə yanaşı, xalqın mənəvi-əxlaqi, psixoloji-ideoloji baxışları, dünyagörüşü, sosial-iqtisadi və mədəni həyatı da əhəmiyyətli rol oynamışdır.

Xalqımızın geyim mədəniyyətinin ilkin çağları haqqında məlumatları arxeoloji qazıntılardan, Azərbaycan haqqında məlumat verən qədim və antik dövr tarixilərinin əsərlərindən, qayaüstü rəsmlərdən, təsviri materiallardan və b. mənbələrdən əldə edə bilirik. Bu mənbələrin araşdırılmasından aydın olur ki, Azərbycan ərazisində məskunlaşan ilk insanların geyimləri təbii əldə edilən materiallardan (dəri, süni liflər, yarpaq və s.) olmaqla, istifadə tərzinə görə bürüncək, sarıq və örtmə və geymə kimi müxtəlif variantlarda özünü göstərmişdir. Hələ toxuculuq sənətinin meydana gəlmədiyi Paleolit və Mezolit dövrlərində ibtidai insaların başlıca geyimləri dəri bürüncəklər olmuşdur. İbtidai insalar ovladıqları heyvanların ətini qida kimi qəbul etmiş, dərisini isə yağ-piy qalıqlarında qaşovlayıb təmizləmiş, sümük bizlər vasitəsilə deşib bir-birinə ağac sıyrıqlar ilə bağlamış, və beləliklə, primitiv bürüncəklər əldə etmişlər. [5]

Bəşər tarixində "Neolit inqilabı" adlandırılan tarixi kəşflərin tərkib hissələrindən biri olan toxuculuğun meydana gəlməsi ilə insanların geyimlərində toxunma elementlərin ilk növləri müşahidə olunur. Sonralar Neolit dövrünün sonu, Enolit dövrünün əvvəllərində artıq toxunma geyimlərin sayı artır, insanlar təbiətin hazır məhsullarını mənimsəməkdən daha çox özləri istehsal sənayesini inkişaf etdirirlər. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi mədəniyyət nümunələri (daş və sümük bizlər, iynələr, sümük və gildən hazırlana əyirici alətlər, sümükdən dəri pardaxlayıcıları və s.) Enolit və Tunc dövrlərində toxuculuq sənətinin inkişaf etdyini əyani fakatlarla sübut edir. [6]

Bu alət və avadanlıqlardan istifadə edən qədim dövr insanları yun və digər təbii lifləri çox nazik şəkildə əyirmiş, paltar toxumaq vərdişlərinə yiyələnmişlər. Toxuma sənətinin daha da təkmilləşməsində dəzgah toxuculuğu mühüm rol oynamışdır. Mingəçevir qazıntılarından əldə eilən parça qalıqları [7] və toxucu dəzgahın hissələri [8] ilk orta əsrlərdə Azərbaycanda dəzgah toxuculuğunun yayıldığı göstərir. Bəsit olmasına baxmayaraq, toxucu dəzgahı hörmə əməliyyatından toxunma texnikasına keçid mərhələsində qədim dövrə xas olan texniki vasitələr içərisində ən mürəkkəb əmək aləti hesab olunurdu. [9] Dəzgah toxuculuğuna keçməklə parça istehsalı və geyim növlərinə toxunması nisbətən artır və geyim elementlərinin sayı da çoxalırdı. Yazılı qaynaqların verdiyi məlumata görə, hələ e.ə.IX əsrdə Aşşur hökdarı Aşşurnasirpal tarixi Manna (Azərbaycan) ərazisi olan Zamya vilayətindən bac kimi yun və əlvan yun parçadan tikilmiş paltarlar alırmış. [10] Bu dövrdən toxucluluq materialı kimi kətan, yun, sonrakı dövrlərdə isə pambıq və ipək əsas olmuşdur. E.ə. V əsrdə yaşamış “tarixin atası” Herodot Azərbaycanda keyfiyyətli parçalar toxunduğunu, ağac yarpaqları təbii boyadıldığını, həmin naxışların davamlılığını xüsusi olaraq qeyd etmişdir. [11]

Azərbaycanda geyim ehtiyaclarının ödənilməsi üçün hələ qədim dövrlərdən qoyun və quzu yunu, keçi qəzili ilə yanaşı, dəvə yunundan da istifadə edilməsi məlumdur. Tarixçi Elianın verdiyi məlumata görə, Albaniyanın Kaspiana vilayətində Milet yunundan heç də geri qalmayan zərifyunlu dəvələr saxlanılırdı. [12] Azərbaycanın geyim mədəniyyəti tarixini araşdıran S.S. Dünyamalıyeva çoxlu faktik materiallar (maddi mədəniyyət nümunələri, təsvirlər) və tarixi məxəzlədən çıxış edərək göstərir ki, eramızdan əvvəlki minilliklərdəki geyimlərin forması eramızın əvvəllərinə qədər də dəyişməmişdir. Ancaq alətlər (əyirmə və toxma alətlər) bir qədər təkmilləşmiş, III minillikdə əl ilə hörülərək ensiz zolaqdan ibarət olan və əyinə kip yapışaraq, tam bədən formasının alan geyim, e.ə VIII əsrdə eyni formalı, lakin sərbəst biçimli olmuş, e.ə. VI-V əsrlərdə isə xeyli eni materiallardan tikilməklə, qırçınlanaraq kəmərlə belə yığılmışdır. Bu dövrün kişi və qadın geyimləri də bir-birindən çox fərqlənməmişdir. [13]

Məşhur coğrafiyaşünas Strabonun əsərində də albanların geyimləri haqqında ötəri məlumatlar vardır. O qeyd edirdi ki, albanlar da iberlər kimi iri qalxanlar gəzdirir və başlarına vəhşi heyvan dərisindən tikilmiş dəbilqə qoyurlar.

Geyimlər haqqında tarixi mənbələrin, təsviri materialların və maddi mədəniyyət nümunələrinin cəlb edilməsi ilə aparılan tədqiqatlar sübut edir ki, eramızdan əvvəl I minillikdə Azərbaycan əhalisi yun və kətanda toxunma köynək və şalvar geymiş, dəri bürüncəklərdən istifadə etmiş, keçə və yun papaqlar gəzdirmiş, ayaqlarına isə ucları yuxarı qatlanmış dəri ayaqqabılar geymişlər. Paltar hazırlamaq üçün başlıca xammal yun, dəri, çox ehtimal ki, həm də keçə olmuşdur.

Xalq geyimlərinin təkmilləşmə prosesi orta əsrlər dövründə daha intensiv olmuşdur. İstər yazılı mənbələr, istər arxeoloji qazıntıların nəticələri, istərsə də qayaüstü təsvirlər, şifahi xalq yaradıcılığı nümunələri, Azərbaycanda olmuş səyyahların yol qeydləri və s. Azərbaycan xalq geyim fondunun yeni geylərlə zənginləşdiyini izləməyə imkan verir. Bu dövrdə geyim materialları içərisində dəri və yunla yanaşı, kətan və pambıqdan da geniş istifadə olunduğu qeyd edilir. Pambıq və kətandan bir qayda olaraq, "bez" adlanan parça hazırlanırdı. "Kitabi-Dədə Qorqud" dastanında "əski pambıq bez olmaz" ifadəsi, [14] dastan qəhrəmanı Qanturalının "altunlu incə kətan bezini belinə sarıması", [15] eləcə də Azərbaycanda pambıq yetişdirilməsi haqqında yazılı qaynaqlar [16] və arxeoloji dəlillər [17] sübut edir ki, bəhs olunan dövrdə kətan və parçalar geyim materialları içərisində özünəməxsus yer tutmuşdur.

Erkən orta əsrlərin Azərbaycan kişi və qadın geyimləri haqqında ətraflı məlumatları "Kitabi-Dədə Qorqud" dastanından almaq olar. Burada kişi və qadın geyimlərində kömlək (köynək), şalvar ( "mahmudi şalvar", "al məxmuru şalvar"), cübbə ("samur cübbə"), çuxa (adi və doqquzlama 18 –doqquz qırçınlı çuxa), kaftan (uzun və qısaqol, yaxası açıq, ağ və qırmızı parçadan tikilən üst geyim növü), qurşaq (" altunlu incə kətan bez" ), kürk və yapıncının ("kəpənək"); eləcə də baş geyimlərində xanların tacı, bəylərin baş sarığı (çalma, dolbənd), börk (keçə börkü, külah, niqab, duvaq, yaşmaq və çəmbərin (dingə); ayaqqabı növlərində isə başmaq, ədik (çəkməni xatırladan uzunboğaz

kişi ayaqqabısı), soqman, (topuğa qədər boğazı olan ayaqqabı) və sərmuzənin (qadın ayaqqabısı) xalqın geyim fondunda üstünlük təşkil etdiyi aydınlaşır. [19]

Sasanilər imperiyasının ərəblərə qarşı mübarizəsində Sasanilər tərəfindən bu döyüşlərdə iştirak etmiş Cavanşiri mükafatlandırmış Sasani hökmdarı III Yezdəgird onun belinə mirvari ilə işlənmiş qızıl kəmər və qızıl saplı qılınc bağlatmış, qollarına qolbaqlar saldırmış, başına daş-qaşlı tac qoydurmuş, boynuna ağır mirvari boyunbağlar asdırmış, çiyninə taftadan tikilmiş şah geyimi saldırmış və zərli ipək parçadan tikilmiş dörd qotazlı mavi rəngli şalvar geydirtmişdir. [20]

VII-IX əsrlərdə Azərbaycan şəhərlərinin ənənəvi əmtəə mallarından bəhs edən ərəb müəllifləri yerli və dünya bazarlarına Bərdədən ipək, yaxşı pərdələr, müxtəlif parçalardan tikilmiş paltarlar, Dərbənddən isə kətan parçalar, onların boyanmasına istifadə edilən "qırmız" deyilən qiymətli boyaq maddəsi və marena ixrac edildiyini qeyd edirlər. [21]

Azərbaycanın "intibah dövrü" hesab edilən XII əsrdə yaşamış böyük şair N.Gəncəvinin "Xəmsə"sində həmin dövrün parça materialları və geyim növləri haqqında maraqlı məlumatlara rast gəlirik. [22] Bu dövrdə yüksək keyfiyyətli parça növləri içərisində ipək parçaların geniş çeşidindən (atlas, pərniyan, qumaş, diba, gurçeşm ipəyi, şüştər ipəyi, zərbaf və s.) söhbət açan şair, Azərbaycanda qadın və kişi geyimlərindən köynək, arxalıq, şalvar, kürk, çuxa, əba, cübbə, qəba, papaq, qəsəb, əmmamə, çarıq, xətayi, başmaq, corab, ləbbadə, nimtənə, don, çalma, qaftan və s.-nin xalqın gündəlik məişətində və bayramlıq geyim dəstlərində əsas yer tutduğunu söyləyir. [23] "Xosrov və Şirin" əsərində Nizami Azərbaycan qadının geyimini real poetik pafosla tərənnüm edir:

Gülnar rəngində bir don geydi,
Onun üzərində saçının hər bir hörüyü bir kəmənd idi.
Həlqəyə oxşar bir kəmənd çiyninə salmış
Hər bir həlqəsinə dünya qulağı halqalı qul idi.
Xalis qızıldan bir həmayili,
Ərğəvan rəngli ipəyin üzərinə çəkmişdi.

Çinlilər qaydası ilə başına
Cəvahirlə bəzənmiş bir örpək salınmışdı.
Ənbər saçan zülf kimi qara bir örpək
Dürr saçan ay üzünə asmışdı.
Bir tovuz kimi bəzənmiş hüma
Turac kimi havada süzürdü. [24]

Aparılan tədqiqatlar göstərir ki, artıq XII-XIII əsrlərdə Azərbaycanın ayrı-ayrı sənət-ticarət mərkəzləri bu və ya digər parça və geyim növünün hazırlanmasında, bir növ, ixtisaslaşmışdı. Belə ki, Gəncədə zərlə işlənmiş atlas və diba kimi ipək parçalar, eləcə də sadə ipək parçalar, beyləqanda "kəzzkaşidə" adlanan ipək parça, Ərdəbildə "camə" adlandırılan qara rəngli zərif parça, habelə, Naxçıvanda zərif çuxalar, Təbrizdə atlasdan kişi üst geyimləri, Gəncədə yun paltarlar hazırlanırdı. [25] Hələ X əsr ərəb müəllifi əl-İstəxri "Kitabi məsalik əl-Mamalik" (Məmləkətin yolları kitabı) əsərində əl-Babdan (Dərbənddən) kətan parçalar ixrac edildiyindən, Arran, Ərməniyyə və Azərbaycandan başqa, heç yerdə kətan paltarlar hazırlanmadığını yazırdı. [26] Dərbənddə kətan paltarlar tikildiyini XIII əsr müəllifi Yaqut əl-Həməvi də təsdiq etmişdir. [27] Təbriz haqqında danışan müəllif burada əbalıq parça, siqlatun (qızılı sapla işlənmiş ipək parça), xətayi (toxunma Çin parçası), atlas və b. parçalar toxunduğunu, bütün Şərq və Qərb ölkələrinə ixrac olunduğunu göstərmişdir. [28] XIII əsr İtaliya səyyahı Marko Polo da Azərbaycan haqqında məulmatlar verərkən burada ipək və ipək məlumatlarının bolluğundan, toxunan ipək və zərxara parçalardan, bu parçalara heç yerdə rast gəlmədiyindən, eləcə də Təbrizin ipək və zərxara parçalarından ağızdolusu danışmışdır. [29]

"Cami ət-təvarix" ("Tarixlər toplusu") əsərinin müəllifi F. Rəşidəddin XIV əsrdə oğlu Şihabəddinə yazdığı məktubunda hər bir hakimin ona gərəkli olan üç xəzinəsi (pul, yaraq, geyim-ərzaq) içərisində geyimin mühüm rol olduğu göstərilirdi. [30]

XIV-XV əsrlərdə Azərbaycan xalqı geyim fondunda ciddi dəyişiklikər baş vermişdir. Hər şeydən əvvəl geyimlər gündəlik və mərasim (toy, qonaqlıq, bayram, yas və s.) geyimləri kimi müxtəlif səciyyə kəsb etmiş, mərasim geyimlərində motivləşmə (bişin, rəng,

bəzək və növ müxtəlifliyi) getdikcə daha daha çox dərinləşmişdir. Belə dəyişiklikləri Azərbaycan xalq məişətinin müxtəlif sahələrini özündə əks etdirən miniatürlərdə, burada təsvir olunan müxtəlif sosial mənsubiyyətli əhalinin geyimlərində görmək mümükündür. Bu dövrdə Azərbaycanda türk-islam mədəniyyəti də öz inkişafının daha yüksək mərhələsinə çatır. Sənətdə mücərrədlik, həndəsi ornamentlərin mürəkkəb sistemi qərarlaşır. Bütün bunlar isə özünü geyim mədəniyyəti sahəsində daha çox büruzə verir. İstər miniatür məktəbi nümayəndələrinin yaradıcılığında, istərsə də Azərbaycanda olmuş xarici ölkə səyyah və coğrafiyaşünaslarının (Q.Klavixo, A.Kontarini, A.Cenkinson, A.Eduarde, L.Cepmen, D.Deket, T.Benster və b.) yol qeydlərində və əsərlərində xalq geyimlərində olan rəng harmoniyası, biçim gözəlliyi, simmetriya, geyimi daşıma zövqü və s. yüksək qiymətləndirilmişdir ki, bu da XIV-XV yüzilliklər Azərbaycan geyim mədəniyyətinin daha da zəngiləşdiyini bir daha sübut edir. [31] XVI əsrdə Şamaxıda Abdulla xanın qonağı olmuş ingilis səyyahı A.Cenkinson hökmdarın geyiminin təsvirini vermişdir: “Hökdar özü orta boylu və zəhmli adam idi, uzun ipək parçalardan bahalı mirvarilər və daş-qaş düzülmüş paltar geyinmişdi”. O, başına şiş uclu, yarım yard uzunluğunda (ingilis ölçü vahididir, təxminən 1 yard=91,44 sm) zəngin qızılı parçadan türban (papaq) qoymuşdu, üstündən 20 yard uzunluğunda, qızılı sapla tikilmiş hind ipəyindən çalma bağlamışdı. Türbanın sağ tərəfində, mina ilə zərif bəzədilmiş və daş-qaş düzülmüş qızıl lüləyə lələk çələngi taxılmışdı. Onun sırğalarını əl içi boyda uclarına böyük qiyməti olan iki yaqut qoyulmuşdu”. [32] Bu təsvirdən aydın olur ki, əhali arasında sosial təbəqələşmə də geyimlərin fonduna böyük təsir göstərmişdir. A.Cenkinsonun yol qeydlərində o da məlum olur ki, Azərbaycan Səfəvilər dövlətində yerli istehsala aid olan parça materialları ilə yanaşı, Avropada istehsal edilmiş böyük çeşidli geyim materialları-mahud, kamzol, atlas, karazey, xüsusilə müxtəlif rəng çalarlı (Qızılbaş əmmamələri üçün nəzərdə tutulan qırmızı rəngli parçalar da daxil olmaqla) hollanda parçaları və London mahudunun bütün növləri də geyim növlərinin hazırlanmasında əsas yer tutmuşdur. [33]

XVI yüzillik Azərbaycanın siyasi tarixində mühüm dövr olduğu kimi, geyim mədəniyyəti ənənələrinin zəngiləşdiyi dövr kimi də diqqəti cəlb edir. Bu dövrə aid edilən süjetli parça növlərinin dünyanın bir çox muzeylərinin (Moskvada Silah Palantası, ABŞ-da-Bostonda İncəsənət Muzeyi, Londonda Viktoriya-Albert Muzeyi, Budapeşt Dekorativ Sənətlər Muzeyi, Parisdə Dekorativ Sənətlər Muzeyi və s.), eləcə də ayrı-ayrı kolleksiya sahiblərinin (Nyu-Yorkda cənab Morun, Parisdə cənab Levenin və b.) şəxsi kolleksiyalarını bəzəməsi [34] son orta əsrlərdə Azərbaycanda, xüsusilə Təbrizdə parça istehsalının ənənəvi milli zəmin üzərində yüksək səviyyədə inkişaf etdiyini təsdiq edir. Bütün bu parçalardan hazırlanan kişi və qadın geyimləri özünün mühafizəkarlığını sonrakı yüzilliklərdə də saxlamış, biçilmə tərzində və tikiş üslubunda müəyyən dəyişiklikləri, bədii-dekorativ çalarları və lokal xüsusiyyətlərini nəzərə almasaq, demək olar ki, bütünlüklə təkrarlanmışdır. XVI-XVIII yüzillikərin qadın geyim dəsti içərisində, əvvəlki əsrlərdə olduğu kimi, yenə də alt və üst köynəyi (qaftan), dizlik, tuman, arxalıq, çuxa, cübbə, çəpkən, balaqlar dizə və ya dabana qədər çatan şalvar, xəz bürüncək əsas yer tutmuşdur. Səfəvilər dövründə Azərbaycan kişi əhalisinin geyimlərində köynək və şalvarla yanaşı, çuxa, arxalıq, kürk, qurşaq, qəba, cübbə, başmaq, çama-əmmamə və s. həm gündəlik, həm də mərasim geyim növləri kimi məlum olmuşdur. Maraqlıdır ki, bu dövrdə Azərbaycan geyimləri təkcə sosial təbəqələşməni deyil, eləcə də tayfa mənsubiyyətinin göstəricisi kimi funksiyalar daşımışdır. Belə ki, Bəktaşilərin ölkədə olan paltarlar geyməsi, Mövləvilərin geyimlərinin adi adamların geyimlərindən fərqli olması, Heydərilərin kürəklərinin tüklü qoyun dərisi ilə örtməsi, Nemətullahilərin çox qəribə geyimi, Abdalların vəqf dərisindən paltar geyməsi və bu geyimin onların sinəsindən düzlərinə qədər uzanması Azərbaycanda olan xarici ölkə səyyahlarının diqqətini cəlb etmiş, bunları ənənəvi tayfa geyimləri kimi qeydə almışlar. [35]

XVII yüzillikdə Azəbaycan şəhərlərinin say və çəkisinin artması ilə əlaqədar olaraq ənənəvi parça toxuculuğu və paltar istehsalı emalatxana və müəssisələri şəhərlərdə daha çox cəmləşməyə başlayır. Bu dövrdə ən çox toxuculuq mərkəzləri Təbriz, Ərdəbil və Şamaxı şəhərləri olmuş, bununla yanaşı, digər Azərbaycan şəhərləri- Gəncə,

Naxçıvan, Ərəş, Marağa, Ordubad, Dehharqan və Mərənd də vacib istehsal mərkəzləri kimi seçilmişdir. Şəhərlər arasında parça istehsalı ilə bağlı ciddi ixtisaslaşma olmasa da hər halda Təbriz –məxmər, atlas, qumaş, rənbərəng qaba parça, yüngül parça (duvaq); Ərdəbil-tafta, duvaq parçası və qaba parça; Şamaxı-tafta və ya "şamaxı", darayı, duvaq parçası; Naxçıvan-"qələmkar" adlanan parçaları ilə məhşurlaşmışdır. [36] Külli miqdarda tarixi mənbələrə, arxiv sənədlərinə, miniatür rəsmlərə və səyyahların məlumatlarına isitnad edən M.X.Heydərov XVII əsrdə xalqımızın geyim dəstində yun, pambıq, kətan və ipək parçalardan tikilmiş və dərindən hazırlanmış müxtəlif dekorativ-bəzək xüsusiyyətlərinə, biçim tərzi və tikiş üslubuna malik olan geyimlərin –papaq, kaftan, kürk, qurşaq (kəmər), kürdi (mahuddan tikilən baş geyimi), dolama (uzunətək çuxa), baş örpəyi, şalvar, corab və s. mövcud olduğunu təsdiqləyir. [37] Bəhs olunan dövrün geyimləri içərisində "dövranbənd" adlanan qızılbaş papağı, ərəb-müsəlman donu hesab olunan "üçətək" və "ləbbadə" əvəzinə geyilən "xirqə" (boğazından kəmər yerinə qədər düymələnən, qurşaqsız geyilən uzun və enli paltar olub, adətən yundan tikilirdi. "Suf"-farsca "yun" adlandığından, onu geyənlərə "sufilər" deyirdilər), xirqəyə bənzər, ancaq döyüş zamanı geyilən və belinə kəmər bağlanan "kəmərçin", dabanlı və ya dabasız, uzunboğaz və ya yarımboğaz çəkmə, qondara, ağ kətan ipdən toxunan, altına parçadan bir neçə qat altlıq salınan və "givə"adlanan ayaqqabı, yun ipdən toxunmuş corab və patava ilə geyilən "çaqcur" ayaqqabılar üstünlük təşkil edirdi. Zadəgan qadınları başlarına "nimtac" (yarımtac) və ya "tiyar" adlanan üçbucaqlı tac qoyur, ətrafını lentlə bağlayırdılar. "Tiyar"- qadının həm də ərli olduğun bildirən mühüm əlamət hesab olunurdu. Subay qızlar "tiyar " əvəzinə saçlarını, üzərinə müxtəlif qiymətli muncuqlarla və daş-qaşlarla bəzək-naxış salınmış lentvari parçarlarla bağlayırdılar. Zənciraəyə tutulmuş araqçın, örpək, rübənd-niqab da qadın geyimlərinin ayrılmaz tərkib hissələri idi. Qadın kəmərçinlərinin ətəyi öndən qatlanıb kəmərə keçirildiyindən, onun astara göz oxşayan rəngli ipək parçadan xüsusi səliqə ilə hazırlanırdı.

XVI-XVIII əsrlərin ənənəvi geyim tipləri haqqında məlumatlar dastan yaradıcılığında da, xüsusilə məhəbbət dastanlarında öz əksini

tapmışdır. Burada geyim materialı kimi yun (şal), ipək (atlas, qumaş, darayı və s.), kətan, pambıq (şilə, satin və çit) parçalardan tikilmiş köynək, don, ənbərçə, duvaq, çəpkən, nimtənə, xalat, tuman, kəlayağı, çalma, çarqut, niqab, külah və s. kimi qadın geyimlərinin mövcudluğunun şahidi oluruq. Bu geyimlər, müxtəlif səciyyəvi və təyinatlı qadın bəzəkləri ilə ahəngardlıq təşkil edərək, qadın görkəminə xüsusi gözəllik vermişdir. [38] “Abbas və Gülgəz” dastanında Azərbaycan gözəlinin əndamına yaraşıq verən milli geyimlərimiz incə zövqlə tərənnüm olunur.

Örtübən başına şalı-zər gəzər,
Abıdan nimtənə, qızıl düymələr,
Yaraşır belinə zərbafdan kəmər,
Çəpkənli, çarqatlı ağ bədən gəlir. [39]

Xanlıqlar dövründə müstəqilləşmə meylləri ilə əlaqədar olaraq Azərbaycanın ayrı-ayrı bölgələrində kənd təsərrüfatının və sənətkarlığının nisbətən dirçəldilməsi, kustar sənət sahəsi məhsullarının istehsalının artırılması, Şuşa şəhəri kimi yeni sənət, ticarət mərkəzlərinin meydana gəlməsi, digər Şərq və Avropa ölkələri ilə ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi və s. amillər Azərbaycan geyim fondunun daha da zənginləşməsinə, müztəlif çeşidli geyim materiallarının daha da keyfiyyətli və kütləvi şəkildə istehsalına, geyim növləri hazırlayan kustar emalatxanalarının sayının artmasına gətirib çıxarmışdır. Bu dövrdə böyük Azərbaycan şəhərləri xanlıqlar olmaqla yanaşı, həm də mühüm sənət-ticarət mərkəzləri kimi inkişaf edirdi. Parça və geyim növləri istehsalı başlıca olaraq bu şəhərdə cəmləşirdi. Dövrün siyasi hadisələrinin xalq məişətinə əngəlli təsirinə baxmayaraq, XVIII yüzillikdə Avropa geyim elementləri xalq geyimlərimizin ayrı-ayrı növlərinə “nüfuz edir”, bu əcnəbi naxışlar orta əsrlərin süjetli parçalarındakı naxışları sıxışdırıb aradan çıxarır və əvəzində həndəsi, nəbati, xətti formalı naxışlar parça istehsalında üstün yer tutmağa başlayır. Bununla yanaşı, xalqın bədii zövqünün gözəl biliciləri olan səriştəli parça ustaları-şalbaflar, bəzzazlar, culfalar, qələmkarlar,

basma-naxışçılar, şərbaflar, eləcə də paltar (libas) hazırlamaqla məşğul olan peşəkar dərzilər yeni-yeni empirik bilik sistemi yaradır, geyim fondunu yeni parça materialları və geyim növləri ilə zənginnləşdirir, gözəl və əlvan rəng çalarlı, mükəmməl çeşidli xalq geyimləri hazırlayırdılar. XVIII əsrdə yaşamış Azərbaycan şairi Molla Pənah Vaqifin lirik şeirlərində Azərbaycan xalq geyimlərinin geniş çeşidinin, rəng əlvanlığının, forma müxtəlifliyinin poetik-bədii əksi fikrimizi sübut edir, M.P.Vaqifin yaradıcılığında qadını özünün əlvan geyimi ilə diqqətimiz çəkir:

Xoş yaraşır sənə diba nimtənə,
Bu bəzəyin yeni əlaməti var. [40]

Yaxud:

Libasın əlvandır, çarqat narıncı,
Saçaqlar yaraşır qıraqlarından.[41]

Yaxud da:

Barmağında xatəm, guşində tənə,
Gireh-gireh zülfün tökə gərdənə,
Güləbətin köynək, abı nimtənə,
Yaxasında qızıl düymə gərəkdir. [42] və s.

XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı onun siyasi müstəqilliyinə son qoysa da burada müstəmləkə üsul-idarəsi yaradılsa da, bununla belə, dağıdıcı feodal-ara müharibələrinə son qoyuldu, Azərbaycanın natural təsərrüfat qapalılığı və feodal pərakəndəliyi aradan qaldırıldı. Ölkəmizin Ümumrusiya bazarına qoşulması və Rusiya siyasi sisteminin ayrılmaz tərkib hissəsinə çevrilməsi burada kaptalist münasibətlərin inkişafına, əmtəə istehsalının və mal dövriyyəsinin artmasına, rabitə-nəqliyyat vasitələrinin təkmilləşməsinə, ticarət-iqtisadi əlaqələrin güclənməsinə səbəb olmuş, xüsusilə də XIX yüzilliyin ikinci yarısından başlayaraq Azərbaycanda geyim materiallarının hazırlanması ilə məşğul olan bir çox kustar sənət sahələrinin (toxuculuq, dabbağlıq, papaqçılq, başmaqçılq və s.) manufaktura və fabrik müəssisələrinin güclü

inkişafına təkan vermişdir. Bu dövrə aid olan statistik məlumatlar, yazılı mənbələr, dövri mətbuat və rus müəlliflərinin tərtib etdikləri materiallar topluları, layihələr, iqtisadi-maliyyə hesabatları Azərbaycanın çar Rusiyasının xammal əlavəsinə çevrilməsinə və onun iqtisadi işğalına xidmət etsə də, hər halda Azərbaycanın XIX əsrə aid geyim fondunun mövcud durumunu da izləməyə imkan verir. XIX əsrin 30-cu illərinə aid bir məlumatda deyilir ki, Yelizavetpol (Gəncə) dairəsində xanlıqlar dövründə 375, indi isə 200 ipək-toxuma dəzgahı, habelə ağ və qırmızı bez, calamaya (nazik bez) toxuyan 30 dəzgah işləyir. Bütün Yelizavetpol toxuculuq müəssisələrində il ərzində 10 min top parça, 15 min müxtəlif çeşidli yaylıq, 2 min top ağ, 200 top qırmızı bez (şilə) və 400 top calamaya hazırlanır. [43] Bəzzazlıq sənəti adlanan pambıq parça istehsalı XIX əsrdə Gəncə ilə yanaşı, Naxçıvan, Ordubad, Şamaxı və Şuşa şəhərlərində də mövcud olmuşdur. 1829-cu ildə Şuşa şəhərində 28 bez karxanası fəaliyyətdə idi. Burda 80 toxucu dəzgahında il ərzində 8 min ədəd on arşınlıq bez toxunurdu. [44]

XIX əsrdə Azərbaycanda yun parça toxuculuğu (şalbaflıq) Qazax, Naxçıvan, Zəngəzur, Şuşa, Quba, Şamaxı, Göyçay qəzaları və Zaqatala dairəsində geniş yayılmışdı. Şamaxı və Zaqatala dairəsi isə təkcə Azərbaycanda deyil, ümumən Cənubi Qafqazda şal istehsalının yüksək inkişaf mərhələsinə çatmış mərkəzləri arasında xüsusi yer tuturdu.

Azərbaycanda tarixən mövcud olan ipək parça toxuculuğu (şalbaflıq) XIX əsrdə özünün ən yüksək inkişaf nərhələsinə çatmışdır. Azərbaycaın Təbriz, Ərdəbil, Şamaxı, Mərənd, Xoy, Səlmas, Naxçıvan, Gəncə, Beyləqan, Qəbələ və b. şəhərləri hələ orta əsrlərdən şərbaflıq sənətinin başlıca mərkəzləri olmuşdur. Bunların içərisində Şamaxı və Təbriz xüsusilə seçilmişdir. XVIII əsrin 90-cı illərində Şamaxı şəhərində darayı, tafta və qanovuz toxuyan 1500 toxucu karxanasının olması [47] burada ipək və parça toxuculuğunun geniş yayıldığını sübut edir. Şübhəsiz ki, geyim materiallarının çeşidinin və istehsalının artması onlardan hazırlanan geyim dəstlərinin də rəngarəng olmasını, çeşid, forma və növ müxtəlifliyini şərtləndirmişdir. Xalq arasında həm xaricdən gətirilən, həm də yerli istehsala məxsus olan bu parça növləri “məni aldatdı”, “alışdım-yandım”, “Hacı, mənə bax”, “gecə-gündüz”,

“küçə mənə dar gəlir”, “min bir gül”, “oturma, sınar”, “dur, məni gəzdir”, “pinti məni geyməz”, “qonşu bağrı çatladan”, “sürüşdüm-düşdüm”, “dəymə, gülüm tökülər”, “şəmsi-qəmər”, “gendə-dur” və s. adlarla məşhur olmuşdur. [48]

XIX əsrin ortalarından başlayaraq xalq məişətinə getdikcə daxil olan fabrik-sənaye məhsulları kustar toxuculuğu sıxışdırmağa başlayır. Bu dövrdə Azərbaycan Rusiya, İran, Avropa ölkələrində gətirilən parça məhsulları yerli istehsalı üstələyir. “Firəng çiti”, “rus çiti”, Moskva fabrikantı İ.P.Abramovun “Proxorov yoldaşlığı” manufakturasının istehsalı olan “Proxorov ağı” kimi ucuz parça növləri, eləcə də fabrik istehsalı olan şilə, qədək, bez, cuna, satin, lastik və s. parça materialları geyim dəstlərinin hazırlanmasına daha sərfəli hesab olunur. Pambıq parça materialına yüksək tələbatın artdığını nəzərə alan Azərbaycan sənayeçisi və messenantı H.Z.Tağıyev 1901-ci ildə Bakıda pambıq parçası istehsal edən fabrik açır. Xalq arasında bu fabrikin buraxdığı məhsul “Tağıyev ağı” kimi məhşurlaşmışdır. Bütün bunlara baxmayaraq, Azərbaycanın imkanlı sosial təbəqələri arasında barnus, naşura, darayı, qanovza, tafta, mov, tirmə, xara, atlas, məxmər, mahud-şal və s. kimi bahalı parçalardan geyim dəstləri də uzun müddət öz istifadə üstünlüyünü qoruyub saxlamışlar.

XIX-XX yüzilliyin əvvəllərində Azərbaycan xalqının milli geyim dəstlərinin mühüm tərkib hissələrinin hazırlanmasında xəz və gön-dəri məhsulları da mühüm əhəmiyyət kəsb etmişdir. Gön-dəri həm aşılanmış, həm də xam halda istifadə edilmişdir. Bir qayda olaraq, aşılanmış göndən başmaq, kəmər, məst, çəkmə; xəz-dəridən-papaq və kürk; xam dəridən isə müxtəlif növlü çarıqlar və tüklü papaqlar hazırlanmışdır. Ümumiyyətlə, xalq geyim ehtiyaclarının ödənilməsi üçün yerli xammalın -yun, ipək, kətan, pambıq, dəy, gön, keçə və s. Azərbaycanda kifayət qədər bolluğu xalq geyimlərinin çeşidinin zənginliyinə, növ müxtəlifliyinə və tipoloji cəhətdən seçilməsinə imkan yaratmışdır.

Bütün tarixi-etnoqrafik bölgələr üzrə Azərbaycan milli xalq geyimlərini qadın geyimləri, kişi geyimləri və uşaq geyimləri olmaqla üç tipə ayırmaq olar. XIX əsr xalq geyimləri həm də mərasim geyimləri əhalinin müxtəlif sosial qruplarının peşə mənsubiyyəti ilə əlaqədar

geyimlər, mövsümi səciyyəli geyimlər, dini zürmələrə məxsus geyimlər və s. olmaqla da fərqlənmişdir.

# QADIN GEYİMLƏRİ

XIX-XX yüzilliklərin əvvəllərində Azərbaycanın ənənəvi qadın geyimləri özünün rəng əlvanlığı, biçim tərzi və tikiliş üslubunun mürəkkəbliyi, eləcə də tip və formalarının müxtəlifliyi ilə seçilirdi. Azərbaycanın ayrı-ayrı tarixi-etnoqrafik bölgələrinin əhalisinin ənənəvi qadın geyimlərində lokal-məhəlli xüsusiyyətlər, bölgələrə məxsus detallar və ştrixlər az və ya çox diqqəti cəlb edirdi. Başqa sözlə desək, qadın geyim kompleksi tipoloji cəhətdən ümumazərbaycan səciyyəsi daşıyırdı.

Azərbaycanın qadın milli geyimləri **"alt paltarları"**, və **"üst paltarları"** olmaqla iki variantda mövcud olmuşdur. Qadın alt paltarları alt köynəyi (müxtəlif bölgələrdə ona "can köynəyi" və "ət köynəyi" də deyirdilər), cütbalaq (enli şalvar) və darbalaqdan (dizlik) ibarət olmuşdur.

Qadın alt köynəyi əldə toxunma və satınalma (fabrik istehsalı olan) pambıq və ipək parçalardan biçilib-tikilirdi. Köynəklər, bir qayda olaraq, "Morozov ağı" və "Tağıyev ağı"ndan, bezdən (qalın ağ), hamuyan ağından hazırlanırdı. Bəzən onlar üst köynəyi əvəzinə də istifadə olunduğundan rəngli parçalardan (şilə, qədək, qanovuz və s.) tikilirdi. Alt köynəyi üst köynəyindən uzun, həm də gen biçilib-tikilir, hər iki yanında kəsik ("çapıq" və ya "peş") qoyulur, qolları uzun olmaqla büzmə-manjetli (bilərzikli) olurdu. Kasıb qadınların alt köynəyi bəzəksiz olub, boğaz altında bir və ya ikiilgək-düymə ilə bağlanır, varlı qadınların isə alt köynəklərinin yaxa kəsiyi və qollarının ağızına bəzən bəzən başqa rəng parçadan köbə qoyulur, bəzən də rəngarəng bəzək elementləri salınır və qızıl düymə ilə düymələnirdi. Muğan bölgəsində qadın alt köynəyi (uzunluq) adlanır, qolsuz, yaxası



Qadın alt köynəyi



Taylı tuman

üçbucaq şəklində açıq olub, yerli əhali arasında "sosi" adlana ağ çitdən tikilirdi. Qollu tikilən üst köynəyindən fərqli olaraq, onun ətəyi xeyli uzun olurdu. [49] Azərbaycanın bütün etnoqrafik bölgələrində qadın alt köynəyi tuniki və kəsmə biçim üsulu ilə hazırlanırdı. Kəsmə biçim üsulunda parça materialı kürək, sinə, çiyinlik, yaxa, boyunluq, qolluq, bilərzik-manjet və xişdəkdən ibarət biçilir, sonra müvafiq hissələr səliqəli tikişlə bir-birinə bəndlənirdi. [50]

Bəzən parçanın ensizliyi və təsərrüfat işlərini nəzərə alaraq, belə köynəklərin qoltuqaltına "xişdək" adlanan əlavə parça kəsiyi tikilir və belə köynəklər "xişdəkli köynəklər" adlanırdı.

Qadın alt geyimləri müxətlif biçimli **tumandan** (şəltə, cüttuman), **darbalaq və cütbalaq** (taylı tuman) kimi geyim elementlərindən ibarət idi. Cütbalaq (taylı tuman) adətən tünd rəngli parçalardan (göy, palıdı, qara, qırmızı) iki ayrıca balaq kimi biçilir, xişdəklə (və ya miyança ilə) birləşdirilir, beldə saxlanması üçün yuxarı hissəsi büzülərək orada "nifə" tikilir, və nifədən keçirilən (tumanbağı) vasitəsi ilə bağlanırdı. Bunu üçün 4 m-dən 8 m-ə qədər parça gərək olurdu. Balaqların gen olması, sərbəst hərəkət üçün imkan yaratması, qadın orqanizmini yaxşı mühafizə etməsi və s. kimi cəhətləri nəzərə alaraq bəzi tədqiqatçılar taylı tumanın məhz köçmə həyat tərzi keçirən xalqlar arasında meydana gəldiyini qeyd edirlər. [51] Məişət şəraitindən və maddi imkandan asılı olaraq taylı tuman həm alt paltarı, həm də üst geyimi kimi istifadə olunurdu.

Darbalaq bədənə kip yapışmaqla tikilən geyim növü olub, taylı tumanın altından geyilirdi. Kişi dizliyi ilə oxşarlıq təşkil edən darbalaq Şəki-Zaqatala, Naxçıvan və Abşeron bölgəsi əhalisinin yaşlı qadınlarının geyim kompleksində əsas yer tutmuş, digər etnoqrafik bölgələr üçün də o qədər də xarakterik olmamışdır. Naxçıvan bölgəsində darbalaq "topuqluq" adı ilə məlum idi. Topuqluq ipəkdən gen şəkilli biçmə üsulu ilə hazırlanır, balaqları və beli qaytanla büzülürdü.

İranda-Təbrizdə daha çox dəbdə olan belə qadın alt paltarları Naxçıvana oradan



Qadın üst köynəyi

gətirlirdi. Bədənə kip yapışan topuqluğun balağı topuğun üstünə qədər çatırdı. Abşeronda qadınların darbalaq gerdiklərini vaxtilə buraya səyahət edən S.Q.Qmelin də müşahidə etmişdi. [52] Zaqatala bölgəsinin ayrı-ayrı əhali qrupları arasında bu geyim tipinin müxtəlif adları olmuşdu. Belə ki, avarlarda "xebet", "saxurlarda "bada", "vaxçek", ingiloylarda, "nibxavi", "mukasar", və ya "mukasa" adlanan darbalaq azərbaycanlılar arasında "dizlik" və "badış" adlanmışdır. [53] Belə geyim növü qədimlərdən məlum olmaqla, Azərbaycanın digər etnik qrupları ( udinlər və "Şahdağ qrup xalqları") arasında da mövcud olmuşdur. Adətən, ata rahat minmək və köç yollarda rahat gəzmək üçün elat qadınları darbalaq geyməz, taylı tumannın balaqlarının badışın (ayaqlığı olmayan toxunma corab) içərisinə qab-qarıb, qatma (hörmə ip) ilə bağlayırdılar.



Azərbaycanda qadın alt geyimləri kompleksinə daxil olan **çaxçur**, bir qayda olaraq, şəhər əhalisinin, xüsusilə də varlı və kübar ailələri geyimi kimi mövcud olmuşdur. Ayağı büzməli şalvarı xatırladan bu geyim növü Yaxın və Orta Şərq ölkələrində, Orta Asiya və

Qafqaz xalqları arasında geniş yayılmış, Ön Asiya vasitəsilə Azərbaycana da keçmişdir. Q.T, Qaraqaşlı çaxçurun Azərbaycanda yayılmasını farsların və fars rühanilərinin təsiri ilə əlaqələndirir. [54] Çaxçur geyim tipi Gəncədə, Naxçıvanda, Abşeronda və Şirvanda (Şamaxı, Basqal, Lahıc) daha çox istifadə olunurdu.

Qadın üst geyim tiplərinin əsas elementlərindən biri **üst köynəyi** idi. Azərbaycanın bütün etnoqrafik bölgələrinin qadın geyimlərinin mühüm elementlərindən biri olan üst köynəyi ayrı-ayrı məhəlli xüsusiyyətləri (bunlar özünü xırda detallarda göstərirdi) nəzərə almasaq, demək olar ki, ümumi səciyyə kəsb etmişdir. O, kəsmə və tuniki biçim üsulunda tikilərək, qollarının ağzı bilərzikli və yelpazəli olurdu. Sahibinin iqtisadi imkanından asılı olaraq, qadın üst köynəyi bahalı parçalardan (qanavoz, darayı, bursa, atlas, mov, xara), həmçinin ucuz başa gələn pambıq, yun və kətan parçalardan (satin, fay, şal, çit) tikilir, qoltuğunun altına isə fərqlənən parçadan xişdək qoyulurdu. Adətən, yelpazəli üst köynəyi boyunduruqsuz olur, yaxa və boyun kəsiyinin ətrafına, üstü rəngli saplarla işlənmiş yaxalıq tutulurdu. Bəzən bu cür dekorativ bəzək elementləri ("sarımabafta", "hərəmi", "qaragöz") üst geyiminin qollarının ağzına, (bilərziklərinə və ya məcələrinə) və yan çapıqlarına (peş) da vurlurdu. Köynəyin qabaq ətəyinin üstü metal qulplu sikkələr (qızıl və gümüş abbasılar) və müxtəlif döymə, basma və kəsmə bəzəklərlə (midaxil, pilək, zərənduz-çaxma pilək və s.) zəngin olan "ətəklik" tikilirdi. Belə köynəklərin ətəyi, bir qayda olaraq, tumanın üstünə salınırdı.



Qolları bilərzikli (məcəli) köynəyin yaxası düzbiçimli olub, boyunduruqlu tikilirdi. Gürcüstan Dövlət Muzeyinin fondunda saxlanılan sarı rəngli təbii ipəkdən (qanavoz) hazırlanan belə köynəklərin birinin ətəyinə iki formada bəzək (gümüşdən iki qəpiklik boya, üzərində 8 guşəli ulduz həkk olunmuş pullar və 5 çıxıntılı zınqırov və ya insan əlinin barmaqlarını xatırladan bəzək) tikilmişdir. Bu köynəkdə xişdək qoyulmamış, bu görə də qol gövdəyə çiyin tikişləri

olmadan birləşdirilmişdir. Ətək yanları çapıq tikilən köynəyin yasa hissəsi bə bilərziyi qızılı saplarla işlənmişdir. Köyənyin enli bilərizyə tikilən hissəsinə dekorativ bəzək xarakteri daşıyan “ağızlıq” əlavə olunmuşdur. [55] Belə qadın üst geyim növləri Azərbaycanın əksər etioqrafik bölgələrində (Qarabağ, Şirvan, Muğan, Gəncəbasar, Bakı ) üçün xaraterik geyim növü olmuşdur.

Köynək tikilərkən yaş fərqi ciddi nəzərə alınır, qız və gəlinlərin köynəkləri gözoxşayan rəngli parçalardan (qırmızı, sarı, çəhrayı, bənövşəyi, yaşıl və s. ) yüksək zövqlə biçilib-tikilir. Qadınlar tünd (göy, palıdı və s.), qoca qarılar isə qara rəngli parçalara üstünlük verirdilər.

Azərbaycanlın cənub bölgəsində, Naxçıvanda, Şəki-Zaqatala bölgəsinin bir çox kəndlərində, eləcə də Quba-Qusarın dağlıq hissəsində uzunətək köynək geniş yayılmışdı. Dizdən aşağı (topuğa qədər) çatan belə köynəyin biçim üslubunda fərq olmasa da, həm uzunluğu, həm də ətəklərinin getdikcə genəlməsi ilə əvvəlki köynəklərdən fərqlənirdi. Uzun ətəkli və çoxtaxtalı üstündən geyilən belə köynəklərdə yan çapıqları da nisbətən böyük olurdu.

Ordubad bölgəsində qadın geyimlərinin tərkib hissəsi olan belə köynəklər XIX-XX əsrin əvvəlllərində **“oyma”** adlanmışdı. Maralıdır ki, ində də Naxçıvan MR-də hazır qadın geyimi (fabrik istehsalı) “oyma” adlanır. Bununla yanaşı, Ordubad qadınları qurşağa qədər çatan qısa, ilgək-düyməsiz, bütöv biçimli, nisbətən geniş ölçülü “çəpkən-köynək” adlanan üst geyim növünə də üstünlük vermişlər. [56]






Zıvını

Uzun müddət Azərbaycanın qadın geyim kompleksinin tərkib hissəsi olmuş tuniki və kəsmə (doğrama) biçimli üst köynəkləri XX əsrin əvvəllərindən başalayaraq fabrik istehsalı olan “qofta” geyim tipi tərəfindən sıxışdırılaraq istifadədən çıxarılmışdır.

XIX-XX yüzilliyin əvvəllərində yaşlı qadınların geydiyi **cütbalaq** (taylı tuman, ikibalaq) kimi üst geyim növü ilə yanaşı, qadın **üst tumanı** [57] da geniş yayılmışdır. Qabaq Asiyada yarandığı ehtimal edilən bu geyim növü İran vasitəsi ilə Azərbaycanda da keçmişdir. Qadın üst geyim tumanı xişdəksiz (miyançasız) tikilməklə, iki variantda (büzməli və qırçınlı) təsadüf olunurdu. Muğan qadınları arasında belə tumanlar “qarmanlı” və “çimdikli” tuman adı ilə məlum idi. [58] İqtisadi imkandan asılı olaraq qadın üst tumanı qanavoz, darayı, misqalı tirmə, [59] alışı, marpus, zərxara, alxara, zərələm, zərnədur, məxmər, naşura, tafta, atlas və s. kimi bahalı parçalardan, eləcə də çit, lastik, sətin müxtəlif rənglərə boynamış midqalı ağ, şal və s. kimi ucuz parçalardan tikilirdi. Bundan başqa, yaş fərqindən asılı olaraq qocaların (qarıların) tumanı adətən birrəng (qara, yaşıl, göy, palıdı və s.) parçadan, gəlin-qız tumanı isə daha gözəgəlimli rəngli-güllü parçalardan hazırlanırdı. Xalq arasında geniş yayılmış:

Alışı tumanı vızvızı,
Ölürəm, a dəllək qızı!-

Misraları ilə başlanan el mahnısında alışı (qırmızı ) parçadan tuman geyinmiş dəllək qızı vəsf olunurdu.

Adətən orta yaşlı qadın tumanı 10-12 taxtadan (hissədən) ibarət biçilir bə taxtaları bir-birinə biçilməklə hazırlanırdı. Büzməli tumanın beldə qlan hissəsi büzülərək (çinlənərək) 5-6 sm enində olan nifəyə tikilirdi. Nifədən keçirilən ucu qotazlı (pürçümlü) ipək tumanbağı ilə tuman belə bağlanırdı.



Qırçınlı tumanda isə büzmə və nifəyə ehtiyac olmur, taxtanın baş tərəflərinin bir-birinin üstünə qoyub "qarsdıqdan sonra" üstünə köbə tutur və ütüləyirdilər. [60] Qırçınlı tumanı belə saxlamaq üçün onu, sol yanda köbənin davamı kimi tikilmiş qatma ilə və ya ilgək-düymə ilə bağlayırdılar. İlgək-düymə ilə bağlanan tuman "ətək" adlanırdı. Bunun üçün tumanın başına təxminən 8-10 sm uzunluğunda yarıq qoyulurdu. Formasından asılı olmayaraq, geyilərkən hər iki tumanın başı üzəri bəzəklərlə zəngin olan üst köynəyin altında qalırdı.

Gəncəbasar bölgəsində bəzən bağlı-qotazlı tumanın ətəyi yarıdan aşağı qırçınlı formada tikilirdi. Qırçınlı tuman dizə qədər 5-6 taxtadan, dizdən aşağı isə 10-12 taxtadan hazırlanırdı. Taxtaların qovuşduğu hissəyə tikiş boyu yaşıl, gör, qırmızı və b. rəngli atlas və tirmədən zolaq (qıy) qoyulurdu. [61]



Qadın tumanlarının ətək hissəsinə 3-5 sm enində, üzəri pullar və tikmə naxışlarla bəzədilmiş "balaq" adlanan 62 əlavə parça da tikilirdi. Şirvanda belə qadın tumanlarının ətəyi bafta, qaragöz, hərəmi, gümüş və qızıl pul, qiymətli ipək parçalardan tikilmiş "qıyqac balaq" və s. ilə tamamlanırdı. Dövlətli qadınların xara və məxmərdən tikilmiş tumanlarının ətəyi 2-3

cərgə “bacaqlı” və ya qızıl pulla bəzədilirdi. Çox vaxt “bacaqlı” ilə qızıl pul arasında “real” və ya “imperial” da düzülürdü. [63]

Qadın tumanı, bir qayda olaraq, alt tumanı, orta (ara) tumanı, üst tumanı olmaqla üç çeşid də hazırlanırdı. Bəzən iqlim şəraitindən və imkanından asılı olaraq 2,5 hətta 8 tumanı üstü-üstə geyinə bilirdilər. Lənkəran düzənliyi, Şəki-Zaqatalanın bir çox kəndləri və Naxçıvan-Ordubad bölgəsi istisna olmaqla, qadın tumanı, əsasən topuğa qədər uzun tikilirdi. Köçmə maldarlıqla məşğul olan Şirvanın elat qadınları bəzən gen tumanın arxa ətəyini parçanın arasında gətirib öndə nifənin başına sancmaqla onu süni cürbalaq tuman edirdilər. Bu isə at minəndə, yağışlı-yağmurlu havalarda sərbəst hərəkət üçün əlverişli olurdu.



Qarabağ bölgəsində qış aylarında orta (ara ) və üst tumanın arasına geyilən **“yoğan tumanı”** geniş yayılmışdı. Sırınmış yorğanı xatırladan belə tumanı, bir qayda olaarq, yaşlılar geynirdilər. Üzlüyü ilə astarı arasına yun döşənib sırınmış belə “sırıqlı tuman” lar Naxçıvan bölgəsi (Şahbuz rayonu) üçün də xarakterik olmuşdur. Onu “şəltə” adlanan qısa alt tumanın üstündən geynirdilər.

Azərbaycanda kapitalist münasibətlərin intensiv inkişafı ilə əlaqədar olaraq artıq XIX əsrin ikinci yarısından avropa biçimli geyim elementlərinin xalq məişətinə nüfuzu qadın geyimləri içərisində “don” adlanan digər bir geyim növünün meydana gəlməsinə imkan vermişdir. (Xatırladaq ki, köhnə Bakıda arxalıq və küncə tipli kişi və qadın geyimini yerli əhali “don” adlandırmışdır. Buarda isə söhbət sırf “bütövbədənli qadın donu”ndan gedir.) Tumandan fərqli olaraq, bu bütövbədənli olur, ətək, gövdə və qolardan ibarət biçilib-tikilirdi.



Etnoqrafik məlumatlar Azərbaycanda uzun ətək və qısa ətək qadın donlarının “gövdəli, “kəmərçin”və “büzməli” olmaqla üç müxtəlif formasını mövcud olduğunu göstərir. Bir qayda olaraq, belə geyim növlərini tirmə, şəmsi-qəmər, zırrı, şal, “hacı, mənə bax”, “gendə dur”, məxmər və b. adlarla məlum olan parçalardan hazırlayır, ətəklərinə sərmə, güləbətin, yaxasında isə hər tərəfdən 8-10 ədəd olmaqla “şəms” adlanan qızıl kəsmələr düzürdülər. [64]

Qeyd etmək lazımdır ki, Azərbaycanlıların qadın geyimləri həm də gündəlik bə boğçalıq (bayramlıq) geyimlər olmaqla da iki dəstə hazırlanmışdır. Adətən, boğçalıq (bayramlıq) geyimlər hər bir qadının “baş libası” hesab olunar, ilk dəfə toyunda geyilər, sonralar isə əlamətdar günlərdə, bayramlarda, el şənliklərində istifadə olunardı. Bundan fərqli olaraq, gündəlik geyimlər, ailə-məişət tərzindən, təsərrüfat məşğuliyyəti istimaqətindən və iqlim şəraitindən və s. amillərin fəal təsirindən asılı olaraq dəstlənirdi.




İstər gündəlik, istərsə də boğçalıq (bayramlıq) geyim dəstinin tərkib hissəsi kimi **“döşlük”** və **“önlük”**, [65], bir növ, geyim dəstini tamamlayırdı. Döşlük, adından məlum olduğu kimi döşdən başlayaraq dizdən aşağıya qədər qadın libasının ön hissəsini tuturdu. Onu bəzən boyvəboy bütöv taxtalardan, bəzən də döş və ətək hissələrdən ibarət biçib-tikirdilər. Onun yuxarı ətək yanlarına bağlanan qatmalar çanaq sümüyünün üstündə (beldə) düyünlənir, döş hissəsinin uclarına bənd edilən “aşırma” və ya “üzəngi” isə boyuna keçirilirdi. Bəzən döş qatması iki müstəqil hissədən ibarət olub, boyunun arxasında

düyünlənir, bəzən isə həm döş, həm də bel ipləri ilgək-düymə vasitəsilə bəndlənirdi.

Döşlükdən fərqli olaraq, ölnüyün döş hissəsi olmur, hər iki yuxarı ətək yanlarına tikilmiş yuxarılarına tikilmiş qatmalar vasitəsilə bağlanırdı. Gündəlik libaslar üstündən döşlük və önlük ucuz parçalardan tikilir, əməli əhəmiyyət kəsb etməklə, məişət işləri ilə məşğul olarkən paltarın çirklənməsinin qarşısını alırdı.

Toy və bayram libaslarının tərkib hissəsi olan döşlük və önlüklər isə, bahalı parçalardan (qanavoz, xara, alışı, xaçqırmızı) tikilir, ətək yanlarına başqa rəng parçadan qırçınlı köbə qoyulurdu. İmkanlılar qırçınlarının üstünə qızıl-gümüş qozalar və düymələr düzürdülər.

Xatırladaq ki, döşlük təkcə qadınlardan deyil, həm də müxtəlif peşəyönümlü sənətkarların (dülgər, xarrat, bənna, pinəçi, başmaqçı,



dabbağ, sərrac, şatırçı və s.) gündəlik geyimi olmuşdur. Sənətkar döşlüyü bəzən dəridən hazırlanırdı.

Azərbaycanın qərb bölgəsi və Gəncəbasar hüdudlarında mövsümi səciyyəli, çiyinə geyilən qadın geyimi-zıvın (zıbın) və ya **zıvını** geniş yayılmışdı. Onu isti qış platarı kimi köynəyin üstündən geyirdilər. Uzunluğu tumanın nifə yerinə qədər olan zıvının yan tərəflərində çapıq (peş) olur, qolları dirsəyə qədər çatır, xişdək əvəzinə qoltuğunun altına kəsik-qoltuqaltı qoyulurdu. Mövsümi səciyyəli üst geyimlərinin (arxalıq, lavada, çərkəzi və s.) altından geyildiyindən, onu ucuz parçalardan tikir, heç bir bəzək növü əlavə etmirdilər. [66]

Zıvının çapığı ətəkdən 8-10 sm kənara çıxır və "qulaqcıq" adlanırdı. Adətən, qulaqcığın hər iki tərəfi qabaq ətəyinə, digəri isə arxa ətəyə, yuxarı isə qoltuqaltına tikilirdi.



Küləcə

İstər faktik, istərsə də etnoqrafik materialların araşdırılmasından aydın olur ki, zıvını da daxil olmaqla, arxalıq, nimtənə, ləbaddə (lavada), baharı və küləcə kimi qadın üst geyimlərinin biçilməsində, xüsusi geyim növü kimi ayrılmasında "çəpkən" mühüm rol oynamışdır. Başqa sözlə desək, Azərbaycanın Şəki, Şamaxı, Bakı, Naxçıvan, İrəvan, Lənkəran, Gəncə, Şuşa, Qərb və başqa bölgələrində geyilən qadın üst geyimləri birbaşa çəpkənin sələfləridir. [67] Bel, qol və yaxa kəsiklərinin, ətək düzümünü tərtiblənməsində ki fərqlər nəzərə alınmazsa, biçin tərzi, tikiş üslubu, rəng seçimi və bədənə kip oturması ilə bu geyimlər, demək olar ki, eyniyyət təşkil edir.

**Çəpkən**- köynəyin üstündən geyilən üst geyim tipi olub, astarlı tikilir və hətta yüngül sırınırdı. Onu, iqtisadi imkandan asılı olaraq bəzən bahalı ipək parçalardan (məxmər, tirmə, zərxara, tafta, qumaş, atlas, kəmxa və s.) bəzən də pambıq, yun və adi parçalardan hazırlayırdılar. Rəng seçimi çəpkəndə daha çox nəzərə alınardı. Belə ki, cavan gəlin və qızlar, qırmız, mavi, yaşıl; yaşllar göy, palıdı, bənövşəyi, qara parçalardan tikilmiş geyimə üstünlük verirdilər. Çəpkən bədəni yerinə qədər kip tutur, buradan isə yanlardan qoyulmuş çaıpıq vasitəsilə enlənirdi. Adətən, yaxa, qol, çapıq, ətək və calaq tikilşlərinin üzəri görünməsin deyə müxtəlif bafta, zəncir, köb, şahpəsənd, həşyə, və s. bəzək elementləri vasitəsilə "basdırırlırdı". Çəpkənin yaxasının hər iki tərəfinə cərgə ilə qızıl və gümüşü pullar və on ədəd çilik tikilirdi. Bədənə möhkəm otursun deyə, çəpkənin yaxa hissəsi, ətəyə yaxın yerdə 1 m uzunluğunda qızılı və ya gümüş zəncirlə çal-çarpaz bağlanırdı. [68] Yaxasına rus pulları, İran abassıları və şahıları bəndlənən belə çəpkənlər Qarabağda "pullu çəpkən" adı ilə geniş yayılmışdı. Onlar sırıqlı olub, qolsuz boyunduruqsuz tikilirdi.

Azərbaycanın ayrı-ayrı etnoqrafik bölgələrində çəpkən, adətən, qollarının quruluşuna görə fərqli xüsusiyyətlər kəsb edirdi. Etnoqrafik materiallar onun "unuzqol" və "sallamaqol" kimi iki variantının daha çox yayıldığını təsdir edir. Qarabağ bölgəsində "sallamaqol", Naxçıvan və Lənkəran-Astara bölgələrində "uzunqol" Gəncəbasar bölgəsində isə

dirsəyə qədər qola açan çəpkən geniş istifadə olunmuşdur. Uzunqol çəpkənin qolları dirsəyə qədər dar olur, sonra yelpazə şəkilində 20-30 sm enlənirdi. Hərəkət sərbəstliyi yaratmaq üçün qoltuğun altında kəsik saxlanılırdı. Sallamaqol çəpkəndə isə qollar qondarma olaraq çiyin tikişlərinin üstünə tikilir, ucları “əlcək” və ya “qolçaq” la tamamlanırdı. Adətən, qondarma qolun kənarına tikilmiş ilgək-düymə vasitəsilə soyuq havalarda qolçaq yığıb qol şəklinə salınırdı. Bəzən isə qolçaq dirsək bükümündən dirsəyə qədər bəzəkli qaytanla da bağlanırdı. Bir qayda olaraq, sallamaqol çəpkənin qoltuqdan dirsəyə, biləkdən barmaq uclarına qədər olan hissəsi açıq saxlanılırdı. Çəpkən qollarına gözl görkəm vermək və rəng harmoniyası yaratmaq üçün onun astarı daha qiymətli, rəngli və fərqli parçadan hazırlanırdı. Xalq oyunları və rəqsləri zamanı bu rəng harmoniyası, qolçaq ətrafının bəzəyən qozalı düyələr, xırda zəngi (zınqırovu) xatırladan bəzəklər, qızıl və gümüşdən kəsilmiş pulların (sikkələrin) çıxardığı melodik səslərlə həmanəhg qadın gözəliyinə xüsusi rövnəq verirdi.



Içlik

Özünün biçim üsuluna və tikiş tərzinə görə çəpkənlə daha çox eynilik təşkil edən ənənəvi qadın geyimi **“nimtənə”** və ya **“mintənə”** olmuşdur. Gündəlik geyim növü kimi nimtənə yun və pambıq parçada, “baş paltarı” kim isə məxmər, darayı, tirmə və b.parçalardan tikilirdi. Çəpkəndə olduğu kimi, onun ətəyinə, bafta tutulur, pərvanə verilir, zəncirə tikilirdi.

Azərbaycanda geniş yayılmış üst geyim elementlərindən biri də **arxalıq** olmuşdur. Varlılarda tirmə, tafta, atlas, xara, zərxara, məxmər, darayı, qanovuz və b. parçalardan, kasıblarda isə sətin, qara lastik və digər ucuz parçalardan tikilən arxalıq Abçeronda “don” Azərbaycanın qərb bölgələrində isə “küləcə” adı ilə yayılmışdır. [69] Qadın arxalıqları qol, yaxa və bel kəsiyinin quruluşuna görə etnoqrafik bölgələri üzər lokal xüsusiyyətlər kəsb etmişdir. Belə ki, bel kəsiyini görə, Bakı, Şirvan, Borçalı və Kürdəmir arxalıqları 10 sm-dən 31-dən uzunluğu olan büzməli ətəkli, Gəncə-Qarabağ arxalıqları isə 8-18 sm

uzunluğunda zərif qırçınlı, nisbətən qısa ətəkli, Naxçıvan, Lənkəran, İrəvan, Şəki, Qazax arxalıqları isə boyaboy olub, əlavə ətəksiz tikilirdi. Qolarının formasına görə Lənkəran, Naxçıvan, İrəvan arxalıqları dirsəyə qədər düz, dirsəkdən aşağı qondarma qollu; Gəncə-Qarabağ arxalıqları isə "nilufər qollu" (yelpazəli) olurdu. [70] Qadın arxalıqları yaxa kəsiyinin formasına görə (düzyaxa, düzbucaqlı, oymalı) bir-birindən fərqlənirdi. Dağlıq Şirvanda qeydə alınmış oyma arxalığın bir variantı "bəhləli arxalıq" adlanırdı və onun qolları yarıq qolçaqla tamamlanırdı. Buraya çarpaz-ilgək və qaytan-ilgək qoyulurdu. Dekorativ-bəzək səciyyəli qolçağın astarı sarı, qırmız, abı və b. bahalı parçalardan (xüsusilə zərridən) tikilirdi. [71]

Qadın arxalığının bir variantı Azərbaycanın Qərb bölgəsində qeydə alınmış "əlcəkli arxalıq" dır. Onu gövdə və qollardan ibarət biçib astarlı tikirdilər. Kişi arxalığından fərqli olaraq, ətəksiz tikilən belə arxalığın yaxası boyvəboy açıq olur, ətək yanlarında 20-25 sm ölçüdə çapıq qoyulurdu. Çiyin tikişləri vasitəsilə gövdəyə birləşdirilən qollar dirsəyə qədər yarıq saxlanılır, buradan biləyə qədər ilgək-qaytanla bağlanılır və nəhayət əlcəklə (qolçaqla) tamamlanırdı. Qolçağın üstü ziqazaqlı xətlə bəzədilirdi. Libasın davamlılığını artırmaq və ona dekorativ-bəzək səciyyəsi vermək üçün arxalığın yaxa kəsiyinə və ətək yanlarına başqa rəng parçadan köbə tutulurdu. [72]

Bəzi məhəlli xüsusiyyətlərinə və lokal elementlərinə baxmayaraq, Azərbaycan qadın arxalıqlarının əksəriyyəti gövdə ilə bədən hüdudunda 2-3 ədəd çarpazla və ya düymə ilə (basma pilək) bağlanırdı ki, bu da belə kip oturmaqla, qadın görkəminin olduğu kimi saxlayırdı. Arxalığın yaxasına "midaxıl", "həbbabi qızıl", nazik uzunsov gümüş muncuqlardan ibarət "gümüş sərmə", qızıl və gümüş pullar, qızıl qozalardan ibarət "yaxalıq" və s. tutmaq dəb idi.

XIX əsrin son rübündə Azərbaycanın Şəki-Zaqatala və Quba-Xaçmaz bölgələrində büzməli ətəkli, düzbiçimli qollu və bütöv yaxalı qadın arxalığı da əhalinin istifadəsində olmuşdur.

Gəncəbasar, Şirvan, Bakı, Qərb bölgəsi və Şəki rayonu hüdudlarında geniş yayılmış qadın üst geyimlərindən biri də **lavada** (ləbbadə) olmuşdur. O iki qabaq (döş), bir arxa (kürək) və iki qoldan ibarət biçilir, içərisinə nazik yun və ya pambıq döşəməsi qoyulurdu.

Gəncəbasar və Qəbələ bölgəsində dəbdə olan zıvınıdan azacıq uzun biçilən lavadanın qolları dirsəyə qədər düz biçimli və atmaqol olmaqla iki variantına təsadüf olunurdu. Tikiş texnikasına görə zıvınıdan fərqlənən lavadanın qoltuq yerləri biçilir, atma qolları, ətəyi, qulaqcıqlarının (yan kəsiklərinin) üstü qaytan, zəncirə və baftan ilə işlənir, yaxa kəsiyi və ətəklərinin qıraqlarına başqa rəngli parçadan köbə tutulurdu. Lavada bədənə kip otursun deyə, onun qabağı 3-4 cərgə çarpaz qarmaqla (çarışqa, car-car) keçirlmiş rəngli qaytanla bağlanırdı. Lavadanın yaxasına gümüşdən qoza düymələr düzülər, atma qolların kənarlarına zınqırov çəkilli asmlar bəndləyərdilər. Lavada, adətən, məxmərdən, taftadan, qanovuzdan və b. bahalı parçalardan tikilirdi.

**Çərkəzi**- biçim üsuluna görə lavadanda fərqlənirdi. Ətək, gövdə və qollardan ibarət biçilən çərkəzinin ətəyi 7-8 sm enində büzülərək gövdəyə tikilirdi. Çərkəzinin ətəyi o qədər də uzun olmayıb, qurşaq yerindən 10 sm aşağıya qədər enlənirdi. Bu geyimin arxa kəsiyi hər iki çiyindən başlayarq gövdənin qurtaracağına 8-12 sm qalan qədər trapesiya formalı biçilir, yaxalığın aşağı hissəsi isə ortadan açıq saxlanılırdı. Buraya 4-5 cərgə ilgək-düymə tikilirdi. Çərkəzi düymələnən zaman gövdənin aşağı hissəsi düymələr vasitəsilə bədənə kipləşdiyindən, qurşağa ehtiyac qalmırdı. Çərkəzin qolları dekorativ-bəzək xarakteri daşıyırdı. Adətən, dirsəyə qədər düzdəmə biçilən qollar burada qoyulan çapığın köməyi ilə getdikcə enlənirdi. Varlı qadınlar bəzən çərkəzinin qollarının ağzına və yaxa kəsiyinin ətrafına tamam ayrı rəng parçadan lentvari qırçın da qoyurdular. İqtisadi imkanlardan asılı olaraq çərkəzi bahalı ipəək parçlardan (atlas, məxmər, tafta, darayı) və ucuz pambıq parçalardan (çit, sətin, qədək, şilə) tikilirdi.

Mövsümi səciyyəli qadın geyimlərindən bir tipini də **kürdü** (eşmək) təşkil edirdi. Adətən, onu məxmər, ayulduz, bafta, tirmə və b. parçalardan tikir, bəzən də yaxşı aşılanmış dəridən, xəzi içəriyə olmaqla hazırlayırdılar. Bu zaman kürdü astarlı tikilırdi. Azərbaycanda tünd sarı rəngli dəridən hazırlanmış və üzəri eyni rəng ipək sapla naxışlanmış Xorasan kürdüsünə böyük üstünlük verilirdi. [73] Parçadan hazırlanan kürdülər isə yerli bazarlarda satılalma üsulu ilə əldə edilirdi. Adətən, qolsuz və yarımqol tikilən kürdünün (eşməyin) ətəyinə, peş (çapıq)

yerinə, yaxa və qol kəsiklərinin ətrafına xəz qoyulurdu. Kürdü yarımqol tikildikdə eşmək adlanırdı. Bəzən kürdünü sırıqlı formasında da tikirdilər. Onun üçün parçanın üstünə yun döşənir, astar tikili və ətraflara xız qoyularaq sırınırdı. Xəzin ətrafı isə baftaya tutulurdu. Qarabağ kürdüsü bədəbə kip yapışır, qolsuz tikilir, xəz və baftadan başqa heç bir bəzəyi olmurdu. Gəncədə isə dəridən hazırlanan kürdünü qollarına və kar tikişlərinə əlavə xəz qoyulmurdu. Dirsəyə qədər qolu olan kürdü (eşmək) yaxası açıq olur, qoltuqaltına çapıq (peş əlavə edilirdi).

Muğan bölgəsində kürdünün bu **növü calıq (yəl)** adlanırdı. "Gövdəsi iki hissədən biçilən yəlin (canlığın) qabaq və arxa tərəfləri bütöv olub, ətəyi qurşağa qədər uzanırdı. Onun yaxa kəsiyi ətəyə qədər davam edərək təxminən 2-3 düymə (bu bəzən gümüşdən kəsilmiş "qoza" olardı ) ilə düymələnirdi. Qırmızı və yaşıl məxmərdən, pambıq parçlardan biçilib-tikilən yəlin qol yerinə, yaxası və ətəyinə xəz qoyulurdu". [74]

Kürdü (eşmək) və **katıvı (və ya katibi)** tipli qadın üst geyimləri çox böyük oxşarlıq təşkil edirdi. Etnoqrafik ədəbiyyatda, bir qayda olaraq, onları eyni geyim tipi kimi təqdim edirlər. Lakin bununla belə Borçalı bölgəsinin katıvı tipli qadın geyimləri Azərbaycanın digər bölgələrində mövcud olan və kürdüyə bənzəyən katıvılardan kəskin fərqlənir. Borçalının Kəpənəkçi və Qaracalar kəndlərindən Gürcüstan Dövlət Muzeyinin fonduna verilmiş katıvılar atmaqol və yarımqol olmaqla, hər ikisi uzunətəklidir. Maraqlıdır ki, Qaracalar katıvısı "katubu" kimi verilmiş, yuxarı yaxa kəsiyi istisana olmaqla qol, ətək və aşağı yaxa kəsiyi xəzlə işlənmişdir. Kəpənəkçi katıvısının isə ancaq yuxarı kəsiyi xəzə tutulmuşdur. [75] Xatırladaq ki, Azərbaycanın digər etnoqrafik bölgələrində əhalinin istifadəsində olan katıvı tipli qadın üst geyimi qolsuz tikilmiş, kürdü kimi ətəyi, qol və yaxa kəsiyi xəzə tutulmuşdur. Onu əsasən tafta, məxmər, tirmə, bəzən də mahud və şaldan astarlı tikirdilər. Bu geyim növü Cənubi Qafqazda geniş yayılmışdır. Biçim üslubu və tikiş tərzinə görə, azərbaycanlı və erməni katıvıları [76] bir-birinə bənzəsələr də, gürcü katıvıları onlardan kəskin surətdə fərqlənirdi. Belə ki, gürcü katıvısının uzunluğu dizə qədər çatır,

eyni uzunluqda olan qollar atma olur, yaxasına dekorativ bəzək məqsədilə iri düymələr bənd edilirdi. [77]

Qadın üst geyimləri arasında çəpkənlə tipoloji oxşarlıq təşkil edən, ancaq qolunun biçiminə və ətəyinin uzunluğuna görə ondan fəqlənən **küləcə** Azərbaycanın Gəncəbasar, Borçalı, Naxçıvan, Şirvan, İrəvan və Qərb bölgələrində boğçalıq (bayramlıq) geyim dəstinin mühüm tərkib hissəsi olmuşdur. Onu varlılar xara, darayı, qanovuz, atlas, məxmət, tafta və s.-dən, yoxsullar isə ucuz pambıq parçlardan astarlı tikirdilər. Küləcənin yaxa kəsiyi oval formada biçilir, yaxası boyvəboy açıq olur və qolları, bir qayda olaraq, düzdəmə tikilərək ensiz bilərziklə tamamlanırdı. Bəzən bilərziksiz (məcəsiz) tikilən küləcə qollarının ağzına zərli saplarla "qıyı" tikilirdi. Ətəyinə gəldikdə isə çərkəzidən fərqli olaraq, ətək xeyli uzun tikilir, dizə qədər bədəbi örtürdü. İki qabaq (döş), bir arxa (kürək), iri qol və ətəkdən ibarət tikilən küləcə, ayrı-ayrı hissələrin bir-birinə tikilməsi ilə hazırlanır, qoltuğunun altına kvadrat formalı yarıq qoyulurdu. Küləcə qurşaq yerində xırda düymə və çarpaz vasitəsilə bağlanırdı. Bel nahiyəsinə qədər bədəni kip tutan küləcənin uzun ətəyi gövdəyə büzmə edilərək birləşdirildiyindən, çox vaxt əhali arasında "büzmə" də deyilirdi. Küləcənin bəzək elementləri olduqca zəngin idi. İmkanlı qadınlar üst tumanın ətək bəzəkləri ilə küləcənin bəzək elementlərinin həmahəng olmasına olmasına xüsusi diqqət verirdilər. Küləcənin yaxası, bel kəsikləri, ətəyi, qolllarının ağzı tikmə sənətinin o dövrü üçün son nailliyyət hesab olunan gülbətin, muncuqlu pilək, məlilə tikmə, zəncirə, bafta, sərmə, qaragöz, buta, pilәkli doldurma və düzmə, örtmə və s. ilə işlənirdi. Bəzək elementlərinin sayının çoxluğunu, əlvanlılığını üstündə baharı xatırladan gül-çiçək təsvirlərinin zənginliyinni nəzərə alaraq küləcənin "gülücə" sözündən əmələ gəldiyini söyləmək mümükündür. [78]

Naxçıvan küləcələri qanovuzdan, tirmədən və məxmərdən tikilir, yanları və qoltuqaltlarının altı (xişdəkli) saxlanılırdı. Ətək və ya yaxa nahiyələrini əldə səliqə ilə toxuyun oraya tikirdilər. Bu nahiyələrə "zəncirə" deyilirdi. Bəzən küləcənin üstündəki güllər badam formasında olduğu üçün ona "badamı küləcə" deyirdilər. İmknalılar küləcəyə hər tərəfdə 6 ədəd olmaqla, 12 qızıl düymə qoyurdular ki, bunların da hər

birinin ağırlığı 45 qrama çatırdı. Düymələrin üstü oval və naxışlı olurdu.

Küləcənin digər bir variantı Azərbaycanın Gənc-Qarabağ, Lənkəran-Astara, Bakı və b. bölgələrində **"baharı"** adı ilə məlum olan geyim tipi olmuşdur. Biçim üsuluna və tikiş texnikasına görə küləcə ilə eyni olan baharı bəzən yaxa kəsiyinin quruluşuna (düzbucaqlı və oval), qol kəsiyiniə (adətən yarımqol olurdu) və ətək biçiminə görə (ətək küləcədən qısa, arxalıqdan isə uzun olurdu) fərqlənirdi. Astarlı və sırıqlı olan baharı bahalı parçalardan (məxmər, atlas, darayı) hazırlanır, yaxası boyvəboy açıq biçilir, ətək yanları, yaxa və qol kəsikləri küləcədə olduğu kimi bəzədilirdi.

Bütün bu geyimlərlə yanaşı, Azərbaycan qadınları ilin soyuq vaxtlarında kürdüyə bənzəyən, lakin, xəz qoyulmadan tikilən qolsuz və sırıqlı-astarlı bir geyim tipindən də istifadə edirdilər ki, buna Qərb bölgəsində **içlik** (işdik, zıvın), Şəki-Zaqatala bölgəsində- "döşlük", Quba-Xaçmaz bölgəsində "candonu", Lənkəran-Astara və Naxçıvan bölgələrində "cilitka", "bədənçə", "qolsuz", eləcə də "pambıqlı", "sırıqlı" və "canlıq" və s. deyirdilər. Astarına pambıq və ya yun döşənib sırınmaqla hazırlanan bu geyim növü köynəyin üstündən, çəpkən, arxalıq, küləcə, baharı və s. isə altından geyilirdi.

Qışı sərt keçən etnoqrafik bölgələrdə qadınlar bellərini isti yun və dəvəyunu şal vasitəsilə sarıyırdılar. Keçən əsrdə bəzi bölgələrdə (Zaqatala), yaşlı qadınlar bellərini qurşaqla da bağlayırdılar. Lənkəran-Astara bölgəsində hələ indiyədək yay ayalarında qadınlar bellərini üçkünc qatlanmış yaylıqla bağlayırdlar. Yaylıq kəmər yerində düyünlənir, onun üçkünc qatlanmış tərəfi də arxada qalırdı.

XX yüzilliyin 20-30-cu illərindən başlayaraq ənənəvi qadın geyim kompleksi əsaslı dəyişikliyə məruz qalmış, fabrik istehsalı olan yerli, rus və avropa libaslarının (qofta, kostyum, palto, plaş və s.) xalq məişətinə sürətlə daxil olması hesabını geyim fondu büsbütün yenilənmişdir. Əhalinin mədəni həyat səviyyəsinin yüksəlməsi, yeni geyim tiplərinə maraq milli geyimlərin məişətimizdə mühafizə olunmasına imkan verməmişdir. Bununla belə, xalq arasında yayılmış geniş inama görə, vəfat etmiş ailə üzvlərinin paltarlarını (onlar "barata və ya "sovxa" adlanırdı") yuyucuya (mürdəşirə) verilməklə, ya da

evdən kənar bir yerdə torpağa basdırılmaqla yad (bəd) ruhları kənarlaşdırmaq mümkün idi. Zənnimizcə, milli geyimlərimizin məişətdə mühafizə olunmamasına başlıca səbəb elə bu zərərəli inam və adət olmuşdur. Vaxtilə Azərbaycanın qadın geyim kompleksinin üzvi tərkib hissəsi olmuş geyimlərlə indi biz muzey salonlarında, milli rəqslərimizi ifa edən rəqqasələrin əyinlərində, bayram və el şənliklərində rastlaşırıq.

**Baş geyimləri**. XIX-XX yüzilliyin əvvəllərində istifadə edilən Azərbaycan baş qadın geyimləri öz mühafizəkarlığı ilə digər geyim tiplərindən daha çox seçilir. Keçən əsrlərdə Azərbaycan qadınlarının sosial-iqtisadi vəziyyətini əks etdirən xeyli baş geyim tipi mövcud olmuşdur. Şərq aləmində qadınların nəinki yanında, hətta evdə belə başıaçıq gəzməyi qəbahət hesab olunduğundan, baş geyim tiplərinin çoxluğu və müxtəlifliyi də görünür, bu mülahizlərdən irəli gəlmişdir.



Qadın baş geyimləri qeymə (qoyma) və bağlama ( örtmə) olmaqla iki qrupa bölünürdü. Birinci qrup baş geyimlərinə təsək (çəpçik), çutqu, araqçın, dingə, ikinci qrup baş geyimlərinə isə müxtəlif ölçülü və adlı ləçəklər, çalmalar, kəlağıyalar, şallar, örpəklər, eləcə də niqab, rübənd, çutquqabağı, çadar, çarşab, duvaq və s. aid idi.

**Təsək** (çəpçik) tipli qadın baş geyimləri XIX-XX yüzilliyin əvvəllərində Azəbaycanın Gəncəbasar, Şirvan, Qarabağ, Şəki-Zaqatala və Qərb bölgələri üçün daha xarakterik olmuşdur. Qərb bölgəsində qadın təsəklərinin biçim üsuluna, formasına, başa geyilmə tərzinə və parça materialına görə fərqlənən üçü növü (saya, qaysava və inci təsəkələr) qeydə alınımışdır.



Araqçın

Saya təsək ağa və ya rəngli pambıq

parçadan kəsmə biçim üsulu ilə hazırlanırdı. İki yan (qulaqcıq) və kəlləlikdən ibarət olan təsək tər üzünə tikildikdən sonra çevrilir və tikişlər içəridə qalırdı. Təsəyi başa elə geyirdilər ki, o, həm boyun ardını, həm də qulaqların üstünü örtür, xüsusi əndazə üsulu ilə düzəldilmiş burma və birçəkləri möhkəm saxlayırdı. Başda möhkəm durması üçün təsəyin sağ qulaqcığına ucu ilgəkli qaytan (qatma) tikilir, çənənin altından keçirilərək sol qulaqcığa bəd edilmiş düyməyə bağlanırdı. Başın əmgək hissəsində dayanan təsəyin "alınlığı" na müstəlif rəngli saplarla bəzək də vurulurdu. Saya təsəyin daha mükəmməl forması "inci" və "qaysava" adlanan üstü bəzəkli təsəklər (araqçın) idi. [79] "İnci təsək", bir qayda olaraq, yekrəng ipək parçadan tikilir, yan dairəsinə və mərkəzinə "buta", "sarma", "güləbətin", "ulduz", "əşrəfi"və s. bəzəklər tikilirdi. "İncə təsəy"in alın dövrəsinə üstü baftalı bəzəklərlə örtülmüş "qəfəsə" adlanan qabaqlar tutulurdu.


Dingə qadın baş geyimi

"Qaysava" təsəyin də üstü müxtəlif naxışlarla "işlənilirdi". Bir qayda olaraq, qırmızı və ya yaşıl məxmərdən tikilən "qaysava" təsəyin yanları ensiz, tərki isə yastı olurdu. "Qaysava" təsəyə gənclərin, xüsusilə də gəlin köçən qızların geyim dəstində tez-tez təsadüf etmək olardı. Buna görə də belə təsəyin qız üçün gələn nişan boğçası içərisində olması vacib şərt sayılırdı. "Qaysava" təsək müxtəlif asma və tikmə bəzəklərlə zəngin olurdu. Adətən, dingəyə bağlanan üzəri gümüş, bəzən də üzəri pullu bəzək bu təsəyin qabağına bənd edilirdi. Hərəkət və rəqs zamanı bu bəzəklər, həmçinin sağ hörüyün uclarına bənd edilən qumroylar (zınqırov) xoşanəhg cingiltili səslər yaradırdı. [80] Şəki-Zaqatala bölgəsində saya təsəyin bir variantı "düyməçə" adlanan baş geyimi olmuşdur. Lakin saya təsəkdən fərqli olaraq, onun arxa hissəsi əlvan naxışlarla bəzədilir, boğazın altında keçirilən ucu qozalı gümüş zəncir əks tərəfdə gümüş pul-düyməyə bağlanırdı. Zəncirin də üzərinə gümüş pullar düzmək dəb idi. **"Düyməçə"** tipli qadın baş geyimləri Dağıstan və İran da geniş yayılmışdır. [81]

Şirvan təskləri "araqçın" saya və ya nadir hallarda güllü parçalardan, "baş platar" təsəkləri isə bahalı şax parçalardan, xüsusilə

də qırmızı və ya yaşıl mərmərdən tikilirdi. Saçların “cığa”, “birçəyi” üstündə telbasan rolunu oyanayan “təsəyin üzərində simmetrik vəziyyətdə 4 ədəd buta, onun mərkəzinə isə “ulduz” və “əşrəfi” tikilir, yanları müxtəlif rəngli ipək sapla “badamı” və “təsbehi ” tikişlərlə bəzədilirdi”. [82]



Muğan qadınları məxmər və tirmədən tikilmiş, alçaq, girdə, qabağı baftalı və sərməli araqçın geyərdilər. Bəzən kartondan özül düzəldir, üstünə məxmər və ya ipək parça çəkir, onun da üzərinə balıqbeli adlanan gümüş pərəklər düzərək araqçın hazırlayırdılar. Araqçın bəzəklərində bəzən güləbətin naxışlardan da istifadə edilirdi. [83]

Gəncəbasarın büzməli təsəkləri və ya çəpçikləri tikilərkən 38-40 sm ölçüdə ağ parça götürülürdü. Onu iki hissəyə qatlayıb kənarlarını tikirdilər. Torbanı xatırladan həmin düzbucalqının açıq tərəfini sapla büzüb bir yerə yığdıqdan sonra bu büzüyün üstünə əlavə parça kəsib tikirdilər. Çəpçiyin qulaqcıqlarının ucu 10-15 sm.uzunluğunda parçadan hazırlanmış lentvari iplə-bağlı qurtarırdı. Bağın uclarını çənənin altına bağlayırdılar. Çəpçikdən ən çox yaşlı qadınlar istifadə edirdilər. [84]



Qadın baş geyimləri

Naxçıvan bölgəsində “aygün”, “ulduz”, “buta”, “qönçəçiçək”, “zəncirə” və s. bəzəklər salınmış araqçınlara üstünlük verilirdi. Bundan başqa, iynə ilə rəngbərəng saplardan salınmış tikmə zərli naxışlardan, “bababörkü” (çobanyastığına bənzər) , yanlara salınan və tərsinə toxunma üsulu ilə başa gələn naxışlardan “merişka”, eləcə də pilək düzgüsü araqçın bəzəklərindən geniş istifadə olunurdu. Araqçını başda çəngəlli çənəbənd vasitəsi ilə saxlayırdılar.

Varlılarda büsbütün belə çəngəlli çənəbənd imkansız ailələrdə ucuna mis çəngəldən bağlanmış qaytandan ibarət hazırlanırdı. Naxçıvan qadınları araqçının üstündən “bağdadı kəlayağı” salardılar.

Geymə (qoyma) tipli qadın baş geyimlərindən bir də **“çutqu”** idi. Azərbaycanın şimal və şimal-şərq bölgələrində geniş yayılmış bu geyim tipi qadının saçlarını və hörüklərini içərisinə qabqardığı ayağı açıq torbanı xatırladır, həm gigiyenik, həm də əməli mahiyyət



daşımaqla, qadın görkəminə xüsusi gözəllik verirdi. Başa çutqu bağladıqda, təsək qoyulmazdı. Çutqunun həm gündəlik, həm də bayramlıq növləri olurdu. Düzbucaqlı formada biçilib-tikilən çutqunun eni 20-30 sm, uzunluğu isə 50-60 sm olurdu. Astarlı tikilən çutqunun başa geyilən hissədə tikişi 15-18 sm ölçüdə aıq saxlanılırdı ki, geymək asan olsun. Ayaq hissəsi saçaqlı (bürçümlü) hazırlanır, baş hissədə isə kəmçiklərinə qotazlı qaytan bağlanılırdı. Bir qayda olaraq, saçlara (hörüklərə) geyilən çutqunun qaytanları ya boğazın altında, ya da alında başa bağlanırdı. Alının üstündən çutqunun görünən hissəsinə “çutquqabağı” tutulurdu. Adətən, çutquqabağı məxmər və tafta ilə, eləcə də gümüş və qızıl kəsmə bəzəklərlə işlənirdi. Bayramlıq qadın çutqusu bahalı ipək parçlardan hazırlanır, rəng parlaqlığı ilə (qırmızı, yaşıl, sarı, göy və s.) seçilirdi. Şəki etnoqrafik bölgəsində, Qax rayonun azərbaycanlı və saxur əhalisi arasında qadın çutqusu “tülü” adı ilə məlum idi. Çutqunun özü və çutquqabağının bəzək elementləri görünsün deyə, çox zaman onun üstündən zərif işləməli cuna (püstümari cuna, misqalı cuna) çəkər, tor örpək və ya narın toxumalı kəlayağı bağlayardılar.

Geymə (qoyma) tipli qadın baş geyimlərinin bir qisminin də mürəkkəb quruluşlu **“dingə”** və **“çalma”** lar təşkil edirdi. Naxçıvan, Şirvan və Qərb bölgələrində qadın geyim dəstinə daxil edilən dingə

söyüd və ya tənək çubuqlarında hörülmüş, “çənbər” adlanan dingə səbətini üzərinə şal sarımaqla qurulurdu. Başda möhkəm dayanması və əndazəsinin pozulmaması üçün adətən dingəyə qızıl qarmaq bənd edər, üstündən isə örpəklə bağlayardılar. [85]

Naxçıvanda, xüsusilə də Ordubad bölgəsində qadınların geydikləri belə baş papağı-“kərkə” ahıl qadınların geydikləri isə daha arxaik baş geyimi hesab olunan “dingə ” adlanrdı. Kərkə qaytanlarla və kəsmə metal lövhələrlə bəzədilirdi. Dimgənin üzərinə vurulan bəzəklər və zinət şeyləri onun sahibinin maddi vəziyyətini aydın əks etidirirdi. Yoxsul və ortabab ailədən olan qadınların dingəyə vurduqları bəzəklər üzəri gümüş pullu “tetir, ” və “qabaqlıq” dan, həmçinin, yun qarmaqdan ibarət olurdu. Varlılarda isə bütün bunları qızıldan, az miqdarda isə gümüşdən hazırlanmış zinət şeyləri (pərək, aypərək və s.) tamamlayırdı. Şirvan bölgəsində dingə digər bölgələrdən fərqli olaraq çubuqlardan deyil, birbaşa baş şalını dingə səbəti formasında bağlamaqla qurulurdu. Dingə bütün Cənubi Qafqaz üçün xarakterik baş geyimi olmuşdur.

Dingədən fərqli olaraq, çalma başa təsək qoyulduqdan sonra onun üstündən bağlanırdı. Şalmanı başa müxtəlif üsullarla bağlayırdılar. [86] Adətən ipək yaylığı qıyqac (üçkünc) edərək başa salır, sonra onun qulaqlarını: sağ qulağı sol çiyin, sol qulağı isə sağ çiyin üstündən aşırmaqla, boynun arxasında çarpazlayıb qabağa gətirir və yenidən çənənin altında çalkeçir etdikdən sonra boyunun arxasında düyünləyirdilər. Çalma bağlamanı digər bir üsulunda isə başa salınmış yaylığın uclarını boğazın altından çalkeçir etdikdən sonra bir ucunu sinə üstünə sərbəst buraxır, digər bir ucunu isə boyuna dolayıb kürəyə atırdılar. Çox vaxt çalmanın sərbəst ucu yaşmaq rolunu oynayırdı. Şalmanı başda möhkəm saxlamaq və yaraşıqlı görünməsini təmin etmək üçün, bir qayda olaraq, ərli qadınlar onun üstündən qarmaq vururdular. Azərbaycanın bir çox bölgələrində (Qarabağ, Lənkəran-Astara, Quba-Xaçmaz, Naxçıvan və s. ) çalmanı başda saxlamaq üçün onun üstündən başın dairəsi boyunca kiçik ləçək bağlamaq adət idi. Dərbənd azərbaycanlıları arasında “burma” adlanan çalma, bütün etnoqrafik bölgələrimiz üçün xarakterik olan qadın baş geyimi olmuşdur. Gənc qadınlar çalmanın üstündən “heratı”, “hələbi”, “qonşuçatladan” , “gülvəngi”, “bağdadı” və s. kimi əlvan rəngli kəlayağı bağlayırdılar.

Yaşlı qadınlar isə tünd rəngli çalmaya üstünlük verərdilər. XIX yüzilliyin 60-cı illərində Qazax qəzasında olmuş məşhur rus rəssamı V.V.Vereşagin burada başına çalma bağlamış ahıl və gənc qazaxlı qadının rəsmini çəkmişdir. [87]

Azərbaycan qadınlarının örtmə (bağlama) baş geyimlərinin bir qismini **kəlayağı** təşkil edirdi. Burada yaşa və zövqə uyğun olaraq qırmızı, ağ, palıdı yerli , yelənli kəlağayılar daha geniş yayılmışdı. Həm yerli kustar istehsala məxsus Gəncə, Şəki, Şamaxı, Basqal kəlağayılar, həm də gətirilmə kəlağayılar ("Şamaxı", "kolxana", "korxana", "qonşuçatladan", "saçaqlı kəlağayı", "bağdadı", "heratı", "hələbi" və s.) varlı qadınlarının gündəlik geyim dəstində, yoxsulların isə bayramlq (boğçalıq) paltarları içərisində əsas yer tutudu. Adətən, təsəyin və ya çalmanın üstündən örtülən kəlağayının baça bağlamaq üçün onu diaqnol boyunca qırqac edir, uclarından birini sinə üstünə sərbəst buraxıb, digər ucunu sərbəst qalan qanadın üstündən kürəyə atırdılar. Kəlağayın kürəyə atılan qanadından yaşmaq kimi də istifadə edilirdi.

Qadın baş geyimləri içərisində kustar üsulla toxunulan və fabrik istehsalı olan **örpəklər** də məxsusi yer tuturdu. Şirvanda belə örpəklərin "sərəndaz", "naz-nazı", "bəlalə", "xaralı", "alafa", "bənarə"; Lənkəran-Astara bölgəsində "Qaragilə", "Paxlava", "Yusif-Züleyxa", "Zəkiyyə"; Quba-Xaçmazda "Zəkəriyyə"; Naxçıvanda isə "torskin", "zərli örpək", "Bağdadı örpək" və s. kimi növləri geniş istifadə olunmuşdur.

Bəzən başa təsək qoyulduqdan sonra onun üstündən **ləçək** (çəki) adlanan kiçik yaylıq bağlayırdılar. Ən geniş yayılmış ləçək bağlama və ya baş çəkmə üsulu bundan ibarət idi ki, başa qıyqacı (üçkünc) salınmış yaylığın ucları boynun arxasında bir dəfə düyünlənəndən sonra uclarını qulaqlarının üstündən gətirib alında düyünləyirdilər. Etnoqrafik materiallardan aydın olur ki, XIX yüzillikdə Azərbaycan bölgələrində qadın ləçəklərinin müxtəlif növlərindən (qaşbənd, qıyqac, çikilə, xınabənd, pelandı, qıymaça və s.) istifadə olunurdu.

Mövsümdən asılı olaraq istifadə olunan qadın baş şalı (şəddə) kustar üsulla yerli karxanalarda toxunurdu. Kvadratşəkilli toxunan şəddənin kənarları, adətən, saçaqlı olurdu. Mənbələrin birində XIX

yüzilliyin 80-ci illərində Qazax qəzasında 500 ədədə qədər yun şal toxunduğu qeyd olunur. [88] Onu soyuq havalardan evdən çıxarkən başa örtürdülər. Bundan başqa dağ kəndlərində yaşayan əhaliyə dəvə yunudan toxunmuş baş çalı da yaxı tanış idi. Lakin o, baha qiymətləndirildiyindən geniş yayılmamışdı. Azərbaycanda istehsal olunmayan belə baş şalını bazarlarla sıx əlaqə saxlayan varlıların qadınları örtürdü.

XIX yüzillikdə şəhər mühitində yaşayan qadınların geyim dəstində **çadra** (çarşab) mühüm yer tuturdu. Evdən çıxarkən geyilən çadra bədəni topuğa qədər bürüyürdü. Abşeron, Muğan, Talış və Naxçıvan bölgələrinin kəndləri istisna olmaqla, çadra kəndli məişəti üçün o qədər də xarakterik deyildi. Kiçik Qafqazın şimal-şərq və mərkəzi bölgələrinin əhalisi arasında mövcud olan qaydaya görə, ərə gedən qızı, müəyyən müddət keçdikdən sonra, əsri ilə birlikdə ata ocağına qonaq çağıranda ata tərfindən ona çadra (çarşab) bağışlanırdı. Buna görə də, nişanlı qıza göndərilən toy-nişan hədiyyələri arasına heç vaxt çadralıq parça qoyulmazdı. [89] Kəndli qadınlar əsasən baş şalının boyuna dolana qanadı ilə ağız və burunun ucuna yaşmaq alırdılar. Muğan bölgəsində bu məqsədlə boyuna, dörd qatlanıb dolanan ayrıca şaldan da istifadə edilirdi.

Etnik mənsubiyyətinin, etnik düçüncə tərzinin və Şərq xaqlarına məxsus ailə məişətinin formlaşdığı, eləcə də müsəlman şəriət normalarının qoyduğu qadağaların tüğyan etdiyi XIX əsr Azərbaycanında yaşmaq və çadra (çarşab) qadın hüquqsuzluğunun təsdiqi demək idi. Yəni "yaşmaqla qadının ağzının bağlanılması elə bir daimi xatırlatma əlaməti idi ki, qadını naməhrəm kişi görməməlidir ". [90]

Biçim tərzinə və tikiş texnikasına görə Azərbaycanda şadranın (çarşabın) iki forması – (yarımdairəvi-oval və düzbucaqlı) geniş yayılmışdır. Lənkəran-Astara və Naxçıvan bölgələri üçün xarakterik olan yarımdairəvi-oval çarşab başa salındıqdan sonra boğazın altında keçirilən qaytanla bağlanırdı. Ordubad bölgəsində belə çarşab – "yapıncı çarşab" adı ilə məlum idi. Şəki-Zaqatala, Abşeron, Qarabağ və Naxçıvan, xüsusilə də Ordubad etnoqraik bölgələlərində düzbucaqlı biçimli çadraya (çarşaba) üstünlük verilirdi. Ordubadda əsasən

düzbucaqlı biçimli "məfrəş çarşab" lar daha istifadə olunmuşdur. Xalq arasında onlar "qutu çarşab" , "madam məfrəş" və "keci məfrəş" kimi tanınırdı. Madam məfrəşini yanlarına məngulə, zəncirə və güləbətin düzülürdü. İkiqat hazırlanan məfrəşin orta tərəfindən güləbətin bəndləri olurdu. (yerliyi palıdı, xırda kvadratları qara rəngdə olan madam məfrəşin bir nümunəsi ordubad rayonu, Vənənd kənd sakini 75 yaşlı Xalidə Məmmədalı qızı Muradovanın şəxsi geyim kolleksiyasında indi də saxlanılır).

Keci məfrəşin isə yerliyi qara və göy, üstününün damaları isə ağ kvadrat və rombşəkilli olurdu. Onu, bir qayda olaraq, yaşlı qadınlar örtürdülər. Adətən, mərhumun son mənzilə yola salanda da onu keci məfrəşə bükürdülər.

Naxçıvanın düzbucaqlı biçimli çarşabı qarşı-qarşıya açılan iri ilgəklər vasitəsilə boğazın altında bağlanırdı. Çadranı örtərkən kəmər yerində olan deşiyindən keçirilmiş qaytanı çəkərək boğazın altındakı ilgəyə bənd edirdilər. Ağ, boz, qara, göy, palıdı rəngli bahalı və ucuz ipək, pambıq-parça materiallarından hazırlanan çadra Ön Asiya, ərəb ölkələri və Azərbaycanda şəhərli geyimi kimi mövcud olmuşdur. Onları Şamxı, Basqal, Mücü, Şəki, Gəncə və Şuşa kimi sənət istehsalı mərkəzlərində hazırlayırdılar.

Qadın çarşabının rənginə görə, onun sahibinin yaşını, sosial-iqtisadi vəziyyətini müəyyənləşdirmək mümkün idi. Belə ki, cavan yaşlı qadınlara ağ (bəyaz) çarşaba, ahıl-yaşlılar isə tünd rəngli çarşaba üstünlük verirdilər. Hələ XV əsrin əvvəllərində Təbrizdə olmuş İspaniya elçisi Klavixo öz gündəliyində yazırdı ki, Təbriz dükanlarında satılan ətir və boyaları almaq üçün gənc qadınlar özləri gəlirlər. Onlar başdan-ayağa kimi ağ örtüyə bürünmüş şəkildə və gözlərini örtərək yeriyirlər. [91]

XX yüzilliyin 30-50-ci illərindən başlayaraq rübənd, niqab, tor, tül və s. üz örtükləri kimi çarşab (çadra) da qadın geyim dəsti tərkibində çıxmışdır. Lakin bununla belə, Abşeron və Naxçıvan bölgəsi kəndlərində yaşlı qadınların hələ də çadra örtməsinə təsadüf olunmaqdadır.

**Ayaq geyimləri.** XIX-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının ənənəvi ayaq geyimləri corab, badış, çarmıq, şətəl, çust,

nəleyin, məst, lapçın (nafçıl), dabanlı uzunboğaz və yarımboğaz çəkmə, quşkeçən, kəlik və s.-dən ibarət olmuşdur.

Qış aylarında ayaq geyimləri içərisində yundan toxunma corablar əsas yer tuturdu. Adətən, onu saya (rezinli) və bəzəkli (rezinsiz) toxuturdular. Saya corabların boğaz hissəsində 7-8 sm enində rezin toxunurdu. Bunun üçün ilmələri “sülü ”adlanan dörd ədəd corab milinə düzür, sərbəst qalan beşinci sülü ilə toxunma aparılırdı. Hər dəfə ilmələrin bir cərgəsi toxunub başa çatdıqda sülülərdən biri sərbəst qalırdı. Rezin hissə qurtardıqdan sonra ilmələr tərsinə deyil, avandına düzülür və toxuma qurtarana qədər bu qayda ilə davam etdirilir. Corabın ölçüsü hər kəsin ayağı üzərində gözəyarı təyin edilirdi.

Bəzəkli corablarda isə rezin toxunmur, hörmə içi rəngli iplər vasitəsilə aparılırdı. Azərbaycan qadınları coraba bəzək vurmaq işində mahir idilər. Əhali arasında “taxta-müjə”, “ərsin”, “alamuncuq”, “qarğaağzı”, “qoçbuynuzu”, “güllü-xəmsə”, “dəhrəburnu, “cəhrəpəri”, “gəldirgə”, “zəncir”, “göl”, “quyrum” və s. kimi həndəsi, bitki və xalça ornamentləri olan corablar daha geniş yayılmışdı. “Dəhrəburnu” naxışlı corabı toxumaq üçün gülləri (ilmələri) yan-



yana düzür, ilmənin birindən o birinə “sındıra-sındıra” keçməklə hörmə işini davam etdirirdilər. Bəzəkli corabların boğazında adətən, 30-40 sm uzunluğunda yun ip saxlanılırdı ki, bununla corabı baldıra bağlayırdılar. Üzərində xalça ornamentləri salınmış bəzəkli corablar Qarabağda “gəbə corab”, Astara bölgəsində isə “şal corab” adlanırdı. Qış corabları bəzən dizə qədər, əksər hallarda isə dizdən bir qarış aşağıyadək toxunurdu. Azərbaycanın Qərb bölgəsi, Gəncəbasar, Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran, Naxçıvan və b. bölgələrində corab toxuculuğu xarakterik olmuşdur.

Naxçıvan bölgəsində boyanmış ipək saplardan toxunan əlavə naxışlı “keci corablar” da geyilirdi. Adətən belə cirablar ya qız evinin adamları, bəzən də nişanlı qızın özü bəy, onun sağdışı və soldışı üçün

toxuyurdu. Belə corablar yüksək zövqlə toxunar, uzunboğaz olar, tamam naxışlarla bəzədilərdi. Yalnız toy günü geyilən belə corablar toydan sonra da uzun müddət yadigar kimi saxlanılır, qıyılıb geyilməzdi.



Ənənəvi xalq geyimlərindən bir də **badış** idi. O, ayaqlığı olmayan corab kimi toxunur, topuqdan yuxarı və dizdən aşağı qatma ilə baldıra bağlanırdı. Badışı həm qadınlar həm də kişilər geyirdilər. Əsasən köçmə maldarlıq məşğul olan əhali arasında bu geyim növü daha geniş yayılmışdı. Qadınlar dağ və aran köçü zamanı, həm soyuqdan qorunmaq, həm də sərbəst hərəkət etmək üçün taylı tumanın balaqlarının badışın içərisinə yığırdılar.

Ev şəraitində Şirvan, Şəki-Zaqatala və Quba-Xaçmaz bölgəsinin azərbaycanlı, tat və ləzgi qadınları **“şətəl”** adlanan gödəkboğaz, hörmə, toxunma ayaqqabı geyirdilər. Qalın yun iplərdən toxunan belə ayaq geyimlərinin altına keçədən və ya aşılanmış dəridən altlıq salınırdı. Qalın pəncəli şətəlin burnu şiş olub, yuxarı qatlanmış formada toxunurdu.

XIX yüzillikdə daha xaraterik qadın aya geyimi növü **başmaq** olmuşdur. Arxası açıq, hündür dabanlı, pəncə üstü müxtəlif rəngli müşkü və tumacdan, altlığı isə aşılanmış göndən hazırlanan qadın başmaqları “zənanə”, “miyanə” və “qız başmağı” olmaqla üç ölçüdə tikilir, sifarişdən asılı olaraq yüksək zövq ilə bəzədilirdi. Uc hissəsi yuxarı qatlanmış formada tiklilən belə başmaqlar, ayaqda gözəl görünsün deyə, əlvan saplarla və qızılı simlərlə tikilir, daban oturcağına əlvan parçlardan “döşəmə” qoyulurdu. Varlılarda başmağın daban hissəsi gümüşdənvə ya qızıldan kəsilən lövhəyə tutulur, ətrafına bəzəklər, (naxışlar) salınırdı. Başmağın pəncə üstü qalın qalın parçadan (məxmərdən) tikildikdə, onun üzərini güləbətin tikmə ilə bəzəyirdilər. Azərbaycanın Bakı, Şamaxı, Şuşa, Gəncə, Şəki və Naxçıvan (Ordubad) kimi iri sənətkarlıq mərkəzləri başmaq hazırlanmasında məşhurlaşmışdılar.

Azərbyacan şəhərlərində başmaq ustalarının say göstəricisi də bu sənət sahələrini inkişafını təsdiqləyir. Belə ki, XIX yüzilliyin 30-cu

illərində Azərbaycan şəhərlərində 327 başmaqçı işləyirdisə, əsrin oratalarında onların sayı 579 nəfərə çatmışdı. Başmaqçılığın Şamaxı mərkəzində bu dövrdə 227, Nuxa (Şəki) mərkəzində isə 147 nəfər başmaqçı işləyirdi. [92] Səriştəli başmaq ustalarının hazırladığı başmaqlar çox zaman istehsal olunduğu sənət mərkəzinin adı ilə tanınırdı: Gəncə başmağı, Qala başmağı, Ordubad başmağı, Şirvan başmağı və s. Naxçıvanda mövcud olan üç bazar meydanından biri məhz "Başmaqçı meydanı" adlanırdı. Ordubadın yaşlı sakinləri indi də başmaqçı Ələkbərin yüksək zövqlə hazırdığı başmaqlarını (çəpiş başmaq) yaxşı xatırlayırlar. İmkanlı ailələr "sağrı başmağ"a daha çox üstünlük verirdilər.

Naxçıvan və Qərb bölgələrində geniş istifadə olunan qadın ayaq geyimlərindən biridə **"quşkeçən"** idi. Onun dabanı hüdür olduğuna görə, çox güman ki, bnelə adlandırılırdı. Naxçıvan quşkeçənləri zərif aşılanmış dəridən üzlənir, üstünə muncuq düzülür, qatma (qaytan) ilə bağlanır, burun hissəsi enli olurdu.

El şənliklərində, toylarda dikdaban (quşkeçən) geyən qızlara gözaltı axtaran oğlanlar tərəfindən müştəri gözü ilə baxılardı. Naxçıvan toylarında oxunan el mahnılarının birində deyilirdi:

Gəl gedək beləsinə,
Sarvanlar məhləsinə,
Axtarıb tapammasaq,
Od vuraq məhləsinə.
Ay sarı yaylıq, sarı kofta, badamı çittuman,
Yandırıb yaxar adamı dikdaban.

Adətən, quşkeçən ayaqqabıları nişanlı qızlara bayram və toy hədiyyəsi kimi aparırdılar. Ümumiyyətlə, XIX yüzillikdə Azərbaycanda gəlin köçməli olan hər bir nişanlı qıza oğlan evi tərəfindən gönədirilən nişan (toy) libası içərisində bir neçə cüt başmağın, uzunboğaz çəkmə və quşkeçənin olması vacib hesab olunurdu. [93]

Qərb bölgəsində quşkeçən, uzunboğaz və yarımboğaz, hündürdabanlı çəkmə növünə deyilirdi. Belə çəkmələrin üstü bəzən

safyandan, bəzən də tumac və meçindən tikilir, müxtəlif tikmə naxışlarla bəzədilirdi.

Əhali arasında Şirvanın "qaytarmaburun", Gəncəbasarın isə yanları hörmə rezinli və ya adi aşılanmış göndən tikilmiş alçaqdabanlı, uzunboğaz çəkmələri geniş istifadə olunmuşdur. Bir qayda olaraq, boğazlığı qırmız, ayaqlığı isə yaşıl. Qara, göy rəngli dərindən hazırlanan belə ayaq geyimi özünün formasına, materialına, tikilmə tərzinə görə Kazan tatarları arasında "içeki" adı ilə məhşur olan dabanlı, üstü tikmə naxışlarla bəzədilmiş qadın çəkmələri ilə tipoloji oxşarlıq təşkil edir. [94]

Təsərrüfat işləri zamanı qadınlar corab və badışın üstündən **çarıq** da geyirdilər. Qadın və kişi çarıqlarının tikilmə tərzi və materialları arasında heç bir fərq olmasa da, qadın çarığı ölçüsünün kiçikliyinə görə seçilirdi. [95]

Ev şəraitində geyilən ayaqqabılar içərisində nisbətən yumşaq dəridən hazırlanan **"məst"** yüngül geyim növü olub, başlıca olaraq qara, qırmızı, tünd göy, yaşıl rəngli safyandan və tumacdan dabansız tikilirdi. **"Çust"** isə həm şəhər həm də kənd qadınlarının başmağa nisbətən üstünlük verdikləri ayaq geyimi idi. Onun altı aşılanmış göndən, üstü isə müşkü və tumacdan hazırlanırdı. Çust, bəhs olunan dövrdə həm qadın həm də kişi ayaq geyimi olmuşdur.

Şəhərli qadınlar ev şəraitində daha çox **nəleyin və kəlik** geyməyə üstünlük verirdilər. Digər ayaqqabı növlərindən fərqli olaraq, nəleyin və kəliyin dabanı yastı olub, ev işləri görərkən daha rahat hesab edilirdi. İlin isti mövsümlərində imkansız qadınlar həyatin eşik (məişət) bölməsində ev işləri görərkən çox zaman ayaqlarına köhnəlmiş ayaqqabılardan dabanın kəsməklə düzəldilən "şap-şap", "sürütmə", "çəkələk" və s. geyir, toxunma yun corabın altına keçə və ya dəri tikib ayaqqabı düzəldərək istifadə edirdilər. Əksər hallarda isə ayaqyalın gəzməyə üstünlük verilirdi.

XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərindən başlayaraq iqtisadi-ticarət əlaqələrinin güclənməsi, əmtəə itehsalının artması, əhalinin maddi və mədəni həyat səviyyəsinin nisbətən yüksəlməsi ilə əlaqədar olaraq, qadın ayaq geyimlərin də də əsaslı dəyişikliklər baş vermişdir. Fabrik istehsalı mallarının xalq məişətinə kütləvi sürətdə

daxil olması, Rusiya və digər Şərq ölkələri ilə ticarət münasibətlərinin genişlənməsi əhalinin ayaq geyimlərində tufli, səndəl, qaloş və b. geyim növlərinin üstün yer tutmasını zəruri etmişdir.

## KİŞİ GEYİMLƏRİ

XIX-XX yüzilliyin əvvəllərində azərbaycanlıların ənənəvi kişi geyimləri biçim üsuluna və tikiş texnikasına görə Ümumqafqaz səciyyəsi daşınmaqla, yalnız çox da böyük əhəmiyyəti olmayan lokal-məhəlli xüsusiyyətləri ilə seçilirdi. Ənənəvi kişi geyimləri alt (can) və üst köynəyi, dizlik, çalvar, arxalıq, içlik (canlıq, cılıtqa, pambıqlı), çuxa, kürk, yapıncı, eləcə də müxtəlif formalı və adlı baş və ayaq geyimlərindən ibarət idi. XIX yüzilliyin 80-ci illərində Qazax qəzası Salahlı kənd əhalisinin kişi geyimlərindən bəhs edən B.Veniaminov yazırdı ki, onlar çit və ağdan tikilmiş köynək, ipək və onun üstündən tikilmiş yun arxalıq (kəmər və xəncərlə birlikdə), yun və ya mahud çuxa, yun başlıq və mahuddan tikilmiş şalvar, qoyun dərisindən papaq, başmaq. Kürk və yapıncı geyirlər. [96] Bu geyimlər gündəlik (iş paltarı) və boğçalıq (xeyir-şər paltarı) olmaqla iki dəstdən ibarət hazırlanırdı. Boxçalıq paltarlar qoymətli parçalrdan tikilir, geyim elementlərinin çoxluğuna, təzəliyinə və s. görə gündəlik geyimlərdən fərqlənirdi. Burada bir məsələni də qeyd etmək yerinə düşər ki, Azərbaycan etnoqrafiyası elmində ilk dəfə olaraq xalq geyimlərimizin, qeyri-dəqiq olsa da təsnifatını verən görkəmli maarifçi-alim H.Zərdabi olmuşdur. O, azərbaycanlıların geyim dəstlərinin "alt paltarı", "uşaq paltarı", "səfər paltarı" və "yuxu və yatacaq paltarı"ndan ibarət hazırlandığını göstərirdi.

Kişi geyimləri həmçinin, əhalinin sinfi mənsubiyyətində, sosial vəziyyətindən, iqlim şəraitindən, təsərrüfat məşğuliyyətinin istiqamətindən və s. asılı olaraq da bir-birindən fərqlənirdi. Buna işarə edən B.F.Adler yazırdı ki, şəxsin cəmiyyətdəki sosial vəziyyəti geyimlərdə öz əksini tapan xüsusi tələblərlə müşayiət olunurdu. Belə ki, ovçu libası tacir libasına az bənzəyirdi; din xadiminin, şamanın, monarxın geyimləri öz biçim üsuluna və rənginə görə müxətlif olurdu. Böyüklərin, uşaqların və qocalarn da geyimləri eyni olmayıb, şəxsin cəmiyyətdə mövqeyini və yaş xüsusiyyətlərinin tələbləri ödənməli idi. [98] İqlim şəraiti Azərbaycanda mövsümi səciyyəli kişi geyimlərinin (kürk, başlıq, yun corab, yapıncı, ayaq şalı və s.) , sosial mənsubiyyət

isə din xadimlərinin geyimlərinin (əba, qəba, əmmamə, çəltarı və s.) formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir.

**Alt paltarları.** Ənənəvi kişi alt paltarı alt köynəyi ilə dizlikdən (kişi tumanı) ibarət idi. Qeyd etmək lazımdır ki, Azərbaycanın əksər etnoqrafik bölgələrində fabrik istehsalı olan parçaların kəndli məişətinə kütləvi surətdə daxil olduğu zamanadək ayrıca alt və üst köynəyi olmamışdır. Adətən, köhnəlmiş yamaqlı köynəklər altdan, təzə və bahalı parçalardan tikilən köynəklər isə üstdən geynilərdi. Necə geyilməsindən (altdan və ya üstdən) asılı olmayaraq, hər iki köynəyin biçim üsulu və tikiş texnikası eynilik təşkil edirdi.

Kişi **alt köynəyi** bez, qalın ağ, midqal, batist (patısğa), humyun ağı, Tağıyev çiti, satin və s. parçalardan tikilirdi. Tuniki və kəsmə üsulla biçilən belə alt köynəyinin Azərbaycanda “düzyaxa” forması dəbdə olmuşdur. Adından məlum olduğu kimi, düzyaxa köynəyin yaxası düzbiçimli olurdu. Onu tikmək üçün parçanı iki qatlayıb ortadan qövsvari boyun kəsiyi və düzünə yaxa kəsiyi açırdılar. Gövdə, yaxa və qollardan biçilən alt köynəyi tərs üzünə tikilərək hissələr bir-birinə birləşdirilir və avand üzünə çevrilirdi. Tikiş prosesində müxtəlif tikiş növlərindən (“kökməmə” və ya “kökatma”, “basdırma” və ya “qıraqbasma”, “xırdasırıq”, “közəmə” və s.) istifadə edilirdi. Adətən, düzyaxa köynəyin qolları bilərziksiz (məcəsiz) tikilirdi. [99] Ensiz parçalardan tikilmiş köynəyin qollarının altına bir qayda olaraq, xişdək (qoltuqaltı) qoyulur, ətəyinin yanlarında isə 10-12 sm ölçüdə çapıq saxlanılırdı. Yeniyetmələrin və nişanlı oğlanların alt köynəyinin boyunluğu və yaxa kəsimi müxtəlif motivli tikmə naxışlarla bəzədilirdi. Köynəyin yaxası ilgək-düymə, bəzən də rəngli ip-qaytanla bağlanırdı.



Kişi geyimləri (köynəklər, dizlik və şalvar)

Kişi alt paltarının digər bir elementi də **dizlik** idi. Onu midqal, bez, çit, batist və s. parçalardan tikirdilər. Biçim üsuluna gör şalvara bənzəsə də şalvardan fərqli olaraq dizlik bədəni dizə qədər kip tuturdu. Onu bir qayda olaraq iki balaq, nifə və miyançadan(tuman ağı) ibarət dörd hissəni bir-birnə tikməklə hazırayırdılar. Dizliyin qabağı bütöv olduğuna görə, dizliyi hər iki üzünə (arxasını qabağa bə ya əksinə) geymək mümkün idi. Bunun üçün nifənin qabaq və ya arxa tərəfində tumanbağı keçirmək üçün yarıq saxlanırdı. Dizliyin balaqları parça yerinə kvadrat biçimli miyança (xişdək, narvan, tuman ağı) vasitəsilə birləşdirilirdi. Dizlik belə nifədən keçirilən tuman bağı ilə bərkidilirdi.



İçlik



**Üst paltarları.** Forma



müxtəlifliyi, parça materiallarının çeşidi, rəng çalarlarının əlvanlığı, eləcə də azərbaycanlı kişilərin peşə, zümrə (sosial təbəqə) və ya yaş mənsubiyyəti üst geyimlərində daha çox nəzərə çarpan xüsusiyyətlər olmuşdur. XIX-XX yüzilliyin əvvəllərində kişi üst paltarları belə saxlanılan və çiyinə geyilən olmaqla iki qrupa bölünürdü. Birinci qrupa şalvar, ikinci qrupa isə üst köynəyi, içlik, arxalıq, çuxa, kürk, yapıncı və s. daxil idi.

Şalvarı yoxsullar yer hanasında toxunmuş “qılıcı şal”dan, Şirvan şalından (Zarat şalı, Əlvənd şalı), satınalma ləzgi şalından; varlılar isə

mahuddan, mənduladən, diaqonaldan və yekrəng ipək parçalardan tikirdilər. Naxçıvan bölgəsində geniş yayılmış “xəşmə şalvar” zərif parçadan hazırlandığı və əyində qəşəng göründüyü üçün xalq yaradıcılığında tez-tez tərənnüm olunurdu:

Araz qırağında vardı talvarım,
Evdə göy çuxam var, xəşmə şalvarım.

Özünün biçim üsuluna və tikiş texnikasına görə dizlikə eyniyyət təşkil edən şalvar ondan uzun (topuğa qədər) və nisbətən enli olması ilə fərqlənirdi.



Belə şalvarın qabağı bütöv olmaqla bəzən ciblə də təhciz edilirdi. Qara, yaşıl, bənövüş, qırmızı mahuddan, şaldan və ipəkdən tikilən belə şalvarla əhali arasında **“nifəli şalvar”** və ya **“musurmanı şalvar”** kimi məşhur idi. Varlıların geydiyi qabağı yarıq şalvar **“urusu şalvar”** adlanırdı.

“Musurman şalvarı” ın bel yerinə nifə tikilirək oraya tumanbağı keçirildirdi. Tumanbağının uclarında qızılı və gümüşü güləbətin sapdan toxunmuş yaraşıqlı qotazlar olurdu. Arxeoloji qazıntılar zamanı Azərbaycanda tumanbağı toxuyan dəzgahın qalıqlarının tapılması [100] burada əhalinin çox qədimlərdən nifəli şalvarlardan istifadə etdiyini təsdiqləyir. Qaba şaldan tikilmiş şalvarların paça yerinə “ağ” və ya “şalvar ağı” (naravan, miyança) tikilir, yun parça bədəni sürtməsin deyə, pambıq parçalardan astar qoyulurdu. “Musurman şalvarı” ayağı yəni (balağı) toğunun üstündə 10-12 sm ölçüdə çapıqla tamamlanırdı. Buraya rəngli-ip qaytan tikilirdi. Ümumilikdə isə şalvarın balağı geyilən ayaqqabının növündən asılı olaraq və ya ayaqqabının boğazlığına qabqarılır, ya da onun üstündə qalırdı. Zümrə mənsubiyyəti və peşə yönümü müxtəlif ola əhali arasında şalvar balağının hansı şəkildə qalmağında fərqli xüsusiyyətlər vardı. Məsələn, “maldarlıq və qismən də əkinçiliklə məşğul olan kəndlilər şalvarın balağını corab içinə salır və üstündən dolaq çəkirdilər. Xüsusilə də çobanlar dolağı dizə qədər dolayırdılar. Misgər, qabbağ,

dəmirçi, dülgər, həllac,  şarbaf, bafayçı, çərçi, bəzzaz, tacir, çarvadar, habelə ziyalı və ruhani şəxslər şalvarın balağının  açıq qoyurdular. Bu halda ayağa başmaq geyilirdi. Çox vaxt at belində gəzən əsilzadə dövlətli şəxslər  uzunboğaz çəkmə geydiklərindən, şalvarın balağını çəkmənin içinə salırdılar. Varlı gənclər əksər  hallarda yaşıl rəngli ipək parçadan şalvar geyərmişlər. Başmaq geyən gənclərin şalvarının balağı çox vaxt bafta ilə tikilirdi.” [101] Etnoqrafik əbəbiyyatda Şirvan bölgəsinə aid edilən bu xüsusiyyətlər bütün Azərbaycan bölgələri üçün xarakterik hesab edilə bilər.

Dizlik kimi, “musurman şalvar”ın həm qabaq, həm də arxa hissəsində (nifə yerində) tumanbağı keçirmək üçün yarıq qoyulurdu. Bu isə şalvarı hər iki üzünə geyməyə imkan verir və istifadə müddəti uzadırdı. Maddi cəhətdən imkanlı olan şəxslərin iqtisadi durumunun onların şalvarlarının dizlərindən müəyyənləşdirmək olurdu. Belə ki, daha çox ət yeməklərinə (sac qovurması, içalat qovurması və s.)  üstünlük verən maldar elatlar əllərinin yağının şalvarın dizinə çəkib onun işıldadırdılar. Şalvarın dizi yağlaşov olan hər bir kəsin maddi imkanları da yüksək qiymətləndirilirdi.


Yapıncı

XIX-yüzilliyin sonu XX yüzilliyin əvvəllərindən başlayaraq iqtisadi-ticarət əlaqələrinin daha da genişlənməsi ilə əlaqədar olaraq Azərbaycanda qabağı yarıq “urusu” şalavarlar, Aropasayağı biçim tərzli “qalife şalvar” lar də dəbdə olmuşdur.

Özünün biçim üsuluna  və tikiş texnikasına görə kişi alt və üst geyim növləri bir-birindən fərqlənməsə də, rəng əlvalığına, parça materialına, bəzək çeşidlərinə, boyunduruqlu və bilərzikli tikilməsinə görə üst köynəyi fərqli xüsusiyyətlər daşıyırdı. Tunki (qatlama) və kəsmə (doğrama) üsulu ilə biçilən kişi üst köynəklərinin Azərbaycanda “düzyaxa”, “çəpyaxa” və “mindoylu köynək” olmaqla forması xüsusilə geniş yayılmışdı. “Düzyaxa” formalı kişi üst geyim köynəyi eyni formalı alt köynəyinin tam oxşarı idi.

“Çəpyaxa” köyənəyin yaxa kəsiyi, birincidən fərqli olaraq, adətən boğazına sol tərəfindən döşün üstünə doğru açılırdı. Boyunluqlu və kòbəli tikilən belə köynəyin boğazı bir ədəd ilgək-düymə ilə bağlanırdı.



Kişi milli geyim dəsti

“Mindoylu köynək” yaxa kəsiyi çiynində olan köynəyə deyilirdi. Belə köynəyin yaxa kəsiyi sol çiyinin üzərindən qol yerinə kimi uzanır və qaytanla bağlanırdı. [102] Əvvəlki iki köynək formasında fərqli olaraq bu köynəyin bir üstün cəhəti var idi ki, onu istənilən tərəfə geyməklə, uzun müddət istifadə etmək olurdu.

Kişi üst köynəkləri şilə, qədək, çit, fay, qanovuz, atlas, mahud, məxmər və b. parçalardan biçilib tikilirdi. Xüsusilə evlənməyə hazırlaşan gənclərin bəylik köynəkləri zövqlə və yüksək diqqətli biçilib tikilir, boyunluğu, yaxalığı, bilərziyi baftaya tutulurdu. Nazik və zərif ipək parçalardan tikilən nifəli şalvarın ətəyi köynəyin içinə salınır, qalın parçalardan tikilən köynəyin ətəyi isə şalvarın üstündə azad buraxılırdı. Bu zaman hökmən beli qayışla bağlayırdılar. Düzyaxa və çəpyaxa köynəklər azərbaycanın əksər etnoqrafik bölgələri üçün xarakterik olsa da, mindoylu köynək əsasən Gəncəbasar və Qərb bölgələrində daha çox istifadə də olmuşdur. Belə köynəklər kürək, sinə, yaxalıq, boyunluq, qoltuqaltı qol, bilərzik, cib kəsiyi və cib qapağından ibarət biçilib tikilirdi.

Keçmişdə köynəyin üstündən geyilən kiş içliyi (işdik) Azərbaycanın ayrı-ayrı bölgələrinə “canlıq”, “qalınça”, “sarlıqlı”, “pambıqlı”, “cılıtqa”, “can arxalığı” və b. adlarla məlum idi. Onu qədək, şilə, satin, həmçinni əldə toxunma çaladan tikir, içərisinə astar qoyurdular. Adətən, iki sinə və kürək hissələrindən biçilən içliyin uzunluğu qurşağa qədər olurdu. İçliyi tikmək üçün biçilmiş hissələrin üzərinə nazik yun və pambıq qatı döşəyib, astar çəkir və üzlə birilikdə sırıq vururdular. İçliyin yaxası boğaz yerindən aşağı düz biçilərək açıq olur, oraya ilgək-düymə tikilirdi. İçlik əksər hallarda qolsuz olurdu.

Bəzən müstəsan hal olaraq qolcaların və xəstə kişilərin içliyi qollu tikilirdi. Biçim tərzində və tikiş texnikasında böyük oxşarlıq olan kişi içliyi ilə qadın zınıvısı mövsümi səciyyəli geyim tipi kimi istifadə olunurdu.

Milli-ənənəvi kişi geyim kompleksinin təkib hissələrindən biri də **arxalıq** idi. Onu, adətən, soyuq vaxtlarda içliyin üstündən və çuxanın altından, isti mövsümlərdə isə birbaşa köynəyin üstündən geyirdilər. Kişi üstü geyim elementləri kimi arxalıq hələ "Kitabı- Dədə Qorqud" dastanından məlum olur. Dastan qəhrəmanlarının geyimləri içərisində adı çəkilən "qaftan" tipoloji cəhətdən arxalğıa çox yaxındır. Azərbaycanın Abşeron etnoqrafik bölgəsində "don" adlandırılan arxalıq eyni adla, bəzən də "beşmet" , "zepun" adı ilə Şərqi Avropada, Voqaboyu, Qafqaz, Cənubi Qafqaz, Sibir tatarları, qabaq və Orta Asiya xalqları arasında da geniş yayılmışdır. Maraqlıdır ki, biçim üsulu və tikiş texnikasının müxtəlifliyinə baxmayaraq, gürcü, erməni və Dağıstanın bir çox xalqları da bu geyim tipini arxalıq adlandırmışlar. [103]

Etnoqrafik materiallardan məlum olur ki, araşdırılan dövrdə kişi arxalıqları yaxa kəsiyinin quruluşuna görə "döşüaçıq", "önürlü" (çarpaz və ya aşırımlı, döş yaxası iki sıra düyməli) və (düzyaxa və döş yaxası bir sıra düyməli); qollarının biçiminə görə "bütöv, "atmaqol", "qolçaqlı"; ətək quruluşuna görə isə "büzməli" və "çinli"(kəmərçin) olmaqla müxtəlif variantlarda biçilib tikilirdi. Biçmə üsulundan asılı olmayaraq bütün arxalıqlar iki ədəd döş, iki qol, kürək, iki qoltuqaltı, boyunduruq və əkət olmaqla 9 hissədən hazırlanırdı. Arxalıqların hamısı astarlı olurdu. Onu əsasən əbrişim, çit mahud, atlas, satin, əl şalı (belə arxalıq "şal arxalıq" adlanırdı), həmçinin fabrik istehsalı olan satınalma yun və ipək parçalardan tikirdilər. Əhali arasında məndulə, kəşmir, alaca, aksamit, altabas, zərbaft, midqal və s. kimi parçalardan tikilmiş arxalığa da rast gəlmək olurdu. Bu parçalar karvan ticarəti vasitəsilə və müxtəlif şəxslər tərəfindən səfərlər zamanı ölkəmizə gətirilirdi. Məsələn, mənduləni, bir qayda olaraq, ziyarətə gedənlər Kərbəla, Məşhəd və b. şəhərlərdən alıb gətirirdilər.

Döşüaçıq arxalıq Azərbaycanda "qarabağ xanlğı" kimi tanınırdı. Onun yaxa kəsiyi sinə üstündə düzbucalqı və ya oval formada

biçilir, qurşağa qədər düymələnir, qolları dekorativ-bəzək xarakteri daşıyan qolçaqla tamamlanırdı. Bu arxalıq növü kübar ailələrin, mötəbər şəxslərin, varlıların geyim dəstində əsas yer tutdururdu. Digər axralıq növlərindən fərqli olaraq, döşüaçıq arxalıq daha erkən yaranmış geyim növü hesab olunur. XIX yüzilliyin əvvəllərindən başlayaraq bu biçimli arxalıq xalq geyim kompleksinin tərkibinə daxil edilmişdir.

Önürlü (şarpaz və ya aşırımlı) arxalıq gövdə, qol və tək hissələrindən ibarət biçilib-tikilirdi. Adətən, qurşaq yerinə kimi bədənə kip yapşır, ətək hissəsi isə büzəmli olaraq gövdəyə birləşdirilirdi. Arxalığı geyərkən onun döş hissəsi bir-birinin üstünə çarpaz şəkildə aşırılır, qurşaq yerinə kimi düymələnirdi. Belə arxalğın üstün cəhəti onun uzun müddət geyimə yararlı olmasında idi. Əgər döş çarpazlarından birini rəngi solardısa, onda digər çarpazı üst hissəyə keçirib ilgək-düymə və ya çarpaz-çarışqalarının yerini dəyişməklə yaxasını bağlamaq mümkün idi. Belə arxalıq həm də sinə nahiyəsini isti saxlayırdı.

Önürsüz (düzyaxa) arxalığın yaxası isə düz biçilir, qurşağa qədər gümüş düymələrlə düymələnirdi. Bəzən düymə əvəzinə çalkemir (çarışqa) adlanan qarmaqlardan istifadə edilirdi. Belə arxalıq nisbətən ucuz başa gəldiyindən, xalq arasında geniş istifadə olunmuşdur. Adətən, xeyir-şər paltar dəsti üçün nəzərdə tutulan arxalğın astarı və qolçaqları əlvan parçalardan hazırlanırdı ki, bu da toy rəqsləri və məişət oyunları zamanı göz oxşayır, kiçi görkəminə xüsusi rövnəq verirdi. Yaşlı kişilərin arxalığı tünd, gənclərin və evli cavanların isə arxalığı açıq rəngli parçlardan hazırlanırdı. Mürəkkəb biçim üsuluna və tikiş texnikasına malik olduğu üçün arxalığı, bir qayda olaraq, dərziyə sifariş verirdilər.

Azərbaycanda dağlıq və dağətəyi bölgələrində "sırıqlı arxalıq" adlana kişi geyim növü geniş yayılmışdı. Bu arxalğın fərqləndirici xüsusiyyəti ondan ibarət idi ki, onun içərisinə nazik təbəqə yun və ya pambıq döşəyərək astar çəkir və sıx şəkil də sırıq vurardılar. Adətən, mövsümi səciyyəli geyim növü olan arxalıq yaşlı kişilərin geyim növü idi. Soyuq vaxtlarda cavanalr tərəfindən də geyilən belə arxalıq bayatılarda tərənnüm olunurdu:

Arxalığı sıx sırıq,
Büzməsi beldən buruq.
Kim sevdi, kim apardı,
Kim qalıd boynu buruq. [104]

Arxalığın üstündən, bir qayda olaraq, mötəbər şəxslər, rühani, tacir və baqqallar qurşaq dolayır, kasıblar qayış-kəmər, varlılar isə qızıl kəmər, gümüş təkbənd bağlayırdılar.

Kişi qurşaqları və yerhanasında zərif quzu yunu ipindən toxunur, ya da parçadan tikilirdi. Ortayaşlı kişi qurşağının eni təxminən 2-3 qarış, uznuluğu isə 3-4 arşın olurdu. Müxtəlif əhali təbəqələrinin bağladıqları qurşağın rənginə görə ayırmaq mümkün idi. Belə ki, varlılar Kirman şalından hazırlanmış ağ qurşaq, din xadimləri yaşıl, yoxsul və ortabab əhali təbəqəsi isə qonur, qəhvəyi və qara rənli qurşaq bağlayırdılar.

Qadın kəmərlərindən fərqli olaraq, kişi kəmər və qayış və təkbəndləri əməli əhəmiyyət daşıyırdı. Bir qayda olaraq, kəmərdən xəncər asılır, içərisinə tütün, çaxmaq, çaxmaq-qov və s. qoyulan dəri və parçadan tikilən kiçik torbalar bənd edilirdi. Tacir-tüccar əhlinin kəmərləri isə xüsusi əndazə ilə düzəldilib üzlə astar hissəsininn arası boş saxlanılrdı. Oraya qızıl sikkələr doldurulurdu ki, bu da qarətçilik mülahizələrini aradan qaldırmaq üçün düşünülmüşdü. Çünki keçmişdə tez-tez karvan və dəvə nəqliyyatı qarətçi hücumlara məruz qalırdı.

Kişi geyim dəsti içərisində üst geyim növü kimi çauxa müühüm yer tuturdu. Azərbaycan ərazisində çuxanın qədim növü olmasını "Kitabi-Dədə Qorqud" dastanı təsdiq edir. Nabranda çuxanın "adi" və "doqquzlama çuxa" olmaqla iki forması haqqında məlumat verilir. [105]

Biçim üsuluna görə, Ümumqafqaz səciyyəli olan çuxalar bir-birindən yalnız müəyyən lokal xüsusiyyətlərinə və adlarına görə fərqlənirdi. Cənubi Qafqazda geniş yayılaraq qurşağa qədər düymələnən erməni [106] və gürcü çuxalarından (çoxaxaloxi) [107] fərqli olaraq, Azərbaycan çuxlarının yaxası düymələnmir (və ya

müstəsna hallarda bir çarpaz və ilgək-düymə ilə düymələnir üstündən qurşaq vurulmurdu. [108]

XIX-XX yüzilliyin əvvəllərində azərbaycanlıların istifadə etdiyi çuxalar ətəyinin formasına görə "büzməli" (kəmərçin), "çinli" (kahli), "büzməli- çinli"; qol yerinin formasna görə isə "qoltuqaltı və "qoltuqsuz" ("atmaqol") olmaqla müxtəlif variantlarda mövcud olmuşdur. Bundan başqa, Naxçıvan və Qarabağ bölgəsi üçün xarakterik olan oyma yaxalı çuxalar, eləcə də döş hissəsinə vəznə qoyulan və ətəyi qısa "vəznəli çuxa" ("çərkəzi çuxa") da xalqın geyim dəstində mühüm yer tutmuşdur. Maraqlıdır ki, Naxçıvan bölgəsində, xüsusilə Ordubad da oymayaxalı kişi çuxası "küləcə" və ya "katibi" adlanmışdır. [109]

Adlarındakı fərqin müxtəlifliyinə baxmayaraq, çuxalar, adətən, bədən (gövdə), ətək və qollardan ibarət olmaqla biçilib–tikilir, uzunluğu dizdən aşağı olurdu. Şirvanda geniş yayılmış "düzdəmə çuxa" dan fərqli olaraq, Gəncəbasar və Qərb bölgəsi əhalisinin büzməli çuxasının qabaq hissəsi boyvəboy deyil, bədən və ətəkdən ibarət biçilirdiı. Büzməli çuxanın ətəyi bədənə birləşən yerdə büzülərək bel yerinə tiklirdi.

Çinli çuxanın ətəyi, adından göründüyü kimi, çinli düzəldilirdi. Buna görə də çuxanın ətəyi yuxarıdan aşağıya doğru getdikcə enlənirdi. Çuxanın tikilmə tərzindən asılı olaraq, çinlərin sayı da müxtəlif olurdu. Adətən, 6,8 və 9 çinli çuxalar daha çox sifariş verilirdi.

Həm büzəmli, həm də çinli tikilən çuxalar arxa tərəfdən büzməli, iki yan tərəfdən isə çinli olurdu.

Varlıların gündəlik geyimi olan "vəznəli çuxa"nın döş hissəsinin hər iki tərəfinə vəznələr tikilirdi. Əvvəllər əməli əhəmiyyət kəsb edən vəznələr (ondan patrondaş kimi istifadə olunurdu) sonralar dekorativ-bəzək səciyyəsi daşımışdır.

Çuxalar, həmçninin qollarının quruluşu və onun gövdəyə birləşmə tərzinə görə də bir-birindən fərqlənirdi. Adətən, qollar bütöv çəkildə biçilirdi. Bu zaman çuxanın qolları biləyə doğru getdikcə daralır, ya da enlənirdi. Qollar bəzən qoltuğun altından başlayaraq biləyə qədər açıq saxlanılırdı ki, buda dekorativ-bəzək məqsədilə edilirdi. Belə çuxa "atmaqol çuxa" adlanıb, qol kəsiyinin ucları oval və ya düz kəsilmiş qolçaqlarla tamamlanırdı. Soyuq vaxtlarda ataqol çuxanın qolları

buarda qoyulan ilgəklərə çalkeçir qaytan keçirməklə biləyə qədər bağlayırdılar.

Çuxa yun şaldan, mahuddan, qəsdrdan, tirmədən və b. başqa parça növlərindən tikilir, adətən gövdə və qollarına, bəzən də hər yerinə yumşaq ipək və pambıq parçadan astar qoyulurdu. Əhali çuxanı yaş səviyyəsinə görə. Açıq və tünd parçalardan tikdirirdi. Bir qayda olaraq cavanların çuxası qısa ətəkli, açıq rəngli, yaşlılarınki isə tünd rəngli parçalardan hazırlanırdı. Çuxanın qol astarı xoş görünmək üçün gözoxşayan parçalardan qoyulurdu. Onun qol kəsikləri, yaxası, ətəyi güləbətinlə bəzədilir, müxtəlif qızıl bafta və sərməyə tutular, başqa parçalardan köbə ilə haşiyələnərdi. Şirvan bölgəsi üçün xarakterik olan digər bir el adətincə isə toy çuxası arxalığın rəngi ilə uzlaşdırılırdı. Adətən, arxalıq açıq rəngli olduqda, çuxa tünd parçadan və ya əksinə tikilərdi. Ağ çuxa- ağ günün, xoş güzəranın, qara çuxa isə iqbalın, bəxtin yatması, qara günün başlanması, güşəşinlik kimi mənalandırılırdı. Çuxanın növünə, tikildiyi parçanın dəyərinə görə şəxsin sosial mənsubiyyətini və iqtidarını müəyyən etmək mümkün olurdu.

Mövsümi səciyyəli kişi geyimləri arasında bir neçə aşılı qoyun dərsindən tikilən kürk də əhəmiyyətili yer tuturdu. Azərbaycanda kürkün müxtəlif biçim üsulu ilə hazırlanan "kaval kürk" (buna bəzi etnoqrafik bölgələrdə "sallama kürk" və ya "üzlü kürk" də deyirdilər) və geyinmə kürk ("çoban kürkü") kimi iki növü geniş yayılmışdı. Əsasən maldar elatların geyim növü olan geyinmə kürk 4-5 qaba aşılanmış qoyun dərisindən kustar üsulla hazırlanır, tikişləri kobud olur, üzərində heç bir bəzək-naxış elementi olmurdu. Çox zaman belə kürklər əhalinin özü tərəfindən biçilib-tikilirdi.

Kaval kürk isə yeksək keyfiyyətlə zərif aşılanmış 9-10 qoyun dərisindən yunu içəri olmaqla biçilib-tikilir, dekorativ bəzək səciyyəsi daşıyan qolları və ətəyi topuğa qədər uzun olurdu. Qolları bütöv (aldadıcı, yalançı) olduğundan, onu çiyinə salmaqla geyirdilər. Kaval (sallam) kürk varlı zümrələrin və şəhər əhalisinin geyim dəstinə daxil idi. Belə kürklərdən zəvvar və çarvadarlar səfər zamanı yatacaq kimi də istifadə edirdilər. Bu geyim növünün varlı zümrələrə aid olması Naxçıvan bölgəsində geniş yayılmış "kürküm var, mülküm var!" – deyimi də təsdiq edir. Xalq arasında kaval (sallama) kür daha çox

“Xorasan kürkü adı ilə məlum idi. Onu Xorasana, Məşhədə, Ərdəbilə, Kərbəlaya gedən zəvvarlar gətirirdilər. Bundan başqa, belə kürkü Ön Asiyadan gətirilən zərif aşılanmış dəridən yerli sənət mərkəzlərində (Gəncə, Şuşa, Şamaxı, Bakı, Naxçıvan və s.) sifarişlə işləyən usta-kürkçülər də hazırlayırdılar. Bir qayda olaraq, kürkün üzünü onun geyənin yaş mənsubiyyətinə uyğun olaraq qırmız, sarı, qara, qəhvəyi rənglərlə boyayır və əlvan rəngli ipək saplarla naxışlayırdılar. Kürk uzun zaman istifadəyə yararlı olduğundan, onu qiymətli hədiyyə kimi əziz qonağa, hörmətli şəxslərə bağışlayardılar. Kürk həm də miras kimi atadan oğula qalırdı.

XIX yüzillikdə Azərbaycanın Bakı, Gəncəbasar, Şirvan, Şəki və Qarabağ bölgələri əhalisinin varlı zümrələrinin bayramlıq geyim dəstində nadir hallarda xəzdən tikilmiş kürk də təsadüf edilirdi. “Xəzəzəmi” adlanan belə kürk növü tarixən digər türkdilli xalqların da istifadəsində olmuşdur. M.Kaşğarlı tərəfindən XI əsrdə yazılan “Divani lüğət-it-türk” əsərində qeyd olunur ki, türklər arasında “içmək” adlanan quzu dərisindən tikilən kürklər geniş yayılmışdı. Onlar həmçnin samur və sincab dərisindən də kürk geyirdilər. Türklər sincaba “tiğun” samir isə (kiş) deyirdilər. Bunların dərisindən tikilən kürk isə “içuk” adlanırdı. [110] Heç şübhəsiz ki, XI əsrdə geyilən “içuk” ilə XIX əsrin “xəz-əzəmi”tipli kişi üstü geyimləri arasında tipoloji oxşarlıq olmuşdur.

Maldar əhali arasında üst geyim növü olan yapıncı da geniş istifadə olunurdu. Ümumqafqaz səciyyəli bu geyim növü haqqında A.S.Piralov yazırdı ki, qafqazlı kişi geyimlərinin üst növü olan yapıncı onun at belində keçirdiyi bütün həyatının yol yoldaşı idi. Qafqazlı kişinin yapıncısız təsəvvür etmək olmazdı. [111]

Yağış və qar suyunu keçirməyən, insan orqanizmini soyuqdan, küləkdən və bürküdən yaxşı qoruyan yapıncıdan köçmə həyat tərzi keçirən əhali həmçinin yoğan-döşək kimi də istifadə edirdi. Azərbaycanın Şirvan, Quba-Xaçmaz, Qarabağ, Naxçıvan, Şəki-Zaqatala, Gəncəbasar və Qərb bölgələrində geniş istifadə olunan yapıncının “qabardini” (tüksüz), “knyazı” (saçaqlı) və “qartı” (çoban yapıncısı) olmaqla üçü növü yayılmışdı. Naxçıvanın dağlıq bölgələrində (Şahbuz, Ordubad) saçaqlı yapıncı “eşmə yapıncı” adı ilə də tanınırdı.

İrəvan quberniyasında ona “kəpənək”, Muğan bölgəsində isə “bürünmə” deyirdilər.

Yapıncının materialını kəndbəkənd gəzərək keçə salan həllaclar hazırlayırdılar. Biçim üsuluna gör, sadə yapıncını material əldə edən hər kəs özü timəyi bacarırdı. Bunun üçün düzbucaqlı şəkildə salınmış küçənin hər iki çiyin üstünü təs üzünə tikərək avandına çevirir və boyun yerinin yarım dairə şəklində kəsirdilər. Yapıncının ətəyi, boynu, yaxa kəsiyi, calaqları sürütülüb didilməsin deyə, oraya dəridən, tumacdan, bəzən də meşindən köbə tuturdular. Yaxası havada üzü küləyə doğru gedən zaman, külək yapıncını yellətməsin deyə, onu tərs üzünə çevirib geyirdilər. Bu zaman yapıncının yaxa kəsiyi arxada qalırdı.

Növündən və keyfiyyətindən asılı olaraq yapıncı müxətlif sosial zümrələr tərəfindən geyilirdi. Adətən, ağ və qara rəngli knyazı (saçaqlı) yapıncıları bəy-mülkədar və qolçomaq zümrəsi. Qabardını (saçaqsız) yapıncıları sərkar və kəlladarlar, qartını isə çobanlar geyirdilər.

Naxçıvan bölgəsində və İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının azərbaycanlı əhalisi arasında keçədən hazırlanan kişi üst geyim növü –xillik (xıllıx) da geyilirdi. Materialı güzəm yunundan hazırlanan nazik keçədən ibarət olan xilliyin dağətəyi ərazilərdə silindirik-qutu, dağlıq ərazilərdə isə konusvari-çətiri növləri yayılmışdı. Yapıncıdan fərqli olaraq, xillik gödək olur (baldıra qədər), çiyinlərində qol keçirməsi üçün “qol yarığı qoyulur, boğazın alıtna bir ədə ilgək-düymə bağlanırdı. Xillik mövsümi səciyyəli geyim növü kimi maldar elatların geniş istifadəsində olmuşdur. [112]

XIX yüzilliyin sonlarında Zaqatala dairəsi əhalisi arasında keçədən xüsusi əndazə ilə biçilib-tikilən, qısaqol, tyaxası açıq üst geyim növü olan “çopos” da geniş yayılmışdır. [113]

Bəhs olunan dövrdə Azərbaycanda əba, qəba, çübbə, ərəbi don, kəyani don, xirqə və s. kimi kişi üst geyim növlərində istifadə olunmuşdur. Sosial-mənsubiyyət nöqteyi nəzərindən rühanilərə (molla, seyid, axund, dərviş, əfəndi, müfti və s.) məxsus oan belə geyimlər biçim üsuluna, materialına, rəng çalarına, geymə tərzinə görə digər kişi geyim kompleksindən əsaslı surətdə fərqlənmişdir.

Azərbaycanda təsrüfat və peşə məşğuliyyətinin yönümündən asılı olaraq bir sıra geyim elementləri də mövcud olmuşdur. Belə ki, sənətkarlar və tacirlər parçadan, eləcə də dərindən hazırlanan önlük və döşlüklərdən, biçinçilər qolçaqdan və taxtadan (bəzən göndən) hazırlanan barmaqçalıqdan, arıçılar qabağı torlu xüsusi papaqdan, Lənkəran bölgəsində bicara (çəltik biçininə ) gedənlər isə palçığa bulaşmamaqdan örtü tünükə və dasavnadan istifadə edirdilər.

XIX-XX yüzilliyin əvvəllərində azərbaycanlıların xüsusi "yot paltarı" və "matəm libası" olmamışdır. Adətən, toy paltarı gözoxşayan bahalı parçalardan tikilir və təzə olması ilə fərqlənirdi. "Matəm libası" isə birrəng tünd parçalardan (qara, tünd göy, palıdı) hazırlanırdı.

**Baş geyimləri.** Ənənəvi kişi geyim kompleksinin mühüm elementlərindən biri də baş geyimlərdir. Xalq arasında papaq həmişə, şərəf, qeytə və namus simvolu kimi dəyərləndirilmiş, icitmai yerlərdə, ailədə başıaçıq gəzmək qəbahət sayılmış, papağın itiriləmsi və ya oğurlanması, təkcə şəxsin deyil, onun mənsub olduğu nəslin də təhqir edilməsi hesab olunmuşdur. Azərbaycanlı kişilər namazqabağı dəstəmaz ayını istisna olmaqla nə süfrə başında nə də gecə yatağında başıaçıq olmağı qəbul etməmişlər. Yataq zamanı papağ dəyişdirilərək gecə papağı ilə (şəbkülah) əvəz olunmuş, yada başa sarıq bağlanmışdır. Buna görə də XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanda kişi baş geyimlərinin məhəlli-etnik xüsusiyyətlərinə, formasına, materialına, geymə tərzinə, dəyərinə və hətta rənginə görə fərqlənən çoxlu növləri olmuşdur.

Ənənəvi kişi baş geyimləri müxtəlif növ materiallardan (dəri, keçə, parça) hazırlanmaqla, həm tikili, həm də bağlama formasında olmuşdur. Tikili baş geyimlərinə müxtəlif formalı və adlı dəri keçə papaqlar, araqçın, (təsək və yaxud tərrik), başlıq; bağlama baş geyimlərinə isə baş dəsmalı (sarıq), çalma və əmmamə daxil edilmişdir.

Baş geyimləri içərisində yerli qoyun dərilərindən hazırlanmış papaqlar



Kişi baş geyimi

xüsusi üstünlük təşkil edirdi. Lakin bununla belə, varlı şəxslər öz papaqlarını Krım və Orta Asiyadan gətirilmə qaragül dərisindən tikdirirdilər. Yerli əhali arasında bu dəridən tikilən papaq "Buxara papaq" adlanırdı. Qaragül dərisinin rənginə müvafiq olaraq "Buxara papaqlar" qara (ərəbi papaq), çal, (Şirazi papaq və ya çalpapaq) və qızılı və yaxud gümüşü (sür papaq) kimi müxtəlif adlarla məlum idi. Bu cür papaqların başlıca müştəriləri bəylər, əsilzadələr, qoçular, varlı tacirlər və s. idi. Yerli börkçü ustalar tərəfindən tikilən bu papaqlar öz formasına görə həm də "daqqa papaq", və ya "qələmi papaq" olmaqla iki qrupa ayrılırdı. Daqqa papaq əksərən qaragül dərisindən, bəzən də yerli körpə quzu dərisindən ülgü əsasında biçilib-tikilirdi. Papaq gövdə, tərk və astardan ibarət olurdu. Onun tərkibini (üst hissəsini) çox vaxt parçadan deyil, tumca və ya aşılı dıridən tikirdilər. İlin fəsillərindən asılı olaraq papağın astarı yun və ya pambıq parçadan qoyulurdu.

"Qələmi papaq" yastı formalı "daqqa papaq" dan fərqli olaraq bütöv dəridən hündür şiş papaq formasında tikilirdi. Şirvan əhalisi arasında ona "şıkarı papaq", "qacarı papaq" və "qoçu papaq da deyirdilər.

Quba-Xaçmaz bölgəsində başı yuxarı çevrilmiş kəsik konusu



xatırladan "kazak papağı", "ləzgi papağı", "çərkəzi papaq", "noqay papağı"; Lənkəran-Astara gölglərində isə bütöv qoyun dərsisindən hazırlanan "ğıjina kuli" (dəri papaq) və enli lığ (həsir) qayçılarının bir-

birinə tikməklə hazırlanan, daha çox yayda geyilən "zənbilə kuli"(zənbilli papaq) xüsusilə dəbdə olmuşdur.

**Şiş papaq**. Bütöv konusu xatırladan belə papağı ayrı-ayrı diri hissələrindən biçib-tikirdilər. Bunu üçün lazımi ölçüdə biçilmiş hissələri saxsı iynəsi ilə tərs üzünə tikdikdən sonra astar çəkir və avand üzünə çevirirdilər. Papağın astarına sırıq vurulurdu. Şiş papaq ən çox qara və ağ rəngli saçaqlı quzu dərisindən tikilirdi. Onun saçaqlarını xüsusi alətlə burub qıvrımlayırdılar. Azərbaycanın Quba bölgəsində bu cür papaq "qarmuq papaq", Şirvanda "Zərnəva papağı", "Qəbələ papağı", "züllə papaq", "molla papağı", Qərb bölgəsində "armudu papaq" və "ayrım papağı" adlanırdı.

**Şələ papaq**. Kəsik konus formasında tikilən belə papaqlar da saçaqlı olur, üst hissəsi tünd rəngli parçadan "tərk" salınırdı. Papağın astarı da eyni rəngli parçadan hazırlanmaqla, dəri ilə birgə sırınırdı. Mövsümdən asılı olaraq, şələ papağının astarı yun və pambıq parçadan çəkilirdi. Azərbaycanın ayrı-ayrı bölgələrində belə papaqlar "çapıq papaq", "zağarlı papaq", "yastı papaq", "yappa papaq", "qarabağ papağı", "motal papaq", "ğıjna kuli, "dəyirmi papaq", "çoban papağı", "qırmızı papaq" və.s adlarla məşhur idi.

Azərbaycanda geniş istifadə də ola kişi papaqları etnik və məhəlli xüsusiyyətlərinə görə fərqlənirdilər. Belə ki, burada "Ləzgi papağı", "Noqay papağı", "Ayrım papağı", eləcə də "Buxara papaq", "Krım papağı", "Şirazı papaq", "Qarabağpapağı", "Qəbələ papağı", və s. əhlinin geniş istifadəsində idi.

Aşıqların geydiyi silindirik formalı "aşıq papağı" Azərbaycanın Gəncəbasar, Şirvan, Göyçə, Gədəbəy bölgələrində dəbdə olan ağappaq növü idi.

Göründüyü kimi, Azərbaycanda dəridən hazırlanan kişi baş geyimlərinin çeşidi rəngbərəng, ona olan tələbat isə çox böyük olmuşdur. Bu səbəbdən də burada papaqçılq sənəti geniş inkişaf etmişdir. XIX yüzilliyin 50- ci ilərində Bakı, Yelizavetpol, Lənkəran, Quba, Nuxa, Şamaxı, Şuşa, Naxçıvan kimi iri sənət mərkəzlərində 650 nəfərədək papaqçı-usta işlənmişdir ki, onların da 235 nəfəri yalnız Nuxada cəmlənmişdir. [114]

Kişi baş geyimlərin bir növü də "başlıq" idi. Onu, adətən, soyuq və boranlı havalarda uzaq səfərə çıxanlar və dağ şəaritində yaşayanlar papağın üstündən geyirdilər. Başlıq, əsasən sıx toxunuşlu yun parçadan (şaldan), mahuddan, ən qiymətlisi isə dəvə yunundan hazırlanırdı. Bu cür baş geyimini kəllələlik (başlıq və iki qulaqcıqdan ibarət biçib-tikirdilər. Başlığın qulaqcıqları uzun olduğundan geyinən zaman onları boğaza dolayıb, düyünləyib arxaya (kürəyə) atırdılar. Qiymətli başlıqların qulaqcıq astarını göz oxşayan rəngli parçadan tikir, təpəsində isə rəngbərəng saplardan düzəldilmiş bəzəkli qotaz qoyudular. Başlıq təkcə Azərbaycan üçün deyil, əksər Qafqaz xalqları üçün də səciyyəvi baş geyim növü olmuşdur.

Araqçın (təsək və yaxud tərrik) [115] papaq, çalma və əmmamənin altından geyilən kişi baş geyiminə aid idi. Araqçın saya və naxışlı olmaqla iki formada hazırlanırdı. Saya araqçınlar, bir qayda olaraq, altdan geyilir, bəzəkli araqçınlar isə sərbəst olaraq başa qoyulurdu. Azərbaycanda tikilən və başı sərin xaslayan araqçın Orta Asiya araqçınından fərqli olaraq, dördkünc deyil, dairəvi (girdə) formada biçilib-tikilirdi.

Araqçın baş geyim növü kimi Azərbaycanın hər yerində eyni cür yayılmamışdı. Belə ki, onu Qərb bölgəsində ən çox İrandan gəlib ayrım kəndlərində çərçilik edən və Simens qardaşlarının misərtimə zavodlarında işləyən azərbaycanlılar geyirdi. Burada araqçını ancaq varlı ailələrdə və toy etməyə hazırlaşan cavanlarda örnək olurdu.

Kişi araqçını Abşeron, Naxçıvan, Lənkəran-Astara, Şirvan bölgələrində əhalinin geniş istifadəsində olmuşdur. Onun yan hissəsi (çevrəsi ) rombvari, təpə hissəsi isə dairəvi biçilib-tikilirdi. Araqçının astarı birrəng parçadan hazırlanırdı.

Naxışlı araqçın xüsusi əndazə ilə işlənilir, üzəri müxtəlif tikişlərlə, zəngin həndəsi və nəbati naxışlarla bəzədilirdi. Şirvanda gənclərin araqçının (təsyinin) qırağına qızılı və gümüş bafta vurulurdu. Burada el adətincə, təzə bəy mütləq qabaq öz kürəkəninə göndərməli idi. [116]

Lənkəran-Astara bölgəsində "aynalı araqçın" dəbdə idi. Adətən, toylarda, bayramlarda geyilən belə naxışlı araqçının sağanağına balaca

dairəvi güzgülərdən çevrələnmə tikərdilər. Bu, baş geyimi, şübhəsiz ki, varlı ailələrin geyim kompleksinə daxil idi.

Əsrlərcə formalaşan xalq adətinə görə, evdə, ailədə, naməhrəm yanında başıaçıq gəzmək, yuxarıda qeyd etdiyimiz kimi qəbahət sayıldığından, hər bir azərbaycanlı kişi və qadın yataqda da başıaçıq olmazdı. Kişilər yatan zaman başlarına şəbkülah və ya təskülah qoyardılar. Şəbkülah (təskülah) bahalı parçalardan tikilməklə üzəri tikmə naxışlarla bəzədilirdi. Dörd ayrıca üçbucaqşəkilli biçilən şəbkülahı, bu hissələri tərs üzünə tikib astar çəkərək avan üzünə çevirməklə hazırlayırdılar.

XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanda din xadimlərinin (dərviş, seyid və s.) gündəlik geydikləri "külah" və "çəltari" də olmuşdur. Biçim üsulu və tikiş texnikası cəhətdən şəbkülahdan fərqlənməyən külahın bəzəkli naxışlarının arasına əski əlifba ilə "Əli" və başqa din xadimlərinin adları yazılardı. Bu yazılar hər bir üçbucaq hissəsi üzərində -yuxarıda iri fonda bir, aşağıda isə nisbətən kiçik fonda üç ədəd olmaqla, yan-yana əlvan saplarla naxışlanırdı. Bəzən yaşlı kişilər yatan zaman başlarına "gecəlik" (gecə papağı) adlanan qalın tüklü papaq keçirirdilər. Yumşaq quzu dərisindən hazırlanan belə papaq çox da böyük olmayıb, əsasən astarsız olur, nadir hallarda içərisinə pambıq astar çəkilirdi.

Tikilmə baş geyimlərinin bir qismini də dairəvi şəkildə hazırlanan, ancaq başın ortasını tutan fəs təşkil edirdi. Adətən, ziyalıların və mötəbər şəxslərin geydikləri fəs bahalı ipək parçalardan astarlı tikilirdi. Fəsin yan çevrəsi bəzədilmir, ağız yanlarına köbə tutur, kəlləliyi tikmə naxışlarla bəzədilirdi.

Azərbaycanın etnoqrafik bölgələrində keçədən tikilmiş baş geyimləri bəhs olunan dövrdə o qədər də geniş yayılmamışdır. Lakin tarixi faktlar təsdiq edir ki, hələ ilk orta əsrlərdə Dədə Qorqud qəhrəmanları keçə börkdən baş geyimi kimi istifadə etmişlər:

Başındakı turulğanı nə öyərsən mərə kafir?
Başımdakı (keçə) börkümcə gəlməz mana. [117]

XIII əsrə aid naməlum bir coğarafiyaçının yazdığı “Əcaib-əd-dünya” əsərində isə Gəncə şəhəri və onunu ətrafında cavanların əksər hissəsinin başlarına “bətlə”, yəni keçə papaq qoyduğu qeyd edilir. [118]

Görünür, bu tip baş geyimi arxaikləşərək aradan çıxmışdır. Bununla belə, Lənkəran-Astara bölgəsinin kəndlərində, Abşeronda, eləcə də İrandan Azərbaycana kəsbkarlığa gələnlərin geyim dəstlərində keçə papağın olması söyləməyə imkan verir ki, bu tip papaq dörd, altı bəzən də səkkiz kiçik taxtadan konusvari və ya silindirik şəkildə biçilib tikilir, qübbəsinin hündürlüyü 3-4 sm –dən artıq olurdu. Altından araqşın geyilən belə papaq “şolakılo” və “tasuy” adlanırdı. [119]

Bağlama baş geyimlərinin yoxsul əhali içərisində ən geniş yayılmış növü sarıq (baş dəsmalı) olmuşdur. Qadın baş çəkilərindən fərqli olaraq kişi sarıqları əsasən saya olur, pambıq parçadan 50-x60 sm. ölçüdə hazırlanırdı. Sarığı başa iki üsulla bağlanırdı. Birinci üsulda dörd qatlanmış yaylığın uclarını düyünəlyib başa keçirirdilərsə, ikinci üsulda parçanı dioqnal üzərə qatlayıb başa salır, uclarını boyunun arxasında çarpazlayır və alının üstündə düyünləyirdilər. Adətən, sarıqdan yaşlı kişilər isti havalarda çöl-təsərrüfat işləri görən zaman və yatağa uzanarkən istifadə edirdilər.

XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanda bağalama baş geyimlərinin bir qisminin də çalma və əmmamə təşkil edirdi. Çalmanı, bir qayda olaraq nüfuzlu elm adamları, şairlər, mötəbər şəxslər, dövlət qulluqçuları və s. gəzdirirdilər. Əmmaməni isə əsasən ruhanilər (molla, əfəndi, seyid, müfti və b.) geyirdilər. Əmmaməni başa kiçik papaq-araqçın və ya külah qoyduqdan sonra xüsusi əndazə ilə sarıyırdılar. Əmmamələr parçasının rənginə, ölçüsünə və başa dolama qaydalarına görə bir-birindən fərqlənirdi. Azərbaycanlı din xadimləri əsasən ipkədən, humayun və batist ağından hazırlanan əmmamə geyərdilər. Özgə millətindən olan əhali müsəlman fərqlənmək ümüm qara, yaxud göy (ermənilər) həmçinin sarı (yəhudilər) əmmaməyə üstünlük verərdilər. Azərbaycanda ali ruhani zümrələr arasında yaşıl əmammə dəbdə olmuşdur.

Şəriət qanunlarına görə, əmmamədən təkcə baş geyimi kimi istifadə edilməmiş, o, həm də əməli əhəmiyyət kəsb etmişdir. Belə ki,

əmmamənin ölçüsü hər bir kəsin boyuna müvafiq olduğundan, onu lazım gələndə süfrə, qurşaq hətta kəfən yerinə də işlətmişlər. [120]

**Ayaq geyimləri.** Keçmişdə kişi ayaq geyimlərinin müxtəlif növləri əhalinin geniş istifadəsində olmuşdur. Bunlar çarıq, başmaq, dübəndi, qondara, şiblit, uzunboğaz çəkmə, çust, məst, nəleyin, corab, patava, dolaq, badış və s. ibarət idi. Ayaq geyimlərinin növlərinə görə şəhər və kənd əhalisi ilk baxışdaca seçilirdi. Adətən, şəhər əhalisinin ayaq geyimləri yaxşı aşılanmış göndən (sağrı, ətvi, meşin, tumac, müşkü, müşəmbə və s.) xüsusi ülgü əsasında tikilir, təzəliyi ilə diqqəti cəlb edirdi.



Kişi ayaq geyimləri

Yüngül və ucuz başa gəlməsi, çöl-təsərrüfat işləri zamanı əlverişli olması **çarığı** əhalinin böyük əksəriyyətinin ayaq geyiminə çevirmişdir. Çarıq həm aşılanmış həm də xam göndən tikildiyiniə görə, onu satın almaqla və ya hər kəs özü tikməklə əldə edirdi. Hər kəsin gündəlik geydiyi çarıqdan başqa, peşəkar çarıqçılar tərəfindən tikilən və rəngli bağları olan 1-2 cüt çarığı da olurdu ki, onu adətən bayram və məişət şənlikləri zamanı, eləcə də şəhərə-bazara gedərkən geyirdilər. İl ərzində 6-12 –yə qədər çarığa ehtiyac olurdu. Bəzən imkansız adamlar çarıq dağılan zaman onun altına göndən və ya qalın parçadan “döşəmə” salıb geyirdilər.

Azərbaycanda kişi çarıqlarının “kotuğu”, “quşburnu, “qızqaytaran”, “kalmanı”, “xəlbirqırağı, “quşgözü “şiravi, “şirazi, “təkburun” əcəmi, “üçburun, “qarabağı ” və s. kiçik biçim tərzinə və tikiş texnikasına görə fərqlənən müxtəlif növləri olmuşdur. Bəzi etnoqrafik bölgələrdə (Naxçıvan Lənkəran-Astara və s. ) qismən də olsa həsirdən hazırlanan “həsir çarıq” lara da təsadüf olunurdu.

Çarıq, hər kəsin yağının ölçüsünüdə biçilir, qabaqdan başalayaraq dabanına doğru tikilirdi. Çox zaman çarığı onunn burnunun

quruluşuna görə fərqlənirdilər: "çütməburun", "quşburnu", "təkburun", "üçburun" və s.

Çarığın atadan dayanması üçün onun dababnına köşədən 2-3 ədədə "körpü" dabanla pəncərə arsının yanlarına bir cüt olmaqla "üzəngi", pəncə üstünün yanlarına isə "gözlər" toxunurdu. Tikmə içi üzərinə ya üzərinə mum çəkilmiş eşmə iplik vasitəsilə, ya da göndən nazik çəkilmiş (köşə) vasitəsilə aparılırdı.

Çarıq ayağa geyildikdən sonra "çarıqbağı" vasitəsilə bağlanırdı. Çarıqbağı rəngli toxunma ipdən hazırlanırdı. Bir qayda olaraq, gəlinin cehizləri xeyli çarıqbağı olurdu.

Çarıqbağını pəncəüstü gözlərə çarpaz doladıqdan sonra onun uclarını daban körpüsünə və yan üzəngələrə çevirir, artıq qalan hissəsini isə baldıra dolayıb bağlayırdılar.

Qərb bölgəsi əhalisinin bayram libası dəstinə daxil edilən "quşgözü" çarıq digər çarıq növlərində öz yaraşıqı ilə seçilirdi. Onun pəncə üstü ipli olur, bəzəkli çarıqbağı ilə bağlanırdı. Çarığın ayaqda gözəl görünməsi üçün adətən üzəngi bəndlərinin altında hər iki yandan simmetrik omaqla sərçə gözü boyda deşiklər açırdılar.

Ləkəran-Astara bölgəsində geyilən çarıq "şım" adlanırdı. Burada alınma dəvə gönünündən tikilən "şatra şım" daha çox dəbdə olmuşdur. Onu tikmək üçün istifadə olunan göndən çəkilən duvula (köşə) qızılağacının qabığından hazırlanmış məhlulla qırmızı rəngə boyadılırdı. Çarıq patava ilə geyiləndə ona "şım -putya" deyirdilər. Çarığın "şımaband" adlanan pəncəüstü duvula vasitəsilə çalkeşir şəklində hörülürdü.

Adətən, aşılanmamış göndən tikilən çarıqlar suya düşəndən sonra quruyub qaxaca dönürdü. Bunun qarışısını almaq üçün çarığı soyunduqdan sonra onun içinə nəm torpaq doldurulurdu. Nəm torpaq çarığın



Lapçın

quruyub bərkiməsinin qarşısını alırdı.

Çarığı, bir qayda olaraq, müxtəlif yun corab (saya və ya bəzəkli) badış, patava və dolaqların üstündən geyirdilər. Yun corabın üstündən şaxtalı havalarda dolaq bağlanırdı. Onu, eni 120 sm, uzunlu isə 70-80 sm olan sıx toxuna şaldan hazırlayırdlar. Dolaq baldıra patava isə ayağa kip sarınır, şalvarın balağını qıvraq saxlayır, təsərrüfat işləri zamanı sərbəstlik yaradırdı.

Bəzən çöl- təsəsrüfat işləri zamanı dolağı **badış** əvəz edirdi. Kişilər şalvarın balığı onun içərisinə qabqarıb topuqdan yuxarı və dizdən aşağı qaytanla bağlayırdılar.

Qışı sərt keçən dağlıq ərazilərdə çarığın və ya çəkmənin üstündən yer hanasında xüsusi olaraq bu məqsəd üçün toxunmuş ayaq şalı dolayırdılar. 2 m-ə qədər uzunluğu bir qarışdan çox eni olan ayaq şalı ayağı don vurmaqdan qoruyurdu.

Yayılma arealına görə, şəhər əhalisinin geyim dəstində əsas yer tutulan **kişi başmağı** "mərdanə başmaq" adı ilə məlum idi. Əsasən iri sənət mərkəzlərində peşəkar baçmaqçılar tərəfində istehsal olduğundan, çarıq ilə müqayisədə baha başa gəldiyindən kənd əhalisinin böyük əksəriyyəti başmaqdan istifadə edə bilmirdi. Hündürdabanlı, altına nal vurulmuş, aşılanmış gön materialından (müşkü, tumac, sağrı və s. ) bəzəksiz hazırlanan kişi başmağının başlıca müştərisi şəhər əhalisi idi. XIX yüzilliyin 30-70- ci illərinə aid edilən statistik məlumatlarda Gəncədə 75 çəkməçi və başmaqçının [121], Tiflisdə 100 çagirdi ilə birlikdə 201 çəkəmçinin [122], Şamaxıda 227 bamaqçının, Nuxada 147 başmaqçının işləməsi və ümumiyyətlə, bu dövrdə Azərbaycanda onların sayının 579 nəfər çatması [123] bu ayaq geyimi növünə olan təlabatı aydın əks etdiridi. Baçmaqçı emalatxanalarının sayının çoxluğuna görə, Naxçıvan şəhərində fəaliyyətdə olan bazarlardan biri də məhz "Başmaqçı meydanı" adlanırdı. Ordubad hazırlanan qadın və kişi başmaqları adla söylənilirdi. Şuşa şəhərində hazırlanan "Qala başmağı" da keyfiyyətinə görə yüksək qiymətləndirilirdi.

Bir qayda olaraq, kişi başmaqları qalın və gön materialından, at, uzunqulaq, qatır gönündə hazırlanır, iri ölçülü olmaqla da qadın başmaqlarında fərqlənirdi.

Şəhər əhalisinin əksəriyyətinin, kənd əhalisinin isə varlı zümrələrinin ayaq geyimləri içrisində çust, məst, nəleyin və s. də mühüm yer tuturdu.

Adətən, yumşaq aşılanmış dəridən altlıqsız hazırlanan məstin üzündən gəzməyə çıxan zaman başmaq geyilirdi. Dabanı açıq olan başmaqdan fərqli olaraq, çustun daban çevrəsi bağlı olurdu. Gündəliyə geyilən çust Bakı, Abşeron, Şirvan, və b. bölgələrində geniş yayılmışdır.

Naxçıvan bölgəsinin dağlıq hissəsində, Şəki-Zaqatala bölgəsində kişi ayaq geyimi **lapçına** tələbat böyük idi. Uzunboğaz ayaqqabı növü olan lapçının üzlüyü tumac və keçədən altı isə göndən tikilirdi. Onu geyərkən boğazının (küncünün) kəsik hissələrini bir-birinin üstünə qoyur, xüsusi qaytanla dolayıb bağlayırdılar. Lapçının ucu şiş və nisbətən yuxarıya qatlanmış olurdu. Bu ayaq geyimi növü dağ kəndlərinin əhalisi arasında XX yüzilliyin əvvəllərinə qədər qorunub saxlanılırdı. [124]

**Boğazdı** (uzunboğaz çəkmə) varlı elat kişiləri arasında dəbdə idi. Ayaqlığı başmaqla eyni cür olan boğazdının altı aşılanmış göndən, üstü isə bahalı material sayılan tumac, xrom və ya müşküdən tikilirdi.

**Dübəndini** boğazı nisbətən kiçik olub, ayağı topuğa qədər örtülürdü. Onun boğazlığı qara və tünd qəhvəyi rəngli dəridən tikilir, altına aşılanmış göndən altlıq çəkilir və dabnınna nal vurulurdu. Adətən, bu araqabı ayağa geyildikdən sonra onnu boğaz hisəsindəki simmetrik qoşa deşiklərdən keçirilən bəzəkli qaytanla üstü bağlanılırdı. Azərbaycanda başmaq, məst, uzunboğaz çəkmə tipli atyaq geyimlərindən istifadə olunmasının qədim tarixi vardır. Mingəçevir ərazisində aparılan arxeoloji qazıntılar zamanı tapılan e.ə. XI-VIII əsrlərə aid edilən gil ayaqabı–qablar [125] XIX əsrdə xalqın istifadəsində olan eyniadlı ayaqqabılara tipoloji oxşarlıq təşkil edir. Bu isə bir daha sübut edir ki, bu ayaqqabı növləri uzun zaman əsaslı dəyişikliyə uğramadan öz mühafizəkarlığını qoruyub saxlamışdır.

XIX əsrin sonu-XX əsrin əvvəllərindən başlayaraq xalqın geyim dəstinə rus və ya ayaq geyimlərinin tədriclə daxil olması həm kişi həm də qadın ayaq geyimi olan qaloşun kütləvi istehsal çarıq, patava, dolaq, çust, başmaq, məst və s. kimi ayaq geyimlərini ciddi sürətdə sıxışdırıb məişətdən çıxarmağa nail olmuş, ayaq geyimlərinə keyfiyyət

dəyişiklikəri əmələ gəlmişdir. Yüngüllüyü, yumşaqlığı, ucuz başa gəlməsi və təsərrüfat işlərində davamlılığı qaloşın indi də kənd əhalisi içərisində üstünlüyünü qoruyub saxlayır. Bununla yanaşı, əhali fabrik istehsalı ola gidər ayaqqabı növlərinə də məişətdə geniş yer ayırır.

# UŞAQ GEYİMLƏRİ

XIX-XX yüzilliyin əvvəllərində uşaq geyimləri, demək olar ki, bütünlüklə böyüklərin, milli libasları ilə eyni biçimdə lakin kiçik ölçüdə təkrarından ibarət olmuşdur. Bununla belə, uşaqlar uşağa vaxtlarından müəyyən yaş həddinə çata qədər (6-7 yaşa qədər) onların geyimlərində böyüklərin geyimlərindən fərqlənən səciyyəvi cəhətlər müşahidə olunurdu.

Hər şeydən əvvəl, yeni anadan olmuş uşağı (çağanı) bələkdə saxlayırdılar. Doğulan gündən 40 gün keçənə qədər bələkdən çağaya "qırx köynəyi", "qırx papağı" adlanan paltar geydirirdilər. Adətən, qırx köynəyi yumşaq və ağ pambıq parçadan, tikişləri bayırda qalmaq şərtilə tuniki biçim üsulunda tikilirdi. "T" şəklində biçilmiş köynəyin yaxa açırımının kənarlarına bəzən rəngli qaytan tikilir, bəzən də yaxa açıq saxlanılırdı. Belə köynəyin qolları düz biçimli olub, biləyə qədər çatırdı.

"Qırx papağı" da "qırx köynəyi" kimi, tikişləri üzdə qalmaqla tikilir, saya qadın təsəyinə bənzəyir, başa geydirilikdən sonra boğazın altına qaytanla bağlanırdı. Belə papağın alınlığı tirmə naxışlarla bəzədilirdi. Bəzən papağı nazik pambıq parçadan olan yaylıq da əvəz edirdi.

Xalq arasında geniş yayılan və indiyədək davam etməkdə olan adətə görə, təzə doğulan uşaq üçün lazımi olan hər şey- "qırx papağı", "qırx köynəyi", kiçik yorğan, döşək, balış, beşik bağı. Beşik (yüyrük) və s. gəlinin öz anası tərəfindən hazırlanmalı idi. Lənkəran –Astara daha böyük şənliklərdə müşayiət olunan bu adət uşağın qırxının çıxması günü icra olunur, "beşikbağlama" adlanırdı. Bu zaman uşağı görməyə gələn yaxın qohum-qonşular imkanları daxilində uşağın adına və uşaq sahibinə hədiyyələr (uşaq paltarı, parça, corab, pul və s.) verirdilər. Həmin gün gəlinin anası və qohum-əqrabası ilə birgə qadın evinə gəlir, uşaq üçün hazırladığı beşiyi və yataq dəstini də gətirirdi.

Adətən, uşaq beşikdə vəziyyətini dəyişib yıxılmasın deyə, onu beşiyə enli və əlvan parçadan ucu qotazlı və ya ilgəkli-qaytanlı hazırlanan beşik bağı vasitəsilə bağlayırdılar. Beşiyi, bir qayda olaraq, həyatda xoşbəxt ömür sürmüş, əməli saleh, ağzı dualı, nəvəli-nəticəli

ağbirçək bağlayırdı. Adətin adı da burada götürülmüşdür. "Beşik bağlama" adəti böyük qonaqlıq süfrələri ilə tamamlanır, yeni doğulan körpəyə xoşbəxt ömür, xeyir-dualar arzulanırdı. Bölgə əhalisi arasında bu adət daha təntənəli şəkildə hazırda davam etdirilməkdədir.

Azərbaycanın əksər etnoqrafik bölgələrində uşağın doğulmasından qırx gün keçəndən sonra, etnoqrafik baxımdan maraqlı olan və "qırıxın tökülməsi" adlanan bir mərasim də icra olunurdu. Uşağın, eləcə də ananın "qırxının tökülməsi" üçün əvvəllcə onu çimizdirir, sonra bulaq və ya çay yatağından götürülmüş 40 ədəd daşı içərisində qaynar su olan qazana salırdılar. Bundan sonra, həmin sudan 40 xörək qaşığı götürüb "qırxaçar camı" adlanan qaba tökür, çimizdirilmiş. Ananın və uşağın çiyinlərində aşağı səpərək : "Balamın ağırlığı-uğurluğu, dərdi-azarı dağlara-daşlara, hürüşən itlərə, söyüşən arvadlara"- deyirdilər. Qərb bölgəsi əhalisi arasında bu qırx tökmə mərasimi "cənabət qüsulu" adlanırdı.

Abşeron bölgəsində bu mərasim uşağın çilədən çıxarılması adlanır və bir qədər fərqli icra olunurdu. "Uşağı çilədən çıxarmaq" üçün onun adını söyləyir, "filankəsin çilədən çıxması naminə"- deyərək, qırxaçar camındakı təmiz suyu uşağın çiyinləri üzərindən keçirirdilər. Belə bir mərasim ailə qurmalarının 40 günü tamam olmamış ər-arvad üçün də həyata keçirilirdi. [127] "Qırxgünlük dövr" mərasimi Anadolu türkləri, Sibirin, Altayın, Volqaboyunun türk birlikləri, eləcə də orta Asiyanın bir çox türdilli xalqları (özbəklər, qazaxlar, qırğızlar, qaraqalpaqlar, türkmənlər və s.) arasında da geniş şəkildə icra olunmuşdur. [128]

Uşağın qırxı çıxana kimi onu bədnəzərdən, şər qüvvələrdən qorumaq üçün ana əlindən gələni edirdi. Bir qayda olaraq, uşaq yatan otağa naməhrəm adamların daxil olmasına imkan verilmirdi. Əgər belə bir zərurət mövcud olardısa, onda əhali iki qaydadan istifadə edərdi: birinci halda, uşağı öz yatağından çıxarıb onu yan otağa aparır, kənar adam otağa daxil olandan sonra uşağı "onun üstünə " gətirirdilər.

İkinci halda isə uşaq yatan otağa daxil olmaq istəyən naməhrəmi çörəyin atından keçirirdilər. Bundan sonra onun otağa girməsinə icarəyə verilirdi. Uşağın qırxı çıxandan sonra bunlara ehtiyac olmurdu.

Xalq, həmçinin üstündə müxtəlif təyinatlı dualar, gözmüncuğu, göyərtmə muncuğu və s. olanlarında qırxı çıxmamış uşaq yatan otağa girməsinə qətiyyən imkan verməzdi. İnama görə, üstündə göyərtmə muncuğu olan naməhrəmin uşağın üstünə gəlməsi, onun rənginin göyərməsinə və mütləq ölməsinə səbəb ola bilərdi.

Naxçıvan bölgəsində göyərtmə muncuğu "baboğlu" adı ilə məlum idi. Yaşıl-göy və ya sarımtıl rəngi olan bu muncuğu qırxlı uşağın üstünə gətirdikdə uşaq ölə bilərdi. Bunun qarşısını almaq üçün uşağı babaoğlu muncuğunun üstünə aparardılar. Bununla muncuq kəsərdən düşürdü. Burada geniş işlədilən : "Mənim üstümdə baboğlum yoxdur ki, məndən niyə qaçırsan? "- ifadəsi də məhz həmin muncuğun sehrli, dini-mifik qüdrətini ifadə edirdi.



Xalq inamına görə, qırxı çıxmamış uşağın üstünə çiy ət, qızılgül, eləcə də yaşıl rəngli nə olursa olsun, fərqi yoxdur, gətirmək olmazdı. Çiy ət uşağın boynunun ət kimi sallanmasına, qızılgül ətri onun bihüş olmasına, yaşıl rəngli isə hər şey uşağı göyərtməyə (epilepsiyaya) tutulmasına və hətta ölməsinə səbəb ola bilərdi.

"Qırxın tökülməsi" və ya "uşağın çilədən çıxarılması" mərasimini tamamlamaq üçün işlədilən "qırxaçar camı" Xorasan və Kərbəlada istehsal edilməklə, ölkəyə zəvvarlar tərəfindən gətirilirdi. Üzərində (iç və bayır tərəfdən) ərəb əlifbası ilə "Qurani-Kərim" dən 40-a qədər ayə həkk edilmiş bu cam tuncdan və ya misdən hazırlanır, yastı oturacağı

qabın içərisinə doğru qabarıq olurdu. Qabın kənarlarındakı deşikdən keçirən saplarla, üzərində “bismillah” sözü yazılmış 40 ədəd lövhə-“açar” asılırdı. Orta Asiya və Qazaxıstan xalqları arasında “çilkalit” adlanan bu qab eyni mərasimin icarsı üçün nəzərdə tutulurdu. [129]

Körpə uşaq, bir qayda olaraq, iməkləyənə kimi bələkdə saxlanılırdı. Belə 6-7-yə qədər bir-birindən azacıq böyük olan yumşaq parça materialından hazırlanırdı. Uşağı bələmək üçün parçaları, ən böyüyündən başlayaraq, bir-birinin üzərinə qıyqac (üçkünc) şəkildə salır, sonra uşağı onun ortasına qoyaraq çiynindən aşağı parçaya bələyirdilər. Üst qatda olan birinci bələk parçasının qıyqac ucu uşağın qıçlarının arasına keçirilirdi. Bütün parçalar uşağın bədəninə sarındıqdan sonra metr yarım uzunluğunda bələk ipi vasitəsilə çalkeçir bələyi ayaqdan başa doğru bağlayırdılar. Bələk ipi əlvan parçalardan lentvari düzəldilirdi.

Adətən, 7-8 aylıq uşağın qollarını bələkdən azad edir, ona müvafiq biçimli köynək geydirirdilər. Uşağın açıq qalmış əllərinə isə kiçik torbaya oxşar, barmaqsız, boğazı büzməli əlcək geydirir, onu iplə biləyə bağlayırdılar. [130]

Bələyə salınmış uşağı beşiyə qoyarkən onun üzünə bir qayda olaraq, nazik ucuna salırdılar. Çünki, belə olduqda uşağı, “beşik quşu vurar” bu da ölümlə nəticələnə bilərdi.

Bəzi ailələrdə yeni doğulan uşaq ardıcıl olaraq ölür, valideynlərinin “əlində ”qalmırdı. Bunun üçün Qarabağ bölgəsində yeni doğulan uşaqlara özgə paltarı, bəzən də diləçi qiyafəsi geydirirdilər. Bu tədbir “ölüm ilahəsini azdırmaq” kimi mənalandırılırdı. Türk xalqlarının ümumi inamlar panteonunda bəd ruhları azdırmaq üçün yeni doğulan uşaqların çoxuşaqlı ailələrə “satılması ” adəti də mövcud olmuşdur.

Uşaq müəyyən yaş həddinə çatdıqdan sonra onun geyimi xüsusi diqqətlə hazırlanırdı. Bu işdə qadınların xüsusi səriştəsi, təkrarsız zövqləri özünün daha çox birüzə verirdi. Ə.K. Ələkbərov haqlı olaraq yazırdı ki, qadınların öz bacarıqlarını nümayiş etdirmək üçün vahid, yeganə yaradıcı sahə uşaq geyimləridir. Düzdür, bu geyimlər bütünlükdə böyüklərin geyimlərini təkrar edirdi, lakin yenə də qadın ana burada özünün şəxsən xəyalında canlandırdığı zövqünü əks etdirə bilirdi. Bu qadına ona görə müyəssər olmuşdu ki, hələ texniklik yaşına

çatmayan uşaq və onun geyimi hüququ normaların təsirinə məruz qalmamışdı. [131]

Etnoqrafik materiallar göstərir ki, əgər kiçikyaşlı qızların geyimləri bütünlüklə qadın geyimlərinin təkrar idisə, oğlan uşaqlarının geyimlərində fərqli cəhətlər var idi. Bu, ilk növbədə özünü, uşaq şalvarlarının biçim və tikiş tərzində göstərirdi.

Azərbaycanda uşaq şalvarlarının **"bağlı (nifəli, "aşırmalı"** və **"finka"** olmaqla üç növü geniş yayılmışdı. Bu şalvarların növ müxtəlifliyi ilə yanaşı bir cəhəti də var idi ki, onların heç birini açıq bağlamaq ehtiyaca yox idi. Bunun üçün şalvarın orta hissəsinə miyança (şalvar ağı) qoyulmur, onun beldən başlayaraq qabağa qədər arası yarıq tikilirdi. Eyni növ yuşaq şalvarları tatarlar, taciklər arasında da mövcud idi. [132]

"Bağlı şalvarlar" beldə saxlanmaqla, nifə yerinə tumanbağı keçirilərək geyilirdi. Adətən, belə şalvarların balağı açıq saxlanıldığından, ona "balağı aşıq şalvar" da deyilirdi.

"Aşırmalı şalvar"ın beli nifəsiz, balaqları isə büzməli olurdu. Arxada-çanaq sümüyü üstündə şalvarın başının hər iki tərəfində bir-birindən 12-15 sm aralı, ucu ilgəkli açırım tikilirdi. Lentvari olan bu aşırımlar kürəkdə çarpaz edilərək çiyin üstündən qabağa gətirilir, burada şalvarın başına tikilmiş düyməl
ərlə bağlanırdı.

"Finka" adlanan şalvarın həm balaqları həm də beli büzməli tikilir, bəzən buraya rezin də salınırdı. XX əsrin 60-70 ci illərinə qədər bu formalı şalvar əsas uşaq geyimlərindən biri olaraq qalmaqda idi. Onu, başlıca olaraq, qara və göy sətindən tikirdilər. Finka, XIX əsrin 40-cı illərindən başlayaraq, Azərbaycana köçürülən rus təriqətçilərindən (molkanlar, duxoborlar, subbotniklər və b.) mənimsənilmişdi. [133]

Oğlan uşaqlarının digər geyimlərində elə bir fərq nəzərə çarpmırdı. Onlarda böyüklər kimi ayaqlarına çarıq və ya başmaq geynir, başlarına araqçın, təsək və dəri papaqlar qoyur, köynək, arxalıq, çuxa və s. geynirdilər. Mirzə qədim İrəvaninin XIX əsrin 70-ci illərində çəkdiyi yeniyetmə oğlan rəsmdə bu geyim növləri aydın görünür. Ayağına qara rəngli hündür daban başmaq geyinmiş bu oğlanın başında qəhvəyi rəngli, silindirik bişimli papaq vardır. Ağ parçadan boyunla tikilən köynəyin üstündən yaxası boğazın altına qədər, 10 ədəd düyməlenmiş

mavi rəngli parçadan arxalıq geymişdir. Arxalığın qolları biləyə qədər olub, bilərzikə tamamlanır. Arxalığın üstündən belinə toqqalı kəmər bağlanmışdır. Şalvar tünd göy rəngli parçadan tikilməklə, balaqları sərbəstdir. Arxalığın üstündən geydiyi dizdən azacıq yuxarı ətək yanları büzməli, qolları dirsəyə qədər uzanan və cibli tikilən geyi muşaq çıxası olub, üzəri bafta naxışlı qırmızı parçadandır. Çuxanın boyvəboy açıq ola yaxa kəsiyinə, ətək yanlarına və qollarına ağzına təxminən iki barmaq enində tirmə bafta tikilməklə haşiyələnmişdir.

Keçmişdə qız uşaqlarının geyimləri, rəng əlvanlılığı, estetik gözəlliyi, biçiminin xüsusi əndazəsi, narın tikiş texnologiyası, asma və tikmə bəzəklərinin çoxluğu ilə səciyyələnirdi. Bir qayda olaraq, bu geyimlər parlaq rəngli (tünd qırmızı, mavi, çəhrayı, narıncı), əlvan naxışlı bahalı parçalardan tikilir, yaxa kəsiyi, ətək yanları, boynu və qollarının ağzı zərif tikmə bəzəklərlə örtülürdü. Qız uşaqlarının geyim dəstində qadın geyimlərinin kiçik ölçüdə təkrar olan ətəkli tuman, köynək, arxalıq, küləcə, çəpkən, nimtənə, katibi, kiçik ölçülü baş yaylığı, kəlağayə, başmaq və s. əsas yer tuturdu. Varlı zümrələrin uzaq geyimlərinə qızıl və gümüşdən kəsilmiş düymələr, tuman-köynəyə və digər üst geyimlərinə bəndlənən bəzəklər, eləcə də müxtəlif baş, boyun və qol bəzəkləri onların geyimlərinə xüsusi rövnəq verirdi. Kasıb ailələrin qızları üçün bu geyim dəstlərini geymək arzu olaraq qalırdı. Belə ailələr "necə geyinmək deyil, nə tapıb geyinmək" haqqında düşünürdülər.

Uşaq geyimlərinə əlavə edilən müxtəlif tikmə bəzəklər, naxışlar və bəzəylər (bafta, şahnəsənd, zəncirə, pilək, sərmə, gəldirgə, görüş, dördtikə, çalkeçir. Muncuq tikmə və s. ) sırf bəzək funksiyası daşıyırdısa, rəngli şüşələrdən və qiymətli metallardan hazırlanmış muncuqlar (göz muncuğu, sarılıq muncuğu, möhrə muncuğu, qustunu muncuğu, süleymani, göyərtmə muncuğu, baboğlu, şəvə muncuğu və s.),



həmçinin, üstü rəngli saplarla örtülü olan üçkünc dualar, tısbağa kürəyi, dağadağan çiliyi asma bəzək növlərinin digər bir qrupunu təşkil etməklə, xəstəlikdən (bədnəzərdən), şər qüvvələrin hökmündən, sehrbaz tilsimdən qorunmaq məqsədi güdürdü. Bunların müəyyən dini-mifik dünyagörüşü və təfəkkür tərzi ilə bağlılığı xalq arasında onlara çox güclü inam yaratmışdı. Belə asmların hər birinin müəyyən mühafizə etmə gücü olduğunu xalq dəfələrlə sınaqdan keçirmişdir. Məsələn, digər muncuqlar arasına taxılan şəvə muncuğu uşağı qarabasamadan, sarılıq muncuğu sarılığa tutmadan, nəzər duaları, göz muncuğu və dağdağan çiliyi bədnəzərdən, möhrə muncuğu mədə ağrısından, qusuntu muncuğu soyuqdəymədən, baboğlu muncuğu şərdən və bədbəxtlikdən "qoruyurdu". "Süleymani" altı künclü metalın (əsasən gümüşün ) içərisinə yerləşdirilmiş muncuq olub, həm paltardan asılı, həm də yatan zaman uşağın başının altına qoyulurdu. Bu muncuq uşağı bəd ruhların (hal anası, şeşə, şəppə, vurğun və s.) qorumaq üçün düşünülmüşdü. Q.P.Vasilyeva haqlı olaraq yazırdı ki, müxtəlif materiallardan hazırlanan bu bəzəklər uşaq anadan olduğu ilk gündəncə onun boynuna, əllərinə, ayaqlarına, papağına və paltarına bəndlənirdi. [134]

XX yüzilliyin əvvəllərindən başlayaraq ailə və məişət tərzində, iqtisadi və mədəni həyatda baş verən köklü dəyişikliklər qadın və kişi geyimləri kimi, uşaq geyimlərinin də fabrik istehsalı olan geyimlərlə əvəz olunmasını şərtləndirmiş, XIX yüzilliyin ənənəvi geyim elementlərini istifadədən çıxarmış, uşaq geyimləri və bəzəklərlə bağlı bir sıra adətləri, inamları və mərasimləri isə unutdurmuşdur.

# BƏZƏKLƏR

Kişi və qadın geyim kompleksinin tamamlayan, onlara xüsusi yaraşıq verən bəzəklərin meydana gəlməsi tarixi geyim mədəniyyətinin özünün tarixi qədər qədimdir. Hələ təbiəti dərk etmək iqtidarında olmayaq ibtdai insan, hazır şəkildə əldə etdiyi və ya özünün bəsit, primitiv "sənət yaradıcılğı" fantaziyası ilə yaratdığı əşyalardan həm həqiqi mənada bəzək elementi kimi həm də magik və mifik düçüncə tərzinə uyğun bəhrələnməyə çalışmışdır. Əhatəsində yaşadığı aləmin müxtəlif qüvvələrdən (ruhlardan) ibarət olduğunu düşünən ibtidai insanlar, bu ruhlar içərisində xeyirxahlara səcdə etmiş, şər, qəzəbli, kinli, ziyanverici və xəstəlikər törədən bədxah ruhlara lənət oxumuş, onlardan qorunmaq üçün magik qüvvəyə malik "qoruyucular" düşünüb tapmışlar. Bunlar daş, sümük, buynuz, insan və ya heyvan dişi, balıqqulağı, eləcə də, bədənə həkk olunmuş döymələrdən (tatuirovka) ibarət olmuşdur. Göründüyü kim, ibtidai insanın ilk dəfə müraciət etdiyi bəzək elementləri yaraşıqdan daha çox əməli əhəmiyyət kəsb etmişdir.

İctimai inkişafın sonrakı mərhələrində cəmiyyətin siyasi, sosial-iqtisadi, mədəni həyatında, ideologiya və dünya baxışında beş verən dünya dəyişiklikləri, xüsusilə də metalişləmə sənətinin və bədii metal sənətkarlğının təşəkkül tapması bəzək elementlərinin praktik-əməli əhəmiyyətinin arxa plana sıxışdırıaraq onları əksərən sırf bəzək-zinət əşyaları kimi səciyyələndirməyə başladı. Qədim Azərbyacan ərazisində metalla ilk tanışlıq Eneolit dövründən başlasa da tuncun, dəmirin, sonralar isə nəcib metalların (qızıl, gümüş və s.) istehsal texnologiyasının mənimsənilməsi nəticəsində Azərbaycanın antik və orta əsr abidələrindən əldə edilmiş külli miqdarda bəzək və zinət nümunələri [135] burada bəzək istehsalı texnologiyasının təkmilləşdiyini göstərir. Saxlanc, cehiz və ya müxtəlif hədiyyələr etmə yolu ilə əsrdən-əsrə, nəsildən-nəslə keçərək bu zinət əşyaları və onların bəzək dekorları xalqın etnik tərkibini, sinfi və yaş mənsubiyyətini, maddi və mənəvi mədəniyyətinin, estetik-bədii zövqünü, istehsal həyatını öyrənmək üçün dəyərli mənbə rolunu oynayır.

Azərbaycanın zərgərlik mədəniyyətini inkişaf səviyyəsinin öyrənilməsində Manna incəsənti nümunələri mühüm mərhələ təşkil edir.

Urmiya gölünün cənub-şərqində yerləşən Ziviyədən tapılan və e.ə. VIII-VII əsrlərə aid edilən "Ziviyə dəfinəsi"nin tərkibindəki şir başları ilə bəzənmiş, qızıl bilərzik, təsvirli qızıl kəmər, qızıl sinabənd və s. bu dövrdə bəzk elementlərindən geniş isitfadə edilməsini təsdiqləyir. [136] "Kitabi-Dədə Qorqud" dastanında təkcə qadınların deyil, kiçiklərində qızıl taxdıqları və qulaqlarına qızıl tana –"altun küpə" keçirdikləri göstərilir. [137] Vaxtilə aparılan areoloji qazıntılardan tapılan, eramızın IV-VI əsrlərini ən yaxşı alban incəsənəti nümunəsi hesab olunan və hazırda Sankt-Peterburqda Dövlət Ermitajında saxlanılan tunc gül qabı üzərindəki atlı təsviri kişilərin də bəzək elemntlərindən geniş istifadə etdiyini təsdiqləyir. Alban hökdarı Cavnşirin təsviri ehtimal edilən bu atlının başında tac, belində qoymətli kəmər, qolunda qolbaq, qulağında isə sırğa vardır. [138]

Aparılan tədqiqatlardan aydın olur ki, Qafqaz Albaniyasının orta əsr sənətkarlıq mərkəzlərində (Qəbələ, Mingəçevir, Bakı, Gəncə, Şamaxı, Naxçıvan, Beyləqan, Şabran və b.) digər kustar sənət sahələri ilə yanaşı, bəzək-zinət istehalı sahəsidə hərtərəfli inkişaf etmişdir. Arxeoloji qazıntılar nəticəsində müxtəlif materiallardan (mis, tunc, dəmir, qızıl, gümüş, bürünc, şüşə, gil) hazırlanan, çoxçeşidli istehsal texnologiyaların vasitəsilə (döymə, tökmə, yonma, burma-eşmə, lehimləmə, bəndetmə, zərbetmə və s.) hasilə gətirilən rəngarəng çeşidli bəzəklər (sırğa, üzük, bilərzik, sinəbənd, asma möhür, medalyon, sancaq, kəmr-toqqa və s.) orta əsrlər dövrünün bəddi sənətkarlıq haqqında geniş təsəvvürləri yaradır. [139]

Bəzək-zinət əşyaları istehsalı, xüsusilə də qadın bəzəklərinin geniş çeşidi haqqında məlumatlar klassiklərin əsərlərində və dastan yaradıcılığında aydın izlənilir. Dahi mütəfəkkir N. Gəncəvi "Xəmsə" də bəzəklərlə bağlı xalq təsəvvürlərindən, daş-qaş və zər-zivərin rəmzi məna daşımasından, onların çeşidinin müxtəlifliyindən və milli ornamentlərin misilsiz təkrarsızlığından ürəkdolusu bəhs etmişdir. Onun əsərlərimdə rast gəldiyimiz üzəri sikkələr və gövhərlərlə bəzədilmiş qızıl kəmər, qaşlı və ya qaşsız, tacidar möhürü rolunu oynayan üzüklər "tuği", "gərdənbənd", "xalxal", "zərli həmayıl", zənəbrinə boyunbağı, "tac", saça taxılan ağa möhrələr, sırğalar, eləcə də

libasa vurulan bəxyələr Azərbaycan qadının milli libaslarının bəzək elementlərinin zənginliyini göstərir. [140]

Dastan yaradıcılığında, əsasən, zər-zivər içərisində süstlənən əsəb-nəsəbli bəy, xan, tacir-tüccar təbəqəsinin bəzək əşyaları hesab olunan boyunbağılara ("mərcanə". "silsilə" və s.) təsadüf olunur:

Ay həzərat, gəlin sizə söyləyim,
Göz düşüb Səlbinin mərcanəsinə.
Sərraflar yığılıb qiymət qoysunlar,
Min tümən kəsdirib bir danəsinə. [141]

Yaxud:

Bülbül ayrılığı sitəmdi gülə.
Güləbətin naxış süsən sünbülə,
Badilə mintənə, üstdən silsilə,
Sərəndazdan töküb başa- baş Pəri. [142]

Göründüyü kimi, kamil sənət əsəri səviyyəsində hazırlanan bu bəzək nümunələri bahalı olmaqla yanaşı, zərgərlik incəsənətinin inkişaf durumunu da göstərir.

"Şah İsmayıl" dastanında "Gülzarın boynunda babasının yeddi illik bac-xəracı ilə başa gəlmiş bir boyunbağı" dan bəhs olunur. [143] Bütün bunlar Azərbaycan zərgərlərinin sənət bacarığını, yerli istehsalın səviyyəsini, balıcası isə, sosial təbəqələr arasında qeyri-bərabərliyi göstərir və bəzəklərin az bir qisim əhali arasında dəbdə olmaqla, dar sosial mühitdə yayıldığını təsdiq edir.

XVII əsrdə Azərbaycanda zərgərlik və zinət-bəzək əşyalarının hazırlanma səviyyəsindən bəhs edən M.X.Heydərov bir çox Avropa və türk səyyahlarının məlumatlarına əsaslanaraq yazır ki, zərgərlik məlumatları, müxtəlif bəzəklər orta əsr Azərbaycan əhalisinin, xüsusilə əyanlar və varlı tacirlərin məişətinə o dərəcədə geniş daxil olmuşdu ki, bu, zərgərlik məlumatları satan zərgər dükanlarının xüsusi cərgəsinin yaranmasına səbəb olmuşdur. Təbriz və Ərdəbil qeyrəsriyyələrində ən bahalı və ən zərif zərgərlik məlumatları belə tağbəndli zərgər

dükanlarından ibarət sənət cərgələrində müşahidə olunurdu. Bəhs olunna dövrdə belı sənət cərgələri Şamaxı şəhərində də mövcud idi. [144] Eyni məlumatın XIX-XX əsrin əvvəllərində Bakı şəhərinə də aid edilidiyinin şahidi oluruq. Bu dövrün rus səyahətçisi E.Markov Bakı limanının Şərqin Marselinə çevrildiyini qeyd edərək yazırdı ki, memorial abidələri ilə diqqəti cəlb edən bu şəhərdə örtülü bazarlar, zərəgrlik emalatxanaları cərgə ilə düzülmüşdür. Orada gümüşdən firuzə ilə bəzədilmiş filiqran-şəbəkəçilik məlumatının gözəl nümunələri emal olunmaqdadır. [145]

Geyimlərə xüsusi yaraşıq verən bəzək məluamtlarının hazırlanması və satışı XVIII-XIX yüzilliklərdə yüksək xətlə inkişaf etmişdir. XIX əsrdə Quzey Azərbaycanda Naxçıvan, Ordubad, Gəncə, Şəki, Şamaxı, Bakı, Quba, Şuşa, Lənkəran və Salyan şəhərləri başlıca zərgərlik mərkəzləri sayılırdı. XIX yüzilliyin 50-ci illərində Gəncədə 24 zərgər, [146] 80-ci illərdə Qazax qəzasının Şəmşəddil sahəsində 3, Zəyəm stansiyasında 2 güşəbənd, [147] XIX-XX yüzilliyin hüdudlarında isə Bakıda 130 nəfər qeydiyyatdan keçmiş zinət ustası və 89 nəfər şagirdi, Şamaxıda 25, Salyanda 13, Qubada 12, Gəncədə 33, Nuxada 22, Şuşada 12 nəfər zinət ustası fəaliyyət göstərmişdir. [148]



XIX-XX yüzilliyin əvvələrində bəzi əməli əhəmiyyət kəsb edən bəzəklər (toqqaqayış, kəmər, xəncər qını, saat və saat qabı, vəznə - patrondaş, tütün qabı, saat zənciri, üzük və s) istisna olmaqla, kişi geyimləri demək olar ki, bəzəkisiz olurdu. Bu məsələdə əhali "erkək atın çulu cırıq olar", "bəzənmək qadına yarşır"- kimi mülahizələrə əsaslanırdı.

Bəhs olunana dövrdə hazırlanan bəzək-zinət məlumatları qadın geyim kompleksinin vacib elementi kimim əhəmiyyət kəsb etmişdir.



Zərgərlik incəsənətinin tədqiqatçları bu dövrün zərgərliyinin yeni-yeni bədii və texniki xüsusiyyətlərinin meydana çıxdığını, hazırlanan məlumatda xalqın adət-ənənsinin, əqidəsinin, sosial mövqeyininn şərti dekorativ formada, rəmzi mənada işlədilməsinin ön plana keçməsini qeyd edirlər. Azərbaycan zərgərlik geyimlərində bəzək şeylərini bədii formasını və naxışlarını (dekorativ bəzəyini) gücləndirmək məqsədilə həm yekcins qızıl və gümüşdən həm də, müxtəlif cəvarihatın ahəngdar qarşığından məharətlə istifadə etməklə bu və ya digər zinət növünün hazırlanmasında həndəsi, nəbati, zoomorf və astral motivli naxışlar tətəbiq edilir, məlumatların surəti (ay, ulduz, günəş, yarpaq, gül, şaxə, balıq, quş və s.) təbii-dekorativ formalarda alınırdı. [149]

Kustar sənət üsulu ilə (döymə, qəlbkarlıq, basma, savadlanma, şəbəkə, minasızlıq, xatəmkarlıq və s.) hazırlanan bəzək-zinət məlumatlarının əksəriyyəti Azərbaycanın sənət mərkəzlərində ərsəyə gəlsə də, bəzən varlı əyanların tacir-tüccar əhalinin qadınlarının bəzkələri içərisində xaricdə hazırlanan, üzəri kəsmə sikkələrlə (ərəfi, impreial, çervon, lirə, real, tilani və s. tərtiblənən bahalı kəmər, boyunbağı və qolbaqlara da rast gəlmək olurdu.

Etnoqrafik və ədəbiyyat materiallarının təhlili göstərir ki, Azərbaycan qadınlarının bəzək-zinət əşyalarının hazırlanmasında müxtəlif qiymətli daşlar, (mirvari, yaqut, əqiq, kəhrəba, zümrüd, firuzə, mərcan, şəvə, hətta brilyant) mühüm yer tutmuş, mürəkkəb əsaslı zinət məlumatlarının komponent tərkibi olmuşdur. Bu qiymətli daşlardan bir çoxu ölkəyə karvan ticarəti vasitəsilə Şərq ölkələrindən gətirilirdi. Belə kombinə edilmiş şəkildə (qiymətli metallarla –ləl cəvahiratın kombinəsi) hazırlanan zinət və zər-zəbərcəd baha başa gəldiyindən, imkansız qadınlar ucuz daşlarda, adi şüşədən, misdən. Tuncda, hətgta bəzi meyvələrin çəyirdəklərindən (iydə, xurma və s.) sapa düzməklə bəzək şeyləri hazırlayıb gəzdirir, toyda, el şənliklərində isə varlı qadınlardan bəzi zinət-bəzək əşyalrını 1-2 günlüyə “birovuz” alırdılar.

Azərbaycan qadınlarının qiymətli metallarla ləl-cavahiratın qarşılıqlı tətbiqindən hazırlanan zinət əşyaları istifadə qaydasına və gəzdirilmə tərzinə görə baş, qulaq, boyun, sinə, bel, qol, barmaq bəzəkləri olmaqla müxtəlif qruplara bölünürdü. Lakin qadın bəzəkləri təkcə bunlarla məhdudlaşmırdı. Qadın üst geyimlərinin boyunluğunu, yaxalığına, qollarının ağzına, ətəklərinə hətta bəzən çiyinlərinə də müxtəlif üsullarla bəzəklə vurulurdu. Müxtəlif bəxyə, bafta, zəncir, həşyə, güləbətin tikmə və s.-dən ibarət olan bu əlavələr dekortiv-bəzək funksiyası daşıyırdı.



"Cığcığa" adlanan baş bəzəkləri dəstənin Azərbaycanda "tac" ("dingə, "cıqqa"), sonralar isə "qəfəsə", "alınlıq", "tetir", "çəngəlli çənəbənd"("qarmaq"),"qıraqlıq", "cütqabağı", "gəlintac", "qarabatdaq" ("araqçın"), "təsəkqabağı", "taclı", "cütqabağı" və s. kimi müxtəlif növlərindən istifadə olunmuşdur. XIX-XX yüziliyin əvvəllərində əsasən toy-nişan geyim dəstinin mühüm elementi hesab olunan "tac", orta əsrlərdə dövlət başçılarının hakimiyyətə rəmzə olmuşdur. Bir qayda olaraq, qızıl və gümüş sağanağına qiymətli daş-qaş düzülmüş, öndən görünüşü nəfis işlənilən tacdan hökmdar rəsmi qəbullarda, hökmlər verəndə, hakimiyyət taxtında əyləşəndə rəsmən istifadə edirdi. XIX əsrin əvvəllərində Azərbaycanda xanlq idarə-üsulu ləğv edildikdən sonra şahlıq (xanlıq) geyim dəsti kimi, tacdan istifadə də aradan çıxmış, bununla belə, bəzək-zinət dekorunun başın alın hissəsindən cəmlənməsi əsanən bir çox qadın qadın baş bəzəklərin meydana gəlməsi əsas olmuşdur. [150]

Qəfəsə-başa dingə qoyulduqdan sonra onun qabağına tutulan (tikilən) üstü baftalı bəzək idi. Başa qoyulan dingəyə daha yaraşıqlı görkəm verməkdən ötrü onun qabağına bəzən ətrafına qızıl və gümüş pullar düzülmüş “tetir” tutudular. Rəqs zamanı metal cingiltili, melodik səslər çıxarsın deyə, dingənin dövrəsinə “qıraqlıq” adlanan xüsusi bəzək elemetinin əlavə edilməsi də dəb idi. Qıraqlığın üstü gümüş pullarla örtülü olurdu.



Daha imkanlı və əsəb-nəsilli imkanlı qadınları baş geyiminə əlavə olunan bəzək kimi “alınlığ”a (qabaqlığa) üstünlük verirdilər. Azərbaycanın ayrı-ayrı zərəgrlik mərkəzlərində “pilə, “pərək, “gülpərək”, “kəsmə” adlanan zəngin bədii dekora malik mürəkkəb zinət üsnürlərində, bəzən isə sadəcə kənarına qulp bəndlənmiş asma və qızıl sikkələrdən tərtiblənmiş “pilək alınlıq”, “əşrəfi qabaqlıq” xüsusilə yüksək qiymətləndirilirdi. Varlı qadınların alınlığı adətən, daş-qaşala, son vaxtlar isə briliyantla bəzədilirdi. [151]

Taclı cütqabağı şəbəkəçilik üslubunda nəfis işlənməklə, bəzək-nəqş ünsurlərinin (gül-çiçək, ulduz, yarpaq, qönçə, qübbə, ayapara, buta və s.) öndə (alında) cəmlənməsi ilə səciyyələnirdi. Bakı zərgərlik (şəbəkəçilik) məktəbinin nümayənədəsi Məmməd Şəfi taclı cütqabağı hazırlamağın mahir ustası olmuşdur. [152]

Şəngəlli çənəbənd və ya qaraqam əməli əhəmiyyət kəsb etməklə, mürəkkəb quruluşu çalma və dingələri başda möhkəm saxlamaq, hörüyə gəlməyən cığa-birçəyi nizamlamaq, son nəticədə isə bəzək məqsədilə işlədilirdi. Çəngəlli çənəbənddən (qarmaqda), bir qayda olaraq, ərli qadınlar istifadə



etsələr də, nişanlı qızlar və cavan gəlinlər baş bəzəyi kimi “tel sancağı”, “telbasan, “ərcə”, “qüllaba”ya üstünlük verirdilər. Bəzək-nəqş formalarından asılı olaraq Azərbaycanda çəngəlli çənəbəndlərin (qarmaqların) “gül çəngəl”, “mərcanə qarmaq”, “örpü qarmaq, “həsiri qarmaq”, “qabırğalı çəngəl” və s. kimi dəstləri hazırlanmmışdır. “Qarabatdaq” (“araqçın”) adlanan baş bəzəyi Naxçıvan etnoqrafik bölgəsi üçün səciyyəvi olub, adətən, uclarından ilgək-düymə olan ensiz parça və ya bafta üzərinə halqalardan asılmış rombşəkilli qızıl asmalar bənd etməklə düzəldilir, bəzək dekorları alının üstünə düşmək şərtilə baş örpəklərinə və ya araqçına bağlanırdı. Sonralar ondan boyun bəzəyi kimi istifadə olunmuşdur.

Boğaz bəzəyi kimi qarabatdaq sadə və ətəkli olmaqla iki variantda hazırlanırdı. Sadə qarabatdağı, adətən, rəngli muncuqları (xüsusuilə də “∞” formalı “qum muncuğu” nu) sapa nəfis şəkildə düzməklə hazırlayır, onun də hər cərgəsi “hel ” adlanırdı.

Ətəkli qarabatdaq isə qızıl və ya gümüşdən nəfis şəkildə kəsilmiş rombşəkilli, konusvari, ulıduz, aypara, düzbucaqlı-kitabvari, yarpaq, buta, badamı və s. şəkilli bəzək elementləri bir neçə cərgədə halqalar vasitəsilə sapa düzməklə əldə edilirdi. Şübhəsiz ki, sadə (muncuqlu) qarabatdaq aztavanlı, ətəkli qarabatdaq isə kübar qadınlarının, tacir-tüccar əyalının bəzək-zinət elementi olmuşdur. XIX yüzillikdə Azərbacan qadınlarının baş geyimini təşkil edən mürəkkəb qurluşlu dingələr, üstü zəngin bəzkli araqçınlar, xüsusi əndazə ilə salınan çalmalar, müxtəlif çeşidli örpəklər nəfis işlənmiş bəzək şeyləri ilə bəzədildiyindən, qadın görkəminə təkrarsız gözəllik verirdi.

Qulaq bəzəkləri Azərbaycanda zaman-zaman “altun küpə,



“tana”,”güşvarə”, “sırğa” və başqa adlarla məlum olmuş, və çox geniş çeşiddə hazırlanmışdır. “Darağı”,”səbəti”, “gilası”, lolu (lola”), kufə, “minarə”, piyalı-zənn”, “buta,”, “badamlı”, “heydəri”, “aypara”, “yarpaq”, “qozalı,”, “fındığı”, “piyalə”, “pərəkli”, “qırxdüymə”, “satıl” “üçdüymə”, “zanqaguş”, “ətəkli”, “şarlı” və s. sırğa növləri, cavahir tana uzun zaman Azərbaycan qadınların istifadə etdiyi bəzək əşyası arasında üstün yer tutmuşdur. Sırğa (tana) növləri qulağın “niçək” adlanan aşağı hissəsinə-qulaq pipiyinə bağlanırdı. Bunun üçün bir qayda olaraq, kiçik yaşlarından (3-4 yaşından) qızların qulaqların küllə ovudub keyidir, sonra saplı iynənin arxa tərəfi ilə qulağın pipiyini deşir, oradan keçirilən sapa 1-2 ədəd muncuq taxırdılar. Deşilmiş yer bitişməsin deyə, sapı tez- tez yağlayır və tərpədirdilər. Qeyd etmək lazımdır ki, ailədə uzun müddət dünyaya gəlişi gözlənilən , əziz-xələf sayılan, nəslinə və ya tacın (şahlıq-xanlıq dövründə) davaçısı kimi qəbul edilən oğlan uşaqlarının da bir qulağına da “sırğa” (“heydəri sırğa”) taxmaq dəbdə olmuşdur.

Qadın bəzəklərinin böyük əksəriyyətnin boyun (boğaz) və sinə (döş) bəzəkləri təşkil edirdi. Bunlar həm bahalı daşlardan tərtiblənən muncuqlardan, həm qiymətli metallardan (qızıl, gümüş), həm də daş-qaşla (cavahiratla) əlvan metalların kombinəsindən xüsusi incəliklə hazırlanırdı. Etnoqrafik bölgələrimizdə “boğazaltı” , “yaxagülü”, “məcdiyyə”, “heykəl”, “həmayil”, “qozalı boyunbağı”, “yelpazəli sinədənd”. “hil, “arpa”, “bacaqlı”, “nargilə boyunbağı”, “qarabatdaq”, “mərcanə”, “sərmə”, “gərdənbağı”, “şəddə”, “gərdənbənd”, “qazayağı”, “mamasan”, “çəçik”, “ilgək-qarmaq”, “silsilə” adlarla məlum olan genişçeşidli boyun (boğaz) və sinə (döş) bəzəkləri varlı qadınların geyim dəstində üstün yer tutmuşdur. Maddi cəhətdən imkansız olan qadınlar, bəzənmək xatirinə, hətta adi muncuqdan tuncdan, misdən, iydə və xurma çəyirdəklərindən boyunbağı taxırdılar. Çəyirdəkli boyunbağını düzəltmək üçün yetişən meyvələrin çəyirdəklərinin içərisini qızdırılmış iynə ilə uzununa və ya eninə deşir, sapa düzürdülər. Uzun müddət istifadədə olan bu muncuqlar “sürtülərək” parıldayırdı.


Arpa boyunbağı

Qərb bölgəsi qadınlarının daha çox xoşladıqları boyun və döş



bəzəkləri "heykəl" və ya "həmayil" idi. "Heykəl" ortasında iri paxlavavari muncuq olan boyun bəzəyinə deyilirdi. Sapa keçirilmiş "heykəl" i boyuna elə bağlayırdılar ki, iri muncuq sinənin ortasında dayanırdı. Bir qayda olaraq, "heykəl" in kənarlarına qızıl və gümüş pullar bənd edirdilər. XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Qazax mahalının Qıraq Kəsəmən kəndində yaşayıb-yaratmış el şairi Çoban Əfqan Qərb bölgəsi qadınlarının əlvan geyimlərinin tamamlayan nəfis işlənmiş belə bəzəkləri vəsf etmişdir:

Qapına, gəlmişəm sayılam, sayıl,
Haqq verən paylara mən oldum qayıl.
Sağına, soluna, heykəl, həmayıl,
Qızıl bilərziyi qol kənarında.[153]

Naxçıvan bölgəsində boyun–sinə bəzəkləri içərisndə "qarabatdaq", "çəçik", "silsilə", "səırmə", "gərdənbağı", "sinəbənd", "gərdənbənd" geniş yayılmışdı. "Çəçik" daha mürəkkəb dekora malik zərgərlik sənət nümunəsi olub, əsasən qızıldan hazırlanır və üzəri qiytəmli daşlarla bəzədilirdi. Bölgənin bəzi kəndlərində çəçiyə "çənbərə" də deyilirdi. Naxçıvan Dövlət Tarix Muzeyinin fondunda saxlanılan belə bir çəçik 583 əyarlı qızıldan hazırlanmaqla müxtəlif formalı (sikkə, aypara, yarpaq, düzbucaqlı-kitabvari, ərik çəyirdəyinə



bənzər) 78 hissədən ibarətdir. Bəzək dekorlarının üzərində 26 ədəd göy, bir o qədər də qırmızı daş yerləşdirilmişdir. Yerli zərgərlər tərəfindən hazırlanan bu sənət nümunəsi XVII-XVIII əsrin əvvələrinə aid edirlər.

Naxçıvan zərgərlik məktəbinə məxsus digər bir qadın bəzəyi olan "sinəbənd" silsilə formasında hazırlanmaqla, dörd ədəd aşağıya doğru getdikcə kiçilən, üstü şəbəkə işlənməməli ayparadan, böyük ayaparanın uclarına bərkidilmiş iki yaqut daşdan, çoxsaylı asma-qulplu qızıl sikkələrdən və ətəyi tamamlayan bir ədəd daha iri sikkədən ("süleymani") ibarət olurdu. Sinəbəndin bəzə dekorlarının üzərinə qiymətli daşlar (almaz, yaqut, mina, cavahir, briliyant və s.) düzülürdü.



Qolbaq

"Silsilə" boyunbağının böyüyü "sərmə" adlanırdı. Sərmənin sırası (ətəkləri) variantdan asılı olaraq 4-5-ə qədər olurdu. Sərmənin də hər bir bəzək dekorunun üstünə qiymətli daşlar yerləşdirilirdi.

"Gərdənbənd –bağalamaq üçün uclarında qarmaqları olan 14 ədəd zərif işlənmiş, halqalarla bir-birinə bəndlənmiş, və üstünə sıraşırı qırmızı və yaşıl daşlar düzülmüş bəzək elementlərindən həmçinin bu bəzək dekorundan asılmış 14 ədəd şəbəkəli sırğaaya bənzər hissələrdən hazırlanırdı. "Gərdənbağı" isə narın muncuqlarla düzülümş ətəkli bəzək növü olub, sinəyə qədər çatırdı.

Muğan bölgəsi üçün daha xarakterik olan "məcdiyyə" ("impreial") boyunbağını hаırlamaq üçüün sapa əvvəlcə böyük "hil", sonra isə xırda "arpa hil" düzülürdü. Altı ədəd sağada, altı ədədi isə solda olan həmin hillərin arasına qulplu qızıl impreial asılırdı. Burada dəbdə olan digər bir boyun bəzəyinin –"bacaqlı boynbağı" nan sinədə dayanan ətəyinə ürəkşəkilli uzunsov külçə qızıl asılırdı. Bu bəzək elentinin ortasına dairəvi və ya aypara zümrüd salınır, kənarlarına dilim-dilim qızıl naxışlar vurulurdu. [154]

Azərbaycanın əksər etnoqrafik bölgələri üçün səciyyəvi olan "arapa boyunbağı" larından istifadə olunmasının tarixi olduqca zəngindir. Mingəçevirdən arxeoloji qazıntılar zamanı əldə edilən "arpa" muncuqlar, indi hazırlanan eyniadlı muncuqlarla oxşarlıq təşkil edir. Mütəxəssislərin fikrincə, bu muncuqlar Azərbaycanda 2500 il bundan əvvəl mövcud olmaqla, nəsildən-nəslə keçmiş zəmanəmizə qədər gəlib çatmışdır. "Arpa boyunbağı"ların ortasına gözəl naxışlarla bəzdilmiş dairə formasında digər bir hissə də əlavə edilirdi. Bəzən də onun əvəzinə şəbəkə üsulu ilə hazırlanmış altı, səkkiz və ya on iki guşəli, ortasında yaqut və füruzə qaşı olan ulduz, onun da altını tamamlayan aypara yerləşdirilirdi. [155]

Kişi və qadın geyimlərinin ayrılmaz tərkib hissələrini təşkil edən bel bəzəkləri, xüsusilə də toqqa və kəmərlər özünün bədii-ornamental xüsussiyyətlərinə, tətbiq məqamına (əməli və ya bəzək funkisyasına), yayılma arealına və lokal fərqlərinə görə müxtəlif idi. Azərbaycanda kişi və qadın bel bəzəklərinin "ətəkli" ("sallama"), "taxta kəmər", təkbənd", "gül belbağı", "saltoqqa", "çilik toqqa", "qabırğalı kəmər", "düzmə kəmər", "girvənkə toqqa", "körpü kəmər", "sikkə kəmər" və s. kimi çoxlu çeşidi olmuşdur. Qadın kəmlərinin içərisində yayılma arealına görə ("ətəkli" kəmər tuturdu. Bu növ kəmərlərin qayışı dəridən 10-12 sm.enində hazırlanır, qayış kəmər toqqasına bərkidildikdən sonra üzərinə 20 qəpiklik gümüş pullar üç cərgədə bənd edilirdi. Kəmərin toqqa hissəsi iki ayr-ayrı hissələrdən düzəldilərək, bir-birinə iki qarmaq və halqa vasitəsilə bağlanırdı. Hissələrdən birinin (adətən, qarmaq olan hissənin) ortasına dairəvi şəkildə göy yaqutdan "daş " salınırdı. Naxçıvan bölgəsində bu cür qadın kəməri "göbəkli kəmər" adlanırdı. Ümumiyyətlə isə kəmərə ona görə "sallama" kəmər deyilirdi ki, onun aşağı hissəsinə, kəmərdən aşağıya doğru 10-15-20 qəpiklik qulplu gümüş pullar gümüş zəncirlər vasitəsilə aypara formasında bir-birinə bənd edilirdi. Rəqs və hərəkət zamanı bu gümüş pullar bir-birinə



toxunaraq metal səciyyəli melodik səslər verirdi. Hazırda Samux rayonu Eldar kənd sakini Minayə Nəsir qızı Orucovaya məxsus olan belə kəmərlərdən biri XIX yüziiliyin 60-cı illərində Gəncə sənətkarları tərəfindən hazırlanmaqla, bu sənət mərkəzi nümyəndələrinin fərdi yaradıclıq qabiliyyətini bariz şəkildə nümayiş etdirir.

Etnoqrafik materiallar göstərir ki, gəlin köçən qızların toy-nişan paltar dəstləri arasında üzəri həndəsi, nəbati, astralı motivlərlə bəzədilmiş gümüş (bəzən hətta qızıl) kəmərin olması vacib idi. Bir qayda olaraq kəməri qızlar deyil, gəlinlər gəzdirirdilər. Kəmər təkcə əməli və bəzək əhəmiyyəti kəsb etməmiş, həm də sosial mənsubiyyəti müəyyənləşdirmiş, dini-magik xüsusiyyətlər daşımışdır.

Azərbaycan qadınlarının istifadəsində olan qol, bilək və barmaq bilərzikləri içərisində müxtəlif formalı “qaşlı”, “qaşsız” üzüklər (nişan üzüyü- “halqaxatəm”, “əyrəmçə”, “barmaqçalıq”, “barmaqcıl”, eləcə də zümrüd, füruzə, yaqit, əqiq, ləl, mirvarı və başqa qaşlı üzüklər ), bilərzik və qolbaq-dasinələr (“həsiri”, “gül”, “eşmə”, halqa, “yığma”, körpü, “xəngəli” və s.), “qolaxçası” və s. üstünlük təşkil edirdi. Qaşsız üzüklər içərisində xüsusilə seçilən nişan üzüyü (“halqa-xatəm”), bir qayda olaraq, ərlik qızların “gəlin barmağına” taxılırdı. Azərbaycanın Qərb bölgəsində “barmaqşalıq” adlanan nişan üzüyü məhəbbət, etibar, sədaqət və vəfa rəmzi kimi xüsusi diqqət verilirdi. Adətən, xatircəmlik, nişan (bəlgə) üzüyü sayılan xatəm (halqa) təkkəbinli (monoqam) ailərin meydana gəlməsindən sonra dəbə düşmüş, deyikli (beşikkərtmə, göbəkkəsmə) oğlanlar və qızlar arasında gələcək kəbin münasibətləri qız evinə əvvəlcədən beh kimi qoyulmuş xatəm vasitəsilə rəsmiləşdirirdilər. [157] Üzəri qiymətli daş-qaş və ləl-cavahiratla tərtiblənmiş “bazubənd” kişi qol-bilə bəzəyi kimi məlum olsa da, “qolaxçası” gəlin və qızların bəzək əşyaların kompleksinə daxil idi. Təxminən 2.2,5 sm. enində dairəvi formada olan “qolaxçası”nı biləkdən bir qədər yuxarıya kip bağlayırdılar. O, üzərinə kiçik və zərif zəncirlər vasitəsilə gümüş pullar bənd edilmiş bəzək növü idi. Hərəkət və rəqs zamanı “tetir”, “alınlıq” (“qabaqlıq”), “sallama kəmər”, “piyaləzəng” sırğa, xüsusi əndazə ilə tərtiblənən “qızıl ətəklik”,, libasa bənd edilən “zınqırov-qumroy”larla birgə həmahəng səs verən

“qolaxçası”, demək olar ki, əksər gəlin və qızların bəzək dəstində mühüm yer tuturdu.

“Həsiri” bilərzik (dasinə) Lənkəran-Astara və Muğan bölgələri üçün xarakterik olan qol bəzəyi idi. Eyni formalı və eyni bəzəkli 50 ədəd qızıl hissədən tərtiblənən bilərziyin hər iki kənarında sap keçirmək üçün dəlikləri olurdu. Sapa düzüldükdən sonra bilərzik qola bağlanır, sapların ucaları düyünlənir və düyünü üstünə qızıl düymə bənd edilirdi. Qolun ölçüsündən asılı olaraq qızıl hissələrin sayı artırılıb azaldıla bilərdi.

Toplanılan etnoqrafik materiallardan aydın olur ki, XIX-XX yüzilliyin əvvələrində Azərbaycanın şəhər əhalisinin varlı qadınlarının (bəy, tacir-tüccar, əsəb-nəsəbli zadəgan qadınlarının) nadir hallarda istifadə etdiyi “xalxal” ayağa (topuğa) bağlanmaqla, qızıldan hazırlanırdı. Üzərinə kiçik zınqırovların (qumroylar) sıra ilə bənd edildiyi “xalxal”, bir qayda olaraq, rəqassələrin yağında olsa da, varlılar da ondan yeri gəldikcə istifadə edirdilər.

Azərbaycan qadın bəzəklərinin bir qismini də libasa bənd edilən ənənəvi zərgərlik sənt nümunələri (yaxalıq, ətəklik, çalkeçir-qarışqa, qoza-düyymə, zəngəbənzər qurov, sikkə-düzmələr, və s. ), toxunma və hörmə bəzəklər (bafta, qaytanlı naxış, şapara, hərəmi, qaragöz, sərmə, şəms, pürçüm, qotaz, pitik, buta, şahpəsənd, güləbətin, muncuqlu tikmə, zəncirə və s.) və paltara vurulan müxətlif bəxyə, tikiş və həşyələr (nəlbəki, görüş, dördtikə, büzmə, dejurka, cəhrəpəri, qayçıqulplu, qoşasırıq, xoruzsayağı, qıyı, dəhrəburnu, xanımsalladı, dördsaplı, ikisaplı, üçsaplı, doldurma tikiş, quyrum və s.) təşkil edirdi.

Bafta enli və dar biçimli olub, ipək və zərli saplardan toxunur, lavada, küləcə, arxalıq, baharı, çəpkən və s. kimi qadın geyimlərinin yaxa, boyun, ətək və qol kəsiklərinə tutulurdu. Özünəməxsus yaradıcılıq zövqü, tikmə və naxışsalma qabiliyyəti olan səriştəli qadınlar yuxarıda sözügedən toxuma, hörmə və naxış-tikiş nümunələrinin mahir yaradıcıları idilər.

Göründüyü kimi, qadın geyim kompleksini tamamlayan bəzək nümunələrinin əksəriyyəti qaş-daşdan və qiymətli metalların zərif işlənməsindən ibarət olmuşdur. Bu bəzək-zinət nümunələrinin tərtiblənməsində, mürəkkəb quruluşlu, təkrarasız naxışlı qadın

bəzəklərinin araya-arsəyə gəlməsində Azərbaycanın zərgərlik sənəti mərkəzlərində fəaliyyət göstərən, fərdi yaradıcılıq qabiliyyətinə malik xalq sənətkarlarının rolunu xüsusilə qeyd etməliyik. Məlum olduğu kimi, Azərbaycanda bədii metalişləmə sənətinin müxtəlif üsulları (savadlanma, qəlibkarlıq, şəbəkəçilik, minasızlıq və b.) olmuş, Azərbaycan sənətkarları arasında bu üsulların hər biri üzrə dar ixitsaslaşma getmişdir. XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanın şöhrətli zərgərlərindən bakılı, A.Sultanov, Q.Ağayarzadə, Qulamirzə Kərbalayı Əbdülbaqi oğlu, Məşədi Məmmədrza Mütəllim oğlu, şamaxılı Məmmədibrahim Kərim oğlu, Osman Gülməmməd oğlu, gəncəli, Seyid Abbas, A.Həsənov qəlibkarlıq məlumatlarının; Bakıda Əliabbas, Nağı Əliyev, Məmməd Şəfi, A.Ə.Əliyev, Şəkidə -Teymir Nəbi oğlu, Məmməd Cabbar oğlu, H.Bədəlov, Gəncədə, A.Həsənov şəbəkəçilik məlumatlarının; Hüseyn Hacı Yusif oğlu, Ş.Əliyev, H.A.Axundov, Hacı Əbdül Əlim nəqqaş, Hüseynqulu usta, A.Həsənov, Saleh Nağı oğlu və başqa savadalma məlumatlarının; M.D.Mirəhmədov, Molla Fərəci, F.Babayev, Ə.Kərimov, Ə.Yusifov, Ə.Məcidov, M. İsmayılov və b. minasazlıq məlumatlarının hazırlanmasında xüsusilə fərqlənmişlər. [158] Onların hazırladıqları zərgərlik nümunələri Tiflisdə və Fransada (Parisdə) tanınmış, yüksək mükafatlara layiq görülmüşdür.

Həm sırf estetik-bədii bəzək funksiyası daşıyan, həm əməli əhəmiyyət kəsb edən, həm də bir çox hallarda dini-magik rolu ilə fərqlənən bəzək nümunələrini ictimai təbəqələr arasında sosial bərabərsizliyi daha dolğun əks etdirməklə, bəhs olunan dövrün xüsusiyyətlərini, xalqın həyat və məişət tərzini, lokal və etnik özünəməxsusluğunu, etnik-mədəni təması və türkdilli xalqlar arasında etnogenitik əlaqələri, yaş dövrünün ayı-ayrı pillərində bəzəklərdən istifadə edilməsində meydana gələn dəyişiklikləri və s. özündə daha dolğun əks etdirir. Əksər hallarda xalqın güzəranının və xoş əhval ruhiyyəsinin göstəricisi olan bəzəklərdən islam aləmi ilə sıx bağlı olan bə bəzi dini mərasimlərin (orucluq, məhərrəmlik və s.) keçirilməsi zamanı, eləcə də qırx günlük matəm mərasimi və doğuşdan sonra uzun əsrlər boyu formalaşan bu adət hazırda da icra edilməkdədir.

Bəzəklərdən az və ya çox dərəcədə istifadə edilməsinin bir xüsusiyyəti də şəxsin (qadının) yaş mənsubiyyəti ilə bağlı idi. Adətən,

uşaqlıq və yeniyetmə çağlarında qadın bəzəkləri azlıq təşkil edir, nişanlılıq və gəlinliyin ilk dövrələrində qadın zinətlərinin sayı xeyli çoxalır, ailədə övlad artdıqca və ya qadın yaşa dolduqca üzük və sırğa istisna olmaqla, bəzəklər getdikcə geyim dəstinin tərkibindən çıxır, cehiz, saxlanc və ya hədiyyə predmetinə çevrilirdi.

Toplanılan etnoqrafik materiallar təsdiq edirki, XIX-XX yüzilliyin əvvəllərində qadın geyim kompleksini bədii-dekorativ cəhətdən tamamlayan, onun milli koloritini və estetik bütövlüyünü təmin edən bəzəklər çoxçeşidli hazırlanmaqla, bir qayda olaraq, zər-ziba içində süstlənən bəy, ağa, xan, tacir-tüccar qadınlarının libaslarında üstün yer tutmuşdur. Əhalinin böyük əksəriyyəti üçün bu zər-zəbəcdən, zinət-bəzək əşyaların əldə edilməsi arzu olaraq qalmışdır.

XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərindən başlayaraq Azərbaycanda kapitalist münasibətlərin inkişafı və bazar əlaqələrinin meydana gəlməsi və genişlənməsi, zərgərlik məlumatları (zinət-bəzək əşyaları) istehsal edən fabrik və firmaların sıxışdırılması keçən əsrlərin kustar zərgərlik məlumatlarını məişətdən xeyli sıxışdırsa da, cehiz, saxlanc, hədiyyə etmə yolu ilə nəsillərdən-nəsillərə keçən bir çox əntiq qadın zinət-bəzək nümunələri hələ də xalqın istifadəsindədir.



# YEMƏKLƏR VƏ İÇKİLƏR



# YEMƏKLƏR

Bəşər cəmiyyətinin meydana gəldiyi ilk dövrlərdən insanların, əsas təlabat kimi, qida məhsullarına böyük ehtiyacları olmuş, yaşamaq uğrunda mübarizədə geyim, sığınacaq kimi maddi vasitələrlə yanaşı, yemək məhsularının əldə edilməsi də mühüm əhəmiyyət kəsb etmişdir. Yaranışın ilkinlik çağlarında qida məhsularının təbiətdən hazır şəkildə alan (yığıcılıq) ibtidai insanlar, sonralar ictimai inkişafın gedişi prosesində özləri də yeməklər istehsalı vərdişlərin yiyələnmişlər. Buna görə də yeməklər və içkilər insan cəmiyyətinin yaranması ilə bir dövrdə meydana gəkməklə, hər bir xalqın madii mədəniyyətinin mühüm elementlərindən biri təşkil edir. F.Engels L.H.Morqanın bəşəriyyətin tarixdən əvvəlki dövrə gətirdiyi sistem haqqında danışarkən, onun belə bir fikrinə diqqətimizi yönəldir ki, "...bütün canlı mövcudatdan yalnız insan yemək şeyləri üzərində, demək olar ki, hədsiz hökmranlığa nail ola bilmişdir". [1] Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, ibtidai insanlar özlərinin ilk əmək vərdişlərinə məhz yeməli qida məhsullarını axtarıb tapmaqla başlamış, onların ələdə edilməsi və saxlanması isə ilk primitiv əmək alətlərinin və yemək qablarının meydana gəlməsinə səbəb olmuşdur.

Dünyanın bir çox ərazilər kimi Azərbaycan ərazisinin də ilk insanın meydana əldiyi antropogen zonasına daxil olmasını elmi tədqiqatlar çoxdan sübut etmişdir. Azərbaycanın müxtəlif bölgələrində aşkar edilən ilk insan mağara-düşərgələrindən (Azıx, Tağlar, Qazma, Buzeyir, Zar və b.) ələdə ediləm daş əmək alətləri, heyvan sümümkləri və s. kimi maddi mədəniyyət qalıqları söyləməyə imkan verir ki, ölkəmizin ilk sakinləri yığıcılıqla yanaşı, ovçuluq və balqıçılıqla da məşğul olmuş, onların yemək öynəsində bitki mənşəli yeməklərlə yanaşı ət yeməkləri də mühüm olmuşdur. Azərbaycanda, şübhəsiz ki, uzun əsrlərin empirik bilik və vərdişləri hesabına yaranan, ənənəvi olaraq nəsillərdən-nəsillərə ötürülən zəngin qidalanma ənənələri mövcud olmuş, maddi mədəniyyətin bu sahəsində etnosun milli xüsusiyyətləri daha aydın izlənməkdədir.

Hələ çox qədimlərdən flora, fauna və hidroqrafiya cəhətdən zəngin olan Azərbaycan ərazisində çoxəsrlik qida mədəniyyətinin formalaşması üçün mükəmməl baza, ilkin şərtlər də mövcud olmuşdur. Bu təbii ehtiyatlardan istifadə edən Azərbaycan xalqı müxtəlif çeşidli yeməklərin hazırlanmasında zəngin bacarığa, biliyə və təcrübəyə sahiblik etmişdir.

Maddi mədəniyyətin ən mühafizəkar sahəsi olan yeməklər uzun bir tarixi inkişaf yolu keçdiyindən, ona məhsuldar qüvvələrin tədrici inkişafı, istehsal alətlərinin meydana gəlməsi də təsir göstərmiş, yeməklərin çeşidini artırmış, tərkibini zənginləşdirmişdir. Mezolit dövründə ox və kamanın kəşf edilməsi, "Neolit inqilabı" hesab olunan dulusçuluğun və toxuculuğu meydana gəlməsi ibtidai insanların yemək öynəsində böyük dəyişikliklərə səbəb olmaqla, ərzağın kəmiyyət və keyfiyyətini artırmış, onun uzun müddət saxlanması üçün şərait yaratmışdır.

Vəhşi heyvanların əhilləşdirilməsi, əvvəlcə təbii, sonralar isə süni oddan istifadə edilməsi ibtidai insanların təbiətin asılılığından azad edərək sərbəstliyinə şəarit yaratmış, istehsal məharətinə yiyələnməyə, qida mənbələrinin genişləndirməyə vadar etmişdir. Azərbaycan da odla tanışlığın bir neçə yüz min il tarixi vardır. Azıx mağarasından tapılmş ocaq qalıqları sübut edir ki, ölkəmizin ən qədim sakinləri odla davrana bilmiş, ondan istifadə etməyi bacarmışlar. Oddan istifadə edilməsi ilə insanlar yeni yeməklər hazırlamaq vərdişlərinə yiyələndilər, ən başlıcası isə oddan bişirilən ət və b. qida məhsulları yarı həzm olunmuş halqa yemək süfrəsinə çıxarılmağa başladı.

İcitmai inkişafın sonrakı mərhələlərində qidalanma mədəniyyətinin formalaşmasında hər bir xalqın təsərrüfat mədəniyyətinin isitqamətinin də (əkinçilik, maldarlıq, ovçuluq, yığıcılıq və s.) mühüm təsiri olmuşdur. Azərbaycanda əsas məşğuliyyəti əkinçilik olan dağətəyi və düzənlik ərazilərdə yaşayan əhalinin yemək süfrəsində bitki mənşəli yeməklər bolluq təşkil etmiş, dağlıq bölgələrdə yaşayan maldar elatların qida öynəsində isə ət-süd yeməkləri bikti mənşəli yeməkləri üstələmişdir.

İlk baxışdan adı görünən yeməklərin müxətlifliyi xalqın sosial vəziyyətindəki fərqlərlə də müəyyən olunur. Məlum olduğu kimi, bütün

orta əsrlərdə Azərbaycanda sosial-sinfi təbəqələşmə son həddə çatmışdı. Hərtərəfli təmin olunmuş ağa, bəy, əsilzadə, mülkədar, tacir-tüccar əhli, ruhani və b. sosial zümrələrdən fərqli olaraq, kəndin rəiyyət-rəncbər ailələrində süfrəyə müxtəlif çeşidli yeməklər yalnız arzu olaraq qalırdı. Heç şübhəsiz ki, qidalanma mədəniyyətinin formalaşmasında varlı zümrələr mühüm rol oynamışlar.

Bütün bunlarla yanaşı, müxtəlif çeşidli yeməklərin meydana gəlməsində təbii coğrafi yerləşmə, iqlim şəraiti, iri şəhərlər-ticarət-mədəni mərkəzlərə yaxınlıq və başqa qonşu xalqlarla etnik mədəni əlaqələr də müəyyən dərəcədə əhəmiyyətli rol oynayır. Bəşər tarixinin ümumi inkişaf qanunauyğunluqlarının əsasında maddi-iqtisadi bazisin dayandığını nəzərə alsaq, bu maddi –iqtisadi bazisin bir tərkib hissəsi olan yemək və içkilərin cəmiyyətin həyatında nə dərəcədə həlledici rol oynadığının şahidi oluruq.

Yeməklər və içkilər təkcə qidaya olan tələbat baxımından əhəmiyyət kəsb etmir. Xalq yemək və içkilərin hazırlanmasında bütün qabiliyyətini, bilik və bacarığını ortaya qoyur, bayram və mərasimlərdə süfrələri ləziz və müxtəlif çeşidli yeməklərlə, meyvə-çərəz, xuşgubar xonçaları ilə bəzəyir, lətafətli və xoştamlı içkilər hazırlayır, ağır el yığnaqlarını, el toylarını, şərafətli qonaqlıqları yemək-içmək süfrəsi ilə rövnəqləndirir. Xalqımızın bu sahədə əldə etdikləri zəngin təcrübə, vərdiş, bilik və bacarıqlar daim zənginləşmiş, bu günümüzə qədər gəlib çatmışdır.

Azərbaycanın yeməkləri və içkiləri Qafqazda şöhrət qazanmış binayi-qədimdən bütün Qafqaz xalqlarının yemək süfrəsində həlledici təsir göstərmişdir. Madii mədəniyyətimizin bu sahəsi Ümumtürk mədəniyyəti çərçivəsində də sayılıb-seçilən yerlərdən birini tutur, xalqımızın milli xüsusiyyətlərini



Simiyyat

dünya miqyasında ləyaqətlə təmsil edir.

Azərbaycan xalq yemək və içkiləri çox böyük təşəkkül tapmış, inkişaf və zənginləşmə yolu keçmişdir. Arxeoloji qazıntılardan əldə edilən arpa, buğda və darı qalıqları, çoxsaylı və çoxçeşidli gil və mis qab nümunələri, müxətlif meyvə və bostan və tərəvəz məhsularının daşlamış çəyirdikləri və s. fikrimizi sübut edir. Arxeooloji materiallar Azərbaycanın qədim sakinlərinin istifadəsində olan çörək və xörək adları haqqında sussa da, hər halda xalqın yemək mədəniyyəti, yemək öynəsi barədə təsəvvürlər yatmaqda qiymətli mənbədir.

Azərbaycanın yemək və içkiləri haqqında yazılı qaynaqlarda, ölkəmizdə səyahətdə olan ənəbilərin yol qeydlərində, şifahi xalq yaradıcılığı nümunələrində, orta əsr müəlliflərinin əsərlərində müəyyən məlumatlara rast gəlmək mümkündür.

Vaxtilə "tarixin atası" Herodot massagetlər və onların hökmdarı Tomris haqqında məlumat verərkən İran-Haxamanışı şahı II Kirin massagetləri hiylə ilə məğlub etmək üçün çoxlu qoyun kəsib bol yemək—içmək süfrəsi açdırdığını, süfrəyə tünd şərabla çoxlu qab düzüldüyünü, hər cür təam qoyulduğunu qeyd etmişdir. [2]

"Kitabi Dədə-Qorqud" dastanında Azərbaycan yeməkləri haqqında zəngin məlumatlar cəmlənmişdir.[3] Dastandan məlum olur ki, əhalinin yemək öynəsində dənli bitkilər, ət-süd, bağ-bostan məhsulları əsas yer tutmuşdur. Burada "ətmək" adı altında "bozlamac" və "güməc" kimi çörək növlərindən istifadə edildiyi qeyd olunur.

"Albaniya tarixi"nin müəllifi M.Kalankatuklu Albaniya ölkəsinin bolluğu və bərəkətliyindən söhbət açarkən bu ölkənin balığı, taxıl və üzümü, duzu və zeytunu haqqında ağızdolusu danışır. [4] Şübhəsiz ki, əhali bu nemətlərdən ləziz tamlı yemək və içkilər hazırlaya bilmişdir.

Azərbaycanın orta əsrlər dövrü yeməkləri və içkiləri haqqından qiymətli məlumatlara N.Gəncəvinin "Xəmsə"sində rast gəlinir:

"Yeməklər bişmişdi qoçdan, toğludan,
Uzun yuvarlaq incə çörəklər
Saraydan başlamış qapıya qədər
Kökələr yoğrulmuş yağla, şəkərlə,

Şəkərli küncütdə dada bax hələ,
Ənbərlə yoğrulmuş dadlı yeməklər
Cənnət yeməyindən verirdi xəbər.
Dağ kimi qalanmış öküz və balıq...
Ən dadlı mürəbbə, limonlu şərbət,
Tər halva və badam halvası daşır...
Gülabla çəkilmiş şərbət, gülşəkər...
Qoyuldu süfrəyə yüz çeşid yemək,
Yeməklər xonçaya verirdi bəzək". [5]

N.Gəncəvinin "Xəmsə"sindən aydın olur ki, orta əsrlər Azərbaycanında gündəlik və mərasim yeməkləri bir-birindən fərqləndirilmiş, yeməklər bikti və ət-süd mənşəli olmuş, yemək süfrələrin əmüxtəlif kökələr, külçələr, arapa, buğda və çovdar çörəklər yeyilmiş, kabab, ətli xörəklər, halva, aş (plov), balıq və quş yeməkləri, tutmac, muzəvvər şorbası, zəngəl, süd-ağartı yeməkləri, bal və s. süfrələr bəzəyi olmuş, gülab, buxur, şərbət, adi su, ayran, üzüm şərabı və s. kimi içkilərdən istifadə edilmişdir.

XV əsrdə Ağqoyunlu hökmdarı Uzun Həsənin (1453-1478) nahar süfrələrində iştirak etmiş məşhur İtaliya səyyahı və diplomatı A.Kontarini saray əhlinin "az miqdarda ət qatılmış saraçın darısı və ya başqa hər hansı bir darı" dan hazırlanmış xörəyi bir süfrədə nahar edənlərə isə çox və olduqca yaxşı hazırlanmış xörəklər verirdilər.[6]


Düşbərə

1562-ci il avqustun 20-də Şirvan hakimi Abdulla xan Ustaclının qonağı olmuş ingilis səyyahı A.Cenkinson yazırdı : "...nahar vaxtı çatanda yerdə süfrələr açıldı və müxtəlif cür xörəklər verildi;

xörəklər növlərinə görə cərgə ilə düzülmüşdü; mənim hesabıma görə süfrədə 140 cür xörək vardı. Bu xörəklər yeyildikdən sonra qabları süfrə ilə birlikdə yığışdırıb, təzə süfrələr saldılar. Ortaya 150 növdə meyvə və başqa ziyafət yeməkləri gətirildi. Belə ki, iki dəfədə 290 cür yemək verildi". [7]

XVII əsrdə Azərbaycanda olmuş alman səyyahı A.Oleari də Azəırbaycan xalqının yemək süfrəsinin yüksək dəyərləndirmiş, qatı bəkməz (doşab), "halva" adlanan, ovulmuş badam ləpəsi, buğda unu və qoz ləpəsindən hazırlanan şirniyyat-konfet, "sucuq", nar şirəsi, sumax və digrə tuşməzə şirələr haqqında ətraflı məlumatlar vermişdir. [8]

XVII əsrin məşhur türk səyyahı E.Çələbinin "Səyahətnamə" əsrində Təbriz şəhəri haqqında verilən məlumatlarda Təbrizin məşhur "ağ dəyirmi çörəklərindən", "qızadılmış kəkliyindən", "40 növ ətirli plovundan", "zəmilərində 7 növ çox məhsuldar buğda yetişdirilməsindən", "paxla və arpanın bol məhsul verməsindən" ağızdolusu danılır, şəhərdəki bolluğun və ucuzluğun səyyahı heyran etməsi vurğulanır.[9]

Səyyaların əsərlərində və yol qeydlərindən görünüdüyü kimi Azərbaycana da bütün orta əsrlər boyu qidalanma mədəniyyəti yüksək xətlə inkşaf etmiş, yeni-yeni yeməklər və içkilərlə zənginləşmiş, qazanılan bilik və təcrübələr nəsillərə ötürülmüşdür. Hətta Azərbaycan yeməkləri içərisində elələri olmuşdur ki, səyyahlar onlardan xüsusi olaraq bəhs etmişlər. Məsələn, rus alimi İ.N.Brezin plovu Şərq mətbəxinin klassik xöyəri adlandırmış, 10 məşhur fransız səyyahı A.Düma (XIX əsr) kabab haqqında belə yazmışdır: "kabab mənim səyahət boyu rast gəldiyim ən ləziz yeməkdir. Onu Fransada məşhur olan yeməklərin siyahısına daxil etmək olar". [11]

Azərbaycan şifahi xalq yaradıcılığından, xüsusilə də dastanlarımızda, yemək və içkiər haqında müfəssəl məlumatlar toplanmışdır. Xaql dastanlarında adı çəkilən çörəklər (nan, küllü kömbə,



lavaş, şəkərçörəyi), halva, plov, bostan-tərəvəz məhsullarından hazırlanan yeməklər, ət-süd mənşəli yeməklər, (kababların müxətlif növləri-qoyun, ceyran, öküz, durna, qırqovul, kəklik kababları, süd-ağartı yeməkləri-qatıq, qaymaq, şor, pendir, yağ və s.), eləcə də, bal, ayran aşı, qayğanaq, şirniyyat növləri- noğul, nabat və b. əhalinin istifadəsində olan, gündəlik və mərasim yeməkləri süfrəsinin rövnəqləndirən başlıca yeməklər olmuşdur.

"Koroğlu" dastanında qəhrəmanın ağır yığnaqlarında süfrəsinin boluğu, özünün mərdliyi, qonaqpərvərliyi səmimiyyətlə tərənnüm olunur:

Bir hay desə ağır tüplər basılır,
Qancığadan qanlı başlar asılır.
Hər içkidə yetmiş quzu kəsilir,
Verir aşı, ağ lavaşı Koroğlu.[12]

Azərbaycanın ənənəvi xalq yeməkləri və içkiləri XIX yüzilliyə məhz belə çoxəsrlik baza əsasında qədəm qoymuş, XIX-XX yüzilliyin əvvəllərində daha da zənginləşmişdir. Bu dövrə aid olan tədqiqat əsərlərində müxtəlif dövri və nəşr, məcmuələrdə, səyyahların yol qeydlərində Azərbaycan kulinariyasına diqqət daha da artmış, özünəməxsus məhəlli-lokal xüsusiyyətləri ilə seçilən Azərbaycan yeməkləri təriflənmiş, onlardan ağız dolusu açılmışdır.

XIX-XX yüzilliyin əvvəllərində Azərbaycan yeməkləri gündəlik və mərasim (toy, nişan, bayram, ehsan) yeməkləri olmaqla iki qrupa bölünürdü. Mərasim yeməkləri "üz ağardan xeyir-şər yeməkləri"

kimi hazırlanma texnologiyası, həcmi və tərkibinin kaloriliyinə görə gündəlik yeməklərdən fərqlənirdi.

Azərbaycan xalq yeməkləri tərkib komponentlərinə görə də iki qrupa bölünür: bitki mənşəli yeməklər və maldarlıq məhsullarında hazırlanan yeməklər. Lakin, qeyd etmək lazımdır ki, yeməklər hazırlanıb süfrəyə verilərkən qarışıq tərkibdə olduğundan, belə qruplaşma şərti qəbul edilməlidir. Azərbaycan xalq yeməkləri öz çeşidlərinin müxtəlifliyi və istifadə olunan əsas qida-ərzaq mənbəyinə görə o qədər rəngarəngdir ki, onları süd, ət, xəmir, tərəvəz və b. xörəklər kimi qruplaşdırmaq da məqsədəuyğundur. Azərbaycan qida mədəniyyətinin əsas ənənəvi xüsiyyəti isə ondan ibarətdir ki, burada xəmir və bitki mənşəli yeməklər əsas yer tutur.

Azərbaycan xalq yeməklərinin hazırlanma qaydalarından və qəbulunda da çoxlu xarakterik xüsusiyyətlər özünü göstərir. Bu yeməklər həm də ciddi mövsümi səciyyəsi ilə diqqəti cəld edir: yaz-yay fəsillərində daha çox istifadə olunan bitki-tərəvəz yeməklərindən fərqli olaraq, soyuq fəsillərdə isti bişmişlərə, ət və xəmir xörəklərə üstünlük verilir.

Azərbaycanın təbii-coğrafi şəraiti, cənubla-şimalı, şərqlə-qərbi birləşdirən karvan-ticarət yollarının çarpazlaşdığı bölgədə yerləşməsi, onun dünya xalqları ilə daha fəal qarşlıqlı təmasda olmasına, xüsusilə də intensiv etnik-mədəni proseslərin getməsinə şərait yaratmışdır. Odur ki, Azərbaycan yeməkləri ümümumbəşəri cəhətləri ilə yanaşı, özünəməxsusluğu və milli xüsusiyyətlərinə görə fərqlənir. Milli kolоritə malik olan Azərbaycan yeməkləri yüksək keyfiyyətinə, dadına, tamına və lətafətli ətrinə görə dünyada məşhurdur.

**Əsas ərzaq məhsulları.** Xalqımızın təsərrüfat məişətində hələ qədim zamanlardan aparıcı sahə kimi əkinçiliklə bərabər, maldarlıq da geniş yer tutduğundan yemək öynəsində bu iki başlıca təsərrüfat sahəsinin məhsulları daha üstün olmuşdur. Ət və süd məhsulları, undan hazırlanan məlumatlar, çörək və xörəklər, müxtəlif mədəni yabanı bitkilər və meyvəcat əsas ərzaq məhsulları olmuş və indi də xalqın yemək süfrəsində layiqli yer tutur.

Gündəlik yemək öynəsində undan bişirilmiş çörəklər və xörəklər üstünlük təşkil edilirdi. Arxeoloji qazıntıların nəticələrindən aydın olur ki, xalqımız artıq Enolit dövründən başlayaraq arapa və buğda yetişdirmiş, çörək bişirməyi bacarmışdır. Çörək əsasən buğda unundan, bəzən də arpa ilə buğda unu qarışığından (kərdiyar) bişirilirdi. Qarğıdalı unun buğda və ya darı ununa qatmaqla "cad" adlanan balaca, girdə çörəklər bişirilirdi. Adətən cad çörəyini isti halda yeyirdilər.



Kata

Buğdadan, bir qayda olaraq, un şəklində istifadə edilirdi.



Kabab

Ondan həm də dənə halında (hədik, qovurma, səməni və s.) və ya əl dəyirmanında (kirkirə, dəstər) yarma halına salınaraq yemək (yarma aşı, yarma-xaşıl və s.) hazırlanırdı. Xalq arasında buğdanın qırmızı və ağ gülgənə, gülüsər, Qarabağ buğdası, sarı buğda, qaragilə buğda, qaraqılçıq, kərə buğda, gərmiyan, dəvdiş, nümə buğda və b. növlərindən un əldə etmək üçün geniş şəkildə istifadə edilirdi.

İlk vətəni Cənu-Şərqi Asiya ölkələri hesab olunan və VI əsrdən Azərbaycanda becərilməyə başalanılan çəltik bitkisi və ondan alınana düyü əhalinin yeməklərində başlca yer tuturdu. Çəltikçiliyin vətənlərindən biri olan Azərbaycan da 50-yə qədər plov növü hazırlamağa qədər səriştəli aşpazlarımız olmuşdur. Xalq öz mətbəxində plovu əsasən dənə halında (plov, çəkmə, südlü sıyıq, şilə və s. ) və kirkirədə üyüdülmüş halda (firni) işlədirdi. Bundan başqa, düyü müxtəlif xörəklərin (dolma, küftə, dovğa. Şorba və s.) içərisinə də qatılırdı. Düyü, Azərbaycanın Lənkəran bölgəsində çörək əvəzi kimi də işlədilmişdir. Burada bişirilən "çanquru" və "lökü" kimi çörəklər düyü unundan və yarmasından hazırlanırdı. XIX yüzillikdə Azərbaycanın əsas əkinçilik bölgələri hesab edilən Talış, Şəki, Quba, Şirvan və

Qarabağda xan düyüsü, sədri, ənbərbu, akulə, ağ çəltik, qızıl çiləli, şəril və s. kimi 50-yə qədər çəltik növü əkilib-becərilirdi.

Bostan-tərəvəz məhsullarından qarpız, yemiş, xiyar, lobya, paxla, badımcan, soğan, sarımsaq və b. həm əhalinin gündəlik yeməklərindən təzə halda, həm də onların bəzilərindən hazırlanna turşu (tutma, şoraba) halında istifadə olunurdu. Pomidor, kələm, kartof və b. tərəvəz bitkiləri xalqın yemək öynəsinə nisbətən güc daxil olmuşdur.


Manqal

Mədəni və yabanı şəkildə yetişən bağ məhsulları (üzüm, alma, armud, zoğal, tut, heyva, nar, əzgil, ərik, şaftalı, gilas, gavalı və s.) həm bağ mövsümündə təzə halda, həm də emal edilərək (qax, albuxara, qaysava, qaysı, kişmiş, mövüc, alana, sucuq, basdıq və s.) işlədilirdi. Bundan başqa, bu meyvələrdən bəkməz, riçal, nardaşa (narşərab, nardənə, rubbinar), qora suyu, şərbət, şirə, və s. də hazırlanırdı. Bu bağ-bostan məhsulları becərildiyi bölgələrin adı ilə daha da şöhrətləmişdir. El arasında Sabirabadın və Zirənin qarpızı, Gədəbəyin ağçiçək dəmyə kartofu, Hövsanın soğanı, Göyçayın narı, Kürdəmirin yemişi, Tovuzun Qazqulu xiyarı, Qubanın ağ alması, Ordubadın əriyi, Ağdaşın heyvası da yüksək qiymətləndirilirdi.

Mövsümdən asılı olaraq adətən təzə halda (yay və payız), qurudulmuş (qaxac) və qovrulmuş halda (qovurma) ilin soyuq fəslində istifadə edirdilər. Qafqazın bütün müsəlman xalqları kimi, Azərbaycan xalqı da ev heyvanlarından qoyun, keçi, inək, dəvə və qismən də camış ətinə üstünlük veirirdi. İlk orta əsrlərdə Azərbycanda at əti də yeyilmişdir.

Azərbaycanın varlı əsilzadələrinə, bəy-xan zümrəsinə həmçinin vəhşi çöl heyvanlarının (dovşan, ayı, ceyran, maral, dağ qoçu, qaban, əlik) və çöl quşalrının (qızıl qaz, ördək, kəklik, turac, qırqovul, bildirçin, bəzgək, durna, meşə xoruzu və s.) əti də yaxşı tanış idi. Ov içini özlərinə sevimli əyləncə hesab edən əsəb-nəsəb sahibləri müxtəlif növ üsullarından istifadə etməklə yemək süfrələrinin öz əti ilə kifayət qədər təmin edə bilirdiər.



Dolma

Xalqımızın ev təsərrüfatında hər bir ailənin saxladığı qaz, ördək, toyuq, hind toyuğu əhalinin quş ətinə və yumurtaya tələbtını ödəyirdi.

Azərbaycan əhalisinin qida məhsularının tərkibinə balıq əti də daxil idi. Balqıdan müxətlif çeşidli yeməklərin hazırlanması hələ qədim zamanlardan Xəzərsahili bölgələrin, həmçinin Kür, Araz, Qanıq (Alazan), İori (Qabırrı) və digər çayboyu ərazilərin əhalisi arasında məlum olmuşdur. Ərəb müəllifləri (İbn Hövqəıl və İbn əl-Fakih), "Alban tarixi"nin müəllifi M.Kalankatuklu vaxtilə Albaniyanı şöhrətləndirən yüksək keyfiyyətli balıq növləri haqqında məlumatlar vermişlər. [13] XIX-XX yüzilliyin birinci yarısında əhalinin yemək öynəsində qızıl balıq (azatmayı) ziyad, (kütüm), xəşəm, külmə, sıf, axşalı, siyənk, sazan, qızıl üzgəc, enlibaş (kefal), lilbalğı və s. kimi pullu balıqlar əsas yer tutmuşdur. Uzunburun (qırmızı balıq), nərə, ağbalıq, bölgə və cökə kimi qiymətli pulsuz balıqlar XX əsrin ikinci yarısından başlayaraq yemək süfrələrinə çıxarılmışdır. Əhali balıqdan

həm təz halda, həm duza qoymaqla, həm də qurudulmuş şəkildə istifadə edirdi.

Azərbaycan əhalisinin qida məhsulları içərisində minilliklər boyu süd-ağartı məhsulları üstün yer tutmuşdur. Süd və süd məhsulları hər bir azərbaycanlı ailəsinin güzəranında əvəzedilməz qida mənbəyi idi. Qida üçün, qoyun, keçi, inək və camış südündən istifadə edilirdi. Orta əsrlərdə at südündən istifadə edilsə də, XIX-XX yüzilliyin əvvəllərində onu öynədən çıxarmış, ulaq və dəvə südünə isə müalicəvi məqsədlər üçün müraciət edilmişdir. Süd qaynar şəkildə içilir, ondan müxtəlif yeməklər hazırlanır, çoxsaylı süd məhsulları (qatıq, qaymaq, çiyə, xama, yağ, şor, ayran, kəsmik, süzmə, qurut, körəməz, pendir və s.) əldə edilirdi. Bunlardan bəziləri gündəlik yemək üçün istifadə olunur, bəziləri isə ehtiyat ərzaq kimi tədarük edilirdi.



Piti

Xalqın yemәk öynәsindә xeyli yer tutan yabanı yemәli bitkilәr yemәklәrin әn qәdim növlәrindәn hesab olunmaqla, әcdadlarımızın ilkinlik çağları ilә sәslәşir. İbtidai insaların ilk qidalandığı yabanı yemәli bitkilәr, elәcә dә sonradan mәdәnilәşdirilmiş bir çox otlar vә dirrik mәhsulları (unnuca, şomu, әvәlik, ispanaq, pәr-pәrәn, qazayağı, gicitkәn, yemlik, quzqulağı, turşıng, yolotu, cacıx, cincilin, kәklikotu, keşniş, şüyüd, şağlam, baldırğan, tәrxun, tәrә, cәfәri, nanә, reyhan, vә s. ) hәm tәzә halda yeyilir, hәm dә onlardan sıxma, kükü, tilxam, dovğa, kәtә vә s. kimi yemәklәr hazırlanırdı. A.A.Qrossheym yazırdı ki, yabanı



Balıq lәvәngisi

yemәli bitkilәr Qafqaz xalqlarının geniş istifadәsindә olduğundan, onalrın qida öynәsi çox zaman bu bitkilәr üzәrindә qurulurdu. Onlarla orqanizmә çoxlu miqdarda vitamin daxil olduğuna görә, bu öynә daha çox әhәmiyyәtlidir. [14]

Bütün bunlarla yanaşı, Azәrbaycan xalqı çoxçeşidli, rәngarәng növlü gündәlik vә mәrasim yemәklәriin hazırlanmasında duz, bal, şәkәr tozu, hәmçnini bütün dünyada mәşhur olan Şәrq әdviyyatlarından (zәfәran, isitot, darşın, zәncәfil, hil, mixәk, sarıkök, sumax, nanә qurus, dәfnә yarğaı, keşniş toxumu vә s.) yüksәk ustalıqla isitfadә etmәyi bacarmışdır.

Azәrbaycan әhalisinin istifadәsindә olan әsas qida mәhsullarının sәciyyәsindәn aydın göründüyü kimi, әrzaq mәnbәyi müxәtlif olduğu

üçün yeməklər də çoxçeşidli  və zəngin olmuşdur.  Hər bir azərbycanlı öz zövqündən və ailəsinin maddi durumundan asılı olaraq yemək süfrəsini bu və ya digər ərzaq məhsullarından hazırlanmış lətif xörəklərlə təmin etməyə çalışmışdır.

**Bitki mənşəli yeməklər.** Bütün tarixi dövrlərdə Azərbaycan xalqının yemək süfrəsində bitki mənşəli yeməklər daim üstünlük təşkil etmişdir. Bitki mənşəli yeməklərin hazırlanmasında isə əsasən dənli bitkilərdən (buğda, arpa, darı, çovdar, qarğıdalı, şəltik) geniş istifadə edilmişdir.

Bitki mənşəli yeməklər içərisində çörək əsas yer tutmuşdur. Azərbaycanda çörəkdən istifadənin çox qədim tarixi  vardır. Burada, onun ocaq yerində, üzərinə qor, isti kül tökülərək  bişirilən küllü kömbədən (“dəyirman kömbəsi”) tutmuş, müasir çörəkxanalarda bişən çörəklərə qədər təkmilləşərək  keçdiyi  inkişaf yolunu izləmək mümkündür.

Azərbaycanda bişirilən çörəklər tərkibinə, formasına, naxış elementlərinə, istifadə olunan çörəkbişirmə vasitələrinə, acıtmalı (maya, xamra, acı xamra, balatı və s.) və acıtmasız olduğuna görə bir-birindən fərqlənirdi. Tərkib komponentinə görə çörək buğda çörəyi, arpa çörəyi, darı cadı, qarğıdalı cadı, düyü çörəyi və b. adlar altında qruplaşdırılırdı. İqtisadi cəhətdən imkansız ailələrdə qarışıq (kərdiyar) tərkibli çörəklərin bişirilməsinə təsadüf olunurdu.

Azərbaycan çörəkləri formasını müxtəlifliyinə (oval, dəyirmi, yastı-uzunsov, nazik, (yuxa) və s.) üzərinə vurulan naxışların rəngarəngliyinə görə də bir-birindən fərqlənirdi. Adətən, yuxa, lavaş, fətir və başqa çörək növlərini kündəsi olduqca nazik açılır, sacın üzərini büsbütün tuturdu. Təndirdə bişirilən lavaş və pəncəkeş istisna olmaqla, digər təndir çörəkləri girdə-dairəvi formada yastılanırdı. Sacda bişirilən xamralının (bozdamac, yannama) kündəsi iri tutulmaqla 1,5-2 sm qalınlığında və 22-25 sm diametrində olurdu.

Azərbaycanın ev təsərrüfatında çörəkbişirmə ilə ancaq qadınlar məşğul olurdular. Lakin, bununla belə, orta əsrlərdən başlayaraq çörəkbişirmə sənəti də (şatırçılıq) geniş inkişaf etmişdi. Bu peşə sahəsi ilə başlıca olaraq kişilər məşğul olurdular.

Əhalinin təsərrüfat fəaliyyətinin istiqamətindən, məskunlaşma mülahizələrindən asılı olaraq istifadədə müxtəlif çörək növləri üstünlük təşkil edirdi. Belə ki, oturaq və əkinçiliklə məşğul ola əhali arasında təndir çörəkləri, maldarlıq məşğulu olan köçmə elatlar arsında sac çörəkləri, şəhər əhalisi arasında isə kürə çörəkləri (səngək, fırın, xərək) başlıca çörək növləri idi. Etnoqrafik materiallardan aydın olur ki, kürə (səngək) çörəyinin başlıca istehsal mərkəzləri Gəncə və Ərdəbil şəhərləri olmuşdur. Adətən səngək çörəkləri pitixana dükanları ətrafında xırıd edilirdi. Çünki şəhər əhalisi pitinin işgənəsi səngək çörəyi ilə yeməyə üstünlük verirdi.

XIX-XX yüzilliyin əvvəllərində Azərbaycan əhalisinin istifadəsində 50-dən çox çörək növü olmuşdur. Onların müəyyən qismi adı çörəklər, bir qismi isə xəmirinə yumurta, şəkər tozu, süd, ağız südü, yağ, bal, müxtəlif ədviyyatlar qatılmış çörəklər idi. Bu çörəklərin növ müxtəlifliyi (təndir çörəyi, yuxa, lavaş, fətir, kələfətir, səngək çörəyi, xamralı, bozdamac, yannama, fəsəli, şirin kömbə, küllü kömbə, bişi, cad, külçə, zeyrən çörəyi, şorqoğalı, bəyim çörəyi, südlü çörək, nazik pəncəkeş, çşırpma, qalın, tapı, dastana (köməc), sacarası kömbə, kətə, qulan, bəysumat, somun, yağlı kal, xərək çörəyi, qalınca, ovma, dəyirman fətir, südlü çörək, cır çörək, qatdama, əyirdək, yelapardı, naqqaş çörəyi, çöçə, bombi, bayram çörəyi, südlü lavaş, cıppa, saqqallı qalın, qoz çörəyi, gül çörəyi, qəlit və s.) bir daha sübut edir ki, xalqımız çörək və çörək məlumatlarının hazırlanmasında çoxəsrlik ənənələrə dayaqlanan zəngin bilik, bacarıq və təcrübəyə sahib olmuşdur.

Çörək, Azərbaycan yeməkləri içərisində yeganə müqəddəs nemətdir ki, istisnasız olaraq, bütün yemək öynələrində (səhər yeməyi-qəlyanaltı, nahar və şam yeməyi) süfrəyə yetərincə çıxarılır. Gündəlikdə daha çox işləndiyinə, boluq, bərəkət simvolu olduğuna, hətta "Qurani-Kərim" dın belə üstün tutlduğuna görə satış üçün nəzərdə tutulan çörəklər daha baha qiymətləndirilmiş, onu hər kəsin ala bilməsi mümkün olmuşdur. X əsr müəllifi İbn Hövqəl Azərbaycanda çörəyin ucuzluğundan təəccüb doğuracaq heyrətlə yazırdı ki, burada bir dihrəmə 50 lavaş almaq mükündür. [15]

Azərbaycanlıların yemək süfrəsində təzə çörəyi pendir və kərə yağı ilə yeməyə üstünlük verirdilər. İsti təndir çörəyinin arsına

kərə yağı qoymaqla döymənc də hazırlayırdılar. Yuxanı və fətiri şora, pendirə büküb dürmək düzəldirdilər. Çörəyin sulu xörəklərin içərisinə doğramaqla yemək, qızartma, bozartma və kababları şörəklə birgə yemək də ayrı qayda idi. Gəncəbasar bölgəsində fətiri yağda qızartmaqla "ölügözü" adlanan yemək hazırlanırdı. Müqəddəsliyinə, bərəkətinə hörmət əlaməti olaraq xalqımız süfrəyə əvvəlcə çörək qoyur, yemkədən sonra ilk dəfə süfrədən çörəyi yığışdırardılar. Xalq çörəyi süfrəyə həmişə təzə halda verməyə çalışırdı. Boyaq olmuş, qurumuş çörəkdən isə "soğança" adlanan yemək hazırlayırdılar.

Azərbaycan yeməkləri içərisində şirin çörəklər qrupuna adi edilən şirniyyat **qənnadı məlumatları** da mühüm yer tutur. Onları hazırlamaq üçün başlıca ərzaq məhsulları kimi buğda, qoz, fındıq, badam, pest, müxtəlif şərq ədviyyatlarından istifadə edilirdi. Bir qayda olaraq, xalqımızın bayram, mərasim və el şənlikləri süfrələrinin bəzəyən belə şirniyyatlar  içərisində halva, şəkərbura, şorqoğalı, paxlava, şəkərçörəyi, dürmə, külçə, tıxma, qurbiy, bamiyə, nişasta-tərək, çanquri, təndir çöçəsi, mütəkkə və s. dadına tamına, xüsusi səriştə ilə hazırlanmasına, başlıcası isə süfrədə yerinə görə yüksək qiymətləndirilirdi. Şirniyyat məhsularının hazırlanması bütün Azərbaycan üçün xarakterik olsa da, onların bəziləri məhəlli lokal xüsusiyyətləri ilə seçilirdilər. Belə ki, xalq arasında daha çox Şəki halvası, Şamaxı mütəkkəsi, Zaqatala və Bakı qurabiyəsi, Qarabağ kətəsi, Bakı,  Gəncə, Naxçıvanın təndir çöçəsi, Lənkəran külçəsi, Quba-Xaçmaz qozçörəyi, Ordubad qozlu dürməsi, Lənkəran çanqurisi, Quba tıxması, Muğan qəliti və b. ləziz tamına, yüksək ustalıqla hazırlanmasına görə adla söylənilirdi.

Bitki mənşəli yeməklər arasında buğda unudan hazırlanna çoxçeşidli xəmir xörəklərinin (xəşil, xəngəl, sülfüllü, əriştə aşı, halva, börə, müərssə, umac, qiymaq, qovut, qındı, düşbərə, gürzə. Qaşıqxingəli və b.) xüsusi yeri  vardı. Azərbaycan əhalisi xəngəlin bie neçə növünü hazırlaya bilirdi. Yemək süfrəsin ən çox yer tutan **kəsmə və yarpaq xəngəl** (buna həmçnini süzmə xəngəl də deyilir) və **qaşıq xəngəli** (qaşxəngəli və sulu xəngəl də deyilir) idi. Qaşıqxəngəlinin bişirilməsi üçün soğançalı qaynayan  suya nazik yayımış xəmiri xırda kvadrat hissələrə (1,5x1,5 sm) kəsərək tökür, üzərinə sarmsaq-qatıq

əlavə edərək taxta qaşıqla yeyirdilər. Onu daha çox soyuqdəymə və öskürəyə tutlan ailə üzvlərinə bişirdilər. İçərisinə isitot əlavə edilmiş bu xörək növü güclü tərlətmə xüsusiyyətinə malikdir. Azərbaycanın bəzi bölgələri içərisində ət cızdağı, lobya, lərgə, maş, mərcimək və s. əlavə edilmiş bu yemək növünə tumac deyirlər.

Qaşıqxingəlindən fərqli olaraq, yarpaq xingəlinin nazik yayılmış xəmirini təxminən 7x8 sm ölçüdə kəsir, suda bişirdikdən sonra kəfgirlə süzür, dayaz sinilərə çəkərək üzərinə sarımsaq-qatıq, qurut, yağ-soğança əlavə edirdilər. Üstünə qoyulmuş xuruşdan (qaradan) asılı olaraq Azərbaycanda xəngəlin bir neşə növü qeyd alınmışdır: beçəli xəngəl, qovurmalı xəngəl, cızdaqlı xəngəl, qurutlu-soğançalı xəngəl, tikə-ətli xəngəl, döymə xəngəl, kəklik xəngəli, yağlı xəngəl və s. Qeyd edək ki, xəngəl bü gündə Azərbaycan əhalisinin sevimli yeməklərindən olub, yemək süfrələrinə tez-tez çıxarılır.

Azərbaycanın Şəki-Zaqatala, Quba-Xaçmaz və qismində də Gəncəbasar bölgələrində əhali qış aylarında, təsərrüfat işləri seyrələn vaxt əvvəlcədən tədarük etdiyi qaxacdan **sülfüllü** (sülhüllü) bişirirdi. Xüsusi səriştə ilə xəmirdən balıqulağına bənzər sülhüllü hissələri hazırlanır, suda qaynadılır, süzülərək dayaz və enli sinilərə şəkilirdi. Xörəyin üzərinə həlim, düyülümüş sarımsaq və nardaşda qatılmış məhlul tökülür, süfrə sahibinin maddi imkanı daxilində ayrıca bişirilmiş qaxacdan 2-3 parça qoyulurdu. Sülhüllünün “sulu sülhüllü” və “südlü sülhüllü” növlərdi də vardı. Sulu sülhüllü qaxacın suyunda, südlü sülhüllü isə süddə bişirilirdi. Bu yeməklər aşsüzəndə süzülmür və ya birbaşa süfrəyə verilirdi. Qeyd edək ki, sülhüllü saxurlar, laklar və ləzgilər arsında geniş yayılmışdır.

Gündəlik və milli bayram süfrələrində əhalinin bişirdiyi **qovutun** özünəməxsus yeri vardı. Onu hazırlamaq üçün əvvəlcə buğdanı sacda yüngülcə qovurur, kirkirədə (dəstərdə) yarma halına saldıqdan sonra, ələkdən keçirilərək şəkər tozu əlavə edilmiş suya (imknaı olanalr südə) tədriclə qataraq qatışdırırdılar. Məhlul qatlaşıb sarı rəngə çalanda bişmiş hesab olunurdu. Qovutu ya yumurulayıb, ya da dürmək şəkilini salaraq yeyirdilər.

Buğda unudan bişirilən və Naxçıvan bölgəsi üçün daha xaraterik olan **qamqax** acıtmalı xəmirdən olurdu. Xəmiri oxlovla açır, yarpaq

xəngəl kimi doğrayıb, yağda qızardır, üstünə bal, doşab  və ya şəkər tozu səpib yeyirdilər.

**Xəşıl** buğda unundan bişirilən yemək olmaqla, yeməklər içərisində tez-tez təsadüf olunurdu. Bunun üçün qaynar suya tədriclə un əlavə edərək oxlovla çala-çala (qarışdırıraq) qaynadırdılar. Məhlul qatılaşandan od üstündən götürülür, boşqablara çəkilir, üzərinə şəkər tozu, bal, ərimiş yağ və bəkməz tökülərək yeyilirdi.

Azərbaycanda xəmir xörəklərinin ən sadə və geniş yayılmış növlərindən biri də **umac** idi. Umac öz tərkibinə görə üç növdə (adi, südlü, əvəlikli umac) hazırlanırdı. Südlü umac istisna olmaqla, digər umac növlərinə istiot və nar suyu qatılır, soyuqdəyməsi olan ailə üzvlərinə tərlətmə vasitəsi kimi verilirdi.

Muğan bölgəsi üçün xarakterik olan mürəssəni bişirmək üçün xəmiri xırda- xırda kəsib ayrıca bir qabda qovurur, sonra onu ya aşa qatır, ya da ayrıca suda qaynadıb yağ-soğanla bişirirlər.

Azərbaycanın əksər bölgələrində bişirilən xörəklər içərisində əriştədən hazırlanan **əriştə isitisin və əriştə aşının** xüsusi yeri vardı. Əriştəni nazik yayılmş xəmirdən uzunsov olaraq kəsib təzə halda bişirir, bəzən də qurudur, yüngül qovurur və lazım gələndə istifadə edirdilər. Əriştə istisi sulu xörək kimi bişirilirdi. Yağ-soğan dağ edilən qazana su əlavə edilir, içərisinə əriştə və maş lobya tökərək qaynadırdılar. Əriştə istisi adətən sirkə-sarımsaq, abqora və ya nar suyu ilə yeyilirdi. El arasında əriştə ilə bağlı tapmacalrın (Qaşığa minər, ayağını sallar), el deyimlərinin (Özünə umac ova bilmir, özgəsinə əriştə kəsir; Əriştə bəylər aşı, tutmac onun yoldaşı) geniş yayılması bir daha təsdiq edir ki, bu yemək növü xalqımız tərəfindən daim istifadə də olmuşdur.

Qovrulmuş, qurudulmuş ərişdədən bayram aşı bişirmək əhali arasında dəbdə idi. Bişirilərək dəmə qoyulan əriştə aşına qazmaq hazırlayır, tərkibinə bəzən düyü, lobya və ya paxla qatır, zövqdən asılı olaraq ət qovurması və quru balqı ilə yeyirdilər.

Xəmir və döyülmüş ətdən hazırlanan **düşbərə, kirs, gürzə** də xəmir xörəklər cərgəsinə aid edilir. XIX əsrin ortalarında Azərbaycanda olmuş rus alimi İ.N. Berezin burada bişirilən xəngəlin müxtəlif növləri ilə yanaşı, gürzənin də adını  çəkmişdir. [16] Gürzə bişirmək üçün qoyun  qiyməsi soğan, duz və isitotla qatılıb qovrulur, xəmirə bükülüb

qaynar suya tökülürdü. Süzülüb boşqablara çəkilən gürzənin üstünə darçın səpr, sarımsaqlı-nanəli qatıqla yeyirdilər.

Kirs düşbərəyə nisbətən, gürzə isə kirsə nisbətən iri bükülürdü. Düşbərə adətən öz həlimində süfrəyə verilir, üzərinə doğranmış keşniş və nanə əlavə edilir, sarımsaqlı sirkə və abqora il yeyilirdi. Şəki-Zaqatala bölgəsində bişirilən xəmir xörəyin **qırs** adlanan, döyülmüş ətlə, kəsmiklə, gicitkən və əvəliklə bişirilən növləri məlum idi.

Azərbaycanın əksər bölgələrində xəmirdən müxtəlif **qutablar da** hazırlanırdı. İçərisinə qoyulmuş xuruşdan asılı olaraq bu qutablar ət qutabı, göy qutabı (kətə), bornaı qutabı və s. adlarla bir-birindən fərqlənirdi. Abşeron kəndlərində dəvə ətindən bişirilən qutab yüksək qiymətləndirilirdi. Qutabın bir növü də içərisinə düyü və ağ lobyadan hazırlanan quruş qoymaqla bişirilirdi. Hələn XVII əsərdə yaşamış məşhur təbib Məhəmməd Mömin özünün "Töhfət-əl-möninin" (Möminin töhfəsi) ərəsində (1669-cu il) nazik xəmirdən hazırlnan, içərisinə ət, göyərti, badam, şəkər tozu qoyulan qutablar haqqında məlumat verərək yazırdı ki, ət qutabı tədricən həzm olunsa da, orqanizmi qüvvətləndirir. Onu sumaz, göyərti və təzə tərəvələ yemək məsləhətdir.

Buğdanan təkcə un şəklində deyil, dənə halında da istifadə edilidi. Xüsusi olaraq bu məqsəd üçün seçilmiş buğdadan **qovurğa, həlimaşı və səməni halvası** bişirirdilər. Qovurğanın içərisinə çox zaman qoz v əfındıq ləpəsi, küncüt, şabalıd və tut qurusu və s. qataraq çərəz kimi ydeyyirdilər. Buğdadan bişirilən hədik isə mərasim yeməyi olub, diş dişəyən uşaqlar və qocalar üçün bişirilirdi.

Buğda ununun xəmirindən bişirlən çörəklərin, şirniyyat-qənnadı məlumatlarının və xəmir xörəklərinin belə rəngarəngliyi, çoxçeşidliliyi Azərbaycan xalq kulinariyasının əkinçilik mədəniyyəti üzərində pərvəriş tapdığını söyələməyə imkan verir. Bu fakt əhalinin ta qədimdən oturaq həyat şəraitindən yaşadığını və əkinçilik mədəniyyətinn yüksək olmasının təsdiqləyir. Gündəlik, mərasim və ayın yeməklərinin undan hazırlanması-Xıdırnəbidə qovut hazırlanması və evin kandarına un qoyulmas, nəzir-niyaz üçün undan yağlı çörək bişirilib kasıblara paylanılması, ev heyvanları itərkən şər qüvvələri rəhmə gətirmək üçün pirə yağlı çörəklər nəzir edilməsi, səksəkəli yatan

uşaqların başının altına çörək qoyulması, müsahibi inandırmaq üçün çörəyə and içilməsi, ehsan yeməyi olaraq halva hazırlanması və b. faktların dini-mistik mənalarını kənara atmış olsaq, burada qədim əkinçilik ənənələrinin arxaik köklərini görmək mümkündür. [17]

Bitki məhsulları içərisində düyü yümək raisonunnda buğdadan sonra ikinci yer tuturdu. Çəltik bitkisindən alınana düyüdən həm müxtəlif xörəklərin tərkib komponenti kimi istifadə olunur, həm də yarma və ya un halına salınaraq çörək və xörəklər bişirilirdi.

Etnoqrafik materiallar Azərbaycan xalqı arasında düyüdən hazırlanan yeməklərinin şahanə tacının **plov** hesab olunduğunu təsdiqləyir. Sosial mənsubiyyətindən və iqtisadi vəziyyyətindən asılı olmayaraq varlıların gündəlik yemək süfrəsində, yoxsulların isə bayram süfrəsində plova təsadüf etmək olardı. Çəltikçiliyin geniş yayıldığı bölgələrdə (Lənkəran, Şəki-Zaqatala, Qarabağ, Quba, Şirvan və s.) plov istisnasız olaraq gündəlik yeməklər sırasına daxil edilirdi.

Hazırlanma üsullarına, təkib zənginliyinə, süfrəyə təqdim etmə qaydalarına görə plovun üç növü- **daşma plov, süzmə plov və döşəmə plov** geniş yayılmışdır. Bu plovlar içərsisində daşma plov hazırlanma qaydasına görə daha bəsit olub, digər plov növlərinə nisbətən arxaikliyi ilə seçilir. Onu hazırlmaq üçün xüsusi çölməyə tökülən düyünün üzərinə su əlavə edilir, su tam çəkilənə qədər bişirilirdi. Azərbaycanın ayrı-ayrı bölgələrində plovun bu növü "çəkmə" , əgər südlə su qarışığından bişirildirsə "südlü plov" adlanırdı. Lakin, daşma plovdan fərqli olaraq çəkmə-plovun düyünüsünə xırda-xırda doğranmış ət, südlü plova isə zövqdən asılı olaraq kişmiş, qaysı, xurma, hətta doğranmış balıqdan da əlavə edirdilər. Daşma plov süfrəyə, bir qayda olaraq isti-isti və ya soyuq şəkildə çıxarılırdı. Lənkəran bölgəsində bu plov səfər yeməyi kimi də hazırlanırdı. Bunu üçün axşamdan bişirilərək çölməkdə saxlanılan plov çölməyin formasını alırdı. Onu götürüb dəsmala bükür, səfər yeməyi kimi soyuq plov şəklində tədarük edirilər. Çörəyin keçmişdə düyü ilə əvəzləndiyi bu bölgədə daşma plov yemiş-qarpızla, soğanla, şor balıqla, yağla, qatıqla yeyilirdi.

Azərbaycanda daha geniş yayılmış plov növü aş-qaralı plov və ya süzmə plov idi. Belə plovu, yarıbişmiş düyünü süzərək üzərin

ərinmiş yağ əlavə etməklə və ya altına qazmaqla qalaylanmış “xeyir-şər qazanları”nda dəmə qoryarq bişirirdilər. Dəmə qoyulan düyünü içərsinə kişmiş atır, üzərinə isə sarıkök və zəfəran suyu vururdular. Yağlı qoyun ətini ərik qurusu, şabalıd, albuxara və yağ-soğanla birgə qovuraraq ayırca “aş-qarası” hazırlayıb plovun üstünə qoyurdular. Plov bişirmək üçün əhali daha çox “sədri”, “akulə”, “ənbərbu”, “xan düyüsü” nə üstünlük verirdi. Azərbaycanda xəngəl kimi süzmə plovun üzərinə qoyulan qaradan (xuruşdan) asılı olaraq çoxlu növlərini hazırlanan səriştəli aşpazlar vardı. Ümumiyyətlə götürdükdə, Azərbaycanda süzmə plovların 50-dən çox növü hazırlanırdı ki, bunlar da Azərbaycan kulinariyasında bikti mənşəli yeməklərin bir daha üstünlük təşkil etdiyini göstərirdi. Düyünün plov üçün bişirilməsi və süzülməsi qaydası eyni olsa da, “qara”nın hazırlanmasında fərqlər plovların da adlarındakı müxtəlifliyi şərtləndirirdi. Qovurma-plov, turşu-qovurma plov, fisincan plov, şüyüd-plov, səbzi-qovurma plov, toyuq plov, balıq plov, müsəmbə-plov, çığırtma plov, əriştə-plov, ləvəngi polv, lobya-plov və b. plovlar məhz qara (xuruş) komponentlərinə görə bir-birindən fərqlənirdi. Süfrəyə verilərkən dəmə qoyulmuş düyü və aş qarası ayrı-ayrı qablarda çəkilirdi. Lənkəran bölgəsində süfrəyə plovun əsas aş-qarsı ilə yanaşı, əlavə aş-qaraları da –qiymə badımcan, ləvəngi badımcan, kükü (səbzi kükü, qoz küküsü) və nardança qoymaq da dəb idi. Plova həmçinin ayrıca qabda əlavə olaraq yağ da verirdilər. Süfrədə əyləşən hər kəs düyünü üzərinə özünün zövqünə və iştahasına uyğun olaraq aş və aş-qarası əlavə edib yeyirdi. Muğanda aş-qaralı süzmə plovlar “mintəcəm plov” adı ilə məlumdur.

Azərbaycanımızın Şəki-Zaqatala, Lənkəran, qismən də Gəncəbasar bölgələrini əhalisi rasında döşəmə plov xüsusi səriştə ilə hazırlanırdı. Aş-qaralı süzmə plovdan fərqli olaraq, döşəmə plouv ət, şabalıd və s. əlavəsi qazana qazamağın üstündə yığılır, üzərinə yarıbişmiş düyü əlavə edilirək birgə dəmə qoyulurdu. Döşəmə plovun ət əlavə toyuq, hind toyuğu, balıq, körpə və ya yağlı quzu əti, ov quşu ət və s. ola bilərdi. Lənkəran bölgəsində əsaən basdırma plov adı ilə məlum olan belə plovun döşəməsi toyuq ləvəngisindən də hazırlanırdı. Ümumiyyətlə, Azərbaycanın çay və dənizsahili bölgələrində plovu şaor balıqla, balıq-ləvəngi və ya qurudulmuş balıqla yeməyə üstünlük

verilirdi. Plova əlavə olunan balıq ləvəngisi kütüm (ziyad) balığından hazırlanırdı. Lənkəran bölgəsində plova döşəmə kimi kəllə-paçadan istifadə edilməsi təcrübəsi olmuşdur.

Düyüdən həmçinin **şilə, südlü çəkmə, hoppaca, həsi, (horra)** və b. yeməklər də hazırlanırdı. Şilə ət suyuna (işkənə) düyü və xırda doğranmış ət birşirib qatmaqla hasilə gətirilirdi. Digər südlü-düyülü yeməklər isə şəkər tozu, doşab və ərinmiş yağ əlavə etməklə süfrəyə verilirdi. Onları bəzən quru kütüm və ya xəşəm balığı ilə, yağda qovrulmuş kişmiş, ərik və ya xurma ilə də yeyirdilər. Uqba bölgəsində südlü plov adlanan belə yeməyi ortabab ailələr nişan və paltarkəsdi (paltar biçini) mərasimlərində verirdilər. Düyü həsisi isə diş çıxarmamış uşaqlara, eləcə də qocalara rahatulkum kimi verilirdi.

Düyüdən hazırlana **ağ aş** həlimli olur, onu isti halda şəkərə tozu və ya alça tuşusu qatmaqla mərsim xöyəri kimi bişirir, mədə narahatlılığı olanlara və iştahsızlara verirdilər. Süfrəyə həlim qarşığı ilə verildiyi üçün ağ aşa həlimaşı da deyilirdi.

Yeri gəkmişkən, qeyd etmək lazımdır ki, xalq arasında plov çox zaman aş adı ilə adlandırılır. Aparılan tədqiqatlar Azərbaycanda plovdan (aşdan) istifadənin qədim tarixi olduğunu təsdiqləyir. “Kitabi Dədə-Qorqud” dastanında Qazan xanın arvadı Burla xatunun dilindən deyilən: “Umanına, usanına aş yedirtdim”- ifadəsi də buna əyani misaldır. [18]

Ayı-ayrı xərəklərin (küftə, dovğa, tilxam, dolma, düyü şorbası və s.) tərkib komponenti kimi də düyü əvəzedilməz idi. Tərkibinin nişastalılığı, həlimvermə qabiliyyəti, artımlı olmas, ləziz dadı və s. kimi keyfiyyətlər düyünü əhaliyi sevdirə bilmişdir. Bəzən düyünü lobya, əriştə, mərcimək, axta zoğalı və s. ilə qarışdırıraq yemək hazılayırdılar. Belə yeməklər **çilov** adlanırdı: lobyaçilov, axtaçilov, mərciçilov və s.

Düyü unundan və yarmasından bişirilən çörəklər (**lökü, çanquri)** Lənkəran bölgəsi üçün xarakterik idi. Burada lökünün tavalökü və patalökü adlanan iki növü hazırlanırdı. Tavalökünün özünün də -adi (yavan), süd, yağ və şor qatılmaqla hazırlana müxtəlif növləri mövcud idi. Tavalökünü xəmiri horra halında tavanın içərisinə töküb yayır, tavanın üstünə içi közlə dolu dəmir təbəqəsi qoyaraq hər iki üzünü qızartmaqla bişirirdilər. Öz dadına görə süd, yağ və şor

qatılmş tavalökü yavan löküdən fərqlənirdi. Yemək zamanı onları paxlava formasında doğrayaraq süfrəyə verirdilər.

Patalökü isə düyü yarmasından (kəsmə-xırda) hazırlanırdı. Suda yarıbişmiş düyü ayırmasından balaca girdə kündələr tutur, tavada yastılanıb, hər iki üzünü qızardırdılar. Patalökü tavalöküyə nisbətən həcminə görə kiçik olurdu.

Çanqurinin xəmiri düyü unundan, ərinmiş yağ və süddən hazırlanırdı. Sonra saxsı çanquri tavasından hər iki üzü qızardılırdı. Ölçüsü nəlbəki boya olurdu. Lökü və çanquri çörəkləri (daha doğrusu: şirin çörəkləri) bölgədə əsasən buğda çörəklərinin əvəz edirdi.

Toplanılan etnoqrafik materiallardan aydın olur ki, Azərbaycan əhalisi XIX əsrin ikinci yarısından başlayaraq qarğıdalı bitkisi məhsulundan geniş şəkildə istifadə etmişdir. Qarğıdalını kirkirədə üyüdərək **qarğıdalı çörəyi** (cad) bişirilirdi. Girdə, balaca və azacıq qalın olan bu çörəyi qatıq, qaymaq və ya südlə yeyirdilər. Bəzən qarğıdalı suda qaynadılaraq (sütül) və isti qorun içində bişirərək də yeməli şəklə salırdılar.

Xalqımızın yemək öyəsində bitki mənşəli yeməklər içərsində bağ-bostan və tərəvəz məhsulları, göyərtilər, yeməli yabanı bitki və otlar da özünəməxsus yer tuturdu. Əsas qida mənbəyi kimi insanların uzaq keçmişlərindən həyatını və fizioloji tələbatını təmin edən bu rasion, tərkibinin vitaminlərlə zənginliyinə, təbii əldə edilməsinə, asan həzm olunmasına, ucuz başa gəməsinə və b. cəhətlərinə görə fərqlənir, mövsümi səciyyəli qida rasion olub, ilin isti fəsillərində süfrdə birinci tələbat rolunu oynayırdı. İlin digər fəsillərində onlar emal edilərək süfrəyə çıxarılırdı (mürəbbə, bəkməz, riçal, quru axta, lavaşına, şorba və s).

Yazılı qaynaqlarda- antik və orta əsr müəlliflərinin əsərlərində, səyyahların yol qeydlərində, Nizaminin “Xəmsə”sində, eləcə də xüsusi tədqiqat əsərlərində Azərbaycanda bağçılığın geniş yayılmasından xəbər verilir. XIX-XX yüzilliyin əvvəllərində meyvəçilik-bağçılıq Azərbaycanın əksər qəzalarından inkişaf etsə də, Quba, Şamaxı, Göyçay, Şəki, Naxçıvan qəzaları meyvəçiliyin əsas mərkəzləri hesab edilirdi.

Xalqın qida rasionunda meyvə-meyvəcat, giləmeyvələr təzə halda çərəz kimi istifadə olunurdu. Üzümü pendir-çörəklə yemək, şabalıdı qovurub yemək, yarpaq və kəlmə dolmasına xoş ətir vermək üçün tərkibinə alma və heyva dilimləri əlavə etmək, alçanı duru və yağlı xörəklərin içərisinə qatıb yemək adət halını almışdı. Ərikdən qaysava bişirmək Göyçə mahalı və Naxçıvan bölgəsi əhalisi arasında geniş yayılmışdı. Aşıq Ələsgər şeirlərində **qaysava** ləzzətli yemək növü kimi təriflənirdi:

Göyçənin qonağa çoxdu hörməti,
Qaysava, qayğanaq verir ləzzəti.
Plov, dolma, kabab, əmliyin əti...
İnsaf eylə, tək motaldan danışma! [19]

Qeyd etmək lazımdır ki, meyvə və giləmeyvələr təkcə çərəz və təzə halda yemək kimi işlədilmir, onlardan həm də ehtiyat ərzaq məhsulları tədarük edirdilər.

Bostan-tərəvəz məhsulları (qarpız, yemiş, xiyar, balqabaq, badımcan, lobya, mərci, noxud, soğan, sarımsaq, bibər, kələm, çuğundur, kartof, pomidor, müxtəlif mədəni və yabanı göyətilər və s.) həm yüngül yeməklər kimi (çiy) halda yeyilir, həm xörəklərin tərkibinə qatılır, həm də bəzilərində ayrıca yeməklər hazırlanırdı. Bostan mövsümü zamanı qarpız, yemiş və xiyarı şor və ya pendir-çörəklə yemək əhali arasında geniş yayılmışdı. Balqabaq (boranı, kudu, qabaq, qundir) qaynadılaraq və ya qızardılaraq şəkər tozu səpməklə yeyilir, ondan boranı plov, südlü-boranı aşı, boranı püresi, boranı qutabı, boranı pətəsi (Şirvan və Muğanda: boranı pırtdaması) da hazırlayırdılar. Salyanda boranının içərisinə kişmiş, albuxara və ədviyyat doldurub təndirdə də bişirirdilər.

Azərbaycan geniş istifadə edilən bostan-tərəvəz bitkilərindən biri də **badımcan** idi. Ondan hazırlanan badımcan dolması, badımcan qiyməsi, badımcan ləvəngisi, badımcan çığırtması, badımcan qızartması, badımcan pətəsi süfrələrimizin sevimli yeməkləri hesab olunurdu. Badımcandan həmçinin əcəb-sandal, plov, taskabab və s. kimi

xörəklərin tərkib komponenti kimi isitfadə olunur, turşu-şoraba (sirkə-badımcan) və mürəbbə hazırlanırdı.

Ənənəvi milli yeməklərin hazırlanmasından **soğan və sarımsağın** yeri xüsusi qeyd edilir. Azərbaycanda soğan və sarımsaqdan istifadənin tarixi qədimlərlə səsləşir. "Kitabi-Dədə Qorqud" dastanında işlədilən "sarımsaq otun yemədən için göynər", "arpa ətməyi, acı soğan öynəcəyi deyəyimmi?"- imi ifadələr [20] də bunu təsdiqləyir. Soğan və sarımsaq həm göyərti kimi həm baş bağladıqdan sonra çiy şəkildə ilboyu yeyilir, həm də xörəklərion tərkibinə əlavə edilirdi. Doğranmış, üzərinə duzə və ya narşərab (yaxud abqora) əlavə edilmiş soğan balıq xörəkləri isə iştahla yeyilirdi. Südlü yeməklərdən başqa əksər isti və quru yeməklər soğanla hazırlanırdı. Yağ-soğan qızartması plov və xəngəl kimi yeməklərin əsas tərkib hissəsi idi. Döyülmüş ətdən hazırlanan bütün yeməklərin farşına da soğan qatılırdı. Azərbaycanda Masallı və Hövsan soğanları keyfiyyətinə görə yüksək qiymətləndirilirdi. Hövsan soğanları hətta XIX əsrdə xarici bazara da çıxarılırdı. Onu qiyməti baha, alıcısı isə çox idi. [21]

Sarımsaq diş halında təzə-təzə yeyilir, əzilərək qatığa, süzməyə və ya quruta qatışdırılıb bir çox xörəklərin tərkibinə əlavə olunur (xəngəl, ağsolaq, qaşıqxəngəli, əriştəli isti və s.), sirkə, abqora, nardaşa ilə sarımsağın qarışığı düşbərə, xaçş, kəllə-paça kimi xörəklərlə yeyilir, bəzi ət yeməklərini farşına qatılırdı. Sarımsqdan ehtiyat ərzaq məhsulu kimi tutma-şoraba da hazırlanırdı. Sarımsağın sağlamlıq qoruyucu, cavanlaşdırıcı iksiri olduğunu hələ eradan əvvəl VI-V minilliklərdə Tibet monastırı alimləri bilirdilər. Sarımsaq buna görə də Tibet təbabət üsulunda başlıca yer tutur, cavanlaşdırma iksiri kimi hər 6 ildən bir qəbul edilirdi. [22]

Azərbaycan qidalanma mədəniyyətində lobya, paxla, mərci, maş, lərgə və b. paxlalı bitkilərdən çoxçeşidli yeməklər hazırlanırdı. Bu bitkilərdən başlıca olaraq plov hazırlanırdı (paxla plov, mərci plov, lərgə-plov, maş-əriştə plov və s). Nəfis doğranmış göy lobyadan qovrulmuş soğan üzərin əlavə ediməklə və yumurta vurulmaqla lobya çığırtması bişirilirdi. Onu sarımsaq-qatıqla yeyirdilər. Qurudulmuş lobya dənələrindən Azərbaycan da lobya küküsü, şeşəmodu, lappa, məysənə kimi quru yeməklər də bişirilirdi. Lənkəran bölgəsində

mərcidən qəlyə və pətə kimi yeməklərin hazırlanması adət halını almışdı.

Yemək rasionunda az-az işlədilən noxuda ayrı-ayrı yeməklərin (piti, dovğa və s.) tərkib hissəsi kimi müraciət olunurdu. Noxuddan, bir qayda olaraq, bayram süfrələri üçün qovurğa və ləb-ləbi hazırlayırdılar. Tərkibinə süd hopdurulan və qovrularaq çərəz kimi istifadə edilən ləb-ləbini kişmişlə yeməyə üstünlük verilirdi. Noxudu hədiyin də içərisinə əlavə edirdilər.

Kələm, kartof, pomidor, kök, turp, çuğundur və b. bostan-tərəvəz bitkiləri xalq məişətinə nisbətən gec daxil osa da, əhali onlardan ləzzətli yeməklər hazırlamağı bacarırdı. Kələm dolması, kələm şorbası, yağ-soğanda qızardılmış kələm; kartof soyutması, qızartması, əzməsi, kartof şamısı, pomidor salatı, pomidor çığırtması və b. yeməklər bu qəbildəndir. Kartofdan sulu xörəklərin tərkibində geniş istifadə edilirdi. Kələm və pomidordan həm də turşu-şorbalar da hazırlayıb ehtiyat ərzaq məhsulu kimi tədarük edirdilər.

Yuxarıda haqqında qısaca bəhs etdiyimiz yabanı və mədəni bitkilər, göyərtilər mövsümi səciyyə daşımaqla, qida rasionunda başlıca yer tuturdu. Göyərti təzə halda pendir-çörklə yeyilir, onlardan müxtəlif xörəklər hazırlayır, təzə və ya qurudulmuş halda ayrı-ayrı yeməklərə (xörəklərə) əlavə kimi isitfadə ediridlər. Yeməli mədəni göyətilər kmi süfrəyə başlıca olaraq şüyüd, keşniş, göy, soğan, təxun, yarpız, kəvər, vəzəri (acıtərə, acı-qıcı), nanə və b. qoyulurdu. Bu göyərtilər əsasən quru və yağlı xörəklərin yanında süfrəyə çıxarılırdı.

Təzə göyərtilərdən müxtəlif çeşidli yeməklər hazırlanırdı. Göy kətəsi, gör qovurması, dovğa, sıxma (tilxam), kükü, gicitkan çığırtması, əvəlikli umac və b. yeməklərin əsasə tərkib qarışığı göyərti yeməli və yabanı yeməli bitkilər idi. Xatırladaq ki, bu yeməklər içərisində yeganə istisna olaraq əvəlikli umac xüsusi olaraq dərilərək saç kimi hörülmüş və qurudulmuş əvəlikləri xırda-xırda doğramaqla bişirilirdi.

**Kətəni** hazırlamaq üçün nazik yayılmış xəmirin yarı hissəsinə narın doğranmış göyərti (ümumi adı: pencər və ya tərə), göy soğan və quru şor (əzilmiş pendir də ola bilər) qoyaraq digər hissəsini onun üzərinə qatlayır, kənarlarını yapşdırır, sacın üstündə bişirirdilər. Bişmiş kətənin hər iki üzünü (bəzən də içərisini) kərə yağı ilə yağlayır, iri

sinilərdə isti-isti süfrəyə verir, sumaxla yeyirdilər. İçərisinə qoyulmuş pencərdən asılı olaraq kətini adı da müxtəlif olurdu: şomu kətsi, unnuca kətəsi, qırxbuğum kətəsi, cincilim kətəsi, gicitkən kətəsi və s. Kətəni əsasən yaz aylarında, pencər bol olan vaxt bişirirdilər.

**Şirvan tərəsi** müxtəlif yeməli və mədəni yabanı bitkilərin yağda qovurması idisə, Lənəkran bölgəsində tərə göyərti qatışığından bişirilmiş duru xörəyə deyilirdi. Lənkəran tərəsi yavanlıq kimi və ya plova əlavə aşqarası kimi süfrəyə verilirdi. Xatırladaq ki, **Lənkəran tərəsi** Şirvanda turşu-sıyıq, Şəkidə, Göyçə gölü və qərb bölgələrində **balva** adı ilə məlum idi. Balva əməkköməci və gör soğandan bişirilir, tərkibinə düyü, un, isladılmış lavaşana, yumurta və yağ da əlavə olunurdu.

Tərkibi göyərti ilə zəngin olan yemək növlərindən biri də **dovğa** idi. Ayrana və ya qatığa doğranım göyərti qatıb bulamaqla bişən dovğaya zövqdən asıl olaraq düyü, noxud və ya xırda-xırda ət küftə də qatırdılar. Xarakterik haldır ki, Naxçıvanda dovğa hind toyuğunun ətinin içgənəsinə göyərti qatmaqla, Qubada isə qatıq və ayrana kələm qatmaqla bişirilir. Dovğanın adına XII əsr müəllifi Əbu Bəkr Gəncəvinin "Munisnamə" əsərində "duğba" formasına rast gəlinir. Azərbaycan həm də yeməli göbələklərin vətəni olmuşdur. Əhali göbələyi suda bişirib, yağ-soğanla qovurmaqla və göbələk "papağına" azca duz tökərək od üstündə bişirməklə yeməyə üstünlük verirdi.

Azərbaycanın Şəmkir, Qazax, Borçalı, Göyçə bölgələrində yeməli yabanı bitkilərdən olan qulançarı xüsusi ənadzə ilə bişirirdilər. Bunun üçün 8-10 sm diametrli tut və ya göyrüş ağacının qabığı 30-40 sm uzunluğunda bütöv çıxarılır, içərisinə quzuqulağı döşənir, bir dəstə qulançar orayayerləşdirildikdən sonra qovsara qordan çıxarılır, mamır qabıq suyunda islandığına görə yanmır, quzuqulağı isə duz rolunu oynayır ki, bu da qovsara üsulu ilə bişən qulançara xüsusi dad verir. Qulançarın qovsarada bişirilməsi, zənnimizcə, odun yenicə əmələ gəldiyi və hələ məişət qablarının geniş yayılmadığı dövrlərin yeməkbişirmə ənənələri ilə səsləşir.

Yabanı və mədəni yeməli bitkilər və otlar həm də qurudularaq ehtiyat ərzaq məhsulları kimi tədarük edilir, keyfiyyəti və xassələri öyrənilir, yeməklərə əlavə kim işlədilirdi. Keşniş, şüyüd, nanə, yarpız,

əvəlik, reyhan, cəfəri, mərzə, kəklikotu, sarıçiçək, qantəpər, qəfliçiçəyi, qırxbuğum və b. bu qəbildən idi. Quru ot və bitkilərin bəziləri həm də qış aylarında çar kimi dəmlənirdi.

Tərkibində çoxlu miqdarda "C" vitamini, mineral maddələr, nişasta, zülal və b. həyati əhəmiyyətli komponentlər olan bitki mənşəli yeməklərdən Azərbaycabnda geniş istifadə olunması xalqımızın qidalanma mədəniyyətinin yüksək olmasımı təsdiqləməklə, bu çoxçeşidli yeməklərin zəngin biliklər, vərdişlər və nənələr hesabına meydana gəldiyini, mehafizəkarlğını, qonşu xalqların qida öynəsinə müsbət təsirini də söyləməyə imkan verir. Bu bir həqiqətdir ki, bütün Qafqazda zəngin bitki mənşəli yeməklər yarda bilən, onu qoruyub yaşadan, özgə xalqlara bu rasiondan bəhrələnməyə səmimiyyətlə razı olan, özü isə özgə mətbəxindən çox "xəsisliklə" faydalanan yeganə xalq Azərbaycan xalqıdır.

**Ət və süd mənşəli yeməklər.** Azərbaycanda xalqının təsərrüfat məişətində əkinçiliklə yanaşı, çaldarlıq da başlıca məşğuliyyət sahəsi olmuşdur. Əhalinin yemək öynəsində maldarlıq məhsularının (ət, yağ, süd, pendir, qaymaq, ayran, şor, qatıq və s.) mühüm yer tutması da məhz bununla izah olunur. Əgər maldarlıq məhsullarından ət ibtidai insanların vəhşi heyvanları primitiv üsullarla ovlamalarından hasilə gətirilir və bəşəriyyətin ilkinlik çağlarına aid edilirdisə, süd və süd məhsulları bir qədər sonralar – ev heyvanlarının əhlilləşdirilməsi hesabına meydana gəlməklə, tarixi etibarilə ətdən sonrakı mərhəlini təşkil edirdi.

Şirəli və qidalı otlaqlarla zəngin olan yaylaqlar, mülayim iqlimə malik geniş qışlaqlar Azərbaycanda maldarlığın inkişafına əlverişli şərait yaratmışdı. Maldarlıq məhsullarında hazırlanan yeməklər gündəlik, bayram və mərasim süfrələrinin ən ləziz və sevimli yeməkləri idi. Ətdən hazırlanan yeməklərin gündəlik yemək öynəsində süd məhsullarına nisbətən az yer tutmasına baxmayaraq, onların hazırlanma qaydaları xalqımızın yüksək qida mədəniyyətindən soraq verir. Ət yeməklərinin çoxçeşidliyi, mürəkkəb üsullarla ətin istifadəyə yararlı hala salınması, ət yeməklərinin hazırlanmasının çoxmərhələli qaydaları və s. Azərbaycan xalqının yemək öynəsində istifadə edilməsinin qədim tarix olduğunu təsdiqləyir.

Azərbaycanda ətdən istifadənin bir çox arxaik qaydaları məlum olmuşdur. İbtidai insanlar ətdən qida məhsulu kimi çiy şəkildə yararlanmışlar. Sonralar odun meydana gəlməsi ilə əlaqədar olaraq ətdən bişmiş şəkildə istifadə etmənin yeni-yeni qaydaları meydana çıxmışdır. Azərbaycan da ət bişirilməsi XX əsrin əvvəllərinə qədər gəlib çıxmış, **"közdəmə", və ya "çoban kababı", qızmış daş üzərində ət bişirmə, "qorabasdırma", "büryan"** kimi arxaik qaydaları ibtidai cəmiyyətin "qida mədəniyyəti"nin qalıqları olmaqla, xalqın məişətində maldarlığın da qədim təsrrüfat sahəsi olduğunu sübut edir. **Közdəməni** bişirmək üçün nazik kəsilmiş ət parçalarını közün üzərində hər iki üzü bişənədək saxlayırdılar. Tez hasilə gəldiyinə görə ona "əlüstü kabab" və yaxud, "çoban kababı" da deyirdilər. Ət külə bulanmasın deyə közdəməni bəzən qızmış daş üzərində də bişirirdilər.

**Qorbasdırmanı** ən çox yaylaqlarda bişirirdilər. Bunun üçün xırda heyvanı (qoyun, quzu) bütöv soyur, ətini doğrayır, içərisinə ədviyyat və süd tökdükdən sonra heyvanın öz dərisinə yığaraq dərini bütün çıxıntılarını bağlayırdılar. Ətlə doli dərini, içərisində od qalanmış çalanın (qarımın) odunu çıxarıb oraya yerləşdirir, üstünü köz və qorla (isti kül-köz qarışığı) və torpaqla basdırıb 1,5-2 saat müddətində bişirirlər. Dərinin yunu yanaraq qətranşəkilli xüsusi qoruyucu örtük əmələ gətirir. Sonra dərini kəsib hazır yeməyi iri tiyanlara (teşt) boşaldırlar. Bəzən quzunu xəmirə də bükərək bu qayda ilə bişirirdilər.

Arxaik dövlərlə səsləşən ətbişirmə qaydalarından biri də **"büryan"** idi. Əsasən Naxçıvan və Qarabağ bölgələri üçün xaraterik olan bu yeməyi bişirmək üçün erkək yağlı toğlunu bütöv soyun hazır qoyur, təndiri qlayıb köz əldə edirdilər. Közün üstünə balaca tiyan və ya çölmək qoyulur, içərisinə yarma və yaxud düyü tökülür, su əlavə edilirdi. Bundan sonra bütöv cəmdəyin ayaqlarını bir-birinə bağlayın arasına ağac keçirir, cəmdəyi üzüaşağı tavaya yerləşdirirlər. Təndirin ağzı kip bağlanırlırdı. Burada 1-2 saat qalın cəmdək qıpqırmızı bişib büyan oşlurdu. Təndirdəki çölməyin içərisinə ona görə su əlavə edirdilər ki, su həm buxarlanıb içəridə bişən ətin yumşalmasına şərait yaratsın, həm də bişmə zamanı cəmdəkdə yağ damcıları əmələ gəlib çölməyə gələnə qədər orada qoyulan düyünün və ya yarmanın yanmasına imkan verməsin. Çölmək yağ dənənlərini yağ üstə düşərək

yanmasının və tüstü yaratmasının qarşısını alırdı. Bəzən çölmək yarması quyruq yağı ilə elə qarışırdı ki, ətdən də yeməli olurdu.

Əhalinin yemək öynəsində ət həm təzə halda, həm qurudularaq (qaxac), həm də qovrularaq (qovurma, cızdaq) istifadə olunurdu. Azərbaycan xalq aşpazları, evdar qadınları ətdən təzə halda istifadə etməyə böyük üstünlük verir, ondan olduqca rəngarəng çeşidli yeməklər hazırlayırdılar. Xüsusilə maldar elatlar arasında geniş yayılan, ümumiyyətlə isə bütün xalqa tanış olan ənənəvi ət yeməkləri arasında tikə kabab, lülə kabab və ya döymə kabab, sac kabab, basdırma kabab, tavakabab, soyutma, kələpır, pörtləmə, içalat qovurması, doldurma, (bağırsaq və qarın doldurması), qızartma, yəxni, soyutma, bozbaş, piti, buğlama, daş kababı, tor kababı və s. yeməklər üstünlük təşkil edirdi.

Təzə əti qiyməkeşlə döyüb müxtəlif yeməklər – küftə, küftə-bozbaş, arzuman küftəsi, rəzi küftə, dolmalar (tənək, kələm, bağayarpağı və badımcan dolmaları, alma dolması, yalançı doma və s.), taskabab, lülə və ya döymə kabab bişirirdilər.

Xalq arasında xırdabuynuzlu heyvanların baş-ayağından **"kəllə paça",** qaramalın dırnağından isə **"xaş"** yeməyinin hazırlanması ilin soyuq fəsilləri üçün daha xarakterik idi. Heyvanların şirib bağırsağından çöz, bağırsaq kababı, qarnından basırma qarın kabaı və qutab, quyruğundan isə cızdaq. Quyruq kababı bişirmək də məlum idi. Zaqatala-Balakən bölgəsində qoyun içalatından **bağırsaq doldurması,** Qərb bölgələrində isə heyvan baş-ayağından qarın doldurması bişirməyi bacarırdılar. Qədim alban soylarında olan saxurlar bağırsaq doldurmasına **"ixlas"** deyirdilər. Bu yemək növünün şirin bağırsağa, içlat və quyruğu qiyməkeşlə birgə döyüb içərisnə ədva qatmaqla yerləşdirib hazırlayır, tavada hər iki üzünü qızardaraq hissələrə bölüb boşqablarda süfrəyə verirdilər.

Qarın dodurması isə sümükdən ayrılmış kəllə-paça ətini xırda-xırda doğramaqla qarına yerləşdirib, qaynayan suyun içində 2-3 saat bişirib hasilə gətiridilər. Ləzgilərin azərbaycanlılardan mənimədikləri bu yemək növü içalatdan (ürək, böyrək, ciyər) bişirilirdi.

Qarından bişirilən xarakterik yemək növlərindən bir də gupa idi. Onu Ordubad əhalisi xüsusi sərişətə ilə hazırlayırdı. Yuyulub-təmizlənmiş mal qarnı əl boyda kəsilir, içərsiinə turşu, noxud ləpəsi,

düyü və ədviyyat qarışığından hazırlanan içlik doldurulur, ağız hissəsi sapla tikilərək yağ-soğanda qızardılır, sonra su əlavə olunurdu. Gupanı boşqablarda süfrəyə verir, onu yeyən şəxs sapları özü kəsirdi. Azərbaycanda təzə ətdən hazırlanmış yeməklərin belə müxtəlif çeşidləri olsa da, hər halda bütü ət yeməklərinin şahı **kabablar, dolmalar və piti** olaraq qalmışdır. Yaranma tarixi etibarı ilə onun meydana gəlməsi dövrünə təsadüf edən kabab təkcə Azərbaycanda deyil, Qafqazda və Şərq ölkələrinin çoxunda geniş yayılmışdır. Kababa "şişlik" adı ilə ən qədim yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanına da təsadüf edilir. Əsasən əlamətdar hadisələr zamanı (bayramalarda, el şənliklərində, əziz qonaqlar gələndə, digər ailə ziyafətlərində) hazırlanan kabablar içərisində tikə basdırma kabab (qırma kabab) dana ləyaqətli kabab növü hesab edilirdi.

Azərbaycan kababları bişirildikləri ocaqlara və qablara görə (tava kababı, taskabab, manqal kababı, təndir kabbı, sac kababı, daş kababı və s.); istifadə olunan ətin təyinatına görə (quzu kababı, toyuq kababı, qaban kababı, hinduşka kababı, içalat kababı, balıq kababı, quyruq kababı, çöl heyvanlarınn və quşlarının kababları), eləc ədə istifadə olunan ətin emal üsullarına görə (tikə-qırma kabab, lülə, qiymə və ya döymə kabab, basdırma kabab, şam kabab və s.) bir-birindən fərqlənir, hər birinini ayrıca dadı, tamı, süfrədə yeri, bəyənilmə dərəcəsi olurdu. Kabablar süfrəyə verilərkən yanında zövqdən asılı olaraq, göyərti, sumax, narşərab, müxtəlif tutma-şorbalar və salatlar da qoyulurdu. XX əsrin əvvəllərində başlayaraq badımcan, kartof və pomidor kababları da meydana gəlmiş, ət kabablarına əlavə edilmişdir. Naxçıvan bölgəsində ət kabalrına verilən pomidor-badımcan əalvəsi qısaca olaraq "qırmızı-qara" adlanır. Kababları süfrəyə ləyaqət rəmzi olaraq şişdə verməyə daha çox cəhd gösətrilirdi. Aədətən, əziz qonağın və ocağa gətirilən gəlinin ayağı altında kəsilən qurbanlıqdan bişirilən kababları süfrəyə şişdə verirdilər.

Azərbaycanda bişirilən domalar döyülmüş ətin materialına görə (yarpaq dolması, əvəlik dolması, kələm dolması, badımcan dolmsası, bağayarpağı dolması və s.); eləcə də hazırlanma içliyinin xüsusiyyətin əgörə (yalançı dolma, müğəşərli dolma və s.) bir-birndən fərqlənirdi. Bağayarpağı dolmasını nadir hallarda bişirir, onu mədə-

bağırsaq xəsətliyi olan ailə üzvlərinə verirdilər. Yalançı dolmanın isə içliyi göyərti-pəncər və düyü qarışığından haırlanırdı. Bir qayda olaraq, bayram və mərasim üçün bişirilən yarpaq dolmasını 10-12 ədəd olmaqlasapa düzür, birşirir, bir adamlıq boşqablaar çəkirdilər.Kələm dolmasına albuxara və ya şabalıd qatılır, heyva dilimlənib altına və aralarına qoyulıurdu.. Gənvəbasarda belə dolma sirkə-şirə ilə yeyilirdi. Yarpaq dolması isə süfrəyə qatıq və hya sarımsaq-qatıqla verilirdi. Müğəşərli dolmanın  içliyi isə döyülümş ətə noxud-müğəşər qatılmaqla hazılanırdı.

XX yüzilliyin əvvəllərindən başalayaq xalq məişətində pomidor, bolqar bibəri və b. tərəvəz bitkilərinin daxil olması ilə əlaqədar badımcan, pomidor və bibər dolması xalqın yeməkləri içərsində mühüm yer tutmağa başlayır.

Azərbaycan xalqın ənənəvi milli yeməklərindən biri də **pitidir.** Bu yemək növünü xüsusi saxsı qablarda (piti dopusu, piti bərnisi, ailəvi piti çölməyi) hazırlayırdılar. Körpə əmliyin döş və ya quyruğundan hazırlanan piti yüksək qiymətləndirilirdi. Piti vam odda 6-7 saata qədər bişirilir, içərisinə bişmə ardıcıllığına əməl etməklə ət, noxud, soyulmuş baş soğan, quyruq, eləcə də zövqdən asılı olaraq zəfəran, quru nanə, təzə və ya quru alça qatırdılar. Piti suyu və qatışığı ayrı-ayrı hallarda yeyilirdi. Adətən doğranmış səngək çörəyini üstünə piti suyu tökərək taxta qaşıqla yeyilir, piti qarışığı isə həvəngdəstədə döyülərək çörəklə birgə süfrəyə verilirdi. Şəhər qaydasınca, pitinin yanında göyərti, sumax və istiot vermək də dəb idi. Bütün orta əsrlərdə, eləcə də XIX-XX yüzilliyin əvvəllərində Gəncə və Şəki şəhərləri öz pitisi ilə daha da məhşurlaşmışdı.

"Üz ağardan xeyir-şər yeməkləri" hesab olunan ət xörəklərinin Azərbaycanda çoxlu lokal-məhəlli variantları qeydə alınmışdır. Naxçıvanın "gupa"sı, "doğramacı", "xan atlandı"sı, "ət şamısı", Gəncəbasarın "bağırbeyni", Ayrım bölgəsinin "sığırsidiyi", Qarabağın "çoban qoruması", Qərb bölgəsinin "qorabasdırma"sı, "xəngəl"i, "doldurma"sı, Zaqatala-Balakən bölgəsinin "bağırsaq doldurması", Şəkinin və Gəncənin pitisi, Lənkəran bölgəsinin "toyqatığı (şirinqatıq)", "kəllə-paça plovu", Bakının "küftə-bozbaşı", dəvə ətindən qutyabı,

Qazax “kələpır”ı adla söylənilir, qonaq qarşısına çıxarılan lətafətli xörəklər kimi səciyyələnirdi.

Azərbaycanda vəşhi çöl heyvanlarının ətindən yeməklər hazırlanması az-çox dərəcədə məlum idi. Ceyran-cüyür kababı, dovşan qızartması, dağ kəli, əlik, dağ qoçu və b. heyvanların ətindən bişirlən ləziz kabablar, bozartma, qızartma, qovurmaa və b. yeməklər qonaqlıq süfrəsini bəzəyirdi.

Ev və çöl heyvanlarının ətindən, yumurtasından əhalinin əksəriyyəti istifadə edə bilirdi. Xalq arsında geniş yayyılmış inama görə, ov quşlarının dimdikləri qar gördükdən sonra, qaz və ördəyin ayaqları sazaqdan qızaranda, yotuq və hind toyuqunu il boyu yemək məsləhət idi. Quş ətindən həm sulu-isti, həm də quru xörəklər hazırlanırdı. Ən geniş yayılmış və bütün əhalinin sevimli yeməyi olan toyuq şorbası idi. Bundan başqa, quş ətindən çığırtma, soyutma, qızartma, kabab, ləvəngi və b. yeməklər də hazırlanırdı. Quş əti süfrəyə həm ayrıca yemək kimi verilir, həm də xəngəl və plov kimi klassik yeməklərə qara (xuruş) kimi əlavə edilirdi. İqtisadi cəhətdən az təmin olunmuş kəndli ailəsinin qonaq süfərsinə çıxartdığı ən ləziz yemək quş ətindən olurdu. İri heyvan kəsmək kənd ailəsini izafi maddi xərcə saldığı üçü hətta bayram yeməkləri də çox zaman quş ətindən hazırlanırdı. Lənkəran, Şirvan və Şəki bölgələrində quş ətindən ləvəngili çölmək kababı, təndir kababı bişirmək adət halını almışdı.

Əhalinin yemək öynəsində ev quşları ilə yanaşı, çöl ördəyi, çöltoyuğu, çöl qazı, bildirçin, kəklik, qırqovul, turac, bəzgək, qaşqaldaq, dovdaq və b. ov quçlarınını ətindən hazırlanan yeməklər də müəyyən yer tuturdu. Bu quşların əksəriyyətnin ətindən kabab, fisincan və b. yeməklər hazılranırdı. Sərçə əti və işgənəsi müalicə vasitəsi kimi milli xörəklərimizin tərkibinə daxil edilmişdi. Xalq arasında qismən də olsa, hind toyuğu ətindən dolma və ya xəmirə bükməklə qorabasdırma da məlum idi. Yumurtadan qayğanaqvə soyutma bişirilir, müxtəlif çığırtma xörəklərinin üstünə vurulur, plov qazmağı hazırlanırdı. Yumurta kükü və lobya yeməyinin də başlıca tərkib komponenti idi. Lənkəran bölgəsində bişirilən küküyə yumurta ilə yanaşı, əzilmiş qoz ləpəsi də vururdular. Təzə yumurta müalicə məqsədilə içilirdi. Naxçıvan əhalisi arasında yumurtadan silikmə və ballı qayğanaq da bişirmək də geniş

yayılmışd. Novruz bayramında rəngli soyutma yumurta bişirmək, yumurta döyüşdürmək, yumurta ilə fala baxmaq əhalinin sevimli adətlərindən idi. Kəndli məişətində yumurtanın böyük əksəriyyəti mübadilə rolu oynamaqla yanaşı, ev quşlarının sayının artırılmasına (toyuq basdırmaq) sərf olunurdu. Adətən, çöl quşlarının yumurtasından müalicə məqsədilə istifadə olunurdu. Gec dil açan uşaqlara göyərçin yumurtası içirməklə bu xətanı aradan qaldırmaq mümkün idi.

Azərbaycanın dənizsahili və çayboyu ərazilərində yaşayan əhali arasında balıq yeməkləri geniş yayılmışdı. Hələ əqdim zamanlardan balğı il boyu yemək üçün duza qoyur, qurudr, qaxac edir, bir qayda olaraq, kabab, (təndir kababı, buxarı kabab və s.), soyutma, qızartma (bütöv və yaxud doğramaqla qızartma), balıq ləvəgisi, buğlama, balıq sırdağı, ləmbic, balıq mütəncəmi, dolma və b. yeməklər hazırlanırdı. Əhali balığı həmçnin plov qarası kimi süfrəyə verirdi. Balıq kababı, əsasən ziyad, qızılbalıq və xəşəmdən şişə keçirməklə bişirilir, bir qayda olaraq, varlı əsilzadə süfrələri bəzəyirdi. Bəzən ziyad, xəşəm, çapaq, və çəki kimi balıqları bütöv şəkildə- içalatını təmizləyib, başını quyruğuna tikməklə bişirirdilər. Muğanda balığı əncir və üzüm yarpağına büküb buxarıda qızmış kərpiclərin üstündə qora basdırmaqla bişirməyə üstünlük verilirdi. Qərb bölgələrində xram balığından balıq soyutması bişirmək ənənəsi var idi. Bununn üçün təmizlənmiş balıqları bütöv halda suda qaynadır, süfrəyə verərkən yanına istiot, nardaşa qoyurdular. Şərqi Azərbaycanda balıq soyutması əsasən sıf, çəki, çapaq balıqlarından bişirilirdi.

Şamayı və qarasol kimi xırda balıqlar bütöv, qızılbalıq, ziyad (kütüm), xəşəm, qızılxallı, çapaq, çəki kimi balıqları isə fal-fal doğranmaqla tavada qızardılırdı. Süfrəyə verilərkən yanına doğranmış soğan, sumax, istiot və narşərab da qoyulurdu. Xəzərsahili bölgənin əhalisi arasında qızardılmış balığı plovla yemək adət halına gəlmişdi. Yarı qızardılmış balıqdan döşəməplov da hazırlanırdı.

Lənkəran bölgəsi əhalisinin sevimli yeməklərindən biri də **balıq sırdağı** idi. Çapaq və ziyad balıqlarındab bişirilən balıq sırdağını ayrıca qızardılmş balıq və ya xırda-xırda doğranaraq yüngül qızardılmış sarımsağı lay-lay qazana yığıb, üstünə cəfəri və qora suyu əlavə etməklə vam odda dəmləyərək hasilə gətirirdilər. Onu həm plova qara

kimi verir, həm də çörəklə yeyirdilər. Balıq sırdağındna fərqli olaraq Muğan ləmbicində sarımsağı soğan və göy-göyərti tərkibi əvəz edirdi. Üzərinə yağ əlavə edilən ləmbic xəşəm və sıf balığından hazırlanır, sacın içində bişirilirdi.

Muğan bölgəsi üçün xaraterik olan **balıq mütəncimini** hazırlamaq üçün balığı doğrayır, duzla və doğranmış soğanla qarışdırıb qazana (çölməyə) yığır, üstünə yağ və sirəkli su əlavə edib vamla bişirirdilər. Qazanın qapağı kip örtülürdü ki, balıq öz buğunda bişsin. Onu qızılxallı və xəşəm balığından hazırlayır, plovla yeyirdilər.

Azərbaycanın orjinal milli balıq yeməkləri içərisində **balıq ləvəngisinin** əvəzini tapmaq çətindir. Onu, adətən, kütüm, xəşəm, çəki, çapaq və külmə balıqlarından bişirir, bayram, mərasim, ailə şənlikləri və qonaqlıq süfrələrinə çıxardırdılar. Bunun üçün qoz ləpəsi, soğan, və balıq kürsündən içlik "ləvəngi" hazırlanır, içərisi təmizlənmiş, duz, isitot və tuşu (alça turşusu) vurulmuş balığın içinə yığılır, sapla tikilir, balığın quyruğu başına bənd edilərək dairəvi şəklə salınır, sonra ocaqda və ya təndirdə bişirilirdi. Balıq ləvəngisi ayrıca və ya povla yeyilirdi.

Dənizsahili və Muğan bölgələrinin əhalisi arasında balıqdan buğlama, dolma və s. yüməklərin hazırlanması təcrübəsi vardı. Adətən Abşeronda dolmanı təzə balıq ətindən, Muğanda isə duzlu və şit balıqlardan bişirirdilər.

S.Vurğun "Bakının dastanı" poemasında Azərbaycanda məlum olan balıq növləri və onlardan hazırlanan balıq yeməkləri haqqında yazırdı:

Qızıl balıq, azad manhı,
Gümüş rəngli xalları var.
Balıqların odur şahı,
Kababından ləzzət apar!

Kütüm balıq təmiz, dadlı,
Plov üstə məzəlidir-
Suyuşirin, zər qanadlı,
Əsil yurdu Ənzəlidir.

Sazan da var... mərifəti
Gönü qalın admalr tək
Bıçaq kəsməz olur əti,
Məclisinə qoyma gərək!..

Şamayısa az-az olur,
Yağda qızart, ye, nuşican!
Damaq duru, kef saz olur,
Yediyindən doymaz insan...
Kişmişlə qoz, axat zoğal,
Soğan qızart, onlara qat.
Qoy yığışsın əhli-əyal,
Badə götür, de, "həzərat!..."

Bir də xəşəm...Yağlı xəşəm.
Slayandadır bu nemətim.
Balıqçılıq deyil peşəm,
Uzanmasın bu söhbətim.

Xəzər sahili və Kür çayını axarı boyu məskunlaşan əhali balıq kürüsünü həm təzə halda qızardaraq yeyir, həm də ondan ehtiyat ərzaq məhsulu hazırlmaqda böyük təcrübəyə sahiblik edirdi. XIX yüzillikdə Salyanda olmuş rus alimi İ.N.Berezin burada kürünün böyük məharət və ustalıqla emal edildiyini müşahidə etmiş və yazmışdır ki, Sibirin sürətlə axan çayları dadlı balıqlarla bol olsa da, onun boyat, duzlu kürüsü Salyan balıq vətəgələrinin kürüsü ilə heç müqayisə edilə bilməz. [23]

Duzlanmış, hisə verilmiş, qurudulmuş, qaxac edilmiş balıqlar, adətən, ehtiyat ərzaq məhsulu kimi tədarük edilirdi.

Azərbaycan xalqının minilliklər boyu qida mədəniyyətində əldə etdiyi emprik biliklər, vərdişlər, təcrübələr daha çox süd və süd məhsullarının hazırlanması sahəsində qazanılmışdır. Süddən yemək

kimi istifadə edilməsinin tarixi kökləri çox qədimlərə gedib çıxır. İlk insanlar südü vəhşi heyvanları əhilləşdirmək yolu ilə əldə etmişlər. Şərqdə barbarlığın orta pilləsi və süd və ət verən heyvanların əhilləşdirilməsindən başlanmışdır (F.Engels).

Maldarlıq məhsullarından süd və ondan hazırlanmış ağartı (qatıq, qaymaq, şor, kəsmik, pendir, yağ, çiyə, xama və b. ) inək, qoyun , camış, keçi sağmaqla əldə edilir, müxtəlif istehsal-emal üsullarından keçirilirdi. Süd-ağartı məhsulları yavanlıq kimi əhalinin gündəlik yemək rasionunda ən başlıca yer tuturdu. Süd yemək süfrəsinə həm xalis şəklində çıxardılır, həm də müxtəlif südlü xörəklərin (südlü sıyıq, çəkmə, südlü sülfüllü, südlü əriştə, südlü umac. Şullu, qını və b.) tərkibində işlədilirdi. Körpə uşaqlara və qocalara isti südün içərisinə çörək doğrayıb (doğramac) verirdilər. Süddə müxtəlif yağlı çərəklərin xəmirini də yoğururdular.

Yenicə doğmuş heyvanın ilk südü “ağız südü” adlanırdı. Azərbaycanda bu süddən hazırlanan yeməklərin bir neçə növü (ağız, suluq və ya qoux, bulama, kələkə, kətəməz və b. ) məlum idi. Ağız südünü sağıb heyvanın suluğuna (pətənə üstündə sulu pərdə) tökür, ağzını bağlayır və isti qorda bişirirdilər. Bişdikdən sonra pendir kimi bərkiyən, yağlı-ləzzətli olan suluğun üst qabığını soyaraq yeyirdilər. Ona qoux da deyirdilər. Suluq köçmə elat və tərəkəmə məişəti üçün xarakteri yemək növü olmuşdur.

**Maxaranı** hazırlamaq üçün ağız südünün un qarışdıraraq həl olununa qədər çalır, alınmış qatı məhlulu qaşıq-qaşıq qızmış və yağlanmış sacın üstünə tökərək bişirirdilər. Azərbaycanın keçmiş kəbirli və ovşar tayfaları arasında bu yemək növünün “şan-şan” adlandığı qeydə alınmışdır.

Ağız südündən maldarlığın inkişaf etdiyi bölgələrdə **kətəməz** bişirirdilər. Bunun üçün içərisinə azacıq duz qatılan ağız südü qazanan töküb dələmə kimi bərkiyənə qədər bulaya-bulaya qaynadırdılar. Kətəməz xırda doğranaraq çörəkə yeyilirdi. Döl kampaniyası zamanı çoxlu kətəməz bişirib, şirinlik əlaməti olaraq, onun bir hissəsini qohuma-qonşulara pay verirdilər.

Ağızdan sonrakı iki-üç gün ərzində sağılan süddən **bulama** bişirilirdi*. Bu yemək növü əsasən maldar elatların süfrəsi üçün xarakterik idi.

Azərbaycan xalqı arasında süddən istifadənin ən geniş yayılmış növlərindən bir də **qatıq və pendir** hazırlamaq olmuşdur. Qatıq, bişirilərək müəyyən temperatura qədər soyudulmuş südün içərisinə çalası (boyat qatıq) töküb qatışdırmaqla hasilə gətirilirdi. Bu qayda olaraq qatıq əldə etmək təkcə Kiçik Qafqaz və Azərbaycan üçün deyil, bütün Qafqaz Orta və Qabaq Asiya, Cənub-Şərqi Asiya ölkələri və Misir üçün xarakterik olmuşdur. Bəzən süd isti yerdə xeyli qaldıqda, eləcə də ildırım çaxması zamanı öz-özünə uyuşaraq qatığa çevrilirdi. Əhali onu "şeytan qatığı", və ya "cortan" adlandırır və adətən yemirdilər. Qatıq üzlü və üzsüz olmaqla iki növdə hazırlanırdı. Üzlü qatığı, südü birbaşa bişirərək qatıq çalmaqla hazırlayırlar, üzsüz qatığı isə dayaz və enli qablarda sərilmiş südün üzünü yığıb, (çiyə, xama, narın üz), altını isə mayalanmaqla əldə edirdilər. Qatıq gündəlik və öynəlik çalınırdı. Öynəlik qatıq çalmaq üçün heyvanın bir neçə öynəlik sağınından alınan südü qatıb bişirir, qatıq yığıntısı əldə edir və yağ hasili üçün istifadə edirdilər. Şirvanda həmçnin köhnə südün üzünü yığaraq təzə südə qatıb bişirir, qatıq çalırdılar. Yağ hasil etmək üçün nəzərdə tutulan belə qatığa qaymaq qatığı deyilirdi. [1]

Qatıq əsasən təzə halda süfrəyə verilirdi. Ondan yemək (yavanlıq) kimi istifadə edilməsini ən sadə forması çörək batırmaqla yemək idi. Qatığa çörək doğramaqla qatıq doğramacı düzəldirdilər. Bəzən qatığın üstünə bəkməz (doşab) töküb yeməyə də üstünlük verilirdi. Tərəvəz mövsümündə qatığın içinə soğan, xiyar, çörək, duz, keşniş, şüyüd və su qatmaqla iri qablarda yüngül həzm olunan doğramac düzəldirdilər.

Azərbaycanın Gəncəbasar, Qazax, Borçalı və Qarayazı bölgələrində sarımsaqlı qatığın üzərinə daş edilmiş qaynar ya tökməklə

---

[1] Ağız südü və bulama yeməkləri haqqında "Azərbaycan etnoqrafiyası"nın I cildində ətraflı məlumat getmişdir.

**ağsoğlağı** düzəltmək adət şəklini almışdı. Onu çörək batırmaqla yeyirdilər. Qış aylarında qatığı **qurut** əvəz edirdi.

Şirvan bölgəsində ətli-yağlı xörərkərin yanında süfrəyə kiçik kasalrda çalınmış "kasamas" adlanan qatıq qoyulurdu. O, həm də sərinləşdirici içki rolunu oynayırdı.

İsti iqlimə malik aran kəndlərində qatıqdan uzun müddət istifadə etmək üçün onun suyunu süzdürərək **süzmə** hazırlayırdılar. Lazım gəldikdə süzmənin üzərinə su əlavə edib qatışdırmaqla yenidən qatıq əldə etmək olurdu. Qatıq süzməsindən biçinçilərə sərinləşdirici içki hazırlayır, süzməni duzlayıb, süzmə qurut düzəldir, qatığa su qatmaqla **atlama**, süd qatmaqla isə **körəməz** əldə ediridlər. Atlama və körəməz sərinləşdirici içki və yavanlıq şəklində istifadə olunurdu.

Qatıqdan dovğa və qatıqaşı kimi yeməklərdə hazırlanırdı. Naxçıvan bölgəsində qatığa su qarışdırıb lavaş doğramaqla və göyərti qatmaqla hazırlanan və **tıxlama** adlanan yemək də məlum idi.

Azərbaycanda ayrıca olaraq qatıq qaymağı və süd qaymağı (xama, çiyə, narın üz) yemək kimi də istifadə olunurdu. Qaymağı əsasən bala qatar yeyirdilər. Narın üz (yenicə qaymaqlanan süd üzü) adətən şam yeməyi zamanı süfrəyə verilirdi. Ulu sənətkarımız Aşıq Ələsgərin "Narın üz" təcnisinin tamamlanmasında bu yeməklə bağlı maraqlı bir rəvayət vardır. "Deyirlər ki, Aşıq Ələsgər bu təcnisin dörd bəndini qoşmuş, "narın üz" ü beş nüxtəlif mənada işlətmişdir. İfadənin altıncı mənasını tapa bilmədiyindən yazdırıb qüdrətlərinə inandığı müasirlərinə göndərmiş, tamamlanmasını xahiş etmiş, hətta kim bu altıncı mənanı tapıb beçinci bəndə qoşa bilsə, təcnisi ona bağışlayacayını vəd etmişdir. Lakin belə bir şair taplmamışdır. Günlərin birində aşıq bir alaçığa qonaq düşübmüş. Ev sahibi aşığa şay-şörək gətirmək üçün qızını səsləmiş, xüsusi bir tapşırıq vermişdir ki, qonağa "narın üz" gətirsin. Beləliklə də "narın üz"ün son mənası tapılmışdır. Demə o südün hələ qalımlaşmamış narın, nazik üzü imiş. Aşıq elə oradaca sazın köynəkədən çıxarıb təcnisin tamamlamışdır:

Rüsxət ver, sözümü deyim qayım, ağa!
Yuyar qəssal qəddim, bükər qayım ağa!
Ləzzət verər bal qatanda qaymağa,

Qaymaqdan da şirin olur narın üz.

Süd və qatıq, başlıca olaraq **yağ** hasilinə sərf olunurdu. Yağıntı və ya öynəlik qatıqdan yağ əldə etmək üçün Azərbaycanda üç növ nehrədən-gil nehrədən, ağac nehrədən (arxıd) və tuluq nehrədən (tejən, çalxar) istfadə olunurdu.[2] Çalxalama prosesində əmələ gələn yağ soyuq suya qoyulur, sonra isə duzlanaraq yağ köpəsinə və ya qarına yığılırdı. Ailədə olan bütün kiçik yaşlı uşaqlara yağdan dürmək və ya yaxma verilirdi. Azərbaycanda nehrə yağını həm əridərək, həm də kərə yağ şəklində işlədirdilər. Aran bölgələrində ilin isti fəslində kərə yağı saxlamaq çətin olduğu üçün onu əridirdilər. Ərinmiş yağ xörək bişiriməyə sərf olunur, kərə yağ isə süfrəyə verilirdi.

Nehrə ayranından həm sərinləşdirici içki kimi istifadə edir, həm də çürütməklə və ya suyunu süzməklə **şor** hazırlayırdılar. Ayran süzməsindən hazırlanan qurut qış atlarında qatıq-ağartı məhsulları azalan vaxt əhalinin ağartıya olan tələbatını ödəyirdi. Odda qaynadılmış və çürüdülmüş ayranın suyunu (çümrük suyu) yenidən qaynatmaqla **nor** düzəldir, duzlayıb təzə halda yeyirdilər. Ayran təzə halda içilir, ondan ayran-çilov, ayran tutmac və ayran aşı da bişirilirdi.

Azərbaycan əhalisinin yemək öynəsində "kasıb yavanlığı" hesab olunan **pendir** süd-ağartı məhsullarından ən çox istifadə olunanı idi. Adətən, inəyin yağı, camışın qatığı və qaymağı, qoyunun isə pendiri xalq arasında yüksək qiymətləndirilirdi. Pendir xüsusi pendir mayası (qursaq mayası) vasitəsi ilə hasilə gətirilirdi. Bəzən bu məqsədlə mayaotu və dəmləmə otu da işlədilirdi. Pendirin hazırlanması və saxlanması üsulundan asılı olaraq Azərbaycanda müxtəlif növləri olmuşdur.: baş pendir, qaş pendir, burma pendir, motal pendir, axtarma motal pendiri, cılğı pendir, təzə pendir, ovma pendir, üzlü pnedir, üzsüz pendir və s. XIX yüzillikdə öz dadına, keyfiyyətinə və aromatlılığına görə daha çox məşhur olan Qazax, Gəncə, Qarabağ, Talış, Bakı və kürd

[2] Yağ hasil edən nehrələr, yağ əldə etmək üsulları, eləcə də şor, süzmə, qurut və pendir hazırlanma qaydaları haqqında "Azərbaycan etnoqrafiyası"nın I cildində ətraflı məlumat getmişdir.

pendirləri olmuşdur. [24] XIX yüzilliyin axırlarına dair bir yazili məlumatda Qazax qəzasında ən yaxşı pendiri Şıxlı kəndində hazırlandığı qeyd olunurdu. [25] Pendir təzə halda yeyilir, ehtiyat ərzaq kimi tədarük olunur, hətta satışa çıxarılırdı. 1883-cü ildə Bakı-Tiflis dəmiryolu işə düşdükdən sonra Cənubi Qafqaz şəhərlərində Qarayazı maldarlarının hazırladıqları pendirə tələbət xeyli artmışdı. [26] Azərbaycanda istifadə olunan Naxçıvan, Zuvand, Şirvan və ləzgi pendirinin də xüsusi dadı və ləzzəti vardı.

Əhali arasında pendir, çörəklə, qarpızla, yemişlə, üzümlə, təzə göyərti ilə yeyilir, ovularaq göy kətəsinə qatılırdı. Kiçik Qafqazın dağlıq bölgələrində yağ-ətli yeməklərdən sonra süfrəyə pednir qoymaq dəb idi. “Qırx tikə” adlanan bu pendir “çərəzi”ndən dadmamaq qəbahət hesab olunurdu. Bundan başqa, göyərmiş, açıq havada qalan üzlü motal pendirini qızardaraq yuxaya büküb yeməyə üstünlük verirdilər. Belə pendir kətəyə də qatılırdı.

Ət və süd mənşəli yeməklərin xalqın qida öynəsinə belə üstünlük təşkil etməsi, yuxarıda qeyd etdiyimiz kimi, təsərrüfat məşğuliyyətinin növləri kimi izah olunur. Əkinçilikdən sonra başlıca təsərrüfat sahəsi kimi ayrılan maldarlıq və onun məhsulları qida mədəniyyətimizi xeyli zənginləşdirmişdir. Təbii-coğrafi şərait, əhalinin təsərrüfat məşğuliyyyəti və bir sıra sosial-iqtisadi amillər Azərbaycanın ət-süd mənşəli yeməklərinin geniş çeşidini şərtləndirir, bu yeməklərin bəziləri Ümumqafqaz səciyyəli olsa da, əksəriyyəti milli xüsusiyyətləri ilə diqqəti cəlb edir.

**Mərasim yeməkləri.** Gündəlik yeməklərdən öz tərkibi, həcmi, hazırlanma qaydaları və zənginliyi ilə seçilən mərasim yeməkləri zaman-zaman xalqın əməli bilikləri, zövqü, təsərrüfat məşğuliyyəti və mərasimlərin təyinatından asılı olaraq yaranmışdır. Azərbaycan xalqının keçirilməsinə ciddi əməl etdiyi mərasimlər, yas, toy, ailə-məişət şənlikləri və xalq bayramları olmaqla dörd qrupa bölünür.

Məlumdur ki, hər bir xalqın məişətində, xeyirlə (toy, bayram) şər (yas, dəfn) qoşa yaranmışdır. Dəfn və toy mərasimlərinin geyimlərində olduğu kimi, yeməıklərində də fərqli cəhətlər nəzərə çarpırdı. Hələ vaxtilə hələ qədim yunan filosofu Platon yazırdı ki,

insanın həyatının çələngi həmvətənlərinin onun üçün təşkil etdiyi dəfn mərasimi olmalıdır.

Azərbaycanda yas (ehsan) mərasimi mərhumun vəfatının üçüncü, yeddinci, qırxıncı günlərində, cümə axşamlarında  və ilində keçirilirdi. Mərasim yeməkləri içərsində **halva** əsas yer tuturdu. Onun bir neçə növü (adi un halvası, səməni halvası, umac halvası, qoz halvası, tər halva, düyü halvası) məlum idi. Halvanı bişirmək üçün unu yağda qovurur, içərisinə şəkər tozundan hazırlanmış şərbət və azacıq duz, sarıkök qataraq “çalırdılar”. Umac halvası isə əvvəlcədən tədarük edilən narın un  umacından hazırlanırdı. Mərasim halvası kimi ancaq adi və umac halvası bişirilirdi. Halvanı yuxaya töküb ya ülüş kimi paylayır, yada dayaz nimçələrindən ehsan süfrəsinə qoyurdular. Bundan başqa, halva-çörək qəbirstanlığa aparılır, qohum-qonşularada paylanılırdı.

Yas mərasiminin yemək süfrəsi təkcə halva ilə məhdudlaşmırdı. Burada həmçnin çoxlu yuxa bişirilir, müxtəlif ətli xörəklərdən ehsan yeməkləri də hazırlanırdı (bozartma, dolma, keftə-bozbaş və s.) Ehsan yeməkləri dəvət olunmuş mollanın müşayiəti ilə keçir və bu zaman mərhumun əməlləri xatırlanırdı. Müxtəlif səbəblər üzündən ehsana gələ bilməyən kənd sakinlərinin (xəstələr, əlillər, hamilə və zahı qadınlar və s.) evlərinə ehsan yeməklərindən ibarət bağlama göndərilirdi.

Şirvan və Abşeron bölgələrində mərhumun vəfatının 41-ci günü xəmir aşı və ya Allah aşı hazırlanır, yeddi ailəyə paylanırdı. Bununla [40] günlük yas mərasiminin bitdiyi məlum olurdu. Etnoqrafik materiallardan aydın olur ki, Azərbaycanın əksər bölgələrində hələ ili tamam olmamaış məhuma Novruz, Qurban, Orucluq bayramları ərəfəsində “qara bayram” verilirdi. Bu mərasimə toplaşanlar üçün halva, plov və digər  ətli xörəklər verirdilər. Qadınlar qəbirsitanlığa gedir, matəm səciyyəli səhnələr icra etdikdən sonra özləri ilə gətirdikləri səməni, şirniyyat və meyvəcatı qəbrin üstünə qoyurdular. Bu mərasim mərhumun xatirəsinin yad edilməsi ilə yanaşı, yas evinin yasdan çıxması və qarşıdan gələn bayram urvatlı qeyd edilməsi məqsədi ilə keçirlirdi.

Ehsan verməyi hər bir ailə özünə borc bilirdi. Bu işdə qohum-qonşular, bütün kənd əhli yaxından iştirak edir, ərzaqla

köməklik göstərir, ümumiyyətlə, mərhumu “urvatlı götürmək üçün” hamı əlindən gələni edirdi.

Keçmişdə Azərbaycan da nəzir məqsədilə müxtəlif xörəklər bişirilir, “qada qurbanı” kəsir, qüdrətlərinə inandıqları pirlərə (Nardaran piri, Mir Möhsün ağa ocağı, Gəncə imamzadası, Əshabi-kəf ibadətgahı və s.) heyvan, halva-çörək, qənd-çay, pul nəzirləri də verirdilər. Abşeronda niyəti yerinə yetmiş hər bir şəxs “Əli süfrəsi” açmağı, turşuqovurma plov, şərbət, ayran və göyərti verməyi özünə borc bilirdi. Naxçıvanda bu məqsədlə İmam təziyyələri verilirdi. Səməni halvası, şorqoğalı, fəsəli bişirib paylamaq da nəzir mərasiminin tərkib hissəsi idi.

XIX-XX yüzilliyin əvvəllərində daha böyük şənliklərlə, ruh yüksəkliyi ilə icra olunan toy və kiçik toy (sünnət) mərasimləri yeməklərin rəngarəngliyi ilə seçilirdi. Məlum olduğu kimi, qədim bir tarixə malik olan toy adətləri xalqımızın ailə məişətində mühüm rol oynamışdır. Toy zamanı gələcək yeni ailənin əsası qoyulduğundan və nəslin yeni davranışları belə ailələrdə dünyaya gəldiyindən, bu mərasimə çox böyük qiymət verilmiş, toy təntənəli surətdə keçirilmişdir.

Toyun ilk mərhələsi hesab olunan elçilik əsasən şirniyyatla qeyd olunurdu. Qızın “hə” si alınana kimi ortya şirniyyatlar: noğul, nabat, qoğal, kəllə-qənd, şirin çörək, qatlama və s. eləcə də meyvacat düzülürdü. Oğlan elçiləri şirin çay içər, xeyir-dua verərdilər. Bəlgə və nişan mərasimlərindən bütün bunlarla yanaşı, süfrəyə yüksək keyfiyytli ətli-yağ yeməklər, plov verilərdi. Bakıda nişan mərasimlərində ovşala içilməsi adət halını almışdı.

Toy şənlikləri isə adətən müxtəlif ətli xörəklərlə (kabab, dolma, küftə-bozbaş, bozartma, soyutma, pörtləmə və s.) və plovla yola verilirdi. Belə şənliklərdə xörəklərin bişirilməsi (plovdan başqa) və süfrəyə verilməsi ilə kişilər məşğul olurdu. Mərasim yeməklərini aşpazlar bişirirdi. Aşpaz əti doğrayır, ayrı-ayrı xörəklərin (kabab, dolma, bozartma, aş qarası, toy qatığı və s.) bişirilməsi üçün əti seçir və xörək hazırlayırdı. Toydan 2-4 gün sonra qız evi tərəfindən gələn adamlar özləri ilə plov, müxtəlif yağlı çörəklər, meyvə, şirniyyat gətirərək “gəlin görməsi” nə toplaşardılar.

Azərbaycanın qərb bölgələrində daha təntənəli şəkildə keçirilən kiçik toy məcslislərində **“kirvə aşı”** adlanan xüsusi plov

bişirilirdi. Kirvənin süfrəsinə gətirilən plovun başına xuruş kimi arsala və ya qarı (qoyunun bud hissəsindən bişirilən iri, sümüklü ət parçası) qoyulurdu.

Etnoqrafik materiallardan aydın olur ki, keçmişdə xalqımızın qeyd etdiyi ailə-məişət şənlikləri də (uşağın doğulması, diş çıxartması, qonaqlıq və s.) lətafətli və ləziz yeməklərlə qeyd olunmuşdur. Ailədə ilk uşağın (xüsusi ilə də oğlan uşağının) doğulması ilə keçirilən qonaqlıqlar ətli yeməklərlə müşayiət olunsa da, zahı qadınlar üçün **quymaq** bişiridilər. Bunun üçün yağda yetərincəyə qovrulmuş unun üstünə qaynar su tökür, vam odda qazmaq bağlayana qədər bişirilirdi. Süfrəyə verilərkən quymağın üzərinə şəkər tozu və ya bal, bəkməz tökülür, yağ "gəzdirilir", darçın səplilirdi. Quymağı adətən ağbirçəklər, əksər hallarda isə təzə gəlinin qaynanası bişirirdi. Qurmaq qüvvətli yemək hesab edildiyindən, onu toyun səhəri günü bəy və gəlinə də bişirib verirdilər. Zəif düşən adamlara quymaq vermək və ramazanın (orucluğun) obaşdanlıq (imsaq) süfrəsinə quymaq çıxarmaq da məqbul sayılırdı. Qurmağı bəzən süldə bişirir, içərsinə sarıçiçək, zəfəran da əlavə edirdilər.

Mərasim yeməyi kimi nəzərdə tutulan, Naxçıvan bölgəsi üçün xarakterik olan və quymaq kimi bişirilən yeməklərdən biri də **zirətov** idi. Quymaqdan fərqli olaraq zirətovu düyü unun ilə bişirirdilər. Çox yağlı və qüvvətli-nişastalı yemək olan zirətov, bir qayda olaraq, ərə gedən qıza duvaq günü, doğuşdan sonra isə gəlinə verilirdi. Birinci halda zirətovu qız evinin ağbirçəkləri bişiridi. Ətirli və dadlı olması üçün onun tərkibinə zəfəran və sarıkök də qatırdılar.

Azərbaycanın cənub bölgəsində yeni doğulan uşağın 40-ı çıxan zaman "beşik-bağlama" deyilən bir mərasim də keçirilirdi. Bu mərasiminin yemək süfrəsinə plov, badımcan pətəsi, toy qatığı, balıq yeməkləri, ləvəngi və s. yeməklər çıxarılırdı.

Uşağın diş çıxarması ilə əlaqədar olaraq hələ xırman vaxtı seçilmiş buğdadan **"diş hədiyi"** keçirmək xalq arasında geniş yayılmışdı. Onu həm ailə üzvləri yeyir, həm də qohum-qonşulara paylayırdılar. Qonşuya hədik dolu verilmiş qabı boş qaytarmazdılar. Onun içərisinə yumurta, şirniyyat, meyvə, bal, yun corab, uşaq üçün müxtəlif hədiyyələr qoyardılar.

Azərbaycan xalqı çox qədimlərdən qonaqpərvər olmuşdur və bu adət indi də öz ənənvi xüsusiyyətlərini saxlamaqdadır. Qonaqlıq süfrələri xüsusi əndazə ilə bəzədilir, qonaq evin ən əziz adamı hesab olunurdu. Gələn əziz qonağın ayağının altında heyvan kəsmək, isti yuxa və təndir çörəyi bişirmək elin ən müqəddəs adətlərindən idi.

Azərbaycanda qonaqlıq süfrələrinin böyük əksəriyyəti ətli xörəklərlə zəngin olurdu. Qonaqlar üçün döşəməyə xalça-palaz döşənir, döşəkcə və mütəkkələr verilir, ayrıca nazbalış qoyulurdu. Yeməkdən əvvəl dəstərxan (açma) süfrəyə verilən pürrəngi çay, müxtəlif çeşidli yeməklər iştah artırırdı. Daha sonra ətli xörəklər (kabab, dolma, plov, toyuq çığırtması, balıq qızartması, ləvəngilər, bozbaş, ət qızartması və s.) süfrəyə növbə ilə gətirilirdi. Ev sahibi özü şəxsən süfrəyə nəzarət edər, gətirilməsinə göstəriş verərdi. Belə qonaqlıq süfrələri ayrıca kasalarda çalınmış qatıq (kasamas) və soyuq dovğa çıxarmaq da adətə çevrilmişdi. Ayrı-ayrı etnoqrafik bölgələr qonaq qarşısına çıxarılacaq üz ağardan yeməkləri ilə məşhurlaşmışdı. Məsələn, Abşeronda qonağa düşbərə və ya qutab; qərb bölgələrində xəngəl; Şəki-Zaqatala bölgəsində qırs və piti; Naxçıvan bölgəsində küftə; Qarabağda və Şirvanda sacarası qovurma; Lənkəran bölgəsində toyuq və balıq ləvəngisi bişirmək ona edilən hörmət və diqqətin göstəricisi idi. Qonaqlıq süfrələri adətən, çay dəstgahı ilə sona çatırdı.

Beləliklə, bayram və mərasim yeməklərinin geniş çeşidi, hazırlanma qaydaları, təyinatı, bu sahədə qazanılmış böyük əməli vərdişlər xalqımızın qida mədəniyyətinin zənginliyini təsdiq edir. Xalq özünün şad günündə də, matəm məqamında da, "süfrə yaymağı", çörəyin bərəkətini el-obası ilə bölüşdürməyən unutmamış, qapısına gələnə səxavət göstərmişdir. Təsadüfi deyildir ki, bölgələrimizə məşhur olan, adla söylənilən səxavət sahibləri "çörək verən adamdır", "qonaqlı-qaralı adamdır", "öz çörəyinin düşmənidir", "qapısı el yığnağıdır"- ifadələri ilə daha da müdriklik və el ağsaqqalları səviyyəsinə qaldırılmışlar.

**Ehtiyat ərzaq tədarükü və saxlanılması.** Dünyanın bütün xaqlarnda olduğu kimi, Azərbaycanda da hər bir ailənin məişətində ehtiyat ərzaq tədarük qayğısı mühüm yer tuturdu. Ehtiyat ərzaq məhsularınını saxlanılması və hazırlanması qaydaları uzun əsrlər boyu

formalaşmışdır. Aparılan arxeoloji qazıntılar zaman ortaya çıxan iri küplər, təsərrüfat quyuları və ehtiyat ərzaq saxmalaq üçün nəzərdə tutulan tikililər xalqımızın hələ çox qədimlərdən ehtiyat məhsullar tədarükündə səriştələrdən soraq verir.

Əhali baharın son aylarından başlayaraq payızın axırlarına qədər gündəlik tələbatından artıq olan məhsulu müxtəlif üsul və vasitələrlə qışda istifadə olunmaq üçün hazırlayırdılar. Dənli bitkilər, maldarlıq məhsulları, müxtəlif yabanı bitkilər, bostan-tərəvəz məhsdulları və tərəvəzdən hazırlanmış qax, doşab, motal, qurut, mürəbbə, riçal, rub, lavaşana, eləcə də çay və çörəklərdə işlədilən ətirili ot dəstləri əhalinin tədarük gördüyü əsas qida məhsulları idi.

Taxılı (xüsusilə buğdanı) hələ xırman vaxtında seçərək, xüsusi hörmə və gil qablara doldurur, taxil quyularına vururdular. Dənli bitkilərdən (buğda, arpa, darı və s. ) un tədarük etmək əhalinin başlıca məişət qayğısı idi. Ölkəmizdə taxılın un şəklində istifadəsi tarixi çox qədimdir. Arxeoloji qazıntılar zamanı əldə edilmiş primitiv dənüyütmə vasitələri (həvəngdəstə, sürtgəc, kirkirə-dəsət və s.) belə bir fikir söyləməyə imkan verir ki, ölkəmizin sakinləri əkinçiliyin ilk dövrlərindən başlayaraq un əldə etməyi bacarmışlar, XIX-XX yüzilliyin əvvəllərində taxıl başlıca olaraq su dəyirmanlarında üyüdülürdü. Dəyirmanlar adətən bolsulu çaylar üzərində və kəndlərarası yollar ətrafında tikilirdi ki, ondan bir neçə kəndin əhalisi istifadə edə bilsin. Taxıl payızda üyüdülürdü. Yazda üyüdülən taxıldan alınan un "ağnağaz" adlanırdı. Az miqdarda olan bu un əhalinin yalaq zamanı çörəyə olan ehtiyacını ödəyirdi.

Dənli bitkiləri sünbül halında saxlamaq üsulu da əhali arasında qismən məlum idi. Bunun üçün qırpma" üsulu ilə yığılan sünbülün 20-25-ni bir yerə bağlayıb təsərrüfat tikilisinin tavanından asır, lazım gəldikdə ondan hədik, qovurğa, qovut hazırlayır,səməni qoyurdular.

Azərbaycanın bütün çəltikçilik çöllərində hazır düyü və çəltik dəni çubuq, gil və taxta anbarlarda, kəndi və çəlləklərdə, küplərdə, kisə və çuvallarda saxlanırdı. Lənkəran bölgəsində bu məqsədlə həsir kosaradan (kisə) istifadə edilirdi.

Ehtiyat ərzaq tədarükü içərisində maldarlıq məhsulları (ət, yağ, şor, pendir, qurut və s.) mühüm yer tuturdu. Pendir və ya şoru

əsasən, cılğı və motalda,  yağı isə qarın və külərdə saxlamağa üstünülk verirdilər. İçərisinə yağ doldurulmuş küplərin (bərninin) ağzına qalın parçadan və ya heyvan qarınından sələ bağlayır, təxminən 1 m dərinliyində qazılmış quyularda basdırmaqla qışa saxlayırdılar. Qış ehtiyatından başqa, yağ və pendir həm də əmtəə səciyyəli məhsul kimi Cənubi Qafqaz barlarına da çıxarılırdı. Tiflisdə Qarayazı və Ceyrançöl pendiri (təzə pendir) pudu 2 manatdan satılırdı. Burada çəkisi 2-2,5 pud olan motal isə 6 manata xırıd edilirdi. Tərsçay bazarında yayda tədarük olunan yağın pudu 6-8 manata, qızda isə yağın pudu 10 manata verilirdi. [27]

Qış üçün tədarük olunmuş qurut mal-davar süddən soğulan vaxtlar əhalinin ağartıya olan tələbatını ödəyirdi. Onu xırda-xırda doğrayıb, isti suda  əllə "həll edərək" isti xörəklərin tərkibinə qatır, xəngəlin üstünə tökürdülər.

Azərbaycan xalqı arsında bütün qış dövrü üçün ət tədarükü kimi ənənə daim davam etdirilmişdir. Ət tədarükü qaxac, qovurma, cızdaq etmə və bağrısağa doldurma kimi dörd üsulla həyata keçirilirdi. Ehtiyat ərzaq üçün nəzərdə tutulan heyvanlara xüsusi qulluq edilir, bordağa bağlayır, kökəlməsinə şərait yardırdılar. Ətlik-qaxaclıq (qovurmalıq) heyvanı payızın son anında kəsirdilər. Qaxacı adətən bütöv heyvan cəmdəyindən hazırlayırdılar. Təzə soyulmuş heyvan bir neçə saat açıq havada saxlanılırdı ki, ətin suyu qurusun. Sonra döş və quyruq hissələri kəsilib götürülür, ayrıca qaxac edilirdi. Qalan cəmdəyi bel sütunu boyunca astaca çarpır və onu tam ayırmırdılar. Əti yerdə möhkəm duzladıqdan sonra bir neş gün yerdə saxlayır, nəhayət evin tavanına bərkidilmiş "qaxac ağacına" keçirirdilər. Ötən yüzilliklərdə tikilmiş aran kəndləri evlərində qaxac ağacı son dövrlərədək qalırdı. Kifayət qədər duzlanmış ət orada bir neçə ay qalır, "duz onu tam yeyəndən sonra" istifadəyə yararlı olurdu. Qaxac edilmiş ətin hissələri bir-birinə yapışmasın deyə aralarına simmterik şəkildə lələkləri təmizlənmiş qarğıdan və ya çubuqdan çiliklər qoyulurdu. Qaxacı adətən kölgədə qururdurdular. İsti iqlim şəraitinə malik aran kəndlərində ətin qaxac edilərək uzun müddət saxlanılması ən yaxşı vasitə idi. Mal cəmdəyini qaxac etdikdə isə onun ətini şaqqalayıb, alınan parçaların üzərində şırımlar açır və yetərincə duzlayırdılar. Mal əti qoyun ətinə nisbətən

qalın olduğu üçün şırımlarım açılması vacib şərt idi.  Həmin şırımlara da duz tökülürdü.

Qaxaclı həm bişirib yeyir, həm müxtəlif xörəklərin (sürhüllü, xəngəl və s.) üstündə süfrəyə verirdilər.

Xəzərsahili və Kür-Araz hövzəsi bölgələrində balıq qaxacı tədarük edilməsi də ənənə şəklini almışdı. Balıq qaxacını adətən payızada havaıar sərinləyəndə hazırlayırdılar. İsti havalarda edilən qaxac dadsız, bəzən də acı olurdu. Muğan bölgəsində qızılbalıqdan hazırlanan qaxac **"cırım"** adlanır. Kübar təbəqələr arasında dəyərli pay-hədiyyələr rolunu oynayırdı. Qaxaclıq balıq içalatı çıxarıldıqdan bir həftə-on gün duz məhlulunda saxlanılır, sonra duzlanaraq açıq havada qaxac edilirdi.Külmə, şahmayı, ziyad, çapaq və b. balıqları oraya qoyulmuş çubuqlara (şüvüllərə) keçirirdilər. Sözügedən bölgələrdə balığı duza qoymaqla və hissdə qurutmaqla ehtiyat ərzaq tədarükü görülürdü. Onlar plovla yeyilir, yavanlıq kimi istifadə olunurdu. Balıq kürüsü də ehtiyat ərzaq kimi tədarük olunurdu.

Maldar elatlar arasında ətin qovurma üsulu ilə tədarükü də geniş yayılmışdı.  Bunun üçün əti və ya quyruğu xırda-xırda doğrayıb iri qulplu qazanlarda odun üzərinə qoyur, azacıq su əlavə etməklə qovururdular. Su çəkiləndən sonra "ət yağa düşürdü". Öz yağında və quyruqla qovrulmuş əti iri küplərə doldurub üzərinə ərinmiş iç yağı əlavə edir, ağzını möhkəm sələləyərək torpağa basdırır,  qışa saxlayırdılar. Ondan həm təbii şəkildə, həm də üxtəlif ətli-qovurma yeməklərin hazırlanmasında (plov, xəngəl, turşu-qovurma və s.) istifadə edirdilər. Mal ətini qovurmasını iç yağında hazırlayırdılar.

Qoyunun quyruğunu cızdaq etməklə ehtiyat ərzaq tədarükü görülürdü. Azərbaycanda becərilən mazıx (qızıl boyun), bozax, balbas, qarabağ, qaradolaq, qala cınsli qoyunların quyruğu böyük olduğundan, əsasən, cızdaq üçün bu heyvanların quyruğu işlədilirdi. Cızdağın hazırlanma qaydası qoyunlarda olduğu kimi idi.

Yabanı və mədəni bitkilər, otlar, meyvələr əhalinin qış yeməklərində özünəməxsus yer tuturdu. Onların tədarükü ilə əsaən qadınlar məşğul olurdu. Yabanı bitkilər və otlar ədatən yayalq mövsümündə tədarük edilirdi. Əvəlik, kəklikotu, itburnu, giləmərzə, dağkeşnişi, qırxbuğum, sarıçiçək, qaymaqçiçəyi, giləmərzə və s. kimi

yabnı; keşniş, şüyüd, yarpız, reyhan, nanə və s. kimi mədəni bikki və otlar yığılaraq kölgədə qurudular, qışa tədarük edilirdi. Göy öskürəyə və soyudəyməyə qarşı türkəçarə vasitə hesab edilən əvəlik saş kimi hörülərək qurdulurdu. Qulançar, tərpətöyün, çaşır, baldırğan və s. yabanı bitkilərdən tutma şoraba hazırlanırdı.

Azərbaycanın bağçılıq ənənələri ilə şöhrətlənən bölgələrində (Quba, Şəki-Zaqatala, Lənkəran, Naxçıvan, Gəncəbasar) meyvələrdən həm təzə halda istifadə olunur, onlar uzun müddətə təzə halda saxlnaır, həm də bəzilərindən üsul və vasitələrlə ehtiyat ərzaq məhssulları tədarük edilirdi. Qurudulmuş alma və armuddan qax, ərikdən qaysı, gavalıdan albuxara, üzümdən kişmiş və mövüc, alçadan turşu və lavaşana, tut və əncirdən quru (piskəndə), zoğaldan axta, şaftalıdan alana, qozdan basdıq, sucuq hazırlama sahəsində əahlinin böyük bilikləri və təcrübələri vardı. Üzüm, tut, və cır xurmanı bişirməklə doşab, alça, armud, alma və heyvanı bişirməklə rub, narı qaynatmaqla nardaşa, üzüm doşabına un, qoz ovuntusu, diri meyvə əlavə etməklə riçad tədarük edilirdi. Bunların bəziləri yavanlıq kimi istifadə olunur, bəziləri xörəklərə əlavə edilir, bir qismi də çərəz kimi süfrələrə çıxarılırdı. Badam, püst, iydə, fındıq, qovrulmuş şabalıd, innab və s. kimi quru meyvə çərəzləri ilə yanaşı, ehtiyat üçün tədarük edilən alana, sucuq (basdıq) , mövüc, kişmiş, miyanpur və s. də üstün tutulurdu.

XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində Azərbaycanda şəkərin yerli istehsalı genişləndikcə əhali müxtəlif dadlı və ətirli meyvələrdən, giləmeyvələrdən (zoğal, böyürtkən, heyva, armud, gilas, üzüm, ərik, əncir, qoz, gavalı, şaftlaı, çiyələk və s.) mürəbbələr hazırlayıb ehtiyat ərzaq kimi tədarük etməyə başlamışdır. Qızılgülün ləçəklərindən mürəbbə və gülqənd hazırlamaq Bakı, Şəki, Gəncə və Naxçıvan əhalisi arasında geniş yayılmışdı. Yetişməmiş (kal,qora) üzümdən abqora, dəymiş üzümdən sirkə hazırlayıb həm müzilcəvi vasitə kimi, həm də xörəklərin tərkibində işlətmək üçün tədarük edirdilər. Sirkə başlıca olaraq turşu-şorbaların qoyulmasında istifadə olunurdu.

Əhali meyvələri yaza qədər təzə halda saxlmağa üstünlük verirdi. Alma, armud, nar, heyva və b. meyvələr təsərrüfat tikililərində, xüsusi anbarlarda ağac yonqarı və saman içərisində saxlanılırdı.

Üzümün isə payızın son anına qədər tənəyin üstündən torbalarda saxlayır, tam yetişəndən sonra  təsərrüfat tikililəri və evlərin tavanından asırdılar. Naxçıvanda üzümü əsasən xərpiştə adlanan təsərrüfat tiililəri qoyulmuş milaxda (çıxıntıları olan ağac) saxlayırdılar. Bu zaman üzümün bir giləsi salxımın saplağına keçirilirdi ki, salxım öz şirəsi ilə qidalansın. Belə üzümə milax üzümü deyilirdi. Şabalıdı qurumamaq üçün xüsusi quyulara tökür, fındıq, qoz, badam kimi sərt qabıqlı meyvələri kisələrdə saxlayırdılar.

Bağçılıq bölgələrində alça, göyəm, alma, gavalı və s. kimi meyvələri turşuya qoymaqla tədarük etmək təcrübəsi də olmuşdur.

Ehtiyat ərzaq tədarükündə bostan-tərəvəz məhsulları da mühüm yer tuturdu. Bir qayda olaraq, bostan-tərəvəz məhsulları müxtəlif tutma, turşu və şoraba şəklində tədarük olunurdu. Badımcan, kləmə, pomidor, xiyar, qarpız, şalğam, sarımsaq, bibər kimi bostan-tərəvəz məhsullarından hazırlanan tutma, həftəbecər, şoraba və tutşular qış aylarında xörəklərin yanında süfrəyə çıxarılırdı. Əhali arasında badımcan mürəbbəsi bişirmək təcrübəsi də məlum idi. Bunun üçün payızın son anında yetişən badımcanları dərib xüsusi vasitə ilə əhəng məhluluna qoymaqla acılığını çıxarır, sonra azacıq su əlavə etməklə şəkər tozu içərisində bişiridilər. Xüsusi dada və aromata malik badımcan mürəbbəsi, nadir mürəbbə növü kimi, əhali tərəfindən yüksək qiymətləndirilirdi.

Göründüyü kimi, minilliklərin əməli vədişlərindən, təcrübələrindən bəhrələnən ehtiyat ərzaq tədarükü və saxlanması əhalinin məişət qayğıları içərisində mühüm yer tutmuşdur. İlin bütün fəsillərində ailənin birinci dərəcəli həyati tələbat olan yeməklə təmin etmək üçün bütün ailə üzvləri səylə çalışırdı.  "Yayın yaxantısını qışın yavanlığı hesan edən" əhali yaz, yay və payız mövsümündə tədarük etdiyi ərzaq məhsullarını qışda-çöl-təsərrüfat işlərinin başa çatdığı mövsümdə könül xoşluğu, can rahatlığı ilə yeyirdi.

**Yemək öynəsi.** Azərbaycan xalqının yemək öynəsi sosial mənsubiyyətdən, təsərrüfat məşğuliyyətinin istiqamətindən, mövsümdən və b. sosial-iqtisadi amillərin fəal təsirindən asılı olaraq zaman-zaman formalaşmışdır. Qəbul olunmuş ümumi qaydaya görə, yemək gendə üş dəfə (səhər yeməyi, nahar, şam yeməyi) yeyilirdi.

Lakin, qeyd etmək lazımdır ki, yemək öynəsini üç bölgüsü şərti xarakter daşıyırdı. Çünki, mövsüm dəyişmələri, iqlim, təsərrüfat məşğuliyyəti, xüsusuilə də bəzi dini bayramların (Orucluq bayramı) keçirilməsi yemək öynələrində ciddi dəyişikliklərə səbəb olurdu. Orucluq günlərində, ümumiyyətlə, gündüzlərim yemək rejimi, iftar, yastılıq və obaşdanlıq (imsaq) süfrələri ilə əvəzlənirdi.

Maddi cəhətdən az təmin olunmuş rəiyyət-rəncbər süfrəsindəki yeksənəqlikdən fərqli olaraq, varlıarın hər bir yemək öynəsi müxtəlif çeşidli yağlı-ətli xörəklər, bal, qaymaq, şirniyyat və çərəzlə bol olurdu. Sosial qeyri-mütənasiblik, sinfi fərqlər həm gündəlik, həm də bayram yeməklərində özünü büruzə verirdi.

Azərbaycanın cənub bölgələrində səhər yeməy “nəştab” , Bakı və Abşeronda “qəlyanaltı”, qərb bölgələrində “naştoyluq” adlanırdı. Adətən, səhər yeməyini nəştabı- “naharın açarı” hesab edirdilər. Bütün Azərbaycan bölgələrində səhər yeməyinin süd-ağartı məhsulları ilə başa vurulması ümumi qayda idi. Lakin bunula belə süfrəyə bal, yumurta qoymaqla, soyuq fəsillərdə isti xörəklər çıxarmaq da məqbul hesab edilirdi.

Səhər yeməyinin dəqiq zaman ölçüsü müəyyən edilməmişdi. Kəndli ailələrində çöl-təsərrüfat işləri (həyətin sahman salınması, mal-davarın örüşə çıxarılması və s.) yerinə yetirləndən sonra səhər yeməyinə başlanırdı. Bu müddət ərzində qadınlar çörək-çörək hazırlayır, süfrəni nizamlayır, çay tədarükü görür, “Allah verəndən” süfrəyə çıxarırdılar.

Günorta yeməyi (nahar) şəhər müddətində varlı ailələrdə mütləq kalorili yeməklərlə (plov, bozbaş, piti, küftə, lənəvgi-plov, balıq yeməkləri və s.) qeyd olunurdu. Nahar yeməyində də sosial fərqlər aydın görünürdü. Çöl-təsərrüfat işləri ilə məşğul olan rəiyyət-rəncbər əhalinin və maldar elatların bu yemək öynəsi də süd-ağartı məhsulları (qatıq, pendir, şor, atlama) nadir hallarda isə isti xörəklərlə başa çatırdı. Naharın vaxtını çöl-təsərrüfat işləri ilə məşğul olanlar günorta kölgəsinin itməsi ilə, şəhər və kəndlərdə isə məscidin günorta azanı ilə müəyyən edirdilər.

Səhər və nahar yeməyindən fərqli olaraq şam yeməyinə ailə bütün ailə üzvləri evə yığılandan sonra başlanırdı. Şam yeməkləri əksər

hallarda isit çörəklərlə keçirilirdi. Bunu üçün əvəlikli umac, südlü dıyıq, qaşıqxəngəli, əriştəli isti (tumac), qındı, yarma-sıyıq və s. bişirilirdi. Varlı ailələrdə də ət yeməyi ətli-yağlı yeməklərlə başa çatırdı. Uzun əsrlər boyu formlaşan qaydaya görə, şam yeməyinin az və tez yeyilməsi məsləhət idi. Şam yeməyi, bir qayda olaraq, şər qarşıandan, "çöl-bayırdan əl-ayaq yığışandan" sonra icra olunurdu. Lakin azyaşlı uşaqlar tez yatdığına görə onları tez də yedizdirirdilər. Bütün yemək öynələrində süfrəyə çörək yetərincə qoyulurdu.

Uzun əsrlərin sınağından çıxan, öz mühafizkarlığına bu günümüzə qədər qoruyub saxlayan, daim yeni-yeni yazılmamış qaununlarla zənginləşən süfrə mədəniyyətimizin bütün qafqaz hətta dünya xalaqlarına örnək ola biləcək dəyərli ənənələri mövcud olmuşdur. Hər şeydən əvvəl, keçmişdə Azərbaycanda yemək öynəsi döşəməyə salınmış həsir, palaz və ya xalça üzərinə süfrə salmaqla və süfrə ətrafında bardaş qurub oturmaqla həyata keçirilirdi. Ailədə mövqeyindən və yaş fərqindən asıl olaraq hər kəsin süfrədə öz yeri vardı. Evin "dörd başı" adlanan yuxarı başında buarı ətrafında ailə başçısı üçün mütəkkə və balış qoyulurdu. Süfrə ətrafına düzülmüş nalça, (nimdər) üzərində isə evin digər üzvləri nüfuz və mövqeylərinə görə yerləşirdilər. Yemək və istirahət zamanı ailə başçısının yanında uzanmaq, dirsəklənmək, artıq hərəkətlərə yol vermək, yersiz danışmaq qəbahət sayılırdı. Yemək-süfrəyə əl uzatmaq ailə başçısının "bimillah" kəlməsindən sonra çörəyi kəsməsi ilə başlanırdı. Bu faktlar, bütövlükdə, Azərbaycan ailələrində ata nüfuzunun, ata hörmətinin nə dərəcədə böyüklüyünü bir daha təsdiqləyir. Şörək süfrəyə bütöv qoyulur, onu əllə kəsməyə üstünlük verilirdi. Evə qonaq gəldikdə isə yemək süfrəsinin arxasında qadınlar və uşaqlar oturmazdılar.

Qonaqlıq süfrələri xüsusi təmtəraqla hazırlanırdı. Hər bir qonaq üçün mütəkkə və nazbalış qoyular, ortalığa açma (dəstərxan) və ya qələmkar süfrə salınar, yeməkdən əvvəl və ya sonra qonağın əlini yuması üçün aftafa-ləyən gətirilərdi. Şəhər yerlərində bundan əlavə, yeməkdən sonra əli yumaq üçün ayrıca bir kasada gülablı suda qoyulurdu. Qonaqlıq süfrələrində az yemək və yaxud da heçnə yemək süfrə sahibinə hörmətsizlik kimi qəbul edilirdi.

Yeməyin süfrəyə verilməsində də müəyyən qaydalara əməl olunurdu. Süfrəyə plov yeməkləri iri məcməyidə verilirdi. Orta əsrlərin məhəbbət dastanlarında aydın olduğu kim, kübar ailələr də yemək rejimi müəyyən olunmuş qaydalarda, saray hücrələrində, adətən, yerdə süfrə salmaqla həyata keçirilmişdir. Xörək məcməyilərdə düzülmüş, qul-qaravaşlar və ya dayələr vasitəsilə şahzadələrin otaq hücrələrinə aparılmışdır. Uşaqlara isə "şərbəti" adlanan balca mis qablarda yemək verilirdi. Bir qayda olaraq, plov və xəngəl kimi yeməklər məcməyi və sinilərdə, duru və isti yeməklər isə kasalarda (mis, saxsı, büllur) süfrəyə verilirdi. Kababı şiş üstündə süfrəyə çıxartmaq adət halını almışdı. Çox zaman ailə başçısının və digər nüfuzlu ailə üzvlərinin xörəyi ayrıca qablarda çəkilirdi.

Yeməyi əllə və ya taxta qaşıqla yemək ənənəsi uzun əsrlər boyu davam etdirilmişdir. Adətən, bozbaş, qovurma, bozartma, kələpır, ağsoğlaq, plov, xəngəl, ləvəngi və s. quru və ya azsulu xörəklər əllə və ya çörəyi batırmaqla (doğramaqla) yeyilir, əriştə istisi, qaşıqxəngəli, xəmiraşı, düşbərə, tumac kimji yeməklər üçün qaşıq işlədilirdi. Evdə qonaq olmadıqda yemək əvvəlcə ailə başçısını qabağına qoyulurdu. Hər kəsim öz yeməyi axıra qədər yeməsi vacib idi. Boşqabı, kasası yeməklə buşalıqlı qalmış oğlan və qızları "nişanlın çirkin olacaqdır" deyə yaşlılar zarafatla tənqid edirdilər. Nişanlı oğlan və qızları qazanın dibində qalan yeməyi də yeməyə qoymazdılar. Buna əməl etməyənin, xalq inamına görə, "toyunda qar yağacağı" gözlənilirdi.

Əsrlər boyu yeməklərin qəbulunda yaş daim nəzarətə alınmışdır. Belə ki, azyaşlı uşaqların yeməkləri, ahılların yeməkləri, cavan ailə üzvlərinin yeməkləri çox zaman ayrıca hazırlanmışdır. Uşaq yeməklərində süd-ağartı məhsulları üstünlük təşkil etmişdir. Süd və qatıq doğramacı, yağ yaxması və dürməyi, pendir dürməyi, bal yaxması uşaqların sevimli yeməyi hesab olunurdu. Qocların yeməkləri isə başlıca olaraq duru və isti yeməklərdən, quymaq, xəşil, halva, hədik, qındı, südlü sıyıq və s. kimi dış tələb etməyən və tez həzm olunan yeməklərdən ibarət olmuşdur. Onlar üçün dəqiq müəyyən olunmuş öynə də gözlənilmirdi. Aclıq hiss edən hər bir qoca və ya uşaq vaxt-bivaxt yeməyə başlayırdı.

Etnoqrafik materiallar göstərir ki, yemək öynəsinin nizamlanmasından mövsümün də müəyyən rolu olmuşdur. Mövsüm səciyyəsindən asılı olaraq payızda yemk öynəsindən ətli xörəklər və meyvələr, qışda un xörəkləri, baharda göyərti və yeməli yabanı bitkilər, yayda isə bostan-tərəvəz məhsulları, eləcə də ağartı üstünlük təşkil etmişdir.

Şəhər mühitində varlı ailələrdə yemək masa ətrafında həyata keçirilirdi. Yeməklər süfrəyə növbə ardıcıllığı ilə gətirilir, çay süfrəsi ilə tamamlanırdı.

Sosial-iqtisadi inkişaf, yeni həyat və məişət tərzi son onilliklərdə yemək öynəsində müəyyən dəyişikliklərə səbəb olsa da, kənd ailələrində hələ də süfrə mədəniyyəti, keçmiş əsrlərin mənəvi dəyərləri öz mühafizəkarlığını qoruyub saxlamaqdadır.

## İÇKİLƏR

Dünya xalqlarında olduğu kimi, Azərbaycan xalqının da yemək süfrələrində hələ qədim zamanlardan müxtəlif içkilərdən istifadə olunmuşdur. Bu içkilər susuzluğu dəf etmək, həzm prosesini artırmaq və iştah açmaq üçün işlədilirdi. Azərbaycan süfrələrini bəzəyi hesab olunan dadlı, ətirli və lətafətli içkilər təyinatına görə ənənəvi isti və soyuq içkilərə (su, şay, süd, səhləb, kofe, çay-süd qarışığı və s.), sərinləşdirici içkilərə (ayran, atlama-ovduq, körəməz, dələmə və s.) məzə, müalicəvi-pəhriz içkilərinə (abqora, sirkə, narşərab, araqnanə, turşaşirin, ovşala və s.) müxtəlif bitkilərin çiçək, yarpaq və meyvələrindən hazırlanan şərbət-şirə içkilərinə bölünürdü. Bundan başqa, islamaqədərki dövrdə alkoqollu içkilər (şərab, mey) də əhalinin yemək süfrələrinə çıxarılmışdır. “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanlarında, Nizami “Xəmsə” sində, orta əsrlər müəlliflərinin əsərlərində şərabın əhali tərəfindən istifadəsi haqqında (xüsusilə kübar əsilzadələrinin süfrələrində) məlumatlara rast gəlmək mümkündür. Sonralar müsəlman dünyasında şərab haram buyrulduğundan ondan istifadə də ötəri xarakter olmuşdur. XIX yüzilliyin əvvəllərinə aid bir məlumata oxuyuruq: “Tatarlar (azərbaycanlılar –F.V) demək olar ki, nadir hallarda şərab içirlər, lakin üzümdən “boza” adlanan yetərincə tünd içki hazırlayırlar. Onu ləzgilər daha çox qəbul edirlər”. [28]



Çay dəstgahı

Xalqımızın istifadə etdiyi ən qədim, daimi, ənənəvi içki növü **su** olmuşdur. Təbii-coğrafi şərait və relyef-landşaft zolaqlarından asılı olaraq əhali bulaq, çay, kəhriz və quyu sularından istifadə edirdi. Dağlıq bölgələrdə bulaq suyu, dağətəyi bölgələrdə kəhriz suyu, dəniz sahili bölgələrdə quyu suy, aran kəndlərində isə çay suyu əsas içki növü idi. Suya olan tələbat, qədim zamanlardan suyun həyat amili və müqəddəs hesab edilməsi yaşayış məskənlərinin su mənbələrinə yaxın yerləşməsini şərtləndirmişdi. Bulaq, kəhriz, quyu suları təbii şəkildə çay suyu isə su daşından süzdürülərək istifadə olunurdu. Su daşı mərasim və qumlu daşlardan konusvari şəkildə yonularaq düzəldilir, ölçülərindən asıl olaraq 15-20, hətta 30 litrə qədər su tuturdu. Naxçıvan bölgəsində "çəfər" adlanan su daşı xüsusi ağac altılığıa yerləşdirilir, altına su yığılmaq üçün qab qoyulurdu. Çaydan və bulaqdan suyu saxsı və mis qablarda (güyüm, səhəng, bardaq, kuzə və s.) gətirir, süfrəyə təmiz və təzə halda çıxarırdılar.

Yayda çöl-təsərrüfat işləri zamanı əhali cürdək (bardaq) suyuna daha çox üstünlük verir, suyu sərin saxlamaq üçün su qablarını yaş parçaya büküb ya kölgəyə, ya da nəmli quyulara qoyurdular.

Xalq arasında yayılmış içki növlərindən birir də çay idi. Çay həm çay bitkisini yarpaqlarından alınan qara çayla, həm də müxtəlif bitki və otlarla (kəklikotu, qantəpər, sarıçiçək, çəmən, itburnu, moruq kökü, heyva çiliyi, andız kökü, zirə və s.) hazırlanırdı. Çay bütün əhali təbəqəsinin sevimli içkisi idi. Çayın bir çox faydalı cəhətləri əhali arasında belə bir deyiminin yaranmasına səbəb olmuşdur. "Bir stəkan qaydadır, ikincisi cana faydadır, üçü nəhsdir, dördü bəsdir, çıxdı beşə, vur on beşə! Çay nədir, say nədir". Çay, bir qayda olaraq, qəndlə, müxtəlif şirniyyatlarla, mürəbbələrlə və limonla içilirdi. İmkansızlar

çayı tut qurusu, doşab və qaxla içməyə məcbur idilər. Çaya müxtəlif Şərq ədviyatları da (hil, mixək, darçın, dəfnə yarpağı, keşniş toxumu, zəncəfil və s.) qatılırdı. Çayı qara aftafada, qəhvədanda, mis (saxsı) çaydanda və samovarda hazırlayır, maskura, fincan, sonralar isə armudu istəkanlarda süfrəyə verirdilər. Şəhər mühitində- bazar və karvansaralarda, bir sözlə, əhalini gur olduğu yerlərdə xüsusi çayxanlar fəaliyyət göstərirdi ki, burada çay dəstgahı ilə kişilər məşğul olurdu.



Şərbət

İsti içki növlərindən sayılan səlhəb eyni adlı bitkinin döyülmüş kökünü su (süd), bal, şəkər tozunu qarışdırmaqla hazırlanırdı. İsti halda içilməsi nəzərdə tutulan səhləbi şəhərlərdə səhləbçilər xüsusi qablarda (səhləb çaydanı) isti saxlayır və satırdılar.

Azərbaycan əhalisinin yemək öynəsində sərinləşdirici içkilər (ayran, atlama, körəməz, dələmə və s.) özünəməxsus yer tuturdu. Adından məlum olduğu kimi, sərinləşdirici içkilərə ilin isti mövsümlərində çöl-təsərrüfat işləri zamanı daha çox üstünlük verilirdi. **Ayranı** çox saxlamaq mümkün olmadığından, onu təzə halda içirdilər. Atlamanı (ovduğu) təzə qatıqdan və qatıq süzməsindən su qatmaqla düzəldirdilər. Bəzən atlamanın içərisinə ətirli göyərtilərdə qatır, saxsı bardaqlarda saxlayır, təsərrüfat işləri zamanı istifadə edirilər. Yaylaqdan arana biçinə gələn biçinçilərin ərzaq ehtiyatları içərisində qatıq süzməsi də əsas yer ututrdu.

Məzə və pəhriz-müalicəvi içkilər həm yağlı-ətkli xörəklərə əlavə kimi süfrəyə verilir, həm də içki kimi istifadə olunurdu. Qoraba, abqora, narşərab, sirkə kimi məzələr Azərbaycan süfrələrində tez-tez təsadüf edilirdi. Məzə və pəhriz-müalicə məqsədilə Azərbaycanda hələ orta əsrlərdən gül araqları (araqnanə, boymadərən arağı, bədmüşk, zufa rağı, şəkərotu arağı, gülab arağı) hazırlamaq sahədində böyük əməli vərdişlər qazanılmışdı. Müxtəlif çeşidli xəstəliklərin müalicəsinə də bu içkilər (araqlar) suya qatılmaqla işlədilirdi. Gül araqları, bir qayda

olaraq, alkoqolsuz tərkibə malik idilər. Əhali arasında bəzən onlara "çal araq" da deyilirdi.

Üzün şirəsindən hazırlanan **turşaşirin** şirəni qaynadıb qıcqırtmaqla əldə edilirdi. Onu ağzıdar qablara töküb kip bağlamaqla qışa tədarük ediridlər. XIII əsrdə Azərbaycanda olan venetsiyalı səyyah Marko Polo turşaşirinin Azərbaycan süfrələrində ləzzətli içki kimi istifadə olunduğunu qeyd edirdi. [29]

Məzə içkilərindən hesab olunan **iskəncəbi** cövhəri üzün sirkəsi və qora suyuna şəkər tozu və ya nanə qatıb qatılaşana qədər qaynatmaqla əldə edilirdi. İskəncəbi süfrəyə verilərkən su ilə qatılr, turşaşirin tamlı içki əldə edilirdi. Ətli-yağlı xörəklərin yanında süfrəyə verilən iskəncəbi həzmi asanlaşdırır, gəyrik azdırırdı.

Azərbaycan süfrələrində heyva, albalı, alça və zoğal şirələrindən hazırlanan ovşalanın özünəməxsus yeri vardı. Bu şirələr şəkər tozu, su, bəzən də gülab əlavə etməklə qaynadılır, soyuq içki kimi süfrəyə verilirdi. **Ovşala** turşməzə dadlı olub, pəhriz-müalicə və iştah məqsədi ilə içilirdi.

XIX-XX yüzilliyin əvvəllərində Azərbaycan içkilərinin böyük bir qismini müxtəlif bitikilərin meyvə və çiçəklərindən hazırlanmış şərbətlər, sular, şirələr təşkil edirdi. Bu içkilər tərkibi şəkər, zülali maddələr, vitaminlər və insan orqanizmi üçün faydalı olan digər maddələrlə zəngin idi. Onlar sərinləşdirici, gümrahlaşdırıcı, kef və iştahaçan xüsusiyyətləri ilə fərqlənərək alkoqolsuz olub, yeyilən xörəyi həzm etmək üçün xeyirli olduğu kimi, orqanizmdə maddələr mübadiləsinə də kömək edirdi. Belə içkilər **qəndab, xoşab, gülqənd, gülab, həmərsin şirəsi, əzgil suyu, heyva suyu, alma suyu, armud suyu, nar suyu,** müxtəlif çeşidli şərbətlərdən (**reyhan şərbəti, lumupərvərdə, nanə şərbəti, bal şərbəti, liman şərbəti** və s.) ibarət idi. Adətən belə şərbətlərə müxtəlif ədviyyatlar qatmaqla bir qədər ətirli və ləzzətli hazırlayırdılar.

**Qablar.** Məlum olduğu kimi, hələ çox qədim zamanlardan qida-ərzaq məhsularının tədarükü, emalı və saxlanması, yemək və içkilərin hazırlanması, onların süfrəyə verilməsində bir sıra qablardan istifadə olunmuşdur. Qablar hazırladığı materialın növünə, həcminə, məişətdə təyinatına görə fərqlənirdi. Uzun əsrlər boyu Azərbaycan xalqının istifadə etdiyi məişət qabları daş, hörmə, toxuma, saxsı, metal, ağac, çubuq və dəri qablardan ibarət olmuşlar. Bəşəriyyətin ilkin çağlarında, hələ istehsal təsərrüfatı yaranmadığından, ibtidai insanlar məişət tələbatlarını ödəmək üçün "əllərini altında olan" materiallardan –daşdan, ağacdan, çubuqdan, ağac liflərindən, qamışdan kobud qablar hazırlayır, gündəlikdə istifadə edirdilər. Qobustanda Ana Zağa və Kənizə düşərgələri ətrafından və onların içərisində çoxlu kasavari yaylaqlara rast gəlinmişdir. Arxeoloqlar onları əsil "tərpənməz qablar" hesab edirlər. Bu konusvari yalaqlar yağış sularının (ovdan), qurban qanını yığılması və şübhəsiz, duyu xörəklərin hazırlanması üçün istifadə edilmişdir. Mingəçevir, Xocalı, Gədəbəy, Gəncəçay hövzəsi və b. bölgələrdə yerləşən abidələrdə çoxlu daş qab nümunələri-cam, nimçə əldə edilmişdir. Mingəçevir və Gəncə yaxınlığındakı Alabaşlı kəndində tapılan daş camların qulplu qoşa və qoç başı formasında düzəldilmişdir. Sonralar istehsal texnologiyasının yaranamsı, yeni-yeni qab materiallarının əldə edilməsi, insan təfəkkürünün inkişafı, peşə-sənət vərdişləri daş qablara təlabatı unutudurmuş, daş qabların çoxu məişətdən çıxmışdır. Zəmanəmizə qədər gəlib çıxan duz və düyü (çəltik) dibəkləri, su daşı (çəfər), kirkirə (dəstər), su ovdanları və s. vaxtilə daşdan məişət qabları və alətlərinin hazırlandığını əyani şəkildə sübut edir.



Saxsı qablar

Eramızdan əvvəl VIII minilliyin sonu-VI minilliyin ortalarını əhatə edən Neolit (Yeni daş) dövründə toxuma, hörm əvə dulusçuluq sənətinin meydana gələrək inkişaf etməsi yeni-yeni məişət qablarının xalqın gündəlik həyatına daxil olmasını şərtləndirdi. Toxuma və hörnmə qablar ağac çubuqlarından, qamışdan, həsirdən, ipdən düzəldilir, təyinatına görə bir-birindən seçilirdi. XIX-XX yüzilliyin əvvəllərində də xalq məişətində üstünyer tutan toxuma və hörmə qabları, bir qayda olaraq, hər bir ailə özü hazırlaya bilirdi. "Dərmə", "siyəzi" və "xaşa" çuvallar, "qıyıq" məfrəşlər, xalça-palaz kimi toxunan müxtəlif ornamentli xurcunlar, heybələr, duz torbası, qaşıqlıq, səbət, zənbil, beçəgir, kəndi, səyən, çörək-bişirmə də istifadə olunan rəfətə, Lənkəran bölgəsində düyünün saxlanılması üçün əlverişli olan "güdə" və "küçərə" kimi həsirdən toxunan qablar, ot, peyin və saman kimi məişət yüklərini daşımaq üçün "saqqur, "somara", meyvə daşımaq üçün "cəvərə", "qoysara", "bal səbəti" və s. toxuma və hörmə qablar xalq məişətində uzun müddət istifadə olunaraq zəmanəmizə qədər gəlib çatmışdır.

Xalq məişətində istifadə olunan qabların əksəriyyətini saxsı qablar təşkil etmişdir. Azərbaycanda saxsı məlumatlarının, o cümlədən, gil qabların istehsal tarixi Neolit (Yeni daş) dövrü ilə səsləşir. Qobustan, Şomutəpə, Babadərviş, Qarğalartəpəsi, Töyrətəpə, Kültəpə, Əliköməktəpə, Üzərliktəpə, Sarıtəpə və b. qədim yaşayış yerlərində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən çoxsaylı və çoxçeşidli gil qab nümunələri, onların istehsal texnologiyası, forma və bəzək-naxış elementləri, rəngi Azərbaycanda dulusçuluq sənətinin qədim ənənələr əsasında inkişafını göstərir. Orta əsrlərdə daha intensiv inkişaf edən dulusçuluq sənəti, xüsusilə də onun məişət qabları istehsalı sahəsinin başlıca mərkəzləri Bərdə, Ərdəbil, Təbriz, Naxçıvan, Gəncə, Beyləqan, Şamaxı, Bakı və b. iri Azərbaycan şəhərləri olmuşdur. XIX-XX yüzilliyin əvvəllərində isə Yelizavetpol quberniyası, Quba, Lənkəran, Göyçay, Cavanşır, Cəbrayıl, Şamaxı, Naxçıvan qəzaları, Şəki, Gəncə, Bakı şəhərləri dulus qabları istehsalında başlıca rol oynamışdır. Bu dövrdə istehsal olunan saxsı məişət qabları təyinatına görə təsərrüfat küpləri, su qabları, süd-ağartı məhsulları üçün nəzərdə tutlan qablar, xörək qabları, qızdırıcı və işıqlandırma vasitələri (gil manqallar, kürələr, durna çıraqları, gil çıraqlar və s.) kimi qruplaşdırılırdı.



Mis qablar

Qədim və orta əsrlərin yaşayış yerlərindəki arxeoloji qazıntılarda tez-tez əldə edilən, XIX-XX yüzilliyin əvvəllərində isə əsasən sifarişlə hazırlanan təsərrüfat küpləri, taxil, un, düyü və s. ehtiyat qida məhsullarını saxlamaq, balıq duzlamaq, turşu-şoraba qoymaq üçün nəzərdə tutlurdu. Həcm tutan bəzən 150 litrə çatan, ölçülərindən asılı olaraq Azərbaycanın ayrı-ayrı etnoqrafik bölgələrində müxtəlif istilahlarla (iri bəsti, balıq küpü, küpə, iri çalğa, yarım çalğa, xum, ləh,

yekə ağız küpə, qulplu küpə, dodasən və s. ) adlanan küplər iki, üç, bəzən hətta dörd qulplu düzəldilirdi. Bu tip küplərin Azərbaycanda ən qədim növləri e.ə. II minilliyə aid edilir.

Məişətdə içməli suya tələbat, onun təmiz və təmiz və sərin saxlanması, işlənməsi çoxçeşidli saxsı qabların hazırlanmasını şərtləndirmişdir. Su daşımaq üçün həmayıl, səhəng, şəhrəng, qələnlik (kiçik sənəhg), qədələ (lap kiçik səhəng), kuzə, bardaq, cürdək, qülə (1,5 l-2 litrlik qab), hımba (4-5 litrlik su qabı) və s. kimi gil qablardan istfadə eidlirdi. Həmayıl səhəngin su tutumu çox olduğundan, onunla kişilər də su daşıyırdı. Bəzən qoşa həmayılı ulağın belinə çatmaqla da uzaq su mənbələrindən su əldə edilirdi.

Suyu təmiz və sərin saxlamaq üçün su küplərindən və səkcədən istifadə olunurdu. Yay çövsümündə nəm torpağa basdırılan və ya yaş parçaya bükülən su küpü, səkcə və su bardağı əhalinin sərin suya tələbatını ödəyirdi.


Ağac qablar

Suyun məişətdə işlədilməsi üçün müxtəlif formalı və tutumlu saxsı su qabları-qumquma, qurt-qurt, sürahi, dolça, parç, birəlli (tayqulp), yuyunmaq və dini mərasimlər zamanı dəstəmaz almaq üçün aftafa-ləyən (fəşir), lüləyin və s. əhalinin istifadəsində idi.

Süd-ağartı məhsullarının yığılması, emalı, saxlanması üçündə gil qab məlumatlarına tələbat böyük olmuşdur. Dəngənə, gödüş (sərnic), bərni, baqqa, bəsti, ya küpəsi, gil ehrə, qalqa, dopu, xeyrə, qədələ, küçükyatan, ləngəri, maya dopusu və s. bu qəbildən olan məişət qabları idi.

Hər bir azərbaycanlı ailəsində xörək hazırlamaq üçün müxtəlif çölməklərdən (ət çölməyi, balıq çölməyi, kəllə-paşa çölməyi və s.) istifadə olunurdu. Lənkəran bölgəsində qapaqlı çölmək “dizə çölmək” adlanırdı. Yağ, bal, eləcə də quru, dənəvər ərzağı saxlamaq üçün “sıpıl” sərfəli gil qabı idi. Qovurma, cızdaq, ehtiyat ərzaq məhsulları gil

küpələrdə saxlanılırdı. Azərbaycan süfrəsini ləzzətli yeməyi olan piti dopusunda bişirilirdi. Gil-saxsı materialardan hazırlanan qablardan güvəc, əngənək, çilov-süzən, kərəğan, gil tabaq, dalyar (içərisinə plov çəkilirdi), gil sac, qazan qapağı (sərpic) və s. XIX-XX yüzilliyin əvvəllərində xalq məişətində başlıca yer tuturdu. Gil qablar asan gəzdirilən olmadığından, köçmə-maldar elat məişətində geniş istifadə edilmirdi. Belə məişət qablarını oturaq və yarımoturaq həyata məxsusluğunu etnoqrafik materiallar da təsdiq edir.

Xalqımızın istifadə etdiyi ənənəvi məişət qabları içərisində mis qablar xüsusi yer tuturdu. Qədim tarixə malik olan misgərlik sənətinin XIX-XX yüzilliyin əvvəllərində başlıca mərkəzləri Bakı, Şamaxı, Şəki, Gəncə, Naxçıvan və Şuşa olmuş, Lahıc kəndi isə sənətkar-misgərlər kəndi kimi şöhrtələnmişdir. XIX yüzilliyin 30-cu illərində burada 52 misgər dükanı olsa da, [30] yüzilliyin ikinci yarısında onların sayı 200-ə çatmışdır. [31] Azərbaycan migərlərinin hazırladığı müxtəlif çeşidli, formalı, nəfis ornamentli mis qablar xalqımızın mətbəx müxəlləfatının əksəriyyətini təşkil edərək həm oturaq əhalinin həm də maldar elatların geniş istifadəsində olmuşdur. Mis qablar cehiz kimi sifariş olunur, kəndbəkənd gəzən səhra kəndlilərdən satın alınır, satış üçün bazara çıxarılır, işədilməyənləri rəflərə düzülür, sahibinin maddi imkanının göstəricisi olurdu. Adətən oz üzərinə qoyulmayan mis qablar müxtəlif həndəsi, nəbati naxışlarlıa bəzdilir, demək olar ki, bütün mis qablar qalaylanaraq  işlədilirdi. Bəzən mis qabların üzərində sahibinin adı və qabın alındığı tarix yazılırdı. Belə yazılar adətən qıza cehiz alınan və məscidlərdə vəqf edilən qabların üzərində olurdu. [32] Müsəlman hicri-qəməri təqviminin səfər ayında əziz-xələf oğlan uşaqlarının adına da mis qab "döydürür", oraya qab hazırlanma tarixini, uşağın adını və təvəllüdünü yazdırırdılar. Xüsusi səriştəli ustaların mis qablara vurduğu naxışlar əsas etibarilə yarpaq, buta, qızılgül, budaqda və ya qönçə üzərində oturan quş, eləcə də ceyran, dəhrəburnu və müxtəlif naxışlardan (paxlava, üçbucaq,  düz, sınıq və əyri xətlər) və sairədən ibarət idi.

Mis qablar ailə-təsərrüfat məişətində su daşımaq, süd-ağartı məhsulları hazırlamaq, xörək bişirmək, xörəyi süfrəyə vermək və b. məqsədlər üçün istifadə olunurdu. Azərbaycanda istifadə olunan mis

qabların geniş çeşidi onların xalq məişətinə geniş daxil olduğunu göstərir:

Su qabları: səhəng, farş, gəlgəl, qabçaq, lüləyin, tayqulp, dolça, parç, aftafa-ləyən, abgərdən, satıl, piyalə, məşqəfə, tas, cam, sətilcə, ləyən, yəhər camı və s. yəhər camını Məkkəyə ziyarətə gedənlər su içmək üçün götürürdülər.

Süd-ağartı qabları: sərnic, badya, qablama, tiyan, cınqır, qapaqlı.

Xörək hazırlanması və istifadə olunmasında süfrəyə verilən qablar qulplu qazan (xeyir-şər qazanı), bala qazan (bala toa), orta qazan, zəncirli qazan (məclis qazanı), tiyəncə, sapılca, döyrə, kəfgir, tavasar, şərbəti (kiçik və dərin nimçə), aşsüzən (tuşpalan), sərpuş, cuqqur, çömçə, məcməyi, cam, teşt, kasa, sini və s.

Bütün bunlardan başqa ev məişətində samovar, çıraq, lampa, manqal, qənddan, ədviyyat qabı, gülabdan, gül qabı, şamdan, qaşıq, ağızdıq (qıf, zabra, boğazdöyü), rüşül qabı, şərbət qabı və s. kimi mis qablardan geniş şəkildə istifadə olunurdu.

Ev məişətində istfadə edilən qabların müəyyən bir qismini də ağac (taxta) qablar təşkil edirdi. Ağacişləmə sənətinin bir qolunu təşkil edən məişət qabları istehsalı Azərbaycanın meşə örtüyü ilə zəngin olan bölgələrində (Kiçik Qafqaz, Şəki-Zaqatala, Quba, Lənkəran, Şirvan, Naxçıvan) geniş inkişaf etmişdi. Məişət qabları əldə və xüsusi su dəzagahalrında hazırlanırdı. Bir qayd olaraq, təknə-qabaq istehsalı su dəzgahları vasitəsi ilə başa gəlirdi. Çörəkbişirmədə istifadə olunan məişət qabları və alətlərin (təknə, tabaq-hövsər, oxlov, vərdənə, duvaq, ələk, yuxayan (dördayaq, dügəc, yayqı, yaymaxın, ayaqlı) və s. demək olar ki, hamısı ağacdan düzəldilirdi. Xüsusi səriştə ilə hazırlanan və taxıl saxlamaq üçün istfadə edilən kəndi, god, saqan, yaxdan, iri ağac sandıqlar, çömçə, qaşıq, çanaq, arı godu, ağac nehrə (arxıd), müxtəlif ölçülü nimçə və kasalar ağacdan hazırlanan ev avadanlıqları olub, xalq məişətində bəziləri də hələ işlədilməkdədir. Ağacişləmə sənətinin mahir biliciləri məişət qablarının hansı ağacdan hazırlanmasına xüsusi diqqət yetirirdilər. Bir qayda olaraq, təknə, tabaq, hövsər, qozqara, qızılağac, fısdıq, nil, qismən də qovaq ağacından; çömçə və qaşıq isə cır armud, kələmpir, yemişan, şümşad və fıstıqdan düzəldilirdi. Bu ağac növləri

hamar yonulur və tiktik vermirdi. Lənkəran-Astara bölgəsində ağac çömə-qaşıq “məlağa”, tabaq “luka”, xörək çəkmək üçün lazım olan çömçə isə “küçəli” adlanırdı. Naxçıvan bölgəsində XIX-XX yüziiliyin əvvəllərində ağac qabıqlarından əngərək (teşt, tabaq), dədədurğuzan (çömçə) əhalinin geniş istfadəsində olmuşdur.

Keçmişdə həlin köçən qızların cehiz bağlamlarında ağacdan düzəldilən bərbəzəkli sandıqlar, təknə-tabaqlar, çömçə-qaşıq dəstləri, mücrü, qənddan və b. məişət qablarınn olması vacib sayılırdı.

Ev məişətində, xüsusilə də köçmə maldar elatların həyatlarında dəri qabları əvəzedilməz idi. Dəri qablarında istifadə bəşərin ilkin çağları ilə səsləşir. Toxuculuğun və dulusçuluğun hələ inkişaf etmədiyi dövrlərdə ovçuluqla məşğul olan insanlar ovladıqları heyvanın dərisindən təkcə bürüncək və yatacaq kimi deyil, həm də dəri qab kimi istfadə edirilər. Köçmə-maldarlıq təsərrüfatı üçün əlverişliyi, köç şəraitində qırılma, sınma ehtimalının minimum həddi, etibarlılığı və b. təbii keyfiyyətləri dəri qabların məişətində son zamanlara qədər istifadəsini zəruri etmişdi. Dağarcıq, tuluq,eymə, motal, tuluq nehrə, qarın, cılğı kimi dəri qabları hazırlanma qaydaları ümumazərbaycan səciyyəli idi. Dağarcıq istisna olmaqla (ondan taxıl, duz, un və b. başqa ərzaq məhsullarının saxlanılması üçün istifadə olunurdu) qalan dəri qablar süd-ağartı məhsullarının emalı və saxlanılmasında istifadə edilirdi. Dəri tuluğun digər təyinatları üzrə işlədilməsi də məlum idi. Belə ki, onunla su mənbələrindən kənarda yerləşən yaşayış məntəqələrinə su daşınır, hava ilə doldurulmuş tuluq su nəqliyyatı vasitəsi olan kələkin əsas hissəsini təşkil edir, həmçinin neftçıxarma və kankançılıq sahəsində də kimi istifadə olunurdu. Orta əsrlərdə Abşeron nefti dəri tuluqlara doldurulub dəvə karvanları vasitəsilə uzaq ölkələrə daşınırdı.



# DƏNÜYÜTMƏ VƏ ÇÖRƏKBİŞİRMƏ QAYDALARI



# DƏNÜYÜTMƏ QAYDALARI

Azərbaycan ən qədim əkinçilik ölkələrindən birirdir. Hazırda da bu ərazinin bir sıra bölgələrində yabanı taxıl bitkilərinə rast gəlinir. İbtidai insanlar yabanı buğda, arpa və başqa dənli bitkiləri sütül vaxtı toplayıb yemişlər. Yetişəndə isə taxılın sünbülünü ağac dəyənək vasitəsi ilə döyərək dənini çıxarıb istifadə etmişlər. Onların taxılın becərilməsi, döyülməsi və saxlanılması ilə yanşı, həm də onun üyüdülməsi qaydalarını yaratmışlar. Əkinçiliyin Azərbaycanda müstəqil təsərrüfat sahəsi kimi inkişaf etdiyi dövrdən də üyütmə qaydaları mövcud olmuşdur. Dənin üyüdülməsi tarixi bir neçə mərhələdən keçmişdir. Cəmiyyətin və iqtisadiyyatın inkişafına uyğun olaraq dənin üyüdülməsi qaydaları da sadədən mürəkkəbə doğru dəyişmiş və təkmilləşmişdir.



Taxılın a) sütül vaxtı və b) yetişəndə dənin çıxarılması



Sadə dən daşları

Hələ Neolit dövründə taxılçılıqla əlaqədar geniş inkişaf tapan sadə dən daşları dənüyütməni əsasını təşkil etmişdir. Bu dövrdə ən sadə dənüyütmələrə həvəngdəstələr vasitəsilə icra edilmişdir. Oyuq şəklində yonulmuş daşların içinə dən tökülür və dəstə vasitəsi ilə döyülürdü. Taxılçılığın əsas təsərrüfat sahəsinə çevrildiyi dövrdə həvəngdəstələri nisbətən daha müasir alətlər əvəz etmişdir. Arxeoloji qazıntılar zamanı ibtidai icma quruluşunun inkişafı dövrünə aid sürtgəclər və dən daşları aşkar edilmişdir. Sadə dən daşları əsasən qayıqvarı, qismən dördkünc, oval və dairəvi quruluşa malik olmuşdur.

İstifadə qaydalarına müvafiq olaraq onların ölçüləri də müxtəlifdir. Bir qayda olaraq boz və qırmızıya çalan və tuf daşından hazırlanan qayıqşəkilli daçlarda dəni üyütmək xeyli çətin və vaxt aparan iş olmuşdur. Əgər un narın olmazsa, yenidən bir neçə dəfə üyüdüb, istənilən vəziyyətə gətirərdilər.

Sadə dən daşlarından əl dəyirmanına keçid yalnız texniki tərəqqi olmayıb, həm də taxılçılığın daha da geniş inkişaf etməsini şərtləndirən amillərdəndir. Hələlik əl dəyirmanların ilk dəfə harada və nə vaxt meydana çıxmasını təsdiqləyən tutarlı sübut yoxdur. Müəyyən edilmişdir ki, eradan əvvəl III minillikdə Azərbaycanda Kür-Araz arxeoloji mədəniyyəti dövründə cüt əkinçiliyinin inkişafına başlanılmışdır. Cüt əkinçiliyinin inkişafı isə öz növbəsində daha münasib qurğu, alət və vasitələrin yaranmasına gətirib çıxarmışdır. Neolit və Enolit dövrlərində toxa əkinçiliyi şəraitində taxılın üyüdülməsində sadə dən daşlarından geniş istifadə edilmişdir. Tunc dövründə cüt əkinçiliyi əl dəyirmanlarının yaranmasına gətirib çıxarmışdır.


Kirkirə

Əl dəyirmanlarının meydana çıxmasını sadə dən daşlarının inkişaf mərhələlərində axtarmaq lazımdır. Aydın məsələdir ki, nisbətən iri və dairəvi quruluşa malik olan daşların üzərində dən üyütmək qayıqvarı dən daşalrına nisbətən daha asan və sərfəli olmuşdur.

Empirik bilik və vərdişlər artdıqca insanlar əvvəlcə düzbucaqlı, sonra dairəvi dən daşlarına, daha sonra isə əl dəyirmanlarına keçməyi daha vacib saymışlar.

Arxeoloji qazıntılar zamanı aşkar edilmiş onlarca dən daşları bu fikri təsdiqləyir. Düzbucaqlı dən daşalrını oturcağı nisbətən yastı, üzəri hamar, kənarları bir qədər yuxarı qalxmış formadadır. Bu qəbildən olan daşların uzunluğu 30-50 sm, eni 15-20 sm, qalınlığı 5-7 sm-ə qədər olur. Düzbucaqlı dən daşlarına nisbətən dairəvi dən daşları dəni tez və narın üyütməyə imkan yaradır. Bu qəbildən olan dairəvi daşların oturcağı və

üzəri yastıdır. Üzərinin hamar olmasında aydın görünür ki, ondan dənin üyüdülməsində geniş istifadə olunmuşdur. Bəzi xarakterik cəhətlərini nəzərə almasaq dən daşlarının kirkirəyə oxşarlığı açıq-aydın nəzərə çarpır. Onların təxmini diametri 20-30 sm, qalınlığı isə 4-7 sm-ə qədər olur.

Xatırladaq ki, gün ərzində sadə dən daşlarında təxminən 5-6 kq dən üyütmək mümkün olurdusa, dairəvi dən daşlarında üyüdülən unun miqdarı 15-16 kq-a çatırdı. Dairəvi dən daşlarında üyütmə prosesi nisbətən az, az zəhmətlə başa gəlirdi.

Əl dəyirmanları (kirkirə) ilk sinifli cəmiyyət dövründə, əsasən də ailənin tələbatını ödəmək üçün istifadə edilmişdir. Dəmirin tətbiqi taxılçılığın inkişafı üçün geniş imkanlar yaratmışdır. Şübhəsiz, bu dövrdə su dəyirmanları mövcud olmuş və əsrlər boyu əsas dənüyütmə qurğusu kimi tanınmışdır.


Su dəyirmanı

Azərbaycanda arxeoloji qazıntılar zamanı tapılan bir neçə əl dəyirmanı daşının tarixi eradan əvvəl III eramızın V əsrinə aiddir. Onlardan kiçiklərinin diametri təqribən 20-25 sm, orta ölçülərinin diametri 26-30 sm, üst daşının qlınlığı 5-10 sm-dir. Bir qayda olaraq, alt daşı üst daşa nisbətən nazik və yüngül olur. Onun qalınlığı 3-7 sm-ə qədərdir.

Arxeoloji qazıntılar zamanı tapılan materialları etnoqrafik müşahidələr əsasında bərpa edərkən aydın olur ki, Azərbaycanda minilliklər boyu əl dəyirmanlarının quruluşu və istifadə qaydalrında elə bir əsaslı dəyişiklik baş verməmişdir. XIX əsr-XX əsrin əvvəllərində də belə kirkirələrdən ailənin ehtiyacını ödəmək üçün istifadə olunmuşdur.

Kirkirədən yarma çəkmək, dən üyütmək və qismən də daş duzu əzib narın hala salmaq üçün istifadə edilirdi. Adətən kirkirə münasib daş növündən yerli sənətkarlar tərəfindən hazırlanırdı. Hazırlanmış dən daşları ağırlılığı, damalılığı, ən ümdəsi isə dəni narın əzmək kimi cəhətləri ilə seçilmişdi. Alt daşın ortasından açılan deşiyə metal və ya ağac ox bərkidilirdi. Onun digər ucu üst daşın ortasındakı nisbətən iri diametrli deşiyə keçirilirdi. Üst daşın kənarında açılmış deşiyə isə ağac dəstək taxılırdı. Həmin dəstək alt daşı üst daşın üstünə fırlatmaq üçündür. Hərəkətə gətirilən üst daşın boğazına dən tökülürdü. İki daşın arasında qalan dən sürtünmə nəticəsində yarma və ya una çevrilirdi. Üst daşı ox boyunca yavaş fırladıb dəni çox tökməklə yarma, tez hərəkət etdirib az dən əlavə etməklə un almaq olurdu. Üst daşın orta deşiyinin diamteri təxminən 5-8 sm olurdu. Gün ərzində kirkirə vasitəsilə 20-30 kq dən üyütmək mümkün idi.



a) üfüqi b) şaquli istiqamətdə hərəkət edən su dəyirmanları

Taxıçılığın inkişafı nəticəsində əl dəyirmanı zaman keçdikcə su və yel dəyirmanları, sonralar isə qoşqu buxar mühərrikləri və hərəkətə gətirilən dəyirmanlar ilə əvəz olunmuşdur.

Su dəyirmanları kirkirənin təkamülü nəticəsində meydana çıxmışdır. Bunu onların quruluşunda nəzərə çarpan ümumi oxşarlıq da təsdiq edir. Lakin onu da xatırladaq ki, su dəyirmanı kirkirəyə nisbətən daha mürəkkəb quruluşa malik olub, müqayisə edilməz dərəcədə üstünlüklərə malikdir. Əgər kirkirə vasitəsi ilə bir gündə ən çox 30 kq dən üyüdülürdüsə, su dəyirmanı vasitəsilə 500 kq və daha çox dən üyütmək mümkündür.

Su dəyirmanlarının meydana çıxması son dərəcə böyük əhəmiyyət kəsb etmiş və bəşər tarixində mühüm ixtiralardan biri kimi qiymətləndirilmişdir. Bu münasibətilə K. Marksın "Maşının bütün inkişaf tarixini un dəyirmanın inkşaf tarixində görmək olar " kimi məlum kəlamını xatırlatmaq kifayətdir.

Su dəyirmanları ilk dəfə harada, necə və nə vaxt yaranması haqqında yekdil fikir yoxdur. Lakin Qafqazın coğrafi şəraiti və yüksək əkinçilik mədəniyyəti tarixindən məlum olur ki, su dəyirmanlarının ilk vətənlərindən biri məhz bu ərazi olmuşdur. Bu baxımdan Gürcüstanın Vaqar dağından tapılan eradan əvvəl VII aid olan su dəyirmanın üst daşı böyük marağa səbəb olmuşdur. [1] Bu tapıntı su dəyirmanlarının Qafqazda, o cümlədən Azərbaycanda da yayılmağa başladığını göstərir. Ehtimal var ki, azərbaycanlılar Böyük və Kiçik Qafqaz dağlarında sürətlə axan dağ çaylarının üzlərində su dəyirmanları qurub işlətmişlər. Dilimizdəki "dəyirman" sözü qədim türk dilindəki "tərmən"-hərəkət etmək, fırlanmaq sözünün fonetik şəklidir. [2]



Danin üyüdülməsi

Xatırladaq ki, arxeoloji qazıntılar zamanı su dəyirmanlarının az tapılması hər şeydən əvvəl onun əsas yaşayış yerlərindən bir qədər aralı, münasib yerlərdə qurulması və sıradan çıxdıqca yerinin itməsi ilə izah edilir.

Tədqiqatçılara görə ilk su dəyirmanı əkinçiliyin meydana gəldiyi Kiçik Asiyada yaradılmış, oradan da milladdan öncə I yüzildə Romaya keçmişdir. [3] Artıq orta əsrlərdə su dəyirmanı geniş intişar tapmışdır. Bu barədə bəzi orta əsr müəlliflərini əsərlərində maraqlı məlumatlara rast gəlmək olar. Mənbələrdə orta əsrlərdə Beyləqan şəhərində dəyirmanların istifadə olunması qaydası haqqında xəbər verilir. [4]

Eramızın XIII-XIV əsrlərində Təbriz kəhrizlərindən su dəyirmanlarının işlədilməsi üçün istfadə edilmişdi. Bir dəyirmanın hərəkətə gətirlməsi üçün bir baş su tələb olunurdu. Bir dəyirman daşının fırlanması üçün saniyədə təxminən 15-20 litr su tələb olunurdu. [5] Azərbaycan və İran ərazilərində su dəyirmanlarının XVI əsrdə geniş yayıldığı göstərilir. [6] XVIII əsrin birinci yarısında Azərbaycanda beş yüzdən çox dəyirman işlədilirdi. [7] Orta əsrlərdə dəyirmanı xüsusi ustlar qururdular. Bu iş üçün təkcə dülgər əməyi deyil, həm də yerli şəraiti bilmək də tələb olunurdu.



Dənin üyüdülməsi

XIX əsrdə Azərbaycanda dən üyüdülməsində daha çox su dəyirmanlarından istifadə edilmişdir. Onların sayını dəqiqləşdirmək qeyri-mümkün olsa da, bəzi materiallara əsasən mülahizə yürütmək olar.

XIX əsrin ikinci yarısında Quba qəzasında 154, Göyçay qəzasında isə 170 dəyirman və düyü emalı su dənginin olduğu qeyd edilir. [8]

Dəyirman, adətən, ora gələnə suyun səviyyəsindən aşağıda tikilirdi. Dəyirmanın tikilməsinin ilkin şərti məhz dəyirman yerinin müəyyən edilməsidir. Azərbaycanda su dəyirmanlarının iki növü vardır. Birinci növdə su üfüqi vəziyyətdə olan pərli çarxı hərəkətə gətirir və çarxın özü üfüqi vəziyyətdə hərlənir, ikincisində isə su şaquli istiqamətdə qoyulmuş pərli çarxın üstündən tökülür və çarx şaquli istiqamətdə hərəkət edir. Lakin bu fərqlər su dəyirmanın dənüyütmə prosesində dəyişikliklər yaratmır, çünki hər iki növdə öz oxu ətrafında hərlənən çarx dişli ötürmələr vasitəsilə dən üyüdən daşları hərəkətə gətirir.

Dəyirmana su onun arxa tərəfində ağac nov ilə gəlir. Novun başlanğıcı enli, dəyirmanın çarxına



Yel dəyirmanı

yaxın hissəsi isə dar olur ki,  bu da suyun təzyiqini sürətləndirmək məqsədi güdür. Novun uzunluğu və diamteri dəyirmanın tikildiyi yerin coğrafi şəraitindən asılıdır. Ağac topa keçirilmiş  pərləri hərəkət etdirməklə çarx özü oxu ətrafında fırlanır. Topun içərisindən keçən oxun yuxarı ucu  dəyirmanınn alt daşının ortasında keçərək üst daşın alt hissəsindəki “təvərə” adlanan dəmir hissəyə bərkidilir.



Qoşqu ilə işlədilən dəyirman

Alt daş üst daşa nisbətən nazik və tərpənməz vəziyyətdə olur. Dəni üyüdən üst daş daha ağır və qalın olur. Üst daşın üstündə dən tökülən yer “dənlik” adlanır. Dənlik içi yonulmuş iri diamterli ağacdan ibarət olur, yaxud taxta hissələrdən quraşdırılır. Dənliyin ortasına dəni buraxmaq üçün kiçik diamterli deşiyi vardır. Dəyirmanın üst daşının ortasındakı  deşiyi “tana”, onun dən axıdan hissəsi isə “novça” adlanır. Novça içərisi oyulmuş ağacdan olur və daşın deşiyinə iplə keçirilir. İpin bir ucu isə başqa yerə bərkidilir. Həmin yerdə “çax-çax” adlanan hissə olur. Çax-çaxın bir ucu un təknəsinə yaxın bərkidilir. Dəyirmanın üst daşı hərəkət etdikcə  çax-çaxı da tərpədir və dənin daşın boğazına tökülməsini təmin edir. Alt və üst daşın ətrafında üyüdülmüş unun tökülməsi üçün taxta təknə quraşdırılır ki, bu da “unluq” adlanır.

Dəyirmanda dənin üyüdülməsini sürəti suyun gurluğundan və daşların diamterindən asılıdır. Uzun müddət dən üyüdüldükdə  daşların çopurları (dişləri) kütləşir, yeyilir və üyütmə prosesi çətinləşir. Ona görə də vaxtaşırı üst daşı çıxarıb ona xüsusi dəmir çəkiclə “dişək” vururlar.

Dəyirmanların ayrı-ayrı hissələrini hazırlanması xüsusi mərhələlərlə arxların düzəldilməsi, suyun arxdan nova axdığı yerdə “manerə”- “qaytarağac” qurulması, dəyirman üçün ikimətəbəli tikinti

tikilməsi, çarx və dəyirman daşlarının hazırlanması, taxılın tökülməsi üçün “dənlik”, unun tökülməsi üçün “unluq” , dənni mütəmadi və eyni miqdarda tökülməsi üçün novça və çax-çax, üyütməni tənzim edən “qulaq”, alt daşın içindən keçərək üst daşa bərkidilən və onu hərlədən dəmir ox və çarx hazılanması və s. həyata keçirilir.



Karbəri (daş ocaq)

Dəyirmanın ayrı-ayrı hissələrini yığılması –çarxın qurulması, onun oxunun alt və üst daşlarına birləşdirilməsi, alt daşın öz yuvasına qoyulması, dən verən və onu tənzim edən hissələrin qurulmasıdır. Bundan sonra dəyirmana su buraxılır. Bütün bu işlər dəyirmançının iştirakı ilə ustalar tərəfindən görülür. Su dəyirmanı alt və üst daşdan, çarx və oxdan, suyun axınını tənzim edən və taxıl tökülən hissələrdən ibarətdir.

Dəyirman, bir qayda olaraq, daşdan və kərpicdən tikilir. Azərbaycanda əsasən, üfüqi çarxla işləyən dəyirman geniş yayılmışdır. Su dəyirmanın hissələri Azərbaycanın bütün zonalarında əsasən eyni üsulla qurulurdu. Lakin onun adlandırılmasında müxtəliflik mövcud idi. Dəyiman arxının novla qoşulduğu yer “əmbərə” adlanır.

“Göz” açılmış (40x50) qarağac və palıd kötüyü əmbərənin qarşısına bərkidilir. Dəyirmanı işlədərkən qabağındakı “göz taxtası”, “gözü” götürülürdü.

**Nov.** 10-12 m uzunluğunda fıstıq və ya qoz ağacından düzəldilirdi. Ağacın xüsusi nov kərkisi ilə yonulurdu. Novun aşağı ucu “zirxana” ya daxil olurdu. Zirxanda qarağacdan düzəldilmiş “top” olurdu. Ona 24 ədəd “pər” bərkidilirdi. Pərlər qarağac və söyüddın düzəldilirdi. Qarağac və söyüd suya davamlı olmaqla bərabər işləyəndə topdan çıxmırdı. Topun altına (zirxanaya) “mundar” adlanan 2,5 uzunluğunda 15-20 sm diametrində palıddan yonulmuş tir sallanırdı. Mundarın ortasına 5x5 sm ölçüdə, 10 sm dərinliyində “püşk deşiyi” açılırdı. Həmin deşiyə qırmızı rəngli xüsusi daş salırdılar. Həmin daş Qarabağ və Gəncədə istehsal edilirdi. “Püşk daşı”ndan 3-4 il istifadə etmək olurdu. Halbuki metaldan olan “girvənkə daş” bir həftədən artıq davam gətirmirdi.


Döymə təndir

Dənin narın və iri üyüdülməsini təmin edən “qulaq” palıd və qarağacdan düzəldilirdi. Uzunluğu 2,5 -3 m diamteri 15 sm olan qulğın bir ucu “mundarça” nın sol ucunda xüsusi açılmış çüy deşiyinə keçirildikdən sonra ağac şüy vasitəsilə bərkidilirdi. Şaquli vəziyyətdə dayanan qulağına biri ucu isə dəyirmanın içinə qalxırdı. Qulağı aşağı-yuxarı hərəkət etdirmək üçün üzərində deşik açıb (8-10) deşiyə yoğun ağac keçirməklə daimi bərkidirdilər. Buna “qulaq ağacı” deyilirdi. “Qulaq” uzunluğu 1 m olan “məməkənə” (ling) vasitəsilə qalıdırılıb-endirilirdi. “Püşk” dəmirdən düzəldilirdi. Püşkün topa keçən yeri yastı, “mundarça” deşiyinə keçirilən yeri şiş olurdu. Püçkün girdə yuxarı başı dəyirmanın alt daşının ortasında keçib “təvərə” yə salınırdı. Onun təvərəyə keçən yeri dördbucaq formada olur və təvərəni fırladırdı.

**“Təvərə”** poladdan düzəldilirdi. Yastı və ucları enli formaya malik idi. Təvərin ortasında püşk deşiyi olurdu. Təvərə püşkün başına pərçimlənirdi. Üst daşdan təvərə üçün xüsusi yer ovulub düzəldilirdi. Alt daşın üst deşiyi təvərə ilə bərkidilirdi ki, üyüdülmüş un aşağı

tökülməsin. **“Çərbənd”-** alda daşa bərkitmək məqsədilə düzəldilirdi. **“Təknə”** isə yoğun ağacdan hazırlanırdı. Bir təknə 150-200 kq un tuturdu. **“Novça”** təknə deşiyini tən ortasında dayanır, ip ilə yanları bağlanırdı. Navçanı hər iki qırığından “ciyə” ilə təknəyə bağlayırdılar. Ciyə vasitəsilə novçanın vəziyyətini dəyişdirməklə dənin tökülməsi tənzimlənirdi. **“Diyircək”** və yaxud **“Girkənə”** adlanan ortası yonulub nazildilmiş kötüyün altına atılırdı. Girkənin başları yumru olduğundan yaxşı diyirlənir və daşı kənara itələyir. Daşın bir tərəfini basır, o biri tərəfini unluğa doğru əyir.

Dən üyüdülməsi üçün istifadə edilmiş nisbətən qədim dəyirman növlərindən biri də, qeyd olunduğu kimi, yel dəyirmanıdır. E.Teylor qeyd edir ki, sivilizisiya tarixində böyük nailiyyətlərdən biri də su və yel dəyirmanlarının tətbiq edilməsi ilə bağlı idi. [9] Külək vasitəsilə hərəkətə gətirilən ilk dəyirmanların qədim Misirdən və Çindən gəldiyi qeyd olunur. Eramızın VII əsrində İranda mükəmməl quruluşlu yel dəyirmanın tikilməsi məlumdur. [10]

Qədim Şirvan torpağında xüsusilə Xəzərsahili bölgələrdə küləyin gücü ilə hərəkətə gətirilən yel dəyirmanları da işlədilmişdir. Lakin XIX əsrdə bir sıra səsəblər ucbatından yel dəyirmanları azalmağa başladı. Buna baxmayaraq, yel dəyirmanlarının az da olsa XIX əsrdə hətta XX əsrdə işlədilməsi məlumdur. [11]

Xəzərsahili ərazilərdə də bu növ dəyirmanlardan daha çox istifadə edilmişdir.



Mənbələrdə orta əsrlərdə Azərbaycan ərazisində yel dəyirmanlarında istifadə edilməsi haqqında tutarlı məlumat yoxdur. Lakin XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın düzən rayonlarında, xüsusilə Abşeron yarmadasında yel dəyirmanlarından geniş istifadə edilmişdir. [12] Abşeronda yel dəyirmanın iki növü məlumdur: dördpərli və çoxpərli dəyirmanlar. Yel dəyirmanın işləmə prinsipi küləyin istiqaməti ilə bağlı idi. Belə ki, külək pərləri hərətək

etdikcə, həmin pərlərə keçirilmiş oxu da hərəkətə gətirmiş olurdu. Onu da qeyd etmək lazımdır ki, Abşeronda bu üsulla quyudan su çəkmək qaydası da mövcud olmuşdur. [13] Dəyirmanın üçüncü növü qoşqu qüvvəsilə hərəkətə gətirilirdi. Azərbaycana qoşqu qüvvəsilə işləyən dəyirmanlar haqqında ətraflı məlumat XIX əsrin ortlarına aid edilir. [14] Həmin məlumatda su dəyirmanı olmayan yerlərdə qoşqu ilə işlədilən dəyirmanın olduğu göstərilir.

Qoşqu qüvvəsi ilə işləyən dəyirmanın quraqlıq keçən bölgələrdə işlədilməsinin əsas səbəbi burada suyun və küləyin kifayət qədər olmamasıdır. Qoşqu qüvvəsi ilə hərəkətə gətirilən dəyirman ilə gün ərzində 3-4 pud dən üyütmək olur. Bu dəyirman daş sütun və ağac dayaqlarla dairəvi formada qurulduqdan sonra araları ağac çubuqla hörülür. Onun üstündə alt dəyirman daşı qoyulur, ortasından isə dəmir keçir. Dəmirə üst daş keçirilir və daş onun ətrafında firlanır, üst daşın ortasında diyi olan qabarıq hissənin içərisindən sicim keçirilir və onnu ucuna heyvan qoşulur. Heyvan sütunun ətrafında hərəkət etdikcə daş da fırlanır. Üst daşın orta hissəsində isə kiçik deşik açılır. Oraya çömçə ilə dən tökülür.





Bu dəyirman növü üçün səciyyəvi cəhət- onun at və ya ulaq vasitəsilə hərəkətə gətirilməsidir. Azərbaycanda belə dəyirman növü əsasən XX əsrin əvvəllərinə qədər Xəzəryanı ərazilərdə, xüsusilə Abşeron yarmadasında mövcud olmuşdur. Keşlə kəndində belə dəyirman qalığına təsadüf edilmiş və onun təsviri verilmişdir. Onun təsvirinə görə daşdan hörülmüş dörddivarlı tikintinin divarlarından ikisinin yuxarısında sıra ilə düzülmüşdür. Dördguşəli pəncərə formalı

bacalar vardı. Bunlar dəyirmana hava girməsi üçündür. Damın kənarına doğru sol tərəfdə deşiklər vardır. Həmin deşiklərə ip salınır və buraya "həng" adlanan ağac keçirilir. Həng ağacının sonuna at qoşulur və at həng hərləndikcə binanın içərisindəki dəyirman daşı da hərəkətə gəlir. Həng ağacı üst daşının iki zolağının sonuna bağlanan ipə keçirilir. Üçüncü qolun sonuna bağlanan ip isə üst daşın kənarına hərəkət edərək üyüdülmüş unu süpürüb daşların yanında qazılmış quyuya tökür. [15]

Dəyirmana dən tökmək üçün üst daşın boğazına ağzı gen, aşağısı isə dar taxta qutu bərkidilir. Aşağı hissəsindəki deşikdən daşın altına dən gedir. Həmin qutu "sərsəri" adlanır. Ümumiyyətlə, başğa dəyirmanlarda olduğu kimi, qoşqu dəyirmanında da alt daşı sabit, üst daşı isə sağdan sola doğru hərəkət edir. Yaxşı bir atla gündə 10 puda qədər dən üyütmək olur.



a) sacayağı b) şiş

Hövsan kəndində aşkar edilmiş qoşqu ilə işlədilən dəyirman binasının divarları yonulmuş ağ daşdan "gəclə" hörülmüşdür. Divarın xarici görünüşü maili formadadır, yuxarı getdikcə isə künbəz forması alır. Künbəzin ortasında işıq yeri düzəldilmişdir. Ölçüsü 4,7 m-dir. Dəyirmanın qərbə baxan divarında heyvan üçün, digəri isə adamlar üçün olan iki qapısı vardır. Qapıların eni 67 sm, hündürlüyü isə birincidə 1,91 m, ikincidə isə 1,6 m-dir. Divarda eni və hündürlüyü təxminən 50 sm olan pəncərə vardır. Divarda hava kanallarından başqa ata yem vermək üçün hündürlüyü 60 sm, eni 50 sm, dərinliyi 53 sm olan axur da düzəltmişlər. Axurun yaxınlığında heyvan bağlamaq üçün ortasında deşik olan daş var. Un üyüdən daşlar ortada qoyulurmuş. Təəssüf ki, bu dəyirman daşları mühafizə olunmamışdır. Lakin məlumatçıların dediyinə görə daşların diametri 90 sm olmuşdur. Daşın aşağı hissəsində nov var. Novun vasitəsi ilə un aşağıda daşların kənarında düzəldilmiş taxta novçaya tökülürdü. Dən tökülən taxta qutu isə yuxarıda asılırdı.


Fırın (yeraltı)

Dairəvi formada olan bu dəyirmanın alt daşının ortasında 3 sm qalınlığında və 25 sm hündürlüyündə dəmir ox vardır. Həmin daşın yuxarı kənarının bir tərəfindən 7 sm-lik kəsik olmuşdur. Buradan üyüdülmüş un taxta qutuya tökülürmüş. Üst daş yastı və dairəvidir. Bunun ortasında ox keçirmək və daşın altına dən gətirmək üçün dəyirmanın boğazı adlanan 10 sm ölçüdə deşik olmuşdur. Boğazdan bir qədər aralı daşın altında şəp və balaca bir deşik olmuşdur. Buradan süpürgə çöpül sallanır və daşın altına, dəyirmanın boğazına tökülən dəni yayır. Bu da üyüdülən unun narın və yumşaq olmasını təmin edir.

Yumşaq un lazım olduqda süpürgə çöpü geri çəkilir. Bu zaman dən az-az üyüdülür, yumşaq və narın olur. Süpürgə çöpü irəli itələndikcə isə dən daşın üstünə çox yayılır. Bu zaman dən çox üyüdülür və un bir qədər yarmalı olur.


Gil tava

Üst daşın altı düz səthlidir. Bunun üstündə mərkəzdən kənara doğru burulmuş formada unu qaldırmaq üçün zollar gedir. Bunlar daşın üst tərəfini bərabər hissəyə bölür. Həmin zollar daşın boğazına yaxın yerdə 10 sm enində dairəvi kəmər təkil edərək onu hər tərəfdən əhatəyə alır.

XIX əsrdən, xüsusilə həmin əsrin ikinci yarısından Azərbaycanın bir sıra iri şəhərlərində daha güclü və əhəmiyyətli fabrik-zavod tipli dəyirmanlar qurulmağa başlayır. Buxar mühərrikləri vasitəsilə hərəkətə gətirilən və xalq arasında "od dəyirmanı" adlanan bu tip dəyirmanların yaranması xırda, az gücə malik olan dəyirmanların sıradan çıxmasına səbəb oldu.

Taxılın dəyirmanlarda üyüdülməsi ilə bağlı maraqlı adətlər olmuşdur. Keçmişdə dəyirmanlar xalq arasında müqəddəs yerlərdən sayılırdı. Dəyirmanda un üyütmək növbə ilə olurdu. Payız vaxtı dəb daha çox üyüdülürdü. Çünki, təsərrüfat mövsümü bitdikdən sonra hər bir ailə qışa qabaqcadan hazırlıq məqsədilə nəzərdə tutulan miqdarda



Kürə

taxıl üyüdülürdü. Buna “qışlıq” deyirdilər. “Qışlıq” üyüdülməsinin əsas səbəbi bəzən qış aylarında dağ çayının donması ilə əlaqədar dəyirmanların işləməməsi idi. Digər səbəb isə qışda gediş-gəlişin çətinləşməsi idi. Ona görə də adamlar dəyirmanda bəzən bir və ya bir neçə gecə qalmalı olurdular. Dəyirmanda müxtəlif taxıl növü buğda, arpa, darı, qarğıdalı və s. üyüdülürdü.

Keçmişdə dəyirmanlar ya ayrı-ayrı şəxslərə yada bir nəslə mənsub olurdu. Hər iki halda dəyirmançı həmişə dəyirmanda omalı, onun işləməsinə, növbənin gözlənilməsinə nəzarət etməli id. Dəyirmançı üyüdülmək üçün gətirilmiş taxılın təmiz və quru olmasına da nəzarət edərdi. Üyüdülmüş taxılın növündən asılı olaraq dəyirmançı onu üyüdərək “şahad” adlanan haqq alırdı. “Şahad” adətən taxıl formasında alınardı. Müxtəlif yerlərdə “şahad” 10/1 ilə 15/1 arasında idi. Bəzi hallarda dəyirman haqqı pulla ödənilirdi.

Xalq arasında dəyirmanla bağlı bir sıra hikmətli deyimlər mövcuddur. “Adamı qeyrət işlədər, dəyirmanı-su”, “haqq dəyirmanda olar”, “dəyirmanda buğda qurutmazlar”, “dəyirmanın yaraşığı torba-çuvaldır”, “dəyirmanın səsindən qaçan dən üyütməz”, “hərə öz bildiyini deyər, dəyirman isə döydüyünü”, “dəyirman çəkdiyini çəkər, çax-çax baş ağrıdar” və s. Dəyirman xeyir-bərəkət rəzmi, ümid, pənah qapısı, halallıq, düzlük, təmizlik evi adlandırılmışdır.



Fırın (yerüstü)

Dəyirmana haram məhsul gətirmək günah sayılıb. Ata-babalarımız inanıblar ki, üyüdüləcək buğda, arpa, qarğıdalı oğurluqdursa, o zaman məhsulun bərəkəti qaçacaq. Çünki dəyirman haram götürmür.



Səngək kürəsində istifadə olunan alətlər

Dəyirman suyunu kəsmək onu çirkləndirmək günah sayılırdı.

El adətinə görə, dəyirmana un üyütməyə evin-eşiyin ayağı sayalı, əli bərəkətli üzvü gedərdi. Dəyirmanda un üyüdəndə deyərdilər: “Çörəyiniz bol olsun, ruzulu olsun”. Dəyirmandan gələnlərin, unu üyüdüb gətirən adamların ailədə xüsusi hörməti olardı, ehtiramla qarşılanardı.

Çuvaldan unu üç dəfə götürüb, bir də qaytarıb içinə boşaldıb deyərdilər: “Bərəkəti içində qalsın”. Bundan sonra unu işlətmək olardı.



Səngək kürəsi

Dəyirmançının da el-oba arasında qədir-qiyməti, hörməti-izzəti olub.

Dəyirman abidədir, tarixin lal şahididir. Onları qoruyub saxlamaq borcdur, gələcək nəsillərlə ötürülən əvəzsiz yadigardır.

# ÇÖRƏKBİŞİRMƏ QAYDALARI



Xarək

Bəşəriyyətin ən qədim və ən mühüm kəşflərindən biri oddan istifadədir. Odun-ocağın kəşfi ilə əmək daha təkmilləşdi, çörək hazırlanması meydana gəldi.

Arxeoloji və etnoqrafik materiallardan aydın olur ki, qədim insanlar çörək bişirmək üçün çalarlarda ocaq çatar, sonra onun kül və közünü təmizləyib yoğrulmuş xəmir kündəsini qızmış çalaya qoyar, üzərinə ocaq közü tökərdilər. Bu sadə çörəkbişirmə qaydası son zamanlara qədər qalmış, el-obada kömbə adlandırılmışdır.Bu ibtidai üsulla bişən çörəyə külləmə də demişlər.

Digər qədim çörəkbişirmə vasitəsi daş ocaqlardı. Daş ocaqlar iki formada olur. Birincisi 2-3 daşı yanaşı qoyub onun üzərində ocaq qalayırlar. Sonra isə odu təmizləyib qızmış daşın üstünə kündəni yapırlar. Kündəni çevirməklə çörək bişir. Daş ocağın ikinci forması da karbəri adlanır. Bu çörəkbişirmə vasitələrindən dörd tərəfi böyük ölçülü yastı daşlardan ocaq düzəltməklə istifadə olunurdu. Döşəməsi torpaqdan olan karbəri bir növ evciyə bənəzəyirdi. Daşların torpağa qoyulan tərəfini azca qazılmış yerə basdırıraq bir- birinə söykənmiş halda düzəldirdilər. Bu çörəkbişirmə vasitəsindən dəyirmanda, yaylaqlarda da istifadə edilir. Daşların diamteri təxminən 35-40 sm, qalınlığı 4-5 sm qədər olurdu. Toplanmış etnoqrafik materiallar qədim dövrdə meydana gəlmiş karbəridən XIX əsr və XX əsrin əvvəllərinə qədər istifadə edilməsini təsdiq edir. Heç şübhəsiz, bu növ sadə çalarların tətbiqi sonralar döymə təndirlərin



Kəsdi

yaranmasına gətirib çıxarmış, onun inkişafına zəmin yaratmışdır. Təndirlərin ilk dəfə harada istifadə edilməsi məlum deyil. Ümumiyyətlə tədqiqatçılar təndiri Yaxın Şərq xalqlarının adı ilə bağlayırlar.



Təndir əsas çörəkbişirmə vasitəsi kimi Azərbaycanda hələ Eneolit dövründən təşəkkül tapmışdır. [16] Ən qədim döymə təndir ilk dəfə Naxçıvanda Kültəpə eneolit abidəsindən tapılmışdır. [17] Döymə təndirlər sonrakı dəmir və tunc dövrü abidələrindən də aşkar edilmişdir. Onlara az da olsa orta əsr abidələrində rast gəlinir. [18] belə təndirlər sonrakı əsrlərdə də müşahidə olunmuşdur. Deməli, bu təndir növü əsrlərlə həyatiliyini təsdiq etmiş, varlığını qoruyub saxlamışdır.

Bəzi bölgələrdə yer təndiri kimi tanınan döymə təndiri düzəltmək üçün bir qayda olaraq münasib yerdə təndir formasında quyu qazır, divarlarına duz qarışıqlı küllü su səpilərək yast hamar daşla döyməklə bərkidirlər. Bəzən qazılmış quyuya su doldurulur və su tamamilə quruyundan sonra quyunun divarları eyni qayda da döyülür. [19] Beləliklə, torpaq sıxılır, çalanın divarları bərkiyir. Külbəsiz olan döymə təndirin oturcağı və divarları suvanır. Sonra içərisində od qalanır. Bu qayda ilə hazırlanmış döymə təndirin divarlarına kündə yapılır və çörək bişirilir.



a) taxta; b) gil dördayaqlı

Azərbaycanda əsrlər boyu geniş yayılmış təndir növlərindən biri

də badlı təndirdir. Bu növ təndirlərin yapılmasına döymə təndirlərin təsiri aşkar duyulur. Badlı təndir hələlik tunc dövrü abidələrindən aşkar edilmişdir. Deməli, bu təndir növü ilk sinifli cəmiyyətdə və orta əsrlərdə daha geniş intişar tapmışdır. Bu mülahizəni arxeoloji qazıntılardan aşkar edilən badlı təndir qalıqları və bəzi mənbələr təsdiq edir. Badlı təndirlər yeraltı və yerüstü təndirlərdən ibarətdir. Bu növ təndirlər xüsusi torpaqdan hazırlanır. Xalq arasında həmin torpağa gil, təndir torpağı, sarı torpaq deyilir. Təmizlənmiş torpağa narın saman kəndəlaş, keçi və atı qılı, bişmiş kərpic oxantısı, saxsı parçları, xırda çınqıl daşı və s. qatılır, sonra su töküb qarışdırılır və palçıq yoğrulur. Yoğurulma prosesi bir neçə dəfə təkrar edilir. Hazırlanmış palçığın qurumasının qarşısını almaq məqsədilə üstü cır-cındır, köhnə palaz, heyvan dərisi və ya otla örtülür və bir neçə gün "acıdılır". Həmin müddət ərzində yoğurulmuş palçıq həll olur və yumşalır. Bu təndirin çatlmasının qarşısını alır və ona möhkəmlik verir. Əvvəlcədən hazırlanmış taxtanın və ya ağacın üzərinə palçıqdan kəsilmiş kündə qoyulur və əllə eşilir. Acıdılmış pambıqdan təndir qurarkən əvvəlcə ondan badlar düzəldilir. Bada bəzi yerlərdə əl dürməsi, tiyə deyilir. Yast daş, taxta və ya çarpaz düzlümüş çubuqların üzərində təndir qurulur. Nisbətən iri həcmli təndirin düzəlməsi üçün bir qayda olaraq təxminən 20-22 cərgə, təndirin düzəlməsinə isə 10-12 cərgə bad hazırlanır. Badlar müxtəlif uzunluqda olur. Badın uzunluğu 25-30 sm; diamteri 5-7 sm-ə qədər olur. Təndir tədricən qurulur. Çünki yaş palçıq ağır və sürüşkən olduğundan bir-birinə ağırlıq salar, uça bilər. Odur ki, badın birini qurur və quruyana qədər gözləyirlər. Sonra onun üstündə yeni cərgə bad qurulur, arası plaçıqla doldurulur və suvanır. Sonuncu ağız badı nisbətən qalın olur. Bu qayda üzrə düzəldilən badlı təndir təxminən bir həftə ərzində başa gəlir. Hazırlanmış təndir əvvəlcədən düzəldilmiş çalaya salınır, ona ifçin geydirilir.

Təndirlə çala arasında qalan yerə peyin qarışıqlı palçıq doldururlur və yastı xırda daşlarla sıxılır. Bu, həm nəmliyin qarşısını alır, həm də istiliyi



Rəfətə

təmin edir. Adətən, təndirin oturacağı ağzına nisbətən gen olur. Təndirin aşağısında oturcağa yaxın yerdə bir və bəzən də iki külbə qoyulur. Kiçik kanal vasitəsi ilə xaricə çıxışı olan külbə təndirin içərisində odun yanması və közərməsinə şərait yaradır. Odun ocaqda pis yandıqda külbə açılır, yaxşı yandıqda və köz tam şəkildə qızardıqda külbə tıxanır. Külbə yerüstü təndirlərdə də olur. Bu halda onun üçün xüsusi kanal tələb olunur.

Adətən, çalaya salınmış təndirin ağız hissəsi yer səthindən bir qədər yuxarı olur. Təndirin ağzının arxa tərəfi daşla hörülür ki, onun tez xarab olmasının qarşısı alınsın və çörək bişməsi üçün rahatlıq yaransın.

Təndir hazır olandan sonra gen yanan və nisbətən yaş odun yandırılır. Od qalama prosesi bir neçə dəfə təkrar edilir. Təndir "bişən" dən sonra soyumağa qədər gözləyir və ondan sonra divarlarına quyruq yağı çəkilir ki, divarda çatın qarşısı alınsın. Bəzən isə eyni məqsəd üçün duzlu su səpilirdi.







Çalaya salınmış təndirlərdən fərqli olaraq yerüstü təndirlər üçün daha münasib torpağın olması lazım gəlir. Şoran və nəmişli torpaqlarda yerüstü təndirlərdən az istifadə olunur. Möhkəmlik və uzunömrlülük baxımından yeraltı təndirlər yerüstü təndirlərə nisbətən üstünlük təşkil edirlər.

Dik və ya yerüstü təndirlərdə yayılmış kündələr ayaqüstə, yerlatı təndirlərdə isə əksinə otumuş və ya əyilmiş vəziyyətdə yapılır.

Daha təkmil və davamlı olan kərpic təndirlər isə əvvəlki təndirlərə nisbətən sonralar meydana çıxmışdır. [20] Bu növ təndirləri çiy və ya bişmiş kərpicdən hazırlamışlar. Çiy kərpicdən hazırlanan müxtəlif ölçülü təndirlər arxeoloji qazıntılar nəticəsində ilk orta əsr abidələrində aşkar

edilmişdir. Çox güman ki, bu növ təndirlər ilk sinifli cəmiyyətdə inkişaf tapmış və orta əsrlərdə geniş yayılmşdı. Çiy kərpicdən hazırlanan təndirlərdən quruluş ertibarı ilə fərqlənən  bişmiş kərpic təndirlər ehtimal ki, orta əsrlərin məhsuludur. Məlumdur ki, orta əsrlərdə xüsusilə onun inkişaf etmiş mərhələsində inşaat işindən daha çox bişmiş kərpicdən istifadə edilmişdi. Kərpic təndirlər daha davamlı olduğundan çörəkbişirmədə uzun ömürlü olur.  [21]

Kərpic təndirləri qurmaq üçün əvvəlcədən çala qazılır. Çalda kərpic xüsusi sarı palçıq vasitəsi ilə hörülür. Adətən, təndirin ağzı xüsusi gil və ya metal lövhədən hazırlanmış qapaqla örtülür. Qapaq təndirin ağızının diametrindən bir qədər böyük, üstündə isə əl tutmaq üçün çıxıntı olur. İstiliyin çıxmamasını təmin etmək üçün qapağın yanları palaz parçalar ilə qapanır. Adətən, təndir yaşayış evinin münasib yerində qurularaq üstü örtülür. Bəzən bir neçə nəsil və qonşu ailənin təşəbbüsü ilə xüsusi təndirxana və ya təndiristan adlanan binada qurulur.

Qədim zamanlardan təndir universal səciyyə daşımış,  ondan mağara və kühül evlərindən başlayaraq qaradamlara qədər bir sıra ənənəvi ev tiplərində qızdırıcı vasitə kimi, həm də çörək və digər ərzaq məhsulları bişirmək üçün istifadə olunmuşdur.

Təndirlə bağlı xalqımız arasında çoxlu adət-ənənələr, inamlar yaranmışdır. Təndir xeyir-bərəkət rəmzi olub, təndir yapmaq ən savab iş sayılıb. Ellərimizdə, ixtiyarlar deyəni, bu cavab onun özünə də bəs edərdi, yeddi arxa dönəninə də.



Yuxa çörəyi

Ulularımız təndirə səcdə qılıb, müqəddəs yer ocaq sayılıb. Bu müqəddəslik etibar-ilqar mücəssəməsi sayılıb. Əhdi-peyman bağlayan iki cavan təndirə girir, bir-birini qucaqlayıb öpüşür, gənclər qardaş olacağına and içirlər. Bu izdivaca “təndir qardaşlığı” deyirlər, bu ilqar,

etibar, dostluq, qardaşlıq son günə qədər davam edir. Hər ikisi doğma qardaş kimi bir-birinə arxa, dayaq olur. Bu ilqar süd qardaşı, köynəkdən keçirmə qədər möhkəm, pozulmaz sayılır.

Adət üzrə isti təndirdə başqasına çörək bişirməyə icazə verilir. Lakin çörək bişirmək istəyən təndirin odunu təmizləməli və yenidən təndirə od salmalıdır. El arasında deyildiyi kimi, "Bir ailənin çörəyi başqasının oduna yanmamalıdır".

Təndir yapılan gün həmişə həyət-bacaya sevinc, şadlıq gətirərdi.

Təndirə haram çörək yapmaq günah hesab edilib. Mayası haram çörəyin nə ətri, nə ləzzəti?

Təndirdən təzə çıxmış çörək qədər xoş, iştahaçan ətri və dadı olan başqa bir nemət təsəvvür etmək çətindir. Ona görə də el arasında deyirlər ki, "Təzə çörək çıxdı təndirdən, minnəti yox pendirdən".

Adətdir, təndirə çörək yapanda, isti kəhrəba çörəklər təndirin ətrafına düzüləndə yoldan ötəni mütləq çağırıb təndir başında çörək kəsməyə məcbur edərdilər: "A yoldan ötən, hər kimsənsə təndir üstünə gəlmisən, sənə çörəyin ətri dəyib. Gərək bir tikə çörəyimizi kəsib bizi şad edəsən" deyərdilər. Qohum-qonşuya təzə çörək payı göndərirdilər ki, mehriban olsunlar. Adətən, təndirdən təzə çıxan çörəyi bıçaqla yox, mütləq əllə kəsmək lazımdır.



Lavaş çörəyi

**Sac.** Azərbaycanda ən qədim çörəkbişirmə vasitələrindən biri də sacdır. Əsas etibarıilə oturaq həyat tərzi keçirən əhali üçün səciyyəvi olan sacdan köşmə maldarlıq formasının yaranması şəraitində daha çox istifadə edilmişdir. [22] Sac Eneolit dövründən məlumdur. Ən qədim növləri də daş və gil saclardır. Əsasən daş saclar etnoqrafik axtarışlar zamanı Azərbaycanın dağlıq zonalarında müşahidə edilmişdir. Yastı və münasib quruluşlu saclar çox güman ki, sacların meydana çıxmasına zəmin yaratmışdır.

Azərbaycanın ən qədim gil sacları Naxçıvanda Kültəpə qədim yaşayış yerindən aşkar edilmişdir. [23] Həmin sac parçalarını bərpasından aydın olur ki, o, dairəvi quruluşa malik olub, altında his izləri nəzərə çarpır. Çörək yapılan üz hissə hamarlanmış və yastıdır. Sacım diametri 30-35 sm qalınlığı 5-6 sm-ə qədərdir. Ağdam yaxınlığında Üzərliktəpədən eramızdan əvvəl II minilliyin başlanğıcına aid gil sac tapılmışdır. Həmin sac parçalarının bərpası göstərir ki, onlar quruluş etibarı ilə bir o qədər də böyük olmamışlar.


Xərək çörəyi

Azərbaycanda çörəkbişirmədə gil saclardan orta əsrlərdə də istifadə edilmişdir. XIX-XX əsrin əvvələrində gil sacdan istifadə edilsə də, sonralar bəzi dağ zonlarını çıxmaq şərtilə gil saclar aradan çıxmışdır. Lakin Quba-Xaçmaz zonasında onlara az-az təsadüf olunur. Cənubi Azərbaycan da isə indi də geniş işlədilən gil saclara rast gəlinir.

Etnoqrafik materiallar əsasında gil sacların hazırlanma qaydalarını pərba etmək mümkündür. [24] Bir qayda olaraq yoğrulmuş sarı palçığa əzilmiş saxsı qırıntıları qatılır, sonra palçığın acıması və ya gəlməsi üçün ona xırda doğranmış çayır qatılır. Hər gün qarışdırmaq şərtilə iki və üç həftə saxlayır, üstünü kəndəlaşla örtürlər. Sac hazırlananda çatlamaması üçün ona keçi qılı da qatırlar. Sonra əvvəlcədən xüsusi hazırlanmış yerə kül səpib sacı düzəltməyə başlayırlar. Düzəldilmiş sac bir neçə gü kölgədə saxlanılır, bir qədər quruduqdan sonra onu kərməli ocaqda bişirirlər. Qabarıq gil saclarda tutalqac üçün qulp və ya kərt olur. Gil saclarda çörək bişirmək üçün altına üç ayaqdan ibarət metal sacayağı və ya münasib daş və kərpicdən dayaq qoyulur. [25] Sacı qızdırır və üzərində yemək bişirirlər. Gil sacları tərsinə çevrilib iç tərfində əriştə və buğda, qarğıdalı qovrulurdu.

Dairəvi, bəzən də dördkünc quruluşa malik gil sacların diametri 50-60 sm qalınlığı 3-4 sm-ə qədər olur. Gil sacların maldarlıq şəaritində yaşayan əhali arasınmda geniş yayılması, onun yüngüllüyü, möhkəmliyi və başqa münasib cəhətlərilə bağlıdır.

XVII-XIX əsrdən etibarən gil saclardan başqa çuqun saclardan istifadə edilmişdir. Çuqun saclar quruluş etibarı ilə gil sacları təkrarlasa da, həcmlərinin böyüklüyü ilə fərqlənirlər. Onlarda çörəkbişirmə qaydası da demək olar ki, eynidir. Ancaq çuqun sacların altı çörəkbişirmə zamanı kül qatı ilə suvanır. Örtük çörəyin yanmamasını və yaxşı bişməsini təmin edir. Sacın qızdığını və çörək bişirməyə hazır olduğunu bilmək üçün  üstünə su səprilər: un qızarırsa deməli çörək bişirməyə başlamaq olar.

Sacda çörək  bişirərkən sacayağının üstünə qoyub ocaq qalayırlar. Mingəçevirdən arxeoloji qazıntılardan aşkar edilmiş sacayağı eramızın V-VIII əsrlərinə aid edilir. Sacda bişən nazik yuxanı çevirmək üçün şişdən istifadə edilmişdir.

Çörəkbişirmədə sacayağından hazırda da istifadə edilir. Çörəkbişirmə qaydalarından biri olan fırın haqqından mənbələrdə ötəri məlumat verilir. [26] Lakin onu hələ XVIII-XIX  əsrlərdə geniş istifadə edilməsi heç bir mübahisə doğurmur. Azərbaycanın qərb bölgəsində daha geniş inkişaf tapan fırına bəzən "külfə" deyilir. Belə bir mülahizə var ki, fırın türkdilli xalqlara daha çox məxsusdur. [27] Xatırladaq ki, ərəb mənbələrində də fırın çörək bişirən  mənasını daşıyır. Fırın çörəkbişirmə vasitəsinin yeraltı və yerüstü olmaqla iki növü məlumdur. Fırının ibtidai forması yerlisidir ki, onu yalnız enişli-yoxuşlu yerlərdə yarğan və təpə döşündə  qazıb üst hissəsi maili olmaqla düzəldirlər. [28] Fırının bu formasında yaylaqlarda da istifadə edilirdi.

Bu məişət ləvazimatının inkişaf etmiş forması daş və kərpicdən hörülən yerüstü fırın sayılır. Fırının ortasından odun közərməsini təmin edən dudkeş qoyurlar. Yerüstü fırının daxili diametri təxminən 120 sm-ə qədər olur. [29] Çörək bişirərkən fırının  içərisindəki odu dəmir tutqac vasitəsilə bir yana yığır yaş cındırla silir və kündələri ağac kürəklə bir qaydada yanaşı düzüb, fırının ağzını qapardılar. Çörək hazır olanda onu kürəklə çıxarırlar.

**Gil tava.** Qədim çörəkbişirmə vasitələrindən biri də gil tavadır. Arxeoloji və etnoqrafik materiallardan aydın olur ki, bu çörəkbişirmə vasitələrindən hələ eramızdan əvvəl II əsrdə və eramızın I əsrindən istifadə edilməyə başlamışdır. [30]

Gil tavanın gilinin tərkibi gil sacla eynilik təşkil edir. Gil tava bir qədər gildən düzəldilmiş meyvə qurudan tavanı xatırladır. Bu çörəkbişirmə vasitəsində ən çox yağlı və şirin çörəklər bişirirdilər.

**Kürələr.** Azərbaycanda çörəkbişirmə vasitələrindən biri də müxtəlif quruluşlu kürələrdir. Kürələr çiy və bişmiş kərpicdən quraşdırılır. Döşəməsinə çınqıl daşlar, yaxud qırmızı kərpic düzür, bəzən onların üstünə dəmir lövhə qoyurlar. Bu kürə və yaxud sobaya əsasən Quba-Xaçmaz və Şəki bölgələrində rast gəlinir.

**Səngək kürəsi.** Etnoqrafik materiallardan bəlli olduğu kimi, səngək istehsalı Cənubi Azərbaycanda daha geniş yayılmışdı.

Şimali Azərbaycan şəhərləri arasında səngək istehsalı Gəncə və qismən də Naxçıvanda qeydə alınmışdır. Gəncə şəhərində rast gəlinən bu çərəkbişirmə vasitəsi daha əhəmiyyətlidir, onun çörəyi isə dadlı və keyfiyyətli olur.

Ənənəvi səngək kürəsi çörəkxananın bir tərəfində dairəvi planda qurulmuş künbəzvari dam örtüyünə malik tikilidən ibarətdir. Dairəvi tipli kürdə döşəmənin diamteri 3 m kürsülük adlanan altı hissəsinin hündürlüyü 1 m künbəzin hündürlüyü isə 1, 5 m ölçülərində olur. Gəncədə səngək kürəsi uzunsoz planda eni 3 m uzunluğu 5 m olmaqla çatma tağla örtülmüşdür. Lavaş və somu kürələri ilə eyni quruluşa malik olan bu kürə tipinin sonralar yarandığı güman olunur. Uzunsov tikilişə malik Gəncə səngək kürəsinin fərqləndirici xüsusiyyəti ağızlığının dar olmasından və fərşinə yumru çınqıl döşənməsində ibarətdir.

Səngək kürəsinin hər iki tipi (dairəvi və uzunsov) 1 m hündürlüyündə xüsusi kürsülük üzərində qurulurdu. Kürənin kürsülüyü kərpic və daşla hörülüb qurtaranda sonra içərsini torpaqla doldurlurdu. Beləliklə, kürənin döşəməsi (fərşi) çörəkxananın döşməsindən 1 m hündür olurdu. Kürsülüyün torpağı döyəclənib bərkidildikdən sonra üzərinə bir cərgə istiliyə davamlı kərpic döşənirdi. Kürəni qızdırmaq üçün ağız hissəsinə yaxın bir küncdə “atəşxana” adlanan qövsvari

odluq düzəldilirdi. Çörək bişən yerə yuylmuş xırda daşlar tökürdülər. Kürsülük dözəldikdən sonra kürənin tipindən asılı olaraq üstündə künbəz və ya çatma tağ-tavan qurulurdu. Bişmiş kərpicdən künbəz və ya tağ-tavan tikmək üçün xüsusi kürə ustası tələb olunurdu.

Başqa çörəkbişirmə vasitələrindən fərqli olaraq səngək kürəsində çörəkbişirmə prosesində atəşkeş, ağac dəstəkli süpürgə, kürək, kulufcun, gərməşan və qarmaqdan istifadə edilir. Səngək kürəsində bişirlən çörəklər keyfiyyətli və dadlı olur.

**Kəsdi.** Çörəkbişirmədə istifadə olunan kəsdi öz quruluşuna və istifadə xüsusiyyətinə görə başqa çörəkbişirmə vasitələrindən xeyli fərqlidir. Kəsdi haqqnda məlumat çox azdır. Kəsdinin gili daha qatı olur. Yoğrulmuş gil yayılıb hazmarlanır və qurudulur. Sacdan kiçik olan kəsdinin dariəvi qazan arxasında diametri 40 sm qalınlığı 1-2 sm üstündəki qulpunun hündürlüyü isə 15 sm olur. [31] Kəsdi tək və cüt qulplu olur. Kəsdi qazan qapağını xatırladır.

Kəsdinin üstündə naxışlar olur, bu barədə bayatılarda oxuyuruq.

Mən kəsdiyəm, bəzəkliyəm, incəyəm,
Məndə bişir şirin, dadlı çörəyi. [32]
Kəsdi ocaq üstündə bişirilir.

Çörəyi bişirərkən kəsdi ocağın qırağına üzü oda tərəf söykənir.

**Xərək.** Çörəkbişirmə vasitələrindən bir də xərəkdir. Bu çörəkbişirmə vasitəsinə əsasən Azərbaycanın şimal-şərq bölgəsində rast gəlinir. İnformatorların verdiyi məlumata görə xərək bu bölgədə XVIII ərsdən mövcud olmuş və əhalini məişətində mühüm rol oynamışdır.

Xərəyin düzəldilməsi və quruluşu haqqında məlumat sorğulara əsaslanır. Onun hazırlanması üçn narın qırmızı torpağa kirəmid qırıqları və keçi qəzili qatıb ayaqla yoğururlar. [33]

Kütlə hazır olduqdan sonra dördkünc yayıb yan tərəflərini yuxarı qaldırır və azacıq kənara tərəf qatlayırlar ki, qulp əvəzinə ondan tutmaq mümkün olsun. Xərəyin arxası yuxarı qaldırılmaqla bağlanır. Qabaq tərəfdən isə açıq saxlanır ki, bu da kündəni tavaya oxşayan bir

tərəfi açıq düzbucaqlı xərəyə qoymaq və bişmiş çörəyi ondan götürməyi asanlaşdırır. Xərəyin sağ tərəfi bir qədər az, sol tərfi isə cəmi 5 sm qaldırılır ki, altda hana odun alovu onun üstünə qalxa bilsin.

Xərin üstünə metal və ya gildən hazırlanmış müstəvi lövhə qoyulur. Bu təbəqə metaldan olduqda onu üstünə gil ilə suvaq çəkirlər. Təbəqə gildən olduqdan xərəyin üstünə çarpaz şəkilli iki dəmir çubuğun üstündən qoyulur. Xərəyin hissələri ayrı-ayrı hazırlanır. Xərəyin uzunluğu 60 sm eni 55 sm divarının qalınlığı isə 4-5 sm olur. Xərəkdə üç çeşiddə çörək bişirilir: maya qatılmış xərmidən hazırlanmış və lələklə naxışlanmış çörəklər, yağlı fətir (fəsəli) və sadə çörək.

Azərbaycanda xəmirin yoğrulması və çörəyin bişirilməsi üçün ağacdan müxtəlif əmək alətləri hazırlanır: təknə, tabaq, hövsər, ələk, çörək taxtası və yaxud ayaq, oxlov, vərdənə, urva qabı, qalaq və ya çörək çevirən, qulaqlı fırçın, kürək, xonça, rəfətə, sələ, çörək qabı, ağac dəstəkli süpürgə.

Xəmirin yoğrulmasından istifadə edilən təknələr çox güman ki, hələ tuc dövrünü əvvəllindən mövcud olmuşdur. Çünki metalın meydana gəlməsilə iri gövdəli ağacların kəsilməsi və yonulması işi asanlaşmışdır.

Arxeoloji qazıntılar zamanı Mingəçevir abidələrində orta əsrlərə aid təknələr aşkar edilmişdir. [34] Müxtəlif ölçülü ağac təknələrdən indi də istifadə edilir. Tabaq qab az miqdarda çörək bişirmək və xəmir xörəklərini yoğurmaq üçün istifadə edilirdi. Hövsər taxılı hövsələməklə işlədilirdi. Bəzən təknə, tabaq və hövsərlərə naxışlar vurulmasına da təsadüf edilir. Təknə, tabaq, hövsərlər tut və qoz ağacından düzəldilir.

Ələk unun ələnməsində istifadə edilən əsas alətdir. Ələklərin alı və qaraçı növləri mövcuddur. Ələk hazırlanma peşəsi Azərbaycanda geniş yayılmşdır. Kündələmə prosesində xəmirin kəsilməsi üçün dəmir ərsindən istifadə edilir. Ərsini iki növü vardır: xəmirə ərsini və təndir ərsini. Bunların hər ikisi yastı formada döymə üsulu ilə hazırlanırdı.

Təndir ərsini çörəyi təndirdən çıxarmaq üçündür. Xəmirin kündələnməsi, əsasən dördayağın, qapaq fırçının və yaxud hər hansı bir taxtanın üzərində aparılır. Ağacdan hazırlanan oxlov kündəni dördayağın üstünə yayıb formaya salmaq üçün işlədilir.

Kündə yayılarkən içərisində un olan urva qabından istifadə edilir. Urva qabı dördkünc firmalı kiçik qutunu xatırladır.

Sacda, xərəkdə bişən çörəkləri çevirmək üçün işlədilən qalax ən çox Azərbaycanın şimal-şərq bölgəsində yayılmışdır. Qalax 70-80 sm uzunluğunda fındıq, şam və qarağacda düzəldilir.

Çörək taxtası (dördayaq, yayacaq) ağac materialı və gildən düzəldilir.

Gil yayacağın tərkibi kəsdinin gili ilə eynilik təşkil edir. Azərbaycanda gil dördayaqdan XIX əsrin əvvəllərində geniş istifadə edilmişdir. Gil dördayaqlar (yayacaq) Naxçıvan və Abşeron kəndlərində də çox yayılmışdı.

Qulaqlı fırçın vasitəsilə kündəni formaya salırlar. Fırçın fıstıq, qovaq, qızılağac, şam, küknar ağaclarından düzəldilir. Fırçının ən böyüyün ölçüləri 40x40 sm kiçiyin isə 25x25 sm olur. Rəfətə çörək yapmaq üçün işlədilir. Onun uzunluğu 50-60 sm, eni 30-35 sm olur. Arxa hissəsində əl keçirmək üçün yer saxlayıb, kənarına köbə kimi ağac qoyub onu hörürlər. Üst hissəyə ot qoyub üstünə parça çəkirlər. Bir tərəfi düz olan yastığı xatırladan rəfətə vasitəsilə lavaş və yuxanı yapırlar. Rəfətənin çəpərəsinə çığ deyirlər. Rəfətədən Azərbaycanın Naxçıvan, Lənkəran və Şirvan bölgələrində daha çox istifadə olunur.

Sapı ilə birlikdə tut, qarağac, fıstıq və qoz ağaclarından düzəldilən kürəkdən kündəni fırıya və yaxud kürəyə qoymaq üçün istifadə edilir. Kürənin sapının uzunluğu 1m, kündə götürən hissənin ölçüləri isə 15x25 və ya 20x30 sm olur. Xonça kündə və çörəyin daşınmasında işlədilir.

**Sələ** çörək yığmaq üçün çubuqdan hörülmüş tabağa oxşar qabdır. Sələnin ortasında bünövrə qoyub sonra kənarlara doğru hörməyə başlayırlar. Sələyə yalnız Azərbaycanın Naxçıvan zonasında rast gəlinir. [35]

**Külçəbasandan** çörəyin üzərini naxışlamaq üçün istifadə edilmişdir. Möhür formalı olan külçəbasanların gil və ağac növləri məlumdur. Azərbaycanda külçəbasan arxeoloji qazıntılar zamanı Qazax bölgəsində Sarıtəpə, Şomutəpə və Yastıtəpədə aşkar edilmişdir. Azərbacsnnı qərbində eradan əvvəl II minilliyin və I minilliyin əvvəlində dairəvi formalı gil külçəbasan daha çox yayılmışdır. [36]

Etnoqrafik səfərlər zamanı toplanan materiallardan da məlum olmuşdur ki, Ağdaş, Qəbələ, Oğuz, Şəki, Qax, Quba, Dəvəçi, Xaçmaz rayonlarında müxtəlif naxışlı ağac və gil külçəbasanlar müasir dövrdə də mövcuddur.

Ununələnməsi və xəmirin yoğrulması çörəkbişirmədə əsas işlərdir. Un təknəyə ələk vasitəsilə ələnir. Un ələndikdən sonra üstünə ılıq suda həll edilmiş maya, su və duz töküb yoğururlar.

Yoğrulma prosesi o vaxta qədər davam etdirilir ki, xəmir ələ və qaba yapışmasın. Xəmir yoğrulub qurtardıqdan sonra üstünü süfrə ilə örtür və yastıq, yaxud un və digər qalın əşya ilə basdırırdılar ki, isti qalsın. Xəmir acıdıqdan sonra onu kündələyib süfrənin üstünə düzürlər. Çörəyin yaxşı çıxması, hər şeydən əvvəl xəmirin yoğrulmasından asılıdır. Xəmir yağı yoğrulduqda çörək yumşaq, keyfiyyətli, dadlı olur. Mayanın (acıtma, xəmir, valata) tutulması:

Maya demək olar ki, çörəklərin çoxusunun xəmirinə vurulur. Maya olmadıqda isə müxtəlif üsullardan istifadə olunurdu. Maya düzəltməyin və ondan istifadə etməyin qədim tarixi vardır. Acıtma (maya) turşumuş qatığa, yaxud ayrana 300 qr. un qatıb 2-3 gün isti yerdə saxlamaqla hazırlanır. Maya hazırlanmasının digər üsulu maya otundan istifadədir. Bu məqsədlə Azərbaycanın dağlıq hissəsində, çay kənarlarında bitən tut fasiləsinə aid cinsli maya sarmaşığından istifadə edilir ki, el arasında ona mayaotu deyirlər. Növbəti xəmir yoğrulduqda xəmirəni suda həll edib, horra halında xəmirə qatırlar. Maya olmadıqda isə boyat çörək, turş ayran və alça turşusunun suyundan istifadə etməklə də xəmir yoğururlar. Xəmirin acıdılması təxminən yarım saat çəkir. Xəmiri həddindən artıq acıtmaq olmazdı. Usta qadınları xəmirin qıcqırtma dərəcəsini çörəyin üzündə əmələ gələn qabarcıqların sayı və böyük-kiçikliyi ilə dəqiq müəyyən edirlər.

Azərbaycanda çörəyin xalq arasında əppək adlanan kömbə, lavaş, yuxa, fətir, səngək çörəyi, cad, qoğal və bozlamac kimi müxtəlif növləri məlumdur. [37]

Azərbaycan üçün səciyyəvi olan çörəyin bu növlərindən əlavə hər bir bölgənin özünəməxsus çörəyi vardır. Həmin çörək növləri bişirilmə vasitələri, üsulları və bişirdikləri taxılın növündən asılı olaraq bir-birindən fərqlənir.

Çörəyin növlərinin hansı çörəkbişirmə vasitələrində və hansı taxıl növündə, acıtmalı və ya acıtmasız xəmirdən bişirilməsinə görə aşağıdakı təsnifatı vermək olar:

Ocaq yerində mayasız xəmirdən biçirilən çörəklər: "küllü kömbə" və "dəyirman kömbə"si.

Küllü kömbəni bişirərkən ocaq yerini təmizləyir, xəmiri qəlibdə oraya qoyur, üstünə isti kül və qor tökülür. Dəyirman kömbəsi də eyni üsulla bişirilir.

Mayalı və mayasız xəmirdən sacda bişirilən çörəklər: lavaş, yuxa, fətir. Bu çörək növlərini bişirərkən kündəni yayır və saca yapırlar. Çörək bişdikcə dəmir şiş və ağac oxlovla çevrirlər. Fətir bişikdə isə onu üstünü oxlovla deşikləyirlər.

Sacda bişirilən acıtmalı və yaxud xamralı çörəklərdən biri də bozlamacdır. Bu çörək növünü fırçın və yaxud taxta qabaq üzərində əllə yastılayıb sacın üstündə bişirirlər.

Bu çörəklərdən başqa sacda fəsəli (yağlı fətir) də bişirilir. Fəsəlini bişirərkən lavaşları yayıb üstünü yağlayırlar bu minvalla üst-üstə 4-5 layı yayıb sonra onu dilim-dilim kəsib kündələyir, yenidən yayıb üstünü oxlovla deşikləyib sacın üstünə salırlar. Hər iki üzü bişdikdən sonra götürürlər. Sacarası (kömbə) bişirmək üçün isə yastılanmış xəmiri sacın içinə qoyub, üstünə başqa bir sac çevirdikdən sonra üzərinə qor və od yığar. Alt sacın qızması üçün altında zəif od qalanır. Bu çörək növünün xəmiri, şəkər və yağ əlavə olunmaqla, südlə yoğrulur, üzünə yumurta və zəfəran çəkilir. Sacda qutab (kətə) də bişirilir.

Qutabın müxtəlif növləri mövcuddur: göy qutabı, ət qutabı, ciyər qutabı, qarın qutabı, balqabaq qutabı.

Lavaş, bozlamac və s. təndir və kürələrdə qıcqırdılmış xəmirdən bişirilir. Təndir çörəyini ətri və dadı unun növündən, ələnməsindən, xəmirin yoğrulmasından asılıdır. Təndirdə çörək bişirmək mürəkkəb və ağır işdir.

Təndirdə lavaş bişirərkən xəmirini yoğurub kündələyir, sonra yayıb rəfətə vasitəsilə təndirə yapılır. Bişmiş lavaşı təndir ərsini vasitəsilə çıxarırlar. Təndirdə bozlamac bişirərkən qola qolçaq geyilir, əl ilə kündəni yayıb lazımi formaya salır, üzünə xaş-xaş və ya küncüt,

qara çörək, ayran, yumurta və qatıq vuraraq təndirə yapırlar. Çörəyin yanmasını qarşısını almaq üçün bəzən onun üzünə təmiz su çilənir. Bişmiş çörəkləri çıxarıb təmiz süfrə üstünə sərirlər. Təndirdə bişən çörəklərə formasına görə Naxçıvan bölgəsində müxtəlif adlar "çırppa", "nazik", "qalın", "tapı", Lənkəran bölgəsində isə "təndir çörəyi", "pəncəkeş", "zeyrən çörəyi" və s. deyilir. Azərbaycanın şimal-şərq bölgəsində isə təndirdə bu çörək növlərindən başqa "pəncəkeş", "yağlı çörək", "cır çörək" (mayasız olduğuna görə cır çörək deyilir) , "bəyim çörəyi", "badam çörəyi" və s. şirin çörəklər bişirilir. Onun üzünə küncüt və ya xaş-xaş vurulur.

Səngək kürəsində isə yalnız bir çörək növü bişirilir. Səngək çörəyini kürənin içərsində olan xırda daşlsrınn üstünə yapıb bişirirlər. Bu çörəyin üstünə küncüt və ya xaş-xaş, qatıq vururlar. Fırında "qalın" və "nazik" olmaqla iki növ çörək bişirilir. Bu çörəklərin hər ikisini xəmirinə maya qatılır, üzərin rəis qatıq, yumurta və zəfəran vurulur. Kündələr fırının içərisinə düzülmüş kərpiclərin üstünə kürək vastisilə qoyulur.

Xərəkdə çörk bişirərkən kündəni yayır, lələk və yaxud nazik çubuqla deşdəkləyirlər. Sonra yayılmış kündəni böyük firçınla xərəyə qoyurlar. Bu, sacda bişən fətirdən nisbətən qalın, təndir çörəyindən isə nazik olduğuna görə təndir çörəyi ilə fitr arasında keçid təşkil edir.

Xərəkdə çörək azacıq qızardıqdan sonra üzünün yanmaması üçün su vururlar. Vaxtaşırı çörəyi xərəkdə fırlamaq lazımdır. Xərək çörəyi Azərbacanın şimal-şərq bölgəsi üçün səciyyəvidir. Bu bölgədə istifadə edilən kəsdi çörəkbişirimə vasitəsində isə yalnız bozlamac çörək növü bişirilir.

Çörəkbişirmədə xəmirin yoğrulması, mayanın hazırlanması, unun ələnməsi, işirilməsi, çörəyin növləri və s. haqqında məlumatlar geniş formada öz əksini tapmışdır.

**Çörəklə bağlı adət-ənənələr:** çörəklə bağl bir sıra adət-ənənlər mövcuddur. İnsan öz yaşayışına görə çörəyə borcludur. Çörək bəşər övladı üçün əvəzsiz qida mənbəyidir.

Azərbaycan xalqı tarixə əkinçi xalq, çörəkli xalq, ürəkli xalq, qonaqpərvər xalq kimi daxil olmuş, çörəklə inkişafa, tərəqqiyə çatmışdır. Ulularımız ruzini qabarlı əlləri, alın əti ilə qazanmışlar. El

arasında “Çörək əkəndə qazanıblar”, “İstəyirsən bol çörək, al əlinə bel-kürək”, “Kəl qoşub, cüt sürməyən, çörəyin qədrini bilməz.”, “tarlada izi olmayanın, süfrədə üzü olmaz”, “ çörəyin bolluğu xırmanda bilinər” kimi hikmətli deyimlər mövcuddur.

Ulularımız dolanacaqlarının əsası olan torpağa böyük qayğı ilə yanaşmış, dərin ehtiram gösətrmiş, onu göz bəbəyi kimi qorumuşlar. Torpaq da öz növbəsində “gözlə məni, gözləyim səni”, “doydur məni, doydurum səni”, “öldür məni, dirildim səni” hikməti ilə cavab vermişdir.

Çörək təkcə ruzi deyil, daha geniş məhfumdu., dərinn məna və məzmunu ilə seçilən mətləbdir. İnsanın həyatı üçün ən əziz və əvəzsiz olan çörək heç nə ilə əvəz edilməyən, heç nə ilə müqayisəyə gəlməyən nemətdir. Ulularımız “süfrələrin şahı çörək”, “el basılar, çörək basılmaz”, “hər şeydən keçilər, çörəkdən keçilməz”, “övlad atılar, çörək atılmaz” kəlamlarını söyləmişlər.

Çörək gücünü torpaqdan alır, torpaq qədir-qiyməti çörəkdə tapır. Çörək torpağa borclu, torpaq çörəyə minnətdardır. Ona görə də müqəddəs andımızda “çörək haqqı”, “torpaq haqqı”, deyirik, onları qoşalaşdırıq, eyniləşdiririk, çörək ətri torpaq ətridir. Torpaq-Vətəndi. Torpağını qoruyan Vətənini, çörəyini qoruyur. S.Vurğun demişkən, “çörək bol olarsa, basılmaz Vətən”. Bu yolda şəhid olanlar şərəfə çatır, şöhrət qazanır. Bəli, çörək də müqqədəsdir, torpaq da müqəddəsdir, ana da müqəddəsdir, Vətən də müqəddəs. Körpə dünyaya gələndə ana döşündən süd əmir, ana əlindən çörək alır. İlk dəfə dil açanda da məmə deyir, pəpə deyir. Ana südü ilə ana çörəyinin adını qoşa çəkir.

Çörək dindir, bərəkətdir, baş ucalığı, könül xoşluğudur. Daimi insanlığa gərəkdi çörək, sevinən-döyünən ürəkdi çörək. Çörək gözlərə nurdu, yaralara məlhəmdi, arzular kamıdır. Çörək sağlamlıq, gümrahlıq, toxtaxlıq mənbəyidir. Çörək güc, qüvvət, qələbə, tənətəndir. Çörək boluq, firvanlıq rəmzidir, saf duğular, xoş diləklər aynasıdır. Babalarımız demişkən “Dövlətin varı çörəkdir”, “Xalq varı çörəkdə tapar”, “Qılınc kəsməyəni çörək kəsir”, “Bir tikə çörək dağ aşırar”, “Çörək kəsməyəni qılınc da kəsməz”, “Çörək itirəni, çörək tutar”.

Çörək bol olanda torpaq şərəfli, Vətən şöhrətli olar. Çörəkli elin sorağı dünyanı gəzər ürəkli adam ürəkli olar. Xalqın ürəyi geniş, ocağı

qohulu-əqrəbalı, qonaqlı-qaralı olur. Çörəksiz ocaq tez keçər, yananda da tüstüsü göz çıxarar,  ətrafı min ah-vaylı olar. Çörəksizin boynu buruq, əli qoynunda olar. Çörəksizlik zülümdü, diri gözlü ölümdü.

Müdriklərimizin elinə-obasına təmiz ad, saf məhəbbət, aşıq süfrə, halal çörk diləyiblər, halallığı, düzlüyü, yenilməzliyi, haqqı, ədaləti, inamı çörəkdə təsdiqləyiblər. “Abır harda ,çörək orda”, “Duz çörək, düz çörək” deyiblər. Çörəyə həqiqət rəmzi, hallalıq zirvəsi kimi baxıblar.

Dava-şavanı yatırtmaq, qabı-qırğını su ilə yumaq, əmin-amanlıq yaratmaq üçün əllərini çörəyə basıb, çörəyə and içiblər, “çörək haqqı”, “ruzi haqqı” deyiblər, öpüb gözlərini üstünə qoyublar. Ata-babalarımız  “bir dəfə çörək yediyin yerə min fədə baş əy”, “çörək çörəyə borcludur”,  “isti çörəkdən günəş də par umar, su da”- deməklə həm nəsihət vermiş,  həm də çörəyi ilahi bir qüvvə, sirli sehirli bir aləm sayaraq onu günəş qədər təmiz, hərarətli, ay qədər aydın, cazibəli görüblər.

Xalqımız çörəyin qədir-qiymətini əziz tutub, “bir tikənni qədrini bilməyən, min tikənin qədrini bilməz” inamı ilə dövran sürüb, arzu-kama çatıb. Qənaətçilik, hər şeydən əvvəl, çörəyə ola hörmət və dərin ehtiramdan başlanıb. İsrafçılıq çörəyə qarşı nanikorluqdan doğur.

Təzə buğda, tər buğda,
Xırman üstə sər buğda
Ruzidir, bərəkətdir,
Yerə düşən hər buğda.

Ona görə də çörəyin qədrini bilənlər yerə düşən bir tikə çörəyin qarşısında diz çökür, onu yerdən götürüb öpür, gözünün üstünə qoyur, ürəyini başında gəzdirir.

Nizami Gəncəvi yazmışdır:

Qoy dünyada qalsın dünyalıq nemət
Bir parça çörəyə eylə qənimət.

Çörəyə israfçılq edənlər, onun qədrini bilməyənlər xalq arasında nifrətə, tənəyə səbəb olurlar. Belə adamlar barəsində el arasında deyilir ki, "çörək itirən, çörək tapmaz", "çörəyi itirən, haqqı itirər", çörək gözünü tutar, "Çörəyi dininin üstündə olanın imanı olmaz", "Çörək kəssin eldə Çörək itirəni", "Çörək tutar, elə töhmət gətirəni", "Çörək qədrini bilməyəni çörək tutsun", "Çörək tutsun el yolunu bilməyəni".

Xalq arasında çörəklə əlaqədar olan inamlar ibrətamizliklərlə doludur. Bu inamlar xalqın əsrlər boyu qazandığı sınmalar nəticəsində meydana çıxmışdır. Xalqın əqidəsində kündənin əldən düşməsi, xəmir tikəsinin sıçraması atlı qonağın gəlməsinin əlamətini bildirir. Guya təndirdə çörək yapılanda kündələrin qırağı bir-birinin üzərinə düşərsə onda qadının üstünə günü gələr. Bəzi bölgələrdə təndirə çörək yapmazdan əvvəl ocağa bir çimdik duz atılır ki, ocağa bədnəzər dəyməsin, evin bərəkəti qorunsun.

Evin çörəyi, evin dirəyidir. Ona görə də həmişə evə çörək qazanan, onun başçısı olan kişiyə ailədə dərin hörmət bəslənir. Əgər ev sahibi ölərsə, onu sinəsini üstünə çörək qoyurlar ki, nəfsi evdən çəkilsin və gözü doysun, əks təqdirdə ev sahibi evin bərəkətini özü ilə o dünyaya aparar. Xalq arasında o da yayılıb ki, ailə təzə evə köçəndə əvvəlcə çörək, sonra çam və çıraq aparmalıdır ki, ev bərəkətli və işıqlı olsun. Qadın sacda bişirdiyi birinci fətri, yuxa və xamralını ərinə verməzdi. Əqidəyə görə onda övlad ölə bilər, ilk çörəyi də uaşaa verməzdilər, çovğun-borna olar və leysan yağış yağar. Bişən birinci çörəyi ya dilənçiyə yada toyuq-cücəyə verərdilər. İnama görə, əgər yoldan keçib gedən təzə bişən çörək ətri hiss edərsə, ona mütləq çörək təklif edilməlidir. Əks təqdirdə evin dini-bərkəti qaçar.

Bir qayda olaraq, çörəyə and içmək üstün tutulur. Quranı çörəyin üstünə yox, çörəyi quranın üstünə qoyarlar. Əgər xəstə adamın yastığını altına qoymaq üçün quran tapılmazsa, onu çörəkqoyma əvəz edirdi. Keçmişdə körpə yüyürükdə yatarkən başının altına çörək qoyardılar ki, pis ruhlar, cin və şeytanlar çörək olan yerə gələ bilməz və uşaq bəd nəzərdən qorunar. Şər qarışanda ələk aparıb-gətirəndə mütləq içinə pay qoyulmalıdır ki, evin bərəkəti getməsin. Evin bərəkəti getməsin deyə xəmirdən maya verməzlər. Çörəklə əlaqədar adət-

ənənələr xalqımızın çörəyə hörmət və məhəbbətini yüksək səviyyədə olduğunu bir daha sübut edir.



# NƏQLİYYAT VASİTƏLƏRİ VƏ YOLLAR



## NƏQLİYYAT VASİTƏLƏRİ

Bəşər tarixində ən vacib kəşflərdən biri olan nəqliyyat vasitələri ictimai istehsalın müəyən vasitəsi kimi özünün göstərməklə, çox böyük əməli və xalq təsərrüfatı əhəmiyyəti kəsb edir. Nəqliyyat vasitələri eləcə də onların hərəkəti üçün vacib yolların olması ayrı-ayrı tarixi dövrlərdə hər bir xalqın maddi mədəniyyətinin inkişaf səviyyəsini göstərən mühüm amildir. Nəqliyyat vasitələri ilə istehsal alətlərinin, əmək məhsullarının və insanların yerdəyişməsi həyata keçirilir.

Nəqliyyat vasitələri hər hansı bir ərazinin təbii-coğrafi şəraitindən, onun relyef quruluşunun xarakterindən asılı olaraq yaranmışdır. Azərbaycan ərazisində geniş düzənliklər, bol sulu çaylar, keçilməz dağ aşırımları və s. çox olduğundan, yerli əhali bu və ya digər nəqliyyat vasitəsindən istifadə etmişdir. Bununla yanaşı, məhsuldar qüvvələrin inkişafı, xalqın ictimai-iqtisadi və mədəni-texniki inkişaf səviyyəsi, iqtisadi ehtiyacları da müxtəlif növ nəqliyyat vasitələrinin yaranması və təkmilləşməsində böyük rola malik olmuşdur.

Nəqliyyat vasitələri bəşər cəmiyyətinin ilk dövrlərində meydana gəlmiş, sonralar xüsusi mülkiyyətə və əmtəə istehsalının yaranması dövründə madii istehsalın ayrıca bir sahəsi kimi formalaşmışdır.

Toplanmış etnoqrafik çöl materialları, yazılı mənbə və tədqiqatları nəzərə alaraq Azərbaycanda nəqliyyat vasitələrinin sadə yük nəqliyyatı, minik-yük nəqliyyatı, qoşqu nəqliyyatı və su nəqliyyatı vasitələrindən ibarət olduğunu söyləyə bilərik.


Xərək

**Sadə yük nəqliyyatı.** Sadə yük daşıma vasitələri nəqliyyatın ən qədimi hesab olunur. Piyada nəqliyyat növü insan qüvvəsi ilə müxtəlif adlı və təyinatlı məişət yüklərinin yerləşdirilməsi ilə səciyyələnir. Buna görə də insanın özünün ən qədim nəqliyyat vasitəsi hesab edilməsi [1] heç də təsadüfü deyildir. Çox qədimlərdən insanlar əldə etdikləri məhsulları, zəruri məişət əşyalarını vəs. qucaqda,

əldə, beldə, başda, çiyində daşımışlar. Zaman keçdikcə yükün ağırlığını bərabər bölüşdürmək, onu uzaq məsafələrə daha rahat daşımaq üçün müxtəlif vasitələrdən istifadə zəruri ehtiyaca çevrilmişdir. Sadə yük nəqliyyatının ən bəsit forması iki nəfərin qüvvəsi ilə hərəkətə gətirilən **xərək** olmuşdur. Xərəyi düzəltmək üçün 1,8-2 m. Uzunluğunda paralel qoyulmuş ağacın arasına "törpü" adlanan xırda ağacları 30-40 sm. aralı ip və ya sıyrıq vasitəsi ilə bərkidir üzərinə yük yığaraq daşıyırlar. Belə xərəklərin xeyli təkmiləşdirilmiş formasından Azərbaycanda indi də istifadə edilir.

Keçmişdə əhali istifadə etdiyi əkinçilik, heyvandarlıq və ev peşəsi məhsullarının bir qismini digər zəruri məişət avadanlıqlarına dəyişmək və ya satmaq üçün adətən, həftəbazarına çıxarırdı. Əldə daşınan belə yekləri **bağlama** vasitəsilə uzaq məsafələrə aparmaq mümkün idi. Bunun üçün onları 1, 5x1 ölçüdə parçanın arasına qoyur, parçanı diaqonal üzrə "qulaqlarını" çəkərək bir-birinə bağlayır və əllərinə götürürdülər. İçərisinə heyvandarlıq məhsulları yığılmş motal, dağarcıq, eymə, tuluq, qarın, cılğı və s. yükləri daşımaq üçün bu qayda ilə bağlama etmək və belə sarımaq daha sərfəli idi.



Əldə

Belə yük daşıması formasını digər bir növü **şələ** idi. Şələ



Başda yükdaşıma

vasitəsilə odun, ot, dərz, təndir üçün çörpə və s. daşıyırdılar. Şələni düzəltmək üçün müəyyən yükü üstü-üstə yığıb bir neçə yerindən

ilgəkili və ya doğnaqlı irəşmə, çatı vasitəsilə sarıyır, sonra bellərinə qaldırırdılar.

Xalqın empirik biliklərinin nəticəsi olaraq meydana çıxan müxtəlif ölçülü **səbət, heybə və xurcun** uzaq məsaflərə yük daşımaq üçün rahat idi. Bəzən yol azuqəsini **boyun torbası** (çanta), digər məişət yüklərini **çiyin ağacı** (düşəli) vasitəsilə də daşıyırdılar. Lənkəran-Astara bölgəsi əhalisi başda yük daşımağa üstünlük verirdi. Bunun üçün başa əvvəlcə yaylıq və ya xüsusi sarıqdan düzəldilən dairəvi “biçənə” qoyur, üstünə yükü yerləşdirirlər.

İnsan qüvvəsi ilə hərəkətə gətirilən ən qədim yükdaşıma qaydalarında biri **əl sürütməsidir**. Azərbaycanın dağlıq, dağətəyi, meşəkənarı kəndlərində bu bəsit nəqliyyat növü daha çox yayılmışdı. Əl sürütməsini düzəltmək üçün nisbətən iri ağac budaqlarının kiçik şaxlarını kəsərək bir yerə yığıb şəl bağlayır, üzərinə ot, odun, kol, dərz, saman və s. qoyaraq əllə sürüyürdülər. Zaman keçdikcə daşınan yüklərin çoxluğu və ağırlığı nəzərə alınmaqla, əl sürütməsi qoşqu heyvanları vasitəsilə sürütmə ilə əvəz olunmuşdur.



Şələ

**Minik və yük nəqliyyatı**. Əsrlər boyu Azərbaycanda əsas nəqliyyat vasitəsi minik və yük heyvanları olmuşdur. Nəqliyyatın bu qədim növü dağlıq və dağətəyi bölgələrdə son zamanlara qədər öz əhəmiyyətini itirməmişdir. Kəndlərə arasında əlaqəni təmin etmək, zəruri məişət və təsərrüfat yükləri daşımaq, yaxın bazarlarda satmaq və ya və ya dəyişmək üçün məhsul çıxarmaq, aramsız köç yolları boyunca sürüləri müşayiət etmək ölkənin ipək, duz, neft və s. xammalını beynəlxalq ticarətə tanıtmaq, ümumiyyətlə müxtəlif səpkili əlaqələr yaratmaq üçün xalq minik-yük nəqliyyatından geniş istifadə etmişdir.

Minilliklər boyu öz dövrünün ən sürətli və ən rahat minik nəqliyyatı vasitəsi **at** olmuşdur.

Bəzi tədqiqatçılar atdan nəqliyyatda istifadə edilməsini e.ə. IV minilliyin axırlarına, [2] yük və qoşqu heyvanı kimi istifadə olunmasını isə e.ə. III minilliyin sonu- II minilliyin əvvəllərinə aid edirlər. [3]


Minik atı

Atın əhilləşdirildiyi ən qədim bölgələrdən biri də Cənubi Qafqaz olmuşdur. Azərbaycanda atdan minik vasitəsi kimi istifadə edilməsini e.ə.II, xüsusilə I minilliyə aid edilən arxeoloji qazıntılar: at sümükləri, qoşqu ləvazimatları və at bəzkləri də təsdiq edir. [4] Eramızın ilk əsrlərində Azərbaycanda atı, əsaəsən minik vasitəsi kimi saxladıqlarından, [5] məhz bu vaxtdan atçılıq daha güclü inkişafa başlamışdır. [6]

İlk sinifli cəmiyyət yarandıqdan sonar atdan hərbi məqsədlər üçün istifadə olunmuşdur. Aşşur və Urartu mixi yazılarında bu haqda məlumatlara rast gəlinir. Azərbaycanın qədim dövlətlərindən biri olan Atropatena 40 min piyada və 10 min süvari qoşun çıxarmağa qadir olmuşdur. IX əsrin əvvəllərində isə ərəb xilafətinə qarşı müharibədə Babəkin işğlaçılığı ilə 20 minədək atlı iştirak etmişdir.

İnkişaf etmiş orta əsrlərdən başlayaraq kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafı Azərbaycanda minik və yük nəqliyyatına ehtiyacı daha da artırmışdı. Rusiya, İran, Hindistan, Türkiyə, İtaliya və başqa ölkələrə neft, duz, ipək ixracı genişlənmişdi. Ən vacib karvan yolları Azərbaycandan keçdiyinə görə buraya çoxlu tacirlər gəlirdilər. XVII əsrdə Azərbaycanda olan ingilis taciri A. Cenkinson qeyd edirdi ki, təkcə osmanlılar hər dəfə buradan 400-500 at yükü ipək aparırdılar. [7] Holland dənizçisi Yan Streys yazırdı ki, Dərbəndlə Şamaxı arasında hərəkət edən karvanın tərkibində 1800 at, xeyli dəvə, ulaq və başqa yük heyvanları var idi. [8]

XIX-XX əsrin əvvəllərində Azərbaycanda atdan istifadə


Yəhər dəsti

edilməsi daha da mütəşşəkil olmuşdur. Bu dövrdə Azərbaycanda Qarabağ, Qazax, Şirvan və Quba atları məşhur idi.

Atdan minik vasitəsi kimi istifadə etdikdə onu yəhərləyirdilər. Tədqiqatlar göstərir ki, ilk vaxtlar atı yəhərsiz və yüyənsiz minmiş, yüyən əvəzinə buruntaq işlətmişlər. Tunc və dəmir yüyənlərin meydana gəlməsi eradan əvvəl I minillyin əvvəllərinə aid edilir. Belə güman olunur ki, eradan əvvəl II minillyin axırlarında atları yəhərləməyə başalmışlar. Yəhər aşşurlara, iskitlərə, midiyallara və farslara məlum olmuşdur. İlk dəfə istifadə olunan yəhərlər yumşaq dəri döşəkcədən ibarət olmuş, sonralar onu ağac qaltaqla yəhərlər əvəz etmişdir. Ağac qaltaqlı yəhərin və üzəngənin meydana gəlməsi nəqliyyatda və hərbi işdə irəliyə doğru mühüm addım olmuşdur. Belə bir ehtimal var ki, ağac qaltaqlı yəhərlər Qafqaz Albaniyasının əyanları arasında geniş yayılmışdır. [9] Belə yəhərlər eramızın ilk əsrlərində mövcud olmuş, iki mərhələdə yayılmışdır: IV-VI əsrlərdə bəsit olduğu üçün onlar yerli-lokal əhəmiyyət kəsb etmiş, VII-VIII əsrlərdə isə təkmilləşərək geniş yayılmışdır. Beləliklə, maili qaşa malik yəhərlər artıq 1400 ildir ki, istifadə olunur.

Azərbaycanda minik yəhərlərinin bir neçə növü qeydə alınmışdır: müsəlman yəhəri, çərkəzi yəhər,


Atla yükdaşıma

ingilis yəhəri və s. Xüsusi formalı qaşa malik olan yerli minik yəhərinin qaltağı xeyli ağır, yastığı isə girdə və nisbətən qalın olurdu. Yerli minik yəhərləri "bazarı" və "buyurtma" olmaqla iki formada düzəldilirdi. Keçmişdə qadınlar üçün xüsusi formalı yəhərlərdə hazırlayırdılar. Kiçik yəhərindən fərqli olaraq oun arxa hissəsi enli, qabaq qaşı isə nisbətən dar olurdu.

Etnoqrafik materiallardan aydın olur ki, Azərbaycanda atdan yükdaşıma vasitəsi kimi istifadə etmişlər. Yük atı əmtəə xarakteri məhsulların reallaşdırılmasında mühü rol oynamışdır. Belə ki, aran kəndlərin əkinçilik və bağçılıq məhsullarını, dağ kəndlərinin ağacdan düzəldilmiş məişət avadanlıqlarını, heyvandarlıq məhsullarını, sənətkarlıq əşyalarını satış bazarlarına çıxarmaq və ya kəndbəkənd gəzdirmək üçün yük atı ən sərfəli nəqliyyat vasitəsi idi. At, həmçinin bir çox təsərrüfat işlərinin (ot, odun, dərz daşımaq, dəyirmana dən aparmaq) icrasında əvəzsiz idi.

Yük daşımaq üçün istifadə olunan atın belə yek yəhəri –**palan və navar** qoyulurdu. Keçimşdə plana düzəltməklə məşğul olan səriştəli palanduzlar var idi. Palanı, həmçinin, hər kəs özü də hazırlaya bilirdi. Bunun üçün bir neçə qat köhnə palaz və ya keçəni bir-birini üstünə qoyub lazımi ölçüdə biçdikdən sonra onun üzərinə cərgə ilə qalın "palan sırığı" vururdular.

Palandan fərqli olaraq, navar (Qərb bölgəsində navara "qom" da



Öküzlə yükdaşıma

deyilir) içərisinə lığ, kövşən doldurulmuş keçə və qaba şal kisədən düzəldilirdi. Kənarlarını tikəndən sonra onun içini doldurur və ortasından iki qatlayırdılar. Navarın qabaq tərəfi nisbətən qalın və hündür, dal qurtaracağı isə naik olub, qayışla və ya örkən şəklində hörülmüş quşqunla tamamlanırdı. Yük atını yəhərləmək üçün onun belinə tərlik qoyub üstünə navar

vururdular. Sonra bunun da üstünə çul salır, atın belini tapqırla çəkirdilər.

Keçmişdə minik-yük nəqliyyatı vasuitəsi kimi iribuynuzlu heyvanlardan (kəl, öküz, zebu) da geniş istifadə edilmişdir. Hələ qədim zamanlardan iribuynuzlu mal-qara qoşqu qüvvəsi kimi əkinçilərin həyatına mühüm rol oynamışdır. Qafqazda və Ön Asiyada əsas iş heyvanı hesab edilən öküz və kəllər maldar tayfalar və əkinçilər tərəfindən yüksək qiymətləndirilmiş və nəhayət, sitayiş obyektlərindən birinə çevrilmişdir. [10] Qədim Mingəçevirdən tapılan heyvan fiqurunun təsdiqi göstərir ki, e.ə. I minillikdə öküzlərdən yük heyvanı kimi istifadə etmişlər. [11]

Sonrakı dövrlərdə də, hətta XIX əsrin 30-40- cı illərinə qədər iribuynuzlu heyvanlardan yük və qoşqu qüvvəsi kimi istifadə edildiyini müxtəlif yazılı və etnoqrafik məlumatlar təsdiq edir.

İribuynuzlu heyvanlardan yükdaşıma vasitəsi kimi köçmə maldarlıq məşğul olan əhali daha çox istifadə edirdi. Xüsusilə arandan yaylaqa doğru uzanan köç yollarında ev müxəlləfatı və barxana doldurulmuş məfrəşləri iribuynuzlu heyvanlara yükləyir, qadın və uşaqları da onun üstünə mindirirdilər.



Dəvə karvanı

İctmai-iqtisadi və siyasi vəziyyətlə əlaqdar iribuynuzlu heyvanlardan yük daşımaq məqsədilə təkcə kəndli təsərrüfatlarında deyil, hərbi hissələrdə də istifadə olunmuşdur. XIX əsrin əvvəllərinə aid məlumatda deyilir ki, ordu üçün lazım olan yükü Qori, Tiflis və oradan Yelizavetpola (Gəncə) aparmaq üçün Qazax əhalisindən 100 baş, Borçalı və Dəmirçilərin isə 600 baş öküz toplanmışdır. Onların 400 başını arabaya qoşmuş, qalanın isə yükləmişlər. [12]

Lerik, Naxçıvan, Kəlbəcər rayonlarından toplanmış etnoqrafik materiallar göstərir ki, iribuynuzlu heyvanlardan bəzən minik vasitəsi kimi də istifadə edilmişdir. Bu hal Azərbaycanın  digər bölgələri üçün xarakterik olmamışdır. Çünki öküz və kəllə əhalinin əsas gəlir mənbəyi olduğundan, bu heyvanlardan minik vasitəsi kimi istifadə edilməsi günah hesab edilirdi.

İribuynuzlu heyvanları yükləməmişdən qabaq onların belinə **alıq** qoyulurdu. Alıq  **keyvənd və çuldan** ibarət idi. Keyvəndi hanada toxunmuş ensiz palazdan düzəldir, içinə küləş, yun və s. doldururdular. Öküzün belini əzməsin deyə keyvnəd , **“xurcuntayı**” formasında düzəldilirdi.

Öküz çulu çalaya oxşar iki hissədən ibarət olub, bir tərəfində bəzək məqsədilə saçaqlar düzəldilirdi. Sonra həmin hissələrə çuva iynəsi (çuvaldız) ilə bir-birinə  tikilir, saçaqlı tərəfi arxada olmaqla öküzün belinə örtülürdü. Öküz çullandıqdan sonra hazırlanmış  yüklər bir-birini belinə çatılaraq  onun belinə aşırılır,  bir neçə yerindən sarınıb möhkəmləndirilirdi.

Azərbaycanda minik və yük heyvanlarından biri də **dəvə** olmuşdur. Cənubi Qafqazda dəvədən istifadə edilməklə e. ə. II minilliyin ikinci yarsına aid edilir. [13] 1896-cı ildə A.A. İvanovskinin Qarabulaq kəndində apardığı arxeoloji tədqiqatlar nəticəsində aydın olmuşdur ki, eradan əvvəl  I minilliyinn əvvəllərində  Azərbaycanda dəvədən  minik vasitəsi  kimi istifadə edilmişdir. [14]



Xizək

Eramızın I-III ərslərinə aid edilən materiallar  göstərrir ki, Xəzərədə tutulan balığı və başqa malları üzaq ölkələrə aparmaq üçün dəvə əsas nəqliyyat vasitəsi olmuşdur.

İstər orta əsrlərdə istərsə də  sonrakı əsrlərdə dəvədən  minik və yük nəqliyyatı vasitəsi kimi  geniş istifadə edilmişdir.

Arxiv sənədlərindən məlum olur ki, dəvə ən çox Bakı ətrafında, eləcə də Şəki, Şamaxı, Şuşa, Lənkəran qəzalarında saxlanılırdı. Bu qəzalarda dəvələrin sayı 1845-ci ildə 4637 baş olduğu halda, 1858- ci ildə 11542 başa çatıdırılmışdır. Dəvəçiliyin belə sürətli inkişafı, hər şeydən əvvəl, bir iş heyvanı kimi ağır yük götürməsi ilə əlaqədar dəvəyə olan ehtiyacın artması ilə izah olunur. Gəncə və Naxçıvan bölgələrində dəvə nəqliyyat vasitəsi kimi geniş istifadə edilmişdir.

Azərbaycanda dəmir yolu çəkilənə qədər at, qatır və uzunqulaqdan fərqli olaraq dəvə əsas yük heyvanı sayılırdı. Çünki bir dəvənin yükü 2-3 at yükünə bərabər idi. Yüklü dəvə bir gündə fasiləsiz olaraq 30-35 km, fasilə ilə isə 50 km-ə qədər yol gedə bilirdi. Yüklü dəvənin sürəti saatda 4-5 km-ə çatırdı. [15] Dəvəyə vurulan yükün miqdara məsafədən asılı olaraq müəyyən edilirdi. Hər dəvənin yükü öz çəkisinin təxminən yarısına bərabər olmalı idi.



Birtəkərli əl arabası

Azərbaycanda istehsal olunan ipək, kətan, pambıq, taxıl, boyaq maddəsi, neft, duz, şərab və s. məhsullar istər daxili, istərsə də xarici bazardan dəvə karvanları ilə daşınırdı. XIX əsrin 70-ci illərinə aid bir mənbədə deyilir ki, hər il Gədəbəydən Rusiyaya göndərilən 40 min puda qədər mis Bakıya qədər dəvlərlə gətirilirdi. [16]

Dəvədən yükdaşıma vasitəsi kimi hərbi yürüşlar zamanı da geniş istifadə edilmişdir. Bu zaman lazım olan ərzağı və döyüş sursatını dəvə ilə daşımağa üstünlük verirdilər. Rus elçisi A. Volınski İrana səfər edərkən səyyar mağaza üçün iki min manatlıq yox (təx. 28-34 baş) dəvə satın alımşdı. [17]

1826-1828-ci illər Türkiyə-Rusiya müharibəsi zamanı çar ordusu öz ordusunu yük heyvanları ilə təmin etmək üçün Azərbaycanda yerli əhalidən çoxlu miqdarda dəvə, at və öküz almışdı. [18]

Adətən, bir neçə baş dəvəsi olanlar çarvadarlıqla məşğul idilər. Şarvadarlıq Quba, Şamaxı, Qəbələ və Xaçmaz kəndləri arasında geniş yayılmışdır. Təkcə Şamaxı qəzasında XIX əsrin 80-ci illərində 4282 baş dəvə var idi, həmin dəvənin sahibləri çarvadarlıqla məşğul olurdu.

Dəvə ilə yük daşımaq üçün yükünü növündən asılı olaraq xüsusi dəvə çuvalından, sandıqlardan, səbətlərdən, tuluqlardan istifadə edilirdi. Əzilməyən şeylər (taxıl, un, qənd, duz ) çuvala, silah, şüşə qablar və s. sandıq və səbətlərə, maye məhsulları (neft,şərab, su , bal) tuluqlara doldurulub daşınırdı.

Dəvəni yükləmək üçün onların birhürgüclülərini cahazlayır, ikihürgüclülərini isə alıqlayırdılar. [19] Bundan sonra hazırlanmış yüklər (taylar) bir-birindən təxminən 1, 5-2 m aralı qoyulduqdan sonra, yük taylarını dəvəyə yaxın çəkir, kiçik ağacla dəvənin qabaq qıçlarına vurub onu xıxırdırdılar. Yükü ilgəkli ip və çiliklə bir-birinə çatır və dəvəzi durquzurdular.



Kirşə

XIX əsrin sonlarında Azərbaycanda dəmir yollarının çəkilməsi və şose yollarının abadlaşdırılması ilə əlaqədar dəvə karvanlarına ehtiyac azalmış, çarvadarlıq öz əvvəlki əhəmiyyətini itirmişdir.

Arxeoloji tədqiqatlara və yazılı mənbələrə əsasən, Azərbaycanın çətin keçilən dağ yollarında **uzunqulaq** yeganə nəqliyyat vasitəsi olmuşdur. Yük heyvanı kimi uzunqulaq tunc



dövrdən məlumdur. [20] Dəvə karvanın müşayiət edən sarbanlar və çarvadarlar həmişə karvanın qabağında uzunqulağa minib gedərdilər. Çünki yaxşı yaddaşı olan uzuqulaq bir dəfə keçidiyi təhlükəli yoldan ikinci dəfə keçməzdi. XIII əsr coğrafiyaşünas-səyyah Zəkəriyyə Qəzvini yazırdı ki, əgər dumanlı havada çarvadar yolu itirərdisə, onda qabağa uzunqulağı buraxardı.

XIII əsrin digər məşhur səyyahı Marko Polo məlumat verirdi ki, Azərbaycanda sağlam, möhkəm, aclığa və suzuluğa davamlı uzunqulaq yetişdirilir ki, onların hər biri 30 markaya satırlar. Yerli tacir uzaq səfərlərə belə uzunqulaqla düşürlər. [21]

Ucuz, dağ şəaitinə yaxşı bələd olan, heç bir qayğı tələb etməyən, aclığa dözümlü və təhlükəyə qarşı həssas olan uzunqulaqdan maldar elatları daha çox istifadə edirdilər. Uzunqulağı yükləmək üçün belinə palan vurulurdu. Bəzən nisbətən ağır yükləri ağır yükləri uzaq məsafəyə aparmaq üçün palanın latından tərlik əvəzinə, köhnə palazı dairəvi formada tikərək içinə pambıq, yun və küləş doldurulmuş **loru** qoyulurdu.



Müşkür arabası

İki ədəd belə yastılanmış mütəkkəyə oxşayan loru taylarını iki-üç yerdən qayışla bir-birinə bənd edərk iş heyvanını belinə aşırırdılar. Bəzən dağ kəndlərində uzunqulaqla odun daşıdıqda palanın üstünə “kıxı” adlanan ağac qaş da qoyulurdu.

Azərbacanın dağlıq və dağətəyi bölgələrində minik vasitəsi kimi hələ qədim zamanlardan **qatırdan da** geniş istifadə olunuşdur. Çoxlu yükgötürmə qabiliyyəti, sıldırımlı dağ yoları üçün daha münasibliyi, aclığa və susuzluğa daha davamlı olması onun əhəmiyyətli nəqliyyat vasitələrindən birinə çevrilməsinə şərait yaratmışdır. Qatır Qafqazda ən azı ilk sinifli cənmiyyət dövründən əsas nəqliyyat vasitələrindən biri olmuşdur. [22]

Qatırı, atla uzunqulağı cütləşdirməklə də əldə edirdilər. Aşşur və Urartu, həmçinin orta əsr mənbələrinə əsasən, hələ qədim zamanlardan Cənubi Qafqazın dağlıq bölgələrində yük daşımaq üçün qatırdan istifadə edilmişdir. [23] Vaxtilə Azərbaycanda olmuş, X əsr ərəb coğrafiyaşünas səyyahı İbn Hövqəl yazırdı ki, "burada sağlam gövdəli, güclü, dözümlü qatır cinsləri yetişdirilir". [24] Bərdə də yetişdirilən qatır cinsləri o qədər şöhrət qazanmışdılar ki, onları Xorasan, Suriyaya və başqa ölkələrə aparırdılar. [25] Avropa səyyahı L.Çempenin yazdığına görə, hər il 500, bəzən də 1000 baş qatıra yüklənmiş Azərbaycan ipəyi ölkənin sərhədlərində uzaqlara aprılırdı. [26]



Qafqaz arabası

XIX-XX əsrlərin əvvəllərində Azərbaycanda qatırdan geniş istifad olunması davam edirdi. XIX əsrin 50-ci illərində Şamaxı, Nuxa, Şuşa və Lənkəranda 18 min baş, həmin əsrin 60-cı illərində isə 32500-dən çox qatır və uzunqulaq olmuşdur. [27]

Qatır yetişdirmək çətin olduğundan, onları baha qiymətə satırdılar. XIX əsrin sonlarında Yelizavetpol quberniyasında yetişdirilən iri və güclü qatırların hər biri 200-300 rubla satılrıdı.28 Buna görə də quberniyanın Qazax qəzasında XIX əsrin 80-ci illərində cəmi 97 baş qatır qeydə alınmışdı. [29]

XIX əsrdə yük nəqliyyatı vasitəsi kimi qatırdan xarici kaptalistlər geniş istifadə edirdilər. Şəmkirdə Şərab istehsalı ilə məşğul olan alman Forer qardaşları iş heyvanı kimi



Tək boyunduruq



Çənəli boyunduruq

qatıra yüksək qiymət verirdilər. [30] 1879-cu ilə kimi Simens qardaşları şirkəti də mis zavodlarını odun kömürü ilə təchiz etmək, Bakı və Batumdan gətirilən dəmir qırınıtılarını almaq və istehsal olunmuş məhsulu daşımaq üçün 200 baş at və qatırdan istifadə etmişdir. [31]

Azərbaycanın yalnız Lənkəran bölgəsində yetişdirilən **zebudan,** əsasən, qoşqu qüvvəsi kimi, nadir hallarda isə minik vasitəsi kimi istifadə edilmişdir. Yerli əhali zebuya çox vaxt "donqar mal" da deyir. Buna səbəb onun cinov nahiyəsində hürgücün olmasıdır. Zebuların Azərbaycan ərazisində e.ə. II minillikdə yayıldığı ehtimal olunur. [32]


Dördtəkərli öküz arabası

Tarixin müxtəlif çağlarında zebudan mini vasitəsi kimi istifadə olunduğunu akademik Y.N.Marr da təsdiq edir. O yazır ki, hələ orta əsrlərdə Xəzər dənizini cənub sahillərində yaşayan əhali zebudan minik heyvanı kimi istifadə edirdi. [33]

**Qoşqu nəqliyyat vasitələri.** Azərbaycanın təbii-coğrafi şəraiti və əhalinin mühüm təsərrüfat məşğuliyyətinin xarakterindən asılı olaraq burada ənənəvi qoşqu nəqliyatının **sürütmə və təkərli** olmaqla iki növü mövcud olmuşdur.


At arabası

Sürünən nəqliyyat vasitəsinin ən bəsit nümunəsi olan əl sürütməsindən istifadə edilməsi isə irəliyə doğru mühüm addım olmuşdur. Mütəxəssislər qoşqu heyvanı vasitəsilə sürütmədən istifadə edilməsi tarixini Eneolit dövrünə aid edirlər. [34]


Uzunqulaq arabası

Əsasən Azərbaycanı dağlıq bölgələri üçün xarakterik olan

**sürütməni** düzəltmək üçün bir neçə iri budağın yoğun başlarını bir-birinə bağlayıb, üstünə müxtəlif yüklər (ot, odun, dərz, çırpı) yığırdılar. Sonra sürütməyə bağlanmış zəncirin və ya kağanın digər ucunu öküz qoşulmuş boyunduruğa bağlayırdılar. Öküz sürütməni istənilən yerə dartıb aparırdı. Arabaya çətin qaldırılan və ona yerləşməyə tikinti materiallarını da (kərən, dirək) bu üsulla daşımaq sərfəli olurdu. Yükü ağırlığından asılı olaraq boyunduruğa bəzən 2-5 cütə qədər öküz qoşurdular.

Sürütmə qədim qoşqu nəqliyyatını elə növüdür ki, ondan Azərbaycanı dağlıq və meşəətrafı rayonlarında indi də istifadə olunur.

Sürütmənin **"çəpə"** adlanan təkmilləşdirilmiş formasından XX əsrin 50-60-cı illərinə qədər Lənkəran-Astara bölgəsində istifadə edilmişdir. Quruluşuna görə daha çox xizəyə yaxın olan çəpə yağışlı-palçıqlı havada yük daşımaq üçün ən münasib nəqliyyat vasitəsi idi. O,



Təkərli dördtəkər arabalar

qabaq ucları təbii olaraq yuxarıya qatlanmış iki paralel qoyulmuş ağacdan ibarət idi. Çəpənin paralel qolarını qabaq və arxa döşəmələri bir-birinə birləşdirirdi. Adətən, döşəmələrin arasına çubuqdan hörülmüş şəpərə qoyulurdu. Dəmirağacında hazılanmış paralel qollar əhali "əyri" adlnadırıdı. Çəpəni dartmaq üçün qabaq döşəməyə və ya əyriyə ciyənin

(ciyə-tənək çubuqlarından hazırlanan qoşquda irəşmə-kəndir rolunu oynayırdı) köməyilə qoşqu heyvanı qoşulurdu. Çəpənin yük tutumunu artırmaq üçün paralel qollara bir-birindən 30 sm ralı cağlar keçirilir, üzərinə beçə qol taxılırdı. Dəmirağac, fındıq, heyva və s. ağaclardan düzəldilmiş çəpə xeyli yüngül konstruksiyaya malik idi.Çəlyik dərzlərini daşımaq üçün onlar əvəzedilməz nəqliyyat vasitələri sayılırdı.

Qoşqu heyvanı vasitəsilə hərəkətə gətirilən çəpədən fərqli olaraq əl çəpəsi xeyli kiçik ölçüdə düzəldilirdi.

Əhalinin təsərrüfat məişətində daha ağır yükləri daşımaq üçün sürütməni təkmilləşdirilmiş formasından biri də **xizək** olmuşdur.

Xizəyin ən qədim və ən sadə forması iki budağı olan haçalı ağacdan düzəldilirdi. Bunun üçün xırda budaqlar təmizləndikdən sonra haçalrın arasına “atmalar” (zolalar) bərkidilir, ağacın haçalı ucu hərəkət zamanı yerə ilişməsin deyə, çəp şəkildə kərtilib orada deşik açılırdı. Deşiyə bənd edilmiş ip və ya zəncirin digər ucunu boyunduğa bağlayırdılar. Şimal ölkələri üçün xarakterik ola at, maral, it və s. vasitəsilə hərəkətə gətirilirdisə, Azərbaycanda bu nəqliyyat bir cüt kəl və yaxud öküz qoşurdular.



dördtəkər araba

Xizəklər vasitəsilə daşınan yükün həcmini artırmaq məqsədilə sonralar onu xeyli təkmilləşdirmişlər. Belə xizəklər, adətən, səliqə ilə yonulmuş və ucları kərtilmiş bir cüt eyni ölçülü parlel qollardan ibarət olur,



Dördtəkər uzunqulaq arabası

bağlamalar vasitəsilə bir-birinə bənd edilir, üzərinə cağ və tar keçirməklə çardaq qurulurdu.

Xizək düzəltmək üçün əsasən qarağac, iydə, yemişan və s. ağaclara üstünlük verilirdi.

Quruluşlarında o qədər böyük fərqlər olmasa da, xizək Azərbaycanın ayrı-ayrı ərazilərində müxtəlif terminlərlə ifadə olunmuşdur: Masallı və Lənkəranda "havza", Kürdəmir və Ağsuda "kəriskə", Şamaxı, Quba, Qusar və İsmayıllıda isə "kirşə" və ya "xizək". [35]

Azərbaycanı Şamaxı, Quba, Qusar və bir sıra digər rayonlarına olan entoqrafik səfərlərin materillaları yerli xizəklərin təkmilləşdirilmiş formalarını bərpa etmyə imkan vermişdir. Bunlardan biri möhkəm ağac materiallarından hazırlanmış **kirşədir.** Kirşəni düzəltmək üçün əvvəlcə "kirşə tayları" və ya "kirşə ayaqları" adlanan hissələr düzülür, onlar bir-birinə paralel olaraq ağaclar vasitəsilə birləşdirilirdi. Kirşənin çardağı qollar üzərində qurulur, ağac döşəmələrə bərkidilirdi. Kirşə boyundurğa "cunu" adlanan dişlə vasitəsilə qoşulurdu. "Cunu" nu düzəltmək üçün lazımi ölçüdə kəsilmiş ağacın müvafiq hissəsini qayışla möhkəm sıxır, onu bağlanmış yerə kimi balta ilə cırıb haçalayırdılar. Sonra onun haçalı uclarında kiçik deşiklər açılırdı. "Cunu" nun haçalanmış ucları kirşə taylarının arasına qoyulur və "cunu ağacı" [36] vasitəsilə bərkidilirdi. "Cunu"nun uc hissəsindəki deşiyə ağacdan hazırlanmış "eşşək" adlanan hissəyə taxılır. Boyunduruq "eşşək" lə "cunu"nu arasına qoyulub "baş ağacı" ilə bərkidilirdi.

Kirşə düzəltmək o qədər də çətin deyildi. Dülgərliklə az-çox məşğul olan hər bir kəs bunun öhdəsindən gələ bilərdi. Kirşə ilə 500-600 kq. yük daşımaq mümkün idi. Yolun vəziyyətindən və yükün ağırlığından asılı olaraq kirşəyə 1-2 cüt kəl və ya öküz qoşulurdu. Ayrı-ayrı işlərə işlədilməsindən asılı olaraq kirşə müxtəlif adlarla adlanırdı: "təzək kirşəsi", "dərz kirşəsi" və s.

Müxtəlif növ təkərli nəqliyyat vasitələrinin meydana gəlməsinə baxmayaraq, sürütmə, kirşə və xizək kimi ənənəvi nəqliyyat vasitələri uzun müddət təsərrüfat və məişət əhəmiyyətini saxlaya bilmişdir.

Azərbaycan xalqının təsərrüfat məşğuliyyətinin xarakterindən. Ərazinin təbi-coğrafi şəaitinin müxtəlifliyindən asılı olaraq burada qoşqu nəqliyatının inkişafında mühüm mərhələ təşkil edən təkərli nəqliyyat vasitələrinin ayrı-ayrı növlərindən istifadə olunmuşdur. Mütəxəssislərin fikrinə görə, təkərli nəqliyyat vasitələri e.ə. IV minillikdə meydana gəlmişdir. [37]

Arxeoloji materiallardan aydın olur ki, keçmişdə məişət və təsərrüfat işləri zamanı iki və dörd təkərli arabalardan geniş istifadə olnumuşdur.



Araba hissələri və araba bağlama a) ikitəkər; b) dördtəkər

E.ə III minillikdən başlayaraq Azərbaycan ərazisində ikitəkərli arabalar yığılmağa başlamışdır. [38] Tunc dövrünün sonu, Dəmir dövrünün başlanğıcında məhsuldar qüvvələrin inkişafı ilə arabaya olan ehtiyac artmış və onlar xeyli təkmilləşdirimişdi. [39] Məhz bu dövrdən başlayaraq cüt əkinçiliyin və köçmə maldarlığın inkişafı ilə müxtəlif formalı ikitəkərli arabalar yarmağa başlamışdır. Belə arabalardan bəziləri XX əsrin əvvəllərinə qədər istifadə edilmişdir. Azərbaycanı qayalar üzərində həkk edilmiş araba rəsmlərini tədqiq edən alimlərimizin fikrincə, öküz qoşulmuş ikitəkərli arabalar e.ə. III minillikdə eramızın XIX əsrinə kimi cüzi dəyişikliklərə məruz qalmışlar. [40]

Təkərli nəqliyyat növünün ən sadə növü ev təsərrüfatında, liman, vağzal və s. yerlərdə işlədilən **birtəkərli, ikitəkərli və**

**dördtəkərli əl arabaları** olmuşdur. Birtəkərli əl arabalarının daha qədim tarixi vardır. Bu arabalardan hələ qruldarlıq dövründə yol çəkilişində və müxtəlif tikiniti işlərində geniş istifadə olunmuşdur. Belə arabalar, adətən, itələməklə, (insan qüvvəsi ilə) hərəkətə gətirilirdi.

**İkitəkərli arabalar**. Qoşqu vasitəsilə hərəkətə gətirilən ikitəkərli araba dördtəkərli arabaya nisbətən daha geniş yayılmışdı. İkitəkərli arabaların XIX-XX əsrin əvvəllərində 3 tipi mövcud idi: **1. Öküz və ya kəl arabası, 2. At arabası, 3. Uzunqulaq arabası.**

XIX əsrdə öküz arabalarını bir-birindən fərqlənən müxtəlif formaları olmuşdur. Bu arabalar iki qrupa bölünür. Bunlardan birincisi Azərbaycanın Qərb bölgəsində işlədilən iri həcmli və iri çardaqlı, kiçik təkərli arabalardır. Xalq arasında belə arabalara bəzən **"qara araba", "taytəkər", "qarasaqqal arabası"** və s. deyilirdi. Belə arabaların təkərləri arabanın çardağına (sandığına, banına) nisbətən aşağıda olurdu. Adətən bi cüt öküz qoşulan bu tip arabaların çardağı üçbucaq şəklində baş-başa qoyulmuş iki ədəd yoğun və uzun (4-5m.) qol üzərində qurulurdu. Qollar bərk ağac cinsindən (qarağac, göyrüş, yemişan, iydə) düzəldilirdi. Arabanın çardağını qurmaq üçün qollar üzərində cağ (Şirvan bölgəsində "daraq", Qubada isə "laşar" adlanır) deşikləri, qollara üfüqi olaraq isə döşəmə və alt cağlar üçün deşiklər açılırdı. Araba ustlarının dediyinə görə, iki üst cağ deşiyinin arasından bir döşəmə deşiyi açıldıqda qollar öz möhkməliyini itirmir. Araba çardağının qabaq və dal döşəmələrini tamamlayan bağlama ağacları (buna "qabaq" və "dal yasdıq" da deyirlər. Müşkür arabalarında isə onlar "tapan" adlanır) nisbətən qalın və enli yonulub düzəldilirdi. Arabanı çardağı, qolara şaquli olaraq bərkidilmiş cağlara tar (etnoqrafik ədəbiyyatda "üst qol", və ya "kiçik qol" kimi də qeyd olunur. Şirvanda ona "nədivan" deyirlər) keçirdikdən sonra hazır olurdu. Belə arabalarda ox təkərlərə kip geydirilir və onlarla birlikdə fırlanırdı. Təkərlə birlikdə fırlana oxu qolları sürtüb "yeməməsi" üçün qolların üzərinə "yasdıq" adlanan yəhərvari formada kərtilmiş ağac hissə qoyulurdu. Arabanı oxu qolar üzərində irəli-geri sürüşməsin deyə, onu hər iki tərəfdən "ayı" adlanan çivlə bərkidirlər. Oxla yasdığın arasına sabun məhlulu sürtmək və mazut çəkmək üçün arabanın hər birində sabun dolu buynuz və ya yağ (mazut) daqqası olurdu.

Azərbaycann dağətəyi və düzənlik bölgələrində ağır yükləri daşımaq üçün qara arabaların həcmcə ən iri növləri də işlədilmişdir. Bu cür ağır arabalar etnoqrafik ədəbiyyatda **“Qafqaz arabası”** adı ilə məlumdur. [41] Normal “qara araba”nın oxunun uzunluğu 2 m. olduğu halda, “Qafqaz arabası”nın oxunun uzunluğu 3 metrə çatırdı. Oxa uyğun olaraq da arabanın qolu, çardağı və boyunduruğu hazırlanırdı.

İkinci qrupa aid edilən öküz arabaların çardağı kiçik, təkərlər ixeyli iri diametrli olmaqla, Azərbaycanın Bakı, Şamaxı, Quba, Qusar, Salyan, Şəki, Lənkəran və s. bölgələrində geniş yayılmışdır. Belə arabalar, adətən, aid olduqları ərazinin adı ilə adlanırdı: “Şamaxı arabası” “Quba arabası”, “Bakı arabası” və s. Bakı, Quba, Şamaxı və Salyan arabaları tamamilə bir-birinin eyni olduğu üçün etnoqrafik ədəbiyyatda bəzən “Bakı”, bəzən də “Salyan” arabaları kimi adlanmışdır. Hərəkət zmanı oxun qolara sürtünməsindən alınan səslərə görə belə arabaları xalq “cır-cır araba da ” adlandırırdı. Tamamilə ağac materiallarında hazırlanan arabanı təkəri oxla bərabər fırlanırdı. Təkərləri oxa kip geydirmək üçün təkərlərin topuna zəncir salıb bir-birinə bağlayırdılar. İki nəfər hərəsi təkəri bir istiqamətdə fırlatdıqca zəncir dartılır, təkər oxa kip otururdu. Bu əməliyyata “oxun burazlanması” deyilirdi.

“Qara araba” larla “Salyan” arabalarının müxtəlif hissələri arasında və həcmində əsaslı fərqlər olsa da, onların ümumi quruluşu və hazırlanma texnikası, demək olar ki, eyni idi.

Yuxarıda haqqında danışdığımız arabalar qoşqu heyvanına boyunduruq vasitəsilə qoşulurdu. Bəhs olunan dövrdə boyundurğun iki forması tək və çənəli boyunduruq mövcud idi.


Fayton

**Tək boyunduruq** uzunuluğu 2 m-ə çatan ağacdan yonulub düzəldilir və ucları aşağıya doğru əyilmiş olurdu. Onun kənar uclarında bir-birindən təxminən 25-35 sm aralı bir cüt deşik açılır, həmin deşiklərdən samı (Qərb bölgəsində "çumaça" deyilir) keçirilirdi. Qoşqu heyvanı boyunduruğa qoşulduqdan sonra samıbağı vasitəsilə samıların ucları heyvanın boğazının altına bağlanırdı. Belə boyunduruq dişləyə iki cür: kağan və işkil vasitəsilə birləşdirilirdi. Birinci halda boyunduruğun ortasında bir-birindən 10-12 sm aralı iki ədəd "modux" adlanan çiv çalınır, kağan bu çivlərin rasında keçməklə boyunduruğu dişləyə birləşdirirdi. İkinci halda isə boyunduruqdan və dişlədən aşılmış işkil deşiyindən işkil (bəzi bölgələrdə buna "qılınc" da deyilir) keçirməklə bu işi başa çatdırırdılar. Adətən boyunduruq iş heyvanın boynunu sürtməsin deyə, onun samılar arasında qalıan hisəsinə dərindən və ya parçadan "yasdıq" adlanan xüsusi dolaq dolayırdılar.

**Çənəli boyunduruq** qoşqu qüvvəsinin boynundan və çənəsinin altındna keçməklə, bir-birinə paralel iki hissədən ibarət idi. Üst hissəi tək boyunduruq kimi hazırlanır, "boğazaltı" adlanan alt hissəsi isə nisbətən nazik olurdu. Qoşqu heyvanı, hər iki yandan baş tərəfləri açıq olan boyunduruğa dörd ədəd samı və ya sinəçula vasitəsilə qoşulurdu. Tək boyunduruğa nisbətən çənəli boyunduruq daha möhkəm və qoşqu heyvanı üçün daha təhlükəsiz idi.

Azərbaycanın təkərli nəqliyyat vasitələrindən biri də **ikitəkərli at arabası** idi. XIX əsrdə Azərbaycanda at arabalarının bir-birindən fərqlənən müxtəlif formalı olmuşdur. Bakı, Şamaxı, Quba və Salyan ərazisində işlədilən at arabalarının təkərləri iri, çardağı isə kiçik olur, oxu təkərlə birlikdə fırlanırdı. Təkərlərin iri hazırlanması çox vaxt yerli şəraitdən asılı olurdu. Şamaxı və Göyçay qəzalarının düzənlik hissəsində və Qobustanda yolları tez-tez qum basdığına görə at

arabalarının şinsiz təkərləri adi arabaların təkərlərindən iki dəfə iri olurdu. Çox yüngül olan bu arabaların çardağı kiçik və dördbucaqlı formada düzəldilirdi. Arabanın qolları tək at qoşmaq üçün yedək (əskeş) vəzifəsini görürdü. [42]

Tək at qoşulmuş ikitəkərli araba xalq arasında **"daşqa"** adı ilə məlum udu. At daşqası içi həcmli olması, ucuz başa gəlməsi və rahat idarə olunması ilə öküz və kəl arabalarından fərqləndiyinə görə kəndli məişətində müstəsna rol oynayırdı. Ondan müxtəlif məişət yüklərinin (ot, odun, dən su, qaratikan, kömür və s. ) daşınmasında istifadə olunurdu.

At daşqasının qoşqu ləvazimatı xamıt, gövdəbənd, qaltaq, palan, tapqır, qaltaq qayışları, uzun cilovlu yüyən, matraq (qamçı), çubuq və s. ibarət idi. Qoşqu ləvazimatını əsasən yerli yəhər ustalar-sərraclar hazırlayıb satmaqla məşğul idilər.

Azərbaycanın ikitəkərli nəqliyyat vasitələrinin az bir qismini də **uzunqulaq arabası** təşkil edirdi. At arabasından yalnız öz həcminə və təkərlərinin diametrinin kiçikliyinə görə fərqlənən uzunqulaq arabalarında yalnız həyətyanı və ev təsərrüfatında kiçik həcmli yükləri yaxın məsafəyə daşımaq üçün istifadə edilirdi.

**Dördtəkərli arabalar**. Dördtəkərli arabaların qoşqu qüvvəsinin növünə görə üç tipi mövcud olmuşdur. 1. Kəl və ya öküz arabası, 2. At arabası, 3. Uzunqulaq arabası.

XIX əsrdə Azərbaycanda işlədilən dördtəkərli öküz arabasını bir-birindən fərqlənən iki forması var idi. Bunlardan birincisi dövr etibarilə daha qədim olub, XX əsrin əvvəllərinə qədər işlədilmiş arabalardır. Bu arabalar Cənubi Qafqazda e.ə. II minilliyin ortalarında istifadə etməyə başlamışlar. [43] Bu tip arabalar bir çox qədim Şərq ölklərində də geniş yayılmışdır. [44]

Etnoqrafik materiallardan fərqli olur ki, öküz və ya kəl arabası beş əsas hissədən-dal və qabaq olmaqla ox və təkərlər, zorağacı (bir çox kəndlərində "ara ağacı" da deyilir) və parçalar (bir çox kəndlərdə "cinax" da adlnadırılır), arabanın çarağı, qol və boyunduruqdan asılı olmuşdur. Arabanın çardağın əmələ gətirən hissələr iki ədəd "araba əyrisi"ndən (dal və qabaq), hər tərəfdə ikisi olmaqla isə dörd ədəd tardan və iki döşəkdən ibarət idi. Tar və döşəkləri

araba əyrisinə bərkitmək  üçün hər araba əyrisinin üzərində 6 ədəd deşik açılırdı. Araba əyrilərini oxa bərkitmək üçün əyrilərin oturacağının  tən ortasından daha bir deşik də açılırdı. Dördtəkərli arabanı düzəltmək üçün oxlar hazır olduqdan  sonra əvvəlcə  dal oxa təkərlər keçirilirdi. Arabanın qolu qabaq oxa təkərlərin arasında bərkidiyindən, bayaq təkərlər oxa qoldan sonra taxılırdı. Arabanın qoluna "qolavan" və ya "dişlə" də deyirdilər. Arabanın qabaq və dal oxunu bir-birinə  birləşdirmək üçün "zorağacı" ndan istifadə olunurdu. Zorağacını  oxlara bərkitmək üçün oxların üzərində aypara  şəklində yuvalar açılırdı. Zorağacının ucları ioxlardan azca kənara çıxarılırdı ki, hərəkət  vaxtı ox dönməsin. Arabanın dal oxunu tərpənməz vəziyyətdə saxlamaq üçün "paça" adlanan iki ədəd köməkçi hissədən istifadə edirdilər. Parçalar dal oxun uclarını zorağaca  ilə birləşdirir və oxun fırlanmasının, qaçmasının qarşısını alırdı.

Arabada zorağacını  döşəklər əvəz etdikcə isə parçalardan istifadə edilmirdi. Dal və qabaq oxlar "zorağacı"  ilə birləşdirildikdən və qol qabaq oxa  bərkidildikdən sonra arabanın gövdəsi hazır olurdu.

Arabanın çardağı gövdənin  üzərində qurulurdu. Bunun üçün hər oxun üstünə "araba əyrisi" qoyulur və bu əyrilər oturacaqlarındakı deşikdən keçən pazla oxa  bərkidilirdi. Daha sonra "araba əyrisi"nin oturcağındakı deşiklərə iki ədəd döşək, qollarındakı deşiklərə  isə arabanın tarları keçirilirdi. Yükün tökülməməsi üçün arabanın yanlarını örtmək məqsədilə  tarlardan açılan  deşiklərdən cağlar  keçirilir və onlar "laydır" adlanan araba yanlarını təşkil edirdi.

İkinci tip dördtəkərli öküz arabasının  yaranmasında XIX  əsrin 30-cu illərində Azərbaycana köçürülən  rus sektantlarının gətirdikləri təkərli nəqliyyat vasitələrinin böyük təsiri olmuşdur.  Bu tip arabaların hər bir hissəsinin özünəməxsus  işçi xüsusiyyətləri var idi.

**Dişlə-** arabanın həcmindən asılı olaraq 4-5 m uzunluğunda olurdu. Onu ər bir başı arabanın oxu üzərində olan və "paça" adlana üçbucaq  formalı ağacın arasına yerlşdirilir, digrə ucu isə işkil vasitəsilə boyunduruğa birləşdirilirdi.

**Paça-** hərəkət zamanı dal oxun tərpənməz dayanmasını təmin edirdi. Dal oxun bələyi (bəzən "palan", "köynək"  və "yarımox" da

deyirdilər) süzərinə qurşaq vasitəsilə bərkidilmiş paça həm də arabanın çardağını hündürdə saxlayır, təkərin laydırı vurmasını qarşısını alırdı.

Arxa ox arabaya tərpənməz şəkildə birləşdirilirdisə, qabaq ox “qulaqlı” adlanan ağac hissəsinin köməyilə oynaq vəziyyətdə olurdu. Dişlə hərəkət zamanı sağa və sola döndəriləndə, qabaq oxun üzərinə qoyulmuş qulaqlı öz vəziyyətini dəyişmir və arabanın çardağını da düz saxlayırdı.

**Tərəzi-** iki ədəd olmaqla hər iki tərəfdən qabaq oxa geydirilirdi. Qabaq tərəfi dişləyə birləşdirilmiş tərəzinin vəzifəsi dartı içini qaydaya salmaq və arabanın istiqamətini dəyişdirməyi asandlaşdırmaq idi.

**Lanqut**- sallamanın və şornunun köməyi ilə arabanın dal və qabaq oxlarını bir-birinə birləşdirirdi. Bəzən görülən işdən asılı olaraq arabanın həcmini artırmaq və ay azaltmaq üçün lanqutun üzərində bir-birindən 10-12 sm aralı bir neçə yeri kərtirdilər.

**Laydır-** arabanın yan hissələrinə deyilirdi. Adətən normal ölçülü arabanın hər laydırında 12 cağ olurdu. Cağ keçirdikdən sonra laydırın qolları da davamlı etmək üçün onu üç yerdən “şiş” vasitəsilə bərkirdirdilər. Şiş-oturacağa yastı, digər ucunda isə yivi olan 70-80 sm uzunluğunda dəmir idi. Laydırın qollarından keçirdikdən sonra onu sıxırdılar. Daşınan yükdən asılı olaraq bəzən cağların arası açıq saxlanılır, bəzən də taxta və ya çubuqla örtülürdü.

**Şiraqun**- arabanın həcmini artırmaq üçün idi. Arabanın arxa və qabaq tərəfinə bərkidilən şiraqun şəbəkəli olurdu. Adətən arxa şiraqun qabaqkından hündür düzəldilirdi.

Bundan başqa belə arabalarda dörd ədəd “dayanacaq” və ya “dayaq” adlanan xüssi hissə də olurdu. Dayanacaq iki hissədən ibarət idi. Onun “sapılca” adlana dəmir hissəsi halqavari olub oxa geydirilir, “gövdə” adlandırılan və ağacdan hazırlanan digər bir hissəsi isə ucu haçalı olub laydırdakı halqaya keçirlirdi. Sapılcanın iti ucu dayanacağın gövdəsnə çalınırdı. Dayanacaq arabada laydırın altından qoyulmaqla, adından göründüyü kimi, dayaq rolunu oynayırdı.

Arabanın təkərini oxdan çıxmamsı üçün oxun başına əvvəlcə tərəzi və dayanacaq geydirilir, sonra isə “papaq” salınırdı. Papaq və oxdan açılmış şaquli deşikdən “çulğu” adlana dəmir çüy keçirilirdi.

Bəzən arabanın oxu topun qundağının ölçülərinə düzgün gəlmədikdə, oxuna başına əlavə olaraq “qır” adlanan dəmir hissə də keçirilirdi.

Azərbaycanda işlədilən dördtəkərli arabarların digər bir tipi də **tək at qoşulmuş araba** idi. Tək at qoşulmuş arabaları Azərabaycana XIX əsrin ortalıarında rus sektantları gətirmişlər. Ona görə də bu arabaları çox vaxt xalq arasında “malakan arabası” da deyilirdi. Bu tip arabalar qurluşca dördtəkərli arabaların eyni idi. Onların yeganə fərqi qollarının formasında olmuşdur. Belə ki, öküz arabasının qolları boyunduruğa bərkidilmək üçün uc hissəsində birləşdirilirdisə, at arabasının qolları bir-birinə paralel vəziyyətdə aralı qalırdı. Arabada dartqı vəzifəsini qollar yox, qabaq oxa bərkidilmiş “dartqı” adlanan xüsusi ağac hissə görürdü.

Alman kolonistləri və rus sektantları özləri ilə gətirdikləri digər bir araba tipi iki və ya dörd at qoşulmuş dördtəkərli araba idi. Furqon adlann bu araba sonralar Azərbaycanda cüzi dəyişikliklərlə uzun müddət də istifadə olunmuşdur. Qoşqu qüvvəsinin sayına görə furqona çox vaxt “cütatlı”, “üçatlı” , “dördatlı ” və “çoxatlı araba “ da deyirdilər.

Dördtəkərli öküz və at arabasına quruluşca yaxın olan furqonda dartı vəzifəsini görən araba qolunu “dişlə” adlanan bütöv bir ağac təşkil edir. Buna görə furqona bəzən “dişləli araba” deyirdilər.

Dördətəkərli arabaların digər bir toponimi təşkil edən **uzunqulaq arabası** yalnız həcminin kiçiliyinə görə fərqlənirdi. Yaxın məsafələrə yük daşımaq üçün yaradılmış bu arabalar ən çox düzənlik bölgələrində istifadə olunurdu.

Keçən əsrdə araba bağlama işi ilə xüsusi səriştəli ustalar məşğul olurdu. Arabanı düzəltmək üçün mövcud olan istehsal prosesi üç mərhələdən ibarət idi:1. Lazım olan materialın tədarükü 2. Araba hissələrininn hazırlanması; 3. Hazır hissələrin quraşdırılması, başqa sözlə arabanın bağlanması.

Araba üçün lazım olan materialın tədarükü ilə bilavasitə usta özü məşğul olurdu. Bunun üçün lazım olan ağac materiallarını ya yaxın meşələrdən tədarük edir, ya da bazarlardan satın alırdılar.

Arabanın ayrı-ayrı hissələrini hazırlamaq üçün qarağac, vələs, zoğal, göyrüş, fıstıq, dəmirqara, dağdağan, yemişan, cökə, iydə, çəkil,

palıd və s. ağaclardan istifadə olunurdu. Kəsilmiş ağac hissələri odda ütüldükdən və quruduluduqdan sonara müvafiq araba hissələri hazırlanırdı. Bütün hissələr hazırlanıb başa çatdıqdan sonra işdə arabanın bağlanması işi başlayırdı. Araba ustalar əsasən, balta (kol baltası, gülgər baltası, küplü balta, ancaq balta), iri və xırda dişli mişar (xırxı), kərki, rəndə (adi rəndə, sığal rəndəsi), iskənə ,burğanc (şvol burğusu, çaka burğu, qarağa burğu), künyə, dartı, lopur, toxmaq, xətkeş, küşdərə və s. alətlərlə işləyirdilər.

Araba ustaları, adətən arabanı çardağını düzəldirdirlər. Təkər hazırlaması işi ilə xüsusi səriştəli ustalar məşğul olurdular ki, bunlar təkərçilər adlanırdı. Onlar təkərin üçü formasının (bütöv, dişli və yaxud oplu təkər və çəmbərə təkər) hazırlanmasının kamil bilciləri idilər.

Materiallardan aydın olur ki, Azərbaycan ərazisində ilk dövrlərdə **bütöv təkərlərdən** istifadə olunmuşdur. İki hissədən ibarət bütöv təkəri hazırlamaq üçün əvvəlcə təkərin birinci yarısını, sonra isə ikinci yarısnı hazırlayır, onları daxili şüylər vasitəsilə birləşdirmək üçün hər ikisini ağız-ağıza düşən hissələrində, ox deşiyindən sağ və sol tərəfdə olmaq şərti ilə iki yuva açılırdı. Yuvaların ikisinin dərinliyi 12 sm, digər ikisinin isə 15 sm olurdu. Təkər hissələrini birləşdirmək üçün iki ağac çüy düzəldirlir, həmin çüylər yuvalara yerləşdirilir, təkər hissələri ağız-ağıza qoyularaq toxmaqla vurulub bərkidilirdi. Belə təkərlər iş prosesində daha da möhkəmlənirdi.

XX əsrin əvvlərinə kimi Azərbaycanı Qərb bölgəsində belə bütövtəkərli arabalar işlədilmiş və əhali arasında “tökmə araba” adı ilə məşhur olmuşdur. [45]

Zaman keçdikcə bütöv təkərlər ayrı-ayrı hissələrdən düzəldilmiş **“yığma təkərlərlə”** əvəz edilmişdir. (“qurama”, “toplu”, “dişli” tkərə də deyilir).

Yığma təkərlər top, diş (bəzən “dəndə”, “pər”, “dırnaq” və ya “barmaq” da deyilir) və çəmbərdən (qasax, daban, Şirvan bölgəsində bu “əymə”, Şəki də isə “bud” adlanır) ibarət olurdu. Bu təkərləri işə daha davamlı etmək üçün çəmbərənin üstünə şin geydirirdilər. Şini dəmirçixanada döymə üsulu ilə düzəldirdilər. Təkər ustalarının dediyinə görə, şinin qalınlığı 7 asnoy (1 asnoy 0,5sm) olanda o, daha möhkəm və davamlı olurdu.

**Çəmbərə təkərlər** bütöv ağacı əyərək çevrə şəklinə salmaqla düzəldilirdi. Bunu üçün ağac yaş vaxtıkəsilir, yonularaq lazımi şəklə gətirilirdi onu odda  və suda qızdırıraq əyib çevrə şəklinə salırdılar. Çəməbərə təkər bütöv ağacdan olduğuna görə çox vaxt şinsiz də işlədilirdi. Çəməbərini əymək və lazımi diametrdə  düzəltmək üçün çox vat yerin altında  tikilmiş xüsusi buğxanalardan istifadə edirdilər. Burada ağacları buğa verir, yumşaldır, sonra əyirdlər. Bu işdə son dərəcə ehtiyatlı olmaq lazım idi. Belə ki, çəmbərənin hazırlanması çox vaxt baş tutmur, ağac sınır, ustanın əməyi heç olurdu.

**Yaylı nəqliyyat.** XIX  ərsin ikinci yarısından başlayaraq Azərbaycanda kapitalist münasibətlərinin inkişafı  və yaranması ilə əlaqədar şəhərə əhalisi də çoxalırdı, bu da öz növbəsində  yeni-yeni nəqliyyat  növlərinə ehtiyac yaradırdı. Bu dövrdə Bakı  və Gəncə şəhərlərində **qazalaq, prilotka, fayton, şərəban, dilican**  və s. kimi yaylı nəqliyyat  vasitələri meydana gəlmişdşir. “Prilotrka”, “fayton” və “qazalaq” kimi rahat nəqliyyat  vasitələri Azərbaycana Rusiyadan gətirilmişdi. [46]

**Qazalaq.** Tək at qoşulan bu nəqliyyat növü öz quruluşa gör ikitəkərli at arabasına oxşasa da, ondan yaylı olması ilə fərqlənirdi. Qazalağın çardağı (banı) oxa bərkidilmir. Yayların üstündə dururdu. Onu çardağı dördbucaqlı idi. Taxtadan hazırlanmış çardaqda 4-5 adam otura bilirdi. Təkərləri “Bakı” və “Şamaxı”  arabaların təkəri kimi diametrcə çox iri olurdu. Məlumatlara görə, Azərbaycanda qazalaq ancaq Bakıda hazırlanmışdır. Toy mərasimlərində işlədilən qazalaqları bəzəmək məqsədilə onun yanlarından rəngbərəng xalçalar asılırdı. Sərnişinlərin rahatlığını təmin etmək üçün qazalağın içərisinə kiçik döşəkcələr qoyulurdu.

**Prilotka.** Quruluşca qazalağa oxşayırdı və ona bir at qoşulurdu. Dörd əsas hissədən ibarət idi: ox və təkərlər, ox üzərindəki iki ədəd yay,  arabanın “evi”  və qolları. Prilotkanı qurşadırmaq üçün əvvəlcə ox və təkərlə hazırlanırdı və yaylar  oxun üstünə bərkidirdi. Sonra qollar üzərində qurulmuş prilotkanı “evi”  yayların üstünə qoyularaq xüsusi dəstəklə onlara bağlanırdı.

Prilotka qazalağa nisbətən daha rahat  nəqliyyat  növü idi. Onun “evi” nin içərisində hazırlanmış yumşaq oturacaqda  ili adam əyləşə

bilirdi. Oturacağı döşəmədən xeyli hündürdə yerləşirdi. Təkərlərin qaldırdığı toz-torpağın qarşısını almaq məqsədilə təkərlərini üstünü "evin" yanlarına "qanad" adlanan hissələr bağlanırdı. XIX əsrin 30-cu illərinə qədər işlədilmiş pritlotkanı daha yumşaq nəqliyyat növü etmək üçün onun təkərlərinə son zamanlar rezin şinlər də keçirilmişdi. Təntənəli günlərə ondan istifadə etmək böyük şərəf sayılırdı. Toy günlərində həmişə gəlini prilotkada gətirməyə çalışırıdılar.

**Fayton** minik məqsədilə hazırlanmış cütatlı nəqliyyat vasitəsidir. XIX əsrdə fayton müasir minik avtomobillərini əvəz edirdi. Rahat nəqliyyat növü olduğu üçün ölkəmizdə ondan son zamanlara qədər istifadə olunmuşdur. Şəhər nəqliyyatı hesab olunan fayton bir çox rütbəli adamlar tərəfindən kənd yerlərində işədilmişdir.

XIX əsrin axırlarında Bakıdan müxtəlif istiqamətlərə işləyən 418 fayton qeyd alınmışdı. [47] Qatarların gəldiyi vaxt Bakı dəmir yolunun vağzalının qarşısındakı meydanda sərnişinləri daşımaq üçün faytonlar növbəyə dururdu. Bu dövrdə faytonlarda gediş haqqını göstərən xüsusi qiymət cədəvəli də olurdu. Dəmir lövhə üzərinə yazılmış cədvəl faytonun açıq görünən tərəfində bərkidilirdi. [48]

Hər bir fatonda faytonçudan başqa 3-4 adam otura bilirdi. Faytonun xarici görkəmini gözə çarpdırmaq üçün fayton sahibləri çalıdşırdılar ki, qoşqu üçün xüsusi seçilmişdi. Atların hər ikisi eyni böyüklükdə və eyni rəngdə olsun.

Fayton yeddi əsas hissədən- dal və qabaq olmaqla ox və təkərlər, dörd ədəd yay, çanaq (faytonun evi), iki ədəd qanaq, çətir və dişlərdən ibarət idi. Fayton çanağının içərisində iki yumşaq oturacaq düzəldilirdi. Qabaq təkəri üstündə- çaxçağın uc hissəsində olan üçüncü oturacaq faytonuçu üçün idi. Faytonçunun ayağını qoyudğu taxtaya şaquli istiqamətdə bərkidilmiş fayton hissəsi "iş-tox" adlanırd. Nazik dəmir lövhədən, yaxud taxtadan hazırlanmış "iş-tox"un əsas vəzifəsi hərəkət vaxtı atların ayaqlarından qalxan tozun qarşısını almaqla faytonçunun rahatlığın təmin etmək idi. Çanağın yanlarına bərkidilmiş. Qanad adlanan hissələr təkərlərin üstünü örtməklə qalxan tozun qarşısını alır, həm də dal və qabaq təkərləri arasından aşağıya tərəf qövs şəklində əyilərək faytona çıxmaq üçün ayaqlıq təşkil edirdi.

Çanağın arxa hissəsinə bərkidilmiş "çətir" adlanan hissə yağışdan, gündən və küləkdən qorunmaq məqsədilə fayton üstünü örtürdü. Yayların köməyilə çətir istənilən vaxt açılıb-yığıla bilirdi. Gecə vaxt yolu işqılandırmaq məqsədilə faytonuçunun əyləşdiyi oturcağın yanlarına neftlə işləyən və ya şamla işıqlandırılan iki ədəd fənər də bərkidilirdi.

XIX əsrin axırlarında uzaq məsafələrə sərnişin daşımaq üçün çoxlu yerli nəqliyyat növləri də mövcud idi ki, bunlardan "şərəban", "dilican", və "kareta" ən çox Bakı-Quba, Bakı-Şamaxı, Bakı-Lənkəran istiqamətlərində istifadə olunurdu.

**Şərəban**-səkkiz nəfərə qədər sərnişin götürən üstü açıq at arabasıdır. Yarıyumşaq nəqliyyat növü olan bu şərəbanla sərnişin daşınması adətən yaz və aya mövsümlərində olurdu.

**Dilican**-furqon tipli nəqliyyat vasitəsi olub, şərəbana nisbətən daha çox-16-18 sərnişin götürə bilirdi. Dilicanda yarıyumşaq nəqliyyat nöü idi. Onun "evi" nin üstü örtülü olduğu üçün ilin bütün fəsilərində sərfəli nəqliyyat vasitəsi hesab olunurdu.

Şərəban və Dilicana nisəbətən **kareta** kiçik və yumşaq nəqliyyat növü idi. Altı nəfərə qədər sərnişin götürə bilən kareta Azərbaycanda ancaq Bakı şəhərində işlədilmişdir.

**Su nəqliyyatı vasitələri.** Azərbaycanda kifayət qədər, dəniz, göl, iri çayların olması lap qədim zamanlardan başlayaraq burada su nəqliyyatı vasitələrini yaranamsına və işlədilməsinə şərait yaratmışdır. Yerli çaylardan Kür və Araz su nəqliyyat üçün daha əlverişli olmuşdur.

Qədim su nəqliyyatı vasitələrinin bir çoxu aradan çıxmış olsa da, onalrdan bəzilər XX əsrə kimi gəlib çatmışdır. Kötük, sal və müxtəlif formalı qayıqlar və s.



Ağac və tuluq su nəqliyyatı

arxaik su nəqliyyatı vasitələri yaxın vaxtlaradək Kür və Araz çaylarının sahil kəndlərinin əhalisi tərəfindən işlədilmişdir. XIX əsrdcə su nəqliyyatını kolaz, bərə, barj, kirjim və ya sandal, müxtəlif yelkənli və buxarla işləyən gəmi növləri olmuşdur.

Çayın bir sahilindən başqa sahilinə keçmək və bəzən də müəyyən yerlərə getmək üçün **ağac kötükləri** suya salıb ondan tutur və yaxud üstünə minib üzürdülər. Bu məqsədilə içərisi hava ilə doldurulmuş **tuluqdan da** istifadə edilirdi.

Tikinti, yanacaq və s. üçün çay kənarı meşlərdən qırılmış ağacları kəndir və yua tənək çubuqları ilə bir-birinə çatır, çayın axarı istiqamətində hərəkət etdirərək istənilən sahili çıxarırdılar. Ağac materiallarını su ilə bu cür axıdılması xalq arasında **sal** adlanırdı. [49] yan-yan bağlanmış bağlanmış taxta və şalbanlardan ibarət olub, su nəqliyyatı vasitəsi hesab edilən sal Azərbaycan dilində “ibtidai gəmi” mənasında işədilmişdir. [50]

Salı çayın dayaz və burulğan yerlərindən keçirmək üçün üzgüçülər onun qabaq tərəfindən tutub çəkir, istiqamətini dəyişdirir, arxadan qabağa doğru itələyidilər. Sakit axınlı çaylarda isə salın arxa tərəfində, onun üstünə dayanaraq “çəp” (təxminən 2, 5- 3 metr uzunluğunda ucu iti ağac) vasitəsilə istiqamətini lazımi səmtə yönəldirdilər.

Su nəqliyyatının ən mükəmməl növü **qayıq** olmuşdur. Qobustan qayalarında içərsində adam, bəzən də burun hissəsində günəş həkk edilmiş qayıq təsvirlər Azərbaycanın qədim sakinlərini hələ e.ə. XIII-X miniiliklərdə, yeni Mezolit dövründə qayıqdan istifadə etdiklərini göstərir. Üzərində qayıq rəsmi çəkilmiş daşlar qazıntılar zamanı Firuz düşərgəsinin mədəni təbəqəsindən də taplmışdır. [51]

Qayıq düzəltmək üçün yoğun və nisbətən uzun ağac gövədsinin içərsini balta, kərki, əydi, iskənə, küşdərə və başqa yonu alətlərlə çıxarıb dərinləşdirir, sonra ağacın alt hissəsini yonub yastı



Qayıq

hala salır və suda üştümək üçün hamarlayırdılar. Qayığın hərəkəti asanlaşdırmaq və sürətini artırmaq üçün onun qabaq tərəfini nazildir və itiləşdirirdilər. Yonma üsulu ilə hazılanmış qayığın arxa tərəfi enli olur və orada qayığı idarə edən üçün oturacaq düzəldilirdi.

İri qayıqları idarə etmək üçün çox vaxt adam lazım olurdu. Onlardan biri çəp vurur, digər isə avar çəkirdi. Çəp vuran qayığın arxa hissəsində durur, çəp vasitəsilə qayığı suya salır, onu istiqamətləndirir və yeri gəldikcə irəliyə doğru itələyirdi. Avar çəkən isə qabaq yerdə oturaraq qayığın istiqamətinin əksinə suyu kürəkləməklə onu hərəkətə gətirirdi.

Eni 70-80 sm, hündürlüyü 26-30 sm-ə çatan yonma üsulu ilə hazırlanmış qayıqların ən böyüyün uzunluğu 7-8 m, ən kiçiyininki isə 3-4 metr olurdu. Təknəvari quruluşa malik olan belə qayıqlar Azərbaycanda **kolaz** adlanırdı. Kolaz bir çox xalqların dillərində də qayıq mənasında işlədilmişdir. [52]

XIX əsrin altmışıncı illərindən başlayaraq kolazın daha da təkmilləşdirilmiş formasından istifadə edilmişdir. Əvvəlkindən fərqli olaraq yeni kolaz qurama üsulu ilə hazırlanırdı. Belə kolazın oturacağı düz olduğundan ona bəzən “düz dibli kolaz” da deyilirdi.

Kolazı hazırlamaq üçün əvvəlcə ağacdan qabırğa adlanan hissələr düzəldilir, həmin qabırğalara oturacaq və yan taxtaları vurulurdu. Kolazın iriliyindən asılı olaraq qabırğaların sayı 6-dan 14-ə qdərə olurdu. İçərisinə su dolmasın deyə taxtalar arasındakı boşluğa qatran doldururdular. Qədim zamanlarda isə bu məqsədlə piy və ya köpək balığının yağındanda istifadə edilmişdir. Avarla həkətə gətirilən kolazın içərsində oturacaqlar düzəldilirdi.

XIX əsrdə Azərbaycanda Rusiyadan gətirilmiş yastı dibli qayıqlar da (şlyubka) işlədilmişdir. Yeni tipli kolazın yaradılmasında bu qayığın xeyli təsiri olmuşdur.

Kolaz indi də Lənkəran, Salyan, Zərdab və Sabirabad rayonları ərazisində su nəqliyyatı vasitəsi kimi işlədilməkdədir.

Azərbaycanda kolaz su nəqliyyatı vasitəsi kimi başlıca olaraq bir sahildən digərinə inan, yük, heyvan və s. keçirmək məqsədilə işlədilirdi. Lakin daha ağır yüklərin daşınması üçün bu nəqliyyat vasitəsi özünü doğrultmadığından, su nəqliyyatının başqa növünü

yaradılmasına ehtiyac duyulmuş və bunun ənticəsində bərə meydana gəlmişdir. Bərədən, bir qayda olaraq, iri çaylardan ağır yükləri keçirmək üçün istifadə olunduğundan o, iki qayıq üzərində qurulmuş taxta meydançadan ibarət olurdu.

Bərənin işlədiyi yer keçid adlanırdı. Adətən keçidlərə onların yerləşdiyi ərazilərin adları verilirdi. Bu dövrdə Kür çayı üzərində əsas keçidlər Qaradonlu, Sabirabad, Cavad, Surra, Mollakənd, Zərdab, Pirazı, Mingəçevir, [53] Araz çayı üzərində isə Abbasabad, Saatlı və Bülqan ərazisində idi. [54] Naxçıvan ərazisində Araz çayı üzərində həmçinin Qaqac, Dərəşam və Culfa keçidləri də var idi. [55] Cula keçidindəki bərə ilə keçib Təbrizə, Abbasabad keçidindəki bərə ilə isə Məkkəyə getmək mümkün idi. Bu keçidlərdə hər biri 300 puda qədər yük götürən bərələr işləyirdi.

Körpülərin salınması mümkün olmayan yerlərdə bərə indi də su nəqliyyatı vasitəsi kimi öz əhəmiyyətini saxlamaqdadır. Kür və Aarz çayları üzərindəki bir çox keçidlərdə hazıda da bərdən istifadə olunur. Lakin, qədim bərələrdən fərqli olaraq müasir bərələr dəmir əsaslar üzərində qurulmuşdur. Böyük yükgötürmə qabiliyyətinə malik olan müsair bərələr artıq suyu gücü və əl ilə yox, kiçik buxar gəmiləri vasitəsilə hərəkətə gətirilir.


Qurama kolaz

XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda su nəqliyyatı vasitələrinin məhəlli-lokal xüsusiyyəti ilə fərqlənən növləri də mövcud olmuşdur. Naxçıvan bölgəsi üçün səciyyəvi olan, ibtidai salın nisbətən təkmilləşdirilmiş forması hesab edilən **pələ və kələk** belə su nəqliyyatı vasitələrindəndir. Quruluşuna və təyinatına gprə hər iki su nəqliyyatı vasitəsi oxşarlıq təşkil etsə də, ölçülərinə və yükgötürmə qabiliyytəinə görə pələ kiçik, kələk isə nisbətən iri ölçüdə hazırlanırdı. Pələni hazırlamaq üçün 15-20 sm diamterli və 2,2-2,5 m uzunluğunda ağacları

bir-birinə paralel qoyur, baş, ortaya və ayaq hissələrinə isə köndələn şəkildə üç ağac bərkidirdilər. Beləliklə, ağacların arasıda əmələ gələn kvadratşəkilli sahələrə qoyun və keçi dərisindən hazırlanmış, içərisinə hava ilə doldurulmuş tuluqlar bağlanırdı. Bundan sonra pələnin üstünə çubuq çəpərə salınırdı. Pələ xüsusi şəp vasitəsi ilə hərəkətə gətirilir, kiçikhəcmli yüklərin və 2-3 sərnişinin digər sahilə keçirilməsi üçün nəzərdə tutulurdu.

Kələk isə öz həcminə görə pələdən üç-dörd dəfə iri düzəldilirdi. Adətən bir kələyin düzəldilməsi üçün 5-6 m uzunluğunda beş ədəd ağac, təxminən bir o qədər də atmalar gərək olurudu. Kələyə bağlamış tuluqların sayı isə 12-16 ədədə çatırdı. Kələk də çəp vasitəsilə idarə olunurdu və təxminən 150-170 puda qədər yük götürə bilirdi. Culfanın yaycı kəndi ərazisində “Kələkişləyən yer” adlanan sahə indi də qalamqdadır. Buradan suya salınan kələk Üçtəpədə digər sahilə çıxa bilirdi.

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda dəniz gəmiçiliyi də müəyyən dərəcədə inkişaf etmişdir. Dəniz üçün əlverişli nəqliyyat vasitəsi şxun, barj, kirjim, sandal, habelə avar, yelkən və buxarla işləyən gəmilər olmuşdur.


Kalak


Bora

**Şxun**- ingilscə “Schonner” sözündən olub, iki və daha artıq dor ağacı olan yelkənli gəmi deməkdir. Sürətinə və davamlılığına görə şxun digər su nəqliyyatı vasitələrindən fərqlənirdi. Onunla ancaq sabit havada dənizə çıxmaq olardı .

Sonrakı dövrdə şxun daxili yanma mühərriki ilə təmin olunduğundan, onunla uzaq səfərlərə də çıxmaq mümkün oldu. Hazırda şxundan həm nəqliyyat vasitəsi kimi, həm də balıqçılıq və su idmanı

oyunlarında geniş istifadə edilir. İstifadə tərzindən asılı olaraq şxun müxtəlif formaları yaradılmışdır.

**Barj**-yedək gəmisidir. O, taxta və dəmir hissələrindən hazırlanırdı. Barjın dəniz, göl, çay. Kanal sularında işlədilən müxtəlif formları olmuşdur. Yük tutumu böyük olan və yaxşı materialdan hazırlanmış barjlar 20 il müddətində iş üçün yararlı olurdu.

**Sandal**-təknəvari quruluşca maili gəmidir. Əsasən, yelkənlə təhciz olunuduğu üçün səmt küləyinin gücü ilə hərəkət edir.

**Kirjim-**yastıdibli gəmidir. Ağac materialından hazırlanan kiçik həcmli bu nəqliyyat vasitəsi ən çox Xəzər dənizində işlədilmişdir. Kirjimdən əsasən dənizin dayaz yerlərində limana yan ala bilməyən gəmilərin yükünü sahilə daşımaq üçün istifadə edilirdi. Bu nəqliyyat vasitəsi də avarla və ya yelkənlə hərəkətə gətirlirdi. Bəzən kirjimlə uzaq səfərlərə də çıxırdılar.

Arxiv sənədləri göstərir ki, hələ XVIII əsrin ikinci yarısında kirjim və sandal inşa etmək üçün Bakıda gəmi tərsanəsi olmuşdur. [56]

Azərbaycanda bəzi nəqliyyat vasitəlrəin hərbi məqsədlər üçün də istfadə edilmişdir. Rusiya-İran müharibəsi illərində (1826-1828-ci illər) Təbriz istiqamətində hərəktə edən çar ordusu üçün lazımi ərzaq və digər ərzaq yükləri Azərbaycan kəndlərindən və balqıçılar kirjimlə Xəzər dənizində Kür çayı vasitəsilə Zərdəba qədər daşımışlar.

XIX əsrin əvvəllərindən başlayaraq Xəzər dənizində rus tipli gəmilərin sayı çoxalırdı.1802-ci ildə bakı xanlarını sifarişi ilə Rusiyada hazırlanmış üç ticarət ondan iki il sonra isə hər biri 150 nəfər əsgər tutan 11 hərbi gəmi Xəzər dənizinə gətirilmişdir. [57]

Rus gəmilər təkcə Xəzər dənizində deyil, Kür çayında da işlədilirdi. 1814-cü ildə rus hərbçiləri hərəsi 2400 pud yük götürən gəmilərlə Kür çayı ilə Samuxa qədər üzmüşdülər. [58]

XIX əsrin 40-cı illərində artıq Xəzər dənizində buxar gəmilər işləyirdi. İlk buxar gəmi Azərbaycan Həştərxandan gətirilmişdir. Suya davamlılığını yoxlamaq üçün Kür çayına göndərilən həmin gəmi “Volqa” adlanırdı. [59] Artıq 1852-ci ildə Xəzər dənizində 4 buxar gəmisi və 1 şxun işləyirdi. [60]

XIX əsrin ortalarından başlayaraq gəmiçilik Kürdə də sürətlə inkişaf edirdi. 1852-ci ildə Kür çayında işlətmək məqsədilə Nijni Novqorod şəhərində dəmir materiallarından hazırlanan və 60 at gücündə mühərriki olan buxar gəmisi sifariş edilmişdi. [61] "Knyaz Vorontsov" adlanan bu gəmi 1853-cü ilin əvvəllərində Kürə gətirilmiş və o, iki barjla birlikdə Mingəçevirə, oradan isə geri-Salyana qədərə müvəffəqiyyətlə üzmüşdü.



Pala

XIX əsrin 60-cı illərində Xəzər dəniz gəmiçiliyini genişləndirmək məqsədilə təsis edilmişdi. "Qafqaz və Merkuri" səhmdar cəmiyyətinin ixtiyarında 24 gəmi var idi ki, bunlardan 6-sı motor və yelkənlə işləyən şxun, 3-ü pərli gəmi, 3-ü buxar gəmisi və 12-si isə ağacdan hazırlanmış yelkənli gəmi idi. [62] Altmışıncı illərin sonunda bu cəmiyyətin ixtiyarında olan buxar gəmilərinin sayı 15-ə, pərli gəmilərin sayı isə 7-yə çatmışdı. [63]

Ticartə və yük dövriyyəsinin genişlənməsi ilə əlaqədar Xəzər dənizində "Qafqaz və Merkuri" cəmiyyətindən başqa, "Durjina", "Şərq cəmiyyəti" ("Востсчное обшество"), "Nobel qardaşlığı" ("Товаришество Нобел") və s. dəniz cəmiyyətləi də yaranmışdır. 64 Bunlardan ən böyüyü isə "Qafqaz və Merkuri" cəmiyyəti idi.

XIX əsrin 60-70 ci ilərində Xəzər dənzində buxar gəmilərinin sayını çoxalmasına baxmayaraq, yelkənli donanma hələ də öz əhəmiyyətini itirməmişdir. Həmni illərdə Xəzər dənizində İrandan Cənubi Qafqaza və Həştərxana yük daşıyan 200 kirjim tipli gəmi vardı. [65] Altmışıncı illərin sonunda isə Bakı limanının sərəncamında ümumi yük tutumu 5 mindən 8 min puda qədər olan 30 yelkənli gəmi (şxun) var idi. "Ağ gəmilər" adlanan yelkənli gəmilər azərbaycanlıların (bakılıların) sifarişi ilə Həştərxanda inşa edilmişdi. [66]

XIX əsrin yetmişinci illərində Xəzər dənizində maye yük daşıyan gəmilər meydana gəlmişdi. Bu işi ilk təşəbbüsçüsü Nobel qardaşları olmuşdur. Onların “Zaroastr” adlanan maye yanacaq daşıyan ilk gəmisi İsveçrədə sifarişlə hazılanmışdı. [67]

Maye yanacaq daşımaq üçün əlveişli nəqliyyat vasitəsi olan bu gəmilərin sayı Xəzərdə sürətlə artırdı. Əgər 1881-ci ildə Xəzərdə 11 ədəd belə gəmi var idisə, 1899-ci ildə onların sayı 136-ya çatmışdı. [68]

XIX əsrin axırlarında buxar gəmiləri ilə yanaşı, maye yanacaq daşıyan az yük tutumlu yelkənli gəmilər də var idi. Lakin onlar buxar gəmilərinin rəqabətinə dözmür, sıxışdırılıb aradan çıxarılırdı. 1891-ci ildə belə gəmilərin sayı Xəzərdə 284 ədəd olduğu halda, 1899-cu ildə onlardan 212-si qalmışdı.

XX əsrin əvvəllərində Xəzər dənizində ticarət donanmasının sərəncamında 700-800 tipli müxtəlif gəmilər var idi. [69] Bu inkişaf, hər şeydən əvvəl, dəniz və çay nəqliyyatının genişlənməsi ilə əlaqədar mühüm limanların yaranması ilə izah edilməlidir. Həmin illərədə Bakı Xəzər sahilində ən nböyük liman şəhəri hesab olunurdu. Rusiya, İran və Orta Asiyadan Avropaya uzanan tranzit yolu üzərindəki coğrafi mövqeyi baxımından Bakı nəinki Azərbaycanın, habelə bütün Qafqazda ən mühüm mərkəzinə çevrilmişdi.

# YOLLAR

Qədim çağlardan dünyanı müxtəlif ərazilərində yaşayan in sanların ünsiyyətində yoların çöx böyük rolu olmuşdur. Yollar ölkələrin inkişafında və onlar arasında hərtərəfli əlaqlərinin daha da genişləndirilməsində müstəsna əhəmiyyət kəsb etmişdir.

Azərbaycanda mövcud olan yoların istiqaməti, onların vəziyyəti ərazinin relyef-coğrafi quruluşunun xarakterindən və təsərüfatın formasında asılıdır. Çətin keçmilən dağ silsilələri, irili-xırdalı çayların mövcudluğu təkərli nəqliyyat vasitələrinin işləməsi üçün zəruri olan abad yolların salınmasını çətinləşdirirdi. Azərbaycanda XIX əsrin osnalrına qədər davam etməkdə olan natural təsərrüfat formasıda bu sahədə böyük çətinliklər yaratmışdır.

XIX əsrin 40-cı illərin əqdərə Azərbaycanda, demək olar ki, yollar primitiv vəziyyətdə idi. Müxtəlif ölkələrələ olan əlaqələr qədimdə olan karvan yolları ilə həyata keçirlirdi.

Daşıdığı funksiyanın müxtəlifliyinə və əhatə dairəsinin genişliyinə görə Azərbaycanda mövcud olan yolları karvan yolları, daxili yollar, poçt yolları su yolları və ya dəmir yolları olmaqla beş qrupa bölmək olar.



Şəkidə Yuxarı karvansara

**Karvan yolları.** Tarixi Azərbaycan ərazisi öz coğrafi mövqeyi və iqtisadi resuslara görə çox qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm rol oynamışdır. Bəşər tarixində ilk transkontinental ticarət və diplomatiya yolu kimi qiymətləndirilən Böyük İpək yolu Azərbaycanı da dövrün beynəlxalq ticarətinə qovuşdurmuş, dünya ölkləri arasında qədim zamanlardan mövcud olan iqitsadi, mədəni və siyasi əlaqələri daha da genişləndirilmiş və möhkəmlətmişdi.

Azərbaycanın Asiya və Avropanın qovşağında yerləşməsi, burada neft, ipək, qızıl boya, duz, xalça, zəfəran, parça və s. malların bolluğu onun beynəlxalq ticartə yollarının əsas məntəqələrindən birinə çevrilən başlıca amil olmuşdur. Azərbaycan ərazisindən keçən Qədim Şərqin əsas ticarət yollarından biri olan Mərkəzi Asiya, Mesopatamiya, Hindistan və Kiçik Asiya ilə birləşdirilmişdi. [70]

Ellinizm dövründə indiki Azərbaycan ərazisində Albaniya və Atropantena dövlətlərinin mövcudluğu, çoxlu şəhərlərin yaranması, əmtəə-pul münasibətlərinin inkişafı, tranzit-ticarət yollarının bu əraziddən keçməsi ölkənni beynəlxalq əlaqələrini daha da genişləməsinə səbəb oldu.

Antik müəlliflər Çindən və Hindistandan başlayaraq Azərbaycan ərazisndən keçən karvan yolları və Azərbaycanın o zamankı dünya ticarətində iştirakı haqqında maraqlı məlumatlar vermişlər. Hind və Çin malları Mərkəzi Asiya və Azərbaycan vasitəsilə Qara dəniz sahillərinə aparılırdı. Bu yol üzərində mühüm şəhərlərdən biri də Naxçıvan şəhəri idi. [71]

Qaynaqların məlumatına görə, orta əsrlərdə Azərbaycanı Hindistan və Çinlə əlaqələndirən beynəlxalq ticarət yolunun cənub qolu Mərkəzi Asiya, İran və Azərbaycanın cənub vilayətlərindən keçir, şimal qolu isə Xəzər sahili boyunca Dərbənd keçidinə və Xəzər xaqanlığına doğru gedirdi. Digər mühüm yol isə Araz vadisi ilə İraq və Suriya istiqamətində idi.

Azərbaycanın Bərdə, Beyləqan, Dərbənd, Naxçıvan, Şəmkir, Ərdəbil, Sərab, Təbriz, Mərənd, Səlmas, Bərzənd və s. şəhərləri bu karvan yolarını üstünə olduğundan, orta əsrlər ticarətində mühüm yer tuturdu.

VI-VII əsrlərdə, xüsusilə ərəb xilafətinin Azərbaycanda ağalığı dövründə beynəlxalq ticarət yollarının qovşağında yerləşən Bərdə şəhəri, demək olar, X əsrin ortalarına kimi Yaxın Şərqin ən iri ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Orta əsr ərəb coğrafiyaşünas-səyyahları Bərdədən Hindistana və başqa ölklərə aparılan mallar içərisində yerli boyaq maddəsini, müxtəlif balıq növlərini və s. xüsusi qeyd edirlər.

Bərdəni Kürki və Ərdəbillə Marağa arasındakı Gülsurə bazarlarında "xitay" adlanan Çin ipəyi, qiymətli hind parçaları-bərbəhar, səqat və s. satılırdı. Hind tacirləri Azərbaycandan xam ipək və ipək parçalar, xalça və xalça məmulatı, örtüklər, qaytanlar və digər sənətkarlıq məhsulları aparırdılar. [72]



Mənbələr orta əsrlərdə Azərbaycanda Bərdə-Dərbənd, Bərdə-Tiflis, Bərdə-Dəbil, Bərdə-Ərdəbil, Marağa-Dəbil kimi ticarət və karvan yollarını olduğunu göstərir.

Qərbə doğru gedən karvan yolu Böyük Qafqaz sıra dağlarının cənub yamacları ilə uzanaraq Şamaxı-Vəndam-Şəki-Tiflis istiqamətində Gürcüstana və Qara dəniz sahillərinə çıxırdı. Qərb istiqamətində olan digər bir yol isə Kürün sahili ilə Cavaddan keçib Gəncəyə və Tiflisə, oradan da Qara dəniz sahillərinə uzanırdı. [73]

Şamaxını Rusiya iə birləşdirən şimal yolu Dərbənddən keçib Xəzər sahili ilə Həştərxana gedirdi. Şimal yolunu indiki Xaçmaz rayonu ərazisindəki Niyazabad kəndindən və Bakıdan dəniz yolu ilə də davam etdirmək mümkün idi.

Şamaxıdan Quba və Dağıstana iki qoldan ibarət olan dağ yolları ilə getmək olurdu. Bunlardan biri təngə dərisindən, digər isə Altıağacdan keçirdi. Altıağac yolu xeyli çətin olduğundan ona "Şeytan yolu" deyirdilər.

XIX əsrin əvvəllərində Bakının iri ticarət mərkəzinə çevriməsi ilə Şamaxı əvvəlki mövqeyini itirdi. Bu da öz növbəsində bir çox karvan yollarını istiqamətini dəyişməsinə səbəb oldu. Əgər əvvəllər şimaldan gələn karvan yolu birbaşa Şamaxıya gedirdisə, artıq XIX əsrin əvvəllərində həmin yol Xəzərin sahili ilə uznaraq Bakıya gəlir, buradan

qərbə doğru Qobustan yaylasından keçib, Acınohur dərəsi ilə Şamaxıya gedirdi.

Karvan yolları Azərbaycan şəhərlərini Cənubi Qafqazın ticarət və sənətkarlıq mərkəzləri ilə birləşdirirdi. Cavaddan Tiflisə və Qara doğru gedən karvan yolu Gəncədən keçirdi. [74] Şamaxı-Gəncə-İrəvan arasındakı digər karvan yolu isə Qars və Bəyaziddən keçirdi. [75] Bu yollardan istifadə edən türk tacirləri İzmir və Ərzurumdan keçməklə Avropa mallarını Şamaxıya gətirirdilər. [76]

Qara dəniz sahillərindən gələn karvan yolu Gürcüstan ərazisindən keçərək, Baləkən-Şəki-Şamaxı-Bakı-Xəzər dənizi vasitəsilə və ya Gəncə-Şuşa-Lənkəran-Ərdəbil yolu ilə İrana gedirdi.

Bu dövrdə Tiflis-Gəncə-Şuşa-Cavad-Lənkəran-Astara; Şamaxı-Cavad-Xudafərin körpüsü və sonra Araz vasitəsilə Azərbaycanın cənub vilayətlərinə gedən başqa ticarət-karvan yolları da vardı. [77]

Şimali İranda keçib Hindistana gedən karvan yolunun Azərbbaycanın Cavad və Gəncə şəhərlərinin ötüb Tiflis-Qori-Suram-Kutaisi təriqilə Qara dəniz sahilinə çıxan hissəsi qədim zamanlarda həm də hərb məqsədilə istifadə edilirdi. Azırbaycanı Gürcüstan, Türkiyə və Qara dəniz sahilləri ilə birləşdirən bu yola (Dilican yolu) vaxtilə Cənubi Qafqaz üzərinə hücuma keçən və Bospor çarı VI Mitridat Yevpatoru təqib edən roma sərkərdəsi Qney-Pompey öz orduları ilə hərəkət etmişdi. [78] Əsas karvan-ticarət yollarından sayılan bu yol bütün orta əsrlər boyu mövcud olmuş, yalnız XIX əsrin əvvəllərində qismən öz əhəmiyyətini itirmişdir. S.B.Bronevski həmin yolu öz əhəmiyyətini itirməsini Kiçik Asiyada tür ağalığını qüvvələnməsi, coğrafi kəşflər və Ön Asiyanın təsərrüfat-iqtisadi tənəzzülü ilə əlaqləndirmişdir.


Xudafərin körpüsü

Böyük İpək yolunun magistralı boyunca Azərbaycanın

ticarət əhmiyyətli şəhərlərində və karvan yolları üzərində **karvanasaralar** mövcud olmuşdur. Karvansaralarda karvanların dayanacaq yeri, mehmanxana tipli istirahət otaqları, minik və yük heyvanları üçün ayrıca yer (tövlə) və axurlar, ticarət mallarının saxlanması üçün anbarlar, müxtəlif dükanlar, yeməkxana və s. olurdu. Karvansaralar həmçinni müxtəlif ticarət əməliyyatlarını keçirilməsi üçün ən sərfəli obyektlər idi. Ona görə də karvanmsaralar, bir qayda olaraq, şəhərin qızğın ticarət gedən "qaynar nöqtələrində" tikilirdi. Etnoqrafik materiallardan aydın olur ki, iri karvansarlarda onun daimi xidmətçilərindən başqa, çoxlu çarvadar və hamballar da olmuşdur.

Orta əsrlərdə və XIX əsrdə Təbriz, Şamaxı, Gəncə, Şuşa, Bakı, Naxçıvan, Ordubad, Marağa, Şəki və digər şəhərlərdə xeyli karvansara tikilmişdi. İri ticarət mərkəzlərində onlaca və daha çox karvansara olurdu. XV əsrə aid edilən, indi də Bakıda İçərişəhərdə qalmaqda olan Multanı karvansarası hind tacirlərinin qaldığı yer idi. Onunla üzbəüz həmin dövrə aid Buxara karvansarası yerləşirdi. Hər ikisi bazar meydanı yaxınlığında idi.

Tədqiqatçılar Azərbaycan ərazisində ən yaxşı karvansaraların Beşbarmaqla Bakı Salyan arasındakı ticarət yolu üstündə olduğunu qeyd edirlər. Bu karvanasaralar su quyuları (ovdan), yonma daşdan hörülmüş hasarları və kümbəzvari dam örtükləri ilə fərqlənirdi.

Xalqlar, dövlətlər, quuluşlar, sərəhdlər dəyişsə də, sinəsində çox izləri saxlamış qədim ticarət-karvan yollarının əksəriyyəti hələ də durur, bu gün insanlar xidmət edir. Belə yollardan biri də tarixdə "Böyük İpək yolu" adı ilə tanınan beynəlxalq tranzit-ticarət yoludur. Azərbaycan Respublikasının Prezidenti, ümummili liderimiz Heydər Əliyev Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən ölkələrin inkişafında və onların arasında hərətərfli əlaqlərin dah da genişləndirilməsində, habelə Azərbaycanın dünya birliyi və ölkələri ilə inteqrasiyasının gücləndirilməsində İpək yolunun böyük bərpasını nəzərə alaraq, imzaladığı 17 iyun 1998-ci il tarixli Sərəncamına əsasən həmin il sentyabrın 7-8-də Bakıda tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi. Hazırda bu yolun bərpası üçün ölkədə böyük işlər görülür.

**Daxili yollar.** Azərbaycanın ayrı-ayrı bölgələrini qəza mərkəzləri ilə, kəndləri isə bir- birilə əlaqələndirən daxili yollardan əhali öz aralarında iqtisadi və mübadilə əlaqələri yaratmaq üçün istifadə etmişdir.

Azərbaycanın dağ kəndləri bir-bir ilə başlıca olaraq təhlükəli dağ cığırları ilə əlaqə saxlayırdılar. Bu yollar əksər hallarda çay yataqları boyunca uzanırdı. Bir çox yerlərdə ətraf kəndləri ticarət və qəza mərkəzəri ilə əlaqləndirən yollar iti axan çalar üzərindən keçirdi. Belə yollardan biri İrəvan-Dilican tranzit yolunun Çarustan dayanacağından ayrılıb Tərsçay dərəsi ilə Zəylik-Daşkəsən, oradan Çaykənd və Gəncədən keçməklə Şuşa yaxınlığına qədər davam edirdi. Kənd təsərrüfatı və dağ mədən məhsulları ilə zəngin olan dağlıq ərazilərdən keçən bu yolun Yelizavetpol (indiki Gəncə) quberniyasını daxili ticarəti üçün əvəzsiz əhəmiyyəti vardır. [79]

Əhali arasında "araba yolu", "qara yol", "el yolu" və s. adlanan torpaq yollar, əsasən kəndlərarası əlaqə vasitəsi idi. Dağ və təhlükəli dağ cığırlarından fərqli olaraq, bu yollar təkərli nəqliyyat vasitəsinin işləməsi üçün az-çox yararlı olsa da ilin yağmurlu fəsillərində gediş-gəlişi xeyli çətinləşdirirdi. Dövlət tərəfindən belə yolların düzəldilməsinə heç bir maraq göstərilmirdi. Yolların bərbad olması zəruri mhsulların qiymətinni qalxmasına səbəb olurdu. Məsələn, Gəncə dağlarına (yaylaqlara) çətinliklə gələn Ağdam və Şuşa tacirləri əhaliyə lazım olan malları çox baha qiymətə satırdılar. [80]

Materiallardan aydın olur ki, XIX əsrdə Azərbaycan bazarlarının əksəriyyətində Həftəbazarları mövcud olmuşdur Mal dövriyyəsinin az olmasına baxmayaraq, bu bazarlar daxili yolların abadlaşdırılmasında müəyyən rol oynamışlar. Özlərinin sənətkarlıq və heyvandarlıq məhsullarını həftəbazarlarına çıxarmağa çalışan kəndlərin sakinləri bəzən magistral yollara və bazarlara çatmaq üçün 50-80 km-lik yolu dar cığırlarla getməli olurdular. [81]

Azərbaycan xalqının təsərrüfat məişətində əkinçiliklə yanaşı, maldarlıq da mühü təsərrüfat sahəsi olduğundan, köçmə maldarlıq üçün səciyyəvi olan köç yolu daxili əlaqə yollarını başlıca bir qismini təşkil edirdi. Daimi işlək yollardan fərqli olaraq, köç yollarından, əsasən dağ və aran köçü zamanı istifadə olunurdu. Bu yollardan köçmə maldarlar

istifadə etsə də, oturaq əhalini də iqtisadi həyatında onların müstəsna əhmiyyəti vardı. Köç yolları ilə hərəkt edən aran kəndlərinin oturaq əhalisi öz məhsullarını (taxıl, meyvə bostan-tərəvəz və s.) maldarlıq məhsullarına (yağ, pendir, yun, dəri, ət və s.) dəyişmək üçün tez-tez yaylaqlara qalxırdılar.

Keçmişdə Azərbacanın maldarlıqla məşğul olan hər bir bölgəsində müxtəlif istiqamətlərdə gedən çoxlu köç yolları olmuşdur.

Azərbaycanın Qərb bölgəsində mövcud olan köç yolları Kür çayı üstündəki keçidlərdən başlanılır, düzən yerlərdə çox vaxt kəndlərarası torpaq yollarda (bəzən hətta magistral yollarla), qovuşur, yaylaqlara yaxınlaşdıqca isə dağ cığırları ilə vəz olunurdu. Azərbaycanın digər bölgələrində olan köç yollarından fərqli olaraq, Qərb bölgəsiin köç yolları bolsulu Kür çayından keçirdi. İri körpülərin olmaması üzündən mal-qara və qoyun sürüləri çardan kiçik qayıqlar vasitəsilə keçirmək lazım gəlirdi. Buun üçün Kür üstündəki keçidlərdə xüsusi səriştəli gəimiçilər olurdu və sürü sahibləri onların köməyindən istifadə edilirdi. [82]

Qərb bölgəsinin Qarayazı və Ceyrançöl qışlaqlarından Şahdağ və Muğruz silsilərində qərar tutan yaylaqlara doğru uzanan köç yolları haqqında XIX-XX əsrin ədəbiyyat materiallarında ətraflı məlumat verilir. [83]

XIX əsrin axırlarında Qazax və Yelizavetpol qəzaları əhalsinin birgə istifadə etdikləri köç yolları saəsən Yasamal yolu, Zəyəm dərəsi yolu, Kiran yolu, Sarı yoxuş yolu, Qoşa dəyirman yolu, Qızılbulaq yaylağına gedən yol, və Zada yollarında ibarət idi. [84]

Qərb bölgəsində yaylaqlardan istifadə ed’n Eldar kəndlərini (Poylu, Salahlı, Kəsəmən və Qarabağlı) əhalisi Ceyrnaçöl-Qədili keçidi-Annenfeld-Alman koloniyası-Morul kəndinə kimi müstəqil hərəkət edir, burada Yasamal yolu ilə yaylaqlara qalxırdı. [85]

Şuşa qəzasınd amövcud olan iki əsas köç yolundan biri Kürün sahillərindən başlayaraq Əskəran vadisindən keçib Qırxqız yaylağına, digər isə Xaçın yolu ilə Əylisliyə, oradan da Şuşa kəndinin yanından keçərək Kirs dağına gedirdi. Sonuncu köç yolundan Cavanşir qəzasının əhalisi də istifadə edirdi.

Şirvan elatlarının köç yolundna bəhs edən F.A.Deminski yazırdı ki, Küdrü qızlaqlarından Böyük Qafqaz yaylaqlarına gedən aşağıdakı köç yolları Qobustandan keçirdi:

1. Hərmidağ-Paşalı-Udulu-Yavannı dağı-Mərəzə-Hilmilli-Dibrar.
2. Girdə-Pirsaat vadisi ilə Təsi kəndinədək, oradan Sündü-Qozlu çayı-Dibrar.
3. Kələqaya yolu (Döymə yolu)–Ləngəbiz-Çarhan-Mərzəndigə-Kürdəmir-Astraxanka-Dibrar dağında Sarıdaş yaylağı.
4. Gödəkambarə qışlağı -Kolanı- Göylər- oradan Şamaxıyadək Ortabulaq dərəsilə-Çaylı kəndinədək Pirsaat vadisilə-Kürdəmir-Astraxanka-Dibrar. [86]

Muğan elatlarını yaylaq yerləri Savalan, Qaradağ və Talş dağlarında olduğundan, xüsusilə Savalan yaylaqlarına gedən köç yollarının Biləsuvardan keçirdi: Biləsuvar-Bağrovdağ-Ağ evlər-Gəlin yurdu-Xatınbulaq-Qaraşıran. Şahsevən elatları (xüsusilə Meşkin icmaları) yaylaqlara köçərkən aşağıdakı köç yollarından kütləçi şəkildə istifadə ediridlər:

1. Araz çayını aşağısından və Xoruzlu dağ silsiləsini Şərq hissəsindən keçməklə Bərzəng çayı boyuca.
2. Muğanın qərb hissəsindəki Ziyvə kəndini keçməklə Sambur çayı boyunca Ləngəndən keçməklə Savalan yaylaqlarına.
3. Qarasu çayının yuxarı axarı boyunca.
4. Göytəpə-Səfidağ mahalını keməklə Talış dağlarındakı Çiçəkli dağ silsiləsinni yamacındakı yaylaqlara gedən köç yolları. [87]

Qarabağ elatları isə başlıca olaraq aşağıdakı köç yollarına üstünlük verirdilər:

I. Murovdağ yaylaqlarına gedən köç yolları.
II. Yuxarı Tərtər yaylaqlarına gedən köç yolları.
III. Zəngəzur yaylaqlarına gedən köç yolları.
IV. Qırxqız-Kirs-Sarıbaba; Kirs-ziyarət dağına doğru əsas köç yolları.[88]

**Poçt yolları.** Ölkənin iqtisadi və mədəni həyat səviyyəsini yüksəlməsində böyük rol oynnayan poçt yolları təkcə ayrı-ayrı yaşayış məntəqələri arasındakı əlaqənin deyil, Azərbaycanın başqa ölkələrlə əlaqəsini möhkəmlənməsində də müstəsna əhəmiyyətə malik olmuşdur.

Orta əsr ərəb coğrafiyaşünas-səyyahlarının (İbn Xirdadbeh, əl-İstəxri, İbn Hövqəl, əl-Müqəddəsi və s.) məlumatlarına görə, IX əsrin ortalarından Azərbaycandan keçən mühüm yol qovşaqlarında 50-dən artıq poçt-gömrük məntəqəsi vardı. Yolçular atlarını bu məntəqələrdə dəyişir, poçt baratlarını bu və ya digər yerə aparan qasidlər burada təyin edilir, gömrükxanalar burada olurdu. [89]

Tədqiqatlardan və etnoqrafik şahidlərdən ayıdın olur ki, qədim yolların əsasında salınması poçt yolları təkcə minik və yük heyvanları üçün yox, həm də təkərli nəqliyyat vasitəsinin hərəkəti üçün əlverişli idi.

Bakıdan Tiflisə doğru uzanan poçt yolu Şamaxıdan və Şirvan ərazisindən keçən yeganə magistral yolu olduğundan, Şirvan iqitsadiyyatın şah budağı hesab olunurdu. Yerli əlaqə yollarını demək olar ki, hamısı, hətta təsərrüfat əhəmiyyətli xırda yolların çoxu həmni magistrala qovuşurdu. Ona görə də Şirvanı iqtisadi və mədəni həyatı üçün bu yolun müstəsna əhəmiyyəti vardı. [90]

Bakı-Tiflis poçt yolu Azərbaycan ərazisini bütünlüklə kəsib keçərək Ağstafada iki qola haçalanırdı. Bu yolun bir qolu Dilican-İrəvan-Naxçıvan-Culfa vasitəsilə Təbriz və İranın içərilərinə, digər qolu isə Tiflisə, oradan da Aleksandropola və Qarsa gedirdi. Əhatə etdiyi ərazinin genişliyinə görə bu yolun inzibati, ticarət və hərbi-starteji cəhətdən fövqaəladə əhmiyyəti vardı. [91] Azərbaycan Qərb bölgəsini keçdikdən sonra “Dilican yolu” adlana bu yol XIX əsrin axırlarında Cənubi Qafqaz şose yolları arsında ən işlək yol idi. Tarixi məlumatlara görə hər həstə bu yollar İrəvan və Aleksandropola, oradan da geriyə üç dəfə poçt aparılıb-gətirilirdi.[92]

Azərbaycan ərazisindən keçən digər poçt yolu Novo-Bayazetdən başlayaraq Göyçə gölünün cənub sahili boyunca Gəncəçay vadisi-Zurnabad-Yelizavetpol-Qarasaqqal-Samux pristavlığı-Eldar-Alazan vadisi-Sinqax qəzasına gedə yol idi. [93] Mənbələrdən məlum

olur ki, hələ XVII-XVIII əsrlərdə bu yol ilə Gəncə və Gürcüstan dövləti arasında ticarət əlaqələri olmuşdur. [94]

XIX əsrin onilliklərində Bakıdan Tiflisə gedən əsas poçt yolu Şamaxı, Şəki və Sinqaxdan keçirdi. Digər poçt yolu Şamaxıdan Mingəçevirə keçidi-Gəncə və Ağstafadan Tiflisə doğru idi. [95]

XIX əsrdə Bakı-Salyan; Salyan-Lənkəran-Astara; Bakı-Quba-Yalama; Hacıqabul-Şamaxı; Şamaxı-Ağsu-Kürdəmir; Göyçay-Ucar; Yevlax-Şuşa-Gorus; Yevlax-Ağdam-Qarabulaq-Cəbrayıl və s. istiqamətdə gedən poçt yolları mövcud olmuşdur. Şamaxıdan cənub-şərqə-Salyana gedən poçt yolu Hacıqabulda dəmir yolu ilə kəsişirdi.

Öknənin iqtisadi və mədəni həyatından böyük rol oynayan poçt yollarını təkmilləşdirilməsi, arabaların hərəkəti üçün uyğunlaşdırması, əsasə su maneələri üzərindəcə körpü salınması üçün XIX əsrin ikinici yarısında bəzi addımlar atıldı. Təkərli nəqliyyat vasitələri üçün nəzərdə tutulan Yevlax-Şuşa-Gorus-Naxçıvan-İrəvan yolunun tikintisinə 1870-ci ilin sonu-1871-ci ilin əvvəllərində başlandı. 1873-cü ilin əvvəllərində qədər həmin oyun Zəngəzur qəzası sərhədində-Həkəri çayına qədər olan 13, 5 verstlik hissəsi işə salındı və buarda 2 daş körpü tikildi. 1883-cü ildən sonra yol tikintisinə yedən başlandı və 1886-cı ilin martında Şuşa və Gorus arasıdna poçt yolu açıldı. [96] Bu, Şuşa-Naxçıvan yolunun bir hissəsi idi. Naxçıvandan İrəvana və Tiflisə qədər uzanan digər quru yolun tam tikintisi yalnız XIX əsrin 90-cı illərini əvvəllərindən başa çatdırıldı. Azərbaycanın cənub-qərb bölgələrinin Mərkəzi Rusiya və İranla ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsində bu yolun mühüm əhəmiyyəti olmuşdur.

**Su yolları**. XIX əsrdə Azərbaycan qonşu ölkələrlə su yolları vasitəsilə əlaqə saxlayırdı. Burada su yolları üçün Xəzər dənizi və qismən də Kür çayı əlverişli idi. Bakıdan Həştərxana Mərkəzi Asiya və Xəzər dənizini cənub sahillərindəki vilayətlərə nefti, ipək, zəfəran, duz və s. mallar su yolu vasitəsilə ixrac olurdu.

Yunan coğrsfiyaşünası Strabon qədim Azərbaycan ərazsinidən keçən su tranzit-ticarət yolu haqqında məlumat vermişdir. Müəllif qeyd etmişdir ki, çoxlu hind malalr Oks (Amu-Dərya) çayı ilə Girkan (Kaspi) dənizinə gətirirlir, dənizlə mallar Albaniyaya ötürülür, daha sonra Kür çayı və müəyyən qədər quru yolla Qara dənizə gətirilir.

Azərbaycan ərazisindən keçən su tranzit-ticartə yolu haqqında eramızın I əsrində yaşayan Roma müəllifi Böyük Plini də yazmışdır. O qeyd edir ki, Pompeyin yürüşü (e.ə. 66-65- ci illər) zamanı məlum olmuşdur ki, "Hindistandan 7 günə Baktriyaya (Bəlx) və Oks (Amu-Dərya) çayına tökülən Bəkr çayına gəlmək olar. Bu çaydan Kaspi dənizi ilə Kür çarına gətirlən hind mallarını oradan da quru yolla 5 gündən çox olmayan vaxt ərzində Pont dənizinə tökülən Fasisə aparmaq olur " [97]

Xəzər dənizində böyük ticarət əhəmiyyətli prespektiv görən Rusiya hələ XVII əsrin axırı –XVIII əsrin əvvəllərində I Pyotr həyata keçirilməyə başlamışdı. [98] Baltik dənizi Avropadan Rusiya üçün nə dərəcədə əhəmiyyət kəsb edirdisə, Xəzər dənizi də Şərqdə həmin əhəmiyyətə malik idi. Bu iki dənizi zəbt etməklə ruslar Avropa ilə Asiya arasında əlaqəni genişləndirməyə çalışırdılar.

Bəzən karvan yoları vastəsilə başqa ölkədə saxlanılna ticarət əlaqələri dəniz və çay yolları vasitəsilə davam etdirilirdi. Belə ki, Şamaxıdan Şirvanda genə karvan yolu ya Bakı vasitəsilə ya da, Qobustan yaylası ilə Şabrana, oradan isə Xəzər dənzii vasitəsiə Volqaya gedirdi. Şamaxıdan başlanan başqa bir yol Təngə dərəsi vasitəsilə, Şabrana, oradan isə dəniz yoluilə Həştərxana gedirdi. Şabranda əsas liman Niyazabad hesab olunurdu. [99]

Dənizyolu ilə xarici ticarət ən çox İranla aparılırdı. Xəzər dənizində bu ticarətin əsas mərkəzi Bakı şəhəri idi. Ticarət nöqtəyi-nəzərdən Bakı limanı Şirvanda baş məntəqə sayılırdı.

Xəzər dənizində yük daşıma əsasən rus gəmiləri vasitəsilə icra olunurdu. Şərq ölkləri iqitisadi və texniki gerilik üzündən Xəzər dənizindən uzaq məsafələrə çıxa biləcək donanma yarada bilməmişdilər. Ona görə də Xəzərdə yükdaşıma işini Rusiya öz inhisarına almışdı.[100]

Azərbaycanda gəmiçilik üçün yararlı olan Kür çayı ancaq Mingəçevirə qədər əlverişli idi. Kür sahilindəki Cavad, Qaradonlu və s. kəndlərdə həftəbazarları olduğu üçün hər bazar günləri bu kəndlərə İrandan və başqa yerlərdən müxtəlif mallarla dolu olan kirjim gəlirdi.

**Dəmir yolları.** Dəmir yolu nəqliyyatı müxrəlif yükləri kütləvi şəkildə uzaq məsafələrlə yüksək sürətlə və digər nəqliyyat vasitələri ilə

müqayisədə qat-qat ucuz aparması ilə, həmçinin hərəkətinin müntəzəmliyi ilə fərqlənirdi. [101]

Azərbaycan ilk dəmir yolarının çəkilişinə XIX əsrin 70-ci illərindən başlanmışdır. 1878-ci ildə Bakı şəhərini neft mədənləri və neft körpüsü iə birləşdirən 25,2 verst uzunluğundakı dəmir yol xəttinin inşasına icazə veriliirdi. "Neft sahəsi" adını alan bu xətləribn tikinitisi 1879- cu ilin sonunda başa çatıdrıldı. Və rəsmən 1880- ci ilin yanvarın 20-də istismara verildi. [102] 1879-cu idə "Simens qardaşları" tərəfindən Gədəbəy mis filiz mədəni və Qalakənd misəritmə zavodu arasında darxətli dəmir yonunu inşasına başlandı və 29 verst uzunluğunda olan bu xəttin çəkimıəsi 1884-cu ilin yanvarında başa çatdırıldı. [103]

Cənubi Qafqaz dəmir yolnun "Neft sahəsi" adı ilə məlum olan Azərbaycanın ilk dəmir you Bakını Balaxanı, Sabunçu və Suraxanı mədənləri ilə birləşdirirdi. Əvvəllər bu yol ilə yalnız neft məhsularını daşınması nəzərdə tutulmuşdur. Lakin neft mədənləri ilə Qara şəhərdəki neftayırma zavodları arasında neft kəmərlərinin geniş şəbəkəsi yaradıldıqdan sonra "Neft sahəsi" dəmir yolu xətləri ilə sərnişin daşınmasına da başlandı.

1879-cu ilin dekabrın 22-də Cənubi Qafqaz dəmir yolu hissəsinin –Bakı-Tiflis dəmir yol magistralının çəkilişinə icazə verildi. 515 verst uzunluğundakı bu yolun 1883-cü il mayın 8-də rəsmi açılış oldu və həmin gün Tiflisdən çıxan ilk sərnişin qatarı mayın 9- da Bakıya çatdı. H.Zərdabi Cənubi Qafqaz dəmir yolnunu Bakı-Tiflis sahənni çəkilməsinə böyük qiymət verərək yazırdı ki, Azərbaycanın iqtisadi həyatınnı yüksəlməsində bu yol Bakı neftindən sonra ikinci böyük amildir. [104]

XIX əsrin sonu XX əsrin başlanğıcında Azərbaycan ərazisində daha bir neçə dəmir yolu xəti çəkilib istifadəyə verildi. 1900-cü ildə Bakı-Dərbənd dəmir yolu işə salındı (uzunuluğu 217 verst). Bununla Cənubi Qafqaz dəmir yolu Vladiqafqaz dəmir yolu ilə birləşdi və onun vasitəsi ilə Ümumrusiya dəmir yolu şəbəkəsinə qoşuldu, Azərbaycan və bütövlükdə Cənubi Qafqazla Mərkəzi Rusiya arasında müntəzəm nəqliyyat vasitəsi yaradıldı. 1899- cu ildə Tiflis-Qars dəmir yolu (uzunluğu 282 verst) istismara verildi və elə həmin il bu yolun

üzərindəki Aleksandropol (Gümrü) stansiyasından İrəvana (uzunuluğu 147 verst), oradan da Culfya (uzunluğu 177 verst) doğru dəmir yolu xətlərinin tikintisnə başlandı. 1908-ci il yanvarın 20-də Tiflislə Culfa arasında dəmir yol magistralı rəsmən istifadəyə verildi. [105]

Beləliklə, Azərbaycanın cənub-qərb bölgələrinin ölkənin əsas hissəsi sabit və davamlı nəqliyyat əlaqəsi saxlamaları təmin edilmiş oldu.

Dəmir yolu Azərbaycan qəzalarında əmtəə istehsalının artmasına, kəndli təsərrüfatının əmtəə-pul münaibətlərinə cəlb olunmasına daha əlverişli şərait yaratdı və beləliklə, daxili bazarın genişlənməsinə imkan verdi. Dəmir yolu kənd təsərrüfatında kapitlist münasibətlərinin inkişafını, kənddə sinfi təbəqəni sürətləndirirdi. [106]

Bakı neftini dünya bazarına çıxarılmasında onu dəmir yolu vasitəsilə daşınmasının böyük əhəmiyyəti oldu. Neft məhsullarını dəmir yol vasitəsilə daşınmasında ilk dəfə 1879-cu ildə Bakı Balaxanı dəmir yolu xəttində tətbiq olunan vaqon-sisternlərindən istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, XIX əsrin sonunda dəmir yol neft məhusllarını daşınmasını ancaq 65-70%-ni yerinə yetirirdi. Həmin illərdə neft sənayesini sürətli inkişafı istehsal olunan bütün neft və neft məhsularının dəmir yolu nəqliyyatı vasitəsilə daşınamsını çətinləşdirmişdi. Bu da öz növbəsində Xəzər dənizində neft gəmilərindən ibarət böyük donanmanın yaranmasına və Bakı-Batum neft kəmərini inşasına gətirib çıxardı.

Çar hökümətinin Bakıdan xairicə neft məhsularını ixracını əsaslı sürətdə artırmamaq üçün gördüyü ən mühüm tədbir 1896-1906-cı illərdə Bakı-Batum ağ neft kəmrini inşa etdirməsi oldu. Ümumi uzunluğu 839 verst olan bu boru kəməri il ərzidə 60 milyon pud ağ neft nəql etməyə imkan verirdi. [107]

Dəmir yolu işə düşməsi ilə Azərbaycanın iqitsadiyyatında sosial mədəni həyatında xeyli nəzərə çarpacaq yeniliklər baş verdi. Bu vaxta qədər daxili peşə sahələrindən bir hesab olunan araba, at, uzunqulaq, dəvə və qatırla yükdaşıma daha sərfəli idisə, dəmir yolnunun çəkilişindən sonra bölgələrdə fəaliyyət göstərən yükdaşıyaların (çarvadarların) daşıma istiqamətləri dəyişikliyə məruz qaldı. Azərbaycanda əsas yükdaşıma əməliyyatları dəmir yolu vasitəsilə

həyata keçirilməyə başlandı. Ona görə də, əvvəllər yükdaşıma qəzalardan Bakı, Tiflis, Gəncə şəhərlərinə doğru olduğu halda, dəmir yolları çəkildikdən sonra qəzalardan yaxınlıqdakı dəmir yol stansiyalarına yönəldi, həm də daxili yükdaşımaların həcmi və çeşidi artdığı üçün çarvadarların sayı da çoxaldı. Artıq XIX əsrin 80-ci illərində Şuşa ilə Cəbrayıl qəzasının bir neçə kəndinin əhalisi kütləvi sürətdə çarvadarlıqla məşğul olmağa-Yevlax stansiyasına araba və və furqonlarla yük daşımağa başlamışdılar. Dəmiryolunun işə düşməsi ilə Azərbaycan daxilindəki poçt stansiyaları və poçt yolları sıradan çıxdı və poçt rabitəsi qəza mərkəzlərini dəmir yolu stansiyası ilə birləşdirən və tədricən şoseləşdirən yollarla həyata keçirilməyə başlandı.

XIX əsrin sonu XX əsrin əvəllərində Gəncə, Şuşa, Nuxa, Quba, Lənəkran, Şamaxı və s. şəhərlərlə yanaşı Ağstafa, Şəmkir, Yevlax, Ləki, Ucar, Kürdəmir, Hacıqabul, Naxçıvan, Culfa və s. dəmir yolku stansiyaları daxili ticarətin mühüm mərkəzlərinə çevrilmişdi.

Bakı-Tiflis dəmir yolu və XIX əsrin sonu XX əsrin əvvəllərinə doğru çəkilən digər dəmir yolu xətləri Azərbaycan kəndlilərinin təsərrüfat həyatı üçün böyük əhəmiyyətə malik idi. Dəmir yoluna yaxın kəndlərin təsərrüfatı getdikcə daha çox əmtəə xarakteri kəsb etməyə başladı. Təsərrüfat ukladında yaranan bu dəyişiklik öz növəbsində ictimai münasibətlərə də dərin təsir göstərdi.

XIX əsrin axırlarında Bakıda sərnişin daşımaq üçün relslər üzərində at qüvvəsi ilə hərəkətə gətirlən nəqliyyat vasitəsindən – Konkadan da istifadə olunurdu. Bakıda “At-dəmir yolu səhmdar cəmiyyəti” nə məxsus ilk konka 1889-cu ildə işə salınmışdı. yolun vəziyyətindən və yükün ağırlığından fərqli olaraq konkaya bir, iki və dah çox at qoşulurdu. Atlar vaqonu dartqıya bağlanmış yan qayıları vasuitəsilə çəkirdilər. Dayanacaqlarda konkanı saxlamaq üçün əl ilə idarə olunan tormozlayıcı mexanizmdən istifadə olunurdu. Hərəkət zamanı sürücü bir əli ilə atların cilovunu, digər əli ilə isə həmin mexanizmin dəstəyini tuturdu.

1920-ci ilə yaxın konkanın 14,4 km-lik yolu, 44 vaqonu var idi. Konka əsasən, Vağzal-Bayıl, Vağzal-Şamaxinka, Bayıl-Şamaxinka və Vağzal Qaraşəhər istiqamətində işləyirdi. Bütün istiqamətlərdən gediş-gəliş haqqı beş qəpik idi. [108]

1924-cü ilin fevralında Bakının küçələrində özünə möhkəm yer tutan tramvayın meydana gəlməsi ilə əlaqədar konka aradan çıxmışdır. Bu tramvayın əsasında ilk dəfə olaraq elektrik dəmir yolu çəkimlişdir. 1926-il iyulun 6-da istifadəyə verilən bu yol Bakı-Sabunçu-Suraxanı xəttini birləşdirmişdir.

**Körpülər**. Azərbaycanın əlaqə vasitələrinin bir qismini də çay keçidləri- körpülər təşkil edirdi. Ərazidə mövcud olan irili-xırdalı çoxlu miqdarda çaylar üzərində salımana körpülər vasitəsilə həm Azərbaycan knədləri bir-biri iə əlaqə saxlayır, həmdə onalrın üzərindən ticarət karvan yoları keçirdi. Əlaqə işini qaydaya salmaqdan ötəri əhali, ilk növbədə, çayın ən dar yerindən iki sahil birləşdirən qoşa tirlər atır, üzərində köndələn şəkildə xırda ağac parçalarını yan-yana bəndetməklə "addamac" düzəldirdilər. Çayın yatağı enli olduqda, içərisinə çay daşları doldurulmuş iri hörmə səbətləri çay yatağına yerləşdirilir, üstünə tirlər ataraq körpü düzəldirdilər. Bu məqsədlə iri sal daşlarından istifadə edilirdi. Adətən, təkərəli nəqliyyat vasitələrinin və qoyun sürülərini keçməsi üçün düzəldilən keçidlərdə tirlərin üstünə çubuq çəpərə qoyur, üzərini torpaqlayırdılar. Azərbaycanı bütün bölgələri üçün səciyyəvi olan bu primitiv əlaqə vasitələri çox davamsız olur, tez-tez sıradan çıxırdı.

Azərbaycan da iri körpülər salmaq, yolları abadlaşdırmaq, rahat nəqliyyat vasitlərindən istfadə etmək dövrün xüsusiyyətləri ilə əlaqədar olaraq maddi-texniki imkanların məhdudluğu şəraitində həm çətin həm də ağır bir iş idi. Ona görə də, iri çaylardan keçmək üçün bir çox yerlərdə bərədən istifadə edilirdi. Bununla belə, Azərbaycanın qədim ticarət mərkəzlərindən hesab olunan Şamaxı, Təbriz, Gəncə, Naxçıvan, Ordubad, Bərdə və s. şəhərlərin ticarət yolları üstündə qiymətli, gözəl sənət nümunləri olan körpüklər inşa edimişdir. Xalqımızın keçmiş körpüsalma təcrübəsini parlaq sürətdə əksə etdirən 11 və 15 aşırımlı Xudafərin körpüləri, Sınıq körpü, Aza körpüsü, Qazançı körpüsü, Gəncə körpüləri və s. əsrlərin sınağından çıxaraq son zamanlaradək öz əhəmiyyətini saxlamaqda idi.

XIX əsrin ortalarında Gəncə-Tiflis poçt yolu ilə furqonların hərəkətini asanlaşdırmaq üçün bu yolu kəsib keçən Tovuz və Həsənsu çayları üzərindən ağac körpü, Şəmkirçay üzərindən daş körpü

salınmışdı. 1864-cu ildə Tiflisdən Ağstafaya və İrəvana doğru poçt yolunun şoseləşdirilməsinə və əsas su maneələri üzərindən körpülər inşasına başlandı. 1871-ci il Gəncə şəhərinin mərkəzində Gəncəçay üzərində Qafqazda ilk dəmir körpü istifadəyə verildi. [109] 1873-cü ildə isə Yeni Ağstafa poçt stansiyasından Tovuza kimi 29 verstlik poçt yolunun şoseləşdirilməsinə və Həsənsu, Tovuz çayları üzərindən dəmir körpü inşasına qərar verildi. Lakin həmin dövrdə tezliklə Bakı-Tiflis dəmir yolu çəkiləcəyinə güman edildiyi üçün bu layihə reallaşmadı və Həsənsu çayı üszərindən salınmalı olan dəmir körpünü konstruksiyaları qismən dəyişdirilərək Dilican yaxınlığında Ağstafa çay üzərindən körpünün inşasında istifadə edildi.

XIX əsrin 80-ci illərinin başlanğıcında Bakı-Tiflis dəmir yolu çəkilən zaman əsasən su maneələrinin üzərində salınan dəmir you körpüləri həm də araba və furqonları keçməsi üçün uyğunlaşdırıldı. Kür çayı üzərindən Poylu və Yevlax yaxınlığında, Həsənsu, Ərsik, Zəyəm və İncəçay üzərindən salınan dəmir yolu körpüləri relslərin səviyyəsinə qədər döşəndi ki, arabaların hərəkət etməsi mümkün olsun. Bu məqsəd üçün 22018 rubl vəsait xərclənmişdi. [110]

1897-ci ildə Quba şəhərində Qudyalçay üzərində, 1908-ci ildə Şamaxı-Kürdəmir yolu kəskin keçən Ağsu çayı üzərindən dəmir körpülər sarınmış, XX əsrin əvvəllərində İrana mal aparılıb-gətirilməsini asandlaşdırmaq üçün Culfada Araz çayı üzərindən böyük dəmir körpü inşa edilmişdi. [111]

Qədim çağlardan başlayaraq son zamanlaradək Azərbaycanda asma körpülərdən də istifadə olunmuşdur. Bu körpülər sıldırımlı yaxud çayın enli yerlərində qurulurdu. Asma körpüləri hazırlamaq üçün çayın hər iki sahilinə möhkəmağac dirəklər basdırırdılar. Bəzən dirək əvəzinə qayalardan da istifadə olunurdu. Sonra həmin dirək və qayalara möhkəm kəndirlər bənd edib üstünə taxta hissələr döşəyirdilər. XIX əsrdə bnelə körpüləri metal naqillərdən (tros) düzəldilmiş asma körpülər əvəz etmişdir.

Quba rayonunun Amsar kəndində Qudyalçay üzərindən salınmış asma körpü son zamanlaradək öz əhəmiyyətini itirməmişdi. Bu körpüdən təkcə piyadalar yox, həm minik və yük heyvanları keçirdi.

Xaçmaz rayonni köhnə Xaçmaz adlaan ərazisində piyadaların istifadə etdiyi belə bir körpü Qudyalçay üzərindən, Xanlar rayonunun Eldar kədində isə Qabırrı çayı üzərində salınmışdı.

**Rabitə vasitələri**. Maddi istehsalın əsas sahələrindən biri olan rabitə vasitəlrəi həm də xalqın mədəni həyat səviyyəsini gösətərən amillərdəndir. Rabitə vasitlərinin inkişafı hər bir ictmai-iqtisadi mərhələdə məhsuladar qüvvələrin inkişaf səviyyəsindən asılı olmuşdur.

Qədim zamanlardan insanlar lazımi məlumatları istənilən yerə çatdırmaq məqsədilə zəng, dəf səslərindən, işıq, tonqal, məşəl və s. vasitlərdən, müxtəlif bayraq və əl hərəkətlərindən, habelə öyrədilmiş göyərçinlərdən istifadə etmişlər.

Adətən, düşmən hücumlarına məruz qalan yerlərin əhalisi hündür yerlərdə və ya qüllələrdə tonqal qalayıb, tüstünün qalınlığı, istiqaməti ilə düşmən orudusunun sayını, hərəkət və istiqamətini qonşu bölgələrə xəbər vermişlər.

Qədim zamanlarda şifahi məlumatları lazımi yerə çatdırmaq üçün "çapar" və "qasid"lərdən geniş istifadə olunmuşdur. Sonralar yazılı məlumatlarla rabitə (əlaqə) saxlanması əsasında poçt idarəsi yarandı.

Şərqdə poçtun təşkili və nizama salınması İran hökmdarı I Daranın (eramızdan əvvəl 522-486-cı illər) adı ilə bağlıdır. [112]

Poçt sözü qədim yunan dilində "dayanacaq" mənasında işlənmişdir. Geniş mənada isə o, istifadə üçün əlaqə növlərindən biri olmuş və olmaqdadır.

Qədim şərq ölklərində olduğu kimi, Azərbaycanda da poçtun fəaliyyəti atalrla həyata keçirilirdi. Poçt vasitəsilə, sənədlər, məktublar, xırda bağlamalar, pul baratları və b. əmanətlər göndərilirdi. Qədim poçt dayanacaqlarında məktub və bağamalara möhürlər də vurulurdu. Dayanacaqlar arasındakı məsafə təbii-coğrafi şəraitlə əlaqədar olaraq 15 km-dən 20-25 km-ə qədər olurdu. Hər dayanacaqda hazır duran çapar onu çatdırılan göstərişləri qəbul edib növbəti dayanacağa yola düşür və beləliklə, məktub və yüklər yolda ləngidilmədən, sürətlə istənilən yerə çatdırılırdı.

Dövlət əhəmiyyətli gizli sənədlər daşıyan çapar isə məktubu başqa çapara vermirdi. O, ancaq dayanacaqda atını dəyişərək yoluna davam edirdi. Beləliklə, bir çapar bəzən gün ərzində 150 km-ə qədər

yol gedə bilirdi. Orta yüzilliklərdə güclü hakimyyətə malik bir çox ölkələrdə poçt işlərinə xüsusi fikir verilməsinə baxmayaraq, poçt rabitəsi çox aşağı səviyyəd idi. Poçt xidmətinin sürətli inkişafı, xüsusilə buxar gəmilərinin və dəmir yolarının inkişafı ilə bir vaxta təsadüf edir.

Çar Rusiyası Azərbaycana müntəzəm əlaqə saxlamaq məqsədilə 1818-ci ildə Yelizavetpolda (Gəncə) poçt idarəsinin açılmasına, 1826-cı ildə isə Bakıda poçt ekspedisiyasının təsis olunmasını təşkil etdi.

[113] XIX əsrin 30-cu illərində Quba, Naxçıvan, Şuşa, Şamaxı, eləcə də Lənkəran, Nuxa (Şəki) , Salyan və digər yerlərdə də poçt idarələri yaradıldı. [114]

XIX əsrin 60-cı illərindən sonra Rusiyasının mərkəzi quberniyalarında sənayenin sürətli imkişafı xammala olan təlabatı artırırdı. Buna görə də, Rusiya ipək, texniki bitkilər və digər məhsullar istehsal olunan mərkəzlərlə əlaqəni möhkəmləndirmək məqsədilə Azərbaycanda yol çəkilişi ilə yanaşı, poçt rabitəsinin yaxınlaşmasınada xüsusi fikir verirdi.

XIX əsrin 60-70-ci illərində Azərbaycanın, demək olar ki,bütün şəhərlərində və qəza mərkəzlərində, o cümlədən Göyçay, Ağdaş, Zaqatala, Şuşa, Culfa, Ordubad və s. yerlərdə poçt idarələri fəaliyyət göstərirdi. Əsrin axırlarında Azərbaycanda poçt idarələrninin sayı 60-dan çox olmuşdu ki, bunlarında yaranmasına Bakı-Tiflis və Bakı-Dərbənd dəmir yolu xətlərinin işə düşməsini böyük rolu olmuşdu. [115]

Çünki dəmir yolu stansiyaların hamısında poçt qəbulu təşkil edilmişdi.

Kapitalizmin inkişafı və ticarət əlaqlərin genişlənməsi daha münasib rabitə vasitlərinin yaranmasını təmin edirdi. Belə rabitə vasitələrindən bir də teleqraf olmuşdur. İlk teleqraf rabitəsi XIX əsrin 30-cu ilərində meydana gəlmişdi. Rabitənin sənədli forması olan teleqrafla ancaq qısa məlumatlar göndərilirdi.

Azərbaycanda ilk teleqraf xətti 1864-cü ildə Naxçıvanda Culfa arasında çəkilmişdir. Bu, Tiflis-Culfa teleqraf xətinin bir hissəsi idi. [116]

XIX əsrin ikinici yarısından etibarən Azərbaycanda xalq təsərrüfatını müxtəlif sahələrinin, o cümlədən neft, dağ-mədən,

ipəkçilik, tütünçülük və digər sənaye sahələrinin sürətli inkişafı teleqrafın da inkişafına təkan verdi. Buna görə də, təəccüblü deyil ki, yeni teleqraf stansiyaları o yerlərdə yaradılırdı ki, oranın sənətkarlıq, ticarət və hərbi münasibətlərində böyük rolu vardı.

1868-cı ildə Nuxa, Ağdaş, Göyçay və Şamaxıdan keçən Bakı-Tiflis teleqraf xətti başa çatdırıldı. Yenə həmin ildə Nuxanı və Gədəbəy mis zavodunu Yeliozavetpolla (Gəncə) ilə birləşdirən teleqraf xətti çəkildi. Şuşa şəhərində yerləşən mülki müdriyyət və inzibati idarəlrəin tələbini dəmək məqsədilə 1876-cı ilin yanvarında Yelizavetpoldan Şuşaya teleqraf xətti çəkildi. [117]

Bakını Rusiya teleqraf xəttinə birləşdirilməsi və onun Krasnovodsk (Türkmənbaşı) ilə müxtəlif əlaqələrin genişlənməsi bu şəhərlər arasında teleqraf xətini yaranmasına səbəb oldu. Xəzər dənizin dibi ilə gedən bu xəttin çəkilməsi 1879-cu ilin oktyabrında başa çatdırıldı. [118]

Sərhəd rayonlarına yerləşən hərbi hissələrin tələbini öyrənmək məqsədilə 1880-ci ildə Şuşa şəhəri ilə iran sərhəddindəki Vəng kəndi teleqraf xətti iə birlşdirildi. [119] 1882-83-cü illərdə Qubanı Qusarla, Bakını Salyan və Lənkərana birləşdirən teleqraf xətləri də istismara verildi. 1880-90-cı illərədə teleqraf stansiyaları Qazax, Yevlax,Tətər, Ağdaş, Cəbrayıl və s. yerlərdə də açıldı. [120]

Beləliklə, XIX əsrin axırlarında Azərbaycanın bütün şəhərlərində və bir çox kəndlərnidə poçt stansiyaları ilə yanaşı, teleqraf məntəqələri də fəaliyyətdə idi.

Teleqrafın mövcud olması öz növbəsində rabitənin yeni, həm də daha rahat və təcili növü olan telefonun yaranmasına səbəb oldu.

XIX əsrin sonlarına yaxın Azərbaycan da sənayenin, ticarətin, xüsusilə də Bakıda neft sənayesinin sürətli inkişafı telefon rabitəsinə olan ehtiyacı artırmışdı. İlk telefon xətti 1880-ci ildə Bakıda “Qafqaz və Merkuri” cəmiyyəti tərəfindən çəkilmişdi. Bunun ardınca 1881-cı ildə Nobel qardaşlarının yaratdığı ikinci telefon xətti Balaxınıdakı Nobel mədənlərini Qaraşəhərdəki neft zavodları ilə birləşdirirdi.

Nobel qardaşlarından sonra telefon əlaqələrinin yaradılması ilə H.Z.Tağıyev və başqaları da məşğul olmuşdur. Daha sonra Bakıda mərkəzləşdirilmiş telefon xəttlərini qurşadırılması üçün poçt və teleqraf

baş idarəsi tacir Qustav Listlə müqavilə bağladı və bunun nəticəsində tezliklə Balaxınadakı köməkçi stansiya ilə birlikdə Bakı telefon stansiyası yaradıldı. [121]

Bakının yüksək inkişaf etmiş sənaye mərkəzi olması, onu Rusiya və İran arasında ticarət yolu üzərində yerlşməsi və eləcə də Tiflisin o vaxtlar bütün Qafqazın mərkəzi olmaqla bank, ticarət firmalrının, ayrı-ayrı təşkilatların, həmçinin bütün dövlət idarələrinin buarda yerləşməsi bu iki şəhərin telefona əlaqələndirilməsini tələb edirdi. Beləliklə, 1911-ci ilin dekbarında Bakı-Tiflis telefon rabitəsi xətti işə düşdü.

XIX əsr Azərbaycanda geniş xalq kütlələrinin adlarını çəkdiyimiz rahat və səmərli rabitə növlərinin istifadəsi zəif idi. Buna görə də xalq bəhs oluna dövrdə ənənəvi rabitə vasitələrindən olan “nişanə göndərmək”, “ismarıc etmək”, “dil yetirmək” (“dilcavabı”) və s.-dən isitfadə etməyə məcbur idi.

1920-ci ildən sonra poçt xidməti sahəsində əhəmiyyətli dəyişikliklər həyata keçirilmiş, geniş telefon, teleqraf rabitəsi şəbəkəsi yaradılmış, rabitənin radio, televiziya kimi yeni növləri fəaliyyətə başlamışdır. Əhalinin maddi və mənəvi mədən ihəyat səviyyəsinin yüksəlməsi ilə əlaqdar olaraq kəndli məişətinə bu rabitə növləri geniş daxil edilmişdir.

Əhaliyə rabitə xidməti mədəniyyətini yaxşılaşdırmaq məqsədilə son vaxtlar şəhərlərarası telefon rabitəsi avtomatlaşdırılmış, ötürücü televiziya qüllələri tikilmiş, kəndlərin telefonlaşdırılması və radiolaşdırılması demək olar ki, başa çatdırılmışdır. Hazırda xalqımız rabitə xidmətinin bütün növlərindən geniş şəkildə istifadə edir.



# AİLƏ VƏ AİLƏ MƏİŞƏTİ



# AİLƏ

Ailə cəmiyyət ilə qırılmaz tellərlə bağlıdır. Məlumdur ki, bəşər cəmiyyətinin özəklərindən birini təşkil edən ailə xüsusi mülkiyyət və dövlətlə eyni zamanda təşəkkül tapmışdır. Cəmiyyət inkişaf etdikcə, onunla birlikdə ailə də inkişaf etmişdir. Məşhur amerikan ailimi L. Morqanın yazdığı kimi, "ailə fəal bir başlanğıcdır, o heç bir vaxt bir yerdə dayanıb durmur, cəmiyyət aşağı pillədən yüksək pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yuxarı formaya keçir". [1] Tarixin müxətlif inkiaşf mərhələrlərndə baş verən ictimai-iqtisadi və siyasi mədəni dəyişikliklər ailədə və onun məişətində də öz əksini tapır. Deməli, ailə icitmai-tarixi kateqoriyadır. Cəmiyyətin özəyini təşkil edən ailələr nikah münasibətləri əsasında qurulur, qan qohumluğu prinsipi ilə formalaşır, qarşılıqlı cavabdehlik, məsuliyyət və köməklik kimi ənənəvi münasibətlər sistemi ilə möhkmələndirlilir. Ailə üzvləri-ər ilə arvad, valideylər və övladlar, qardaşlar ilə bacılar arasındakı özünəməxsus münasibətlər sistemi ailənin əsas əlaqələrini müəyyələşdirir.

İnsanların həyatının çox hissəsi ailədə keçir. Təsərrüfat ənənələrinin və əmək vərdişlərinin əsası, yeni nəslin tərbiyəsinin təməli ailədə qoyulur, onların maddi və mənəvi tələbatları burada təmin olunur, qarşılıqlı cabadehlik, məsuliyyət və köməklik hissələri ailədə formlaşır. Deməli, ailəni səciyyələndirən əsas xüsusiyyətlər nikah, qan qohumluğu, məişət birliyi və ailə üzvləri arasındakı münasibətlər sistemindən ibarətdir. Ailə tarixi inkişafın müəyyən mərhələsində nikah və qan qohumluğu əsasında cəmiyyətin özəyi kimi təşəkkül tapmış ümumi mənafe ilə birləşən, məişət birliyi və birgə yaşayış şəraiti ilə bir-birinə bağlı olan insanların ən kiçik təbii kolektividir. Ailə həm də mənəvi dəyərlərin o cümlədən adətlərin və mərasimlərin icra olunduğu özəkdir. Şübhəsiz, Azərbaycan ailəsi də qədim zamanlardan bəri bəşəriyyət üçün səciyyəvi olan bu əsaslar üzərində qurulmuşdur.

Azərbaycan ərazisinidə ailəni təşəkkül prosesinin Eneolit dövrünü sonunda baş verdiyi ehtimal edilir. Azərbaycanda arxeoloji qazıntılar zamanı aşkar edilmiş, eneolitin sonlarına aid yaşayış məskənlərindəki təsərrüfat-məişət komplekslərini kərpic arakəsmələr və divarlar vasitəsiə yaşayış otağı; ərzaq anbarı və həytəyanı sahələr ayrılması, ehtimal ki, ailənin təşəkkülü ilə bağlı olmuşdur. [2] Erkən Tunc dövründə (e.ə. IV miniiliyin sonu –III miniiliyin əvvəli) Azərbaycan ərazisində xüsusi mülkiyyət, sinfli cəmiyyət və dövlət qurumlarının təşəkkülü haqqındakı qədim sümər kitabələrdə məlumat vardır. E.ə. 2104-cü aid olan bir sümər kitabəsində xəbər verilir ki, Uruk şəhərini hökmdarı ensi Utuhenqal Kuti və Tirikanı hakimiyyətindən devirmək üçün onu "arvad ərindən, övladı



Varlı ailəsində qız toyu (rəssam Ömər Ömərzadə)

valideyndən ayırmaqda" ittiham edərək, əhalini ona qarşı qoyama qaldırır. [3] Qaynağın verdiyi məlumatdan aydın olur ki, qədim Mesopotamiya və Azərbaycan ərazisində ailə cəmiyyətinin mənəvi dəyərlərindən biri kimi qiymətləndirilirdi. Azərbaycanın qədim

soylarında olan kutilər ailənin cəmiyyətin müqəddəs kiçik özəyi hesab edirmişlər.

Azərbaycan ailəsi və ailə məişəti haqqından mənbələrdə, yazıl abidələrində və qaynaqlarda, [4] XIII əsr böyük Azərbaycan alimi Nəsirəddin Tusinin, [5] Azərbaycan ədəbiyyatı klassiklərini əsərlərində, şifahi xalq ədəbiyyatını nümunələri olan dastanlarda əhəmiyyətli məlumatlar vardır. Azərbaycanlıların ailə və ailə məişətinə dair maraqlı materiallar XI-XVIII əsrlər aid mənbələrdə öz əksini tapmışdır. [6] Azərbaycanda ailə və ailə məişəti məsələləri XVIII əsrin sonundan başlayaraq XIX əsr və XX əsrin başlanğıcında yazılmış etnoqrafik səpkili rusdilli ədəbiyyatda da öz əksini tapmışdır. [7]

Həmin materilların müqayisəli təhlili aydın surətdə göstərir ki, Azərbaycanda orta əsrlərin ailə məişəti ilə yeni dövrün ailə məişəti arasında kəskin fərqlər olmamışdır, yəni Azərbaycan xalqının ailə məişətində varislik ənənələri müşahidə edilir. Deməli, Azərbaycan xalqı ailə və ailə məişəti ilə bağlı olan adət-ənənələrini əsrlər boyu qoruyub saxlaya bilmiş, onları təkmiləşdirmiş, inkiaf etdrimiş və bu ənənələr tarixin sınaqlarından keçərək zəmanəmizədək gəlib çatmışdır.

Azərbaycan xalqı dünyanın əxlaqi cəhətdən ən təmiz və möhkəm ailələrindən biridir. Ailə üçün mühüm olan bu xüsusiyyətlərindən dərin kökləri vardır. Həmin köklər Azərbaycan ailəsinin inkişaf yolu ilə bağlıdır. Dünyanın bütün xalqlarında olduğu kimi, azərbaycanlılarda da tarixi inkişaf prosesində ailənin həcmi və strukturu ilə müəyyən edilən iki forması mövcud olmuşdur: böyük ailə və kiçik ailə.

**Böyük ailə.** Böyük ailələrə tarixi və etnorqafik ədəbiyyatda ailə icması, yaxud patriaxal ailə, nəsli ailə, bölünməmiş, birləşmiş və ya mürəkkəb ailə və s. adlarla məlumdur. Ailə icması üç, dörd və bəzən beş nəslin nümayəndələrindən ibarət olub ata, oğul, nəvə, nəticə və eləcə də qardaşların ailələrini birləşdirən kiçik ictimai kollektiv, təsərrüfat özəyidir. Bu kollektivə oun ağsaqqalı başçılıq edirdi. Ailə icması üçün səciyyəvi cəhət onun üzvlərini torpaqdan, əmək alətlərindən, ev heyvanlarından, digər mülkiyyət və əmlakdan birlikdə isitfadə etməklə, birgə istehsal və birgə mənimsəmədir. Bu xüsusiyyətlər ailə icmasını təsərrüfat və ictimai mahiyyətini müəyyənləşdirməklə onun təbii əsasını təşkil edir.

Ailənin tarixi forması olan böyük ailənin təşəkkülü xüsusi



Kasıb ailəsində qız toyu (rəssam Əzim Əzimzadə)

mülkiyyətdən meydana çıxması, ata nəslininə qərarlaşması və nəticədə qəbilə icmalarının dağılması, kənd icmalarını yaranması ilə əlaqədardır. Qan qohumluğu prinsipi ilə təşəkkül tapmış qəbilə icmalarında fərqli olaraq kənd icmalarında böyük patriaxal ailələr qonşuluq, ərazi prinsipləri ilə birləşirlər. Kənd icmaları daxilində mövcud məhsuldar qüvvələrin inikişaf səviyyəsi, təbii olaraq, ailə icmaların həcmini məhdudlaşdırırdı. Böyük ailələr müəyyən həddə çatdıqda parçalanaraq kiçik ailə icmalarına bölünürdülər. Bu yeni ailə icmaları da böyüyərək müəyyən həddə çatdıqdan sonra öz növbəsibndə dah yeni ailə icmasına bölünürdülər. [8]

Azərbaycanda qəbilə icmalarını nə vaxt kənd icmaları il əvəz olunması və onların tərkbində ailə icmasını nə vaxt yaranması və dağılması tarixini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Qoşu İran və orta Asiyada ailə icmalarının dağılmasını və böyük ailələrin kiçik ailələrə parçalanmasını rus alimləri eramızın V əsrinə aid edirlər. [9] Azərbaycan etnoqrafı Q.Qeybullayev də həmin materiallara

əsaslanaraq Azərbaycanda böyük ailələrin V əsrdən başlyaraq kiçik ailələrə bölünmsəini ehtimal edirş [10] Bu fərziyyə orta əsr Azərbaycan xalq dastanlarını materialları ilə də təsdiq olunur. Dastanlarda böyük ailələr haqqında demək olar ki, heç bir məlumat verilmir və təsvir olunan ailələrin hamısı kiçik ailələrdir. Bu da təbiidir. Çünki, böyük ailələr ptriaxal-qəbilə quruluşu üçün tipik olan ailə forması hesab edilir, və ictmai icma quruluşunu dağılması nəticəsində böyük ailələr də dağılmalı idi.

XIX əsrdə Azərbaycanda böyük ailələrin bərpası üçün tarixi şərait yaranır. XIX əsrin ortalarında Azərbycanda olmuş alman səyyahı A.Qaksthauzen "qalıqlar" halında mövcud olan böyük ailələr haqqında məlumat verərək yazırdı ki, ata vəfat etdikdən sonra, adət əsasında varidatın bölüşdürülməsinə icazə verilməsinə baxmayaraq, çox vaxt qardaşlar ailənin təsərrüfatına birgə sahiblik etməkdə davam edirdilər. [11] XIX əsrdə Azərbayucanda ailə icmasını bərpası Rusiya imperisyasında çar hökümətinin kənd icmalarının (cəmiyyətlərinin) bərpası üçün göstərdiyi qayğı ilə bağlı idi. Kənd cəmiyyətləri haqqında hazırlanmış əsasnaməyə uyğun olaraq vergilər kənd əhalisini sayına görə deyil, kənddəki "tüsütlərin", yəni aliə təsərrüfatlarının sayına görə müəyyən edilirdi. Vergilərin ödənilməsi üçün cavabdeh olan kənd cəmiyyətləri böyük ailələrin kiçik ailələrə parçalanmasınıı qarşısını almağa çalışırdılar. Çünki hər bir yeni ailənin meydana gəlməsi icmanın ödəməli olduğu ümumi verginin artmasına səbəb ola bilərdi. Kənd cəmiyyətləri daxilində böyük ailələrin saxlanmasında həmin ailələrin özlərini də maraqları vardır. İcma torpaqlarında birgə istifadə qaydalarına görə əkin yerləri və biçənəklər vaxtaşırı olaraq icma üzvləri arasında bölüşdürülürdü. Pay torpaqların əkib becərmək üçün müəyyən miqdarda işçi qüvvəsi, qoşqu heyvanları, toxum və əmək alətləri tələb olunurdu. Kiçik ailələrin belə imkanları az olduğundan çox vaxt öz pay torpaqlarını əkib-becərməyə gücləri çatmırdı. Kifayət qədər işçi qüvvəsi, qoşqu heyvanı, toxum və əmək alətlərinə malik olan böyük ailələr də isə qardaşlar pay torpaqlarını birgə səy ilə əkib— becərə bilirdilər.

XIX əsrin ikinici yarısı -XX əsrin əvvəllərində Azərbaycan kəndini məişətini tədqiq etmiş müəlliflər Qazax, İrəvan, Naxçıvan,

Gəncə, Qarabağ, Şəki, Şirban, Muğan, Quba, Bakı və Lənkəran bölgələrində, həmçinin Gürcüstanın və Dağıstanın azərbaycanlılar yaşayan bölgələrində böyük ailələrin mövcud olması haqqında məlumat verir və qeyd edirdilər ki, ailənin başısı vəfat etdikdən sonra da varidat ailə üzvlərinin ümumi istifadəsində qalırdı. Ailə əmlakının bölüşdürülməsi nadir hallarda baş verirdi.

XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində Azərbaycanda böyük ailələrin yaranması tarixən mövcud olmuş ənənəvi yolla, yəni ailə icmalarının müəyyən həddə qədər böyüyərək, nisbətən kiçik ailə icmalarına parçlanması yol ilə baş vermirdi. Əkisnə bu dövrə Azərbaycanın böyük ailələrin əksəriyyəti ictimai-iqtisadi şəraitlə əlaqədar olaraq qardaşlarını azsaylı kiçik ailərinin bir qimsinin müəyyən müddət, əsasən atalarının sağlığında bir yerdə yaşamaları nəticəsində təşəkkül tapırdı. Adətən, belə ailələr ailə başçısını vəfatından sonra kiçik ailələrə parçalanırdı və ailə icmaları dağılırdı. XIX əsrin sonu XX əsrin əvəllərində Azərbaycanda mövcud olan ailə icmalarının necə adlanması haqqında qaynaqlarda heç bir məlumat olmadığı kimi, Azərbaycan entoqrafiya elmində də dəqiq və vahid fikri yoxdur. Etnoqrafik ədəbiyyatda böyük ailə mənasında “külfət”, “bir çətən”, “xizan”, “arxa” və s. ifadələr işlədilir. Əslində isə xalq arasında işlədilən bu ifadələr sadəcə “ailə” anlayışının sinonimləri olub, dilimizə Azərbayucan xalqının etnogenezi prosesində iştirak etmiş soy və xalqların dillərindən keçmişdir. Böyük ailə üçün 11 nəfərdən ailə üzvünü olmasın meyar götürən Q.Qeybullayev XIX əsrin sonunda Azərbaycanı əksər bölgələrini əhatə edən Bakı və Yelizavetpol quberniyalarına 25283 böyük ailənin olduğu qənaətinə gəlmişdir. [12] Əlbəttə ailə üzvlərnin sayının çoxluğu böyük ailələrin səciyyəvi xüsusiyyətlərindən biridir. Azərbaycanda daha çox böyük üzvü olan ailələr haqqında məlumat vardır. Etnoqraf Q.Qaraqaşlı XIX əsrin əvvllərində Qazax qəzasında hər birinin 30-40 nəfər üzvü olan böyük



Beşik

ailələrə haqqında məlumat verilmişdir. [13] Lakin ailə üzvlərinin sayının çox olması ailə icmaları üçün yeganə meyar hesab edilə bilməz. Ailə icmaları üçün əsas meyalardan biri də ailə üzvlərini sayı ilə yanaşı, müxtəlif nəsilləri təmsil edən bir neçə kiçik ailənin birgə yaşamasıdır, yəni valideylərin öz oğullarını ailələri ilə birlikdə yaşayıb bir təsərrüfat daxilində kollektiv həyat tərzi sürməsidir. Ailə üzvlərinin sayına gəldikdə isə qeyd etmək lazmdır ki, Azərbaycanda o dövrdə üzvlərnin sayı 11 nəfərdən çox olan "kiçik" ailələr də az deyildi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda böyük ailələr qalıq kimi mövcud olsa da, onlarda klassik ailə icmalarının qayda-qanunlar, ənənələri saxlanmışdır. Böyük ailə daxilində qarşılıqlı münasibətlər adətlərlə tənzim olunurdu. Ailə üzvləri arasına yaş xüsusiyyətlərini nəzərə almaqla xüsusi davranış qaydaları mövcud idi. Böyük ailənin başçısı ağsaqqal hesab edilirdi. Bir qayda olaraq ailənin başçısı–böyük ata olurdu. Ata vəfat etdikdən sonra onun yerini böyük oğul tuturdu. Odur ki, ata hələ sağ ikən oğlanlardan bacarıqlısının onu əvəz edəcəyini vəsiyyət edirdi. XIX əsrin ikinci yarısı –XX əsrin əvvəllərində Azərbaycanda böyük ailənin başçısına şəxsi adı ilə deyil, qəbul olunmuş ənənəyə uyğun olaraq, "baba", "dədə", "böyük ata", "dadaş", "əmi", "dayı", "ağa", "lələ" kimi müxtəlif adlarla müraciət edirdilər.

Ailə icmasnı başçısı olan "ağsaqqal" böyük hüquqlara malik idi. O, ailə üzvləri arasında onların yaş xüsusiyyətini və şəxsi qabiliyyətini nəzərə almaqla, vəzifə bölgüsü aparır, bütün təsərrüfatı idarə edir, ailənin gəlirinin bir yerdə toplanmasına və bölüşdürülməsinə nəzarət edirdi. İcma daxilində ailə başçısını böyük hüquqları olmasına baxmayaraq hakimiyyəti qeyri-məhdud deyildi. Mövcud etik normaları ailə daxilində və məşiətdə ailə başçısının hakimiyyətini məhdudlaşdırırdı. Ailə icmasıın başçısı mühüm məsələlərin həllində ailənin yaşlı üzvləri ilə, çox vaxt yaşlı qadınlar ilə məsləhətləşirdi. Ailə icması daxilində ağsaqqalın hörməti və nüfuzu da onun belə məsələləri necə həll etməsindən asılı idi.

Böyük ailənin daxilində ev işlərinə bir qayda olaraq ailə başçısını arvadı- ağbirçək qadın başçılıq edirdi. Böyük ailənin ağbirçəyinə də hörmət əlaməti olaraq, ailə icmlarında ağbirçəyə "böynənə", "nənə",

“ana”, “cici” və s. adlarla müraciət edilirdi. Ailənin bütün qadınları – gəlinlər və qızlar, eləcə də uşaqlar və nəvələr və nəticələr ağbirçək anaya tabe idilər və öz hərəkətləri üçün onu qarşısında cavab verirdilər. Ağbirçək ana ailə icmasının ərzaq məhsularının saxlanmasına və yeməklərin paylanmasına nəzarət edir, gəlinlər və qızlar arasında vəzifə bölgüsü aparır, onlar tapşırıqlar verirdi. Adətən müdrik ağbirçək analar öz vəzifələrin bir hissəsini böyük gəlinə tapşırırdılar. Böyük ailənin başçısı vəfat etdikdə onun “müdrik” və ya “hökmlü” arvadı-ağbirçək ana ailəyə başçılığı öz əlinə alırdı. Bəzən ailənin böyük oğulları anlarının ağıllı və bacarıqlı qadın olduğu görüb özləri onun ailə icmasına başçılıq etməsini xahiş edirdilər. Ağbirçək analar həm də gözəl qayınana olurdular və ailəni gəlinləri arasında mehriban qarşlıqlı münasibətlərin olmasına çalışırdlar. Bir sözlə, böyük ailə daxilindəki qayda-qanunlar adətlərlə tənzimlənən demokratrik prinsiplərə uyğun gəlirdi. Elə bu bu xüsusiyyətlərinə görə böyük ailə etnoqrafiya elmində ailə icması adlandırılır.

Ailə icması üzvləri arasında əmək bölgüsü mövcud idi. Təsərrüfatda ağır işlərin görülməsi ilə kişilər məğul olurdular. Kişilərin bir neçəsi əkinçilik, bir neçəsi maldalrq, bie neçəsi günədlik ev təsərrüfatı iə məşğul olurdu. Kişilər arasında əmək bölgüsü aparılan zaman onların təcrübələri, vərdişləri və bacarıqları nəzərə alnırdı. Bu da bir tərəfdən gənlərin işə açmasına, digər tərəfdən yaşlıların iş təcrübələrinə və vərdişlərinə yiyələnmələrinə imkan yaradırdı. Ailə icmalarında mal-qaranın sağılması, süd məhsullarını hazırlanması, xalça-palaz toxunması, yemək hazırlanmsı, qab-qacağın və paltarların yuyulması, ev-eşiyin sahmana salınması işləri ilə qadınlar məşğul olurdular. Qadınların arasında da əmək bölgüsü yaş xüsusiyyətləri və iş təcrübələri nəzərə alınmaqla aparılırdı.



Nənni

Ailə icmasına daxil olan ailələr bir evdə birgə yaşayışdılar. Xanlar rayonu ərazisində apırlanan arxeoloji qazıntılar zamanı böyük ailələr məxsus uzunsov formalı çoxlu yaşayış evi yerləri aşkar edilmişdir. [14] Azərbaycanda böyük ailələr XIX əsrdə də birgə yaşamaqda davam etmişlər. Naxçıvanın Kolanı kəndində XIX əsrdə tikilmiş və 100 kv.m sahəsi olan "qaradam" tipli yaşayış evinin böyük ailəyə mənsub olduğu müəyyən edilmişdir. [5] Qazax, Zəngəzur, Gəncə və Qarabağ bölgələrində "qaradam" tipli yaşayış evlərinin bəzilərində də 30-35 nəfərlik böyük ailə yaşamışdı. [16] XIX əsrdə Azərbaycanın kənd əhalisinin iqtisadi məişətinin öyrənilməsinə hərs olunmuş materiallarda Şəki və Quba bölgələrində bir neçə evli qardaşın birgə yaşadıqları "Г" çəkilində tikilmiş böyük evlər haqqında məlumat verilir. Hər biri 5-6 otaqdan ibarət olan belə evlər Quba bölgəsində XX əsrin 20-30-cu illərinə qədər qalmışdı. [17]

XIX əsrin sonunda Rusiyada kəndli islahatları, kapitalist münasibətlərin Azərbaycan kənd təsərrüfatına yol tapması, kənddə əmtəə-pul münasibətlərinin formalaşması böyük ailələrin parçalanması üçün zəmin yaradır. Böyük ailə daxilində kiçik ailələrin xüsusi mülkiyyətə meyli artır. Evli qardaşların hər biri uşaqları böyüdükdə müstəqilliyə can atır ki, ata mirasını öz varislərinə ötürə bilsin. Böyük ailələrin dağılması prosesi XX əsrin 30-cu illərinədək davam edir. XX əsrin 30-cu illərində ailənin təsərrüfat özəyi funksiyasını itirməsi nəticəsində "qalıqlar" halında mövcud olan tək-tük ailə icmaları da dağılaraq aradan çıxır.

Böyük ailənin başçısı olan atanın sağlığında ailə icmasının əmlakının bölüşdürülməsinə adət və ailə etikası icazə vermirdi. Hələ XIX əsrdə R.Əfəndiyev yazırdı ki, oğul ata malının qanuni varisi sayılsa da, atasının sağlığında varidatın bölüşdürülməsini tələb etməyə hüququ yox idi. [18] Ailə icmasını dağılması adətən ailə başçısı olan atanın vəfatında sonra baş verirdi.

**Patronimiya.** Ailə icmaları parçalana zaman böyük ailəyə məxsus torpaq sahəsi bir neçə yerə bölünməli idi. Bu isə təsərrüfatın dağılmasına səbəb ola bilərdi. Ona görə də bir ailə icmasını dağılması nəticəsində yaranmış yeni ailələr bir-biri ilə əlaqələr kəsmir, bir həyət daxilində, yaxud bir-birinə yaxın yerlərdə, bir məhəllədə, ayrı-ayrı

evlərdə yaşasalar da torpaq faktiki olaraq bölünmür, yenə birgə əkilib-becərilirdi. Yeni kiçik ailələr müstəqil təsərrüfatlara malik olsalar da, əksər hallarda təsərrüfat əlaqələrində və ictmai münasibətlərində birliyi, ideoloji ümumiliyi müəyyən müddət qoruyub saxlıyırdılar. Böyük ailələrdə mövcud olmuş vahid təsərrüfatın yerini iməcilik, əvrəz, hoy, mödgəm və s. qarşlıqlı yardım firmaları bir-birinə kömək edən kiçik ailə təsərrüfatları tuturdu. Belə qohum ailələr qrupu **patronimiya** adlanır. [19]

Azərbaycanın müxtəlif bölgələrində patronimik qruplar uşağı, əqrəba, nəsil, övlad, toxum, tirə, kürək, törəmə və s. adlarla mövcud olmuşdur. Patronimiyaya daxil olan ailələr çox vaxt bir-birinə yaxın yerlərdə yurd salıb kənd daxilində məhəllə təşkil etmişlər. Patronimik qrupların təşkil etdikləri məhəllələr Azərbaycanın müxtəlif bölgələrində məhlə, oba, oymaq, dəkkə, dingə, tirə, coma, basalaq və s. adlarla tanınmışlar.

Hər bir patronimiyanın ağsaqqalı olurdu. Xeyir-şər işlərində patronimiyanın üzvləri başçı sayılan ağsaqqalla məsləhətləşirdilər. Hər bir məhəllənin öz ictmai yeri var idi. İctimai yerlər ayrı-ayrı bölgələrində meydan, ortalıq, gim, gəmgə, gimgə, dingəxana və s. adlanırdı. Belə meydanları kəndin ortasında, arx kənarında, qovaq və çinar kimi böyük ağacların kölgəliyində salırdı. Patronimiyanın yaşlı kişiləri meydanlara yığılıb dincələr, həm də məhəllə və kəndlə bağlı problemləri müzakirə edərdilər.

Patrnomiyanın ictimai birliyi qohumları bir-birinə qarşılıqlı yardımlarında toy və yas mərasimlərində, qan intiqamı məsələlərində özünü göstərirdi. Cavanların patronimiya daxilində evlənməsinə üstünlük verilirdi. Bir ailənin düşməni patonimiyaya daxil olan bütün ailənin düşməni hesab edilirdi.

Patronimyanı mənəvi birliyi məsciddə ibadətdə, pirlərdə və qəbirstanlıqlarda özünü təzahür etdirirdi. Məclislərdə patronimik qrupların toplaşdıqları və birgə ibadət etdikləri, namaz qıldıqları daimi yerləri, həmçinin öz qəbirstanlıqlar və pirləri olurdu. Hazırda böyük kəndlərdə bir neçə qəbirstanlığın olması da, vaxtilə mövcud olmuş patrinimik qəbirstanlıqlarla bağlıdır. Pirlərin bəziləri ulu əcdadların qəbirləri ondən ibarət olmuşdur. Öz qəbirstanlıqları olmayan patronimiyalar öz ölülərini ulu əcdadlarını pirə çevrilmiş qəbri ətrafında dəfn edirdilər. Beləliklə, bir çox kəndlərin ümumi qəbirstanlıqlarında patronimiyalara məxsus ayrıca qəbirlər sahəsi əmələ gəlmişdir. Bu onu göstərir ki, əcdada sitayiş, ulularin xatirəsinə hörmət patronimiyanın mənəvi birliyin əsas ünsürlərindən biri olmuşdur.



Beşik

İctmai-iqtisadi inkişafın müəyyən mərhələsində patonimik qurplar arasında qohumluq əlaqələrin artması nəticəsində patronimiyaların qapalılığı aradan qalxır, ictimai və mənəvi birliyi tədricən mahiyyətini itirir, nəticədə patronimiya yaxın və uzaq qohumların "qalıq" ları halında bizə gəlib çatan arxaik ictimai institutuna çevrilir.

**Kiçik ailə.** Azərbaycanda orta əsrlərdə olunduğu kim, XIX-XX əsrlərdə ailənin əsas forması kiçik ailə idi. Böyük ailə ilə kiçik ailə arasında fərq yalnız ailə üzvlərinin sayında olamamışdır. Onlar arasıda kəmiyyət fərqli ilə yanaşı əsas iki keyfiyyətə fərqi də olmuşdur. Əvvələn, böyük ailənin varidatı bütün ailəyə məxsus olduğu halda, kiçik ailədə mülkiyyətin başçısı yalnız onju başçısı olan kiş ihesab

edilirdi. İkinci fərq nəsillərin durumu ilə bağlı idi. Məlum olduğu kimi, böyük ailə 3-4 və daha çox nəsildən ibarət idi. Böyük ailə şaquli istiqamətində baba, ata, oğul və nəvələrin, üfüqi istiqamətdə isə qardaşların ailələrinin birliyi idi.

Kiçik ailələr üçün xarakterik cəhət onun yalnız şaqüli istiqamətdə iki və üç nəsildən ibarət olmasıdır.

Kiçik ailə iki yolar-"qalıqlar" halında mövcud olan böyük ailənin parçalanması və ailədə həddi buluğa çatmış oğulun evləndikdən sonra müstəqil ailə təşkil etməsi yolu ilə yaranmışdır.

Kiçik ailələr özləri də



Məhəmməd Həsən xanın beşiyi

quruluşlarına görə iki tipə bölünürlər: sadə və mürəkkəb ailələr. Sadə ailə iki nəsidlən yəni, ata-ana və onların uşaqlarından ibarət olurdu. Mürəkkəb ailənin tərkibində isə üç nəil-baba-nənə, ata-ana və nəvələr olurdu. Sadə ailələrdə uşaqlardan biri evləndikdən sonra ata-anası iə birlikdə yaşadıqda aiənni tipi dəyişir və sadə ailə mürəkkəb ailəyə çevrilir, lakin kiçik ailə olaraq qalmaqda davam edir. Çünki gənc ailə müstəqil ailə kimi özünü doğrultmur, hələ ailə içərisində ailəyə çevrilə bilmir. Baba və nənə nəvələrinnə də öz uşaqları kimi münasibət bəsləyirlər. Belə mürəkkəb kiçik ailələri cəmiyyət vahid ailə kimi qəbul edir. Sadə ailələrdə uşaqlarıdan ikisi evləndikdən sonra ata-anaları ilə birlikdə yaşayırlarsa, bu zaman ailənin tipi deyil, forması dəyişir, o, artıq böyük ailə hesab olunur.

Sadə ailə bütün ailələrin özəyirdir. Bütün ailə formaları və tipləri onnu əsasında təşəkkül tapırlar. Məhz bu keyfiyyətlərinə görə sadə ailə elm aləmində **nuklear** (latınca-"nukleus", "nüvə", "özək" sözündəndir) ailə adlanır. [20] Nuklear ailə üçün uşaqların sayı həlledici əlamət deyil. Sadə ailələrdə 1-2 nəfər uşaq olduqda onu azuşaqlı ailə, 3-4 nəfər olduqda orta saylı ailə, 5 nəfər və daha çox olduqda-çoxuşaqlı ailə hesab edirdilər.

Çox uşaqlı ailələrə Azərbaycan üçün səciyyəvi və ənənəvi hal hesab olunmuşdur. Uşaqların sayı 9-12 olan ailələr az deyildi. Ailədə uşaqların sayı artdıqca onun valideynlərinə deyirdilər: "Allah payıdır". Çoxuşaqlı ailə xoşbəxt ailə heab edilirdi. Çox uşağı olan valideynlər cəmiyyətdə böyük hörmət və nüfuza sahib idilər. Göründüyü kimi, ailə üzvlərinin sayının çoxluğu və ya azlığı ilə onu böyük ailə və ya kiçik ailə, sadə və ya mürəkkəb ailə olma arasında birbaşa əlaqə asılılığı yoxdur. Sadə kiçik ailələr də ailə üzvlərinin sayına görə "böyük ailə" ola bilirlər. Lakin belə "böyük ailələr" klassik böyük ailə, yəni ailə icması hesab edilmirlər.

Azərbaycanda kiçik ailənin yaranamsı, yəni həm böyük ailənin parçalanması, həm də oğulun evləndikdən sonra ata-anasından ayrılıb müstəqil ailə təşkil etməsi zamanı əmlak bölgüsü baş verirdi. Əmlak bölgüsünün həyata keçirlməsi eyni prinsiplərə əsaslanırdı və ailənin üzvləri tərəfində zərurət kimi qarşılanırdı. Bu zərurilik bir zərb məsəlində də öz əksini tapmışdır: "Qardaşıq, amma cibimiz ayrı".

Əmlak bölgüsü ailənin ümumi mülkiyyətini əhatə edirdi. Böyük ananın və gəlinlərin cehizi, mehr (kəbin haqqı) və gəlin ər evinə gələn zaman qayınatası tərəfindən bağışlanmış "dizdayağı" qadınların şəxsi mülkiyyəti hesab edilirdi. Ailə əmlakına bir hissəsi ailənin ümumi mülkiyyətinə aid edilmirdi. Ailəni ümumi mülkiyyəti torpaq sahəsi, yaşayış evləri, təsərrüfat tikiliəri, mal-qara, əmək alətləri, ev əşyaları, qızıl-gümüş və pul vasitəsindən ibarət olurdu. Ailə mülkiyyyətinin bölgüsü əksər hallarda məhəllə ağsaqqalının, bəzən mollanı iştirakı ilə həyata keçirlirdi. Ailə mülkiyyətini bölünməsi zamanı payayırma qaydaları Azərbaycanın hər yerinə, ayrı-ayrı bölglərində lokal xarakterli fərqlər isitisna olmaqla, təxminə eyni olmuşdur. Ailə əmlakının el arasında deyildir kimi "ata malının" bölüşdürülməzdən öncə qadınların

şəxsi mülkiyyəti –“cehz”, “mehr”, “dizdayağı” ayrılırdı. Sonra isə valideynlər baba ilə nənə, ata iə ana üçün “xeyratlıq” (Gəncə bölgəsində “adnalıq” adlanırdı. Bu pay valideyn vəfat edərkən onların dəf və yas mərasim iüçün nəzərdə tutulurdu), subay qardaşın toy xərci üçün “ərgənlik”, və yaxud “subaylıq” , subay bacı üçün  “cehizlik” (bəzi bölglərdə bu paya “isə ” deyilir) ayrılırdı. Bundan sonra ailənin yerdə qalan mülkiyyəti yerdə qalan aiələr arsında bölüşdürülürdü. Bu zaman islam hüququna bə şəriət qayadlarına uyğun olaraq qardaşlar bərabər pay alırdılar, qızlara qardaşın payının yarısı, anaya isə səkkizdə biri qədər pay ayrılırdı. Anaya ayrılan payın azlığını səbəbi əvvəldən onu şəxsi mülkiyyətini ayrılması idi.

Böyük ailələr kiçik ailələrə parçalanan zaman əmlak bölgüsü aparılırarkən qardaşların  sayı qədər istehsal və alət vasitələri olmadığından  çox vaxt əmək alətləri -kotan, xış, istehal vasitələri-cəhrə, hana, toxucu dəzgahı, su dəyirmanı, su dingi və qoşqu heyvanları, həmçinin məişətlə bağl bəzi əşyalar –məclis qazanı, məclis samovarı, arxıd (ağac nehrə) və s. bölüşdürülmürdü və qardaşların ümumi mülkiyyətnidə saxlanaraq ata sağdırsa onu, vəfat etmişdirsə, qardaşlardan birinin, adətən, ata ocağında oturan qardaşın sərəncamında qalırdı. Bu istehsal vaistələrində yeni ayrılmş kiçik ailələr növbə ilə, məişət əşyalarından isə zərurət olan da istifadə edirdiər.

XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində Azərbaycanda dövlət torpaqlarını bir hissəsi icma torpaq sahibliyi hüququnda kənd cəmiyyətlərini istifadəsinə verilmiş, bir hissəsi isə mülkədarlarda qalmışdı. Həm dövlət, həm də mülkədar torpaqlarında yaşayan kəndli ailəsinə əmlak bölgüsü zamanı torpaq ayrılmırdı. Dövlət torpağında yeni yaranmış ailələrə ev tikmək üçün həyətyanı torpaq sahəsini kənd cəmiyyətləri verirdi. Həmin ailələr əkin və biçənək sahələrini vaxtaşırı bölgüsündə müstəqil tüstü kimi iştirak edərək icma torpaqlarında pay alırdılar. Mülkədar torpaqlarında yaşayan ailələrdə əmlak bögüsü zamanı  həyətyanı torpaqlarda bölünürdü əkin və biçənək sahələrini isə yeni ailələr mülkədardan icarəyə götürürdülər.

Göründüyü kimi, həm böyük, həm də kiçik ailədə kişi ailənin başçısı sayılırdı. Ailədə ata uşaqların mənafeyi üçün əməli işlər görmək bacarığına və inamına malik olduğuna görə, ailənin bütün üzvləri onun

iradəsinə tabe idilər. Ailə həyatı ilə bağlı olan bütün əsas qərarları ailə başçısı qəbul edirdi. Ana isə uşaqlarını böyüdür, onları cəmiyyət üçün ləyaqətli bir insan kimi yetişdirir. Ananın zəhməti, hədsiz fədakarlığı ailədə qiymətləndirilirdi.

Əsrlərdən kçeib gələn Azərbaycan milli ənənsinə görə, atanı övlada üç borcu vardır: tərbiyə, təhsil və evləndirmək. Bu üç borcu atanın oğlanları da öz övladları qarşısında yerinə yetirməli ididlər. Dastanlarımızda bu üç borcun [21] yerinə yetirilməsi Allahın hökmü kimi təbliğ və tərənnüm edilir.

Atanı övlad qarşısında bu üç borcu yerinə yetirdiyi vəzifələrlə təmin olunur. Bütün xalqalrda olduğu kimi Azərbaycan ailəsi də üç funksiyanı yerinə yetirmişdir: təsərrüfat funkiyası, nəsilartırma və uşaqların tərbiyəsi. Ailənin bü üç funksiyası arasında qarşılıqlı əlaqələr mövcuddur. Onlardın biri digərini doğurur, biri digərini tamamlayır. Bu funkiyaların həyata keçirilməsi ilə ailə üzvləri arasınd adət-ənənələrə arasında formalaşmış münasibətlər mövcuddur. Azərbaycan ailəsində valideynlər və övladlar arasında əsrlər boyu təşəkkül tapmış taxiri sınaqlarından çıxmış milli ənənlərimizlə tənzimlənən qaydalar mövcuddur. Bu qaydalar sistemində böyüyün də, kiçiyin də öz yeri vardı. Onların nüfzu və hörməti həm ailə daxilində, həm də ailədən kənarda, ailə həyatı ilə bağlı çətin problemlərin aradan qaldırılmasına həlledici rol oynayırdı.

Ailənin maddi durumu, iqtisadi vəziyəti onu təsərrüfat funksiyasını yerinə yetirməsində asılır. Ailənin təsərrüfat işlərini yerinə yetirməsi vəzifəsi onu həm də təsərrüfat özəyi hesab edilməsi ilə əlaqədar idi. Ailənin bütün üzvləri təsərrüfat işi ilə məşğul olurdu. Ailədə ən ağır fiziki işləri kişilər görürdü. Torpağı şumlamaq, əkib-becərmək, taxılı bikçmək və dəyirmanda üyütmək, məhsulu yığmaq, ot çalmaq, qoyunların qırxılması, arx qazmaq, hasar çəkmək, meşədən odun gətirmək və s. ağır işləri ailədə kişilərin öhdəsinə düşürdü. Ailənin daxili təsərrüfat işləri isə qadınların qayğısı idi. Qadınlar bostan və dirrikdə çalışır, qoyun-quzu bəsləyir, iknəkləri sağır, süd məhsulları sağır, qırxılmış yunu yuyur, darayır, əyirir, boyayır, yun iplikdə çarıq bağı və corabdan tutmuş xalça-palaz və xalı-gəbədəyək müxtəlif əşyaları toxuyur, yorğan sırıyır, paltar yuyur, paltar tikir, evi yığışdırır,

çörək bişirir, səliqə-sahman yaradır və üstəlik uşaqların tərbiyəsi ilə məşğul olurdular.

Ailə üzvlərinin qarşlıqlı münasibətlərin mərkəzində qadını ailə və cəmiyyətdə mövqeyi və vəziyyəti dururdu. Yoxsul və ortabab kəndli ailələrində qadın ev təsərrüfatında gördüyü işlərdən əlavə əri iə yanaşı çöl işlərində də çalşırdı. Quba bölgəsində meyvəçilikdə, Lənkəran bölgəsində çəltiçilikdə, Şəki, Şirvan, Qarabağ və Naxçıvanda baramaçılıqda, Qazax, Zəngilan və İrəvanda qoyunçuluqdan qadın əməyindən geniş istifadə olunurdu. Belə kəndli ailələrində qadın ailənin bütün təsərrüfat işlərində fəal iştirakına görə onu ailədə sosial vəziyyəti bir qədər yaxşı idi, kişi onunla məsləhətləşirdi. Şəhərlədə və varlı kəndli ailələrində isə vəziyyət belə deyildi. Ev təsərrüfatında dayə, nökər, kəniz və qarabaş qadına kömək edirdi. Lakin onun ərini işlərinə qarışmağa ixitiyarı yox idi. Azərbaycanın bir sıra şəhər və kəndlərində qadınlar yaşmaq tutmalı, çadra örtməli idilər. Naməhrəm kişilər onların üzlərini  görməməli idi. Hətta zadəgan ailələrində olan və yüksək cəmiyyətə məxsus qadınlar küçəyə çıxdıqda üzlərinə toxunma niqab tuturdular. Cavan gəlin nəinki yad kişidən hətta  bir uşağı olanadək qayınatasında, qayınlarından və ailənin digər yaşlı kişilərindən üzünü gizlətməli, başını örtməli idi. Kəndli ailələrində isə qadın kişilərlə birlikdə çöl işlərində çalşdığından nisbətən sərbəst idi. Qayınata və qayınlar "üzgörəncəyi" verdikdən sonra gəlini yaşmağı açmağa icazə verirdilər. Kənddə cavan gəlin bir uşağı olandan sonra daha üzünü gizlətmirdi.



1 — silinc. 2 — oğlan və qız üçün lüləylər (düdüklər)

Ailə üzvləri arasında  qarşlıqlı münasibətlərdə qayınana və gəlin münasibətləri xüsusi yer tuturdu. Yoxsul və kəndli ailələrində

evdə qayınana və baldız olduqda həm ev, həm də çöl-təsərrüfat işlərində çalşan əlinin vəziyyəti bir qədər yüngül olurdu. Qayınana və baldız ona həyan olur və kömək edirdilər. Bəzi qayınanalı ailələrdə isə gəlinin günü qara olurdu. Çöl işlərindən yorğun gələn gəlin ev işlərini də bütün ağırlığını öz çiyinləri üzərində daşımalı olurdu. Belə qayınanalı ailələrdə gəlin hamıdan gec yatmalı və tezdən durmalıydı. Ərin cavan arvadına münasibət çox vaxt çox vaxt qayınananın gəlinə münasibətindən asılı olurdu. Qayınanan gəlinə çox gəlmirdisə, gəlin ərini gözündən düşürdü. Bəzən qayınana-gəlin münasibətlərinin gərgin olmasında təqsirkar gəlin olurdu. Qayınana-gəlin münasibətlərinin hər iki durumu haqqında şifahi xalq yaradıcılığında və bədii ədəbiyyatda çoxlu nümunələr var idi. Həmin nümunələr və etnoqrafik ədəbiyyat göstərir ki, Azərbaycan ailəsində yaxşı, qayğıkeş, mülayim, mehriban gəlin və qayınanaların sayı çox olmuşdur. Əsil-nəsilli ailələrdə qayınana da, gəlin də yaxşı dərk edirdilər ki, onların hər ikisi qadındır və hər ikisi də balalarına qarşı eyni hissi keçirən anadır, uşaqlarını və ailənin xoşbəxtliyi, gələcəyi onların mehriban və qayğıkeş münasibətlərindən asılıdır. Əlbəttə, belə mehriban münasibətlərin yaranmasında müdrik atanın (qayınatanın) və ağıllı oğulun (ərin) rolu da az deyildi.

## NİKAH

Ailənin nəsilartırma və uşaqların tərbiyəsi kimi funksiyaların yerinə yetirməsi şərhi nikah, toy və uşaqların tərbiyə bölümündə açıqlanır. Ailə-nikah münasibətlərin açıqlamazdan əvvəl Azərbaycan etnoqrafiyasında bu məsələ ilə bağlı anlayışlarda bəzi dolaşıqların və səhf fikirlərin mövcudluğunu qeyd etmək lazımdır. Həmin səhvlərin kökü XIX əsrdə azərbaycanlıların ailə-nikah münasibətləri haqqında məlumat verən müəlliflərinin tədqiqatlarından gəlirdisə, indi də bəzi əsərlərdə belə mülahizələr təsadüf edilir. Belə ki, **monoqamiya** (təkkəbinlilik) və **poliqamiya** (çoxkəbinlilik) kimi nikah formları kiçik çailə və böyük ailə anlayışları ilə qarşılaşdırılaraq monoqam və

patriarxal ailələr adlandırılır, ibtidai cəmiyyətdə **ekzoqam** olan qəbilələr “endoqam”, **endoqam** olan tayfalar “ekzoqam” kimi verilir, [22] azərbaycanlılarda qohumla evlənməyə icazə verilmə adəti qəbilə icması və tayfa quruluşuna məxsus olan endoqamiya ilə qarışdırılır və müasir Azərbaycan ailəsində ibtidai icma quruluşu dövrünə aid olan ekzoqam və endoqam nikahlar və ya onların qalıqları axtarılır [23] və s.

Azərbaycanlılarda ailə-nikah münasibətləri ilə əlaqədar anlayışlara aydınlıq gətirmək üçün onların mahiyyətindən irəli gələn təsnifatdan istifadə etmək məqsədəuyğundur. Bu təsnifata nikah formaları-monoqamiya və poliqamiya, niah adətlərə-qohumla evlənmə, levirat və sororat, nikah üsulları-elçilik, nişan, toy və qoşulub qaçma daxildir. Bu forma, adət və üsulların hər birinin icra prosesində rəngarəng qayda, ənənə və vərdişlərdən istifadə edilmişdir.

Tarixi və hüquqi kateqoriya olan nikah kişi ilə qaıdını intim münasibətlərini rəsmiləşdirən aktdır. İnsan cəmiyyətinin inkişaf tarixində müxtəlif nikah formaları mövcud olmuşdur. İ.Bahoven, C.Mak-Lennan, L.Morqan və F.Engelsin əsərlərində və klassik etnoqarik ədəbiyyatda ayrı-ayrı xalqlar içərisində olmuş qrup nikahlar, qoşa nikahlar, punalua və s. nikah formları haqqında məlumat verilir. Ibtidai nikah formaları ehtimal ki, Azərbaycan xalqının uzaq keçmişinə aiddir. E.ə. I əsrin sonu eramızın I əsrinin əvvəllərində yaşamış yunan coğrafiyaçısı Strabonu əsərlərində madalıqlarda poloqamiya (çoxarvadlılıq) nikah firmasını olmaq haqqında məlumat verilir. Ola bilsin ki, Albaniyada da IV əsrədək poliqamiya nikah forması olmuşdur. Bu ehtimalı xiristian dininin təkkəbinliyi məcburi nikah forması elan etməsi ilə əsalandırır və belə bir nəticə çıxarılır ki, bu qadağanın səbəbi Albniyada əvvəllər çoxarvadlılığın mövcudluğu ola bilərdi. [24] qədimdə Albiniyada çoxarvadlılığın mövcudluğu haqqında qaynaqlarda konkret fakt yoxdur. “Kitabi-Dədə Qorqud” dastanında da monoqam nikahlar tərənnüm edilir. Dastanda Dirsə xan övladı olmayan arvadını hətta “baxtıma çıxan qadınım” adlandırır və onun üstünə günü gətirmək belə fikrinə düşmür. O, yalnız bütünoğuz bəylərinə qonaqlıq verir, acları doydurur, çılpaqlara paltar verir, və borcluların borcunu ödəyir ki, Tanrıya dua edib ona övlad diləsinlər. [25]

Orta əsrlərdə də təkarvadlılıq Azərbaycanda əsas nikah forması olmuşdur. “Koroğlu” dastanında qəhrəman Koroğlu və Nigar xanımın övladları olmur. Onlar həyatlarındakı bu boşluğu igid Eyvazı oğulluğa götürməklə doldurur [26] və monoqam ailəni qoruyub saxlayırlar. Orta əsrlərdə monoqamiya ilə yanşı, poliqamiyanı qalıqlarına da rast gəlinir. Orta əsrlər şifahi xalq ədəbiyyatında azad sevgiyə əsaslanan monoqam nikahlar təbliğ olunsa da, məhəbbət dastanlarının dördündə poliqam nikahlardan söhbət gedir. Belə ki, “Şah İsmayıl”, “Əmrah”, “Lətif şah” və “Valeh-Zərnigar” dastanlarında qəhrəmanların yalnız bir sevgilisi olur və öz sevgilərinin dalınca gedən qəhrəmanlar, sevgiliərinə qovuşan qədər başqa qızlarla tanış olub müəyyən səbəblərlə bağlı onlarla evlənməyə söz verirlər. Dastanların qəhrəmanları Şah İsmayıl-Gülzar, Ərəbzəngi və Rəhdar Pəri, [27] Əmrah-Sayad, Pəri, Sərvinaz, Lətif şah-Mehriban ,Soltan və Əsma, [28] Valeh-Sənəm, Zərnigar və Xətai [29] ailə qururlar. Deməli, poliqam nikahlar qədim dövrlərdə Azərbaycanda da mövcud olmuşsa da, sonra aradan çıxmış və orta əsrlərdə yalnız qalıqlar şəklində qalmışdır.

Orta əsrlərdə Azərbaycanda poliqamiyanın qalıqlarının saxlamasının səbəblərini çox vaxt islam dini ilə bağlayırlar. Doğrudur, poliqamiya islam ailə hüququna zidd deyil. İslam ailə hüququ rəsmi surətdə müsəlmana dörd arvad alamağa icazə verir. Lakin poliqam nikahı, çoxarvadlılığı müsəlman xalqlar arasında islam bərpa etməmişdir. Çünki, islam ehkamları nikahı kişi və qadının şəhvət hissələri ilə bağlamır. Poliqam nikah müsəlman xalqların çoxunun, o cümlədən ərəblərin arsında hələ islamaqədərki dövrdə geniş yayılmış nikah forması olmuşdur. İslam dini ailənin möhkəmliyini qorumaq məqsədilə kişini qadınlara qarşı ədalətli olmağa çağırıraq çətin şərtlər qoymaq poliqamiyanı məhdudlaşdırmağa cəhd göstərmişdir. Məhz bu məqsədlə “Qurani-Kərim” də deyilir: “Əgər (onunla) ədalətli dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin. [30] Deməli, islam dininin müsəlman ölkələrində pliqam nikah formasının bərpasında deyil, 2,3 və ya 4 arvad alamağ icazə verməklə, onun saxlanmasında müəyyən rolu olmuşdur.

İslamın şəriət qanunlarına görə bir neçə arvad almış kişi, “Qurani-Kərim” də deyildiyi kimi, qadına qarşı ədalətsizliyə yol

verməmək məqsədilə, hər bir ravadı üçün ayrıca ev düzəltməli idi, yəni arvadların sayı qədər iki, üç və ya dörd ailə saxlamalı idi. Deməli, poliqam nikah əsasında vahid ailə deyil, bir neçə ailə yaranırdı və bu ailələr ayrı-ayrılıqda yaşadığından çox vaxt müxtəlif təsərrüfatlar olduqlarından onları böyük bir ailə adlandırmaq düzgün olmazdı. Bu xüusiyyət aydın göstərir ki, Azərbaycanda poliqamiya ailə forması deyil, nikah forması olmuşdur.

Azərbaycanda poliqamiya əsasən ikiarvadlılıq şəklində yayılmışdı. Ruhanilər və bəzi varlı şəxslərlə yanaşı, ortabab və yoxsu əhali arasında ikiarvadlılığın əsas səbəbi kişini birinci nikahdan övladının olmaması və yaxuid yalnız qız uşaqlarının olması idi. Uşaqsızlıqla əlaqədar kişini birinci arvadın üstünə "günü" (ikinci arvad) gətirməsi müxtəlif sonluqlara nəticələnirdi. Kişi şəriətin ona veridiyi hüquqdan istifadə edərək ikinci arvad aldıqda, çox vaxt birinci arvad üstünə günü gətirməsi ilə razılaşmaq istəmirdi. İkinici arvadın özü də günü vəziyyətindən xoşallanmırdı. Evdə günü arvadlar arasında tez-tez dava-dalaş baş verirdi. Onların biri digərini ərinin gözündən salmağa çalışırdı. Çox vaxt ikinici arvadın tərəfini saxlayır və birincini boşayırdı. Belə halda poliqamiya dama etmirdi və ikiaravadlılığa çevrilmirdi. Bəzən günü arvadlar bu dava-dalaş adət edirdilər və ailədə belə gərginlik ömürlərini axırna qədər davam edirdi. Bu halda poliqamiya ikiarvadlılığa çevrilirdi. Bəzən də uşağı olmayan arvad ərinin yenidən evlənməsinə razılıq verir və əri ikinici dəfə evləndikdə boşanıb öz atası evinə qayıdırdı. Bu halda poliqam nikah baş vermirdi. Ailə həyatında elə hallar olmuşdur ki, uşağı olmayan ağıllı qadın özü ərinə ikinci arvadı almasını təklif etmiş və ərinin razılığı ilə ailədə qalıb ev işlərin də əsas rol oynamış, günüsü iə mehriban rəftar etmiş, hətta ərini ikinci arvaddından olan uşaqlarına öz doğma övladları kimi münasibət bəsləyərək onların tərbiyəsi ilə məşğul olmuşdur. Belə hallarda poliqamiya ikiarvadlılığa çevrilirdi. Poliqam nikah formasında belə ailəni böyük ailə formasına aid etmək olmaz. Əslində, belə ailə poliqam nikah əsasında genişləndirilmiş, üç nəsildən ibarət vahid kiçik ailədir.

Poliqamiya levirat adəti iə də bağlı idi. Kiçik uşaqları olan cavan qardaşlardan biri cavan vaxtında vəfat etdikdə və onun subay

qardaşı olmadıqda, evli qardaşlardan biri mərhum qardaşını uşaqlarını saxlamaq məqsədilə o dul qalmış arvadı ilə evlənirdi. Adət buna yol verdiyinə görə camaat buna pis münasibət bəsləmirdi. Poliqam nikah əsasında levirat adəti ilə yaranmış belə ailəni, iki ailədən ibarət olduğuna görə, böyük ailə formasına aid etmək olar.

Nikah formlarında bəhs edərkən "siğə" adlanana nikaha toxunmamaq olmaz. Siğə islam dininin şiə təriqətinə mənsub olan ruhanilər və tacirlər üçün səciyyəvi olmuş müvəqqəti nikah qaydasıdır. Siğə qaydasına görə, kişi mollanın yanına gedib müvəqqəti yaşamaq istədiyi qadının adını deyir və kəbin kəsdirirdi. Siğə yalnız qadının icazəsilə bağlanan və istənilən vaxt tərəflərin hər birinin təşəbbüsü ilə pozula bilərdi. Siğə nikahdan uşaq doğulduqda kişi həmin uşağı kənar yerdə saxlayırdı. Azərbaycanda siğə nikah qaydası geniş yayılmamışdı. Xalq arasında siğə nikahla yaşayan qadınlara siğə münasibət bəslənirdi. Siğə nikahlardan olan uşaqlara "bic", "bicbala", "bicvələd", "düşəngə" və s. təhqiredici ad verilirdi. Azərbaycanın mütərəqqi şair və yazıçıları, mütəfəkkirlərin həmişə siğə nikahlara qarşı çıxmış, öz əsrlərində siğəni pisləmişlər.

Nikah adətləri sırasında qohumla evlənməyə münasibət əsas yer tutur. Qohumla evlənmə adəti yalnız qohumla evlənməyə icazə verir, onu məcburi saymır. Bi adət qohum olmayanlarla evlənməyi qadağan etsəydi, onu endoqamiyanın qalığı adlandırmaq olardı, çünki söhbət qəbilə-icma tayfasından deyil, müasir qohum ailələrdən gedir. Bu sözləri ekzoqamiya haqqında da demək olşar. Qohum ilə evlənməyi qadağan edən adət olsaydı, onu ekzoqamiya alığı adlandırmaq olardı. V.Kurılyov, "Kitabi-Dədə Qorqud" dastanındakı İç Oğuz bəylərin Daş Oğuzdan, Daş Oğuz bəylərini isə İç Oğuzdan evlənmələri haqqında bir məlumatdan belə yalnış nəticə çıxarır ki, Azərbaycanın bu qədim dastanında bir ənsidən törəmiş və endoqam nikahın hökm sürdüyü vahid oğuz tayfasının ekzoqam nikaha əsaslanan iki fratriyası, qəbiləsi təsvir olunmuşdur. [31] Əslində isə Azərbaycan oğuzlarının nikah münasibətlərində endoqam və ekzoqam xarakterli qəti qadağalar olmamışdır. Belə ki, Qantutralı evlənmək üçün öncə İç Oğuzdan qız axtarır. Deməli, qəbilənin üzvü iə nikah qadağan edən və yalnz qəbilədənkənar evlənməyə icazə verən ekzoqam nikah forması

Azərbaycan oğuzları arasında olmamışdır. Qanlı qoca sonra həmin İç Oğuzda, həm də daş Oğuzda oğlunun arzu etdiyi kimi qız arayıb tapmaqda qalın Oğuz elindən kənara çıxır və nəhayət Trabzonda belə bir qıza rast gəlir. Qanturalı atasının tapdığı Selcan adlı həmin qızla evlənir. [32] Bu amil göstərir ki, yalnız tayfa daxilində evlənməyi tələb edən endoqam nikah forması da Azərbaycan oğuzları arasında olmamışdı.

Azərbaycanda ta qədim zamanlardan, ən yaxın qohumlar istisna olmaqla, qohumlar evlənməyə icazə verilirdi. Bunun qədim Albaniyanın Böyük Aran vilayətindəki Aluen (Aquen) kəndində 488-ci il yanvarın 26-də çağrılmış Alban xristian kilsəsinin böyük məclisi tərəfindən əmi və bibi nəvələrini qadağan olunması kimi məhdudiyyət qoyulması sübut edir. [33] Buradan aydın görnür ki, Azərbaycanda qohumla evlənmək adəti geniş yayılmışdı və xiristian dini onu müəyyən qədər məhdudlaşdırır.

Azərbaycanda qohumla evlənmə adəti sonralar islam dini tərəfindən tənzimlənmişdir. İslam ehkamına görə, Allah kişilərə, anaları, qızları, bacıları, bibiləri, xalaları, qardaş və bacılarını qızları, süd anaları, süd bacıları, qayınanaları, ögey qızları və öz belindən gələn oğullarının arvadları ilə evlənməyi və iki bacını birlikdə almağı qadağan etmişdi. [34] İslamı qəbul etdikdən sonra Azərbaycan xalqı qohumla evlənmə adətini "Qurani-Kərim"lə müəyyən edən islam dininin bu normalarına uyğunlaşdırmış və ailə məşiətində həmişə ona raiyət etmişdir. Azərbaycanda qohumla evlənmə adətin bu normaları ehkam sayıldığından onların mənşəyini araşdırmağa lüzum yoxdur.

Azərbaycanda qohumla evlənmə adətin iki qrupa bölmək olar: yaxın qohumlar və uzaq qohumlar ilə evlənmə. Yaxın qohumlarla evlənmə adəti **kuzen nikahlar** adlanır. Kuzen nikahlar dedikdə əmioğlu ilə əmiqızının və yaxud xalaoğlu ilə xalaqızının nikahları (buna ortokuzen nikahlar deyilir) və dayıoğlu ilə bibiqızının və bibiboğlu ilə dayıqızının nikahları (bunlara korsskuzen nikahlar deyilir) nəzərdə tutulur. Digər qohumlarla evlənmə uzaq qohumlarla evlənmə adətidir.

Azərbaycanda qohumla evlənmə adətində ən çox kuzen nikahlar adəti yayılmışdı. Keçmişdə valideynlər mox vaxt gənclər yaxın qohumları ilə evləndirməyə çalışmışlar. Yaxın qohumlarla evləndirmə

müxtəlif amillərlə şərtləndirilir. Onlardan biri sosial-iqtisadi amildir. Keçmiş də üçün "başlıq" və ya "süd pulu" vermək adəti geniş yayılmışdı. Bununla əlaqədar yoxsul ailənin oğlanları hər ailədən qız istməyə cürət etmirdilər. Varlı ailələr isə bir qayda olaraq sosial-iqtisadi durum cəhətdən bir-birinə münasib ailələr qız verib, qız alardılar. Belə münasib adamlar eyni sosial təbəqəyə malik olan qohumlar olurdu. Bəzi hallarda isə oğlan və qızlarda pəltəklik, şikəstlik və s. kimi fiziki qüsurlar da olurdu. Belə olduqda ata, ana, əmi, bibi, dayı, xala, qardaş və bacı elçilik üçün öz yaxın qohumlarnın evinə üz tutardılar.

Yaxın qohumlardan evlənmə adətini şərtləndirən cəhətlərdən biri də mənəvi-psixoloji amil idi. Valideynlər uşaqlarının gələcək taleyi haqqında fikirləşərək qoymurdulıar ki, qız uşağı, el arasında deyildiyi kimi "evdə qalıb un çuvalına tay olsun", oğlanın isə ailə qurmaq vaxtı ötsün. Yaxın qohumla evlənmə zamanı hələ uşaqlıqdan bir yerdə böyümüş gənclər bir-birinə asanlıqla isnişirdilər, bir-birini əmioğlu və ya əmiqızı, xalaoğu və xalaqızı, dayıoğlu və bibiqızı, bibioğlu və dayıqızı kimi daha çox hörmət edirdilər. Kuzen nikah adəti ilə evlənmə zamanı gələcək ailənin bir çox məişət problemləri də öncə həll olunurdu. Xala-qayınana öz bacısı qızını, bibi-qayınana öz qardaşı qızının, dayı-qayınatanın isə bir gözü bacısı qızının üstündə olurdu. Gəlin də dünən əmi, dayı, bibi deyib başlarına and içdiyi, bu gün isə həm qayınata və qayınana kimi sevdiyi əziz adamlarını hər sözünün başına ip salmırdı. Beləlikə, gəlin-qayınana, gəlin-baldız, gəlin-qayınlar və eləcə də qudalar problemləri aradan götürülürdü.

Keçmişdə ortokuzen nikah adətin, xüsusilə də əmioğlu və əmiqızının nikahına daha çox üstünülk verilirdi. Bu nikah adət ihaqqında el arasında belə zərb-məsəl də vardı: "Əmioğlu ilə əmiqızının kəbinlərini göydə mələklər kəsib" əmioğlu ilə əmiqızını nikah xalq bayatılarında da təbliğ edilirdi. Bir bayatıda deyilirdi.

"Bülbül oxur yuvada
Qanad çalar havada.
Əmim oğlu sağ olsun
Mən niyə gedim yada". [35]

Lakin azad məhəbbəti və qarşılıqlı sevgi ruhunda tərbiyə olunmuş azəri qızları çox zaman kuzen nikah adətinə qarşı çıxır, ata-analarına etirazlarına bildirir və yaxın qohumlarının məcburi nişanlananda, ona ərə getməyə könülsüz razı olurdular. Xalq qohumlarında da yaxın qohumla nikah pislənir. Naxçıvan bölgəsində çöl-təsərrüfat işləri zamanı ifa olunan bir məkə nəğməsində deyilir.

“Pəncərənin mili çək,
Yandır odun, külünü çək.
Qohuma qız verənin ey!
Əngini əz, dilini çək!”

Yaxın qohumlarla nikahın sosial-iqtisadi və mənəvi psixoloji məziyyətlərini nəzərə almaqla yanaşı, onun ehtimal olunan mənfi bioloji cəhətlərini də yaddan çıxarmaq olmaz. Yaxın qohumla evlənən tibb elmində “ikiqat qohumluq” adlanır və zərərli adət sayılır. Tibbi statistikanın verdiyi məlmata görə, son illərdə “ikiqat qohumluq” əsasında qurulmuş ailələrin 3-5 faizində sonsuzluq və digər irsi xəstəlikər baş verir, yəni belə nikahların nəticəsində ya kəmağıl, lal-kar, ya da anadangəlmə əsəb, qansızlıq və ürək qüsuru kimi irsi xəstəlikləri olan uşaqlar dünyaya gəlirlər. [36]

XX əsrdə Azərbaycanın ziyalı və mədəni ailələrinədək yeni və mütərrəqi fikirli yaşlı nəsillərin nümayəndələri uşaqlarını evləndirərkən kuzen nikahlara mənfi münasibət bəsləmiş və yaxın qohum olmayanlara nikaha üstünlük vermişlər.

Nikahla bağlı adətlərə cavan yaşlarında ölmüş kişinin dul qalmış arvadına mərhumun qardaşlarından birini evlənməsi adət idə aiddir. Bu nikah adəti **levirat** (atınca-“levir” –“qayın” sözündəndir) adlanır. Azərbaycanda levirat nikah adəti çox qədimdən mövcud olmuşdur. Alban xristian kilsəsi 488-ci ildə Aluen böyük kilsə məclislərində qəbul olunmuş qanunla Albaniyanın xristian əhalisi arasında qardaş arvadı ilə evlənməyi qadağan etmişdir. [37]

Levirat nikah adətinə Azərbaycanda keçmişdə əhalinin bütü təbəqələri arasında əməl olunuşdu. Tarixdən məlumdur ki, hələ XI

əsrdə Şirvanşah Manuçöhr düşmən tərəfindən öldürülmüş qardaşı Əbu Mənsurun dul qalmış arvadına, XII əsrdə isə sultan Qızıl Arslan mərhum qardaşı Atabəylər hökmdarı Məhəmməd Cahan Pəhləvanını dul qalmış qadını İnanc xatun ilə evlənmişdi.

Levirat nikah adətində bir tərəfdən dul qalmış cavan gəlinin ailədən çıxıb getməsinin qarşısını almaq, digər tərəfdən mərhumun uşaqlarını saxlamaq və böyütmək zərurəti nəzərə alınardı. Levirat adətinə görə dul qalmış gəlinlə ilk növbədə subay qayın evlənməli idi. Bu adət Azərbaycanda da evli qardaşla mərhum qardaşın dul qalmış arvadı ilə evlənməyə icazə verirdi. Lakin levirat nikah üçün hər iki tərəfin razılığı olmalı idi, yəni Azərbaycanda levirat nikah adəti dul qalmış gəlin ilə qayın evlənməsinə icazə verirdi, onu məcburiyyətə çevirmirdi.

Azərbaycanda yalnış nikah adətlərindən biri də arvadı vəfat etmiş cavan kişinin subay baldızı ilə evlənməsində olmuşdur. Bu nikah adəti sororat (latınca "soror"-"bacı" sözündəndir) adlanır. Sororat adəti anasız qalmış uşaqların saxlanması zərurəti ilə icra olunurdu. Çünki vəfat etmiş bacının uşaqlarına hamıdan yaxşı xalçaları baxa bilərdi. Sororat adəti haqqında el arasında geniş yayılmış bir zərb-məsəl də var: "Qoy arvadı ölən o kişi fikir çəksin ki, subay baldızı yoxdur". Azərbaycanda sororat nikah adəti də levirat nikah adəti kimi məcburi deyildi. Adət dul qalmış kişiyə subay baldızı ilə evlənməyi icazə verirdi, onu buna məcbur etmirdi, həm də dul kişi yalnız baldızının razılığı ilə onunla evlənə bilərdi.

Azərbaycanda nikah adətləri ilə bağlı ənənələri sırasında azyaşlı qızların ərə verilməsi, həm də özlərində yaşlı adamlara ərə verilməsi ənənənsi xüsusi yer tuturdu. Məsum qızların çox erkən yaşlarında özlərindən yaşlı adama ərə verməsi ənənəsi etnoqrafik ədəbiyyatda xalqın cəhaləti kimi qələmə verilir və pislənilir. Əlbəttə, bu ənənənin məhdud cəhətləri çox idi. Azyaşlı qızları uşaqlıq səadətindən mərhum edər, çox vaxt əminlikərini alçaldıb, "babaları yaşında" kişiyə ərə verərdilər. Lakin keçmişdə qız uşaqlarının ərə verimləsinin obyektiv səbəbləri var idi.

Əvvələn, keçmişdə qızlar nə ərə gedir, nə işləyir, yaşları çatanda oturub ərə getmək haqqında düşünür, bir yerə yığışanda, böyük

Üzeyir Hacıbəylinin "Arşın mal alan" komediyasında olduğu kimi, bütün söhbətlərinin sonunu ərə getmək problеminin üstünə gətirib çıxarırdılar. Ərə getmək vaxtları ötəndə qızlar məscidə gedib şam yandırar, "bəxtlərinin açılmasını" diləyər və əhd edərdilər. "Qarıyıb evdə qalmaq və un çuvalına tay olmaq" həm qız uşaqları, həm də ata-ana üçün böyük dərd idi.

İkincisi, azyaşlı cavan gəlinin ər evinə öyrəşməsi asan olurdu, lazım gəldikdə onu yeni ailəsinin ab-havasına uyğunlaşdırmaq üçün yenidən tərbiyə etmək də mümkün idi.

Üçüncüsü, cavan gəlin özündən yaşca böyük olan ərinin nüfuzunu istər-istəməz, qəbul edir və onu ailədə üstünlük mövqeyi ilə hesablaşırdı. Beləliklə, ailə başçısı problemi asanlıqla həll olunurdu.

Nəhayət, keçmiş Azərbaycan ailəsi üçün xüsusi məna kəsb edən çoxuşaqlılıq ənənəsi. Erkən yaşlarında gəlin gedən qız 30 yaşında ikən artıq çoxuşalı ana olurdu. Çoxuşaqlı ana olmaq isə o dövrdə böyük şərafət idi, qadın üçün bundan yaxşı xoşbəxtlik ola bilməzdi.

Müdriklərimzi bütün bu amilləri əsrlər boyu götür-qoy etmiş, neçə-neçə nəsilərin həyat təcrübəsini ümumiləşdirmiş və "nikah yaşı normaları" müəyyənləşdirmişlər.

Azərbaycanda ənənəyə görə, "nikah yaşı normaları" oğlanlar üçün 16-18 yaşından evlənirdilər. Bəzi ailələrdə isə oğlanların evlənməsi müəyyən səbəblərdən yubanırdı və bir çox hallarda 25-30 yaşlarında evlənirdilər. Qızların ərə getməsi isə "nikah yaşı normaları"na uyğun olmuşdur. Bəzi hallarda isə qızları 12-13 yaşlarında ərə vermişlər.

Azərbaycanda ər ilə arvad arasında yaş fərqi məsələsinə münasibət müxtəlif olmuşdur. Keçmişdə Azərbaycanda ər arvaddan əksər hallarda 10-15, bəzən hətta 20-25 yaş böyük olurdu. Xalqın empirik biliklərinə əsasən tədqiqatçılar isə müəyyən etmişlər ki, ərin arvaddan ən azı 3, ən çoxu 7 yaş böyük olması daha əlverişli seçimdir. [38]

Ailə-nikah münasibətlərində bəzən valideylərin sosial-iqtisadi təmayüllü mövqeyləri ilə gənclərin pak məhəbbət hissləri, azad sevgi amalları qarşı-qarşıya gəlirdi. Bu uyğunsuzluq isə qızqaçırma kimi evlənmə üsulunu şərtləndirmişdir. Adətən, Azərbaycanda iki cür

qızqaçırma adəti olmuşdur: qızın sevdiyi oğlan qoşulub qaçması və qızın zorla qaçırılması.

Qızların zorla qaçırılması halları tarixdən məlumdur. Xalq qızların zorla qaçırılmasına mənfi münasibət bəsləmişdir. Xalq dastanlarında qızalrın zorla qaçırılmasına cəhdlər və qızların bu zorakılıqdan qorunmaları barədə təsvirləri vardır. Azərbaycan məhəbbət dastanlarında adlı-sanlı, var-dövlətli adamların qızlara qarşı zor işlətməsi təsvir edilir. Belə ki, "Abbas və Gülgəz" dastanında Şah Abbas Gülgəzi, "Novruz və Qəndab" dastanında Mahmud paşa Qəndabi, "Seyid və Pəri" dastanında Hasan paşa Pərini zorla almağa cəhd göstərirlər, lakin niyyətlərinə nail ola bilmirlər. Qarşlıqlı sevgi, məhəbbət olan yerdə zor da heç bir iş görə bilmir, qız istəmirsə qoşunla da onu almaq mümkün olmur. Dastanların bu ruhu zorla qızların qaçırılmasına xalqın münasibətinin təzahürüdür.

Azərbaycanda qızın könüllü qaçırılmasının iki səbəb olmuşdur. Bunlardan biri qızın valideylərinin onu istədiyi oğlana vermək istəməməsi, ikincisi isə oğlaınnı ailəsinin toy etməyə maddi imkanın olmaması. [39] Qızın istədiyi oğlan tərəfindən könüllü qaçırılması zamanı ara arvadı və ya başqa bir şəxs vasitəsilə qabaqcadan qızla əlaqə saxlanılır və sərtləşdikləri vaxt qız evdən çıxaraq oğlana qoşulub qaçırdı. Çox zaman igid oğlanlar "Koroğlu" qəhrəmanın dastanlarındakı olduğu kimi sevdikləri qızları gizli deyil, zorla qaçırdırdılar. Xalq qəhrəmanı Koroğluya Nigarı xəlvəti oğurlayıb aparmaq ağır gəlir. O, Nigar deyir: "Mən səni Çənlibelə bu cür apara bilmərəm. Sonra deyərlər ki, "Koroğlu gedib Xotkarın qızını oğurlayıb gətirib". [40] "Koroğlu" dastanında təsvir edildiyi kimi, əksər hallarda qız qaçırıldıqdan sonra olan toy da edirdi.

Qaçan qıza yaxşı münasibət bəslənilmirdi. Bəzən valideylər qaçan qızlarla aylarla danışmırdılar. Qızın atası yalınz el tənəsilə yumşaldıqdan və ağsaqqallar məsləhət gördükdən sonra barışığa razılıq verirdi. Rəsmi barışıqdan sonra qızın "ayaq açdısına" icazə verilirdi. Adətə görə, qaçan qıza cehiz verilmirdi. Lakin imkanlı ailələrdə bəzən barışıqlardan sonra qıza cehiz də verilirdi.

## TOY

Azərbaycanda evlənməyin ənənəvi yolu qızı elçilik vasitəsilə ilə nişanlayıb toy etmək olmuşdur.

"Toy çoxlu adət-ənənələrlə müşayiət olunan, qızbəyənmədən başlamış gəlinin ər evində üzə çıxmasınadək davam edən çoxtəbəqəli, mürəkkəb mərasimdir". [41]

Xalq arasında "toy" dedikdə müasir evlənmə prosesinin son mərhələsi, qonaqlıqla başa çatan şənlik, çalıb oynamaq mərasimi nəzərdə tutulur. Bu da təsadüfi deyildir. Ulu babalarımız "toy" dedikdə, şənlik məclisi, qonaqlıq, yeyib-içmək, çalıb-oynamaq başa düşüblər. El arasında deyilir: "Filankəs şadyanalıq edib toy çaldırıdı". Bu fikir "Kitabi-Dədə Qorqud" dastanında öz təsdqini belə tapmışdır: "Xanlar xanı Bayındır ildə bir kərə toy edib Oğuz bəylərin qonaqlardı". [42] Evlənmə prosesini son mərhələsində icra olunan qonaqlıq-şənlik məclisi isə "Kitabi-Dədə Qorqud"da "toy-düyün" adlandırılır: "Qırx gün, qırx gecə toy-düyün edərdilər". [43] Odur ki, bütövlükdə evlənmə prosesi üçün etnoqrafik anlayış kimi "toy-düyün" ifadəsinin işlədilməsi daha məqsədə uyğundur və gerçəkliyi daha dolğun əks etdirdiyinə görə elmidir.

Azərbaycanda evlənmək prosesi bir neçə mərhələdən ibarət olmuşdur: qız bəyənmə, elçilik, nişan və toy şənliyi.

Toy-düyün, hər şeydən öncə, qız bəyənmədən başlayırdı. Qız seçərkən bir sıra şərtlər nəzərə alınır. Qız seçərkən anasının kimliyinə xüsusi fikir verilirdi. Bununla əlaqədar el arasında geniş yayılmış zərb-məsəl vardı: "Qırağına bax beznini al, anasına bax qızın al". Qızın özünün gözəlliyi, qənd-qaməti, sadəliyi, evdarlığı, işgüzarlığı, ağlı, mərifəti və başqa keyfiyyətləri də nəzərə alınırdı. Evlənərkən qızların hansı keyfiyyətlərinə fikir verməsini ən yaxşı nümunəsi "Kitabi-Dədə Qorqud" dastanında verilmişdir. Oğuz elinin bilicisi Dədə Qorqud qadınları dörd qismə bölürdü:

"Qarılar dörd dürlüdür:
Birisi solduran soydur.
Birisi dolduran toydur.
Birisi evin dayağıdır

Birisi necə söylərsən bayağıdır". [44]

Dədə Qorqud sabah-sabah yerindən durur, əl üzünü yumadan doyunca yeyib naşükür olan "solduran soydur"ları, səhər sübhdən durub el-obanı gəzib söz gəzdirən "dolduran toydur"ları, qonağa mərifətsizlik göstərib ərini sözünü qulaqardına vuran "bayağı" qadınları deyil, qonaq qəbul edib yola salmağı bacaran qadınları ailə ocağına övrət gətirməyi məsləhət görürdü.

Qızı bəyənmək üçün birinci növbədə onu gormək lazım idi, həm də təkcə oğlanın özünün deyil, onun ailə üzvlərini də qızı görüb bəyənməsi vacib idi. Keçmişdə qızı 10-12 yaşına çatanda sonra əl-ayağı küçədən-bacadan yığılırdı. Çox vaxt oğlanı anası, xalası, bibisi və ya bacısı qızı toyda, yasda, bulaq başında, bayram və el şənliklərində, şəhər yerində həm də hamamda, şəhər kənarına seyrə çıxan zaman, ya da başqa bir şəraitdə görüb bəyənərdi. Sonra oğlan anası ərinə deyirdi ki, bir nəfər göndər qohum-qonşudan öyrənsin ki, görük kimin qızıdı, kimlərdəndi, bizə münasib ailədəndirmi, həm də qızın anasının ağzını arasın.

Başqa bir halda isə kimdə yetişmiş qız olduğunu biləndə dərhal ora saymazyana bir qadın gönədrərdilər. Həmin adın bir bəhanə ilə gedib qızı görər, onun haqqında xəbər gətirərdi. Sonra oğlanın anası və bacısı qızgilə gedərdi. Bu vaxt qızın gözü qapıda, qulağı səsdə olardı gələnlərin niyyətini hiss etsə də, qız özünü bilməməzliyə vurar, çay gətirər, qonaq kimi qulluq göstərərdi. Söz-söhbət əsnasında qızın anasını gələnlərin oğlan anası və ya bacısı olduğunu bilib daha da hörmət edər, mehribanlıq göstərərdi.

Azərbaycanda, adətən qız ərə verilərkən rəyi soruşulmurdu. Bu, adət şəklini aldığı üçün qızdan rəy sorşulanda da o: "atam-anam bilər" , -deyə cavab verərdi. Kübar ailələrdə isə qızın rəyi soruşulur və vaxt əsas götürülürdü. Azərbaycanda kübar dairələrdə keçmişdə "qız görmə", "qız bəyənmə" adəti ı yanaşı qız tətəfindən "oğlan görmə", "oğlan bəyənmə" adəti də olmuşdur.

Qız evi də öz növbəsində layiqli bir ailə dəyanətli bir oğlanla qohum omağı arzulamışdır. "Oğlan görmə" adəti də onu imtahanı çəmkə adəti iə bağlı idi. Azərbaycanda bəzi hallarda qız evi oğlanı

imtahana çəkmək üçün ona kötük yardırar, keçənin ucunu buraxmamaq şətilə biz ilə çarıq tikdirər və s. işlər gördürərdilər. Oğlanın qız evi tərəfindən imtahana çəkilməsini klassik nümunələrindən biri də “Dədə Qorqud” dastanında Trabzon hakiminin qızı Selcanı Qanturalıya verməmişdən öncə onu ağır imtahana çəkməsidir. Qantural vəhşi buğa, aslan və buğra (erkək dəvə) ilə vuruşub öldürdükdən sonra qızın atasının rəğbətini qazanır. Bu həm də qız üçün “oğlan görmə” səhnəsi olur. Qanturalı heyvanlarala döyüşmək üçün meydana girərək, niqabını çıxardanda köşkdən baxan Selcan onu görüb bir könüldən min könülə aşiq olur. [45]

Azərbaycanda bəzən “qız bəyənmə” və “oğlan görmə” adətlərinə ehtiyac olmurdu. Bu, xalq arasında “beşikkərtmə” (“beşikkəsmə”) və ya “göbəkkəsmə” adalanan adətin icrası iə bağlı olurdu. Adətə görə, oğlanın və qızın valideynləri övladlarını hələ beşikdə ikən adaxlayırdılar. Bir çox hallarda övlad həsrəti çəkən kişilər, arzuları yerinə yetərsə, övladlarını bir-biriylə evləndirməyi əhd edərdilər. “Beşikkəsmə”, həqiqi mənada kəbin olmasa da, bir növ rəmzi nikah idi. Valideynlərlə bərabər bütün qohum-əqraba bilirdi ki, “beşikkəsmə” olan uşaqlar böyüdükdə evlənib ailə quracaqlar.

“Beşikkəsmə” adəti həm mənəvi həm də iqtisadi səbəblərlə bağlı idi. İqtisadi səbəb böyük ailələrdə və patronimik qruplarda var-dövlətin parçalanmasına yol verməmək, varidatın bir nəslin daxilində saxlanması zərurəti ilə əlaqədar olmuşdur. Mənəvi səbəb qohumluq əlaqələrinin, dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi məqsədilə izah edilir.

“Beşikkəsmə” adəti zamanı oğlan və ya qız uşaqları hələ beşikdə, yəni qundaqda ikən onların valideyləri sövdələşib uşaqlarını bir-birinə deyikli edir, bunun təsdiqi kimi qızın beşiyinə kərt (nişan) qoyudular. “Beşikkərtmə” sözü də buradan yaranmışdır. Bəzi hallarda qız uşağı oğlan uşağından sonra doğulurdu. Uşaqların valideynləri qabaqcadan sərtləşdiklərinə görə mamaça körpənin göbəyini kəsən zaman “göbəyini filankəsin oğluna kəsirəm” sözlərini deyirdi. Buradan da “göbəkkəsmə” ifadəsi meydana çıxmışdır. Azərbaycanın bəzi bölgələrində oğlanın anası qundaqda olan qız uşağını köynəyini

yaxasından salıb ətəyindən çıxarmaqla "beşikkəsmə" mərasimini yerinə yetirirdi.

Bəzən "beşikkəsmə" adəti ilə deyili olmuş uşaqların "nikahı" böyüdükdən sonra uğursuzluqla bitirdi; valideynlər öz əhdlərinə dönük çıxırdılar. Hadisələrin belə dönümü şifahi xalq ədəbiyyatında da öz əksini tapmışdır. "Əsli və Kərəm" dastanında Gəncədə Ziyad xanla Qara Keşiş arasında belə bir əhd bağlanmasına baxmayaraq, uşaqlar böyüdükdən sonra keşişin dönüklüyü üzündən onların aqibəti faciə ilə başa çatır. "Tahir və Zöhrə" dastanında isə sultan Hatəm ağa qardaşı vəzir Əhməd arasında övladları olarsa onları bir-birilə evləndirmək bardə əhd bağlanır. Tanrı sultan Hamətə bir qız, vəzir Əhmədə isə bir oğlan verir. Lakin uşaqlar böyüdükdə sultan Hatəm öz sözünə dönük çıxır. [46] Bəzən də qızın atasını öz əhdinə dönük çıxması ilə bərabər, qıza da böyüdükdən sonra öz deyiklisi olana oğlana getmək istəmirdi. Belə vəziyyət iki nəsil, iki ailə arasında gərgin münasibətlərin yaranmasına səbəb olur, düşmənçiliyə çevrilirdi.

"Beşikkəsmə" adəti ilə, "Kitabi-Dədə Qorqud" dastanında deyildiyi kimi, bir-birnə "yavuqlu" elan edilən körpələr böyüdükdən sonra el arasında onları "deyikli" adlandırırdılar. Adətə görə, deyikli qıza büütn bayramlarda nişanlı qız kimi "bayramlıq" aparardılar. Deyiklilər nikah yaşına çatdıqda rəsmi "elçilik" vasitəsilə əhdi təzələyib toy-düyün mərasimlərinə başlamaq olardı.

Oğlan adamlarını qızı bəyənməsindən, yaxud da oğlan və qızın bir-birin bəyənməsindən sonra ilk razılaşma, qeyd edildiyi kimi, oğlanın və qızın anaları arasında olurdu. Oğlanın fikrini bilən ana qız anasının yanına "ağız aramaya" gedərdi. Çox vaxt qız anasını fikrini bilən oğlan anası, el arasında deyildiyi kimi "bəlgə"- gəlin üçün baş örpəyi və qızıl üzük qoyub gedərdi. Bu adətə oxşar hadisə "Kitabi-Dədə Qorqud" dastanında da təsvir edilir. Beyrək və Banıçiçək görüşdükdən sonra Beyrək barmağındakı qızıl üzüyü çıxarıb Banıçiçəyi barmağına taxır və deyirdi ki, qoy bu aramızda nişan olsun. [47]

"Qız bəyənmə" adətindən sonra gələn elçilik mərhələsi azərbaycanlıların ailə məişətində xüsusi diqqət mərkəzində dayanan hadisə hesab edilir və ona böyük əhəmiyyət verilirdi.

Elçi göndərməzdən əvvəl qohumlar və ağsaqqalarla məsləhətləşmək qədim çağlardan xalq ənənəsi olub.

Xalq arasında elçi xüsusi nüfuza malik olmuşdur. Elçiliyə el içində xüsusi hörmət qazanmış, sözü keçən adamlar gönədrilirdi. Elçi göndərilən şəxs istedadlı olmalı, ünsiyyət yaratmağı, xaq arasında deyildiyi kimi, "qız atası daşda olsa, onu yumşaltmağı" bacarmalıydı. Elçi xoşagəlimli sözlər seçməli, ürəyə yatmalı sözlərlə birbaşa mətləbə keçməli və fikirlərini əsaslandıra bilməliydi.

Keçmişdə qız evinə elçiləri gödərməzdən əvvəl molla yanına gedib "istixarə" açdırardılar, yən kitaba baxıb hansı günün düşərli olması haqqında məsləhət alardılar. Elçiliyə, adətən üç-dörd kişi və bir-iki nəfər qadın gedirdi. Elçilərin tərkibində oğlanın babası, atası, əmisi və dayısı olardı. Oğlanın atası sağ olmadıqda onu əvəzi kimi böyük qardaş gedə bilərdi. Qız uzaq eldən və yaxud qonşu kənddən olduqda elçilərin arasında oğlan nəslindən bir ağsaqqal, ləyaqətli, el arasında deyildiyi kimi, "urvatlı" bir adamın olması məsləhət bilinirdi. Qadınlar oğlan anası, xalası və ya bibisi olardı.

Adət-ənənəyə görə, elçilər qızın ailəsi tərəfində hörmət və izzətlə qarşılanırdılar. Çünki, elçi Allah elçisi sayılırdı. Qızı vermək niyyətləri olmasada belə elçiyə ehtiram göstərmək, onu ləyaqətlə qəbul edib, yola salmaq hər bir ailənin borcu hesab edilirdi. Elçiləri qarşılayan kişilər onlar "xoş gəlmisiniz" deyib qonaq otağına aparardılar. Elçilərə gələn qadınları isə başqa bir otağa ötürərdilər. Elçilərə münasibət müsbət olardısa, qızın anası hörmət əlaməti olaraq oğlanın anasını boyunun qucaqlayıb üzündən öpərdi. Qonaqların qabağında süfrə açılsa da oğlan adamları "həri" cavabını almayınca süfrəyə əl uzatmazdılar. Bəzən qzı evinin bu elçiliyə münasibəti müsbət olduqda, süfrəyə baldan ahzırlanmış şərbət də qoyulardı. Qızın razılığı el arasında deyildiyi kimi, "hərisi" verildikdən sonra "Allah mübarək eləsin", -deyib süfrədəki çaya qənd salar, şirinçay və ya qəndlə "ağızlarını şirin edərdilər." Sonra oğlanın və qızın analarını qonaq otağına çağırıb bu sevindirici xəbəri onlara bildirər və süfrədəki təamlardan yeməyə başlardılar. Süfrəyə aş (plov) da verilərdi. Qadınlar o biri otağa qayıdıb hamıya gözaydınlığı verərdilər. Oğlanın anası gəlinin çağırıb barmağına nişan üzüyü taxar,

başına ipək örpək salardı. Bu, Azərbaycanın bir çox bölgələrində "bəlgə", bəzi bölglərində isə "xatircəmlik" adlanırdı.

Qız üçün elçi gəlməsi xəbərini qohum-əqrəba, qonum-qonşu sevinclə qarşılayar, qızın ata-anasını və bütün ailə üzvlərini təbrik edərdilər. Qızın "hərisi" verildiyi gündən olan və qız bir-birinə "deyikli" hesab edilirdi.

Elçilərə rədd cavabı verildikdə də çox ədəb-ərkanla, elə tərzdə deyirdilər ki, oğlan tərəfi bundan inciməz və düşmənə çevrilməzdi. Böyük Nizaminin "Leyli və Məcnun" poemasında elçilik edən Məcnunun atası birbaşa mətləbə keçərək məqsədini lakonik dildə ifadə edir və eləcə də lakonik, həm də məntiqə əsalandırılmış rədd cavabını alır. [48] Bu ənənəyə Azərbaycanın digər dühası Füzulinin "Leyli və Məcnun" poemasında da rast gəlinir. Leylinin atasın elçiliyə gəlmiş Məcnunun atasına, onun şərəf və ləyaqətini gözləmək məqsədilə lakonik tərzdə rədd cavabı verir:

"Sən çox gəldin, səfa gətirdin,
Torpaqlardan bizi götürdün!
Müşkülcə xitabdır xitabın,
Bilməm necə verəyim cəvabın?
Qürbün bilirəm mənə şərəfdir,
Əma xələfin əcəb xələfdir.
"Məcnun"-deyə tən edər xəlayiq
Məcnuna mənim qızım nə layiq?" [49]

Poemada Leylinni atası hümanistlik göstərərək Məcnunun atasının ümidini qırmır, "tədbir gör oğlan sağalsın", və "oğlun sağalarla qız onun olsun", -deyə əhd edir.50

Şifahi xalq ədəbiyyatı nümunələrdən-dastanlardan, nağıllardan məlum olur ki, keçmişdə qız atası elçilərə münasibətdə ədəb-ərkan gözləyərək rədd cavabı əvəzi başqa bir yol seçərdi, oğlanın qarşısında yerinə yetirilməsi müşkül olan ağır şərtlər qoyardı.

Azərbaycanın əksər bölglərində nişan və çirni bir yerdə olardı. Bəzi bölgələrdə bu mərasimə "ağsaqqal plov" da deyilirdi. Nişanda qız

üçün üzük və şal aparıldığına görə bu mərasimə Bakı, Lənkəran, Təbriz və başqa bölgələrdə "şal-üzük" aparma da deyilirdi. "Kitabi-Dədə Qorqud" dastanında nişan aparmaq və şirni içmək mərasimi "kiçik dügün" adlandırılmışdır. Dastanda deyilir: "yalançı oğlu yalıncıq qızı alır oldu, kiçik düyünü elədi, ulu düyünə vədə qoydu". [51]

Nişan təyin olunduğu gün gündüz oğlanın evindən qız evinə nişan xonçası aparılırdı. Xonçaya üzük və baş örpəyi-tirmə şal ilə bərabər, ailənin imkanına görə də sırğa, bilərzik, boyunbağı, medalyon və s. zinət əşyaları, Gəncə kəlayağısı, 1-2 dəst paltarlıq parça və şirniyyat məlumatı qoyulardı. Axşam üstü 15-20 nəfər oğlan adamı-yaxın qohum, dost və tanış qız evinə gələrdi. Nişan zaman bəy oğlanın anası və bacısı ilə yanşı yaxın qohumları da xonça tutar və hərəsi öz xonçası ilə qız evinə gedərdi. Nişana qız tərəfindən də qonaq dəvət edilərdi. Yeyib-içdikdən sonra qonaqların hər biri öz yaylığına bir qədər noğul, konfet və şirniyyat yığıb evlərinə aparardı. Nişan xonçasının qablarını boş qaytarmazdılar. Həmin qablarda qız evindən oğlan evinə "qənd başı" xonçası göndərilərdi. Kəllə qəndin baş hissəsini sındırıb bu xonçaya qoyardılar. Xonçada olan şəkərbura, şəkərçörəyi, paxlava, şorqoğalı və s. ilə birlikdə toy plovundan da oğlana pay göndərilərdi.

"Deyikli" qız və olan artıq nişandan sonra rəsmi olaraq "nişanlı" və ya "adaxlı" hesab edilirdilər. Azərbaycanda nişanlı qızın qədim zamanlardan bəri "nişanlı" və ya "adaxlı" adlanması "Kitabi-Dədə Qorqud" dastanında da öz əksini tapmışdır. Dastanda deyilir: "...Bu otaq...Banıçiçək otağıymış ki, Beyrəyin beşikkərtmə nişanlısı, adaxlısıydı". [52] Nişan aparılan gündən etibarən nişanlı qız adaxlısının qohum-əqrabasından yaşınmalı, üzünü gizlətməli idi, adaxlı oğlan da öz nişanlısıın qohumlarında qaçmalı idi.

Nişandan sonra qız və oğlanın rasında məhəbbətin daha da möhkəm olması və onların bir-birinə isnişməsi üçün, qızın atasının xəbəri olması şərtiə anası adaxlı oğlana şərait yaradırdı ki, xəlvəti qızın yanına gəlsin. Bu adət el arasında "adaxlıbazlıq" və ya "nişanbazlıq" adlanırdı. Böyük Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musqili komediyasında Azərbaycanın şəhər yerlərində "adaxlıbazlıq" adətinin gözəl təsviri verilmişdir. [53] Azərbaycanı aran Qarabağ bölgəsində isə nişandan 1-2 gцn sonra nişanlı oğlan hər iki ailənin razılığını almaq

şərtilə qız evindən gəlmiş “qənd başı” xonçasındakı kəllə qəndin baş hissənin üstünə bir qədər şirniyyat və bəxşişlər qoyub yaxın dostu iə birlikdə nişanlı qızın qonşusu evinə “nişanbazlıq” gedərdi. Qonşu arvad “qəndbaşı” və sovqatı aparıb qız evinə verərdi qızın anası isə xörək hazırlayıb oğlana göndərərdi. Xörək isə bərəbər qızın anası adaxlı oğlan və onun dostu üçün içində müxtəlif əşyalar olan iki xonça düzəldərdi. Oğlanın dostu xələtini alıb gedərdi, oğlan isə qalıb nişanalısı ilə görüşərdi. Azərbaycanın bir çox bölgəsində qızın atası çox halda “nişanbazlığa” razılıq vermədiyindən nişanlı oğlan və qız toy gecəsinə qədər bir-birilərini görməzdilər. [54]

“Novruz”, “Ramazan” və “Qurban” bayramlarında oğlan evi nişanlı qıza bayramlıq göndərirdi. Bu adətə Şəki bölgəsində “Qudalıq” deyirdilər. R.Əfəndiyev Şəkidə qudalıq “adəti bel təsvir edir: “bayramlarda oğlan evi nişanlı qızın bayramlığını göndərərdi. “Novruz” qabağı “çərşənbə yemişi”, “Qurban” və “Ramazan bayramlarında tel halva, paxlava, peşvəng və s. halvalar xonçası, üstündə də əlbəsəlik (paltarlıq-red.), ipək parça göndərilirdi. “Qurban” bayramında boğazında ipək parçadan əlbəsəlik olan qoç göndərilərdi. Bu xonçaların qarşılığı qız evi tərəfindən göndərilməli idi. Məsələn, qız evininin oğlan evə “Qurban” qoyununun ətindən qutab, lüləkabab, girs və dolma göndərməsi adətdi”. [55]

Adətə görə, nişanlı qıza atasının evində olduğu müddətdə oğlan evi geyim alıb göndərməyə borclu idi. Bakı şəhərində yay aylarında qız evi bağa köçərkən, olan evi “bağbaşı” aparmalı idi. H.Sarabski bu barədə yazırdı: “Şorqoğalı, şəkərbura, şəkərçörəyi, qənd, çay, qız üçün yay paltarı, əla akulə düyüsü hazırlanıb gəlinlərinin görməyə bağa gedərdilər. Bunun adına da “bağbaşı” deyərdilər”. [56]

Nişandan sonra olan evi böyük toya hazırlaşmağa başlardı. Gəlin üçün paltar və zinət əşyaları alınır, toy tədarükü görülərdi. Bu müddətdə də qız evi cehiz tədarükünə başlardı. İmkanlı və ehtiyatlı ailələrdə qızları üçün cehizi lap kiçik yaşlarından hazırlardılar. Gəlinin köçməsinə az qalmış qohum və qonşular qız evinə yığışar, gəlini yorğan-döşəyinin sırıyar, cehizlərini qaydaya salardılar.

El adətinə görə, toy-düyün şənlikərindən əvvəl gəlin köçən qız qohum-əqrəba tərəfindən qonaq çağrılardı. Qonaqlıqların sonunda

qohum-qardaş gəlin köçəcək qıza yorğan, döşək, yastıq, xalça, nalça, nazbalşı, mis qazan və qab-qacaq və s. hədiyyə edərdi. Həmin hədiyyələr gəlinin cehizinə əlavə olunurdu.

Ənənəyə görə oğlan və ya qız evi axundə və el ağsaqqalları ilə məsləhətləşdikdən sonra razılaşıb toy şənlikərini gününü müəyyən edirdi. Öncə qız evində toy şənlikəri olardı. Adətə görə qız evindəki toy xərcini oğlan evi çəkərdi. Oğlan evindən boynuna qırmızı parça bağlanmış və ya başına qırmızı rəng vurulmuş bir neçə qoç və ərzaq məhsulları göndərilərdi.

Qız evində təşkil olunan toy şənlikərindən biri "paltarkəsdi" adlanırdı. Şirvan bölgəsində ona həm də "bazarlıq" deyilirdi. "Paltarkəsdi" günü çalğıçıların iştirakı ilə oğlan evindən başlayaraq çalıb-oynayırdılar. Günorta üstü gəlin üçün alınmış pal-paltarı sandığa, şirni-xuşkəbər və ərzaq məhsullarını isə zənbillərə yığıb musiqi sədaları altında qız evinə aparardılar. Şeyləri qız evinə gətirən kişilər çalıb-oynayanlara tamaşa etdikdən sonra bir stəkan çay içərək gedərdilər. Qadınlar isə ürəkləri istədikləri qədər rəqs edər, şənlənərdilər. Sonra isə oğlanın anası "başıbütöv", yəni əri, oğlu və qızı olan bir qadınla otaqların birindən paltarları çıxarıb xonçalara yığardı. Oğlanın qohumlarından bir neçə qadın xonçaları başlarına qoyub oynaya-oynaya məclisə gətirər və ortada yerə qoyardılar. "Başıbütöv" qadın xonçaların yanında oturaraq şeyləri bir-bir götürər, ayaq üstə durmuş başq bir qadına verərdi. Öncə gəlinin baş örpəyi verilərdi. Ayaq üstə durmuş qadın da baş örpəyini məclisdəkilərə göstərib deyərdi: "Bu gəlinin baş örpəyi! Allah mübarək eləsin, görənlər görüb, görməyənlər də görsün!" Beləliklə, gəlin üçün gətirilmiş bütün şeylər nümayiş etdirilər və sonra yenidən xonçalara yığılardı. Sonra birini oğlanı anası platarların üstünə pul atardı. Qızın anası da bir o qədər pul atardı. Daha sonra oğlanın və qızın bütün qohumları, qonşuları və tanışları hallı-halına görə paltarların üstünə pul atardılar. Oğlanın və qızın anaları pul atanları yaxşı yadda saxlayırdılar ki, gələcəkdə əvəzini çıxsınlar. Yığılan pullar ayaqüstə duran həmin qadına verilərdi. Ona görə də çox vaxt vəzifə üçün dul qadın seçiərdi ki, yığılan pullar ona kömək olsun. Paltarları aparıb o biri otaqda yenidən sandığa yiğdıqdan sonra oğlanın anası sandığı qıfıllayıb açarını qızın anasına verərdi. Başqa bir evdə isə

evin kişiləri qənd və noğulu nəlbəkilərə yığardılar. Hər nəlbəkiyə bir ovuc qənd və noğul qoyulardı. Bir qadın həmin nəlbəkini bir qaba yığıb məclisə gətirər və qonaqlara paylayardı. Şirniyyat alanlar "mübarək olsun" deyib noğul il qəndi yaylıqlarına başladırdılar. Məclisin sonuna qızın anası ən yaxın adamalrından on-on beş nəfərə "paltarkəsdiyə" qalmağı təklif edərdi. Oğlanın anası da qabaqcadan bir o qədər qadının vədəsini alardı.

Quba bölgəsindəki "paltarkəsdi" mərasimi paltar bə "bazarlıq" aparıldıqdan sonra, ayrıca təyin olnumuş bir gendə olardı. R.Babayeva Quba şəhərində "paltarkəsdi"ni belə təsvir edir: oğlan anası qız evinə xəbərdarlıq göndərin sabah bir neçə qadınla "paltarkəsdi"yə gələcəyini bilrərdi. Qız anası oğlan evindən xəbər bilən kimi tədarükə başlar və ən yaxın adamlarına bir neçə qadına : "Sabah bizə paltarkəsdiyə gəlin", - deyə xəbər göndərərdi. O günün sabahı nahar vaxtı dəvət olunanlar qız evinə paltarkəsdiyə gedərdilər. Oğlanın anas da on nəfərə yaxın qohum-qonşu ilə gələrdi. Gələnlər xalılar üstündə nalçalar üstündə oturub söhbətə başlardılar. Onların qənşərinə süfrə salınar və şirin çay, pendir, çörək, şəkərtıxma, şorqoğalı və i.a. şirniyyat gətirilərdi. Paltarkəsdiyə yığışanlar yeyib-içib: "Mübarək olsun, oğullu-qızlı olşsun!" –deyin süfrdədən çəkildikdən sonra yemkə süfrəsi yığılar və otağın ortasına "dəstərxan" süfrə, Quba bölgəsində deyildiyi kimi, "qələmkar" süfrə salınardı. Qız adamı palat sandığını gətirib ortalığa qoyar və paltarları çıxarıb süfrəni üstünə qoyardılar. "Başıbütöv" qadın paltar bişirməyi bacarırdısa, qızın həmin paltarlarının üstünə parçadan biçərdi. Biçməyi bacarmayanda isə parçanın üzərinə qayçı qoymaqla kifayətlənərdi. Paltar kəsiləndən sonra hamı: "Allah mübarək eləsin, oğullu-qızlı olsun, qoşa qarısın!"- deyərdi. Paltar biçilib qurtarandan sonra bütün paltar-parça sandığa yığılar və bir yana qoyulardı. Yenidən qonaqların qarşısına süfrə sərilər və bir qadın öncə oğlanın anasının, sonra isə o birilərinin əlinə aftafa-ləyəndə su tökərdi. "Paltarkəsdi"yə çağrılanlara varlı ailələrdə zəfəranlı aş, toyuq plov, yanında səbziqovurma, çığırtma, badımcan dolması və nar qovurması, orta səviyyəli ailələrdə südlü plov (yanında qarası, kişmiş, xurma və quru kütüm və ya xəşəm balığı olmaqla), yoxsul ailələrdə bozbaş, dolma və dovğa verilərdi. Yeməkdən

sonra qadınlar mürəbbəli və ya limonlu çayı içib, xeyir-dua verərək dağılışırdılar. [57]

“Paltarkəsdi” mərhələsindən sonra toy-düyünü son mərhələsi olan böyük toy başlayardı.

Qaynaqlarda Azərbaycanda qədim toyun 40 gün-40 gecə edilməsi haqqında məlumat vardır. XIX-XX əsrlərdə isə böyük toy varlı ailələrdə 7 gün-7 gecə, orta təbəqəli və yaxud yoxsul ailələrdə 3 gün, çox vaxti isə bir gün davam edirdi.

Toy şənliyinə 2-3 gün qalmış “çağırışçı”, bəzi bölgələrdə “salaçı” və ya “xəlfə” adlanan bir nəfər müəyyən qədər noğul verib adamları toya dəvət etməyə göndərərdilər. Çağırışçı evləri gəzib noğulu paylar və adamları toya dəvət edərdi. Dəvət olunanlar “mübarək olsun”, - deyib şirni nəlbəkidə yumurta, meyvə və yaxud xırda pul qoyardılar.

Toya bir neçə gün qalmış oğlan evində çörək və yaxud yuxa bişirib tədarük görərdilər. Ətlik heyvanlar isə toydan bir gün əvvəl kəsilərdi. Həmin axşam yaxın qohumlar və qonşular bəy oğlanın evinə məsləhətə yığışardılar. Bu vaxt sabahkı toy üçün heyvanlar kəsilər və ət tədarük edilərdi. Kişilərdən bir-iki nəfər ət doğrayar, qadınlar isə dolmalıq və lüləkabablıq əti döyüb hazırlayardılar. Bu ənənə Şirvan bölgəsində “danakəsdi” adlanırdı. Qadınlar isə öz aralarında ona “ətdöydü” deyirdilər. “Danakəsdi” zamanı kəsilmiş heyvanların içalatından qovurma hazırlayıb gələn qonaqlara axşam yeməyi verirdilər. Yeməkdən sontra vəzifə bölgüsü aparılırdı: toyxana quranlar, toyu idarə edəcək adamlar, xörək bişirənlər, xörək paylayanlar, çayçı, çay paylayanlar, qonaq qarşılayanlar, gəlin gətirmək üçün gedəcək adamlar, çalğıçıların dalınca gedənlər və s.

Toy şənliyi üçün bəy oğlanın həyətində və ya maşqa münasib yerdə böyük çadır qurulurdu. Ona “toyxana”, və ya “mağar” deyilirdi. Toy Azərbaycanın bütün bölglərində qara zurna ilə başlayırdı. Zurnaçılar toyxanaya gələnə kimi hündür bir yerə çıxıb çalmaqla toyun başladığını xəbər verərdilər. Uzaqdan zurna səsi eşidən kənd əhli toyxanaya trəf axışardı. Toya gələnlər təzə və təmiz paltarlarını geyər, bəzənərdilər. Toy kənd əhalisinin ümumi şənliyinə çevrilərdi.

Azərbyacanda ailə-məişəti ilə bağlı adət-ənənələrin incisi toy-düyün idisə, toy şənliklərini bəzəyi musiqi idi. Toya varlı ailələr

xanəndə, sazandalar və aşıqlardan ibarət bir neçə musiqiçi dəstəsi dəvət edərdilər. Yoxsul ailələrin toyunda isə musiqiçilər zurna-balaban və nağara-qaval çalanlardan ibarət olardı. Toyu ailənin sosial mənsubiyyətindən və maddi durmundan asılı olmayaraq Azərbaycanın Qarabağ bölgəsində xanəndəsiz, Şirvan və Qərb bölgələrində aşıqsız təsəvvür etmək olmazdı.

Toyda ustad aşıqlar dastan söyləyən zaman kənd əhli, böyüklü-kiçikli onları dinləməyə gələrdi. Ozan-aşıqlar qədim də də Azərbaycan toylarının yaraşığı olmuşlar. Bütün oğuz toylarında ozan başda oturardı. Oğuz toy şənlikərindən bəhs edən "Kitabi Dədə Qorqud" dastanında musiqi alətlərindən "sırna (zurna) və nağaranın, rəqslərdən "yellətmə"nin (yallınnı) adları çəkilməklə yanaşı, "qopuz çalıb boy boylayan, soy-soylayan" ozan-aşıq yaradıcılığından da geniş bəhs edilir. Orta əsr Azərbaycan dastanlarında da ozan və aşıqların toylarda göstərdikəri sənətkarlıq məharətlərindən xəbər verilir. Toylarda xalq mahnılarını ifası da geniş yer tumuş, musiqi ilə rəqs qədim zamanlardan əkiz olmuşdur. Cavanalar "Yallı", "Cəngi". "qaytağı", "Uzundərə", "Tərəkəmə", "İnnabı", "Turacı", "Ceyerranı", "Mirzəyi", "Köçəri", "Əsgəri", "Qazağı" və s. oyun havlarını rəqs etməkdən yorulmazdılar.

Toya çağırılan musiqiçilərə, müğənnilərə, xanəndələrə və aşıqlara xələt, hədiyyə və pul vermkə qədim zamanlardan el adəti olmuşdur. Azərbaycan xlq dastanlarında deyiliri ki, aşığı xalq dolandırar. "Kitabi Dədə Qorqud" dastanında bacılarının yanına ozan qiyafəsində gələn Beyrək bəy deyir: "Köhnə qaftanınız varsa geyəyin, düyündə əlim qaftan girərsə geri qaftanınızı verəyin". [58]

Azərbaycan taylarını idarə edən, onun aparıcısı "toybəyi" adlanırdı. Bəzi bölgələrdə ona "toy babası" , "toybaşı", "toyağası", yaxud "şah" deyilirdi. Toybəyini sözü toy iştirakçıları üçün qanun sayılırdı; hamı onun dediklərini əməl etməli idi. O, toyda istədiyi adamı oynamağa məcbur edər və ya cərimələyərdi. Toybəyi şənlik məclisini öz köməkçisi vasitəsilə idarə edərdi.

Keçmişdə Bakı kəndlərində sazəndələr əvəzinə dərvişlərin iştirakı ilə toy etmək dəbdə olmuşdur. Belə toylarda dərvişlər Məhəmməd Peyğəmbər (c), xəliflər , imamlar və başqa müqəddəslərin

həyatlarından, igidliklərindən söhbət etməklə yanaşı, silah oynatmaq, gözbağlıca, fala baxma və s. ilə toya gələnləri əyləndirdilər.

Kənd yerlərində toy-düyün zamanı müxtəlif idman yarışları, oyun və əyləncələr təşkil edilərdi. Kəndin gəncləri özlərinin at çapmaq məharətlərini cıdır yarışında nümayiş etdirərdilər. Cıdırda qalın gəlmiş atın boynuna kəlayağı bağlayar və ya sahibinə köynək hədiyyə verərdilər. Cavanların bir hissəsi güləş yarışında, digər hissəsi isə güc sınama ilə bağlı başqa oyunlarda iştirak edərdilər. Bəzi toylarda atıcılıq məharətinin göstərən yarışlar da təşkil olunurdu. Qədimdə Azərbaycan toylarında at çapmaq yarışı və bəy oğlanın üzüyünü nişan alıb ox atmaq yarışı "Kitabi-Dədə Qorqud" dastanında da təsvir olunmuşduur: "Məyər göykünün üzüyünə nişan atarlardı. Beyrək bir oxla üzüyü urdu, paraladı".[59]

Keçmişdə bəzi bölgələrdə oğlan evində toy olan zaman qız evində də toy olardı. Qız toyunda çalğıçılarda qadınlardan ibarət olardı. Gəlin qızı bəzədib toy məclisinin yuxarı başında oturdardılar. Qazax bölgəsində gəlin qızın qarşısına meyvə, çərəz və şirniyyatla dolu iki xonça və rəfiqələri tərəfindən bəzədilmiş "şax" qoyardılar. Toyda qadın müğənnilər el bayatılarından oxuyar, qızlar oynayardılar. Şəki şəhər toylarında oynayan qızların alnına "şabaş" verənlərdən bir-iki şahı metal pul alıb əsginaslarının özlərinə qaytaradı. Şəkidə toy sahibi uzaqdan gələn qonaqları və qohumları gəlin qızla birlikdə xəlvəti bir otağa çağırıb yemək verərdi, qalan qızlar isə axşamacan toyda oturar, gecələr evlərinə gedərdilər. [60]

Toy şənlikərindən biri də qız evində icra olunan **xınayaxdı** idi. Gəlin köçməmişdən bir gün öncə oğlan evindən qız evinə boynuna qırmızı şərid bağlanmış bir qoç və toy tədarükü üçün ərzaq göndərirdi. Qız evində xörək bişirib axşam toy şənliyinə hazırlaşardılar. Axşamüstü dəvət olunmuş qadınlar qız evinə toy şənliyinə toplaşardılar. Axşam isə oğlanın anası, bacıları, ən yaxın qadın qohumları və qonşuları xonça düzəldib qız evinə xınayaxma mərasiminə gedərdilər. Xonçada gəlin üçün həna, iki bəzəkli şam, qənd, çay, noğul və xuşkəbər ilə birlikdə bir cüt ayaqqabı da olardı. Gələnləri qarşılayan qız anası və ya bacısı xonçanı olardan alıb evə aparar, özlərini isə toy məclisinə dəvət edərdi. Gecə yarısına qədər çalıb oynayardılar. Sonra qadınlara

yemək verilərdi. Qadınlar yemək yeyib dağlışardılar, qızlar isə oxuya-oxuya o biri otağa keçərdilər. Gəlin qızın yengəsi hənanı xonçadan götürüb bir qabda isladar, gəlin qızı yatağına uzuadıb əl-ayağına həna yaxar, yorğan-döşək bulanmasın dəyə üstündən qırmızı şilə dolayıb bağlayardılar.

Qız evində olan sonuncu toy şənliyi Azərbaycanı əksər bölgələrində "xıyaxdı", bəzi bölgələrində "xına toy", Bakı, lənkəran və Şəki bölgəsində həm də "qız toyu", Qazax bölgəsində "qız başı", Quba bölgəsində "xına gecəsi", Təbriz bölgəsində isə "yegəl" adlanırdı. "Xınayaxdı" gecəsində başlayaraq nişanlı qıza "gəlin qız", adaxlı oğlana "bəy oğlan" deyilirdi.

Toy-düyün prosesinin adət-ənənələrlə zəngin mərhələlərindən biri də gəlin qızın köçürülməsidir. Gəlin gətirilən gün oğlan evindən toy xörəyi üçün tədarük görülərdi. Qız evində isə gəlinin cehizinin siyahısı tutulardı. Siyahı tutma mərasimində həm qız, həm də oğlan evinin adamları iştirak edərdilər. Cehiz şeylərinin siyahısının tutulmasında axund və ya molla ilə birlikdə kəndin və ya məhəllənin ağsaqqalları da dəvət edilərdirlər. Siyahıya ən öncə "Quran", sonra "canamaz" və "möhür" yazılırdı. "Quran" və namaz dəstgahından başqa qalan şeylərə qiymət qoyulardı. Qızın siyahıda göstərilən cehizlərin aparmasının şahidləri kimi, biri oğlan, digər isə qız evindən olmalqla, iki nəfər siyahınnı imzaladıqdan sonra onu qız atasına təqdim edir, qız atası da onu saxlamaq üçün arvadına verərdi.

Cehiz siyahıya alındıqdan sonra kəbin kəsilməsinə başlanardı. Kəbin keçmişdə adətən, nişan-şirni mərasimində kəsilərdi. Bəzən isə kəbinkəsmə mərasimində oğlan və qızın vəkilləri (adətən, ataları, əmiləri, dayıları və ya qardaşları) iştirak edərdilər. Kəbin kağızına "mehr"in miqdarı, yəni nikaha girmənin haqqı da qeyd edilirdi. Şəriətə görə, kişi arvadını boşamaq istədikdə kəbin kağızında qeyd olunmuş mehri ona verməli idi. [61] Odur ki, çox vaxt nikahın möhkəmliyini təmin etmək, boşanmanı çətinləşdirmək məqsədilə kəbin kağızına elə şeylər yazırdılar ki, onu vermək müşkül olsun. Kəbin kağızını nikaha girən oğlan və qızdan əlavə, hər iki tərəfdən bir nəfər olmaqla şahidlər imzalayırdı, sonra isə axund, qazı imza və möhürlə təsdiq edirdi. Kəbin kağızı bir müddət qızın atası evində saxlanırdı.

Kəbin kəsildikdən sonra qızın cehizi oğlan evinə daşınır və gəlin otağı döşənib bəzənirdi. Həmin gün axşam bəy oğlan sağdış soldış və tay-tuşları ilə birlikdə "bəylik hamamına" gedərdi. Qız evində bəy hamamı üçün xüsusi "bəy xonçası" gələrdi. Xonçada ipək köynək, araqçınlar, corablar, ipək yaylıqlar və s. hədiyyələr olurdu. Hamamdan sonra bəy oğlan qızın hədiyyəsi olan ipək köynəyi və corabın bir cütünü geyər, araqçınlardan birinin başına, yaylıqlardan birini cibinə qoyar, qalanlarını sağdış və soldışa verərdi. Azərbaycanda qız tərəfindən bəy oğlana hədiyyə köynək göndərilməsi adəti qədimdə də mövcud olmuşdur. "Kitabı-Dədə Qorqud" dastanında deyilir: "Adaxlısından ərgənlik bir qırmızı qaftan gəldi. Beyrək qaftanı geydi". [62]

Bəy oğlan hamamından qayıtdıqdan sonra, təxminən axşam saat 8-də toya çağırılmış qonaqlara xörək verilərdi. Hazırlanmış xörəklərdən ən əvvəl bir-iki qab çəkib qız evinə göndərərdilər, sonra məclisə xörək paylanardı. Kişilər xörək yedikəri vaxt qadınlar başqa bir otaqda çalıb-oynayardılar. Kişilər yeyib qutardıqdan sonra cavanalar gəlini gətirməyə gedərdilər. Gəlin gətirməyə gedənlər məşəllər yandırıb musiqinin sədaları altında qız evinə yürüş edərdilər. Yolda tüfəng və ya fişəng atar, papaqları göyə-atıb tutar, hurray çəkərdilər.

Adətə görə, gəlin gətirmək üçün bəyin atası, qardaşı, bacısı, əmisi, dayısı, əmidostusu, dayıdostusu, böyük qardaşın arvadı və ya başqaları gedərdi. Gəlini gətirmək üçün gedən adamlar arasında oğlan yengəsi də olardı. Keçmişdə Qazax bölgəsində bəy oğlan da "qardaşlıq" adlanan sağdışı ilə birlikdə gəlin gətirməyə gedərdi. Zəngəzur bölgəsində gəlin gətirməyə bəy deyil, onun sağdışı və soldışı gedərdi. Oğlan adamları qız evinə çatdıqda həyətdə kişilər dayanar, oğlan yengəsi isə gəlin geyinən otağa girərdi. Bu zaman qız yengəsi gəlin geyindirməyi başa çatdırardı. Oğlan yengəsi gəlinin başına duvaq salaraq: "Mübarək olsun, ayağı düşərli oldun" –deyərdi. Sonra bəy oğlanın qardaşını və ya əmisi oğlunu gəlinni belini bağlamq üçün içəri çağırardılar. O, qırmızı rəngli ipək qurşaq və ya atlas şərid (lent) ilə duvağın üstündən gəlinin belini bağlayaraq deyərdi:

Anam, bacım qız gəlin,
Əli, ayağı düz gəlin!

Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin!

Gəlinin atası evindən çıxması və ər evinə qədəm qoyması zamanı ayrı-ayrı bölgələrdə müxtəlif adət və ayinlər icra olunurdu. Adətən, gəlin gətirməyə gedənlər qız evindən bir şey oğurlamağa çalşardılar.qızın anası isə buna yol verməmək üçün gəlinin qurşağına bir çörək bağlayar və ya qoltuğuna bir çərək verər və bununla da bildirərdi ki, qızını çörəklə yola salır. Qız evindən gəlinlə birlikdə çörək aparırlırdığna görə oğurluq etmək olmazdı. Bu, duz-çörəyə hörmətsizlik sayılardı.

Ata evindən çıxmasına yaxın gəlin ağ duvaq altında otağın ortasında "bəxt güzgüsü" ilə üzbəüz durardı. Gəlini aparmağa gələnlər onun üzünü görməməli idilər. Gəlinin duvağı yalnız ər evində gərdəkdə bəy oğlan qaldırmalı idi. Qızın atasın və belini bağlayan qaynı qollarında tutub çırağın ətrafında üç dəfə dolandırardılar. Gəlin otaqdan çıxanda qapı ağzında döşəməyə üzüqoylu atılmış şüşə və ya saxsı boşqabı sındırıb keçməli idi ki, ər evinə "bədbəxtlik" aparmasın. Gəlini qapıdan çıxarkən müqəddəs "Quran"ın altında keçirərdilər. Qapının astanasında atası və ya əmisi, yaxud dayısı onu dayandırardı. Oğlan adamı burada kəbin kağızını saxlamaq üçün qızın anasına təqdim etməli idi. El adətinə görə, oğlan adamı kəbin kağızı ilə birlikdə qızın anasına "süd pulu" adlanan müəyyən məbləğ "halallıq" pulu da verməli idi.

Şəhər yerlərində gəlini faytonla aparardılar. Faytona əvvəlcə qızın yengəsi oturardı. Onun əlində şirniyyatla dolu bağlama olardı. Sonra gəlin qızın atası və əmisi onu faytona mindirərdilər. Onun dalınca isə oğlan yengəsi faytona minərdi. O, əlində yanan çırağı tutuardı. Faytonçunun yanında otumuş ooğlan uşağının əlində gəlini "bəxt güzgüsü" olardı. Gəlini aparan fayton yavaş getməli idi ki, piyadalar onunla ayaqlaşa bisinlər. Gəlin karvanın əlində məşəllər tutmuş cavanlar müşayiət edərdilər.

Kənd yerlərində gəlini at arabası, yaxud da at ilə aparardılar. Görünür, el arasında gəlinin ər evinə köçməsi üçün işlədilən "gəlin atlanması" ifadəsi də gəlinin atla aparılması ilə əlaqədar deyilmişdir.

Gəlin araba iə aparıldıqda yengələr onun yanında oturrar və çörək bağlamasını, çırağı və “bəxt güzgüsü”nü əllərində tutardılar. Gəlin arabasını bir qayda olaraq qızın qardaşı sürərdi. Gəlin at ilə aparıldıqda yengələr başqa bir ata mindirərdilər. Gəlin aparmaq üçün nəzərdə tutlmuş at qırmızı parça ilə bəzədilərr və bəyin evinə qədər yedəkdə aparılardı. Gəlin atla aparılan zaman iki gənc yol boyu sağ və sol üzəngilər tutub onu müşayiət edərdilər. Zəngəzur bölgəsində isə gəlinin ardına gəlmiş bəy oğlanın sağdışı gəlini ata mindirib, öz arxasında oturdar, soldış isə atın cilovunu tutardı. [63] Aran bölgələrində gəlini keçmişdə iki hürgüclü dəvə ilə də aparadılar. Bu məqsədlə bədilmiş dəvənin üstündən kəcavə qurular, kəcavənin ətəklərində zınqırovlar asılardı. Gəlin aparan karvanı önündə at belində bəy oğlanın böyük qardaşı (yaxud atası, əmisi və ya dayısı) gedərdi və gəlini axşam apardığına görə karvanı əllərində məşəl olan gənclər müşayiət edərdilər. Gəlin karavanının qabağını yol boyu cavanlar və ya uşaqlar ip (sicim) ilə kəsərdilər. Oğlan adamı o saat əllərinə pul və ya xələt verin yolu açdırardı. Bu minvalla gəlin gətirən karvan bəy oğlanın evinə gəlib çatardı.

Gəlin fayton və atdan düşürdülüb bəy evinə yaxınlaşanda eyvanda durmuş bəyin anası və ya bacısı onun başına noğul, konfet və xırda pul səpərdi. Uşaqlar isə həmin şeyləri yerdən yığıb sevinərdiər. Çox vaxt gəlin həyətə girəndə ayağı altında qoç da kəsərdilər. Bəzi bölgələrdə gəlin evin qapsına yaxınlaşan zaman ayaqları altına maşa, nal, şiş və s. dəmir əşya atardılar ki, ər evində onu yeri dəmir kimi möhkəm olsun. Gəlindən öncə evə onun çırağı, bəxt güzgüsü və çörək bağlaması aparılardı.

Gəlin otağa daxil olarkən qapının ağzında onun qarşısında bir qabda bal, şərbət, un və yaxud xəmir tutardılar. Gəlinin barmağını həmin şeylərə batırıb əlinin bərəkətinni rəmzisi kimi qapınının üst çərçivəsinə sürtməli və altında keçməli, içəri keçdikdə sinə qənşərində yerə atılmış çini və ya saxsı qanı sağ ayağı ilə tapdalayıb sındırmalı idi.

Gəlin otağa daxil olduqdan sonra qız və ya gəlin onu dövrəyə alıb, “xoş gəldin”-deyərək qucaqlayıb öpər və otağın yuxarı başında divar boyu döşənmiş döşəkçələrin yanına apararaq bir müddət ayaq üstə saxlardılar. Adətə görə, qayınata və qayınana gəlib gəlinə “dizdayağı”

qiymətli hədiyyə vəd etməli və oturmasına icazə verməli idi. Gəlin döşəkcə üstünə oturduqdan sonra quşağına 3-5 yaşında bir oğlan uşağı otuzdurub "oğullu-qızlı olsun" deyərdilər. Gəlin həmin oğlan uşağını başına bir araqçın qoymalı idi. Sonra gəlinin başına toplaşmış qız və gəlinlər çalıb-oynayar, oxuyar, şənlik edərdilər. Qızlar gəlinin yanından çəkildikdən sonra yengə onu gərdəyini qurardı gəlinin gərdəyi arakəsmə pərdədən ibarət olurdu. Azərbaycanın Şirvan, Mil-Qarabağ və Muğan düzlərinin maldar əhalisi bəy üçün "gərdək" olaraq alaçıq qurardılar və ya qarğıdan "qom" adlana müvəqqəti otaq tikərdilər. Qədimdə Azərbaycan oğuzlarında da bəy oğlan üçün xüsusi "gərdək" tikilməsi adəti olmuşdur. "Kitabi-Dədə Qorqud"da deyilir ki, "Oğuz zamanında bir yigit ki, evlənsə ox atardı. Oxu nə yerdə düşsə onda gərdək tikərdi". [64]

Bəy toyun əvvəlki günlərində mağarda oturmazdı. O, başqa evdə (əmisigildə, dayısıgildə, sağdışıgildə və ya qonşuda) yoldaşaları ilə birlikdə kiçik bir məclis qurar, yeyib-içər əylənərdi. Bəyin məclisini idarə etmək üçün bir nəfər "xan" seçilərdi. "Xan" böyük səlahiyyətə malik idi və bəydən başqa məclsin bütün iştirakçıların cərimə edə bilərdi. Toyun sonuncu axşamı gəlin gətirildikdən sonra bəy musiqi sədaları altında mağara gətirilir, toy şənliyi daha da canlanardı. Bəy mağaranın başında xüsusi düzəldimiş yerdə öz sağdışı və soldışı ilə birlikdə oturardı. Onun qarşısına mizin üstə meyvə, çərəz və şirniyyatla dolu xonça qoyulardı. Qazax bölgəsidə bəyin sağdışı onun üçün "şax" bəzəyərdi. "Şax" ağac budağında düzəldilirdi və onun kiçik budaqlarında meyvələr və konfetlər asılardı. Gəncə bölgəsində "şax" ağacı xüsusi olaraq düzəldilər, üzərinə xırda mıxlar vurular, onlardan isə corba, konfet, yaylq, meyvə və s. asılardı. "Şax" bəyin masasının qarşısında yerə qoyulardı.

Toyun sonunda bəy tərfi olardı. Bəy tərifi adəti Azərbaycanın müxtəlif bölgələrində "bəy durma", "bəy oturma" və "bəy başı" da adlanmışdı. Bu zaman bəy oğlan öz sağdışı və soldışı ilə birlikdə mağarın ortasında qoyulmuş masanın arxasında oturar və ya ayaq üstə dururdu. El aşığı bəyin şərəfinə təriflər deyər, onu ata və anasından başlayaraq yaxın qohumlarını, dost-tanışlarını bəyə xələt verməyə dəvət edəri. Bəyə xələt verənlərin çoxu sağdış və soldışa da xələt verirdi.

Bəyin xalaları, bibiləri və digər yaxın qohumları olan qadınlar xonçlarla birlikdə təbrikə gəlir və bəyin sağdış və soldışın boynuna qiymətli parçalardan xələtlər salardılar. Bəy tərifindən sonra bəy oğlanı nası, bacı qardaş və bütün qohum əqrəbası onun başına toplaşaraq bir qədər oynadıqdan sonra təbrik edib dağılışardılar. Bəy oğlanı sağdış və soldışı isə onu mağardan çıxardıb gərdək otağına qədər ötürərdilər. Toyu bu sonunvu gecəsi "zifaf gecəsi" adlanırdı.

Zifaf gecəsinin səhərisi günü bəy evdən çıxıb sağdışgilə gedərdi və yoldaşları onun başına toplaşardı. El adətinə görə həmin gün cavan uşaqlar məhəllənin həyətinə girib toyuq tutardılar. Bəyin şərəfinə üç gün məclis qurardı. Yalnız axşamlar yoldaşları bəyi gətirib evə ötürərdilər.

Gəlin isə üç gün gərdəkdə qalardı. Zifaf gecəsinin səhərisi günü gəlinin anası quymaq bişirər, üstünə darçın və bal töküb yengə ilə bəy evinə göndərərdi. Günorta və axşam yemklərin isə gəlinin qayınanası hazırlayıb kiçik qızlarından biri ilə göndərədi, evdə kiçik qız uşağı olmayanda, qayınana özü qapını döyüb açar və çörəyi qapı arasında otağa qoyardı.

Gərgəkdə oturmanın üçüncü günü "üzə çıxdı" mərasimi olurdu. Be el adəti çox yerdə "üçgün" adlanırdı. "Üç gün"də olanı anası xörək hazırlayır və yaxın qohum və qonşuları "gəlin gördü"yə dəvət edərdi. Qonaqlar toplaşdıqdan sonra qayınana gəlini çağırtdırardı. Yengə təzə gəlini geyindirib qonaqların üzünə çıxarardı. Gəlin hamıya salam verib bir tərəfdə dayanardı. Quba şəhərində təzə gəlin yengəsi ilə birlikdə qonaqlara salam verdikdən sonra əlindəki gülabdandan qayınanasının və başqalarını əlinə gülab tökmə adəti də var idi. [65] Qonaqlar gəlinə "Xoş qədəm olasan, ayağın düşərli olsun, ulduzlarınız barışsın"- deyərdilər. Sonra qayınanası gəlinə yer göstərib onu oturdardı. Gəlini görməyə gələnlər ona hədiyyə verərdi. Azərbaycanı bəzi bölgələrində (Yardımlı rayonu ərazisində) gəlin yeddi gün gərdəkdə qalmalı idi və yalnız səkkizinci gün yengəsi onu "üzə çıxdı" mərasiminə aparardı. [66]

"Üzə çıxdı" nın səhərisi günü gəlin aftafa-ləyəni götürüb qayınata, qayınana və qayınlarının əlinə su tökməklə yeni ailəsinin həyatına qoşulardı. Gəlin ərinin valideynlərinə "qayınata" deyil, adətən

ərinin dili ilə “ata” və “ana”, qayınlarına  və baldızlarına isə “qardaş”, “bacı”  ifadəsi əlavə etməklə adları  ilə müraciət edərdi.

Gəlin qırx gün öz həyətlərindən bayıra  və camaat arasına çıxmazdı, hətta anasıgilə də gedə bilməzdi. Bu müddətdə onu “çillə” yə düşməsindən ehtiyat edərdilər. Qırx gündən sonra baldız və qaynanası gəlini camaat arasına çıxarar, özləri ilə bulaq başın aparardılar. Gəlinin at-anası da qızlarını yalnız qırx gündən sonra qonaq çağırardı. Gəlinin tası evinə qonaq çağrılmasını “ayaq açdı” adlanırdı. “Ayaq açdı” zamanı gəlini atası qızına xalça, sağmal heyvan və qiymətli bir hədiyyə verərdi. Bəzi ailələr kürəkənlərinə hətta at da bağışlayardılar. Odur ki, gəlin köçmüş qızın atası evinə “ayaq açdı”  mərasimi həm də “kürəkən görümcəyi” adlanırdı. Qayınata və qayınana üçün kürəkən olan qızın əri, qayın və baldızlar habelə digər qohumlar üçün “yeznə” adlanırdı. Azərbaycanın Şirvan, Gəncə, Qazax, Borçalı və Göyçə bölgələrində qızın əri üçün kürəkən sözünün əvzinə “göy” sözü işlədilmişdir. Ehtimal ki, Azərbaycanın bir çox bölgələrində müasir dövrdə də “kürəkən” mərasimində işlədilən “göy” sözünün  zəmanəmizədək gəlib çıxan  qədim oğuz “göykü” sözünün qısaldılmş formasıdır.

## UŞAQLARIN TƏRBİYƏSİ

Gəlinin gətirilməsi ilə yeni bir ailənin təməli qoyulurdu. Gəlin ər evinə gəldikdən sonar onnu həyatını yeni mərhələsi başlanırdı. Gən ailənin mənəvi həyatında qayınata, qayınana, qayın və baldızlar, qayın aravdaları və təzə bəyin digər qohumları mühüm rol oynayırdılar. Atalar yaxşı deyiblər: "Gəlin gəlin olmaz, düşdüyü ev gəlini gəlin edər". Gənc ailənin taleyində valideynlərin gəlinə verdiyi nəsihətlər də öz təsirini göstərirdi. Belə ata nəsihətlərinin gözəl nümunəsi Y.V.Çəməzəminlinin "Qızlar bulağı" romanında verilmişdir" "... Rəftar adama bağlıdır. Sən istəsən qayınata və qayınananın çəmini taparsan. Köhnələrin də rəyi ilə bir az hesablaşmaq lazımdır" [68] gəlinlər bir hərəkətləri ilə ata və anaların onlara verdikləri nəsihətlərə əməl etməyə çalışırdılar. Azərbaycanda gəlin ər evinə gəldiyi üçün bir uşağı olana qədər qayınata və qayınanasından üzünü gizlədər, yaşmaq tutar, qayınatasının və böyük qayınlarını yanında yemək yeməz, onlarla biləvasitə danışmaqdan çəkinər, hətta çox zaman özündən kiçiklərlə də astadan danışardı.

Azərbaycan ailəsində gəlinin mövqeyi və ona münasibət uşaq doğmasında asılı idi. Xalqımız gənc ailələrin övlad arzusunu nağıllarda və dastanlarda ilahiləşdirmişdi: "qırx gün qırx gecə toy eldilər, gəlin gətirdilər. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə gəlin otdu, pəhləvan cüssəli bir oğlan (və ya Günəşə, Aya bənzər, gözəl, görçək bir qız) uşağı dünyaya gəldi". Nazğıllarımızın bu isindirici nəfəsi "Kitabi-Dədə Qorqud" dastanında da Qlın Oğuz elinin hökmdarı Bayındır xannı sözlərində də öz əksini tapmışdır: "Oğlu-qızı olmayanı Allah-taala qarğayıbdır. Biz dəxi qarğarız, bəlli bilsin". [69] El arasında uşaqları evin yaraşığı adlandırır, uşaqsız evi isə susuz dəyirmanna bənzədirdilər. Xalqın alqış və qarğışında bu inam öz ifadəsini tapmışdı. Birini dua-sana edəndə deyərdilər: "Səni görüm övladlarında yarıyasan!" birini qarğıyanda deyərdilər: "Sənin görüm, nəslin kəsilsin!" və ya "Səni görüm, bayquş kimi tək qalasan!".

Gəlin toydan qırx gün keçəndən sonra uşağa qalmadıqda, "gəlin çilləyə düşüb", - deyərdilər. Xalq inamına görə, gəlnin çilləyə düşməsinə səbəb yanına hələ doğuşdan sınra qırxı çıxmamış qadının, ya

doğulduqdann sonra uşaqları qalmayan, bir-birini ardına ölən "şəşəli" və ya "həmzatlı" qadının, ya da ölüsünün qırxı çıxmayan yaşlı adamın gəlməsi ola bilərdi. Xalq inamına görə, gəlin onunla eyni vaxtda ərə getmiş başq gəlindən, hətta piçik və ev heyvanalrından da çilləyə düşə bilərdi. Gəlini çillədən azad etmək üçün çilləsi kəsilməli idi. Çillə kəsməkdən ötrü xalq arasında müxtəlif üsul və ovsunlardan istifadə olunurdu.

Gəlin hamiləlik dövründə böyük qayğı ilə əhatə olunurdu. Gəlini ürəyi nə istəsə tapıb gətirərdilər. Ona qüvvətli və keyfiyyətli ləziz şeylər yedizdirərdilər. Gəlinə məsləhət görülürdü ki, çoxlu heyva və xurma yesin. Xalq təcrübəsinə görə heyva uşağı gözəl, xurma isə sağlam və qüvvətli olmasına təsir edirdi. Hamilə qadın yalnız gözəl şeylərə və mənzərələrə,göyçək admalara baxmalı idi ki, uşağı da göyçək olsun. Xalq inamına görə hamilə qadın bətnində uşaq tərpənən vaxtlarda çirkin adama baxsaydı uşaq çirkin, dovşana baxsaydı-qorxaq və ya dovşandodaq, tülküyə baxsaydı-hiyləgər, itə baxsaydı-qəzəbli olardı. Hamilə qadına haram şey yedizdirilərdisə uşaq oğru olardı.



Doğuş zamanı zahının yanında mamaça qadın və ya başqa bir qadın mütləq növbə çəkməli idi. Zahının ağzına saqqız və y abaşqa yeməli şeylər verirdilər ki, yatmasın. Xalq inamına görə zahı yatsa, "hal anası" onun ürək və ciyərini çıxarıb apara bilərdi. Bu bardəd xalq arasında belə bir rəvayət yayılmışdı ki, guya bir kişi arxa su ayırmaq üçün sübh çağı çay kənarına gəldikdə görür ki, uca boylu, əlləri olduqca uzun, dözləri çiyinlərinə atılmış bir bədheybət bir qadın əlindəki ürək və ciyəri suda yumaq istəyir. Dünyagörmüş kişi başa düşür ki, bu "hal anası" adlanan cindir, əlindəkilər isə hansısa zahı qadının ürək və ciyəridir. Kişi özünü itirmir və əlindəki beli yuxarı qaldıraraq, qəzəblə onu üstünə qışqırır: "Ey məlun! Bu saat əlindəkiləri

apar yerinə qoy!”. Kişi bu sözləri deyən kimi bədheybət qadın yox olur. Kişi arxa su  ayırıb evə qayıtdıqda, qonşuda səs-küy eşidir. Qarşısına çıxan arvadından qonşudakı səs-küyün səbəbini öyrənir ki, bu gün səhər gəlin uşaq üstə ölübmüş, bir az əvvəl isə dirilib və indi hamı möcüzəyə sevinir. Kişi bu xəbəri eşidəndə başa düşür ki, “hal ana”sının əlindəki ürək və ciyər qonşunun gəlinin imiş və “hal anası”  belin parıldayan metal tiyəsini gördüyünə görə  kişidən qorxub əmrini yerinə yetirmişdir.

“Hal anası” Azərbaycanın müxtəlif bölgələrində “al nası”, “alarvadı” və sadəcə “hal” adı ilə məlum olmuşdur. Maraqlıdır ki, hələ eramzdan əvvəl IV minilliyin sonu-III minilliyin əvvəllərində Azərbaycan xalqının  ən qədim əcdadlarında sayılan sümərlər də yeraltı dünyanı məlakələrini (cinləri) “hal” adlandırır və onları bədheybət qadın şəklində təsəvvür edirdilər. [70]

“Hal anası” nın mövcudluğuna inanan adamalar doğuş zamanı zahı qadın ondan qorumaq üçün müxtəlif vasitələrə əl atırdılar: zahını yaxasına sancaq taxır, döşəyinin altına xəncər, balta, şiş və sş metal şeylər qoyurdular. Çətin doğuş zamanı qadın huşunu itirəndə elə hesab edirdilər ki, bu tədbirlər kömək etmir və “hal” xəstəni aparır. Ona görə də axar suyunun yanına parır, suyu xəncərlə “kəsirdilər”. Huşunu itirmiş qadın özünə gəldikdə elə hesab edirdilər ki, onlar “hal anası”ndan qabaq suya çatmış  və ona  pis  əməlini icra etməyə imkan veməmişlər. Əksinə, çətin doğuş anı qadın öləndə, elə hesab edirdilər ki, “hal anası” onlardan  əvvəl gələrək adınnı ürək və cirəyini suya salıb yumuşdur.

Ailənin əhval-ruhiyyəsinə dünyaya təzə  gəlmiş körpənin oğlan və qız olması da təsir edirdi. Hər bir ailədə oğlan uşağının daha  çox arzu olunması gəlin gətiriləndə onun belinin bağlanması zamanı deyilən arzulamada və gəlinin ər evinə girən kimi qucağına oğlan uşağını verilməsi adətində  də öz təcəssümünü tapmışdır. Oğlan uşağının doğulması ailədə böyük evinclə qarşılanırdı. Oğlan uşağının doğulması xəbərini atasına  və babasına çatdıran adama  muştuluq verilirdi. Qız uşağının doğulması ailədə bir qədər laqeydliklə qarşılanırdı. Oğlan olmayan və yalnız qız uşağı ola şəxs özünü  bədbəxt hesab edirdi. Adətən, ailələrdə qız uşağı dalbadal doğulanda körpələrə Qızbəs, Qızayıt, Qızyetər, Bəstiqız, Bəsti və b. adlar qoyulurdu. Böyük şair

S.Vurğun "Bəsti" poemasında xalqın bu adəti çox gözəl poetik ifadəsini tapmışdır:

"Anan səni doğanda adına "Bəsti", -dedi,
"Əllərini bir fələk oğuldan kəsdi", -dedi.
Beləydi qayda bizdə...Qız doğanda analar
Baxıb qara geyərdi su üstündə sonalar;
Yazıq qadın utanıb, qızarardı ərindən,
Min bir varaq qopardı könlünün dəftərindən". [71]

Qeyd etmək lazımdır ki, oğlan və ya qız olmasından asıl olmayaraq, Azərbaycan ailəsində yeni körpənni dünyaya gəlməsi şənlikə qarşlanır və uşaqlara xüsusi qayğı göstərilərdi. Hələ uşağın anadan olması ərəfəsində ailədə xüsusi hazırlıq görülür paltar tikilir, yorğan-döşək hazırlanır, nənni düzəldilir və beşik alınırdı. Xan, bəy və əsilzadə ailələrdə sifarişlə sənətkarlar tərfindən çox nəfis beşiklər də hazırlanmışdır. XVIII əsr Şəki xanı Məhəmməd Həzən xanın beşiyi bu cəhətdən maraqlıdır.

Uşaq anadan olduqdan sonra mamaça qadın onun göbəyini kəsib bağlayar və bir neçə dəqiqə başı aşağı saxlayardı ki, nəfəs yolları açılsın, uşaq nəfəs ala bilsin. Sonra körpəni çimdirər, mövlud qüsulu verər və qundağa bələyərdi. Körpəyə 10 saatadək yeməyə heç bir şey verməzdilər. Sonra isə çağanın anası döşünü südünü öncə sağıb kənara atar və sonradan gələn südü çağaya verərdi.

Körpəni qundaqda anasının yanına salınmış yerə qoyardılar. Vaxtaşırı bələyi açıb qundağı təzələyərdilər. Körpəni 7-10 gündən sonra şərq bölgələrində beşiyə, qərb bölgələrində isə nənniyə qoyardılar. Isti yay günlərində ölkənin şərq bölgələrində də körpə nənniyə qoyulardı.

Beşik ağacdan düzəldilirdi. Onun alt hissəsinə saxsı sibinc qoymaq üçün deşiyi olurdu. Beşiyə ortasında yarığı olan döşəkçə salınırdı. Onu üstünə isə ortasında kiçik yarığı olan ağ parça salınırdı. Həmin deşiyə qoyulmuş lüləy (düdük) vasitəsilə körpənin sidiyi sibincə axırdı.

Doğuşdan sonra zahıya üç gün səhər quymaq bişirib verərdilər ki, qarnı sağalsın. Dördüncü gün zahının qarnını çəkib bağlayardılar. Zahını qırxı çıxmayınca gecələr evdən bayıra tək çıxmağa qoymazdılar onun yanında bir kişi və ya oğlan uşağı olmalı idi. Bu qırx gün ərzində istər ana, istərsə də körpə başqasının çilləyə sala bildikəri kimi özləri də çilləyə düşə bilərdi. Körpə olan otağa, ailə üzvlərindən başqa, ilk dəfə gələn olanda əvvəlcə körpəni otaqdan çıxarar gələn adam içəri keçdikdən sonra körpəni onun "üstünə" gətirərdilər, ya da körpəni qapının ağzından yuxarı qaldırar, gələn adam onun altından keçib otağa daxil ola bilərdi. Qırxı çıxmamış zahı qadını evdə ağır işlər görməyə qoymazdılar. Qırx gün müddətidə "natəmiz" hesab edildiklərindən onlara hətta xəmir yoğurmağa, çörək bişirməyə və inək sağmağa da icazə verilmirdi.

Körpə beşikdə və ya nənnidə yatarkən anası ona laylalar oxuyurdu. Ananın taleyini, dərd-sərini, sevincini, kədərini və arzularını əks etdirən həmin beşik və nənni laylaları ilə körpənin tərbiyəsinin təməli qoyulardı.

Azərbaycan ailəsində körpəyə ad qoyulması da bir şənlik olmuşdur. Adqoyma mərasimi bəzi bölgələrdə uşağın anadan olmasını yeddinci günü, bəzi bölgələrdə isə onuncu günü keçirilərdi. Ailədə qonaqlıq üçün xörək tədarükü gorülür və qohum-qonşular dəvət olunurdu. Öncə körpənin sağ qulağına "azan", sol qulağına isə "iqamə" oxuyar, sonra ad qoyardılar. Körpə üçün adətən məqəddəs "Quran"dan adlar seçilirdi. Körpəyə peyğəmbələrin, xəlifələrin, imamların və onların övladlarını adları ilə bərabər uşağın babasının və nənəsinin adı da qoyulurdu. Azərbaycan ailəsində uşağa islam dini ilə bağlı ərəb mənşəli adlarla yanaşı, müəyyən mənası olan türk və İran mənşəli dünyəvi adlar da qoyulurdu. Oğlanlar üçün belə adlar igidliyi, mərdliyi, şücaiəti, qorxmazlığı, müdrikliyi, aqilliyi, ədalətliyi əks etdirirdi. Qızlar üçün isə adətən səadət, sədaqət, nəciblik, xoşbəxtlik və səma cismlərinin və gözəllik nümunələri hesab edilən gül, çiçək, heyvan və quş adlarını bildirən zərif adlar seçilərdi.

Azərbaycan ailəsində uşağı 6 ayından sonra yeməyə öyrədərdilər. Uşaq birinci dişini çıxardanda ailədə hamı sevinər və hədik bişirib qonum-qonşuya paylayardılar. Körpənin bir yaşı tamam

olanda saçını qırxdırardılar. Uşağa şər qarışandan sonra yemək verməzdilər. Uşağı kiçik yaşlarından əl-üzünü yumağa məcbur edər və o, süfrə kənarında əli çirkli oturduqda əllərinin yumasını tələb edərdilər. Bütün bunlar uşağın sağlam böyüməsi, onda səliqə və təmizlik vərdişlərinin tərbiyə edilməsi məqsədini daşıyırdı.

Oğlan uşaqlarının sağlamlığını təmin etmək məqsədilə onu sünnət edərdilər. Gigiyenik tədbir kimi həyata keçirilən sünnət mərasimləri oğlanların fiziki tərbiyəsi ilə bağlı olmuşdur. Bəzən sünnəti dini adət kimi qələmə verir və oğlana sünnət etdikədən sonra: "Bu gündən müsəlman oldun",-deyirlər. əslində isə sünnət islam dini ilə bağlı adət olmamışdır. Yəhudilərdə də sünnət adəti vardı. Yəhudi rəvayətlərinə görə sünnət adəti guya İbrahim peyğəmbərin öz oğlu İshaqı sünnət etməsi ilə başlamışdır. Qeyd etmək lazımdır ki, sünnət yalnız monoteist dinlərə sitayiş edən müsəlman və yəhudilər arasında deyil, qədimdə ibtidai dinlərə sitayiş edən başqa xalqların arasında da yayılaraq dini xarakter daşımamışdır. Bir çox tayflarda isə gənclərin hərbiçilər sosial təbəqəsinə qəbul edilməsi ilə bağlı mərasim olmuşdur. [72] Yəhudilərin adətinə görə körpə 7 günlüyündə sünnət edilirdi. Xəlifə Əli (ə) də buyurmuşdu: "Öz övladlarınızı doğumun yeddinci günü sünnət edin və isti-soyuqdan çəkinməyin, bu canın paklığına səbəb olar". Lakin sonralar müsəlmanlarda oğlan uşağını 7 yaşında sünnət etmək bir qayda kimi qəbul olundu. Azərbaycanda adətən olan uşaqlarının 5-8 yaş arasında, bəzən daha tez sünnət edərdilər. Keçmişdə oğlan uşaqlarının sünnət edilməsi varlı ailələrdə toy şənliyinə çevrilirdi.bu şənlik bəzi bölgələrdə "sünnət toy", bəzilərində isə "kiçik toy" adlanardı.

Azərbaycanın Şəki, Şirvan, Qarabağ, Gəncə, Qazax, və b. qərb bölglərində sünnət adəti ilə əlaqədar "kirvəlik" institutu olmuşdur. Keçmişdə "kirvəlik" istitutu Azərbycanın Xəzərsahili qərb bölgələrində hgeniş yayılmamışdı. Cənubi Azərbaycanda isə belə bir ailə ənənəsi olmamışdı. "Kirvə" sünnət vaxtı oğlanı "tutan" adama deyilirdi. Kirvə uşağı qucağında oturdub tuturdu ki, sünnət zmanı uşaq əl-ayağını tərpətməsin. Dəllək bir anda uşağı sünnət edir, sonra isə qan axmasını qarşısnı almaq üçün kəsilmiş yerə ələnmiş kül səpirdi. Kirvənni seçilməsinə xüsusi fikir verilirdi. O, ailəyə münasib adamlardan,

dostlardan seçilərdi. Sünnətdən bir neçə gün əvvəl uşağın ata-anası qiymətli hədiyyələrlə "kirvəgördüyə" gedərdilər. Sünnətdən sonra isə kirvə xonça bəzəyib ailə üzvləri ilə birlikdə tutduğu olanı görməyə gələrdi. Belə qarşılıqlı "kirvəgördü" yoluxmaları iki ailə arasında sonralar da davam edərdi və çox vaxt ailə hüdudlarından kənara çıxardı. Yaxın qohumlarda "kirvəgördü" qonaqlıqlarında iştirak edərdilər. Nəticədə iki ailə, iki nəsil arasında mehriban, qardaşlıq münasibətləri yaranardı. Kirvəlik iki nəslin bir növ yeni qohumluq forması olmuşdur. Kirvənin yaxın qohum sayılması ondan görünür ki, ənənəyə görə kirvənin "tutduğu" oğlan üçün kirvənin qızı bacı heasb edilirdi və onunla evlənmək olmazdı. Kirvəyə ata kimi hörmət edilirdi. Kirvəyə müqəddəs münasibət Şirvan bölgəsində belə bir zərb-məsəl öz əksini tapmışdır: "Allahdan dönmək olar, kirvədən yox".

Azərbaycan ailəsində övladlarını inkişaf etmiş kamil şəxsiyyət kimi tərbiyə etmək hər bir valideynin arzusu olmuşdur. Bu məqsədilə əxlaq tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Əxlaq tərbiyəsinin ilkin mərhələsi ata-ana nümunəsi olmuşdu. Ata və ana nümunəsi bardə Dədə Qorqud çox gözəl deyib:

Ata və ananın qarşılıqlı hörmətə əsaslanan münasibətləri, səmimi, mehriban və qayğıkeş rəftarları ailədə sağlam mənəvi mühit yaradırdı. Bunun isə bir tərəfdən müsbət nümunə kimi uşaqların bir-birilərinə münasibətlərinin tənzim olunması, digər tərəfdə uşaqlarda valideynlərinə hörmət hissi aşılanması üçün tərbiyyəvi əhəmiyyəti vardı.

Azərbaycan ailəsində valideyn-övlad münasibətləri qarşılıqlı əsaslar üzərində qurulmuşdu. Valideynlər uşaqlarının ərsəyə çatdırmaq üçün bütün imkan və vasitələrdən istifadə edirdilər. Uşaqlarını ev-eşik sahibi etmək hər bir valideynin ən böyük arzusu idi. Valideynlər qız övladları üçün körpə çağlarında cehiz yığmağa başlayır, oğlan övladlarını evləndirmək üçün hər cür mərhumiyyətlərə dözürdülər. Azərbaycan oğulları və qızları da ailədə həmişə elə davranmışlar ki, valideynlərinin heç biri ondan inciməsin. Məhəmməd Peyğəmbər (s.) valideynlər hörmət etməyi, övladları onlarla kobud rəftardan çəkindirməyə çağıraraq demişdir ki, əgər behişti istəyirsinizsə, ata-

anaya yaxşılıq eləyin, əgər cəhənnəm odunu istəmirsinizsə, valideynlərinizə əziyət verməkdən çəkinin.

Azərbaycan ailəsində ataya hörmət hissinin aşılanması uşaqların təribiyəsində həmişə birinci dərəcəli əhəmiyyət kəsb etmiş və qədim zamanlardan əxlaq tərbiyəsinin vacib şərtlərindən biri olmuşdur. Bu barədə "Kitabi-Dədə Qorqud"da maraqlı bir epizod var. Tacirlər onları xilas edən igidin Baybura bəyin sağında olduğunu görüb yüyürərək onu əlindən öpürdülər. Ata dura-dura onun yanında oğulun əlini öpmək Baybura bəyi qəzəbləndirir. Çünki tacirlərin hərəkəti atanın oğula verdiyi tərbiyəyə zidd idi və cəmiyyət tərəfindən qəbul olunmuş əxlaq normalarını pozurdu.

Qədim və orta əsrlərin oğuz ənənələrinə sadiq qalmış Azərbaycan ailəsində atanın nüfuzu onun xanımı tərəfindən göz bəbəyi kimi qorunurdu. Ana uşaqları ata nüfuzu ilə tərbiyə edərək onları öyrədirdi ki, Allahdan sonra yer üzündə onu üçün ən böyük varlıq atadır. Ana özü ərinin hörmətini gözləməklə başqalarına nümunə olurdu. Ata otağa daxil olandan ana uşaqları ilə bərabər ayağa durardı. Ata işdən və yaxud yoldan gəlibsə, arvadı və ya qızlardan biri aftafa-ləyən gətirərək onun ayaqlarını yuyardı. Yemək zamanı ata "bismillah" deyib süfrəyə əl uzatmayınca heç kəs süfrəyə əl uzatmazdı.

Ailədə anaya hörmət də uşaqların tərbiyəsində mühüm yer tuturdu. Ana evin xanımı sayılırdı. Ailə həyatına dair bütün məsələrdə əri onunla məsləhətləşərdi. Ananın öz uşaqları üstündə çəkdiyi əziyyətlərinin, hamillik və doğum vaxtının məşəqqətlərinin əvəzini heç bir şeylə ödəmək mümkün deyildi. N.Tusi yazır ki, ana uşaqlarını yedizdirir, xeyirli şeylərini ona çatdırır, zərərli işlərdən onları çəkindirirdi. Uzun müddətli şəfqət və mehribanlıq nəticəsində ananın uşaqlarına məhəbbəti o qədər artır ki, onların həyatını öz həyatından üstün tutur. [74] Ana haqqı "Tanrı haqqı" adlandırılır. Ananın haqqı Məhəmməd Peyğəmbərin (s.) kəlamında lakonik ifadə ilə belə qiymətləndirilmişdir: "Cənnət anaların ayaqları altındadır." Ata və ana hüquqları müqayisə edilsə, ata hüququ daha çox mənəvi, ana hüququ isə nisbətən cismanıdır. Bu səbəb görə də uşaqlar ana qayğısını daha tez hiss edir və analarına daha çox meyl göstərirlər. [75]

Ailədə uşaqların tərbiyəsi onların bələnməsindən, əmizdirilməsindən, yedizdirilməsindən onlarla oynamaqdan və söhbət etməkdən başlanardı. N.Tusi yazır ki, "uşaq süddən ayrıldıqdan sonra hələ əxlaqı korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır". [76] Azərbaycan ailəsində uşaqlar kiçiл yaşlarından öyərdirdilər ki, süfrə başında söhbət etmək olmaz, böyük danışanda kiçik qulaq asmalıdı, özündən böyüklə, xüsusilə də ağsaqqalla ucadan danışmaq, əlini cibinə salmaq, əl-qol hərəkəti etmək ədəbsizlikdir. Valideynlər uşaqlarına təlqin edirdilər ki, yalnız halal şey yesinlər, qismətdən artığa göz dikməsinlər, insaflı olsunlar, ətrafdakılara diqqətli olsunlar və onları qayğısına qalsınlar, ehtiyacı olanlara imkan daxilində köməklik göstərsinlər. Ağsaqqala, qonşuya, qadınlara hörmət hissinin də aşılanması uşaqların ailə tərbiyəsinin mühüm ünsürləri olmuşlar.

Azərbaycan ailəsində uşaqlara kiçik yaşlarından əmək vərdişləri öyrədirdiər. Kənd yerlərində oğlanlar çox işlərində atalarına kömək edər, kiçik yaşlarında anaları ilə birlikdə meşəyə gedər, odun gətirərdilər, qızlar isə ev işlərində analarına yaxından kömək edərdilər.

Uşaqların fiziki trəbiyəsində keçmişdə uşaq oyunları, o cümlədən uşaq idman oyunları əhəmiyyətli yer tuturdu. Azərbaycan əsilzadə və dövlətli ailələrində uşaqların fiziki tərbiyəsini qayğısına xüsusi qalırdılar. Xan və bəy uşaqlarına atıcılq məharətini öyərdərdilər. Ataları onları özləri iə birlikdə ova aparardı. Xalqın bütün sosial təbəqlərinin oğlan uşaqlarına kiçik yaşlarında at sürmək vərdişləri öyrədilirdi. Keçmişdə xalqımızın təkcə oğlanları deyil, qızları da idmanla məşğul olmuşlar. Bu, onların fiziki kamilliyi, at çapmaq məharəti, ox atmaları, qılınc oynatmaları, qurşaq tutub güləşmələri haqqında "Dədə Qorqud". "Şah İsmayıl", "Məhəmməd-Güləndam" və s. dastanlarda verilən məlumatlardan aydın olur.

Ailədə uşaqların əqli tərbiyəsində ayağı göstərilərdi. Dövlətli ailələrdə körpə vaxtı uşaqların tərbiyəsi ilə dayələr məşğul olardılar. Uşaqlar 6-7 yaşına çatdıqda onu oxumaq üçün molla yanına qoyardılar. İmknalı ailələr isə uşaqlarını mədrəsə və dünyəvi məktəblərdə oxudur, təhsil və elm almaq üçün İstanbula, Qahirəyə, Nəcəfə, Peterburqa, Moskvaya, Qori seminariyasına, Qazana, Odessayavə Rusiyanın başqa

şəhərlərinə, Almaniya, Fransa kimi Qərbi Avropa ölkələrinin şəhərlərinə göndərərdilər.

Azərbaycanda keçmişdə uşaqların estetik tərbiyəsinə də fikri verilirdi. Zadəgan ailələrində və şəhərlərin varlı ailələrində musiqi təhsili vermək üçün xüsusi musiqi müəllimləri dəvət olunardı. Kənd yerlərində uşaqlar aşıq musiqisinə və xanəndələrin oxumasına böyük həvəs göstərərdilər. İstedadlı oğlan uşaqlarını ustad aşıqalrın, xanəndələrin, simli, nəfəsli və zərb musiqi alətində çaln sənətçiərin yanınd şagird qoymaqla onların estetik tərbiyəsinə qayğı göstərir və gələcəkdə məşhur el sənətçilərini yetişməsini təmin edirdilər.

Uşaqların ailə tərbiyəsində ana və ata ilə yanaşı kənd ağsaqqalları, şəhərlərdə isə məhəllə ağsaqqalları və bütün böyüklər fəal iştirak edirdilər.

Beləliklə, ailə tərbiyəsi nəticəsində uşaqları milli adət-ənənələrimizi mənimsəməklə cəmiyyətimizin üzvü olmağı öyənir, cəmiyyətin davranış qaydalarını, əxlaq normalarını və qanunlarını qəbul etməyə hazırlaşırdılar.

## DƏFN

Ailə məşiətini məsuliyyətli və ciddi məsələlərindən biri dəfn və yas ilə bağlı mərasimlər və adət-ənənələrdir. Ailə məişətinin digər adət və ənələrindən fərqli olaraq dəfn adətləri din ilə bağlı olduğuna görə cüzi dəyişikliklərə uğramaqla zəmanəmizədək qorunub saxlanılmışdır.

Qədim zamanlardan formalaşmış xalq inamlarına görə, insanın həyatı Allah tərəfindən əvvəllcədən müəyyən edilmiş yolla inkişaf edir. İnsan doğulur, böyüyür, ailə qurur və bir gen taleyin hökmü ilə dünyasını dəyişir. Bütün bunlar, insan hələ ana bətnində olarkən onun alnına həkk olunduğuna görə “alın yazısı” adlandırırlar. Xalq arasında əcəllə bağlı elmdə “alın yazısı” hesab edilirdi.

Azərbaycanda Son Paleolit dövründən başlayaraq zəngin qəbir avadanlıqlarına malik müxtəlif dəfn adətləri olmuşdur. Arxeoloji qazıntılar zamnı Qobustandakı Firuz və Kənizə düşərgələrində aşkar edilmiş iki dəfn abidəsi Azərbaycanın Mezoli-Eneolit dövrü əhalisini kütləvi dəfn adətləri haqqında təsəvvür yaradır. Son Mezolit dövrünə

aid Firuz düşərgəsindəki kütləvi dəfnlə əlaqədar olan abidələr on böyük və bir uşaq skeletinin qalıqları ilə yanaşı, bəzək əşyaları və müxtəlif alətlər də tapılmışdır. Kənizə düşərgəsində aşkar edilmiş Neolit dövrünün sonuna aid qəbirdə də əmək alətləri ilə birlikdə iki kişi və bir qadın dəfn olnumuşdur. [77]

Eneolit dövründə Azərbaycanda ölünü bilavasitə yaşayış yeri ərazisində dəfnetmə adəti varmış. İlk Tunc dövründə isə ölülər yaşayış yerlərində deyi, xüsusi ayrılmış yerlərdə basıdırılırdı. Belə qəbirstanlıqlarda ayır-ayrı nəsillərə, ailələrə məxsus kurqan tipli dəfn abidələri qurulmuşdur. Belə kuranlardan insan skeletləri ilə yanaşı əmək alətləri, bəzək əşyaları, içərisinə azuqə qoyulmuş qab-qacaq da tapılmışdır. [78]

Azərbaycanda İlk Tunc dövrünə aid bəzi kurqanların bir hissəsində ölülər sadəcə dəfn olunduqları halda, digər hissəsində yandırılmışdır. Ölüyandırma (kremasiya) adəti o dövrdə Qafqazın başqa ölkələrində və İraqın şimal bölgələri çıxılmaqla Qədim Şərq ölkələrində yayılmamışdı. Azərbaycanda isə Muğanda aşkar edilmiş Orta Tunc dövrünə aid Əliköməktəpə abidəsində də kremasiya müşahidə edilmişdir. [79]

Azərbaycanda Orta Tunc dövrünə aid qəbir abidələrinin bir qrupu kromlexli (daşdan qurulmuş dairə) kuranlarıdır; Urmiya gölü sahilində, Göytəpə yaşayış yerində və Naxçıvan ərazisində isə daş qəbirlər aşkar edilmişdir. Son Tunc və Dəmir dövrü üçün kurqan, daş qutu və torpaq qəbirlər xarakterikdir. [80]

Atropatena və Albaniya ərazilərində e.ə. III-I əsrlərdə torpaq qəbirlərlə yanфşı, küp qəbirдər də geniş yayılmışdır. İri küplərdə meyit bükülü vəziyyətdə dəfn edilirdi. Kişilər sol, qadınlar isə sağ böyrü üstə dəfn edilmişlər. Küpün içərisinə bəzək əşyaları, yanında isə gil qablar qoyulurdu. Küp qəbirlər üfüqi vəziyyətdə aşkar edilmişlər və heç bir məzarüstü abidlərə malik deyillər. [81]

Orta əsrlərdən başlayaraq müsəlman xalqlarının əskəriyyətində dəfn qaydaları və mərasimləri-mərhumun yuyulması, qüsullanması, kəfənlənməsi, qəbrin quruluşu, ölü nazmaının qılınması, cənazənin məzara endirilməsi, təlqin və islam dininin qanunları ilə müəyyən edilmiş digər adətlər oxşardır, demək olar ki, eynidir və onlar əməl

olunması vacib sayılır. Müstəhəb, yəni yerinə yetirilməsi mütləq vacib hesab edilən bu dənf adətləri ilə bərabər, Azərbaycanda keçmişdə bir sıra yerli mənşəli dəfn adət-ənənələrinə də əməl edilirdi. Həmin adət-ənənələr müstəhəb omasalar da, yenə məcburi hesab edilməsələr də, el arasında mütləq yerin yetirilmiş  və bu günədək qorunub saxlanmışdır.

Hər bir azərbaycanlı ailəsində ölüm yatağında olan xəstə ilə bağlı, onun yaşından asılı olmayaraq müəyyən hazırlıq işləri görülürdü. Ev-eşiyi, həyət-bacanı təmizləyib səliqə-sahmana  salardılar. Xəstə yaşlı olduqda  ona xüsusi qayğı göstərilir, vəsiyyət etməsinə ciddi diqqət yetirilirdi. Xəstə vəsiyyət etdikdən sonra bir tərəfdən ailə üzvlərə arasında münasibətlərə aydınlıq yaranır, digər tərəfdən, xalq  inamına görə vəsiyyət etdikdən sonra xəstə yüngülləşirdi. Xəstənin həyatının son çağlarının yaxınlaşdığını hiss etdikdə, islam dininin tələblərinə uyğun olaraq xəstəni ayaq tərəfi qibləyə olmaqla arxası üstüə uzadar və molla, yaxud axund “Quran” oxuya bilən bir nəfəri çağırardılar. Xəstənin başı üstündə “Quran”ın və “Yasın ” surəsi oxunardı. “Yasın” ucadan oxunardı ki, can verən şəxs onu eşitsin. Xəstə keçindikdən sonra mərhumun gözlərinin qapaqların örtər, çənəsini çəkib bağlayar, əllərini yanına salar, ayaqlarını uzadıb cütlyər  və üzünü  örtrədilər.

Ölüm yatağında  olan şəxsin son nəfəsi çıxan kimi başlanan ağlaşma  el arasnda “şivən” adlanırdı. Adətən, qadınalar ucadan, xüsusi avazala  ağlaşar, kişilər isə səssiz, nadir halda səslə astadan ağlayardılar. “Şivən” mərhumun yaşından, onun ailədə və cəmiyyətdə mövqeyində asılı olaraq,  müxtəlif xarakterili olurdu və cənazə həyətdən çıxana qədər davam edirdi. Mərhumun cənazəsi ortaya qoyulur, ətrafına ən yaxın qohum qadınlar oturub əl-qol hərəkətləri ilə ağı” deyir, özlərini döyə-döyə ağlayar, saçlarını yolar, üzlərini cırardılar.

Rəhmətə gedən ölünün  molla salat  oxumaqla  bütün kəndlərə, qonşulara bidirərdi. Salat səsini eşidən qonşular, qohumlar, kənd camaatı,  şəhərlərində isə məhəllənin kişiləri və qadınları ölü yerinə toplaşar, “Allah rəhmət eləsin!” deyib, mərhumun ailə üzvlərinə başsağlığı verərək dəfn üçün hazırlıq görülməsinə köməklik göstərərdilər. Belə ki, el adətinə görə, dəfn və yas mərasimi təkcə mərhumun ailəsini deyil, bütün el-obanın qayığısı idi. Bu işdə hər kəs

öz bacarığı və imkanı dairəsində köməklik göstərərdi. Dəfn və yasla bağlı bütün köməkliklər könüllü və təmənnasız olurdu.

Mərhum axşamüstü və ya qaranlıq düşəndə keçirnərdisə, onu dəfni sabaha saxlanardı. Sabaha saxlanmış ölünü tək qoymazdılar. Adətə görə yaşlı adamlardan bir neçə nəfər ölünün yanında qalardı və bəzi bölgələrdə mərhum şişməsin deyə, sinəsi üstünə güzgü qoyardılar. [82]

Dəfn günü ilk növbədə qəbiri qazmaq üçün qəbirstanlığa adamlar göndərilərdi. Sonra isə mollanın göstərişi ilə özünün yuyulması mərasimi başlayardı. Meyitin yuyulması üçün müəyyən üsul və qaydalar mövcud idi. Bu üsul və qaydalar toplasına "qüsul" deyilirdi. Qüsl kənd yerlərində mərhumun öz həyətinin bir tərəfində dörd tərəfinə xalça, palaz və yaxud həsir tutulmuş "qüslxana" adlandırılan yerdə, şəhərlərdə isə məscidlərin yanında bu məqsədlə xüsusi düzəldilmiş. Qüslxanalarda icra olunurdu. Hər bir kənddə və məscidin yanındakı qüsulxanalarda ölü yumaqla məşğul olan xüsusi adamlar var idi. Onlara "mürdəşir" deyirdilər.

Qüsl zamanı qəbul edilmiş üsul və qaydalara ciddi əməl olunurdu. Qüsl üç mərhələdə icra olunurdu. Birinci mərhələdə mərhumun boğazından yuxarı üzü, alını, sifəti, burnu və qulaqları sidr tozu qatılmış su ilə yuyulurdu. İkinci mərhələdə mərhumun bədən hissəsi kafur qatılmış su ilə yuyulurdu. Üçüncü mərhələdə meyit təmiz su ilə yuyulurdu. Bu zaman meyidin üstünə başdan ayağadək üç dəfə su tökməklə mərhuma qüsl verilərdi. Bəzi bölgələrdə bu mərhələ "abı-xalis qüsulu" adlanırdı. Qüsl vermə başa çatdıqdan sonra meyidin yeddi nayihəsinə-alnına, sağ və sol əllərinin üstünə, sağ və sol ayaqlarını dizlərinə, sağ və sol ayaqlarını baş barmaqlarına sidr-kafur çəkilirdi.

Mərhuun yuyulması başa çatdırıldıqdan sonra "kəfənləmə" başlanırdı. Kənd yerlərində dünyagörmüş kişilər ömrlərinin sonunun yaxınlaşdığını hiss etdikdə şəhərə gedər, sidr və kafur ilə birlikdə ağ çit də alıb kəfən üçün tədarük görərdilər. Şəhər yerlərində isə belə tədarükə ehtiyac yox idi. Məscidlərin nəzdindəki qüslxanalarda sidr və kafura yanaşı kəfənlik ağ şit də olurdu. Xələt adlanan hissə mərhumun boyundan 40-50 sm. uzun biçilirdi. Köynək və şalvar adlanan hissələr çələtin içərisinə yerləşdirilirdi. Kəfənin hissələri hazır olduqdan sonra

mərhumun cənazəsi pambıqlanıb şalvar və köynəklə örtülür və xələtin üstünə qoyulub bükülürdü. Kəfən baş və ayaqdan həmin parçadan kəsilmiş iplərlə bağlanırdı. Həmin iplərdən cənazənin belindən kəmər kimi də bağlanırdı ki, cənazə qəbirə qoyulan zaman həmin iplərdən tutumaq mümkün olsun.

Yuyulub kəfənləmə başa çatdıqdan sonra mərhumun cənazəsi tabuta qoyulurdu, tabut isə mafənin üstünə yerləşdirilərək qüslxanadan hüzr yerinə gətirilirdi. Ailə üzvləri, qohular və qonşular mərhuma hallalıq verib onunla vidalaşdıqdan sonra mafə həyətdən götürülüb dəfn üçün qəbirstanlığa aparılardı. Mafə qəbirstanlığa aparılarkən adətən görə üç dəfə qaldırılıb yerə qoyular və sonra mərhumun ayaq tərəfi irəli olmaqla, ən yaxın adamlarının çiynidə qəbirstanlığa yola salınardı. Qəbirstanlığa yalnız kişilər gedərdi. Yol boyu kişilər növbə ilə mafənin altına girib  onu qəbirsitanlığa çatdırardılar. Hətta dəfn qafiəsi ilə üz-üzə gələn müsafirlər mafəni altına girər və onu bir qədər apardıqdan sonra "Allah rəhmət eləsin!" –deyib, yollarına davam edərdilər. Dəfn qafiləsini önündən gedən molla "Quran"dan surələr oxumaqla cənazəni qəbirstanlığa qədər müşayiət edərdi. Mafə qəbirstanlığın girəcəyinə yerə qoyulardı və molla bütün qəbirtsanlıq əhli üçün dua oxuduqdan sonra qaldırılıb mərhum üçün qazılmış qəbrin yayına aparılardı. Burada mafə yerə qoyulduqdan sonra hamı mollanın arxa tərəfində durub ölü namazı qılar və mərhumun cənazəsi qəbrə qoyulardı. Cənazəni kəfənin arxa və baş tərəflərindən və belinə bağlanmış kəmərlə tutmaqla dörd nəfər qəbrə sallayar, bir nəfər isə qəbrin içində durub onu nizamlayardı. Cənazə sağ çiyni üstə, üzü qibləyə olmaq şərtilə qəbrin dibində "əhlət" adlanan yerə qoyulardı.

Qəbrin dərinliyi ayrı-ayrı bölgələrdə torpağın xüsusiyyətlərindən asılı olaraq müxtəlif olurdu. Şəriətə görə qadın qəbri bir qədrə dərin qazılırdı. Qəbrin dibində cənazə qoyulacaq əhlət adlanan  yer o qədər dar qazılırdı ki, meyit böyrü üstə qoyulanda  onun divarlarına söykənib aşamasın. Əhlətin sağ və sol divarlarını üstü  qəbrin ümumi divarlarına qədər hamar hazırlanırdı ki, cənazə yerləşdirilmiş əhlətin üstünü örtmək məqsədilə ağac və ya daş lövhələrin uclarını qoymaq mümkün olsun.

Kəfənin ayaq və baş tərəflərinə bağlanmış ipləri və kəməri açmaq və cənazəni yerləşdirib nizama salmaq üçün məzara düşən adam

mərhumun ən yaxın qohumu olmalı idi. Şəriətə görə mərhum kişi cinsindən olardısa, onun oğlu və ya qardaşı, qadın cinsindən olardısa, əri, qardaşı, yaxudda qızının əri məzara düşüb ona son borclarını verərdilər. Şəriətə görə məzara düşən adam başıaçıq və ayaqyalın olmalı idi. [83] Cənazə nizamlanandan sonra molla mərhumun təlqinini verməyə başlardı. Molla təlqin verdikcə mərhumun sağ çiynindən yavaşca silkələyərdi ki, onun ruhu deyilənləri eşitsin. Mərhum qadın olduqda cənazə nizamlanan və təlqin verilən vaxt qəbrin üstünə bir pərə tutulardı. Təlqin bitdikdən sonra məzara düşən şəxs cənazənni ayaq tərəfindən qəbirdən çıxmalı idi. O qəbirdən çıxdıqdan sonra mollanın köməyilə: "Biz hamımız Allaha məxsusuq və onun yanına qayıdırıq"- sözlərini deyib məzara bir ovuc torpaq atırdı. Sonra qəbrin içində əhlətin üstünə ağac, yaxud daş lövhələr düzərək cənazənin üstünü örtərdilər. Lənkəran bölgəsində ağac lövhələr üzərinə həsir də sərilirdi ki, torpaq əhlətin içinə tökülməsin. Digər bölgələrdə isə əhlətin içinə torpaq tökülməsin deyə bütün deşiklər ot, yaxud küləşlə tutulur, palçıqla suvanırdı. Sonra dəfn mərasimini iştirakçıları növbə ilə bir neçə bel torpaq tökməklə qəbrin üstünü basdırırdılar. Bəzi bölgələrdə, xüsusislə torpağı möhkəm olan qəbristanlıqlarda əhlət qəbirini sağ divarını dibində taxca kimi qazılırdı. "Sapma" adlanan belə qəbirlərdə cənazə əhlətə yerlşdirildikdən sonra əhlətin sol tərəfi örtülür və qəbir torpaq ilə doldurulurdu. Qəbrə torpaq tökərkən bel əldən-ələ verilmirdi və yerə atılırdı. Cavanlar bu adəti bilmədikdə ona deyərdilər ki, beli yerə atın. İnama görə beli əldən ələ vermək pis əlamət sayılırdı. Qəbri torpaqla doldurduqdan sonra onu baş tərəfinə mərhumun soyadı, adı, atasını adı yazılmış müvəqqət baş ağacı basıdırdılar. Müvəqqəti baş ağacı basıdırıldıqdan sonra qəbrin üstündəki torpaq qalağı hamarlanır, qutu şəklinə salınır və ortasına dayaz nov açılır. Həmin nova bir bardaq su tökülür, bardaq isə qəbrin üstünə qoyulurdu.

Qəbrin üstünə başdaşı bəzi bölgələrdə mərhumun qırx, bəzi bölgələrdə isə ili tamam olanda qoyulurdu. İslam dini qəbirüstü abidələri təqdir etmədiyinə görə, keçmişdə mərhum üçün qiymətli baş daşları qoyulmurdu. Bir qayda olaraq qəbrin üstü düzəldilir və baş daşına mərhumun soyadı, adı, atasını adı, anadan olduğu və vəfat etdiyi

tarixlər yazılırdı. Yalnız övliyaların və din xadimlərinin üzərində məqbərələr tikilirdi.

Mərhum torpağa tapşırılqdıqdan sonra molla “Quran”ın və “Yasın” surəsini oxuyur və Allahın, peyğəmbərin bu yolla hamı üçün seçdiyini təlqin edən dualar oxumaqla dəfn mərasiminin başa çatdığını bildirirdi. Dəfn mərasiminin iştirakçıları qəbirstanlıqdan çıxarkən də onun kənarında dayanaraq mollanın başçılığı atında bütün qəbirstanlıq əhlinin ruhuna rəhmət oxuyub mərhumun həyətinə qayıdardılar.

Qəbiristanlıqdan qayıdanlara mərhumun həyətində gülab paylanır və mola tərəfindən son fatihə oxunurdu. Molla ənənəyə uyğun olaraq mərhumun yas mərasiminin yeddi gün davam edəcəyini, üçü, yeddisi və qırxı günlərinin nə vaxta düşdüyünü və həmin günlər hamının ehsana dəvət olnuduğunu bildirərdi. Molla eyni zamanda elan edirdi ki, mərhumun qırxına qədər hər cümə axşamı məclis olacaqdır. Sonra molla mərasim iştirakçılarını məclisə dəvət edərdi. Hüzrə gələnlər üçün mərhum qəbirstanlığa yola salındıqdan sonra həyətdə xüsusi olaraq qalmış adamalar tərəfindən düzəldilir və dəfn mərasim iştirakçılarının qəbiristanlıqdan qayıtmalarına qədər sahmana salınırdı. Hüzr üçün qurulmuş məclisə “yas yeri”, bəzi bölgələrdə, o cümlədən Naxçıvan və Qazaxda “mərəkə” deyirdilər. Vaxt sarıdan imkanı olmayanalar mərhumun ailə üzvlərinə üzrxahlıq edib bir daha başsağlığı verərək dağılışır, imkanı olanlar isə keçib məclisdə oturur axundun və yaxud mollanın oxuduğu “Quran” surələrinə və danışdığı hədislərə qulaq asardılar.

El adətinə görə, mərhumun üçünə qədər yas yerində ehsan verilməz və yemək bişirilməzdi, mərhumun yaxın qohumları öz evlərində yemək bişirib hüzr yerinə gətirər və uzaq yerlərdən hüzr yerinə gələnlərə ehsan yeməyi verirdilər. Bəzi bölgələrə mərhumun ilinə qədər yalnız üçündə və qırxında, bəzi bölglərdə isə yeddisi və qırxı günləri ehsan verilərdi. İmkanlı ailələr mərhumun qırxına qədər bütün cümə axşamları da hüzrə gələnlərə ehsan verərdilər. Qeyd olunduğu kimi Azərbaycanın bütün bölgələrindən ailənin maddi imkanından asılı olmayaraq mərhumun ilində ehsan verilər və ənənəyə görə ehsana adamalar dəvət olunardılar. Eyni zamanda mərhumun üçündə və yeddisində, qırxına qədər hər cümə axşamında, qırxında, ilində və

bayram günlərində molla ilə birlikdə qəbirstanlığa gedər və mərhumun qəbri üstündə yasin oxuyardılar.

Yas mərasimlərində kişi və qadın məclisləri ayrı olurdu. Qadın məclisləri üçün bir qayda olaraq xüsusi mərək qoyulmazdı. Məclis mərhumun evində, böyük otaqlardan birində təşkil olunardı. Qadın məclislərində isə ehsan yeməkləri verilərdi. Qadın məclislərində adətən molla olmazdı. Qadın məclisləri ağı deməklə, ağlaşma ilə həyata keçirilərdi. Ağı deyən qadınlarla yanaşı, xüsusi mərsiyəxan qadınlar Kərbəlan faciəsindən, imamaların başlarına gələn vaqiələrdən bəhs edərn mərsiyələri avaz ilə oxumaqla mərasim iştirakçılarını ağladardılar. Bəzi bölgələrdə, o cümlədən Quba bölgəsində qadınlar yas məclislərində mərhumun xüsusən cavan yaşında ölən admalarını paltarlarını evin ortasına sərər, yaxud xonçaya yığıb ağı deməklə ağlaşardılar. Belə ağlaşmalar zamanı çox vaxt aşağıdakı səciyyəvi ağılar deyiərdi:

Bu paltarın dəstinə,
Qırmızı düyməsinə,
Yığılın qurban olaq,
Paltarın yiyəsinə.

Azərbaycan əksər bölgələrində “ağı” adlanan belə mərasim ağlaşmaları Naxçıvan bölgəsində “edi” adlanırdı. Naxçıvanda cana oğulun ölümü ilə bağlı olan qadın mərasim ağlaşmaları “mələşmə” adlanırdı. Görünür, xalq arasında işlədilən “anası mələr qaldı” ifadəsi həmin mərasim ağlaşmasında götürülmüşdür. [85]

Mərhumun ruhuna hörmət əlaməti olaraq yaxın qonşular və qohumlar ona qırx gün yas saxlayar, başlarını və üzlərini qırxdırmaz, qırmızı paltar geyməz, evlərində səs-küylü, musiqili tədbirlər keçirməzdilər. Mərhum cavan olduqda onun ailə üzvləri ili tamam olanadək qara paltar geyər, şadyanalıq etməz və toylara getməzdilər. Qohum və qonşular isə mərhumun ili çıxmamış toy etməli olduqda onun ailəsindən icazə istəməli olurdular. Yaslı ailənin ağsaqqalı və

ağbirçəyi: “Xeyir və şər qardaşdır. Gedin toyunuzu edin!” –deyərək toy sahibinə razılığını bildirər və xeyir-dua verərdi.

Dəfn və yasla bağl mərasimlər “yasdançıxma” mərhələsi ilə bitirdi. Kişi və qadınların yasdançıxma adətləri bir-birindən fərqlənirdi. Kişilərin yasdan çıxması üçün xüsusi mərasim tələb olunmurdu. Sadəcə olaraq ağsaqqalardan biri mərhumun yeddisi, yaxud qırxı çıxdıqdan sonra saqqal saxlamış cavanlara məsləhət edərdi ki, saqqallarını qırxdırıb yuyunsunlar. Bununla da kişilərin yasdançıxma mərhələsi başlayır və mərhumun ili çıxdıqdan sonra toya getməklə bitirdi. Qadlınarın isə yasdan çıxması “Qara bayram” mərasimi ilə bağlı idi. “Qara bayram” mərhumun qırxı çıxdıqdan sonra qarşıdan gələn ilk Novruz, Qurban və Ramazan bayramları ilə əlaqdar keçilirdi. Bayrama bir və ya bir neçə gün qalmış qohumlar və ya yaxın qonşu qadınlar yığışıb qənd, çay, parça və həna kimi bayram sovqatları ilə mərhumun evinə gedirlər. Qənd və çay ağız şirinliyi, parça yasdan çıxma, həna isə şadlıq rəmzi hesab edilirdi. Yaslı ailə gələn qonaqlar üçün qabaqcadan tədarük görürdü. Yığışanlar mərhumu yada salıb bir qədər ağladıqdan sonra “Qara bayram” sahibinin süfrədə açdığı təamlardan yeyir, mərhumun ailəsini qarşıdan gələn bayramını təbrik edib dağılışardılar. “Qara bayram” keçirməkdə məqsəd mərhumun ailəsinə qarşıdan gələn bayramı yasdan çıxmış halda qarşılamaq imkanı veriridi. Beləliklə, qadınların yasdançıxma mərhələsi başlayır və mərhumun ilinin çıxmasınadək başa çatırdı.

